
Rəşid Məmmədov

BEYNƏLXALQ



STATİSTİKA

1999

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Dövlət İqtisad İnstitutu

Rəşid Şamil oğlu Məmmədov
iqtisad elmləri namizədi, dosent

BEYNƏLXALQ STATİSTİKA

947

Ali iqtisad məktəblərin bakalavr təhsil pilləsində "Beynəlxalq iqtisadi münasibətlər" (010100) və magistr pilləsində "Statistika" (010800) ixtisasları üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti

Dərs vəsaitinin nəşrinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 21 aprel 1998-ci il tarixli 277 saylı əmri ilə icazə verilmişdir.

Bakı-1999

Elmi redaktoru: i.e.n. A.İ.Cabbarova

Rəy verənlər: 1. İ.e.d., prof. S.M.Hacıyev
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini, Respublikanın əməkdar iqtisadçısı Ş.A.Məmmədov

Kitabda Beynəlxalq statistikanın əsasları nəzəri və praktiki tətbiq baxımından şərh edilir.

Dərs vəsaiti ali iqtisad məktəblərinin tələbələri, aspirantları və "Beynəlxalq statistika" ilə yaxından tanış olmaq istəyən şəxslər üçün nəzərdə tutulur.

Ön söz

Azərbaycan respublikasının müstəqilliyinin bərpa edilməsi onun beynəlxalq əlaqələrini gücləndirdi. Respublikamızda uçot və statistika işini beynəlxalq standartlara uyğun qurmaqla yanaşı dünyanın inkişaf etmiş ölkələrində və beynəlxalq təşkilatlarda statistikanın təşkili və göstəricilər sistemi ilə yaxından tanışlığa ehtiyac yarandı. Bu isə öz növbəsində ali iqtisad məktəblərində "Beynəlxalq statistika" adlı xüsusi və fundamental fənnin tədrisini zəruri etdi.

Beynəlxalq statistika fənni "Sosial-iqtisadi statistika"nın bir sahəsi olmaqla dünyanın müxtəlif ölkələrində beynəlxalq təşkilatların statistika orqanlarının inkişafının səviyyəsi, quruluşu və inkişafı meyillərini öyrənir. Bu vəzifəni yerinə yetirərkən o, sosial-iqtisadi göstəricilərin beynəlxalq müqayisəsinə və mə"lumatların sistemləşdirilməsinə əsaslanır. "Beynəlxalq statistika" sosial və iqtisadi statistikanın bütün sahələrini əhatə edir.

Beynəlxalq statistikanın yaranma tarixi yüz il əvvəldən başlasa da XX əsrin ortalarından sonra beynəlxalq təşkilat-ların (xüsusi ilə BMT-nin) yaranması onun inkişafını daha da gücləndirdi.

Beynəlxalq statistika orqanlarının yaranması klassik statistikanın tədqiqat üsullarını daha da zənginləşdirdi və göstəricilər sistemini genişləndirdi.

Bu kitab azərbaycan dilində Beynəlxalq statistikaya həsr olunmuş ilk dərs vəsaitidir. Onu hazırlayarkən bu sahədə azərbaycan və rus dillərində əldə edə bildiyimiz jurnal məqalələri, monoqrafiyalar və tövsiyyələrdən, habelə Azərbaycan respublikası DSK-nin materiallarından istifadə olunmuşdur .

"Beynəlxalq statistika" fənninin tədrisi ali məktəb tələbə-lərinin "Ali riyaziyyat", "İqtisadi nəzəriyyə", "Ümumi statis-tika nəzəriyyəsi", "Sosial-iqtisadi statistika" və "Mühasibat uçotu" fənnləri üzrə topladığı elmi biliklərə əsaslanır. Fənnin tədrisi zamanı iqtisadiriyazi üsullardan, müasir hesablama texnikası vasitələrindən geniş istifadə edilir.

Kitabın həcmi nəzərdə tutulduğundan böyük alındığına görə 'Beynəlxalq Milli hesablar sistemi' adlı bölməni buraya daxil edə bilmədik. MHS-nə dair geniş mə'lumat almaq istəyən oxucular bu kitabın müəllifinin 1997-ci ildə nəşr etdirdiyi monoqrafiyaya (Rəşid Məmmədov, Milli hesablar sistemi, Bakı, 1997) müraciət edə bilərlər.

Müəllif kitabın ərsəyə gəlməsinə böyük qayğı ilə yanaşan və əl-yazmalarını hazırlayarkən dəyərli məsləhətlərinə və göməkliyinə görə Azərbaycan Respublikası DSK-nin sədr müavini, respublikanın əməkdar iqtisadçısı Ş.A.Məmmədova, həmin komitənin idarə rəisləri Ə.Mansurova, Y.Qəmbərova və G.İsrafilovaya, həmçinin kitabın mətninin çap variantının kompüterdə hazırlanmasını böyük səbr və

ustalıqla həyata keçirən AzDİİ İHM-nin direktoru Z.Quliyevə öz minnətdarlığını bildirir.

Kitab müəllifin bu sahədə atdığı ilk addım olduğundan yəqin ki, müəyyən qüsurlardan da xali deyildir. Gələcəkdə bu sahədə öz işinin davam etdirmək ümidində olan müəllif kitabça haqqında öz rəy və təkliflərini Azərbaycan Dövlət İqtisad İnstitutunun "Statistika" kafedrasına (Bakı, İstiqlaliyyət küçəsi 6) göndərən oxuculara əvvəlcədən öz minnətdarlığını bildirir.

I FƏSİL
MÜASİR BEYNƏLXALQ STATİSTİKANIN PREDMETİ, METODLARI, VƏZİFƏLƏRİ VƏ TƏŞKİLİ

§ 1.1. "Beynəlxalq statistika" kursunun predmeti, metodları və vəzifələri

Statistika elminin ən qədim sahələrindən biri olan "Beynəlxalq statistika" kursu beynəlxalq miqyasda baş verən ictimai-iqtisadi hadisələri, dövlətlər və regionlararası iqtisadi münasibətləri öyrənən elmdir. Onun predmeti dünyada, ayrı-ayrı regionlarda və ölkələrdə baş verən ictimai-iqtisadi hadisələr və proseslərdir. Buraya ilk növbədə ayrı-ayrı ölkələrdə, regionlarda və dünyada maddi ne"mətlərin istehsalı, istehlakı və bölüşdürülməsi, əmək ehtiyatlarının həcmi, tərkibi, istifadəsi, əmək vasitələri və əmək cisimlərinin yaradılması, istifadəsi, maliyyə vəsaitlərinin mövcudluğu və ölkələrarası inteqrasiyada onlardan istifadə, əhalinin təbii və mexaniki hərəkəti, həyat səviyyəsi, səhiyyəsi, maarifi, mədəniyyəti, ölkələrdə iqtisadi münasibətlər, xarici ticarət və s. aiddir.

Beynəlxalq statistika dünyanın müxtəlif regionlarında və ölkələrində sosial-iqtisadi proseslərin səviyyəsi, quruluşu və inkişafı qanunauyğunluqlarını öyrənir.

Qarşısına qoyulan vəzifələri yerinə yetirərkən Beynəlxalq statistika elminin ənənəvi üsullarından (müşahidə, yekunlaşdırma, quruplaşdırma, indeks, balans, cədvəl və s.), riyazi statistikanın reqressiya və korrelyasiya üsullarından istifadə edir. İş prosesində sosial-iqtisadi göstəricilərin hesablanması metodikasını hazırlayır, bu göstəricilərin sistemləşdirilməsi və beynəlxalq müqayisəliliyini tə"min edir, statistikanın müxtəlif sahələri və kateqoriyalarına aid (əmtəələrin, fəaliyyət sahələrinin, peşələrin, ölüm səbəblərinin və s.) beynəlxalq təsnifatlar hazırlayır.

Dünya ölkələrinin beynəlxalq iqtisadi əlaqələri genişləndikcə və bir çox iqtisadi, siyasi və sosial proseslərin qlobal miqyasda idarə olunmasına ehtiyac yarandıqca bu proseslərin həllində BMT-nin rolu artır. Dünyada, regionlarda və ayrı-ayrı ölkələrdə baş verən sosial-iqtisadi hadisələrin düzgün qiymətləndirilməsi isə vahid metodika ilə toplanmış və sistemləşdirilmiş statistika informasiyanın olmasını tələb edir. Belə informasiyanın toplanması və hazırlanması ilə müxtəlif beynəlxalq və milli təşkilatlar, bürolar, institutlar və iqtisadi assosiasiyalar məşğul olurlar. BMT nəzdində olan bu təşkilatları statistika sahəsində icra etdikləri funksiyaya görə iki qrupa bölür:

1. Statistika metodologiyası və müşahidələrinin proqramını hazırlayan təşkilatlar. Buraya keçmişdə fəaliyyət göstərən statistika

konqresləri və indi də fəaliyyət göstərən BSİ aiddir.

2. Statistika mə"lumatlarını toplayan və işləyən beynəlxalq təşkilatlar. Buraya BMT-nın statistika aparatı, Beynəlxalq Əmək təşkilatı (BƏT), Beynəlxalq Valyuta fondu (BVF), Ümumdünya Səhiyyə təşkilatı (ÜST) və başqaları aiddir.

Onlardan bə"zilərini nəzərdən keçirək:

§ 1.2. BMT-nin statistika orqanları

İrəlidə deyildiyi kimi, ikinci dünya müharibəsindən sonra Millətlər birliyi ləğv edildi və onun əvəzinə BMT yaradıldı. Bu dövrdən etibarən Beynəlxalq statistikanın inkişafında yeni mərhələ başlandı. Bu mərhələdə beynəlxalq miqyasda statistik informasiyanın toplanması, işlənməsi və nəşrinin miqyası xeyli artdı və ümumiyyətlə Beynəlxalq statistikada ciddi keyfiyyət dəyişiklikləri baş verdi. Bu mərhələnin əsas xüsusiyyəti statistika ilə məşğul olan beynəlxalq təşkilatların fəaliyyətinə BMT-nin nüfuzlu orqanı tərəfindən vahid metodoloji rəhbərliyin tə"min edilməsidir.

Beynəlxalq statistika sahəsində əsas fəaliyyət BMT-yə tabe olan qarşılıqlı əlaqədə işləyən BMT-nin Statistika Komissiyası (Statistical commision) və BMT katibliyinin Statistika Bürosu (Statiatical offise) tərəfindən həyata keçirilir. BMT-nin 1946-cı ildə yaradılan Statistika Komissiyası isə BMT-nin İqtisadi və Sosial şurasının ən işlək komissiyalarından biridir. Onun tərkibinə BMT üzvü olan 18 ölkənin təmsil-çiləri daxil edilir, təhlükəsizlik şurasının beş üzvündən (ABŞ, İngiltərə, Fransa, Çin və Rusiya) və Hindistandan başqa onun tərkibi daim dəyişir. Bu Komissiya BMT çərçivəsində metodoloji işlərə rəhbərlik edir. Komissiyanın tövsiyyələri BMT İqtisadi və Sosial şurası tərəfindən nəzərdən keçirilir və təstiq edilir. İqtisadi və Sosial şura üçün əsas sənəd hər sessiyanın yekunlarına dair məruzələrdir və lazım gəldikdə ona müvafiq qətnamə də əlavə edilir.

BMT-nin Statistika Komisciyasında keçmiş SSRİ-ni İ.S. Malışev (1946-1947-ci illər), T.V. Ryabuşkin (1948-1960-cı illər) və A.İ. Yejov (1961-ci ildən sonra) təmsil etmişlər.

İkinci dünya müharibəsindən sonra məhsuldar qüvvələrin sür"ətlə inkişafı, yeni müstəqillilik əldə etmiş və iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrin mövcudluğu iqtisadi statistikanın inkişafına təkan verdi. Ölkələrin iqtisadiyyatına dövlətin müdaxiləsi və beynəlxalq inteqrasiyanın güclənməsi sosial iqtisadi hadisələrə dair e"tibarlı və düzgün informasiyaya tələbatı artırdı.

Belə tələbatın artmasında ikinci dünya müharibəsindən sonra müxtəlif hərbi blokların yaranması, keçmiş SSRİ tərəfindən statistik nəşrlərin xeyli azaldılması və ABŞ tərəfindən öz müttəfiqlərinə

iqtisadi yardım etmək istəyi də səbəb oldu. ABŞ və onun müttəfiqləri Beynəlxalq statistikanın köməyi ilə dünya ölkələrinə və o cümlədən də keçmiş sosialist ölkələrin müxtəlif statistika standartlarını qəbul etdirməklə beynəlxalq orqanları statistika mə"lumatları ilə tə'min etməyə çalışırdılar. Lakin o vaxtlar dünyada iki müxtəlif ictimai sistemin mövcudluğu bu problemin həllinə mane olurdu. Təsadüfi deyildi ki, belə statistika yarandıqdan sonra Beynəlxalq statistika orqanlarının necə təşkil olunacağı barədə uzun müddət mübahisə aparıldı. ABŞ və onun müttəfiqləri bu orqanların əsas vəzifəsini statistik informasiyanın hazırlanması hamı üçün məcburi olan standartların müəyyən edilməsində görürdülər. Keçmiş sosialist ölkələri (xüsusilə də keçmiş SSRİ) isə ölkələr arasında təcrübə mübadiləsinin və müqayisəliliyin tə"min edilməsinin zəruriliyini etiraf etməklə BMT orqanlarının statistik informasiya ilə tə"min edilməsini BMT üzvü olan ölkələrin öz ixtiyarına verilməsini məqsədəuyğun hesab edirdilər. Lakin bu qarşıdurma bir qədər sonra aradan götürüldü. Statistika Komissiyasının tövsiyyələrinin məcburi olması prinsipi BMT üzvü olan ölkələrin təcrübə mübadiləsi və mə"lumatların müqayisəliliyinin tə"min edilməsi istiqamətində iş aparması prinsipi ilə əvəz edildi.

BMT Statistika Komissiyasının da əsas iş forması 1-2 ildən bir çağrılan sessiyalardır. Həmin sessiyalarda Komissiyanın üzvü olan dövlətlərdən əlavə BƏT, BVF, ÜST, Yunesko, BMT-nin ərzaq və kənd təsərüfatı təşkilatı (ƏKTT) və s. kimi ixtisaslaşdırılmış idarələrin, habelə məsləhətçi statusu ilə Beynəlxalq ticarət palatası, Sərbəst həmkarlar ittifaqlarının ümumdünya təşkilatı, Beynəlxalq statistika İnstitutu, Amerika ölkələrarası Statistika institutu və başqa təşkilatların təmsilçiləri də iştirak edirdilər.

Mövcudluğunun ilk illərində Statistika Komissiyasının nəzdində seçmə müşahidəsi üzrə xüsusi yarımkomissiya, statistika təsnifatları üzrə komitə və başqa alt qruplar yaradılmışdı.

Statistika Komissiyasının işi statistika metodologiyasının hazırlanmasında ayrı-ayrı ölkələrin təcrübəsini təhlil etmək, mə"lumatların müqayisəliliyini və beynəlxalq standartların yaxşılaşdırılması və zəif inkişaf etmiş ölkələrin milli statistikalarına yardım etmək istiqamətində həyata keçirilirdi.

BMT-nin Statistika Bürosunun vəzifəsi Statistika Komissiyası üçün bütün materialları hazırlamaq, metodoloji mə"ruzə və standartların son tamamlama işlərini həyata keçirmək, statistika məsələlərinə dair ayrı-ayrı ölkələrin və təşkilatların rə"ylərini toplamaq və onları işləmək, Beynəlxalq statistikanı aparmaq üçün milli statistika mə"lumatlarını toplamaq, işləmək və müxtəlif nəşrləri həyata keçirməkdən ibarətdir.

BMT-nin mərkəzi aparatının nəzdində kənd təsərüfatı və əmək

statistikasından əlavə statistikanın başqa sahələri ilə məşğul olan bölmələr mövcuddur. Kənd təsərrüfatı və əmək statistikası ilə isə BMT-nin xüsusi ixtisaslaşmış idarələri (BMT-nin Beynəlxalq ərzaq və kənd təsərrüfatı təşkilatı, Beynəlxalq Əmək Tikinti məşğul olurlar).

Statistika bürosu həm də BMT-nin illik statistika külliyatını, aylıq statistika bülletenini, illik demoqrafiya məcmuəsini, Beynəlxalq Ticarət statistikasına aid illik məcmuəni, milli hesablar sistemi üzrə illik məcmuəni və cari iqtisadi göstəriciləri nəşr etdirir, BMT-nin illik və aylıq nəşrlərini əhaliyə satır, sənaye, kənd təsərrüfatı və nəqliyyatda işçi qüvvəsi, qiymətlər, milli gəlir, maliyyə və mədəniyyət statistikasına aid mə"lumatlar verirlər.

İllik demoqrafiya məcmuəsində ayrı-ayrı ölkələrin ərazisi, əhalisinin sayı və sıxlığı, doğum və ölüm əmsalları və milli əhali siyahıyaalmalarına əsasən əhalinin tərkibinə dair mə"lumatlar verir.

Milli hesablar sisteminə dair hər il buraxılan məcmuədə ayrı-ayrı ölkələrdə milli məhsul, milli gəlir, maliyyə, kapital qoyuluşları, şəxsi istehlak, ödəniş balansı və s. haqqında mə"lumat verilir.

Yuxarıda adları çəkilənlərdən başqa statistika bürosu "Statistika sənədləri" adlı çox seriyalı (A, V, S, D, E, N, Y, K, M, T, Ğ və s.) işləri nəşr etdirir. Bu seriyaların hər biri statistikanın müxtəlif problemlərinə həsr olunur. Məsələn, M seriyasında statistika metodologiyası və standartlara dair tövsiyyələr və bu məsələyə dair müxtəlif təşkilatların rə"yləri çap edilir. Ğ seriyasında metodoloji tədqiqatlar, əhali siyahıyaalınmasının keçrilməsi sahəsində ayrı-ayrı ölkələrin təcrübəsi və başqa tipli mə"lumatlar verilir.

Əhali statistikası ilə BMT-nin statistika komissiyasından əlavə BMT-nin İqtisadi və Sosial şurasının Əhali sakinliyi komissiyası tərifindən də öyrənilir. Demoqrafiya və Əhali statistikası şö"bələrinə rəhbərlik edən bu komissiya dünyanın müxtəlif ölkələrində əhalinin sayı və tərkibini, demoqrafik, iqtisadi və sosial amillərin qarşılıqlı əlaqəsini, müxtəlif ölkələrdə əhalinin sayı və tərkibinə tə"sir edən tədbirləri və onların həyata keçirilməsi nəticəsində baş verən dəyişiklikləri öyrənir.

Son dövrlərdə Beynəlxalq statistika sahəsində regional iqtisadi komissiyaların yerinə yetirdiyi işlərin həcmi artmaqdadır. Bu baxımdan Avropa İqtisadi komissiyasının işi daha önəmlidir. Bu komissiya nəzdində Avropa statistiklərinin daimi fəaliyyət göstərən təşkilatı yaradılmışdır. 1953-cü ildən başlayaraq hər il Cenevrədə Avropa statistikləri konfransının plenar sessiyaları keçrilir. Konfransa rəhbərlik BMT-nin Statistika Komissiyası və Avropa İqtisadi Komissiyası tərəfindən həyata keçirilir.

Konfransın işində Avropa İqtisadi Komissiyasının üzvü olan ölkələr

və ABŞ iştirak edir. Konfransın vəzifəsi müxtəlif dövlətlərin təqdim etdikləri statistika mə"lumatlarının keyfiyyətini yaxşılaşdırmaq, beynəlxalq miqyasda onların müqayisəliliyinə nail olmaq və statistika göstəricilərinin standartlarının hazırlanmasında beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdən də ibarətdir.

Avropa statistikləri konfransı sahə komitələrinin (dağ-mə'dən sənayesi, metallurgiya, kömür, elektrik enerjisi, kənd təsərüfatı və s.) fəaliyyətini əlaqələndirir.

BMT-nin Asiya və Uzaq Şərq üçün İqtisadi Komissiyası da az iş görmür. Bu Komissiya Asiya və Uzaq Şərq statistiklərinin konfransını (daimi fəaliyyət göstərən orqan kimi) çağırır. Bu konfranslarda Asiya və Uzaq Şərq ölkələrinin İqtisadi Komissiyasının üzvü olan ölkələr (o cümlədən ABŞ, İngiltərə, Fransa, Rusiya və Çin) iştirak edirlər. Bu konfransın vəzifəsi Avropa ölkələri İqtisadi Komissiyasının vəzifələrinə uyğundur.

Asiya və Uzaq Şərq ölkələri statistiklərinin İqtisadi konfransının seçmə müşahidəsi və kapital qoyuluşları statistikası üzrə yerinə yetirdiyi işlər, habelə iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələri Beynəlxalq statistika üzrə standartlarının hazırlanmasında olan xidmətləri diqqət cəlb edir.

Latın Amerikası ölkələrində statistika fəaliyyətinin kordinasiyası Amerika ölkələr arası institut tərəfindən həyata keçirilir. 1940-cı ildə əsası qoyulmuş bu institut Beynəlxalq Statistika İnstitutunun üzvü olmaqla BMT İqtisadi və sosial şurasında məsləhətçi statusuna malikdir.

Ən gənc regional orqan Afrika ölkələri statistiklərinin Konfransıdır. Bu konfrans BMT İqtisadi konfransının daimi köməkçi orqanıdır.

§1.3. BMT nəzdində olan ixtisaslaşdırılmış təşkilatların statistika orqanları

BMT nəzdində olan ixtisaslaşdırılmış idarə və təşkilatların (BMT beynəlxalq əmək təşkilatı, Beynəlxalq ərzaq və kənd təsrüfatı təşkilatı, Yunesko, Beynəlxalq Valyuta fondu və s.) statistika orqanları da Beynəlxalq statistikanın ayrı-ayrı sahələri üzrə böyük işlər aparırlar.

BƏT-nin əsas iş orqanı Beynəlxalq Əmək bürosudur (International labour office). 1919-cu ildə Millətlər cəmiyyəti nəzdində yaradılmış BƏT-nin ali orqanı hər 2-3 ildən bir çağırılan baş Konfransıdır.

BƏT-nin Beynəlxalq statistika sahəsindəki fəaliyyəti əhalinin məşğuliyyəti, əmək haqqı, sosial tə"minatı, istirahəti, əmək mübahisələri və müəyyən dərəcədə statistika mə"lumatlarının Beynəlxalq müqayisəliliyinin tə"min edilməsinə yönəldilmişdir. Beynəlxalq Əmək

bürosunun statistika şö"bəsi işçisi qüvvəsi, işsizlik, əmək məhsuldarlığı, əmək haqqı, peşə hazırlığı, istehlak mallarının pərakəndə qiymətləri, istehsal travmatizmi (zədələr), sosial tə"minat, əmək mübahisələri, həyat səviyyəsi və s. məsələlərə dair statistika mə"lumatları toplayıb sistemləşdirərək nəşr etdirir. Bunlardan əlavə inkişaf etmədə olan ölkələrdə əmək statistikasının təşkili və təkmilləşdirilməsini (məsləhət vermək, seminarlar keçirmək və s. yolu ilə) köməklik etmək də bu şö"bəyə tapşırılmışdır.

Beynəlxalq Əmək Bürosu hər il BƏT üzvü olan ölkələr üzrə "Əmək statistikası" külliyyatını, rüblük "Əmək statistikası bülleteni"ni və "Statistika göstəricilərinin hesablanması üzrə Texniki rəhbərlik" adlı tə"limat toplusunu nəşr etdirir.

BƏT peşələrin Beynəlxalq təsnifatına yenidən baxmış, istehlak mallarının qiymət indekslərinin hesablanmasına dair yeni beynəlxalq tövsiyyələr hazırlamış, qadınların və gənclərin vəziyyətinə dair müxtəlif təhlillər aparmışdır.

BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatının statistika şö"bəsi də Beynəlxalq statistika sahəsində iri miqyaslı işlər yerinə yetirir. Bu şö"bənin yerinə yetirdiyi işlər arasında "Kənd təsərrüfatı siyahıya alınmalarının keçirilməsinə dair beynəlxalq standartlar və tövsiyyələr"in xüsusi əhəmiyyəti vardır. Bundan əlavə şö"bə ərzaq və kənd təsərrüfatı statistikasına dair illik statistika külliyyatını, iqtisadi və kənd təsərrüfatı statistikasına dair aylıq bülletenin, meşə məhsulları və balıqçılığa dair illik statistika məcmuələrinin nəşrini həyata keçirir.

1944-cü ildə yaranmış Beynəlxalq Valyuta Fondunun (BVF) əsas vəzifəsi öz üzvləri ilə (buraya 150-dən çox ölkə daxildir) məsləhətləşmələr əsasında Beynəlxalq Valyuta məsələlərini öyrənmək və BVF-nun üzvləri olan ölkələrə öz valyuta-maliyyə problemlərini həll etmək üçün kredit verməkdən ibarətdir. Bu təşkilat öz fəaliyyətini həyata keçirmək üçün Beynəlxalq ödənişlər, inflyasiya, valyuta kursları, qızıl-valyuta ehtiyatlarının həcmi, pul tədavülü və bank fəaliyyəti, beynəlxalq kommersiya və maliyyə əməliyyatları, qiymətlər, istehsal, faiz stavkaları (dərəcələri) və sairəyə dair statistika mə"lumatlarını toplayır, sistemləşdirir və nəşr etdirir.

BMT-nin təhsil və mədəniyyət məsələlərinə baxan ixtisaslaşmış təşkilatı-YUNESKO dünya miqyasında çap mə"mulatları, təhsil və mədəniyyət statistikasına dair mə"lumatlar toplayır, metodik tövsiyyələr hazırlayır və çap etdirir.

Tibbi və sanitariya statistikası ilə əlaqədar məsələlər BMT-nin Beynəlxalq Səhiyyə Təşkilatı (BST) tərəfindən öyrənilir.

Beynəlxalq statistikanın inkişafında 1949-cu ildə sosialist sistemi ölkələri tərəfindən yaradılmış Qarşılıqlı İqtisadi Yardım Şürası (QİYŞ) təşkilatının (Şura katibliyinin statistika şö"bəsi və QİYŞ-nın statistika üzrə daimi komissiya) statistika orqanlarının da xüsusi rolu olmuşdur. Bu təşkilat QİYŞ üzvü olan ölkələrin statistika mütxəssislərindən ibarət olan işçi qruplarda beynəlxalq statistikanın mühüm problemlərinə (milli gəlir, istehlak, yığım, kapital qoyuluşları və s.) dair metodik məsələləri müzakirə edilmiş, QİYŞ ölkələrində xalq təsərrüfatının, əhalinin maddi və mədəni həyat səviyyəsinin inkişafını əks etdirən əsas göstəricilər sistemi və onların hesablanmasına dair metodik əsaslamələr hazırlanmışdır QİYŞ ölkələrinin statistika orqanları Beynəlxalq statistikada ilk dəfə olaraq ixtisaslaşma və kooperativləşmələrin səviyyəsi və dinamikasını səciyyələndirən əsas göstəricilər sistemini hazırlamışlar.

Statistika göstəricilərinin müqayisəliliyi şərtləri, məhsulların Beynəlxalq nominallarının və statistikanın başqa məsələlərinə dair metodik göstəricilər Beynəlxalq kordinasiyanı xeyli asanlaşdırmışdır. Dünya sosialist sistemi dağıldıqdan sonra bu təşkilat öz fəaliyyətini dayandırmışdır.

§ 1.4. Dünyanın inkişaf etmiş ölkələrində statis-tikanın təşkili

Dünyanın bütün dövlətlərində, o cümlədən də iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində geniş statistika orqanları şəbəkəsi fəaliyyət göstərir. İnkişaf etmiş ölkələrin statistika orqanları öz fəaliyyətlərini inhisarlar tərəfindən maksimum mənfəət əldə edilməsi üçün iqtisadi konyunkturanı öyrənmək, dövlət inhisar tənzimlənməsini həyata keçirmək, büdcəni tərtib etmək, vergiyə cəlb etmə və fiksal fəaliyyət həyata keçirmək tələblərinə uyğun tənzimləyirlər. Müasir texnika ilə silahlanmış belə dövlət statistika orqanları dövlətin iqtisadi, sosial və hətta siyasi məsələlər üzrə dövlət siyasətini müəyyənləşdirmək üçün statistik baza hazırlayırlar.

Dünyanın inkişaf etmiş dövlətlərində statistikanın funksiyası eyni olsa da hər bir ölkədə onun təşkili formasında özünəməxsus fərqlər vardır.

ABŞ-da federal dövlət adından statistika mə"lumatlarının toplanması və işlənməsi ilə onlarla idarə və təşkilat məşğul olur. ABŞ-ın rəsmi statistika orqanları sırasına Ticarət nazirliyinin sosial və iqtisadi statistika idarələrinə tabe olan Senzlər Bürosu və İqtisadi Təhlil Bürosu, Əmək nazirliyinin Əmək Statistikası bürosu və başqaları aiddir.

Almaniyada statistika işlərinə Daxili İşlər nazirliyinin tərkibində olan Federal Statistika İdarəsi rəhbərlik edir.

Fransada dövlət statistikasını mərkəzləşdirilməmiş orqanlarının işini Maliyyə və İqtisadiyyat nazirliyinin Milli Statistika və İqtisadi

Tədqiqatlar İnstitutu istiqamətləndirir.

Böyük Britaniyada, İtaliyada, Kanadada və başqa ölkələrdə dövlət statistika sisiteminə əlaqələndirici mərkəz kimi Mərkəzi Statistika İdarəsi rəhbərlik edir.

Statistika orqanlarının mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş formada təşkilindən asılı olmayaraq bə"zi Qərbi Avropa ölkələrində statistika işlərinin vahid metodologiya üzrə hesablanması ən ciddi problemlərdən biri hesab edilir.

Dünyanın inkişaf etmiş ölkələrində statistika mə"lumatlarının alınmasının əsas üsulu, adətən anket üsulu ilə keçirilən siyahıyaalmalar və tədqiqatlardır.

Dünya ölkələrinin bir çoxunda rəsmi dövlət statistikası ilə yanaşı xüsusi konpaniyalara xidmət edən və habelə rəsmi statistikanın sifarişlərini yerinə yetirən xüsusi (qeyri-rəsmi) statistika orqanları da fəaliyyət göstərir. Məsələn, Almaniyada rəsmi statistikaya aiddir:

1. Statistika işlərinin aparılması üçün dövlət aparatından ayrılmış xüsusi idarə (məsələn, federal statistika idarəsi, federal torpaqlarının statistika idarəsi, bələdiyyə statistika orqanları);
2. İdarə və təşkilatların nəzdnində yaradılmış və statistika işləri ilə məşğul olan bölmələr.

Rəsmi statistikanın əsas xüsusiyyəti hər şeyən əvvəl müşahidələri qanuna və ya başqa hüquqi sənədlərə əsaslanaraq aparmasıdır. Bu cəhət mə"lumat verməli olan respondentləri lazım gəldikdə məcbur etməyə və ayrı-ayrı respondentlərə aid olan mə"lumatları məxfi saxlamağa imkan verir. Rəsmi dövlət statistika orqanları öz müşavirələrinin çoxunu sosial-iqtisadi statistika sahəsində aparır.

Qeyri rəsmi statistika ilə məşğul olan statistika orqanları aşağıdakılardır:

1. İqtisadi ittifaqlar və birliklər;
2. Həmkarlar, partiya və başqa birliklərin elmi-tədqiqat iqtisadiyyat institutları (məsələn: Həmkarlar ittifaqının Elmi-Tədqiqat sosial-iqtisadi institutu (WST), Alman sənayesinin Federal birliyi institutu (DI) və s.);
3. Bazarın, ictimai rə"yin öyrənilməsi və sorğuların aparılması üzrə elmi-tədqiqat institutu;
4. Ümumi iqtisadi inkişafın təhlili üzrə məşğul olan Ekspertlər şürası;
5. Sərbəst təşkilat kimi yaranmış və hüquqi qaydada qeydə alınmış Elmi-tədqiqat iqtisadiyyat institutları (məsələn: Münxendə və Reyndə yaradılmış Alman Elmi-tədqiqat iqtisadiyyat institutları).

Qeyri-rəsmi statistika orqanları adətən xüsusi məqsədlər üçün rəsmi statistikanın mə"lumatlarını təhlil edir.

Nəzarət üçün suallar

1. *'Beynəlxalq statistika' kursu nəyi öyrənir?*
2. *Kursun metodları hansılardır?*
3. *Beynəlxalq statistika orqanları hansılardır?*
4. *Dünyanın inkişaf etmiş blkələrində statistika necə təşkil olunmuşdur?*

II FƏSİL
BEYNƏLXALQ STATİSTİKANIN TARİXİ

§ 2.1. Beynəlxalq statistikanın yaranması və onun təşkilində Beynəlxalq statistika konqreslərinin rolu

Beynəlxalq statistikanın yaranma tarixi XIX əsrin ortaları hesab edilir. Avropanın inkişaf etmiş ölkələrində və ABŞ-da kapitalizmin məhsuldar qüvvələrin yüksəldiyi bu dövr eyni zamanda sosial-iqtisadi statistikanın inkişafı dövrünə təsadüf edir, statistika tədqiqatlarının elmi problemlərinin hazırlanmasına və müvafiq statistika orqanlarının yaranmasına tələbat Beynəlxalq statistika konfranslarının və qurultaylarının çağırılmasına təkan verdi. Məhz elə buna görə də Beynəlxalq statistikanın ilkin təşkilat forması Beynəlxalq statistika konqresləri hesab edilir.

Məhşur Belçika statistiki Adolf Ketlenin təşəbüsü ilə 1853-cü ildə Brüsseldə keçirilən ilk konqresdə 25 ölkədən gəlmiş 150 tanınmış statik-alim iştirak etmişdir Onların arasında Engel, Porter, Yanson, Semyonov-Tyan-Şanski kimi tanınmış statistiklər də var imiş. Sonradan belə konqreslər təqribən 2-3 ildənbir müntəzəm olaraq (1855-ci ildə Parisdə, 1857-ci ildə Vyanada, 1860-cı ildə Londonda, 1863-cü ildə Berlində, 1867-ci ildə Parisdə, 1869-cu ildə Praqada, 1876-cı ildə Budapeşdə və1882-ci ildə Peterburqda) keçirildi. Bu konqreslərdə statistikanın mühüm nəzəri və praktiki məsələlərinin, tədqiqat proqramları və göstəricilərin hesablanma metodları müzakirə olunurdu. Bu konqreslərin qəbul etdiyi tövsiyyələr aparılan müqayisələrdə dünyanın bütün ölkələrində eyni proqramla və eyni metodlarla keçirilməsinin əsasını qoydu. Bundan əlavə həmin tövsiyyələr statistika elminin daha da inkişafına və statistika praktikasının təkmilləşdirilməsinə səbəb oldu .

Ayrı-ayrı ölkələrdə statistikaya dair nəşrlərin sayı artdı, dövlətlər arasında statistika ədəbiyyatlarının mübadiləsi genişləndi. Sənaye və əhali siyahıyaalınmalarının keçirilməsi və əldə edilmiş mə"lumatların işlənməsi daha da təkmilləşdirildi. Sənaye, kənd təsərrüfat və ticarət statistikası sahələrində müəyyən müvəffəqiyyət əldə edildi. Statistikanın dəmir yolu, bank və kredit təşkilatının stabilləşməsi kimi yeni sahəsi yarandı. Konqresin tövsiyyələrinə uyğun əsas yarandı. Bir çox ölkələrdə statistika yeni əsaslar üzərində quruldu.

Bu konqreslərin ən mühüm nailiyyətlərindən biri də Beynəlxalq statistikaya dair mə"lumatların nəşrinə başlanması hesab edilir.

Siyahıyaalınmaların keçirilməsinə dair metodoloji təklif işlənib hazırlansa da ilk sənaye siyahıyaalınması 1887-ci ildə Almaniyada və 1907-ci ildə İngiltərədə keçirildi.

Rusiyada statistikanın inkişafında böyük xidmətləri olan Zemstvo statistikası da bu dövrdə (1870-ci ildə) Vyatka quberniyasında yarandı. Həmin dövrdə Yansonun yazdığı kimi, İngiltərə və İrlandiya kimi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı yox dərəcəsində idi.

1872-ci ildə Peterburqda keçirilmiş konqresdə əvvəlki konqreslərin qərarlarının yerinə yetirilməsini yoxlamaq və konqreslər arasındakı dövrlərdə cari məsələləri müzakirə etmək üçün daimi komissiya (Commision Permanente Statistique) yaradıldı. Semyanov-Tyan-Şanski həmin komissiyanın sədri seçildi. Bu komissiya 1873-cü ildə Vyanada, 1874-cü ildə Stokholmda, 1876-cı ildə Budapeşdə və 1878-ci ildə Parisdə öz toplantılarını keçirdi. Bununla da Beynəlxalq statistikanın yaranma və təşəkkül dövrü başa çatdı.

XIX əsrin 70-ci illərində Avropada irticaçı xarici siyasətin güclənməsi nəticəsində beynəlxalq münasibətlər və əməkdaşlıq xeyli zəifləndi. Bu isə öz növbəsində Beynəlxalq statistikanın fəaliyyətinə və inkişafına mənfi təsir göstərdi və konqres öz işini dayandırdı. Beynəlxalq əməkdaşlıqdan ilk imtina edən alman statistikləri oldular. Buna baxmayaraq statistikanın bir çox sahələrində ümumi metodoloji məsələlərinin işlənib hazırlanmasında konqreslərin əhəmiyyəti əvəzedilməzdir. Konqreslərin bu dövrlərdə hazırladığı tövsiyyələr sonradan daha da inkişaf etdirilərək beynəlxalq statistika təcrübəsində istifadə edildi.

Əhalinin siyahıyaalınmalarının hər 10 ildənbir "adbaad və daimi əhaliyə əsasən keçirilməsi" prinsipi 1853-cü ildə Brüsseldə keçirilən konqresdə qəbul edilmişdi.

1860-cı ildə Londonda və 1872-ci ildə Peterburqda keçirilən konqresdə isə siyahıya alınmanın kritik anının və mümkün qədər tez keçirilməsinin zəruriliyi müəyyən edildi. Bütün dünya ölkələrində əhali siyahıyaalınmaları zamanı bu prinsiplərə indi də əməl edilir. Bundan əlavə 1876-cı ildə keçirilən Budapeşt konqresi əhali siyahıyaalınmasının müasir proqramına yaxın olan proqramı, Paris konqresi (1855-ci il) ölüm səbəblərinin siyahısını, Peterburq (1872-ci il) konqresi isə cinayətlərin siyahısını işləyib hazırladı.

Sənaye statistikasına aid bir sıra metodoloji məsələlərin işlənib hazırlanması, xüsusilə də sənaye siyahıya alınmalarının keçirilməsinə dair Vyana (1857-ci il) və Peterburq (1872-ci il) konqreslərinin tövsiyyələri öz zamanına görə çox mütərəqqi idi. Həmin dövrdə sənaye siyahıyaalınmalarının aparılmasında nəzərdə tutulan bir sıra mə"lumatlar hal-hazırda da qərb ölkələrində toplanılır. Məsələn, ayrı-ayrı sahələrin, müəssisələrin, rayonların və ölkələrin qarşılıqlı əlaqəsini qiymətləndirərkən xammal və materialların haradan daxil olmasının böyük əhəmiyyəti var. Nəzərə almaq lazımdır ki, sənaye sahələrinin dəqiq təsnifatı mühərriklərin təsnifatı. iri və kiçik sənaye

müəssisələrini ayırmaq üçün dəqiq senzlər, habelə bir sıra göstəricilərin hesablanma üsulları da hələ o vaxt işlənib hazırlanmışdı.

Sənaye siyahıyaalınmalarına dair konqreslərin hazırladığı proqramın bir hissəsi 1900 və 1908-ci illərdə Rusiyada keçirilmiş siyahıyaalınmalarında istifadə olundu. Bu proqramların bir hissəsi isə 1880-ci və 1890-cı illərdə ABŞ-da, 1882-ci, 1895-ci və 1907-ci illərdə Almaniyada aparılan sənaye siyahıyaalınmalarında istifadə olundu.

Yuxarıda göstərilən illərdə Almaniyada keçirilən sənaye siyahıyaalınmaları nəticəsində məşğuliyyəti olan əhalinin peşə tərkibi haqqında topladığı mə"lumatlar öz zəmanəsi üçün çox əhəmiyyətli idi. Belə siyahıyaalmalar 1925-ci və 1939-cu illərdə də keçirildi. Lakin bu siyahıyaalmaların proqramında müəyyən qüsurlar var idi. Məsələn, yuxarıda göstərilən siyahıyaalmaların məqsədi əhalinin məşğuliyyətini öyrənmək olduğuna görə istehsal edilən məhsulun həcmi, dəyəri və sairəyə aid başqa mə"lumatlar toplanmırdı.

1898-ci ildən başlayaraq ABŞ-da əvvəlcə hər on ildən bir, sonra isə hər beş ildən bir emal edici sənayenin, 1907-ci ildən sonra isə Almaniyada hər il dağ-mə"dən, ağır sənaye, dəmir yolu və başqa sahələrin siyahıyaalınmaları aparıldı.

Bu dövrün əsas xüsusiyyətlərindən biri sənaye siyahıyaalınmalarının dünyanın bütün ölkələrində müntəzəm aparılmaması idi. Məsələn, belə siyahıyaalınma İngiltərədə 1907-ci ildə aparıldı, Fransada isə onun aparılması üçün hazırlıq görüldü. İngiltərə, Fransa, İtaliya, Yaponiya və bir çox başqa ölkələrdə sənaye siyahıyaalmalarının keçirilməsi ikinci dünya müharibəsindən sonra müntəzəm hal aldı.

Hindistan, Birləşmiş Əmək Əmirlikləri və başqa iqtisadi cəhətcə az inkişaf etmiş ölkələrdə statistika fəaliyyətinə başlandı.

Beynəlxalq statistikanın mövcudluğunun ilk mərhələsində keçirilən konqreslərdə kənd təsərrüfatı statistikası sahəsində də böyük işlər görüldü. 1857-ci ildə keçirilən Vyana konqresində mülkiyyətçilərin sayı, torpaq sahəsi, malikanələrin və xalis məhsulun həcminə görə qruplaşdırılması və s. göstəricilərin hesablanması qaydaları müəyyən edildi.

1869-cu ildə keçirilən Haaqa konfransında isə torpaq proqramı müəyyən edildi. Həm də konqres tərəfindən tövsiyyə edildi ki, yaxın on ildə kənd təsərrüfatının tədqiqi zamanı bitkilər üzrə əkin sahələri və yığılan məhsulun həcmi, torpağın gübrələnməsi üsulları, kənd təsərrüfatı fəhlələrinin sayı və əmək haqqı, növlər üzrə mal-qaranın sayı və onlardan alınan məhsullar, istifadə edilən materialların sayı və növü haqqında mə"lumat toplanılsın.

Beləliklə, birinci mərhələdən sonra birinci dünya müharibəsi başlananadək keçən təqribən 45-50 il ərzində Beynəlxalq statistika kon-

qresləri keçirilməsə də onun tövsiyyələri siyahıyaalmaların keçirilməsi və statistika göstəricilərinin təkmilləşdirilməsi istiqamətlərində həyata keçirildi.

§2.2. Millətlər cəmiyyəti yanında ixtisaslaşdırılmış təşkilatların statistika fəaliyyəti

Rəsmi olaraq 1919-1946-cı illərdə mövcud olan Millətlər birliyi indiki BMT-nin sələfidir. Bu beynəlxalq təşkilatın fəaliyyətində yol verilmiş qüsurlara baxmayaraq Beynəlxalq statistikanın inkişafı istiqamətində xeyli iş görmüşdür. Məsələn, Millətlər birliyinin iqtisadiyyat və maliyyə şö"bəsi 1919-cu ildə statistika sahəsində beynəlxalq əməkdaşlıq məsələlərinə dair konfrans çağırmışdır. Bu konfransın qəbul etdiyi qətnaməyə əsasən statistika mə"lumatlarının toplanması və işlənilməsində paralelizmi aradan qaldırmaq üçün beynəlxalq təşkilatların funksiyası dəqiqləşdirildi. Qərara alındı ki, bundan sonra demoqrafiya statistikası ilə Beynəlxalq statistika İnstitunun daimi bürosu, bank statistikası ilə Beynəlxalq Əmək Bürosu, Kənd təsərrüfatı statistikası ilə Beynəlxalq Aqrar İnstitutu, Sosial iqtisadi statistikanın başqa hissələri ilə isə Millətlər Birli-yinin statistika aparatı məşğul olsun.

1922-ci ildə Genuyada keçirilən iqtisadi konfransda Beynəlxalq statistika göstəricilərinin vahid prinsiplər üzrə hesablanması tövsiyyə edildi. Bu konfransda beynəlxalq statistika göstəricilərinin hesablanmasının sadələşdirilmiş üsullarını öyrənən Komissiya yaradıldı. Həmin Komissiyanın hazırladığı məruzələr 1923-cü ildə Brüsseldə,1925-ci ildə Romada və 1927-ci ildə Qahirdə çağırılan sessiyada müzakirə olundu.

Zəmanəsinin tanınmış statistikləri olan Risey, Julen, Ryu, Mark, Metxoret, Flyuns və başqalarının iştirakı ilə 1928-ci ildə Cenevrədə çağırılan iqtisadi statistika üzrə konfransda tövsiyyə edildi ki, hər bir ölkə dünya və ayrı-ayrı ölkələrin iqtisadiyyatının vəziyyəti və təşəkkülünə dair statistika mə"lumatlarına malik olmalıdırlar. Bu konfransın iqtisadi statistikaya dair qəbul etdiyi konvensiya, protokol və yekun aktına əsasən dünyanın bütün ölkələri müəyyən edilən müddətdə öz iqtisadiyyatlarına dair statistika mə"lumatları dərc etdirməyə borcludurlar.

Konfrans xarici ticarət, kənd təsərrüfatı, sənaye, balıqçılıq, peşə statistikalarına dair, habelə yaşayış minimumu və topdansatış qiymət indekslərinin hesablanmasına dair prinsipləri müəyyənləşdirdi. Konfrans Millətlər Birliyi yanındakı ekspertlər komitəsinə tapşırdı ki, xarici ticarət, peşə və kənd təsərrüfatı, balıqçılıq, dağ-mə"dən sənayesi və metallurgiya, e"maledici sənaye statistikaları üzrə və qiymətlər indeksinə dair məsələləri bir də nəzərdən keçirsin. Ekspertlər

Komissiyasının xarici ticarət statistikasına dair 1931-ci ildə çağırılmış ilk müşavirəsində xarici ticarət üçün malların vahid nomenklaturası (siyahısı) hazırlandı.

Millətlər Birliyinin Statistika aparatının yaranması nəticəsində praktiki olarak sosial-iqtisadi statistika göstəricilərin beynəlxalq müqaisəsinə keçildi. 1929-cu ildən sonra sənaye istehsalının fiziki həcmi indeksi və 1939-cu ildən isə milli gəlir indekslərinin hesablanmasına, habelə müntəzəm olarak valyuta kurslarına, əhalinin sayma, cinsi ifadə ilə məhsul istehsalına dair mə'lumatların nəşrinə başlanıldı. Lakin bu dövrdə əsas diqqət müxtəlif ölkələr üzrə statistika materiallarının sadəcə yekunlaşdırılmasına verilir, beynəlxalq səviyədə onların müqayisəliliyinə isə az əhəmiyyət verilirdi.

§2.3. İkinci dünya müharibəsindən sonra Beynəlxalq statistikanın inkişafı

1946-cı ildə Millətlər birliyi ləğv edildi və onun əvəzində daha səlahiyyətli beynəlxalq orqan-BMT yaradıldı. BMT-nin yaranması və ikinci dünya müharibəsindən sonra dünyanın kapitalizm və sosializm sistemləri arasında parçalanması Beynəlxalq statistika qarşısında yeni vəzifələr qoydu. Qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsi, müxtəlif ölkələrin iqtisadiyyatının qarşılıqlı asılılığının güclənməsinə, statistika mə"lumatlarının beynəlxalq müqayisəliyinə tələbatı artırdı. Bundan əlavə həm də inkişaf etməkdə olan ölkələrdə milli statistikanın qaydaya salınmasına köməklik etmək zərurəti yaranmışdı. Bütün bunlar statistika metodologiyasının sadələşdirilməsi və dəqiqləşdirilməsi istiqamətində aparılan işləri stimullaşdırırdı. Bu sahədə BMT-nin statistika orqanlarında intensiv iş aparılır, beynəlxalq müqayisəliliyi tə"min etmək üçün statistika göstəricilərinin standartlaşdırılması sistemləri, beynəlxalq təsnifatlar və nomenklaturalar işlənib hazırlanırdı.

Altmışıncı illərdən sonra BMT-nin statistika orqanlarının əsas fəaliyyəti dünyanın bütün ölkələrində uçot və statistika işlərinin vahid standartlar üzrə aparılmasına yönəldilmişdir. Bu baxımdan milli hesablar sisteminin (MHS) yaradılması və BMT üzvü olan ölkələrdə tətbiqi xüsusi əhəmiyyətə malikdir. İqtisadi fəaliyyətin bütün tərəflərinin qarşılıqlı balans əlaqələri şəkilində tərtib edilmiş MHS vahid metodologiya üzrə qurulduğuna görə beynəlxalq miqyasda statistika mə"lumatlarının müqayisəliliyini tə"min edir, dünyanın və ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinin və təkamülünün düzgün qiymətləndirilməsinə imkan yaradır. (Bax. R. Məmmədov, Milli hesablar sistemi, B. 1997-ci il)

§ 2.4 Beynəlxalq statistika sahəsində fəaliyyət göstərən ixtisaslaşdırılmış statistika təşkilatları

Beynəlxalq statistika sahəsində müxtəlif mərkəzlər və təşkilatlar fəaliyyət göstərir. Buraya ilk növbədə Beynəlxalq statistika sahəsində əsas fəaliyyət mərkəzlərindən biri olan BMT-nin ixtisaslaşmış statistika xidmətləri, xüsusilə də BMT-ni Statistika Komissiyası və BMT katibliyinin Statistika Bürosu aiddir. Bu təşkilatları koordinasiyaedici fəaliyyəti ilə yanaşı, həm də Beynəlxalq statistikaya dair informasiyasının toplanması və işlənilməsinin inteqrasiyaedici sistemlərini yaradır və inkişaf etdirir, metedoloji tədqiqatlar aparır və maraqlı olan ölkələrin statistika xidmətlərinə köməklik göstərirlər.

BMT-nin mərkəzi aparatı nəzdində demoqrafiya statistikası və sosial-iqtisadi statistikanın bir sıra sahələri ilə məşğul olan bölmələri mövcuddur.

Əmək, kənd təsərrüfatı, təhsil, elm və texnika statistikası ilə ixtisaslaşdırılmış xüsusi təşkilatları məşğul olurlar.

Regionların Beynəlxalq statistikası Avropa statistiklərinin konfransı, Afrika statistikləri, planlaşdırıcıları və demoqraflarının birləşmiş Konfransı, Afrika ölkələrarası statistika instutu və s. kimi məhəlli təşkilatların tabeliyindədir.

Müasir Beynəlxalq statistikada BMT-nin ixtisaslaşdırılmış idarələrinin fəaliyyəti xüsusi yer tutur. Buraya ilk növbədə Beynəlxalq əmək təşkilatı, BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı, Yunesko və başqaları (iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, Avropa iqtisadi birliyi və s.) daxildir. Beynəlxalq elmi təşkilatlar da (Beynəlxalq statistika institutu, Beynəlxalq iqtisadi elmlər assosiasiyası, Əhali sakinliyinin problemlərini öyrənən Beynəlxalq ittifaq və Avropa birliyi və s.) Beynəlxalq statistikanın inkişafı sahəsində müəyyən işlər görməkdədirlər.

§ 2.5. Beynəlxalq Statistika İnstitutu (BSİ)

Beynəlxalq Statistika İnstitutu (International Statistical Institute) statistika üsullarının inkişafı və təkmilləşdirilməsi ilə, habelə bu üsulların müxtəlif bilik sahələrinə tətbiqi ilə məşğul olan qeyri-dövlət təşkilatıdır. 1885-ci ildə statistika alimləri tərəfindən avtonom beynəlxalq təşkilat kimi yaradılmış bu institut statistika üsullarının inkişafı və təkmilləşdirilməsi və dünyanın müxtəlif ölkələrində onların tətbiqi ilə məşğul olan xalis elmi assosiasiyadır. İnstitut yaradılarkən onun 56 həqiqi və 23 fəxri üzvü seçilmişdir. Həqiqi üzvlər sırasında rus alimlərindən N.A.Troynitski (1897-1913-cü illərdə BSİ-nin vitse prezidenti olmuşdur,) və A.A.Strelbitski də vardır.

İnstitutun yaradıldığı ilk dövrlərdə statistika mə"lumatlarının beynəlxalq müqayisəliliyi məsələsi mühüm məsələ kimi irəli sürülmüş-

dür. Bundan əlavə institut statistika üsullarının tətbiqi, müxtəlif statistiki orqanlar arasında əlaqə yaratmaq və fikir mübadiləsini təşkil etməklə də məşğul olurdu. BSİ yarırəsmi təşkilat olduğuna görə onun qərarları məcburi qanun deyildir, yalnız arzu edilən tövsiyyə hesab olunurdu. Bu amil və institutun maddi çətinlikləri vəziyyətdən çıxış yolunu yeni statistika orqanlarının yaradılmasında gördülər. 1913-cü ildə yaradılmış və təşkilat baxımından sərbəst olan Daimi Büro müxtəlif ölkələrə və iri şəhərlərin bələdiyyələri (xüsusi ilə büronun yerləşdiyi Haaqa şəhərinin) verdikləri vəsait hesabına fəaliyyət göstərirdi. Daimi Büro institutun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir.

Büro Beynəlxalq statistikaya dair mə"lumatların toplanması, işlənməsi və nəşri ilə məşğul oldu və 1916-cı ildən başlayaraq illik Beynəlxalq statistika bülleteninin nəşrinə başladı. 1923-cü ildən sonra isə bu bülleten hər ay nəşr edildi.

İnstitut 1914-cü ilədək sosial statistikaya xüsusi diqqət yetirirdi.

1918-ci ildən ikinci dünya müharibəsinədək olan dövrdə BSİ-nin fəaliyyətində iqtisadi statistikaya aid olan məsələlər üstünlük təşkil edirdi.

İnstitutun sessiyaları iki ildənbir dünyanın müxtəlif şəhərlərində keçirilir. Ayrı-ayrı məsələləri həll etmək üçün xüsusi bölmələr (seksiyalar) və Komissiyalar (məsələn, işsizlik statistikası üzrə komisya, demoqrafiya bölməsi və s.) yaradıldı.

BSİ metodologiya ilə yanaşı həm də statistika mə"lumatlarının toplanması və nəşri ilə məşğul olduğuna görə uzun müddət əsas Beynəlxalq statistika orqanı rolunu oynayırdı. Bu dövrdə orada əhali siyahıyaalınmasının proqramına, xarici ticarət statistikasına, peşələrin və ölüm səbəblərinin təsnifatına və statistikanın başqa məsələlərinə dair tövsiyyələr hazırladı. Millətlər Birliyinin statistika fəaliyyəti genişləndikcə (xüsusilə 1933-cü ildən sonra) BSİ-nin profili dəyişməyə başladı və əsas diqqət metodoloji məsələlərə yönədildi.

İkinci dünya müharibəsindən sonra intitut əsas etibarı ilə nəzəri və metodoloji problemlərlə məşğul olurdu.

Əllinci illərdən başlayaraq BSİ-u elmi və praktiki statistika işçilərinin hazırlanmasının kordinasiyaedici mərkəzi kimi öz fəaliyyətini genişləndirdi. Kəlküttə (Hindistan) şəhərində inkişaf etməkdə olan ölkələrin statistika orqanları üçün kadrlar hazırlayan Beynəlxalq Mərkəz yarandı. Bu sahədə təcrübə mübadiləsi aparmaq üçün müəyyən vaxtdan bir elmi konfranslar keçirilir. Statistika orqanları və statistika ilə məşğul olan başqa təşkilatlarla daha sıx əlaqə yaratmaq məqsədilə 1977-ci ildə BSİ-nin nəzdində "statistika" üzrə inteqrasiyaedici komitə yaradıldı. Hal hazırda BSİ-nun nəzdində aşağıdakı 4

bölmə fəaliyyət göstərir:

1. Bernulli adına riyazi statistika və nəzəri statistika cəmiyyəti;
2. Statistika tədqiqatları üzrə beynəlxalq assosasiya;
3. Reqional və şəhər təsərrüfatı üzrə beynəlxalq assosiyasiya;
4. Rəsmi statistika üzrə beynəlxalq ittifaq.

BSİ-nun aşağıdakı filialları var:

1. Ekonometrika ittifaqı;
2. Gəlirləri və rifaqı öyrənən beynəlxalq assosiyasiya;
3. Əhali sakinliyini elmi əsaslarla öyrənən beynəlxalq ittifaq;
4. İdarəçilik problemlərini öyrənən institut;
5. Riyazi statistika institutu;
6. Standartlaşdırma üzrə beynəlxalq assosiyasiya.

1974-1984-cü illərdə BSİ-nun nizamnaməsinə yenidən baxıldı və dövlət statistika orqanlarında onun təmsilçiliyi daha da genişləndirildi.

1985-ci ildə dünyanın 120 ölkəsindən BSİ-nun 1307 nəfər həqiqi və fəxri üzvü, filiallarında isə 1600 alim və 30 karporativ üzvü var idi. Təəsüflər olsun ki, indiyədək BMT-nin üzvü olan respublikamızın BSİ-da təmsilçisi yoxdur.

BSİ-nun əsas nəşirləri aşağıdakılardır:

1. Beynəlxalq statistik icmal;
2. "Statistika nəzəriyyəsi və təcrübəsi" adlı referativ jurnal;
3. Beynəlxalq statistik informasiya.

1981-ci ildə Vyanada keçirilən 3-cü sessiyada beynəlxalq ticarət üzrə malların vahid təsnifatı, deklarasiya göstəriciləri və rəsmi nəzarət mə"lumatlarını uçota almağı, idxal və ixrac üçün ölkələri müəyyən etmək tövsiyyə olundu.

İnstitutun xarici ticarət üzrə komitəsi təklif edirdi ki, idxal edilən malları "sif", ixrac edilənləri isə "fob" qiymətləri ilə qiymətləndirmək, malların miqdarını "brutto" və "netto" çəkidə göstərmək, mallar və ölkələr üzrə qruplaşdırmaları aparmaq üçün 50 ölkə müəyyənləşdirmək və malların dövlətlər arası hərəkətini öyrənmək üçün gəmilərin və vaqonların yol jurnallarını tərtib etmək lazımdır.

Statistika metodologiyasının təkmilləşdirilməsində BSİ-nun rolunu ayrıca qeyd etmək lazımdır.

1985-ci ildə Berndə keçirilən 5-ci sessiyada peşələrin nomenklaturası tövsiyyə edildi. 12 bölmədən ibarət olan bu siyahı 61 qrupu və 499 peşənin (məşğuliyyət) növünü əhatə edirdi. Bu sənəddə tövsiyyə edilirdi ki, müşahidələr zamanı konkret peşənin sayəsində yaşayan ailə üzvlərini də qeydə almaq lazımdır. İnstitutun tövsiyyələrinə əsasən işsizləri sərbəst əhali qrupuna aid etməli və ev işlərinə kömək edən ailə üzvlərini ayrıca göstərmək,ölkələr üzrə işsizlərin

sayına 60 yaşdan böyük şəxsləri daxil etmək lazım deyildir.

Qiymətli kağızlar statistikasının təşkilinə dair BSİ tövsiyyə edirdi ki, renta, səhm və istiqrazların buraxılışı və uduşlarına dair gündəlik uçot aparmaq, konversiya statistikasını (qiymətli kağızların sayı, dəyəri və konversiyasının nəticələrini) və birjalarda qiymətli kağızların hərəkətini, (səhm kapitalının məbləğini, uçot faizini, ödənilən kağızların məbləğini və s.) vergi statistikasının aparılmasını təşkil etmək lazımdır.

Hal-hazırda BSİ statistika metodologiyasına, müqayisəliliyə və sairəyə dair heç bir qərar qəbul etmir və tövsiyyələr vermir. Onun fəaliyyəti sessiyalara məruzələr hazırlamaq, diskusiyalar, təşkil etmək və sessiyaların yekunlarını "İnstitut Bülleteni"-də nəşr etdirməkdən ibarətdir.

İnstitut öz fəaliyyətini statistika ilə məşğul olan başqa beynəlxalq təşkilatlarla əlaqələndirir.

§2.6.Uçot və statistika işlərinin beynəlxalq standartlara uyğun qurulmasına dair Azərbaycan Respublikası prezidentinin 11 avqust 1992-ci il tarixli fərmanı

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra uçot və statistika işlərinin beynəlxalq tövsiyyələrə uyğun qurulmasına xüsusi əhəmiyyət verildi. Bu məqsədlə Respublika prezidenti "Azərbaycan Respublikasında beynəlxalq praktikada qəbul edilmiş statistika sisteminə keçirilməsi haqqında" 11 avqust 1992-ci il tarixli xüsusi fərman vermişdir.

Respublika prezidentinin bu fərmanı həyata keçirmək üçün Azərbaycan Respublikası Nazirlər kabineti 8 dekabr 1992-ci ildə 653 nömrəli xüsusi qərar qəbul etdi. Həmin qərara əsasən respublikada "idarəetmənin təkmilləşdirilməsində, iqtisadi islahatların dərinləşdiyi şəraitdə məqsədyönlü sosial siyasətin həyata keçirilməsində, Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsində və dünya birliyinə qoşulmasında uçot və hesabatın, iqtisadi-statistik informasiyanın rolunu artırmaq məqsədilə" kompleks tədbirlər sistemi həyata keçirilmişdir.

1994-cü ildən sonra Azərbaycan Respublikasında MHS-nin tətbiqinə başlandı. Yuxarıda adı çəkilən qərara uyğun olaraq Azərbaycan Respublikası DSK "statistika metodologiyasının və təcrübəsinin təkmilləşdirilməsi məsələlərində başqa dövlətlərin baş statistika idarələri, Beynəlxalq statistika təşkilatları və bu məsələlərlə məşğul olan digər təşkilatlar ilə əməkdaşlığı genişləndirdi, ilkin mühasibat və statistika hesablamalarını bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq təşkil etməyə" başladı.

§2.7.Beynəlxalq statistikanın təşəkküründə xüsusi xidməti olan şəxsiyyətlər

Statistika elminin yaranması, formalaşması və beynəlxalq miqyasda yayılmasında xüsusi xidmətləri olmuş şəxsiyyətlərdən bir neçəsinin adını çəkək:

1. Serviy Tullin-yeni eradan əvvəl 550-ci ildə qədim Romada statistika orqanına bənzər ilk qurum yaratdı.
2. Qotfrid Axenvel-ilk dəfə "Statistika" terminini işlətmişdir.
3. İ.P.Anxerson (1700-1765)-Statistikada cədvəl üsulunun əsasını qoymuşdur.
4. A.Krome (1753-1833)- statitikada qrafik üsulunun banisidir.
5. Byuşinq - statistikada müqayisə metodunun əsasını qoymuşdur.
6. A.L.Şletser (1735-1809)-kütləvi hadisələrə aid olan qanunauyğunluqların orta kəmiyyətlərdə əks olunmasını aşkar etmişdir. İlk dəfə olaraq statistika işini müşahidə, yekunlaşdırma və təhlil hissələrinə bölməyi təklif etmişdir.
7. Qalley - 1694-cü ildə ilk ölüm cədvəlini tərtib etmişdir.
8. Adolf Ketle (1796-1874)-milliyyətçə belçikalı və ixtisasca riyaziyyatçı olmuşdur. Nəzəri statistikanın və təsviri statistika məktəbinin banisi hesab edilir.
9. D.Puasson (1781-1841) fransız riyaziyyatçısı. "Böyük ədədlər qanunu" terminini ilk dəfə statistikaya (və riyaziyyata) o daxil etmişdir.
10. Ç.Qraunt - statistikada "Siyasi arifmetika" cərəyanının yaradıcısıdır

Nəzarət üçün suallar

1.Beynəlxalq statistikanın təşəkkülü hansı dövrə təsadüf edir?
2.Millətlər Cəmiyyəti və BMT-nin ixtisaslaşdırılmış statistika orqanları hansılardır?
3.Beynəlxalq statistikanın inkişafının mərhələlərini göstərin.
4.Beynəlxalq Statistika İnstitutu nə vaxt yaranıb?
5.Azərbaycan Respublikasında uçot və statistika işlərinin beynəlxalq standartlara uyğun qurulmasının məqsədi və xüsusiyyətləri nədən ibarətdir?

III FƏSİL
MİLLİ VƏ DÜNYANIN İQTİSADİ RAYONLARININ ÖYRƏNİLMƏSİ ÜSULLARI

Beynəlxalq münasibətlər və ayrı-ayrı ölkələrin daxilindəki iqtisadi, siyasi və sosial əlaqələrin inkişafı dünyanın və konkret coğrafi ərazini müəyyən coğrafi, təbii və inzibati hissələrə, rayonlara bölməyə ehtiyac yaradır. Rayonlara ayırmanın prinsipləri, mahiyyəti və xarakteri dünyanın ayrı-ayrı ölkələrində müxtəlif olduğuna görə "rayon" anlayışının dəqiq elmi tə"rifini və əlaqələrini müəyyənləşdirmək çətindir. Dünya təcrübəsində də iqtisadi rayonlaşdırma prinsipi eyni deyildir.

§3.1. "İqtisadi rayon" anlayışı

Bə"zi xarici ölkə iqtisadçılarının fikrincə "rayon" kateqoriyası müxtəlif və çox vaxt təkrarolunmayan amillər əsasında formalaşdığına görə onun vahid tə"rifi ola bilməz. Başqalarının fikrincə isə "rayon" anlayışı coğrafi, təbii, inzibati, iqtisadi və habelə miqyası baxımdan müxtəlif mə"na daşıdığından onun vahid tə"rif vermək olmaz. İnzibati baxımdan rayon konkret şəhərin və ya ölkənin sərbəst idarəçiliyə malik hissəsidir.

Coğrafi rayon dedikdə cəmiyyəti əhatə edən və insan həyatına eyni cür tə"sir edən coğrafi mühitə malik ərazi başa düşülür. Coğrafi mühit cəmiyyətin iqtisadi inkişafını tə"min edən əsl amillərdən biridir.

Məhsuldar qüvvələrin ərazicə yerləşdirilməsində baş verən dəyişikliklər prosesini öyrənərkən coğrafi rayonlaşdırmanın əhəmiyyəti böyükdür. Lakin iqtisadi inkişafın müasir şəraitində rayonlararası və beynəlxalq əlaqələrin coğrafi rayonlaşdırılması az səmərəli olduğundan onu iqtisadi əlaqələri əks etdirən rayonlaşdırma ilə əlaqəli götürmək lazım gəlir.

İqtisadi rayonlaşdırma maliyyə və inzibati idarəçilik fəaliyyətinin, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, habelə elmi, mədəniyyət, məişət və başqa ictimai təşkilatların təmərgüzləşdirilməsi nəticəsində yaranır. Bir qədər sadə desək iqtisadi rayon müxtəlif növ və müxtəlif həcmli istehsal və qeyri-istehsal təşkilatları kompleksinin yerləşdiyi məkandır. İqtisadi rayonun yaradılmasının əsas əlaməti bir və ya bir neçə ixtisaslaşmış istehsal sahəsinin yerləşməsidir. Bu komplekslər öz məhsulları və xidmətləri ilə həm öz ərazisini və həm də başqa rayonları (və bə"zən də başqa ölkələri) tə"min edə bilir, başqa sözlə regiondan kənar funksiya yerinə yetirir.

İqtisadi rayonu müəyyən edərkən rayonun müasir iqtisadiyyatının formalaşmasına səbəb olmuş və tə"sir etməkdə olan amilləri, habelə onları hərəkətə gətirə bilən təbiicoğrafi, sosial, demokrafik və başqa

amilləri nəzərə almaq lazımdır. Bir-birindən asılı olan bu amillərin qarşılıqlı əlaqədə təhlili rayonlararası, rayondaxili və sahələrarası müxtəlifliyi aşkar etməyə imkan verir. Nəzərə almaq lazımdır ki, iqtisadi rayon sabit reqional bölmə deyil və daima dəyişə bilər.

§ 3.2. İqtisadi rayonların təsnifatı və onları səciyyələndirən göstəricilər

Miqyasına görə milli və beynəlxalq iqtisadi rayonları fərqləndirmək lazımdır. Milli iqtisadi rayonlar konkret bir dövlətin ərazisində iqtisadi əlamət üzrə aparılan rayonlaşdırmanın nəticəsidir. Milli iqtisadi rayonlar təbii-coğrafi oxşarlığa malik iqtisadi cəhətdən bir-biri ilə bağlı olan konkret coğrafi məkanda yaradılır. Məsələn keçmiş SSRİ 18 böyük iqtisadi rayona bölünmüşdü. Buraya Şimali-qərb, Mərkəz, Volqa-Vyatka, Mərkəzi Qaratorpaq, Şimali Qafqaz, Zaqafqaziya, Ural, Qərbi Sibir, Şərqi Sibir, Uzaq Şərq, Donetsk-Dnepr boyu, Qazaqıstan və Orta Asiya iqtisadi rayonları daxil idi.

Azərbaycan respublikasının ərazisində Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara, Muğan, Mil, Qarabağ, Şəki-Zakatala, Gəncə-Qazax, Mərkəzi Aran və Arazboyu təbii iqtisadi rayonlar yaradılmışdır.

Milli iqtisadi rayonlaşdırma ölkə iqtisadiyyatının ərazi üzrə idarə olunmasını planlaşdırmaq və təşkil etmək üçün yaradılır.

İqtisadi inkişaf səviyyəsinə görə iqtisadi rayonları aşağıdakı əlamətlərə görə fərqləndirmək olar;

1. Yanacaq enerjisi və xammal bazası ilə tə"min olunmasına görə;
2. Əmək ehtiyatlarının sayı və tərkibinə görə;
3. İnkişaf etmiş sənayenin və sosial infrastrukturaya malik olmasına görə;
4. Rayonun təsərrüfat fəaliyyətinin inkişafının ümumi səviyyəsinə görə;
5. Sair əlamətlərə görə.

Qərb ölkələrinin regional problemlərə həsr olunmuş iqtisadi ədəbiyyatlarda iqtisadi cəhətdən geridə qalmış rayonlar aşağıdakı kimi təsnifatlandırılır:

1. Ucqar rayonlar;
2. Zəif inkişaf etmiş kənd təsərrüfatı rayonları;
3. Durğun sənaye (depressiya) rayonları;
4. İşlənmiş dağ-mədən rayonları;
5. Ayrı düşmüş dağlıq rayonlar;
6. Sü'ni siyasi sərhədlər boyunca yerləşən rayonlar.

Bu rayonların hər biri iqtisadiyyatın inkişafını ləngidən özünəməxsus problemlərə malik olurlar. Məsələn, ucqar rayonların əsas problemi nəqliyyat kommunikasiyaları və mərkəzi şəhərlərdən

uzaq olmasıdır. ABŞ-ın "Gələcək üçün resurslar" adlı elmi tədqiqat korporasiyası BMT üçün hazırladığı mə"ruzədə iqtisadi rayonları aşağıdakı kate-qoriyalara ayırmağı təklif edir:

1. Məhdud və ya birtərəfli inkişaf edən rayonlar; buraya hər hansı mühüm resursları olan rayonlar, habelə çay hövzələri və başqa rayonlar aid edilir;
2. Az əhali məskunlaşmış, mühüm resurslara malik olan rayonlar;
3. Gəlirlərin səviyyəsi ölkə üzrə orta göstəricidən aşağı olan geridə qalmış, depresiyaya uğramış rayonlar;
4. Məşğulluq və əhali axını problemləri kəskinləşmiş metropoliya rayonları.

Göründüyü kimi, burada rayonların təsnifatı özünəməxsus şəraitlə (təbii sərvət, çay hövzəsi, meşə və s.) əlaqəli aparılır.

Kənd təsərrüfatı zəif inkişaf etmiş rayonlarda isə kənd təsərrüfatı istehsalının inkişafı və modernizasiya edilməsi əsas problem hesab olunur və s. Lakin, iqtisadi cəhətdən zəif inkişaf etmiş bütün rayonların ümumi problemi onlarda müasir sənaye və sosial infrastrukturun yaradılmasıdır.

Alman iqtisadçısı E.Ditrix təsnifatlaşmaya "problem rayonlar" anlayışını da daxil etməyi tələb edir. (E. Ditrich problemgebliete in der Raumforchang- "Raumforshung und Raumorolhung", NIS, 1940). Bu ad altında o ləğv edilməsi lazım gələn amillərin tə'miri nəticəsində iqtisadiyyatı zəifləmiş rayonları nəzərdə tutur. Buraya, ilk növbədə aqrar problemi olan rayonlara aiddir. Bu rayonlarada aqrar strukturun qeyri-təkmilli və dünya bazarının qeyri-sabitliyi nəticəsində iqtisadiyyat zəifləyir ki, o da öz növbəsində əhalini həyat səviyyəsinə bilavasitə tə"sir göstərir. Aropa İqtisadi Birliyinin (AİB) ekspertləri bütün ölkələr üçün hazırladıqları tövsiyyələrdə 'Milli iqtisadi rayon' anlayışına bir-biri ilə sıx əlaqədə olan və biri o birini tamamlayan istehsal sahələrinin yerləşdiyi ərazilərdən ibarət fəaliyyət meydanı kimi baxılır.

Sosial-iqtisadi, siyasi, demoqrafik və təbii-coğrafi amillər kompleksini nəzərə almaqla inkişaf etmiş ölkələrin milli ərazilərinə daxil olan rayonların aşağıdakı tiplərini ayırmaq olar:

1. İqtisadi cəhətdən inkişaf etmiş rayonlar. Buraya istehsalın həddindən çox təmərküzləşdiyi və bununla əlaqədar olaraq həddindən artıq urbanizasiya və hər nəfərə düşən milli gəlirin həcmi yüksək olan əhalinin yaşadığı rayonlar, habelə iqtisadiyyatı kompleks inkişaf etmiş və istehsalı ərazicə bərabər yerləşdiyi rayonlar daxildir;
2. İqtisadi cəhətdən geridə qalmış rayonlar. Buraya aiddir:

a) Geri qalmış kənd təsərrüfatı rayonları. Bu qrupa kənd təsərrüfatı sahələri zəif inkişaf etmiş, əhalinin sıxlığı, hər nəfərə düşən milli gəlirin səviyyəsi aşağı olan, sənayesi və sosial infrastrukturları

olmayan, pis təbii-iqlim şəraitinə malik olan rayonlar aiddir.

b) Əhalisi sıx, aşağı səviyyəli təsərrüfat, işsizlik faizi yüksək, mənfi əhali miqrasiyası, infrastrukturu zəif, kapital qoyuluşu məhdud və hər nəfərə düşən milli gəlirin səviyyəsi aşağı olan geridə qalmış kənd təsərrüfatına malik rayonlar;

v) İşsizlik faizi yüksək olan, əvvəllər istehsal sahələrindən biri inkişaf etmiş, lakin indi iqtisadi durğunluq keçirən depresiyaya uğramış rayonlar;

q) İnkişaf etməkdə olan sənaye sahələri ilə yanaşı istehsalda quruluş dəyişikliyi nəticəsində yaranmış durğunluq keçirən sahələri olan depresiyaya uğramış sənaye rayonları;

d) Təbii sərvətləri zəngin, lakin iqtisadi cəhətdən geridə qalmış ucqar rayonlar. Almaniyada Saar və Rur kömür hövzələri, Ziqfland və Qerqs dəmir filizi yataqları, Yuxarı Frankoni və Qlabaxdakı toxuculuq istehsalı üstünlük təşkil edən rayonlar. Belçikada Borinaj kömür sənayesi rayonu, Fransanın mərkəzi və cənubunda yerləşən Luara, Sevein, Akvitaniya, Dekazvill və Overni kömür hövzəsi yerləşən rayonlar, Böyük Britaniyada Uelsin cənubundakı kömür hövzəsi, Şotandiyanın toxuculuq üzrə ixtisaslaşdırılmış rayonları, ABŞ-da əvvəllər sənayeləşmiş Pitsburq və Penslivaniyanın kömür hövzəsi və metalurgiya kompleksləri yerləşən rayonlar, Konnektikut, Men, Merilend və Massaçuzets ştatlarında yerləşən toxuculuq sənayesi yerləşən bə"zi rayonlar depresiyaya mə"ruz qalmış rayonlar hesab edilir. Bu rayonların hamısında əvvəllər sənaye istehsalı sür"ətlə inkişaf etmiş, sonradan müxtəlif səbəblərə görə istehsalın həcmi azalmış, işçi qüvvəsi ixtisar edilmiş, əhalinin həyat səviyyəsi aşağı düşdüyündən əks əhali miqrasiyası başlamışdır.

İnkişaf etmiş və geri qalmış iqtisadi rayonları səciyyələndirərkən və təsnifatlaşdırarkən iqtisadi metodlardan istifadə edilməlidir. Bu amillər hər bir ölkədə müxtəlif olsa da onların hamısı üçün ümumi olan obyektiv və iqtisadi göstəriciləri ayırmaq olar. Buraya ölkə (və ya dünya) üzrə göstəricilərin müqayisəsində əhalinin hər nəfərinə düşən gəlirin, məhsul istehsalının və kapital qoyuluşlarının həcmi, kənd təsərrüfatında çalışan işçilərin xüsusi çəkisi (geri qalmış rayonlarda yüksək, inkişaf etmiş rayonlarda kiçik olur), xidmət sferasında məşğul olanların xüsusi çəkisi, əmək məhsuldarlığının səviyyəsi, əhalinin sıxlığı, cins-yaş tərkibi, doğumun və ölümün səviyyəsi, işsizliyin səviyyəsi, əks miqrasiyanın mövcudluğu və başqa göstəricilər aiddir. Bu göstəricilər bir-biri ilə məntiqi və ardıcıl əlaqəyə malikdirlər. Belə ki, geri qalmış rayonlarda kapital qoyuluşlarının azlığı və tədricən azalması hər nəfərə düşən istehsalın və milli gəlirin həcmini azaldır, sosial infrastrukturanın (təhsil, maarif, səhiyyə, mənzil tikintisi və s.)

zəifləməsinə, kadrların ixtisas səviyyəsinin aşağı düşməsinə səbəb olur, sənayeyə lazım olan peşələr üzrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsində çətinliyin yaranması isə əmək məhsuldarlığının səviyyəsini aşağı salır. Bütün bunlar isə birlikdə rayonun və ya regionun iqtisadi inkişafı tempini ləngidir. Bu uğursuzluqlar dairəsindən çıxmaq üçün kapital qoyuluşlarının nisbi səviyyəsini xeyli artırmaqla sosial infrastrukturanı gücləndirmək, əhalinin həyat səviyyəsini yüksəltmək və rayonun iqtisadi inkişafını sür'ətləndirmək olar.

İqtisadi rayonun iqtisadi inkişafını tə'min edən amillərdən biri sənayenin inkişafıdır. Sənayenin inkişafı kənd təsərrüfatı və milli iqtisadiyyatın başqa sahələrinin inkişafını tə'min etməklə milli gəlirin (beləliklə də əhalinin həyat səviyyəsinin) və məşğulluğunun, xidmət sferasının və sosial infrastrukturaların inkişafını tə"min edir. Belə halda nəzərə almaq lazımdır ki, geridə qalmış rayonda sənaye məhsulunun xüsusi çəkisi, həmin rayonun əhalisinin ölkənin bütün əhalisinə nisbətini əks etdirən xüsusi çəkiyə uyğun olmalıdır.

Dünyanın iqtisadi əlamətlər üzrə rayonlaşdırılması milli rayonlaşdırma təcrübəsi ilə bilavasitə əlaqədar olmaqla onları ümumiləşdirir və bir qədər də inkişaf etdirir.

BMT çərçivəsində dünyanın rayonlaşdırılması və beynəlxalq qruplaşdırmalar coğrafi və iqtisadi baxımdan həyata keçirilir. Bu əlamət üzrə dünya ölkələrinin təsnifatlaşdırılması aşağıdakı kimidir:

a) coğrafi əlamət üzrə dünyanın rayonları: Avropa, Afrika və yaxın Şərq, Şimali Amerika, Latın Amerikası, Cənubi Şərqi və Şərqi Asiya (Yaponiyanı daxil etməklə və etməməklə) və Okeaniya.

b) Sosial-iqtisadi əlamətlər üzrə dünyanın rayonları. Rusiya və Yuqoslaviyanı daxil etməklə Şərqi Avropa (keçmiş sosialist ölkələri), iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına daxil olan ölkələr və başqa ölkələr.

Belə qruplaşdırma iqtisadi baxımdan çox ümumi olduğuna görə elmi məqsədlər üçün az əlverişli hesab edilir. Ona görə də dünya ölkələrinin xalis iqtisadi əlamətləri üzrə qruplaşdırılmasına ehtiyac yarandı. 1958-1965-ci illərdə dünyanı iqtisadi baxımdan rayonlaş-dırarkən əhalinin hər nəfərinə düşən istehsalın həcmi və milli gəlirin səviyyəsinə görə qruplaşdırmasından istifadə olundu. Əhalinin hər nəfərinə düşən milli gəlirin səviyyəsinə görə dünya ölkələri aşağıdakı dörd sinifə (qrupa) bölünürdü:

I sinif- hər nəfərə 200 dollar və daha çox milli gəlir düşən ölkələr. Buraya bütün Şimali Amerika, Okeaniya və bir sıra Qərbi Avropa ölkələri daxil edilirdi.

II sinif- hər nəfərə 100-199 dollarlıq gəlir düşən Cənubi Amerika İttifaqı (o cümlədən Argentina və Uruqvay), Avropadan Finlandiya, İtaliya və İrlandiya daxil idi.

III sinif- Buraya hər nəfərə 50 dollarlıq milli gəlir düşən Çili, Meksika, Venesuella, Yaponiya və Avropa ölkələrindən Portuqaliya, İspaniya və Yuqoslaviya daxil idi.

IV sinif- Buraya hər nəfərə 50 dollardan az milli gəlir düşən başqa ölkələr: Afrikanın, Şərqi və Cənubi Şərqi Asiyanın, Okeaniyanın bir sıra ölkələri, Türkiyə, Yunanıstan və başqa ölkələr daxil idilər.

Bu bölgü üzrə BMT-nin həmin dövrlərdə nəşr etdirdiyi iqtisadi mə"lumatların təhlili göstərir ki, I sinfə düşən (hər nəfərə düşən milli gəlirin səviyyəsi yüksək olan) ölkələrdə əhalinin hər min nəfərinə düşən sənayedə çalışan işçilərin sayı, dünya sənaye məhsulunun tərkibində sənaye məhsulunun və sənayedə çalışan işçilərin xüsusi çəkisi və başqa göstəricilər xeyli yüksəkdir. Əhalinin həyat səviyyəsi və iqtisadi rayonun ümumi inkişaf səviyyəsi yuxarıdakı iqtisadi göstəricilərlə düz mütənasibdir.

Belə qruplaşmaların təhlili bir daha göstərir ki, dünyanı iqtisadi rayonlara bölərkən iqtisadi inkişaf səviyyəsini əks etdirən kompleks iqtisadi göstəricilər sistemindən istifadə etmək daha məqsədə uyğundur.

BMT 1965-ci ildən dünya ölkələrinin daha inkişaf etdirilmiş iqtisadi rayonlar üzrə təsnifatlaşdırılmasını keçdi. Əvvəlki dörd sinif əvəzinə dünyanın aşağıdakı iki iqtisadi rayonunu ayırmağa başladılar:

1. Sənayecə inkişaf etmiş ölkələr
2. Sənayesi az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr

Belə bölgü üçün me"yar kimi hər nəfərə düşən milli gəlirin həcminin 125 dollardan yuxarı və aşağı olması prinsipi qəbul olundu. Beləliklə, hər nəfərə 125 dollardan çox milli gəlir istehsal edən ölkələr inkişaf etmiş dünya ölkələri qrupuna və 125 dollardan aşağı olan ölkələr isə inkişaf etməkdə olan ölkələr qrupuna daxil edildi. Keçmiş sosialist dövlətləri bu bölgüyə daxil edilmirdi. Avropa, Şimali Amerika, Okeaniya, Yaponiya və Cənubi Afrika inkişaf etmiş ölkələr qrupuna, Latın Amerikası, Şərqi və Cənubi-Şərqi Asiya (Yaponiyadan başqa), Orta Asiya (Kipr və Türkiyədən başqa), habelə CAR-dən başqa bütün Afrika ölkələri inkişaf etməkdə olan ölkələr qurupuna daxil edildi.

Hal hazırda BMT-nin nəşrlərində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri hərtərəfli səciyyələndirmək üçün otuzdan çox iqtisadi göstəricilərdən istifadə edilir. Bunlardan ən mühümləri sırasına əhalinin sayı, sənaye məhsulu və son məhsulun həcmi, sənayedə çalışan işçilərin sayı, əmək məhsuldarlığının artım sür"əti, hər nəfərə düşən son məhsul və milli gəlir, əhalinin hər min nəfərinə düşən sənayedə çalışan işçilərin sayı, dünyanın ayrı-ayrı regionlarında sənaye

istehsalının quruluşu və s. daxildir.

Yuxarıda deyilənlərdən əlavə dünyanın iqtisadi rayonlarının başqa müxtəlif əlamətlər (əhalinin sayı, əhalinin hər nəfərinə düşən sənaye məhsullarının həcmi və s.) üzrə qruplaşdırılmasından və konbinasiyalı (məsələn: əmək məhsuldarlığının səviyyəsi və əhalinin hər nəfərinə düşən sənayesində çalışan işçilərin sayına görə) qruplaşdırılmasından da istifadə edilir.

Makroiqtisadiyyatın iqtisadi fəaliyyət sahələri üzrə bölüşdürülməsi və onların arasındakı əsas iqtisadi əlaqələri müəyyənləşdirmək, ayrı-ayrı ölkələrin iqtisadi inkişafının əlamətlərini müəyyən etməklə yanaşı, həm də onları bir-biri ilə müqayisə etməyə imkan verir. Dünyada olan 200-dən çox ölkələr iqtisadi inkişaf səviyyəsinə görə bir-birindən ciddi surətdə fərqlənirlər. Bu ölkələrin inkişaf səviyyəsini və başqa xüsusiyyətlərini bilmək bu ölkələr arasındakı qarşılıqlı əlaqələri, habelə mövcud iqtisadi inkişaf səviyyəsinin əldə edilməsi sahəsindəki təcrübələrini öyrənmək çox vacibdir.

Beynəlxalq iqtisadiyyatda ölkə anlayışına yalnız dövlət adlanan ərazi vahidləri deyil və həm də dövlət olmayan, lakin sərbəst və müstəqil iqtisadi siyasət yeritməklə öz inkişafının sərbəst statistik uçotunu aparan bə"zi ərazi vahidləri də daxil edilir. Buraya Fransa, Böyük Britaniya və Niderlanda tabe olan, lakin sərbəst dövlət olmayan bə"zi asılı ada əraziləri aiddirlər. Həmin ərazilər sərbəst dövlət olmasalar da beynəlxalq iqtisadiyyatda ayrıca dövlət kimi götürülürlər.

Dünya bankının 1994-cü ildə apardığı təsnifatda inkişaf səviyyəsinə görə 209 dövlət aşağıdakı kimi qruplaşdırılmışdır:

1-ci qrup: Əhalinin hər nəfərinə 725 dollardan az ÜMM istehsal edən, həyat səviyyəsi aşağı olan (64 dövlət) ölkələr (low-income countries);

2-ci qrup: Əhalinin hər nəfərinə 726-2895 dollar ÜMM istehsal edən, gəliri orta səviyyədən aşağı olan (66 dövlət) ölkələr (lower middle-income cdountries);

3-cü qrup: Əhalinin hər nəfərinə 2896-8995 dollar ÜMM istehsal edən, gəliri orta səviyyədən yuxarı olan (35 dövlət) ölkələr (upper middle-income cdountries);

4-cü qrup: Əhalinin hər nəfərinə 8996 dollardan çox ÜMM istehsal edən, gəlir səviyyəsi yüksək olan (44 dövlət) ölkələr (high-income cdountries).

Coğrafi cəhətdən yüksək gəlir səviyyəsinə malik ölkələr Amerikada və Qərbi Avropada, aşağı səviyyəli ölkələr isə Afrikada Saxaradan cənubda yerləşən ölkələrdir. Keçid iqtisadiyyatına malik və inkişaf etməkdə olan ölkələr gəliri orta səviyyədən aşağı və yuxarı olan ölkələr qrupuna daxildirlər. Latın Amerikasının, Asiyanın və Ərəb Şərqinin

bir çox inkişaf etməkdə olan ölkələri bu qrupa aiddir. Azərbaycan və Rusiya gəliri orta səviyyədən aşağı olan ölkələr sırasına daxildirlər

Belə bölgü bu və ya digər ölkənin həmin qruplardan birinə daxil edilməsinə beynəlxalq birlik tərəfindən güzəştli maliyyə yardımı almağa, geri qaytarılmayan yardım və kreditlər almağa və ya ondan mərhum olmağa şərait yaradır.

Beynəlxalq miqyasda iqtisadi hadisə və prosesləri öyrənərkən oxşar əlamətlərə görə dünya ölkələrinin qruplaşdırılmasına dair ən tam mə"lumatı universal beynəlxalq təşkilatlar arasında ən populyar olanı 185 ölkəni birləşdirən BMT, 181 ölkəni birləşdirən BVF və 180 ölkəni birləşdirən Dünya Bankıdır. Bu beynəlxalq təşkilatlar ona üzv olan ölkələrdə iqtisadiyyatın inkişafını müşahidə edir. Dünya ölkələrinin təsnifatını apararkən hər bir beynəlxalq təşkilat öz qarşısına qoyulan vəzifələri əsas götürür. Məsələn, Dünya Bankı ona üzv olan ölkələrdə iqtisadiyyatın inkişaf səviyyəsinə, BMT isə sosial və demoqrafik məsələlərə xüsusi diqqət yetirir.Beynəlxalq iqtisadiyyat çərçivəsində analitik məqsədlər üçün dünya ölkələri sənayesi inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik dövlətlər qrupuna bölünür. ABŞ, Avstraliya, Avstriya, Almaniya, Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, Yeni Zellandiya, Yaponiya, İrlandiya, İspaniya, İslandiya, İsveç, İsveçrə, İtaliya, Kanada, Lüksemburq, Hollandiya, Norveç, Portuqaliya, San-Marino, Finlandiya və Fransa sənayecə inkişaf etmiş (Industrial countries) ölkələrdir. Doxsanıncı illərin ortalarında dünyada istehsal olunan ÜMM-un üçdə ikisi bu ölkələrin payına düşürdü.

Sənayecə inkişaf etmiş ölkələr arasında Yeddilər qrupuna daxil olan (ABŞ, Böyük Britaniya, Belçika, Almaniya, İtaliya, Kanada, Fransa) ölkələr xüsusi rol oynayırlar. Dünyada istehsal olunan ÜMM-un 47%-i və ixracatın 51%-i bu ölkələrin payına düşür.

İnkişaf etməkdə olan ölkələrə (aveloping countries) Asiya, Afrika və Latın Amerikasının 132 ölkəsi aiddir. Bu ölkələr üçün gəlirlərin aşağı və daha aşağı səviyyəsi xarakterikdir.

Keçid iqtisadiyyatına malik ölkələrə (economies/countries in transition) Mərkəzi və Şərqi Avropanın, habelə keçmiş Sovetlər İttifaqının planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçən 28 ölkəsi aiddir. Bu qrup daxilində son vaxtlar 7-lər qrupuna daxil edilmiş Rusiyanı, Mərkəzi və Şərqi Avropa ölkələrini və keçmiş "rubl zonasına" daxil olan ölkələri ayrıca öyrənirlər.

Nəzarət üçün suallar

1. *'İqtisadi rayon' nədir?*
2. *İqtisadi rayonların təsnifatı necə və hansı əlaəmtlər üzrə aparılır?*
3. *Dünyanın əsas iqtisadi rayonları hansılardır?*

IV FƏSİL
BEYNƏLXALQ STATİSTİKADA QƏBUL EDİLMİŞ İQTİSADİ TƏSNİFATLAŞDIRMALAR

§ 4.1. Beynəlxalq İqtisadi Təsnifatlaşdırmaların mahiyyəti və vəzifələri

Beynəlxalq və ayrıca dövlət miqyasında inteqrasiya proseslərinin iqtisadi proqnozlarının və siyasətin formalaşdırılması külli miqdarda statistika mə"lumatlarının sistemləşdirilməsi, təhlili və istifadəsini tələb edir. Belə mə"lumatların həddindən çox olması onların müəyyən məqsədə xidmət edən konkret oxşar əlamət (iqtisadiyyat sahələri, əmtəələr, fəaliyyət növləri, ərazi, mülkiyyət növləri və s.) üzrə sistemləşdirilməsi və müəyyən standartlara əsasən uyğunlaşdırılmasını tələb edir. Ümumi ünsiyyət vasitəsi olan belə standartlara əsasən aparılan qruplaşdırmalar isə təsnifat adlanır. Dünyanın müxtəlif ölkələrində öz tələblərini ödəmək üçün müxtəlif təsnifatlardan geniş istifadə edilsə də belə təsnifatlar beynəlxalq və ölkələrarası müqavilələr üçün yararlı olmur. Beynəlxalq İqtisadi təsnifatlaşdırma ayrı-ayrı ölkələrlə razılaşdırılmış ümumi metodoloji prinsiplərə əsasən dünya iqtisadiyyatının inkişafını səciyyə-ləndirən statistik informasiyanı sistemləşdirmək üçün aparılır. Bu sistemləşdirmə beynəlxalq və dövlətlərarası təşkilatlar tərəfindən statistika mə"lumatlarının müqayisəliliyini tə"min etmək üçün təsnifatlar və nomenklaturalar (siyahılar) formasında hazırlanır.

Beynəlxalq təsnifatlaşdırmaların aparılmasına ilk cəhd Beynəlxalq statistika konqresinin 1957-ci ildə Vyanada çağırılan sessiyasında edilmişdir. Burada istehsalın ümumi təsnifatı ilə yanaşı sənaye istehsalının təsnifatı da tövsiyyə edilmişdir. 8 qrup və 34 sinifdən ibarət olan bu təsnifatlaşma çox primitiv (sadə) olduğu üçün praktikada istifadə olunmadı. Beynəlxalq statistikada istifadə edilən iqtisadi təsnifatlardan ən qədimi fəaliyyət sahələrinin təsnifatıdır.

§4.2.İqtisadi fəaliyyət növlərinin beynəlxalq təsnifatı

Keən əsrin sonunda Beynəlxalq Statistika İnstiututunun 5-ci sessiyasında J.Bertilon məşğuliyyətin aşağıdakı təsnifatını təklif edirdi:

I. Xammal istehsalı
II. Torpağın səthinin istifadəsi:
III. Kənd təsərrüfatı;
IV. Balıqçılıq və ovçuluq;
V. Köçərilik;
VI. Minerallarn hasilatı;
VII. Xammalın e"malı və istifadəsi;

VIII. Sənaye;
IX. Nəqliyyat;
X. Ticarət (Banklar, kredit və sığorta idarələri də daxil olmaqla);
XI. İctimai təşkilatlar və sərbəst peşələr;
XII. Silahlı qüvvələr;
XIII. İdarəetmə;
XIV. Sərbəst peşələr;
XV. Gəlirlər hesabına yaşayan şəxslər;
XVI. Xidmətçilər.

Bu təsnifat sonralar xalq təsərrüfatı sahələrinin və əməyin təsnifatı adlandırıldı. Bu təsnifatda vahid prinsipə əməl edilmədiyindən məhsulların texnoloji e"malı insanların sosial-iqtisadi fəaliyyət formaları ilə qarışdırılmışdır. Minerallarn çıxarılması, sənayenin başqa sahələrindən ayrılmış, ticarət və kredit idarələrinin fəaliyyəti sənaye ilə bir sinfə daxil edilmişdir. Bundan başqa təcrübədə xalq təsərrüfatı sahələrinin təsnifatı əhalinin məşğuliyyətinin təsnifatına uyğun gəlməyə də bilər (məsələn, sərbəst peşə sahibləri incəsənət və maarif sahəsinə daha çox uyğun gəlir.)

Beynəlxalq Statistika İnstitutunun 1925-ci ildə Romada çağırılan sessiyası xalq təsərrüfatı sahələrinin təsnifatı məsələsinə baxdı və xalq təsərrüfatı sahələrini aşağıdakı kimi bölməyi tövsiyyə etdi: Bitkiçilik, maldarlıq, meşəçilik və bağçılıq, hasiledici sənaye (mə'dənlər, karxanalar və s.), e"maledici sənaye, əmtəələrin saxlanması və nəqliyyat, bank və sığorta, ticarət, fərdi xidmət, sərbəst peşələr, dövlət və ictimai xidmət.

Bu təsnifatda da əvvəlki təsnifatlarda olan qüsurlar qalmaqdadır. Burada da hasiledici sənaye e"maledici sənayedən ayrılmamış istehsal sferası qeyri-istehsal sferasından dəqiq ayrılmamış, ictimai üstqurumlar dəqiq müəyyən edilməmişdir.

Millətlər Cəmiyyətinin Statistika Ekspertləri Komitəsi 1939-cu ildə məşğuliyyəti olan əhalinin xalq təsərrüfatı sahələri üzrə aşağıdakı kimi təsnifatlaşdırmağı təklif etdilər:

1. Bitkiçilik, meşəçilik və balıqçılıq;
2. Dağ sənayesi, daş karxanaları;
3. Fabrik-zavod sənayesi;
4. Tikinti;
5. Nəqliyyat və rabitə;
6. Kommersiya müəssisələri;
7. Mehmanxanalar və fərdi xidmətlər;
8. İctimai xidmət və dəqiq təsnifatlaşdırıla bilinməyən başqa xidmət növləri;
9. Dəqiq təsnifatlaşdırıla bilinməyən başqa fəaliyyət sahələri.

9 bölmə, 45 qrup və 94 sahədən ibarət olan bu təsnifatlaşdırmada sahələr əvvəlki təsnifatlara nisbətən daha ardıcıl verilsə də ciddi qüsurlar qalırdı. Bu təsnifatlaşdırmaya əsasən maddi istehsal və qeyri-istehsal sahələrini ayırmaq çətinlik törədirdi. Məsələn: sərnişin nəqliyyatı və əhaliyə xidmət edən rabitənin maddi istehsal sferasına daxil edilməsi iqtisadi nəzəriyyəyə uyğun deyildi.

1947-ci ildə BMT-nin Statistika Komissiyasının ilk sessiyasında e"lan edildi ki, təsərrüfat fəaliyyəti sahələrinin təsnifatı tə'cili həll edilməlidir. BMT-nin Statistika Bürosu ekspertlərinin hazırladığı belə təsnifatlaşdırmanın layihəsi 1948-ci ildə əvvəlcə BMT Statistika Komissiyası, sonra isə BMT İqtisadi və Sosial Bürosu tərəfindən qəbul edildi. BMT üzv olan ölkələrə tövsiyyə edildi ki, "Bütün təsərrüfat fəaliyyəti növlərinin beynəlxalq standart sənaye təsnifatı" adlanan bu sənəddən iqtisadi fəaliyyət sahələrini təsnifatlaşdırarkən istifadə etsinlər. Bir sıra ölkələr bu təsnifatdan istifadə edərkən öz milli təsnifatlarını hazırladılar. Həmin təsnifata dair ondan istifadə edən ölkələrin və beynəlxalq təşkilatların iradları toplanaraq ümumiləşdirildikdən sonra 1958-ci ildə BMT Statistika Komissiyasının 10-cu sessiyasında yenidən baxıldı və "ISIC" adı ilə təsdiq edildi. Bu təsnifatlaşdırmanın məqsədi milli təsnifatlaşdırmaları əvəz etmək və milli statistik mə"lumatların beynəlxalq müqayisəsini tə"min edən əsas yaratmaqdan ibarət idi. 9 bölmə, 85 qrup və 124 yarımqrupdan ibarət olan bu təsnifatlaşdırma 1960-cı ilədək istifadə olundu. Burada da sahələri qruplaşdırarkən bir-birindən uzaq sahələr (məsələn: ticarət, bank, sığorta, hərəkət etməyən əmlaklara əməliyyatlar) eyni qrupda (6-cı qrup) birləşdirilmişdi.

Dövlət orqanları, məktəblər, teatrlar, restoranlar və bərbərxanaların eyni bölmədə birləşməsi nəzəri baxımdan əsaslandırılmamışdı.

1970-ci ildə "Avropa Birliyində İqtisadi fəaliyyətin əsas sahə təsnifatı" (NACE) təsdiq edildi. Lakin o vaxt ayrı-ayrı iştirakçı dövlətlərin tələbləri arasında fərqlərin mövcudluğu həmin təsnifatın ümumavropa bazarı ölkələrində tətbiq edilməsini məhdudlaşdırdı. Həmin təsnifat 1986-cı ildə yenidən baxıldı və 1990-cı ildən ümumavropa bazarı ölkələrində tətbiq edilməsi qərarı alındı.

Müasir tələbləri nəzərə almaqla BMT-nin statistika üzrə komissiyası 1989-cu ildə sahələrin Beynəlxalq standart təsnifatını (ISIC) üçüncü redaksiyada təsdiq etdi və BMT üzvü olan ölkələrdə yayılmaq üçün tövsiyyə edildi.

Yeri gəlmişkən qeyd edək ki, Respublika Nazirlər Kabinetinin 69 saylı 8 dekabr 1992-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında beynəlxalq praktikada qəbul edilmiş uçot və statistika sisteminə keçirilməsinin Dövlət proqramına əsaslanaraq Azərbaycan

respublikası DSK respublikamızda istifadə etmək üçün özünün "İqtisadi fəaliyyət növlərinin təsnifatı"nı (İFNT) hazırladı.

Sahələrin Beynəlxalq standart təsnifatı (SBST) 1989-cu ildə qəbul edilmiş üçüncü redaksiyası müxtəlif ictimai sistemlərə malik dövlətlərin milli təsnifatlarını nəzərə almaqla tərtib olunmuşdur. Bu təsnifatda əsas müşahidə vahidi kimi müəssisə və idarələr, əlavə vahid kimi isə fəaliyyətin ümumi görkəminə əsaslanan köməkçi və texniki vahid götürülmüşdür.

SBST-də (ISIC) təsərrüfat fəaliyyətinin bütün növləri əhatə olunmuşlar. Bu təsnifata 17 seksiya, 158 qrup və 252 sinif daxil edilmişdir. İndi qüvvədə olan SBST-də e"maledici və dağ-mə'dən sənayesinin bölmələri daha təfsilatı ilə şərh edilmiş, hərəkətetməyən əmlak və başqa işlərə aid yeni yarım bölmə, kompüteri səciyyələndirən bölmə daxil edilmiş, informasiya tə"minatına fəaliyyət sahəsi kimi xüsusi diqqət yetirilmişdir.

§4.3.Azərbaycan Respublikasında İFST

Azərbaycan Respublikası DSK-nin hazırladığı İFST (F. Hacıyev və E. Hacıyev tərəfindən tərtib edilib) Avropa Birliyi iqtisadi fəaliyyətin əsas sahə təsnifatının (NACE) sinif koduna 5-ci səviyyənin artırılması yolu ilə tərtib edilmişdir. İFST-nin tərtibi zamanı NACE ona görə əsas götürülmüşdür ki, o ISIC-lə müqayisədə daha genişdir və ondan ISIC-yə keçmək əlavə problem yaratmır. Xatırladaq ki, bu təsnifatların hər ikisində 17 seksiya, 60 bölmə olduğu halda ISIC-də 158 qrup və 252 sinif, NACE -də 222 qrup və 503 sinif vardır.

Azərbaycan Respublikası DSK-nın hazırladığı İFNT-yə 17 seksiya, 60 bölmə, 222 qrup, 503 sinif və 556 alt sinif daxil edilmişdir. Azərbaycan Respublikasında İFST aşağıdakı üç hissədən və beş səviyyədən ibarətdir:

I sütun: - Kod hissəsi;

II sütun: - Fəaliyyət növlərinin adları;

III və IV sütunlar - Beynəlxalq təsnifatın müvafiq kodları

Kodlar latın hərfləri və rəqəmlərlə işarə edilir. Birinci səviyyədə seksiya adlanmaqla latın əlifbasının bir hərfi (A, V, S və s.) ilə, ikinci səviyyədə bölmə adlanmaqla kodun birinci iki hərfi ilə, III səviyyə qrup adlanmaqla kodun birinci üç rəqəmi ilə, IV səviyyə sinif adlanmaqla kodun birinci dörd hərfi ilə, V səviyyə isə alt sinif adlanmaqla beş rəqəmin İFST kodu ilə işarə olunur. I və II səviyyələr arasında yerləşən "Aralıq səviyyə" adlı alt seksiya latın əlifbasının iki hərfi ilə (AA, DA, SV və s.) işarə olunur. İFST kodu dördüncü səviyyədən NACE kodu ilə uyğun gəlir. Beşinci səviyyə isə respublika iqtisadiyyatının xüsusiyyətlərini əks etdirir. LakinNACE

təsnifatında sərbəst kodla təsnif olunmayan iqtisadi fəaliyyət növləri səviyyəsindən xırdalanan **NACE** koduna beşinci rəqəm əlavə edilmişdir. Kodun beşinci rəqəmi "∅" olan halda altsinifə müvafiq sinif eyni fəaliyyət növünü təsnif edir. İFST həm daxili və həm də beynəlxalq məqsədlərdən ötrü istifadə edilməsini tə"min etmək üçün təsnifatın III sütununda **NACE** təsnifatının, IV sütununda isə **ISIC** təsnifatının kodları verilmişdir.

İFST-da aşağıdakı fəaliyyət növləri təsnif edilmişdir:

A) Kənd təsərrüfatı, ovçuluq və meşəçilik (bölmə 01-02);
B) Balıqçılıq (bölmə 05);
C) Mə'dənçıxarma sənayesi və karxanaların işlənməsi (bölmə 10-14);
D) E"mal sənayesi (bölmə 15-37);
E) Elektrik enerjisi, qaz və s. təchizat (bölmə 40-41);
F) Tikinti (bölmə 45);
G) Topdan və pərakəndə satış; avtomabillərin və motosikllərin, məişət malları və şəxsi əşyaların tə"miri (bölmə 50-52);
H) Mehmanxana və restoranlar (bölmə 55);
I) Nəqliyyat, anbar təsərrüfatı və rabitə (bölmə 60-64);
J) Maliyyə vasitəçiliyi bölməsi (bölmə 65-67);
K) Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti (bölmə 70-74);
L) Dövlət idarəsi və müdafiə, icbari sosial tə"minat (bölmə 75);
M) Təhsil (bölmə 80);
N) Səhiyyə və sosial xidmətlər (bölmə 85);
O) Digər komunal, sosial və fərdi xidmətlər (bölmə 90-93);
P) Muzdlu xidmətdən istifadə edən şəxsi ev təsərrüfatları (bölmə 95);
Q) Toxunulmazlıq hüququ olan təşkilat və orqanlar (bölmə 99).

Beləliklə, 17 seksiya (A-dan Q-dək), 31 altseksiya (AA, AV və s. iki hərfli kodlar), 60 bölmə (01-dən 99-dək), 222 qrup (011-dən 990-dək) və 503 sinifdən (0111-dən 9900-dək) ibarət olan "Azərbaycan Respublikasında iqtisadi fəaliyyəti növlərinin təsnifatı "(İFNT) adlı gərəkli sənəd alınmışdı. Bu təsnifatda ehtiyat altsiniflər də nəzərə tutulduğundan gələcəkdə (lazım olduqca) yeni fəaliyyət sahələrini əlavə etməyə imkan verir.

§4.4. Əmtəələrin beynəlxalq təsnifatı və nomenklaturası

Beynəlxalq statistikada ən geniş tətbiq edilən təsnifatlaşdırmalardan biri əmtəələrin təsnifatıdır. İkinci dünya müharibəsindən əvvəl Millətlər Cəmiyyətinin Ekspertlər Komitəsi beynəlxalq ticarət statistikası üçün əmtəələrin minimum siyahısını nəşr

etdirmişdi. Əmtəələrin Beynəlxalq Standart təsnifatı (Standard International Trade Classificatorion) hazırlanarkən Brüssel kömrükxanasının mə"lumatları əsas götürüldü. 1950-ci ildə BMT statistika komissiyası tərəfindən təsdiq edilən təsnifat "Beynəlxalq standart ticarət təsnifatı" (BSTT) adlandırıldı. BSTT beynəlxalq ticarəti müntəzəm statistika mə"lumatları ilə təchiz etmək üçün ümumi əsasdır. Beynəlxalq ticarət və eləcə də Milli statistikada əmtəələrin standart təsnifatının hazırlanması çox mürəkkəb və müxtəlif praktiki metodoloji problemlərlə bağlı işdir. Burada həll edilməsi lazım olan əsas məsələ məhsulu qruplaşdırmaq üçün əsas əlamətin seçilməsi və təsərrüfat sahələrinin təsnifatı arasında əlaqə yaratmaqdır. Bu məsələnin düzgün qoyuluşu bir sıra statistik problemlərin həllində çox gərək olur. Məsələn, ayrı-ayrı ölkələrin xarici ticarətinin istehsala tə"sirini öyrənərkən sahələrin və əmtəələrin uyğun gəlməməsi ucbatından hesablamaların nəticəsi də səhv alınır.

Dünyanın bir çox ölkələrində xarici ticarət üçün əmtəələrin təsnifatı aparılarkən bütün əmtəələr dövlətin nəfinə rüsum hesablanan və hesablanmayan, habelə sonuncu məhsullar isə çəkiyə görə və dəyərinə görə rüsum hesablanan məhsullar qrupuna bölünür. Əmtəələrin belə bölgüsü heç bir elmi əsasa malik olmadığına görə məhsulların müvafiq qruplara aid edilməsini çətinləşdirir. Əmtəələrin standart təsnifatı zamanı adətən onların istehlak dəyəri əsas götürülür. Lakin istehlak dəyəri əlaməti də məhsulların sahələr üzrə təsnifatına tam uyğun gəlmir. Məsələn, qida məhsulları həm sənayedə və həm də kənd təsərrüfatında istehsal olunur. Odur ki, əmtəələrin düzgün təşkil olunmuş təsnifatı sahə prinsipini saxlamasıdır. Qida məhsullarının mənşəyini (sənaye, kənd təsərrüfatı) saxlamaqla əmtəələrin istehlak dəyəri ilə sahələrin təsnifatının əlaqələndirilməsi mümkün olur. Məhsulların və sahələrin təsnifatlarını uzlaşdırarkən yaranan çətinlikləri pambıq məhsulunun misalında nəzərdən keçirmək olar. Mə"lumdur ki, xam pambıq kənd təsərrüfatında istehsal edilir və sənayedə e"mal edilir. Adətən xarici dövriyyəyə çıyidindən təmizlənmiş məhsul (mahlıc) cəlb edilir. Əmtəələrin təsnifatını apararkən eyni adlı məhsulun dəyərinin hansı hissəsinin kənd təsərrüfatı və hansı hissəsinin sənayeyə aid olması xüsusi üsulların köməkliyi ilə müəyyən edilir. Bu problemi həll etmək üçün sənaye məhsulları qrupunun tərkibində "kənd təsərrüfatı məhsullarının e"malı" adlı ayrıca bölməni (mövqeyi) ayır-maq lazım gəlir.

Əmtəələrin təsnifatını hazırlayarkən məhsulların hazırlıq dərəcəsinə görə (xammal, material, yarımfabrikat və s.) qrupun ayrılması ilə əlaqədar da bir sıra problemlər qarşıya çıxır. Məsələ ondadır ki, bütün məhsulların belə qruplara ayrılması nisbi anlayışdır. Eyni hazırlıq

dərəcəsinə malik məhsul bir sahə üçün hazır məhsul, başqa sahə üçün isə yarımfabrikat ola bilər. Bundan əlavə eyni məhsul (məsələn: daş kömür), bilavasitə istehlak məhsulu (yanacaq) kimi, başqa bir sahə üçün isə xammal kimi istifadə oluna bilər. Un, şəkər tozu, parça və bu kimi istehsal materialı kimi istifadə oluna bilər. Belə hallarda məhsulların hansı qrupuna aid edilməsi bütün milli iqtisadiyyat baxımından onun təkrar istehsal prosessində həll edilir. Nəzərə alınır ki, kənd təsərrüfatı və hasiledici sənaye, e"maledici sənaye üçün xammal istehsal edir. Bu me'yarın qəbul olunması əvvəlcədən sahədaxili dövriyyədə olan predmetləri (yarımfabrikatdarı və s.) təsnifatlaşdırmadan çıxarır.

İctimai istehsalın inkişaf etməsi nəticəsində ayrı-ayrı məhsulların iqtisadi xarakteri və milli iqtisadiyyatda xüsusi çəkisi də dəyişir. Məsələn, əsas kənd təsərrüfatı və bir başqa istehlak məhsulu olan kartof bir sıra sənaye məhsulları (kraxmal, spirt və s.) üçün xammal kimi istifadə olunur. Konserv sənayesinin inkişafı ilə əlaqədar olaraq meyvə yeni tə"yinat kəsb edir. Bütün bunlar onu göstərir ki, vaxt keçdikcə əmtəələrin mövcud təsnifatına yenidən baxılmalıdır. Beləliklə, hər bir məhsulun ümumi maddi istehsal prosesində e"mal dərəcəsi, onun iqtisadi funksiyası və əsas tə"yinatı əmtəələrin beynəlxalq və milli təsnifatında onların yerlərini müəyyən edir.

Hal-hazırda BSTT-nin BMT Statistika komissiyası tərəfindən 1985-ci ildə bəyənilmiş 3-cü dəfə yenidən baxılmış variantından istifadə edilir. Bu BSTT 10 bölmə, 67 şö"bə, 261 qrup və 1033 yarımqrupu əhatə edir. Bu yarımqrupların 720-si 2805 ada (mövqeyə) bölünür. Beynəlxalq ticarət statistikasının təhlil imkanlarını genişləndirmək üçün BSTT əmtəələr daha iriləşdirilmiş kateqoriyalar üzrə də təsnifat-laşdırılmışdır. Məsələn, xammal və e"mal edilmiş qida məhsulları, içkilər, maşınlar, nəqliyyat avadanlıqları və s.

1978-ci ildə Brüsel gömrük nomenklaturası yenidən baxıldı və "Gömrük əməkdaşlığı Şürasının Nomenklaturası" (GƏŞN) adı ilə nəşr edildi. 21 bölmə, 99 fəsil və 1011 əmtəə qrupunu əhatə edən GƏŞN dünyanın bir çox ölkələrində milli gömrük rüsumları, xarici ticarət statistikası sahəsində statistika təcrübəsində geniş istifadə olunur.

Hal-hazırda dünya ticarətinin 75%-i GƏŞN tətbiq edən ölkələrin payına düşür. 1983-cü ildə Gömrük Əməkdaşlığı Şurası (GƏŞ) əmtəələrin harmonizasiya edilmiş (uyğunlaşdırılmış, həmahəng edilmiş) təsviri və kodlaşdırılması sistemini (Harmonied Commodity Description and Coding Sustem) qəbul etdi. Harmonizasiya edilmiş sistem-gömrük idarələrinin, statistika xidmətlərinin kommersiya fəaliyyəti tələblərinə cavab verən, ticarət statistikasına dair milli statistikaların mə"lumatlarının müqayisəliliyini tə"min edən, müxtəlif

ölkələrin istehsal və xarici ticarət fəaliyyətlərinin əlaqələndirilməsini tə"min edən çoxməqsədli Əmtəə Nomenklaturasıdır. Hal-hazırda bu sistemlərdən 150-dən çox dövlət istifadə edir. Bu nomenklaturalarda altı dərəcəli (rəqəmli) kodlardan istifadə olunur. Milli statistika orqanları bu kodlaşdırmanın yeddinci və səkkizinci dərəcəsindən istifadə edirlər.

Harmonizasiya edilmiş təsvir və kodlaşdırma sisteminin ticarət üzrə müxtəlif ölkələrin xarici ticarət statistikası mə"lumatlarının müqayisəliliyini tə"min etməklə yanaşı gömrük rüsumlarının artmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikası DSK-si bu təsnifatlaşdırmaya əsaslanaraq respublikamız üçün əmtəələrin yeni təsnifatını hazırladı.

§ 4.5. Məhsul növlərinin təsnifatı

Dövlətlərarası və bir dövlətin daxilində informasiya mübadiləsi zamanı iqtisadi fəaliyyətin nəticəsi kimi məhsul növlərinin dəqiq təsnifatlaşdırılmış nomenklaturasının müəyyən edilməsinə ehtiyac yaranır. Məhsul dedikdə ictimai əməyin nəticəsi olan daşınan və daşınmaz əmlak, əmtəələr və xidmət növləri başa düşülür. Ona görə də məhsul növlərinin təsnifatı iqtisadi fəaliyyət növlərinin təsnifatı ilə uzlaşdırılır.

Azərbaycan Respublikasının DSK respublikamızın iqtisadiyyatının xüsusiyyətlərini nəzərə alaraq məhsul növlərinin təsnifatını hazırlayarkən Avropa İqtisadi Birliyinin statistika komitəsi tərəfindən hazırlanmış və tətbiqi bu birliyə daxil olan bütün ölkələr tərəfindən məcburi olan SRA təsnifatından istifadə etmişdir.

Məhsul növlərinin təsnifatı iki hissədən (ad və kod hissələri) və səkkiz səviyyədən ibarətdir:

- ◊ birinci səviyyədə hərf kodu ilə işarə edilmiş 17 seksiya;
- ◊ aralıq səviyyədə iki hərfli kodla işarə edilmiş 31 alt seksiya;
- ◊ ikinci səviyyədə ikirəqəmli kodla işarə edilmiş 31 altseksiya;
- ◊ üçüncü səviyyədə üçrəqəmli kodla işarə edilmiş 221 qrup;
- ◊ dördüncü səviyyədə dördrəqəmli kodla işarə edilmiş 503 sinif;
- ◊ beşinci səviyyədə beşrəqəmli kodla işarə edilmiş 946 kateqoriya;
- ◊ altıncı səviyyədə altırəqəmli kodla işarə edilmiş 2303 yarımkateqoriya;
- ◊ yeddinci səviyyədə yeddirəqəmli kodla işarə edilmiş növlər;
- ◊ səkkizinci səviyyədə isə səkkizrəqəmli kodla işarə edilmiş yarımnövlər


öz əksini tapmışdır.

Azərbaycan Respublikası DSK-nin hazırladığı məhsul növlərinin

təsnifatı dördüncü səviyyəyədək SRA təsnifatı ilə üst-üstə düşür. Yeddinci və səkkizinci səviyyələrdə Azərbaycanın istehsal və xidmət xüsusiyyətlərini əks etdirən, lakin SAR təsnifatında sərbəst kodla təsnif olunmayan məhsul növləri göstərilmişdir.

Məhsul növlərinin təsnifatında SRA təsnifatına, Harmonik sistemə (HS) və Kombinələşdirilmiş nomenklaturaya (CN) keçidlər verilmişdir.

Azərbaycan Respublikası DSK-nin tərtib etdiyi məhsul növlərinin təsnifatının kod strukturunu sxematik şəkildə aşağıdakı kimi göstərmək olar:



Sxem 1. Məhsul növlərinin kod strukturunun sxemi

§ 4.6. Məşğuliyyət növlərinin təsnifatı

Beynəlxalq əmtəə və əhali statistikasında məşğuliyyət növlərinin təsnifatına xüsusi əhəmiyyət verilir. Məşğuliyyət anlayışı müəyyən mə"nada "Peşə" anlayışına uyğun gəlsə də ondan genişdir. 1995-ci ildə Beynəlxalq statistika İnstitutunun Berndə çağırılan 5-ci sessiyasında məşğuliyyət növlərinin 12 bölmə, 61 qrup və 499 peşə (məşğuliyyət) növünün nomenklaturası təklif olunmuşdu. Bu nomenklaturada əsas peşələrlə yanaşı əlaltı (köməkçi) məşğuliyyət növlərini də qeydə almaq tələb olunurdu. Bu sessiyanın tövsiyyələrinə əsasən işsizliyi müddətinə görə bir həftə, iki həftə, üç-dörd həftə, üç-beş həftə, altı-on iki həftə, bir-üç ay, üç-beş ay, altı-on iki ay, bir il və daha çox müddətdə işləməyənlər qrupuna ayırmaq məqsədəuyğun hesab olunurdu.

İnstitut tövsiyyə edirdi ki, işsizliyə dair əsas mə"lumat mənbəyi kimi siyahıyaalmalardan, həmkarlar İttifaqları Statistikasından və sosial

sığorta statistikasından istifadə etmək lazımdır. Dövlət, bələdiyyə və fərdi müəssisələrdə əmək şəraitini müqayisə etmək də təklif olunurdu.

Əmək statistikasının 1947-ci ildə keçirilən 7-ci Beynəlxalq konfransı əsas məşğuliyyət qruplarının siyahısını təklif etdi. 1954-cü ildə keçirilən 8-ci konfransda isə bu təsnifatın 71 yarımqrupunun layihəsi təsdiq edildi.

Məşğuliyyət növlərinin təsnifatı üzrə beynəlxalq ekspertlər qrupu 1955-ci ildə Cenevrədə 170 məşğuliyyət növünün siyahısını hazırladı və əvvəl təklif olunmuş layihəyə dair müxtəlif dövlətlər tərəfindən göndərilmiş iradları nəzərdən keçirdi. Sonradan bu təsnifat Beynəlxalq əmək bürosunda daha da genişləndirildi (2000 məşğuliyyət növünədək), əmək statistiklərinin 9-cu Beynəlxalq konfransında (1957-ci ildə) təsdiq edildi. BMT orqanları bu təsnifatı beynəlxalq standart kimi tövsiyyə etdi. Tövsiyyə edildi ki, əhali siyahıyaalınmalarında "Məşğuliyyətlərin təsnifatı" Beynəlxalq standart kimi istifadə olunsun.

Peşələrin "Beynəlxalq Standart Təsnifat"ının ümumi sxemi aşağıdakı kimidir:

I.	Əsas qrup 0.	Sərbəst texniki və qarışıq peşələr.
II.	Əsas qrup 1.	Direktorlar və ali inzibati kadrlar.
III.	Əsas qrup 2.	Dəftərxana xidmətçiləri.
IV.	Əsas qrup 3.	Ticarət işçiləri.
V.	Əsas qrup 4.	Kənd təsərrüfatı işçiləri, balıqçılar, ovçular, meşə sənayesi işçiləri.
VI.	Əsas qrup 5.	Şaxtaçılar və hasiledici sənayenin başqa işəçiləri.
VII.	Əsas qrup 6.	Nəqliyyat və rabitə işçiləri.
VIII-IX.	Əsas qrup 7-8.	Peşəkarlar və istehsal fəhlələri (e"maledici sənaye və tikinti)
X.	Əsas qrup 9.	Xidmət sferası işçiləri.
XI.	Əsas qrup 10.	Məşğuliyyət növləri üzrə təsnifata mə"ruz qalmayan işçilər.

Bu təsnifatda hərbi xidmətçilər tam əhatə olunmadığından ümumi təsnifatdan kənarda ayrıca mövqe kimi ayrılmışdır. Lakin məşğuliyyətlərin təklif olunan Beynəlxalq standart təsnifatı məşğuliyyət sahələri fəaliyyət sahələrinin Beynəlxalq standart təsnifatı ilə əlaqələndirilmədiyindən ciddi qüsurlara malik idi. Bu təsnifatlarda təbiət elmləri üzrə mütəxəssislər, mühəndislər, aqronomlar, müəllimlər, tibb işçiləri, iqtisadçılar, yazıçılar və mədəniyyət işçiləri ilə din xadimləri eyni qrupa (0 qrupuna) daxil edildiyi halda mühasiblərlə hesabdarlar (dəftərxana işçiləri qrupuna) ayrı-ayrı qruplara daxil edilmişlər. Bu təsnifat nədənsə yazı maşınlarına xidmət edən texniklər də "dəftərxana işçiləri" qrupuna daxil edilmişdir.

Məşğuliyyətlərin təsnifatı aparılarkən ayrı-ayrı şəxslərin sosial vəziyyəti də axıradək həll edilməyib. Bunun nəticəsində müəssisə sahibləri ilə xidmətçilər eyni qrupa daxil edilmişlər. Əhalinin müxtəlif sosial tiplərini eyni məşğuliyyət qrupuna daxil edilməsi gəlirlər və həyat səviyyəsinə dair statistika göstəricilərini təhlil edərkən daha böyük çətinliklərə gətirib çıxarır.

Məşğuliyyət növlərinin standart beynəlxalq təsnifatı ilə məşğul olan bir sıra ekspertlərin (məsələn: T.V.Ryabuşkinin) fikrincə sahibkarlarla muzdlu işçiləri eyni peşə qruplarına salmaq düzgün deyildi.

BƏT-nin təklif olunan tövsiyyələrində polis işçiləri ilə musiqiçilərin eyni qrupa daxil edilməsi də elmi cəhətdən əsaslandırılmayıb.

Məşğuliyyət növlərinin Beynəlxalq Standart təsnifatının sonuncu variantında texniki tərəqqinin tə"siri nəticəsində yeni yaranmış peşələrin tam uçota alınmaması, əqli, fiziki əmək sahəsində peşələr arasında dəqiq fərqin qoyulmaması və s. tam həll edilməmiş məsələlərin də mövcudluğu müşahidə olunur.

BMT BƏT-nin əmək statistikası üzrə ekspertləri problem xarakterli bu məsələlərin həlli üzərində işləməkdədirlər.

Keçmiş SSRİ-də məşğuliyyət növlərinin təsnifatı fəaliyyət sahələrinin təsnifatı ilə əlaqələndirilərkən əhali siyahıya alınmalarının və başqa tədqiqatların yekunlarını işləyərkən geniş istifadə edilirdi. Hər bir sahə daxilində bu sahəyə məxsus olan əsas peşələrin adları sadalanır, hər peşəyə aid olan başqa peşələri, isə "sair" qrupunda birləşdirilirdi. Konkret sahə üçün xarakterik olmayan peşələr isə həmin peşənin əsas sayıldığı sahənin tərkibində verilirdi. Məsələn, toxuculuq fabrikində işləyən cilingər toxucular qrupuna deyil, metalçılar qrupuna daxil edilirdi.

Müstəqillik qazanmış Azərbaycan Respublikasının DSK-nın mütəxəssisləri bütün yuxarıda deyilənləri və beynəlxalq tövsiyyələri nəzərə alaraq "Məşğuliyyət sahələrinin təsnifatını" hazırlamışlar.

Nəzarət üçün suallar

1. *Beynəlxalq statistikada ən mühüm təsnifatlar hansılardır?*
2. *Azərbaycan Respublikasında hansı təsnifatlardan istifadə edilir?*
3. *İqtisadi fəaliyyət sahələrinin təsnifatı necə qurulur?*
4. *Əmtəələrin təsnifatı nə üçün aparılır?*
5. *Məhsul növlərinin kod strukturu necədir?*

V FƏSİL
MİLLİ SƏRVƏT STATİSTİKASI

§5.1. Beynəlxalq statistikada milli sərvət anlayışı və MHS-də onun yeri

Hər hansı ölkənin iqtisadi potensialını qiymətləndirərkən əsas götürülən məsələlərdən biri həmin ölkənin milli sərvətinin həcmi, tərkibi və istifadə dərəcəsidir.

Statistikada ümumi şəkildə milli sərvət dedikdə təkrar istehsal edilə bilən və təkrar istehsal edilə bilməyən sərvətlər, habelə xarici aktivlərin cəmi başa düşülür. Burada təkrar istehsal edilə bilən sərvət dedikdə əsas kapital, dövriyyə kapitalı və əhalinin mülkiyyətində olan uzun müddətli istehlak əşyalarının dəyəri başa düşülür. Təkrar istehsal edilməyən sərvətlərə təbii ehtiyatlar (təbiətin etdiyi hədiyyə) daxil edilir.

Beynəlxalq statistikanın tövsiyyə etdiyi yeni MHS-ndə milli sərvət göstəricilərinin hesablanması "istehsal və iqtisadi yüksəliş amilləri nəzəriyyəsi"nin müddəalarına əsaslanır. Bu konsepsiya ölkədə iqtisadiyyatın bütün əsas sektorları üzrə, həm hüquqi və həm də fiziki şəxslərdə olan maddi, qeyri maddi və maliyyə aktivlərinin yığımını əks etdirir. Sektorların belə kapitallarının cəmi ölkənin "öz kapitalı"nı və ya "Milli sərvətini" təşkil edir. Bu göstəricilərin hesablanması yığım prosesinə dair geniş mə"lumatın olmasını tələb edir.

Dünyanın bir çox ölkələrinin milli statistikasında belə mə"lumat tam həcmdə yoxdur. Buna görə də milli sərvətə dair yeni konsepsiyanın həyata keçirilməsi bütün milli statistika orqanlarının qarşısında əsas vəzifə kimi qoyulmuşdur. Bu isə öz növbəsində milli sərvətin ünsürlərinin yeni təsnifatını və göstəricilərin (xüsusilə qeyri-maddi və maliyyə aktivləri üzrə) yeni hesablanma metodlarını işləyib hazırlanması tələb edir. Deyilənlərlə əlaqədar olaraq bütün dünya ölkələrinin statistika orqanlarının qarşısında milli sərvət göstəricilərinin yeni beynəlxalq standartların tələb-lərinə cavab verə bilən metodologiyasını hazırlamaq vəzifəsi durur. Bu vəzifələrdən ən əsasları aşağıdakılardır:

1. Milli sərvət kateqoriyasının və onun tərkib ünsürlərinin iqtisadi məzmununu dəqiq müəyyən etmək;
2. Müxtəlif əlamətlər (natural əşya tərkibinə, mülkiyyət formasına, ərazi, sahə, iqtisadiyyat sektorları və s.) üzrə təsnifatlar hazırlamaq;
3. Milli sərvətin konkret ünsürlərinin qiymətləndirilməsinin vahid metodoloji prinsiplərini hazırlamaq;
4. Milli sərvətin həcmi, quruluşu və dinamikasını əks etdirən lazımi informasiya bazasını hazırlamaq;
5. Milli sərvət ünsürlərinin müşahidəsini təşkil etmək üçün statistik instrumentariyanı hazırlamaq;

6. Milli sərvətə dair hesablanmış göstəricilərin başqa ümumiləşdirilmiş göstəricilərlə qarşılıqlı əlaqəsini müəyyən etmək;

7. Ölkənin iqtisadi inkişafında milli sərvət ünsürlərinin rolunu müəyyən etmək üçün törəmə göstəricilərin hesablanma metodologiyasını hazırlamaq.

Milli sərvəti öyrənmək baxımından konkret ölkənin iqtisadiyyatını xarakterizə edən göstəricilər arasında il ərzində yaranan məhsulun həcmi, onun istehlaka və yığıma bölünməsi böyük əhəmiyyətə malikdir. Məhsulun həcmi və onun bölüşdürülməsinə dair düzgün mə"lumat yekun göstəricilərinin qarşılıqlı əlaqəsi çərçivəsində əldə edilə bilir.

BMT-nin tövsiyyəsi ilə 1993-cü ildən tətbiq olunan MHS-də maddi və maliyyə aktivləri göstəricilrinin hesablanmasına dair bir sıra metodoloji dəqiqləşdirilmələr və izahatlar verilir. Burada maddi və maliyyə resursları yığımının xalis göstəricilərinin (yə"ni köhnəlməsi çıxarılmaqla) müvafiq resurs növləri ilə cari əməliyyatını əks etdirdiyi göstəricilər arasındakı qarşılaşma əlaqəsinə xüsusi diqqət yetirilmişdir. Bu da öz növbəsində MHS-nın cari əməliyyat hesabları vasitəsilə milli sərvət üzrə köməkçi cədvəllərin mə"lumatlarının hesabat dövründə milli səvrvət ünsürlərinin istehsalı və yığımı göstəriciləri ilə əlaqələndirilməsinə imkan verir.

Yeni MHS-də milli sərvətin həcmi və quruluşunun dəyişməsi ilə əlaqədar olan bütün əməliyyatlar yığım hesablarında əks etdirilir. Bu hesablar hesabat dövründə maddi və maliyyə aktivlərinin tamamlanmasını, sıradan çıxmasını və istifadəsini əks etdirirlər. Həmin hesablar sırasında "Kapitalla əməliyyatlar hesabı", "Maliyyə hesabı", "Aktivlərin həcmində başqa dəyişikliklər hesabı" və "Yenidən qiymətləndirmə hesabı" xüsusi yer tutur. "Kapitalla əməliyyatlar hesabı" ayrı-ayrı iqtisadi vahidlər tərəfindən yığımın kapital qoyuluşlarına, yə"ni əsas kapitalın yaradılmasına və əmtəə-maddi qiymətlilərin ehtiyatlarının əlavə artımına necə istifadə olunmasını səciyyələndirir. Bu hesab kapital aktivlərin iqtisadiyyat sektorları və sahələri arasında, habelə götürülmüş ölkə ilə "qalan dünya" arasında necə bölüşdürüldüyünü əks etdirir.

Bu bölgü ya əsaslı transfertlər, ya da qiymətlilərin, torpağın və yenidən bərpa olunmayan aktivlərin dəyərinin xalis alınması yolu ilə həyata keçirilir. Bu da nəticədə öz əksini millətin "xalis borcları" və ya "xalis kreditləri" göstəricisində tapır. Bu göstəricilər isə millətin maliyyələşdirmə qabiliyyətini və ya ölkə daxilində "qalan dünya" tərəfindən maliyyələşdirməyə tələbatını əks etdirir.

"Maliyyə hesabı" maliyyə aktivlərinin əldə edilməsini və istifadəsini əks etdirir. Belə halda maliyyə aktivlərinin əldə edilməsi maliyyə passivlərinin artımına bərabər olmalıdır. Belə bərabərlik nəticəsində

iqtisadiyyat üzrə bütövlükdə iqtisadi fəaliyyətin balanslaşdırılması tə"min olunur.

"Aktivlərin həcmində başqa dəyişikliklər hesabı" qeyri-iqtisadi əməliyyatların (təbii fəlakət, müharibə, qeyri qanuni fəaliyyət və s.) aktivlərin həcminə tə"sirini əks etdirir.

"Yenidən qiymətləndirmə hesabı" hesabat dövründə qiymətlərin dəyişməsinin milli sərvətin ayrı-ayrı ünsürlərinin dəyərinin artmasına və ya azalmasına tə"sirini xarakterizə edir.

Bu hesablar milli sərvətin ayrı-ayrı ünsürlərinin dəyişməsi ilə əlaqədar bütün əməliyyatları əks etdirməklə yanaşı iqtisadi vahiddir, sahələr və iqtisadiyyat üzrə bütövlükdə aktivlər və passivlər balansını qurmaq üçün baza rolunu oynayır.


Yekun göstəriciləri arasında milli sərvət göstəricilərinin dəqiq yeri və onların hesablanması prinsipləri ilk dəfə olaraq 1993-cü ilin MHS-də müəyyən edildi.

Maliyyə və maddi aktivlər göstəricilərinin əhəmiyyəti bir də ondadır ki, bütün iqtisadiyyat sektorları üzrə "fərdi kapitalın" cəmindən ölkənin "milli sərvəti" və ya "milli kapitalı" yaranır.

1993-cü ilin MHS-nin tərtibinə dair BMT-nin tövsiyyələrinə əsasən milli sərvətə aşağıdakı kimi tə"rif vermək olar: Milli sərvət insan əməyinin məhsulu olan yığımın maddi ne"mətlərin, kiminsə mülkiyyətində olan torpağın və təbii resursların, habelə təkrar istehsal oluna bilməyən qeyri-maddi və maliyyə aktivlərinin cəmidir.

BMT-nin tövsiyyə etdiyi yeni MHS-nin standartına görə milli sərvət göstəriciləri ölkədə toplanmış "qeyri-maliyyə" (maddi və qeyri-maddi) və "maliyyə" aktivlərinin cəmindən dövrün əvvəlinə və axırına müəyyən edilmiş öhdəliçilikləri çıxmaqla müəyyən edilir.

MHS-nin yeni standartında milli sərvətə aid göstəricilərin qarşılıqlı əlaqəsini aşağıdakı kimi əks etdirmək olar:



Sxem 2. Milli sərvətə aid göstəricilərin qarşılıqlı əlaqəsi

Hər bir sektor üzrə "fərdi kapital" göstəricilərini və ya bütün ölkə üzrə milli sərvət göstəricilərini əks etdirən cədvəllər il ərzində milli hesabdarlıqda həyata keçirilmiş bütün əməliyyatlarla əlaqədə hər bir

sektorun aktivlərinin ilin əvvəlinə və axırına mövcudluğunu balanslaşdırmalıdır.

Köməkçi cədvəllər bütün aktivləri və öhdəçiliklərin əlaqəsindən istifadə etməklə ölkə üzrə bütün aktivləri və öhdəçilikləri ümumiləşdirir, həm ölkə daxilində və həm də ondan xaricdə iqtisadi göstəricilərin qarşılıqlı əlaqəsini tə"min edir.

§5.2. "Fərdi kapital" və milli sərvət konsepsiyası

Yeni MHS-də təsərrüfat vahidləri, sektorlar və ölkə üzrə bütövlükdə aktivlər və passivlər balansını aşağıdakı sxem üzrə qurmaq təklif olunur:

1-ci cədvəl

Aktivlər və passivlər balansı

Aktivlərin siyahısı	Əməliyyatlar və saldolaşdırıcı maddələr	Passivlər-öhdəçiliklərin siyahısı
	1.1. Qeyri-maliyyə aktivləri: 1.2. İstehsal olunmuşlar; 1.3. İstehsal olunmamışlar	
	2. Maliyyə aktivləri	
	3. Öhdəçiliklər	
	4. Fərdi kapital (1+1-3)	

Hər bir təsərrüfat vahidi və ya təsərrüfat sektoru üçün milli sərvətin ünsürü olan "fərdi kapital" (4) "qeyri maliyyə" aktivləri (1) və "maliyyə aktivləri"nin (2) cəmindən bütün öhdəçilikləri çıxmaqla tapılır.

Ölkə üzrə bütövlükdə "fərdi kapital" adətən milli sərvət adlanır. Deməli, ölkənin milli sərvəti ölkədə olan bütün təsərrüfat vahidlərinin (sektorların) aktivlərinin cəmindən başqa ölkələrin xalis tələblərini çıxmaqla müəyyən edilir. Milli sərvətə daxil olan ünsürlərin mülkiyyət hüququ me"yarlarına uyğun olaraq belə müəyyənləşdirilməsi (məhdudlaşdırılması) bazar iqtisadiyyatına keçərkən və başqa ölkələrlə qarşılıqlı əlaqələri genişləndirərkən ciddi əhəmiyyət kəsb edir.

MHS-nin yeni standartında aktivlər istilahı sektorların "fərdi kapital"ını və ölkənin milli sərvətini təşkil edən əsas ünsür kimi başa düşülür.

Bütün aktivlər iki yerə bölünür:

1) "qeyri maliyyə" aktivləri

a) istehsal edilmiş aktivlər (AN.1). Buraya sektorların istehsal hesabında öz əksini tapan istehsal prosesinin
məhsulları daxildir.

b) istehsal edilmiş aktivlər (AN.2). Buraya istehsal prosesindən

başqa yollarla yaranan aktivlər aiddir.

İstehsal aktivləri aşağıdakı üç tipdən ibarətdir:

a) "Əsas kapital" (əsas fondlar)

b) "Ehtiyatlar" (maddi dövriyyə vəsaitləri ehtiyatları və rezervlər)

v) qiymətli metallar və daşlar, zərgərlik mə"mulatları, incəsənət əsərləri və sairədən ibarət olmaqla yığım vasitəsi kimi "qiymətlilər" (əhalinin ev əmlakı "arayış" şəklində göstərilir).

İstehsal edilmiş aktivlərin ilk iki tipi (*a* və *b* tipləri) öz tərkibinə görə (qeyri-maddi əsas kapital istisna olmaqla) indiyədək MDB ölkələrində hesablanan milli sərvət göstəricisinə əsasən uyğun gəlir. Bu da öz növbəsində MHS-də tövsiyyə edilən standartlara keçməyə imkan verir.

İstehsal edilmiş aktivlərin üçüncü tipi (yığım vasitəsi kimi istifadə olunan qiymətlilər) indiyədək birlik ölkələrində milli sərvət göstəricilərinə (əhalinin əmlakı istisna olmaqla) daxil edilmirdi.

İstehsal edilməmiş aktivlərə becərmə yolu ilə təkrar istehsal edilə bilən və təkrar istehsal edilə bilməyən təbii resursların (ehtiyatların) işlənməsindən və bə"zi qeyri-maddi aktivlərdən ibarət olur. Qeyri-maddi xarakterli aktivlərə patentlər, lisenziyalar, "Qudvil" (yə"ni firmanın yaxşı adı) və s. aiddir. Birgə müəsisələrə xas olan və nisbi səviyyəsi kiçik olan belə aktivlər birlik ölkələrinin mühasibat uçotunda "qeyri-maddi aktivlər" adlanmaqla indiyədək statistikada öz əksini tapmayıb.

Milli sərvət statistikasında "qeyri-maliyyə aktivləri" ilə yanaşı "maliyyə aktivləri"nin də (ölkə üzrə bütövlükdə təsərrüfat əməliyyatlarını aparmaq və onlarla qarşılıqlı hesablamalar aparmaq üçün təsərrüfat vahidlərinin və milli təsərrüfat sektorlarında maliyyə vəsaitləri ehtiyyatları) mühüm əhəmiyyətə malikdir. Maliyyə aktivlərinin çoxu onun sahibinə (kreditorlara) bağladıqları müqaviləyə uyğun olaraq borclu təsərrüfat vahidindən ödəniş almağa ixtiyar (hüquq) verən maliyyə tələbnaməsidir. Belə tələbnamələr ölkə daxilində borclular öz öhdəliklərini yerinə yetirdikdə ödənmiş hesab edilir. Bundan əlavə, kreditor kontraktda müəyyən edilmiş şərtlərə əsasən mülkiyyətdən gəlirlər kimi faiz ala bilər. Beləliklə, aktivlərin tərkibində milli sərvətin ünsürü kimi yalnız başqa ölkələrlə qarşılıqlı hesablaşmaların saldosu ilə əlaqədar aktivlər qalır.

Maliyyə aktivləri maliyyə tələbətnamələri ilə yanaşı həm də sikkə qızılı formasında beynəlxalq valyuta fondu tərəfindən bölüşdürülən "borc götürənin xüsusi hüququ" (BGXH) və korporasiyaların səhmlərində və başqa ödəniş sənədlərində öz əksini tapır.

Yuxarıda deyilənlər baxımından "iqtisadi aktivlər" anlayışı da mühüm əhəmiyyətə malikdir. İqtisadi aktivlər dedikdə ölkədə bütün ictimai qrupları təmsil edən ayrı-ayrı şəxslərin, şəxslər qrupunun və ya

dövlətin bu aktivlərə mülkiyyət hüququnun mövcudluğu başa düşülür.

Konkret aktivlərin iqtisadi aktivlərə aid edilməsinin mühüm me"yarı müşahidəçilərə müəyyən fayda gətirməsi qabiliyyətidir.

§5.3. Milli sərvətin tərkib ünsürləri və onların təsnifatı

BMT-nin tövsiyyələrində aktivləri ölkənin milli sərvətinə və sektorların "fərdi kapitalı"nın tərkibinə daxil etmək üçün aşağıdakı kimi təsnifatlaşdırılır:

Yuxarıdakı sxemdən göründüyü kimi, BMT-nin standart təsnifatında 4-cü və 7-ci qruplar bir işarəli, 4-cü və 11-ci qruplar iki işarəli, 21-ci qrup üç işarəli, 17-ci qrup dörd işarəli və 6-cı qrup isə beş işarəli kodlarla kodlaşdırılmışdır. Belə müxtəliflik təsnifata daxil edilmiş göstəricinin yerindən və əhatə dairəsindən asılı olaraq yaranmışdır. Onun sonradan daha da xırdalanması (buna müvafiq olaraq da kod dərəcələrindəki işarələrin sayının artması) milli statistikaların tələbatından, informasiyanın vəziyyətindən asılı olaraq baş verə bilər. Təsnifatlaşdırmada hər bir sektorun tərkibində əlavə mə"lumat kimi "birbaşa xarici investisiya" adlı ayrıca maddə verilmişdir.

BMT-nin Statistika İnstitutunun 1993-cü ildə tövsiyyə etdiyi beynəlxalq standartlara görə milli sərvətə daxil olan əsas maddi və maliyyə aktivlərinin tərkibi aşağıdakı kimidir:


1. Qeyri maliyyə aktivləri (AN).-Buraya təsərrüfat vahidləri tərəfindən mülkiyyət hüququ fərdi və ya kollektiv qaydada müəyyən edilmiş və onların müəyyən müddət saxlanması və ya istifadəsindən sahiblərinə səmərə verən obyektlər aiddir. Onlar istehsal edilən və istehsal edilməyən maddi aktivlərdən, habelə haqqında müəyyən öhdəçiliklər qeydə alınmamış qeyri-maddi aktivlər aiddir.

2. İstehsal edilmiş qeyri maliyyə aktivləri (AN.1).-Buraya istehsal prosesinin son nəticəsi kimi daxil olmuş (yaranmış) qeyri-maliyyə aktivləri daxildir.

3. Əsas kapital (AN.11).-Bir ildən artıq müddətdə istehsal prosesində dəfələrlə və daima istifadə edilən istehsal edilmiş aktivlər aiddir. Bu göstərici keçmiş sovet statistikasındakı əsas fondlar anlayışına uyğun gəlir.

4. Maddi əsas kapital (AN.111).-Buraya yaşayış (və başqa) bina qurğular, maşın və avadanlıqlar və becərilən aktivlər aiddir.

BMT-nin statistika komisiyasının tövsiyyəsinə əsasən milli sərvətə daxil edilən aktivlərin əsas qruplarının təsnifatı
(təsnifatda BMT standartlarının kodundan istifadə olunmuşdur)



Sxem 3. Milli sərvətə daxil olan aktivlərin əsas qrupları

5. Yaşayış binaları (AN.1111).-Buraya tamamilə və ya əsasən mənzil kimi istifadə edilən binalar (onunla əlaqədar olan qaraj və başqa köməkçi tikililəri də daxil etməklə), ev təsərrüfatının daimi yaşayış yeri kimi istifadə etdikləri üzən evlər, barjlar, səyyar evlər və furqon evlər, habelə yaşayış binası ilə eyniləşdirilən tarixi abidələr daxildir. Yarımçıq binalar və yaşayış evlərinin tikilməsi üçün sahələrin

---

* *Təsnifatlaşmanın daha da inkişaf etdirilməsi üçün təkliflər*

təmizlənməsi xərcləri də buraya daxil edilir.

6. Sair bina və qurğular (AN. 1112)-Buraya qeyri yaşayış binaları və qurğuları daxil edilir.

7. Qeyri-yaşayış binaları (AN. 11121)-Buraya yaşayış binalarından əlavə bütün qalan binalar (qurğunun tərkib hissəsi sayılan qurğular və avadanlıqlar da daxil edilmiş), tikinti meydanının və hazırlanması xərcləri və qeyri yaşayış binası ilə eyniləşdirilmiş tarixi abidələr aid edilir.

8. Sair qurğular (AN. 11122)-Buraya yaşayış binalarından başqa məqsədlər üçün istifadə olunan binalar, onun meydançaları və kanalizasiyanı, habelə küçələrin təmizlənməsi xərcləri daxildir. Yaşayış və qeyri-yaşayış binalarına uyğunlaşdırılmayan (eyniləşdirilməyən) tarixi abidələr, tunellər və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olan başqa qurğular da bu qrupa aid edilir. Su basması ilə əlaqədar tökülən torpaqlar, dambaların tikilməsi və torpağın yaxşılaşdırılması ilə əlaqədar xərclər torpağın dəyərinə daxil edilir.

9. Maşın və avadanlıqlar (AN.1113).-Buraya nəqliyyat maşınları və avadanlıqları (ev təsərrüfatı tərəfindən son istehlak üçün əldə edilənlərdən başqa) aid edilir. Çox da baha olmayan və nisbətən sabit qiymətlərə əldə edilən alətlər, əl alətləri, bina və qurğuların ayrılmaz hissəsi olan maşın və avadanlıqlar istisna edilir.

Ev təsərrüfatının son istehlak üçün əldə etdiyi maşın və avadanlıqlar aktiv kimi nəzərdən keçirilmir. Onlar "uzun müddət istifadə edilən istehlak malları" qrupuna daxil edilir.

10. Nəqliyyat avadanlıqları (AN.11131).-Buraya əhalinin və yüklərin (və obyektləri) daşınması üçün istifadə edilən avadanlıqlar aiddir. Avtomobil, gəmi, dəmiryolu maşınları və qurğuları və tramvay, hava gəmiləri, kosmik gəmilər, motosikllər, velosipedlər və başqaları buraya daxildir.

11. Sair maşın və avadanlıqlar (AN.11132).-O biri qruplara daxil olmayan maşın və avadanlıqlar bu qrupa daxil edilir.

12. Becərilən aktivlər (AN.1114).-Buraya təsərrüfat vahidlərinin bir başa nəzarəti və məsuliyyətində olan və idarə edilən bala və süd almaq, dartıcı qüvvə və başqa məqsədlər üçün istifadə edilən mal qara, meyvə bağları, üzümlüklər aiddir.

13. Bala və süd almaq, qoşqu kimi və başqa məqsədlər üçün istifadə olunan mal-qara (AN.11141).-Buraya bala, süd və başqa məhsulu almaq üçün becərilən (saxlanılan) cins mal qara, qoyun, keçi, quş, balıq və s. heyvanlar, habelə qoşqu, cıdır və başqa məşğuliyyətlər üçün istifadə edilən heyvanlar aiddir.

14. Üzümlüklər, bar verən və dəfələrlə məhsul verən başqa plantasiyalar (AN.11142).-Buraya məhsul almaq üçün becərilən

üzümlüklər, meyvə ağacları və kolluqlar aiddir.

15. Qeyri maddi əsas kapital (AN. 112)-Buraya faydalı qazıntıların kəşfiyyatı, proqram tə"minatı, əyləncəli janra aid orjinal, bədii və incəsənət əsərləri, habelə bir ildən artıq müddətə istifadə edilə bilən qeyri-maddi əsas fondlar aiddir.

16. Faydalı qazıntıların kəşfiyyatı (AN.1121).-Buraya neft, qaz və başqa faydalı qazıntı yataqlarının kəşfiyyatına çəkilən xərclərin dəyəri aid edilir. Bu xərclərə lisenziyadan əvvəlki və lisenziya xərcləri, kəşfiyyat qazması üçün, habelə aero və başqa çəkilişlər üçün çəkilən xərclər və s. aiddir.

17. EHM-nin proqram tə"minatı (AN.1122).-Buraya maşın proqramları, sistemli və tətbiqi proqram tə"min etmək üçün lazım olan köməkçi materiallar, proqramların təsviri aiddir. Buraya hazır proqramların satın alınması və özündə istifadə etmək üçün hazırlanmış proqram tə"minatına çəkilən xərclər (əgər bu xərclər böyükdürsə), bir ildən çox müddətdə istifadəsi nəzərdə tutulan mə"lumatların kompyuter banklarının əldə edilməsinə çəkilən böyük xərclər aid edilir.

18. Orjinal, bədii, incəsənət və əyləncəli janr əsərləri (AN.1123).-Buraya orjinal filmlər, səs yazıları, əlyazmaları, tərcümələr, yazılan və teatr tamaşaları göstərmək üçün modellər, radio və televiziya proqramları, musiqili verilişlər, idman tədbirləri, bədii və incəsənət əsərləri və s. aiddir.

19. Sair qeyri maddi əsas kapital (AN.1124).-Buraya istehsal prosesində istifadəsi sahibinə və sonuncu dəfə lisenziya verənə xüsusi hüquq verən konkret sayda vahidlərlə məhdudlaşdırılan yeni informasiya və xüsusi biliklər və s. aiddir. Bunlar təchizat materialları və əşyaları, bitməmiş işləri, başqasına satılmaq üçün hazır mə"mulatları və əmtəələri əhatə edir. Dövlət tərəfindən saxlanan bütün ehtiyatlar, (o cümlədən də ölkə üçün xüsusi əhəmiyyəti olan strateji materiallar, buğda və başqa əmtəələr) də buraya daxil edilir.

20. Bitməmiş işlər (AN.122).-Buraya istehsalı qismən başa çatmış və adətən sonradan e"mal edilməyən başqa vahidlərə verilməyən, yaxud da hələlik yetişməmiş olan və gələcəkdə həmin istehlakçı tərəfindən istehsalı davam etdiriləcək əmtəələr və xidmətlər daxildir.

21. Becərilən aktivlər üzrə bitməmiş işlər (AN.1221).-Kommersiya məqsədi ilə yalnız kəsilməklə əldə edilən məhsullar almaq üçün heyvanların (quş, balıq və s.) becərilməsi, yalnız məhv edildikdən sonra məhsul verən ağaclar və başqa bitkilər və dəfələrlə bar verən yetkinləşməmiş becərilən aktivlər bu qrupa aid edilir.

22. Sair bitməmiş işlər (AN.1222).- Becərilən aktivlərdən və xidmətlərdən başqa istehsalçılar tərəfindən hazırlanan və ya yığılan,

lakin adətən sonradan e"mal edilmədən başqasına satılmayan, göndəri İmeyən və ya verilməyən əmtəələr bu qrupa aid edilir.

23. Hazır mə"mulatlar (AN.123).-Buraya adətən alındığı kim satıcılara satılan əmtəələri də daxil etməklə satışa və göndərməy hazır olan hazır əmtəələr daxildir.

24. Alıb-satmaq üçün əmtəələr (AN.124).-Buraya alıcı müəsis tərəfindən sonradan e"mal edilməyən topdan və pərakəndə satış üçü əldə edilən əmtəələr bu qrupa aid edilir.

25. Qiymətlilər (AN.13).-Buraya əsasən istehsal və istehlak üçü istifadə olunmayan, vaxt keçdikcə qiymətinin artacağı (hər hald azalmayacağı) ehtimal olunan, pisləşməyən və dəyər ehtiyatı alını saxlanılan istehsal edilən aktivlər bu qrupa daxil edilir.

26. Qiymətli metallar və daşlar (AN.131).-müəsisələr tərəfind istehsal prosesində istifadə olunacaq resurslar kimi saxlanılmaya qiymətli metal və daşlar bu qrupda birləşdirilir.

27. Antikvar mə"mulatlar və başqa incəsənət əsərləri (AN.132). Buraya incəsənət əsərləri kimi və antikvar mə"mulat kimi tapılm şəkillər, heykəllər və s. daxildir.

28. Sair qiymətlilər (AN.139).-Başqa kateqoriyaya daxil edilməyən qiymətli daşlardan və metallardan hazırlanmış zərgərlik mə"mulatla və kolleksiyalar bu qrupa aid edilir.

29. İstehsal edilməmiş aktivlər (AN.2).-Buraya istehsal proses nəticəsində yaranmamış maddi və qeyri-maddi qeyri-maliyyə aktivlər daxildir. Bu aktivlərin hüququnun başqasına verilməsi və ciddi şəkild yaxşılaşdırılmasına çəkilən xərclər də bu qrupa daxil edilir.

30. İstehsal edilməmiş maddi aktivlər (AN.21).-Buraya təbiətdə ras gəlinən, mülkiyyətinin kimə mənsub olması və başqasına verilmə müəyyən edilə bilən istehsal edilməmiş aktivlər daxildir. Mülkiyyə hüququ olmayan və müəyyən edilə bilməyən ekoloji aktivlər (dənizlər hava və s.) buraya daxil deyildir. İstehsal edilməmiş maddi aktivlə torpaq, yerin təkinin sərvətləri, bioloji və su resurslarından ibarətdir.

31. Torpaq (AN.211).-Buraya torpaq və onunla əlaqədar olan səth sularının mülkiyyət hüququ müəyyən edilmiş örtüyü (qrunt) daxildir Fiziki cəhətdən torpaqdan ayrılması mümkün olmayan və onu keyfiyyətini ciddi şəkildə yaxşılaşdıran qurğuların (damba, bəndir v s.) dəyəri də buraya daxil edilir. Torpaq qrupuna bina və qurğuları altında olan torpaqlardan, becərilən və becərilməyən torpaqlardan istirahət üçün ayrılmış və onunla əlaqədar olan səth sularının örtüyü v başqa sahələr daxil edilir.

32. Bina və qurğuların altında olan torpaqlar (AN.2111). -Buray üzərində yaşayış və qeyri yaşayış binalarının tikilmiş və ya onları

altında olan torpaqlardan, becərilən və becərilməyən torpaqlardan, istirahət üçün ayrılmış və onunla əlaqədar olan səth sularının örtüyü və başqa sahələr daxil edilir.

32. Bina və qurğuların altında olan torpaqlar (AN.2111). -Buraya üzərində yaşayış və qeyri yaşayış binalarının tikilmiş və ya onların özülü qazılmış (həyat və yan hasarları da daxil edilməklə) torpaqlar daxildir.

33. Becərilən torpaqlar (AN.2112).-Buraya kommersiya məqsədilə və ya natural təsərrüfat məqsədiylə kənd təsərrüfatı işləri görülən və bağçılıq istehsalı həyata keçirilən (meyvə bağları və üzümçülük altında olan sahələri də daxil etməklə) sahələr aiddir.

34. İstehsal üçün ayrılan torpaqlar və onunla əlaqədar olan səth suları (AN.2113).- Xüsusi mülkiyyətdə olan mənzərəli təbiət guşələri, parklar, oyun və istirahət meydançaları, habelə dövlət parkları, istirahət zonaları və onlarla əlaqədar olan səth suları altındakı torpaq sahələri bu qrupa aid edilir.

35. Sair torpaqlar və onunla əlaqədar olan səth suları (AN.2119).- Başqa kateqoriyalara daxil olunmayan, o cümlədən xüsusi bağ və bostan sahələri, natural təsərrüfat və kommersiya məqsədləri üçün becərilən, otlaqlar, həyət və çəpərlərdən başqa yaşayış evini əhatə edən torpaqlar və onlarla əlaqədar olan səth suları bu qrupa aid edilir.

36. Yerin təkinin sərvətləri (AN.212).- Buraya mövcud texnologiyanı və nisbi qiymətləri nəzərə almaqla istifadə üçün yararlı olan yerüstü və yeraltı faydalı qazıntı ehtiyyatları daxildir. Adətən torpağın təkinə olan mülkiyyət torpağın özünə olan mülkiyyətdən ayrılır. Torpağın təkinin sərvətlərinə, neft, qaz, daş kömür, külçə və qeyri-külçə şəkilli faydalı qazıntı ehtiyatları aid edilir.

37. Kömür, neft və təbii qaz ehtiyatları (AN.2121).- Buraya antrasit, daş və qonur kömür yataqları, neft və təbii qaz ehtiyatları və yataqları aiddir.

38. Külçə şəkilli faydalı qazıntı ehtiyatları (AN.-2122).- Buraya dəmir filizi, əlvan və qiymətli metal yataqları aiddir.

39. Qeyri-külçə şəkilli faydalı qazıntılar (AN.2123).- Buraya daş karxanaları, gil və qum mə'dənləri, kimyəvi məhsullar və gübrə yataqları, duz, kvars, gips, təbii qiymətli daşlar, asfalt və bitium, torf, habelə neft və kömürdən başqa sair qeyri-külçə şəkilli faydalı qazıntı yataqları daxildir.

40. İstehsal edilməmiş bioloji resurslar (AN.2121).- Buraya bir və ya bir neçə dəfə məhsul verə bilən, üzərində sahibkarlıq hüququ olan, təbii artımı təshihat vahidləri tərəfindən nəzarət və idarə olunmayan heyvan və bitkilər aid edilir. İndi və ya yaxın gələcəkdə istifadəsi

mümkün olan ölkə ərazisindəki xam meşələr və balıqlı sular aiddir.

41. Su resursları (AN.214).- Buraya sulu qatlar və yeraltı suların başqa ehtiyatları daxil edilir. Bu resursların azlığı onların üzərində sahibkarlığı və bu hüquqlardan istifadə etməyə, bazar qiyməti ilə qiymətləndirməyə və müəyyən ölçüdə iqtisadi nəzarət etməyə aparıb çıxarır.

42. İstehsal edilməmiş qeyri-maddi aktivlər (AN.22).- Buraya cəmiyyət tərəfindən yaradılan istehsal edilməmiş aktivlər aiddir. Onlar adətən hüquq və uçot qaydası ilə təsdiq olunur. Bu məsələ patentlərin verilməsi və üçüncü tərəfə hər hansı iqtisadi fayda verilməsi yolu ilə həll edilir. Onlardan bə'zisi onun sahiblərinə konkret fəaliyyət sahəsi ilə məşğul olmaq hüququ verir, onun icazəsi olmadan başqalarının həmin fəaliyyət növü ilə məşğul olmasını qadağan edir. İstehsal edilməmiş qeyri-maddi aktivlər patentləşdirilmiş obyektlərdən, icarəyə dair müqavilələrdən başqa satın alınmış "Qudvill"-in başqasına verilən müqaviləsi və sair istehsal edilməmiş qeyri-maddi aktivlərdən ibarət olur.

43. Patentləşdirilmiş obyektlər (AN.221).- Qanunla və məhkəmənin qərarı ilə müdafiə hüququna malik olan texniki yenilik xarakterli ixtiralar bura aiddir.

44. İcarəyə dair müqavilələr və başqasına verilən sair müqavilələr (AN.222).- İcarə müqaviləsi və ya kontrakta əsasən icarəyə verəndən asılı olmayaraq icarəçi tərəfindən başqa şəxsə icarəyə vermək hüququnu rəsmiləşdirən sənədlərdir. Torpağın, binanın və başqa qurğuların icarəyə verilməsi, faydalı qazıntı yataqlarının və balıqlı suların istifadəsini qanuniləşdirici müqavilələr, hələ istehsal edilməmiş maddi aktivlərin satın alınmasına dair opsionlar və s. buraya daxildir.

45. Satın alınmış "Qudvill" (AN.223).-Fəaliyyətdə olan firma kimi müəssisə üçün ödənilən dəyərlərlə aktivlərin arasındakı fərqi (onun öhdəçiliklərinin məbləğini çıxmaqla) əks etdirən məbləğdir. Belə halda hər bir aktiv və öhdəçilik ayrıca qiymətləndirilir. Buna görə də aktiv kimi qiymətləndirilən və müəssisəyə uzun müddətli fayda verən hər şey "Qudvill"in dəyərinə daxil edilir.

46. İstehsal edilməyən sair maddi aktivlər (AN.229).- Başqa katiqoriyalara daxil olmayan qeyri maddi istehsal edilməyən aktivlər daxildir.

47. Maliyyə aktivləri (AF).- Sahibkarlıq hüququ təshihat vahidləri tərəfindən fərdi və ya kollektiv şəkildə müəyyən edilir. Müəyyən vaxt müddətində saxlamaq və ya istifadə etməklə sahibinə iqtisadi səmərə verən obyektləri əhatə edir. MHS-də sikkə qızılı və alınmanın xüsusi hüququ istisna olmaqla onlar başqa aktivlərdən üzərində başqa təshihat vahidləri tərəfindən paralel öhdəçiliklərin olması ilə seçilir.

48. Sikkə qızılı və BGXH (AF.1).- Barəsində müvafiq maliyyə

öhdiçildikləri olmayan maliyyə aktivləridir. Buraya sikkə qızılı və Beynalxalq valyuta fondu tərəfindən verilmiş borc götürmənin xüsusi hüququ daxildir.

Sikkə qızılı dedikdə rəhbəredici pul-kredit idarələrinə aid olan və ya onların nəzarəti altındakı başqa idarələrdə olan maliyyə aktivi və xarici rezervlərin komponenti kimi saxlanmalı qızıl başa düşülür. Başqa orqanlarda saxlanılan qızıl əmtəə, ehtiyat və ya qiymətlilər kimi nəzərdən keçirilir.

Borc götürmənin xüsusi hüququ dedikdə Beynalxalq Valyuta fondu tərəfindən yaradılan və onun üzvləri arasında mövcud rezervləri tamamlamaq (doldurmaq) üçün bölünmüş beynalxalq ehtiyat (rezerv) aktivləri başa düşülür. Onlar yalnız mərkəzi bankların sərəncamında olur.

49. Nağd pul və depozidlər (AF.2).- Tə"diyyəni həyata keçirmək üçün istifadə olunan və ya pul vəsaitlərinə daxil edilə bilən, sözün geniş mə'nasında valyutadan və başqasına verilən depozidlərdən ibarət olan maliyyə aktivləridir.

50. Nağd pul (AF.21).- Dövriyyədə olan və adətən tə"diyyəni həyata keçirmək üçün istifadə olunan banknotlar və sikkələrdir (faktiki olaraq dövriyyədə olmayan yubiley sikkələri çıxılmalıdır).

51. Başqasına verilən depozidlər (AF.22).- Əlavə haqq ödənilmədən və məhdudiyyət qoyulmadan paritet (bərabərlik) üzrə dəyişdirilə bilən, çeklər vasitəsilə başqasına verilə bilən və başqa yolla tədiyyəni həyata keçirmək üçün istifadə edilə bilən depozidlərdir.

52. Səhmlərdən başqa qiymətli kağızlar (AF.3).- Buraya veksellər, istiqrazlar, borc öhdəlikləri, sertifikatlar, bank aspektləri və s. aktivlər aiddir. Bu aktivlər onu saxlayana (sahiblərinə) müəyyən şərtlərlə pul gəlirləri gətirdiklərinə görə adi maliyyə bazarlarında alınıb satılır.

53. Səhmlər və səhimdar kapitalın sair növləri (AF.5).- Bütün kreditorların tələblərini, korporasiyalaşmamış müəssisələrin qalıq dəyərlərinə olan tələbnamələrini ödədikdən sonra sənədlər və qeydlərlə təstiq edilən maliyyə aktivləridir. Səhmdar qiymətli kağızları əvvəlcədən müəyyən edilmiş gəlirlərə və ya korporasiya edilmiş müəssisələrin ləğvindən sonra müəyyən edilmiş məbləği almaq hüququ verilir. Səhmdar kapitala sahibkarlıq adətən müxtəlif səhmlər və başqa müvafiq sənədlərlə təsdiq edilir. Kvazikorporasiya müəssisələri sahiblərinin xalis səhm kapitalı aksiyaların və sair səhmdar kapitalının konponentlərindən biridir.

54. Texniki sığorta rezervləri (AF.6). - Əvəzi ödənilməyən risklərin rezervi, mənfəətlə sığortanın rezervi və ödənilməmiş tələbnamələr üçün rezervlərdən ibarət maliyyə aktivləridir. Texniki sığorta tələbləri

yalnız həyatın sığortası müəssisələrini deyil və həm də sığorta müəssisələrinin sub sektoruna daxil olan avtonom pensiya fondlarının tələbnaməsi da ola bilər. Texniki sığorta rezervləri həyati sığortası üçün rezervlərdə ev təsərrüfatının xalis kapitalına pensiya fondlarında, əvvəlcədən ödənilmiş sığorta mükafatlarına və ödənilməmiş tələbnamələr üçün rezervlərə ayrılır.

55. Borcluların (kreditorların) sair hesabları (AF.7).- Ticarət kreditləri və avanslarından, habelə başqa alınmış və ya ödənilməli olan məbləğlərin mənbələrindən ibarət maliyyə aktivləridir.

56. Ticarət kreditləri və avansları (AF.71).- Buraya əmtəə və xidmətlər üçün bilavasitə korporasiyalara, dövlətə, qeyri-kommersiya idarələrinə, ev təsərrüfatlarına və dünyanın yerdə qalan ölkələrinə verilən kreditlər, habelə bitməmiş istehsalı və görüləcək işləri ödəmək üçün verilən avanslar daxildir.

57. Sair hesablar (AF.79).- Buraya yuxarıda deyilənlərdən başqa kreditorların və borcların ödənilməmiş olan hesabları aiddir.

58. Uzunmüddətli istifadə üçün istehlak malları (AF.m).- Buraya ev təsərrüfatları tərəfindən son istehlak üçün əldə etdikləri istehlak malları daxildir.

59. Birbaşa xarici investisiya (AF.m)- Buraya birbaşa xarici investisiya nəticəsində yaranmış maliyyə aktivləri və öhdəçiliklər aiddir.

§ 5.4. Milli sərvətin qiymətləndirilməsi üsulları

Yığım hesablarını tərtib edərkən qarşıya çıxan ən mühüm problemlərdən biri milli sərvətin ümumi həcminin müəyyən edilməsidir. Mə'lumdur ki, bu barədə ən dəqiq və zəngin mə'lumatı yalnız siyahıyaalmalar yolu ilə əldə etmək mümkündür. Belə siyahıyaalmalar dünyanın ayrı-ayrı ölkələrində müəyyən vaxtdan bir (məsələn: keçmiş SSRİ-də 1960-cı və 1972-ci illərdə belə siyahıyaalmanın keçirildiyi mə'lumdur) keçirilir.

Lakin siyahıyaalmaların keçirilməsi böyük əmək, xərc və vaxt tələb etdiyinə görə əsas kapitalı qiymətləndirmək və onun dinamika sırasını qurmaq üçün lazımi informasiyanı əldə etməkdən ötrü müxtəlif üsullardan və dolayı hesablamalardan istifadə olunur. Bunların arasında ən geniş yayılanı fasiləsiz inventarlaşdırma metodudur. Bu üsulun mahiyyəti çox sadədir. Onu tətbiq edərkən əsas bütün əvvəlki illərdə kapital qoyuluşlarının cəmi (sıradan çıxış kapitalın dəyərinin çıxmaqla) kimi götürülür. Bu metodun dəqiqliyi əvvəlki illərdə kapital qoyuluşlarının cəmi (sıradan çıxmış kapitalın dəyərini çıxmaqla) kimi götürülür. Bu metodun dəqiqliyi əvvəlki illərdə kapital qoyuluşlarına dair

mə"lumatların dəqiqliyindən, əsas kapitalın ayrı-ayrı növləri üzrə qiymət indekslərinin düzgün tətbiqindən və orta xidmət müddətinin dəqiq müəyyən edilməsindən, amortizasiya hesablamaları sisteminin seçilməsindən və başqa amillərdən asılıdır.

Lakin bu metodun praktiki tətbiqi müəyyən çətinliklərlə üzləşir. Hətta inkişaf etmiş qərb ölkələrində ikinci dünya müharibəsindən əvvəlki dövrlərdə kapital qoyuluşları və əsas kapitalın sıradan çıxmasına dair tam mə"lumat yoxdur.

Real vəziyyəti əks etdirmədiyinə görə hər il hesablanan amortizasiya ayırmalarına dair mə"lumatlardan da istifadə etmək mümkün deyildir. Bütün bunlara baxmayaraq kapital qoyuluşları və əsas kapitalın dinamikasını qurmaq üçün fasiləsiz inventarlaşdırma üsulu geniş istifadə edilir. Cari qiymətlərlə tam ilk dəyərində bu göstəricilərin dinamika sırasını qurmaq üçün aşağıdakı düsturdan istifadə olunur.

$$V_{t-1} = V_t + i_t - S_t$$

Burada V_t və V_{t-1} – t-ci və $(t+1)$-ci dövrlərin əvvəlinə əsas kapitalın tam dəyərini;

i_t – t ilində əsas kapitala tam investisiyanı

S_t – t ilində əsas kapitalın sıradan çıxmasını göstərir.

Əsas kapitalın "xalis" dəyərini müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə olunur:

$$R_{t-1} = R_t + i_t - A_t$$

Burada R_t və R_{t-1} - t-ci və $(t+1)$-ci dövrün əvvəlinə əsas kapitalın xalis (köhnəlməsi çıxılmış) dəyərini;

i_t – t ilində əsas kapitala investisiyanı

A_t – t ilində amartizasiya fondunu göstərir.

Müqayisəli qiymətlərlə əsas kapitalın dinamika sırasını qurarkən cari qiymətlə hesablanmış bütün göstəricilər müvafiq əsas fond üzrə qiymət indeksinə bölmək lazımdır.

$$J_t^{P_0} = J_t : \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

Qurulmuş dinamika sırasının dəqiqliyi müəyyən dərəcədə əsas kapitalın müxtəlif ünsürlərinin orta xidmət müddətini müəyyən edərkən seçilmiş hipotezdən (fərziyədən) də asılıdır. Bu hipotezlər seçmə müşahidəsinə və ya əsas kapitalın müxtəlif ünsürlərinin texniki sənədlərinə əsasən təqribi müəyyən edilir.

Bu metodun köməkliyi ilə mövcud aktivləri qiymətləndirərkən təsnifatda ayırılmış hər aktiv növünə kapital qoyuluşlarına dair informasi-

yaya malik olmaq lazımdır. Həm də belə mə"lumatlar ən azı həmin aktivin orta xidmət müddətinə uyğun dövrü əhatə etməlidir. Bununla yanaşı hər bir aktiv növü üzrə xidmət müddəti dövründə xidmətlərin dəyişməsinə dair də mə"lumatın olması tələb olunur. Kapital qoyuluşlarına dair hər aktiv növü üzrə mə"lumat onun orta xidmət müddəti dövrü üçün aqreqatlaşdırılır (birləşdirilir). Hesablamalar nəticəsində alınmış fərdi yekunlar isə konkret tarixə mövcud olan bütün aktivlər üzrə yekun qiymətində birləşdirilir. Məsələn, orta xidmət növü 5 il olan aktiv növü üzrə aşağıdakı mə"lumat verilmişdir.

Yuxarıdakı cədvəlin 1-ci qrafasında cari qiymətlərlə kapital qoyuluşlarının dinamikası verilir. 2-ci qrafada isə götürülmüş aktiv növlərinin hər birinin qiymətlərinə əsasən qiymət indeksləri hesablanır. Bütün mə"lumatı sonuncu ilin qiymətləri ilə ifadə etmək üçün həmin ilin qiyməti baza kimi $(i = 1.0)$ götürülür. Hər bir ilin qiymətinin əsas ilin qiymətinə nisbəti müvafiq indekslərin dinamika sırasını (2-ci qrafa) verir. Hesablanmış indeksləri müvafiq illərdəki cari qiymətlə kapital qoyuluşlarının məbləğinə vurmaqla müqayisəli qiymətlərlə (1997-ci ilin qiymətləriylə) kapital qoyuluşlarının həcminin (3-cü qrafa) müəyyən etmək mümkündür.

2-ci cədvəl

1993-1997-ci illərdə kapital qoyuluşlarının dinamikası (müvafiq illərin qiymətlərində, milyon manatla)

İllər	Kapital qoyuluşları	Qiymət indeksi 1997-ci il=1.0	1997-ci ilin qiymətlərində kapital qoyuluşları
A	1	2	3
1993	15.0	0.0412	618.0
1994	18.0	0.0420	756.0
1995	22.0	0.0460	1012.0
1996	45.0	0.0830	3735.0
1997	200.0	1.0	200.0
1993-1997-ci ilin əvvəlinə	300.0	—	6383.0
1998-ci ildə cəmi	220.0	1.2120	181.5
1998-ci ilin sonuna cəmi	520.0	—	5946.5

Bu hesablamaya əsasən son beş ildə müqaisəli qiymətlərlə kapital qoyuluşlarının məbləğini müəyyən etmək sıradakı birinci ilin əvvəlinə olan məbləğdən (618,0 milyon manat) çıxıb sıradakı sonuncu ildən sonra gələn (1998-ci il) ilin kapital qoyuluşlarının (181,5 milyon manat) məbləğini cəmləyib 1993-1998-ci illər üçün kapital qoyuluşlarının məbləğini müəyyən etmək olar.

6383,0-618,0+181,0=5956,5 milyon manat

Bu qayda ilə başqa aktivlər üzrə əsas ilin qiymətlərində kapital aktivlərinin yığılmış həcmi tam dəyərlə müəyyən edilir.

Bu mə"lumatları və köhnəlmə dəyərinə əsasən yığılmış aktivlərin qalıq dəyərini müəyyən etmək olar. Tam dəyərdən (tam ilk və ya tam bərpa dəyərindən) amartizasiya ayırmalarının məbləğini çıxmaqla qalıq dəyərini müəyyən etmək mümkündür. Belə halda köhnəlmə xətti amartizasiya metodu ilə və ya istismarda olduqları illərin sayına mütənasib olaraq müəyyən edilir. Tutaq ki, 5 illik xidmət müddəti olan aktivlərə kapital qoyuluşları və onların köhnəlməsinə dair aşağıdakı mə"lumat verilmişdir:

3-cü cədvəl

Xidmət müddəti 5 il olan aktivlərin yığılmış qalıq dəyərinin hesablanması

(milyon manatla, 1997-ci ilin qiymətləri ilə)

İllər	Kapital qoyuluşlarının cəmi	İllik köhnəlmənin dəyəri	İlin sonuna yığılmış aktivlərin qalıq dəyəri					
			1993	1994	1995	1996	1997	1998
1993	618.0	123.6	618.0	494.4	370.8	282	123.6	—
1994	756.0	151.2	—	756.0	604.8	453.6	302.4	151.2
1995	1012.0	202.4	—	—	1012.0	809.0	607.2	404.8
1996	3735.0	747.0	—	—	—	3735.0	2989.0	2241.0
1997	200.0	110.0	—	—	—	—	200	160.0
1998	181.5	36.3	—	—	—	—	—	81.5
Cəmi		—	—	—	—	—	4647.2	3138.5

Cədvəlin sonuncu qrafalarının mə"lumatına əsasən aktivlərin qalıq dəyəri 4647,2-3138,5=1508,7 milyon manat və ya 31,5% azaldığını söyləmək olar. Maliyyə aktivlərinin bazarda dövriyyəsi müvafiq qiymətli kağızın bazar qiymətləri ilə qiymətləndirilir.

Bununla da milli sərvətin yığılmış və ya yığılmaqda olan resurs-ünsürləri beynəlxalq tövsiyyələrə görə "balans tərtib olunduğu gün əldə edilmiş kimi" (daha doğrusu, onların cari qiymətlərlə bərpa dəyəriylə) qiymətləndirilir. Belə qiymət isə bu resursların həmin gün alınıb satıla bildiyi orta bazar qiymətləri ola bilir. Lakin bütün resurslar satılmır. Buna görə də həmin məqsədlər üçün birjalardan birbaşa alınmış informasiyadan yox, dolayı yolla əldə edilmiş informasiyadan istifadə edilir.

MHS-nin beynəlxalq tövsiyyələrində milli sərvətə daxil olan ünsürlərin qiymətləndirilməsinin müxtəlif üsulları verilir. Lakin qiymətli kağızlar bazarında ticarətin yeni təşkili, daşınmaz əmlakla əməliyyatların inkişaf etməməsi və miqyasının azlığı ilə əlaqədar

həmin qiymətləndirmə üsullarının çoxu MDB ölkələrində hələlik tətbiq edilə bilmir.

4-cü cədvəl

İl ərzində ölkə üzrə resursların mövcudluğu və cari əməliyyatların yekun balansına köməkçi cədvəllərin sxemi

Hesablar	Ölkənin aktivləri						Resursların mövcudluğu və cari əməliyyatlar
	Bütün iqtisadiyyat	O cümlədən					
		Qeyri kommersiya təşkilatları	Ev təsərrüfatları	Dövlət idarəçilik orqanları	Maliyyə korporasiyaları	Qeyri-maliyyə korporasiyaları	
1	2	3	4	5	6	7	8
IV.1 İlkin (başlanğıc) balans							AN Qeyri maliyyə aktivləri AN.1-İstehsal edilmişlər AN.2-İstehsal edilməmişlər AF Maliyyə aktivləri AF Öhdəçiliklər B.9 Xüsusi kapital
IV.2 Cari əməliy-yatlar							AF Aktivlərdə ümumi dəyişikliklər AF-Qeyri maliyyədə AF.1-İstehsal edilmişlərdə AF.2-İstehsal edilməmişlərdə AF. Öhtəçiliklərdə ümumi dəyişikliklər B.10-Xüsusi kapitalda dəyişiklər B.10.1-Kapital yığımı və transferlər B.10.2-Aktivlərin həcmində sair dəyişiklər B.10.3-Xoldinq mənfəəti (zərər) B.10.31-Neytral B.10.32-Real
IV.3 Son balans (ilin sonuna mövcud olan)							AN Qeyri maliyyə aktivləri AN.1-İstehsal edilmişlər AN.2-İstehsal edilməmişlər AF Maliyyə aktivləri AF Öhdəçiliklər B.90 "Xüsusi kapital"

Buna görə də milli sərvətin belə qiymətləndirilməsi zamanı yalnız maliyyə və qiymətlər statistikasının materiallarından istifadə etmək tövsiyyə olunur.

Milli sərvətin yığılmış ünsürləri köməkçi cədvəllərdə onların köhnəlməsi çıxılmış bərpa dəyəriylə qiymətləndirilməlidir. Belə qiymətləndirmə ölkə miqyasında istehsal prosesini həyata keçirmək və onun inkişafını genişləndirmək üçün lazım olan yığılmış resursların dəyərini müəyyənləşdirməyə imkan verər. Bu resursları insanların həyat fəaliyyətinin müxtəlif tələbatının ödənilməsinə yönəltmək və habelə ölkə daxilində və ondan kənarda qarşılıqlı hesablamaları həyata keçirmək üçün istifadə etmək olar.

Yığılmış resursların hər bir ünsürü təkrar istehsal prosesində özünə məxsus rol oynamaqla ölkənin iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin tə"min olunmasında iştirak edir. Bununla da köməkçi cədvəllərdə milli sərvətin yekun qiymətləndirilməsi hər bir sektor üzrə və bütün iqtisadiyyat üçün "fərdi kapitalın" "xalis" dəyəri göstəriciləri şəkilində ifadə olunur.

"Fərdi kapital" konkret tarixə bütün aktivlərin dəyəriylə sektorun bütün öhdəçiliklərinin dəyəri arasındakı fərqdən ibarətdir. Bu deyilənlər metodoloji cəhətdən milli sərvət göstəricilərinə də aiddir. Konkret vaxt anında onu qiymətləndirərkən köməkçi cədvəllərdə və sektorların hesablarında hər bir aktiv və hər bir öhdəçilik mövcud təsnifatlarda olan resurslarla eyniləşdirilir və ayrıca qiymətləndirilərək cəmləndikdən sonra ölkə üzrə yekun balansına yazılmalıdır. Bununla da köməkçi cədvəllərin köməkliyi ilə ölkənin milli sərvətinin qiymətləndirilməsi həyata keçirilir.

MHS-nin yeni tövsiyyə olunan standartında milli sərvətin tərkibi göstəriciləri MDB ölkələrində indiyədək istifadə olunan göstəricilərdən xeyli genişdir. Lakin başqa bir tərəfdən də "uzun müddətli istehlak malları" maddəsi yığıma aid olmadığına görə onun tərkibindən çıxarılır və MHS-nin "Əməliyyatlar hesabı"nda istehlaka aid edilir və MHS-nin bu maddəsinin hesablanma metodikası XTB-dan xeyli fərqlənir. Bütün bunlara baxmayaraq MHS və XTB-lə göstəricinin hesablanması sahəsində oxşar cəhətlər çox olduğundan onların MDB ölkələrində tətbiqini təmin edəcək tövsiyyələr hazırlanmaqdadır.

§5.5. MDB ölkələrində milli sərvəti qiymətləndirmək üçün MHS standartlarının tətbiqi imkanları

İrəlidə deyildiyi kimi, milli sərvəti hesablamaq üçün geniş informasiya bazası olması vacibdir. Hal-hazırda MDB-yə daxil olan ölkələrdə kifayət qədər informasiya olmadığından və hər bir təsərrüfat kateqoriyası üzrə "xüsusi kapitalın qiymətləndirilməsi metodologiyası hələ hazırlanmadığından MHS-ni standartları üzrə milli sərvəti yalnız bə"zi ölkələr üzrə hesablanılır.

MDB ölkələrinin statistika komitəsi milli sərvətin BMT standartları üzrə hesablanmasını mərhələlər üzrə (üç mərhələdə) həll etməyi təklif edir. 1993-cü ildən tətbiq edilən birinci mərhələdə milli sərvət ölkə üzrə bütövlükdə aşağıdakı tərkibdə hesablanılır:

1. Əsas kapital (əsas fondlar);
2. Ehtiyatlar (maddi dövriyyə vəsaitləri);
3. Uzun müddətli istehlak malları (əhalinin ev əmlakı)

Sonuncu göstərici milli sərvətin hesablanmasının 25-f N-li kömək formasında arayış şəkilində ayrıca sətirdə (sətir 05) verilir.

Sonradan MHS-nin metodologiyası üzrə milli sərvətin başqa ünsürlərinin qiymətləndirilməsi təkmilləşdirildikcə göstəricilər tərkibi də genişləndiriləcəkdir.

Hal-hazırda MDB ölkələri MDB statistika komitəsinə 25-f N-li hesabat forması üzrə milli sərvətin qiymətləndirilməsinə dair mə"lumat verilir. Bu formanın sxemi aşağıda göstərilən kimidir:

sxem N 25
illik, poçt

1993-cü ildə _____ üzrə
(dövlətin adı)

Milli sərvət göstəriciləri
(milli valyutada milyard vahidl

	Sətrin kodu	Tam balans dəyəri ilə mövcud olmuşdur		Qalıq bal dəyəri il mövcud olmuşdu	
A	B	1	2	3	
Milli sərvət-cəmi (02+03)	0.1				
o cümlədən Əsas kapital (mal-qaranı daxil etməklə əsas fond)	0.2				
Qeyri maddi aktivlər	0.3				

Ehtiyatlar (qeyri maddi dövriyyə vəsaitləri)	0.4				
Arayış: Uzun müddət istifadə olunan istehlak malları (əhalinin ev əmlakı)	0.5				

Sxem 4. Milli sərvət göstəricilərinin sxemi

25-f N-li formanın 3-cü və 4-cü qrafalarında milli sərvətin hər bir ünsürlərinin milli hesabdarlıqda istifadə olunan qalıq dəyəri göstərilir. Bundan əlavə həmin formanın 03-cü sətrində respublikada olan "Qeyri maddi aktivlər" (əgər milli statistiki xidmətləri belə qiymətləndirmə aparırlarsa) göstərilir.

MHS-də milli sərvətin bir çox ünsürlərinin qiymətləndirilməsinin əsasında "fasiləsiz inventarlaşdırma" metodu durur. Bu metod isə belə bir mülahizəyə əsaslanır ki, uzun və orta müddətli istifadə olunan aktivlərin konktret momentə toplanmış yekununda xidmət müddəti müəyyən edilmiş normativlərə uyğun gələnlər olacaq və həmin müddət keçdikcə sonra onlar istismardan çıxacaqlar.

Bu metod üzrə hesablamaları aparmaq üçün dövr ərzində uzun və orta müddətli istifadə obyektlərinin yaranması və ya əldə edilməsinə dair mə"lumatların dinamikasından istifadə etmək lazımdır. Belə mə"lumatlar göstərilən obyektlərin hər bir tipi üçün müəyyən edilmiş orta xidmət müddəti üzrə statistika orqanları tərəfindən ayrıca öyrənilir və alınmış nəticə ölkə üzrə yekun mə"lumatında əks etdirilir.

Hesablamaların bu metodologiya üzrə aparılması obyektlərin hər bir tipi üzrə (bina və qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, əhalinin ev əmlakı və s.) məsrəflərinin həcmi, istismarı, xidmət müddəti və sairəyə dair geniş mə"lumatın olmasını tələb edir. Adətən belə mə"lumatlar mühasibat uçotu sənədlərindən və xüsusi təşkil edilmiş müşahidə mə"lumatlarından götürülür.

Metodologiyada olan müəyyən şərtilik və ilkin mə"lumatların azlığı təqribi qiymətləndirməyə gətirib çıxarır ki, bu da alınmış informasiyaya sonradan müəyyən düzəlişlər verməyi tələb edir. Bundan əlavə, alınmış nəticələrlə kapital hesabı və MHS-nin başqa göstəriciləri üzrə cari əməliyyatların qiyməti göstəricilərinin çox illik dinamika sıraları ilə əlaqələndirilməsi də vacibdir. Bu baxımdan yığım və kapital qoyuluşları, amortizasiya, əsas kapitalın sıradan çıxması, əhalinin uzun müddət xidmət edən mallara məsrəfləri və sairəyə dair göstəricilərin qiymətlərinin uzlaşdırılmasına xüsusi diqqət yetirmək lazımdır.

Beynəlxalq tövsiyyələrdə fasiləsiz intervallaşdırma yolu ilə aparılan

hesablamaların nəticəsini başqa üsullarla əldə edilmiş nəticələrlə tamamlamaq məsləhət bilinir. Müxtəlif üsullarla alınmış nəticələrin qarşılıqlı yoxlanması və əlaqələndirilməsi yığım və istehlak göstəricilərinin dəqiqliyini artırmağa imkan verir. Müxtəlif ölkələrin statistika orqanları və elmi idarələri əsas kapitalın, əhalinin ev əmlakının və uzun müddət xidmət edən başqa obyektlərin müxtəlif tiplərinin sıradan çıxmasının standart əyrisini işləyib hazırlamışlar.

Bu metod mürəkkəb olmaqla yanaşı, həm də dəqiqləşmə tələb etsə də milli sərvətin ünsürləri üzrə yığım göstəricisini daha dəqiq əks etdirməyə imkan verir.

MDB statistika komitəsinin tövsiyyələrinə görə birliyə daxil olan respublikalarda əsas fondların yenidən qiymətləndirilməsinin nəticələrini nəzərə almaqla tam ilk dəyərlə tərtib edilən informasiya hesabları milli sərvətin mühüm ünsürlərinin qiymətləndirilməsi zamanı istifadə oluna bilər.

Yekun qiymətləndirilməsinin müasir qiymətlərə maksimum yaxınlığını təmin etmək üçün müəssisələrin tərtib etdikləri 11N-li hesabatın məlumatlarından və MDB ölkələrinin statistika komitəsinin tərtib etdiyi "kapital qoyuluşları və texnoloji struktur ünsürləri üzrə qiymət indekslərinin formalaşdırılmasına dair metodik göstəriş"lərdən də istifadə etmək tövsiyyə olunur.

25-f N-li formanın 02 sətrində əsas kapitala dair məlumatlar metodoloji sənədlərlə yanaşı əsas fondlar balansının tərtibinə dair qüvvədə olan tövsiyyələrdən də istifadə etmək lazımdır. Həmin formanın 1-ci və 2-ci qrafasında tam dəyərlə əsas fondlar balansının və yenidən qiymətləndirmənin nəticələrini əks etdirən rəqəmlərdən istifadə etmək tövsiyyə edilir. Mühasibat uçotuna yeni daxil edilmiş "qeyri maddi aktivlər" adlı hesabda göstərilən milli sərvəti yekun qiymətinə daxil etməklə 03 sətrində ayrıca göstərmək lazımdır.

Nəzərə almaq lazımdır ki, xüsusi mülkiyyətdə olan mənzil yaxın vaxtlaradək şərti dəyərlə qiymətləndirilirdi və əsas fondların sonu yenidən qiymətləndirilməsində onlar yenidən qiymətləndirilməmişdir. İctimai yaşayış fondlarının balans dəyəri də yenidən qiymətləndirilməmişdir. Belə halda bütün mənzil fondunu müasir qiymətlərdə ekspertiza yolu ilə qiymətləndirmək yaxşı olardı.

İrəlidə deyildiyi kimi 02 sətri üzrə 3-cü və 4-cü qrafalarda yenidən qiymətləndirmə və köhnəlməsi çıxılmış tam ilk dəyərlə əsas fondlar balansının məlumatlarından istifadə olunur. Belə halda köhnəlmə dəyəri amortizasiyanın həcminə və ya xidmət müddətinə əsasən müəyyən edilir. Həmin məqsəd üçün mənzil fondunun köhnəlmə dərəcəsindən istifadə etmək olar.

Hal-hazırda qüvvədə olan beynəlxalq standartlara görə "qeyri

maddi aktivlər" üçün orta xidmət müddəti 5 il müəyyən edilmişdir. Mühasibat uçotunda isə bu müddət deferensiallaşdırılaraq 10 ilədək müəyyən edilmişdir. Tutaq ki, 1996-cı ildə 50 milyard manatlıq və 1997-ci ildə 100 milyard manatlıq aktivlər işə buraxılmış və müvafiq qaydada balansda qeydə alınmışdır. Köhnəlmə norması 1996-cı ildə işə buraxılmış aktivlər üçun 2% və 1997-ci ildə işə buraxılanlar üçün isə 1% olduğunu bilərək 25-f N-li formanın 03-cü sətrində aktivlər dəyəri 1997-ci ilin əvvəlinə 50-50*0,2=40 milyard manat, 1997-ci ilin sonunda isə 40+100-10-20=110 milyard manat göstəriləcəkdir.

25-f N-li formanın 04 sətrinin 1-4 qrafalarında ehtiyatlara (maddi dövriyyə vəsaitləri) dair məlumatları müəyyənləşdirərkən kapitalla əməliyyatlar hesabının doldurulmasına dair tövsiyyələrə əsasən müəyyən edilmiş respublikada ümumi yığımın hesablanması zamanı tətbiq olunan statistika və mühasibat hesablarından istifadə olunur. Bu qrupa aid olan aktivlər yalnız bir dəfə istehlak olunduqlarına görə göstəricilər yalnız, tam ilk dəyərlə göstərilirlər.

Sxemin 05-ci sətrini doldurarkən milli sərvətin "uzun müddət istifadə malları" ünsürü üzrə yığımın mövcud həcmini müəyyənləşdirmək üçün "fasiləsiz intervallaşdırma" üsulundan istifadə olunur. Belə hesablamalar hər bir mal qrupu üzrə xüsusi hesablama cədvəlinə əsasən aparılır. Hesablamaları apararkən respublikada əmtəələrin satışına dair ticarət təşkilatlarının hesabatlarından, Dövlət yol müfəttişliyinin informasiyasından (vətəndaşların sərəncamında olan avtonəqliyyatın sayı və tərkibinə dair) və s. istifadə olunur.

Milli sərvət statistikasının beynəlxalq standartlara uyğun sonrakı inkişafı bir sıra yeni metodoloji məsələlərin inkişafı ilə əlaqədardır.

İstehsal olunmuş qeyri maliyyə aktivləri sahəsində bu deyilənlər son illər üçün əsas kapitalın müqayisəli qiymətlərlə qalıq dəyərinin müəyyən edilməsinə aiddir. Belə məlumatlar onların dinamikası və quruluşunda baş verən dəyişiklikləri daha düzgün öyrənməyə imkan verəcəkdir. Fasiləsiz intervallaşma metodu ilə əsas fondların eksperimental hesablamalarına dair dinamika sıralarının qurulması vaxtı da gəlib çatmışdır.

Əsaslı tikintinin bərpa dəyərinin qiymətləndirilməsində indeks üsulunun tətbiqi daha da genişləndirilməlidir. Milli sərvətin torpaq, meşə, faydalı qazıntılar, becərilən bioloji resurslar, su resursları və MHS-nin təsnifatında istehsal edilməyən qeyri-maliyyə aktivlərinə aid olan sair təbii resursların statistik uçotunun təkmilləşdirilməsi üzrə aparılması zəruri olan işlər kompleksi də kifayət qədər aktual məsələlərdəndir. Bu resursların bəzi növlərinin qiymətləndirilməsi sahəsində hal hazırda müəyyən işlər görülsə də bu istiqamətdə gələcəkdə görüləcək işlər daha çoxdur.

Bu məsələlərin kifayət qədər tədqiq edilməməsi və müvafiq sadələşmiş üsulların olmaması elmi və praktiki tədqiqatla məşğul olan orqanların fəaliyyətini bu istiqamətə yönəltməyi tələb edir. Alınmış konkret nəticələri isə gələcəkdə mərhələlərlə praktikaya tətbiq etmək olar. Qeyri-maddi aktivlər (patent, nou-xau, icarəyə dair müqavilə, firmanın ticarət markası və s.) üzrə də yeni metodoloji tədqiqatlar aparmaq tələb olunur. Milli sərvətin bu ünsürləri bəzi ölkələrin mühasibat uçotunda indidən qismən öz əksini tapmaqdadır. Lakin MDB ölkələrinin milli sərvət statistikasında bu məsələnin öyrənilməsinə hələlik başlanılmayıb.

Milli sərvəti hesablayarkən maliyyə aktivləri və passivlərinin (maliyyə instrumentlərinin) əhatə edilməsi hər şeydən əvvəl mövcud informasiya bazasını öyrənməyi və ona olan tələbi dəqiqləşdirməyi tələb edir. Bu istiqamətdə 1993-cü ildən müəyyən cəhdlər edilsə də hələ görüləsi işlər daha çoxdur.

Maliyyə instrumentlərinə dair bir sıra informasiya analitik uçotda olsa da statistika orqanlarına tələb olunan səviyyədə təqdim olunmur.

MDB ölkələrinin milli statistika orqanlarının fəaliyyətində milli iqtisadiyyatın sektorları üzrə milli sərvətin göstəricilərinin hesablanması üzrə iş aparılmır. İqtisadiyyat sektorları üzrə milli sərvətin ekspert üsulu ilə əsasını təsərrüfat sahələri və mülkiyyət formaları üzrə əsas kapital və ehtiyatlara dair informasiya təşkil edə bilər. Tutaq ki, 1995-ci ilin sonunda respublikada aparılan yenidən qiymətləndirmədən sonra 10 trilyon manatlıq milli sərvət olduğu aşkar edilmişdir. Onlardan tam ilk dəyəri 6 trilyon manatlıq əsas kapitalın 2 trilyon manatı isə maddi dövriyyə ehtiyatlarının dəyərini əks etdirir. Əsas kapitalın köhnəlmə dərəcəsinin 20% olduğunu bilərək onun qalıq dəyərini hesablayaq. 6-6·0,2=4,8 trilyon manat olacaqdır.

Ehtiyatlar tam dəyərlə hesablandığına görə milli sərvətin ümumi qalıq dəyəri 4,8+2,0=6,8 trilyon manat olacaqdır.

5-ci cədvəl

Aktivlərin sektorlar üzrə bölünməsinin köməkçi cədvəli
(trilyon manatla)

Sektorlar	Cəmi	o cümlədən	
		Əsas kapital	Maddi dövriyyə vəsaitləri
İqtisadiyyat üzrə cəmi	6.8	4.8	2.0
o cümlədən: Qeyri-maliyyə idarələri	4.4	3.4	1.0
Maliyyə idarələri	0.4	0.3	0.1
Dövlət idarəçilik orqanları	0.4	0.2	0.2
Ev təsərrüfatı	0.9	0.6	0.3
Ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları	0.7	0.3	0.4

Alınmış bu məbləğ (4,8 trilyon manat) ilin əvvəlinə sektorların "fərdi kapital"ının aktivləri balansının köməkçi cədvəlinə başlanğıc maddəsi kimi yazılacaqdır. Bütün qeydlər köməkçi cədvəldə sektorlar üzrə aşağıdakı kimi bölünməlidir:

İlin əvvəlinə resurs ehtiyatlarının mövcudluğunu müəyyən etdikdən sonra köməkçi cədvəllərdə və hesablarda "fərdi kapitalın"ın alınmış qiymətləri balanslaşdırılır. Bu yolla köməkçi cədvəldə fərdi kapitalın mövcud olan resursları, yığımı və MHS-nin hər sektoru üzrə istehlakı əlaqələndirilir. Sektorların balansından aktivlərin bölüşdürülməsinə əsasən əməliyyatların qarşılıqlı əlaqəsi həyata keçirilir. Bu isə öz növbəsində yekun milli sərvət balansının tərtibi üçün lazımi mə"lumatların əldə edilməsini tə"min edir.

6-cı cədvəl

İl ərzində aktivlərin hərəkəti və bölüşdürülməsi

Resursların növləri	İlin əvvəlinə mövcud olmuşdur	İl ərzində hərəkət			Yenidən qiymətləndirmə	İlin axırına mövcud olmuşdur
		Daxil olmuşdur	Çıxmışdır	Yığım		
A	1	2	3	4	5	6
Əsas kapital						
Maddi dövriyyə vəsaitləri						
Cəmi						

Bütün bu köməkçi cədvəllərə əsasən hər bir sektor üzrə aktivlərin mövcudluğunu və bölüşdürülməsini əks etdirən balans tərtib etmək mümkündür.

Bu yolla hər bir sektor üzrə milli sərvətə daxil olan aktivlərin mövcudluğunu və bölüşdürülməsini əks etdirən dinamika sıralarını da qurmaq mümkündür.

Bu üsulu tərtib edərkən hər şeydən əvvəl il ərzində resursların hərəkəti nəticəsində yığımı müəyyən etmək lazımdır. Sonradan resursların müvafiq növü üçün qiymətlərin artımı (artım əmsalı) nəzərə alınmağa ilin sonuna yığılmış resurslar müəyyənləşdirilir.

MHS-nin yeni standartına görə "Ev təsərrüfatı", "Dövlət idarəçilik orqanları" və "Ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları" sektorları üçün uzun müddətli xidmət mallarının və bə"zi

xidmət növlərinin alınmasını yığıma deyil, cari istehlaka aid etmək təklif olunur. Belə vəziyyət uyğunsuzluq yaratmaqla faktiki yığımın həcmini müəyyən dərəcədə təhrif edir. Bütün bunlarla yanaşı MHS-nin yeni variantı bu ünsürlər üzrə yığımın həcmini hesablamağa imkan verir. Belə ki, "Ev təsərrüfatı" sektoru üzrə köməkçi cədvəldə bu ünsürlə əlaqədar yığımı arayış (qeyd) şəklində ayırmaq tövsiyyə edilir. Həmin mə'lumatdan müxtəlif iqtisadi hesablamalar aparılarkən və əhalinin müxtəlif növ uzunmüddətli xidmət malları ilə tə'min olunmasını təhlil edərkən istifadə edilə bilər.

"Dövlət idarəçilik orqanları" sektorunda hərbi texnikaya və döyüş sursatına çəkilən xərclər yığım göstəricisinin tərkibinə deyil, cari istehlak göstəricisinin tərkibinə daxil edilir. Bu sektorun aktivliyinin tərkibinə hərbi təşkilatlar tərəfindən istifadə olunan qospitallar, yaşayış binaları, aerodromlar, nəqliyyat vasitələri və yalnız mülki ehtiyaclara istifadə oluna bilən sair obyektlər daxil edilir. Buna görə də sonuncu ünsür bu sektorun əsas kapitalının tərkibinə və onun təkrar istehsalına çəkilən xərclər isə müvafiq olaraq yığım göstəricisinin tərkibinə daxil edilir. Bütün yuxarıda deyilənlər göstərilən sektorun resurslarının bu hissəsini balanslaşdırmağa imkan verir.

§5.6. MHS əsasında Milli sərvətin təhlilinin əsas istiqamətləri

BMT-nin tövsiyyə etdiyi milli hesablar sistemi ayrıca bir ölkə və beynəlxalq miqyasda milli sərvətin həcmi, tərkibi və dinamikasına dair geniş informasiya əldə etməyə imkan verir. Belə göstəriciləri təhlil etməklə konkret ölkənin iqtisadi potensialı, milli sərvətin mövcudluğu və istifadəsi, habelə iqtisadi fəaliyyətə və əhalinin həyat səviyyəsinə onun tə"sirini müəyyən etmək mümkündür.

Milli sərvətin mövcudluğu və quruluşu təhlil edilərkən ən çox istifadə edilən statistika üsullarından biri qruplaşdırmadır. Statistik qruplaşdırma metodunu tətbiq etməklə milli sərvət və onun tərkib ünsürlərinin öyrənilən əlamət üzrə bölüşdürülməsini xarakterizə etməyə imkan verir. Belə qruplaşdırmalardan bir neçəsini nəzərdən keçirək:

1. Fəaliyyət formasına görə milli sərvətə daxil olan aktivlər maliyyə və qeyri maliyyə aktivlərinə bölünür. Qeyri maliyyə aktivləri ölkənin real aktivləridir. Maliyyə aktivləri isə real sərvətləri təmsil edir.

2. Mənşəyinə görə bütün aktivlər maddi (real) və qeyri-maddi aktivlərə bölünür. Real aktivlər öz növbəsində təkrar istehsal olunan və təkrar istehsal oluna bilməyən aktivlərə bölünür. İstehsal olunan aktivlər insan əməyi nəticəsində yaradılır və təsərrüfat fəaliyyəti nəticəsində yığılıb artır. Təkrar istehsal oluna bilməyən aktivlər

təbiətin hədiyyəsi olmaqla təbii təkrar istehsal amillərinin tə"siri nəticəsində formalaşır. Təkrar istehsal olunmayan aktivlərə deyilənlərdən əlavə qeyri maddi ünsürlər də (patentlər, əmtəə markaları, nişan və emblemlər, firmanın xeyirxah adı-qudvill, idmançıların və mədəniyyət xadimlərinin istedadı və s.) daxildir.

3. Təsərrüfat fəaliyyətindəki roluna görə bütün aktivlər istehsal vasitələrinə və istehlak əşyalarına bölünür.

4. Natural əşya tərkibinə görə maddi sərvətlər əsas fondlara, dövriyyə fondlarına müxtəlif tə"yinatlı rezerv-lərə və ehtiyatlara, habelə təbii resurslara bölünür.

5. Mülkiyyət formasına görə dövlətin, müxtəlif formalı kollektivlərin (səhmdar cəmiyyətlərin, kooperativlərin və s.) mülkiyyətində olan, xüsusi, fərdi və xarici ölkələrin, habelə qarışıq müəssisələrin mülkiyyətində olan sərvəti fərqləndirirlər. Deyilənlərdən əlavə milli sərvəti iqtisadiyyatın sahələri və sektorlarına görə, ərazi üzrə yerləşməsinə görə, tabeçiliyinə görə və başqa bir çox əlamətlərə görə də qruplara ayırmaq mümkündür.

Milli sərvətin quruluşunun təhlili onun dinamikası ilə bilavasitə əlaqədardır. Milli sərvətin ümumi həcmi və tərkib ünsürlərinin natural və dəyər ifadələrində dinamikasını qurmaqla onların yığılması prosesinin intensivliyini öyrənmək mümkündür.

Milli sərvətin təhlilinin əsas istiqamətlərindən biri yığım fondunun tədqiqi ilə bağlıdır. İrəlidə deyildiyi kimi, yığım fondu ümumi və xalis (əsas kapitalın istehlakını çıxmaqla) variantda hesablanır. Elə buna görə də yığım əmsalı da iki variantda hesablanır.

$$Ə_{yığım} = \frac{\text{ümumi yığım}}{\text{ÜMD}}$$

və

$$Ə_{xalis\ yığım} = \frac{\text{xalis yığım}}{\text{milli gəlir}}$$

Yığım fondunun quruluşu öyrənilərkən onun tərkibində əsas kapitalın və maddi ne"mətlərin xüsusi çəkisinin dəyişməsinə xüsusi diqqət yetirilir.

Milli sərvətin dinamikası təhlil edilərkən investisiyanın maliyyələşdirilmə mənbələrinin təhlilində böyük əhəmiyyət verilir. Bu məqsədlə investisiya və kapital qoyuluşlarının özü-özünə maliyyələşdirmə əmsalları hesablanır.

$$Ə_{\substack{\text{investisiyanın}\\ \text{özü tərəfindən}\\ \text{maliyyələşdirmə}}} = \frac{\text{özünün investisiyası}}{\text{investisiyanın ümumi həcmi}}$$

və

$$Ə_{\substack{\text{kapital qoyuluşlarının}\\ \text{öz vəsaitindən}\\ \text{maliyyələşdirməsi}}} = \frac{\text{özünün kapital qoyuluşu}}{\text{sabit kapitalın ümumi həcmi}}$$

Kapital məsrəfləri maliyyələşdirmək üçün müəssisə, iqtisadiyyat sahələri və sektorlar öz yığımlarının istifadə dərəcəsini ölçmək üçün isə aşağıdakı əmsallar hesablanır

$$Ə_{\substack{\text{investisiyanın}\\ \text{maliyyələşdirməsi}}} = \frac{\text{investisiyanın ümumi həcmi}}{\text{ümumi yığım}}$$

və

$$Ə_{\substack{\text{kapital qoyuluşlarının}\\ \text{maliyyələşdirməsi}}} = \frac{\text{sabit kapitalın ümumi həcmi}}{\text{ümumi yığım}}$$

Ölkələr arasında beynəlxalq əlaqələrin güclənməsi ölkələr arasında kakpital transfertlərin mübadiləsinin təhlilini tələb edir. Bu məqsədlə aşağıdakı göstəriciləri hesablamaq lazım gəlir:

1. Konkret ölkənin ümumi yığımının tərkibində, qalan dünyaya kapital transfertlərin xüsusi çəkisi;

2. Konkret ölkənin ərazisində həyata keçirilən investisiya və kapital qoyuluşlarının tərkibində xaricdən alınan kapital transfertlərinin tutduğu hissə:

Bütün bunlarla yanaşı milli hesablar sisteminin mə"lumatlarına əsasən milli sərvətin ayrı-ayrı ünsürlərinin iqtisadi səmərəliliyini xarakterizə edə bilən bir sıra göstəriciləri də hesablamaq mümkündür. İlk növbədə buraya iqtisadiyyat sahələri və sektorları üzrə fondverimi və fondtutumu göstəriciləri aiddir. Fond verimini hesablamaq üçün ümumi buraxılışı, ümumi əlavə artımı və ya xalis əlavə artımın dəyərini əsas fondların orta illik tam dəyərinə bölmək lazımdır. Fondtutumu fondveriminin göstəricisinin tərsidir.

Nəzarət üçün suallar

1. Milli sərvət nədir?
2. Milli sərvəti öyrənmək üçün MHS-də hansı üsullardan istifadə olunur?
3. Milli sərvətin tərkib ünsürləri hansılardır?
4. Milli sərvətin ünsürləri necə qiymətləndirilir?
5. MDB ölkələrində MHS-nin tövsiyyələri necə tətbiq edilir?

VI FƏSİL
KAPİTAL QOYULUŞLARININ STATİSTİKASI

§ 6.1. Beynəlxalq kapital qoyuluşları statistikasının təşəkkülü

Kapital qoyuluşları statistikası Beynəlxalq statistikanın az işlənilmiş sahələrindəndir. Dünyanın inkişaf etmiş ölkələrində kapital qoyuluşu statistikasına aid məsələlərin planlaşdırılması ikinci dünya müharibəsindən sonra başlanmışdır. BMT-nin Statistika Komissiyasının sessiyalarında kapital qoyuluşları statistikasına dair məsələlərin baxılmasına 1950-ci ildən başlanılmışdır. Bu komissiyanın tövsiyyələrinə uyğun olaraq BMT Katibliyinin statistika bürosu 1953-cü ildə "Kapital qoyuluşları və onun müəyyən edilməsi" adlı xüsusi sənəd hazırladı. Həmin sənədin hazırlanmasında məqsəd müqayisəliliyi tə"min etmək üçün kapital qoyuluşu göstəricisinin tərkibinə hansı məsrəflərin daxil olmasını müəyyən etmək idi. Bu sənəd milli statistikaların təcrübəsində tətbiq edilməsə də beynəlxalq təşkilatlar tərəfindən kapital qoyuluşlarına dair mə'lumatların toplanması və ümumiləşdirilməsi zamanı istifadə edildi.

1952-ci və 1968-ci və 1993-cü illərdə tövsiyyə edilən Milli hesablar sistemi (MHS) kapital qoyuluşlarının həcmi və tərkibinin, habelə uçotunun bir qədər təkmilləşdirilməsinə səbəb oldu.

Beynəlxalq kapital qoyuluşları statistikasının təkmilləşdirilməsində QİYŞ-nin statistika orqanlarının xidmətləri də böyükdür. QİYŞ-nin Statistika üzrə daxili komissiyası 1963-cü ildə "Xalq təsərrüfatı miqyasında əsaslı tikintinin uçotuna dair əsasnamə" qəbul etdi. Bu əsasnaməyə görə əsaslı tikintinin xalq təsərrüfatı uçotu QİYŞ üzvü olan ölkələrdə binaların və qurğuların tikintisinə, maşın və qurğuların qurulmasına, tikinti ilə əlaqədar başqa işlərə, avadanlıqların, maşın və inventarların əldə edilməsinə, yeni istehsal və qeyri-istehsal əsas fondların işə buraxılmasına kapital qoyuluşları həyata keçirən bütün dövlət, kooperativ və ictimai müəssisələrini əhatə edirdi.

§ 6.2 Beynəlxalq statistikada kapital qoyuluşları anlayışı və onun tərkibinin statistik öyrənilməsi

BMT Katibliyinin statistika bürosunun 1953-cü ildə hazırladığı sənədə əsasən qoyuluşları dedikdə fərdi şəxslər, təşkilatlar və dövlət idarələri tərəfindən öz gücləri ilə yaradılmış və ya əldə edilmiş əsas fondların (mülki tikinti, maşın və avadanlıq) dəyəri başa düşülür.

Kapital qoyuluşlarının tərkibinə avadanlıqların əldə edilməsinə, nəqliyyat xərclərinə, quraşdırma işlərinə, me'marların, mühəndislərin və inşaatçı fəhlələrin əməyinin ödənilməsinə, irriqasiya işlərinə,

bəndlərin tikilməsinə, meşələrin təmizlənməsinə, torpağın erroziya və sürüşmələrinə qarşı mübarizəyə, bağların, üzümlüklərin və meşələrin salınmasına, əsas vəsaitlərin bir mülkiyyətçidən başqasına keçməsi ilə əlaqədar xərclərin bir hissəsinə, maddi qiymətlilər ehtiyatlarının dəyişməsinə və əsaslı tə'mirə çəkilən xərclərin daxil olması tövsiyyə edilir. Cari tə'mirə çəkilən xərclər isə cari xərc kimi nəzərdən keçirilir.

Beynəlxalq statistikanın başqa sahələrinə nisbətən Kapital qoyuluşları statistikasının nisbətən zəif inkişaf etməsinin əsas səbəblərindən biri dünya ölkələrinin milli statistikasında kapital qoyuluşlarının tərkibi haqqında vahid anlayışın olmamasıdır. Elə buna görə də BMT Statistika Komissiyası, BMT Katibliyinin statistika bürosu, QİYŞ ölkələrinin statistika üzrə Daimi komissiyası və başqa səlahiyyətli beynəlxalq təşkilatların fəaliyyətində və hazırladıqları tövsiyyələrdə kapital qoyuluşlarının tərkibinin dəqiqləşdirilməsinə geniş yer verilmişdir.

Kapital qoyuluşlarına dair müxtəlif tövsiyyələrin mövcudluğuna baxmayaraq son vaxtlarda dünya miqyasında kapital qoyuluşlarının tərkibi vahid metodologiya üzrə uçota alınmır. Bu tövsiyyələrdə ayrı-ayrı xərclər arasında sərhədlərin, habelə cari və əsaslı xərclərin dəqiq müəyyən edilməməsi aydın görünür. Məsələn, bir tərəfdən cari tə'mir xərcləri kapital qoyuluşlarına aid edildiyi halda, başqa bir tərəfdən də avadanlığın xidmət müddətini və məhsuldarlığının artırılmasına çəkilən xərclər kapital qoyuluşlarına daxil edilir. Halbuki, avadanlığın təkmilləşdirilməsi xidmət müddətini artıran və onun ilkin vəziyyətini qorunmasına çəkilən xərclər kimi cari tə'mirə aid edilməlidir. Hər iki xərc qrupunun dəqiq me"yarının olmaması göz qabağındadır. Bu cəhətləri və bvşqa səbəbləri nəzərə alaraq inkişaf etmiş ölkələrin bir çoxu bu tövsiyyələri qəbul etmədi və kapital qoyuluşlarının hesablanmasında öz milli ən"ənəvi üsullarını saxladılar. Elə buna görə də ayrı-ayrı ölkələr üzrə kapital qoyuluşlarına daxil edilmiş xərclərin tərkibi bir-birindən və beynəlxalq tövsiyyələrdən fərqlənə bilər. Məsələn, ABŞ-ın rəsmi statistikasında kapital qoyuluşuna yalnız fərdi sektorun yatırımları aid edililr. Dövlətin bu sahədə çəkdiyi xərclər isə cari istehlak hesab edilir. Kapital qoyuluşlarının başqa variantında isə dövlət (federal və ştatların) və bələdiyyə kapital qoyuluşları yalnız tikinti-quraşdırma işlərini əhatə edir və avadanlıqların alınmasına dövlətin çəkdiyi xərclər isə uçota alınmır. Halbuki, ABŞ-da dövlət kapital qoyuluşları bütün kapital qoyuluşlarının 25-33%-ni, (hərbi müharibə illərində 50%-ni) təşkil edir. Beynəlxalq tövsiyyələrə baxmayaraq ABŞ-nin milli statistikası əsaslı tə'miri kapital qoyuluşlarının tərkibinə daxil etmir. Fransada və Almaniyada isə əsaslı

tə'mirə çəkilən xərclər kapital qoyuluşunun ümumi həcminə daxil edilir.

Beynəlxalq tövsiyyələr torpaqla əlaqədar məsrəfləri də dəqiq müəyyən etmir. Mə'lumdur ki, torpağın yaxşılaşdırılması xərcləri kapital qoyuluşlarına aiddir. Torpaq sahəsinin əldə edilməsi xərcləri özəl müəssisələrin balansında uçota alınır. Bir sıra ölkələrdə isə bu xərclər kapital qoyuluşlarının tərkibinə də daxil edilir. Bütün bunlarla yanaşı BMT Statistika Komissiyasının tövsiyyələrinə əsasən torpağın bir mülkiyyətdən başqasına keçməsi ilə əlaqədar xərclərin kapital qoyuluşlarına aid olub-olmamasını aydın müəyyən etmək çətindir. Nəzərə almaq lazımdır ki, torpağın bir mülkiyyətdən başqasına keçməsi nəticəsində konkret ölkənin iqtisadiyyatı miqyasında əsas fondların həcmi artmır. Bundan əlavə, torpağın alınması xərcləri əmək məhsulu olmadığına görə kapital qoyuluşuna aid edilməsinin də heç bir əsası yoxdur.

BMT-nin təklif etdiyi tövsiyyənin əsas üstünlüklərindən biri aydın"Başa düşülməyən" (firmanın reputasiyası, patentin dəyəri və s.) xərclərin habelə uzun müddət istifadə edilən ev əşyalarının (mebel, soyuducu, avtomobil və s) əldə edilməsinə çəkilən xərclərin, kapital qoyuluşlarına daxil edilməsidir. Belə xərclər cari məsrəflərə aid edilməlidir.

BMT-nin tövsiyyə etdiyi müxtəlif MHS-də (1952, 1968, 1994-cü illər) kapital qoyuluşlarına aid göstəricilərin tərkibi və uçotu müntəzəm olaraq təzimləşdirilir və dəqiqləşdirilir.

Beynəlxalq kapital qoyuluşları statistikasının inkişafında QİYŞ ölkələrinin statistika orqanlarının fəaliyyəti də mühüm rol oynamışdır. 1963-cü ilin noyabrında QİYŞ ölkələrinin Statistika üzrə Daimi Komissiyası "Əsaslı tikintinin Xalq Təsərrüfatı uçotu (kapital qoyuluşlarının həcmi və əsas fondların işə buraxılması) üzrə Əsasnamə" qəbul etdi. Bu əsasnaməyə uyğun olaraq QİYŞ ölkələrində xalq təsərrüfatı uçotu "ina, qurğu tikmək, maşın və avadanlıqların əldə edilməsi və əsas fondların işə buraxılması üçün çəkilən xərclər əsaslə tikintini həyata keçirən bütün dövlət, kooperativ və ictimai müəssisələri əhatə edir.

QİYŞ ölkələrinin statistika orqanının hazırladığı əsasnamədə müqayisəliliyi tə'min etmək üçün aşağıdakı xərclər kapital qoyuluşlarının tərkibinə aid edilirdi:

1. Həm dövlət büdcəsi və həm də müəssisələrin vəsaiti hesabına aparılan qazma, geoloji-axtarış işlərinə çəkilən buraxılış xərcləri.
2. Dövlət büdcəsi və müəssisələrin hesabına aparılan qazma və geoloji-kəşfiyyat işlərinə çəkilən xərclər,
3. Torpaq və meşə quruluşu işlərinə məsrəflər .
4. Elmi-tədqiqat sənaye sınaqları üçün maşın, avadanlıq və qurğu-

larının nümunələrinin hazırlanması, habelə qəbul edilmiş kəşflərin sınağını aparmaq üçün məsrəflər.

5. Əsas vəsaitin ləğvi üzrə (tikinti ərazisinin hazırlanması ilə əlaqədar xərclərdən başqa) məsrəflər.

6. Fəaliyyətdə olan müəssisə və idarələr üçün az qiymətli və tez köhnələn inventarların əldə edilməsinə çəkilən xərclər.

7. Əsas fondların əsaslı tə'mirinə çəkilən xərclər.

Bu metodika keçmiş sosialist sistemi ölkələrində kapital qoyuluşlarına dair informasiyanın müqaisəliliyini tə'min edirdi. Lakin "Xalq təsərrüfatı üsulu" ilə aparılan bu təsnifatın da özünə məxsus qüsurları var idi. Kapital qoyuluşlarının xalq təsərrüfatı üsulu ilə uçotu zamanı əsas fondların xalq təsərrüfatı daxilində yer dəyişməsi nəzərə alınmırdı. Belə yerdəyişmələr xalq təsərrüfatı miqyasında əsas fondların həcminin dəyişməsinə imkan vermirdi. QİYŞ ölkələrinin tövsiyyələrinə əsasən yalnız kooperativ təşkilatlarından və fərdi şəxslərdən alınan tikililərin əldə edilməsinə çəkilən xərclər kapital qoyuluşlarına daxil edilir.

Yuxarıda deyilənlərlə yanaşı dünyanın müxtəlif ölkələrində kapital qoyuluşlarının tərkibində nəzərə çarpacaq fərqlər qalmaqdadır. Kapital qoyuluşlarına daxil olan ayrı-ayrı xərc ünsürlərinin uçotunda da müxtəliflikləra rast gəlmək mümkündür. Məsələn, əsas sürünün formalaşması, məhsuldar və işçi mal-qaranın əldə edilməsi, meşələrin bərpasına və qoruyucu meşə zolaqlarının salınması tədbirlərinə çəkilən xərclərin kapital qoyuluşlarına aid edilməsi məsələsi dünyanın müxtəlif ölkələrində müxtəlif qaydada həll edilir. QİYŞ-nin statistika üzrə Daimi Şurasının tövsiyyəsinə əsasən yuxarıda göstərilən məsrəflərin hamısı əsas fondların həcmini artırdığına görə kapital qoyuluşlarına daxil edilir. Əsas sürünün formalaşmasına, məhsuldar və işçi heyvanların əldə edilməsinə çəkilən xərclər kənd təsərrüfatına çəkilən xərclərin tərkibində yüksək xüsusi çəkiyə malik olmasına baxmayaraq BMT-nin tövsiyyələrində də kapital qoyuluşlarına daxil edilmir.

ABŞ-da, Çexiyada, Slovakiyada və inkişaf etmiş bə"zi ölkələrdə də bu xərclər kapital qoyuluşlarına daxil edilmir. Bolqarıstan və Almaniyada həmin xərclərin hamısı, Rusiyada yalnız işçi mal-qara alınmasına məsrəflər kapital qoyuluşlarına daxil edilir.

QİYŞ-nin tövsiyyələrinə baxmayaraq Rusiyada və bir sıra ölkələrin milli statistikasında da meşələrin və meşə zolaqlarının salınmasına çəkilən xərclər kapital qoyuluşlarına daxil edilmir.

Layihə-axtarış, geoloji-kəşfiyyat və başqa məsrəflərin kapital qoyuluşlarına aid edilməsi məsələsində də dünya ölkələrinin təcrübəsində yekdillik yoxdur.

Milli statistika orqanlarının təcrübəsində ən çox fərq isə tə"mir

işlərinin uçotundadır. QİYŞ-nin tövsiyyələrində təmir işlərinin dəyəri kapital qoyuluşlarına daxil edilmir. Rumıniyada əsaslı təmir xərcləri tikinti-quraşdırma işləri ilə birlikdə kapital qoyuluşlarına daxil edilir. Əsaslı təmir xərcləri keçmiş Yuqoslaviyada 1957-ci ilədək və Almaniyada 1966-cı ilədək kapital qoyuluşlarının tərkibinə daxil edilirdi.

BMT Katibliyinin tövsiyyə etdiyi sonuncu (1993-cu il) MHS-də kapitalın ümumi artımını tə'min edən mövqelər xeyli genişləndirilərək aşağıdakı kimi qruplaşdırılır:

1. Təzə alınmışlardan və mövcud olanlardan satılan hissəni çıxmaqla yeni maddi nemətlərin alınmasına sərf edilən aktivlər:

a) yaşayış binaları;

b) başqa bina və tikililər;

v) maşın və avadanlıqlar;

q) məhsul istehsal etmək üçün dəfələrlə və ya daimi istifadə olunan, becərilən aktivlər (ağaclar, malqara və s.);

2. Təzə alınmış və mövcud qeyri maddi əsas kapitaldan satılan hissəni çıxmaqla yeni əldə edilənlər:

a) minerallarn kəşfiyyatı;

b) kompüterin proqram tə"minatı;

v) əyləncəyə, bədii və ədəbi əsərlərinin orijinallarının alınmasına sərf edilən aktivlər;

q) başqa qeyri-maddi əsas kapital;

3. Torpağı da daxil etməklə maddi istehsal olunmayan aktivlərin iri miqyaslı yaxşılaşdırılmasına çəkilən xərclər;

4. İstehsal olunmayan aktivirə mülkiyyət hüququnun verilməsi ilə əlaqədar xərclər.

Yuxarıdakı qruplaşdırmanın birinci və ikinci bəndlərində göstərilən əsas kapitalın əldə edilməsi və satışına aşağıdakı komponentlər daxil edilir:

1. Satın alınmış əsas kapitalın dəyəri;

2. Barter mübadiləsi yolu ilə əldə edilən əsas kapitalın dəyəri;

3. Natura (cinsi) ifadəylə transfert kimi əldə edilmiş əsas kapitalın dəyəri;

4. İstehsalçıların özləri tərəfindən istifadə edilmək üçün saxlanılan (bitməmiş və ödəmə vaxtı çatmamışları da daxil etməklə) əsas kapitalın dəyəri.

Hesablamalar zamanı yuxarıda göstərilən (1-ci - 4-cü bəndlər) komponentlərin cəmindən aşağıdakı ünsürlər çıxılmalıdır:

a) mövcud olanlardan satılan əsas kapitalın dəyəri;

b) mövcud olanlardan barter mübadiləsi yolu ilə verilən əsas kapitalın dəyəri;

v) natura ilə transfert kapitalı kimi verilən əsas kapitalın dəyəri.

q) mülkiyyətçi tərəfindən məhv edilən, tullantıya çevrilən və kəsilən mövcud əsas kapitalın dəyəri

BMT-nin Statistika Komissiyası 1952-ci ildə ümumi kapital qoyuluşlarını sahələr üzrə aşağıdakı kimi bölüşdürməyi tövsiyyə etdi:

1. Əsas kapitala yatırımlar kənd təsərrüfatı, meşə təsərrüfatı, balıq ovu ;
   Hasiledici sənaye;
   E"maledici sənaye;
   Tikinti;
   Elektrik enerjisinin və qaz istehsalı, su təchizatı;
   Nəqliyyat, anbar təsərrüfatı və rabitə;
   Topdan və pərakəndə satış;
   Banklar, sığorta və hərəkət etməyən əmlak;
   Yaşayış evlərinə mülkiyyət hüququ;
   Dövlət idarəçiliyi;
   Xidmətlər;
2. Ehtiyatların artırılmasına kənd təsərrüfatı, meşə təsərrüfatı, balıq ovu;
   Sənaye və tikintidə;
   Topdan ticarətdə;
   Pərakəndə ticarətdə;
   Dövlət idarəçiliyində və müdafiədə;
   Sair.

§6.3. Beynəlxalq statistikada kapital qoyuluşlarına səciyyələndirilən göstəricilər

Beynəlxalq statistikada kapital qoyuluşlarını səciyyələndirməkdən ötrü müxtəlif göstəricilərdən istifadə olunur. Onlardan bə'zilərini nəzərdən keçirək:

1. Ümumi kapital qoyuluşları (gross capital formation). Qərb ölkələrinin milli statistikasında və BMT-nin statistika orqanlarının tövsiyyələrində ən çox istifadə edilən bu göstərici öz tərkibində yeni əsas fondların (kapitalın yaradılmasına, əlavə artımına və başqa ölkələrlə əlaqədə kapitalın hərəkəti nəticəsində yaranan (daha doğrusu bu ölkənin başqa ölkələrə qoyduğu investisiya ilə başqa ölkələrin bu ölkəyə qoyduğu investisiyanın həcmləri arasındakı fərq) qalığı (saldonu) da nəzərə almaqla dövriyyə kapitalının əlavə artımına çəkilən xərcləri birləşdirir.

2. Daxili (və ya vətənə) ümumi kapital qoyuluşları (gross domestic capital formation). Bu göstərici ümumi kapital qoyuluşlarından

yuxarıda göstərilən saldonu çıxmaqla müəyyən edilir. Daha doğrusu xalis xarici investisiya bu göstəricinin tərkibinə daxil edilmir.

Yuxarıda adı çəkilən göstəricilərin hər ikisinin tərkibi eyni ünsürlərdən ibarət olmaqla yeni tikintiyə, yeni istehsal avadanlıqlarının və maşınların əldə edilməsinə və həmin ölkənin ərazisində ehtiyatların artırılması və azaldılmasına çəkilən xərclərin həcmini göstərir.

Dünyanın ayrı-ayrı ölkələrində ümumi kapital qouluşlarının tərkibi eyni deyildir. Ən böyük fərq dünyanın inkişaf etmiş kapitalist ölkələri ilə keçmiş sosialist sistemi ölkələri arasında mövcuddur. Yuxarıda deyildiyi kimi, beynəlxalq tövsiyyələrdə və inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində dövriyyə fondlarının artımı müəssisələrinin əmtəə qiymətlilərinə çəkilən xərclər (xammal, material, bitməmiş istehsal qalığı, hazır məhsul ticarət şəbəkəsində mal qalığı) qalığının dəyişməsi ümumi kapital qoyuluşlarının tərkibinə daxil edilir. Keçmiş sosialist ölkələrində (Yuqoslaviyadan başqa) isə öz əşya tərkibinə görə bu xərclər dövriyyə xərclərinə aid bu məsrəflər yalnız işə buraxılan müəssisələrin ilkin təchizi zamanı kapital qoyuluşlarının tərkibində uçota alınır. Bu xərclərin əsas hissəsi cəri xərclər hesabına ödənilir.

Yuxarıda deyilənlərdən əlavə dünyanın bir çox ölkələrində tə'mir işlərinə çəkilən xərclər az və ya çox dərəcədə ümumi kapital qoyuluşlarına daxil edilir. Bu ölkələrin milli statistika orqanları bir qayda olaraq tə'mir işlərinin hamısını "cari tə'mir" adlandırmaqla əsaslı tə'mirin dərəcələrini ayırmırlar. Nə cari, nə də əsaslı tə'mir işlərinə çəkilən xərclər ABŞ-da kapital qoyuluşlarına aid edilmədiyi halda, İngiltərədə tə'mir işlərinin bir hissəsi əsas kapital qoyuluşlara aid edilməklə ümumi kapital qoyuluşlarının tərkibində uçota alınır. Fransanın milli statistikasında tə'mir işlərinə çəkilən xərclərin demək olar ki hamısı (avadanlığın xırda tə'mirindən başqa) kapital qoyuluşlarına aid edilir. Bu ölkələrdə tə'mir işlərinin dəyəri ümumi yatırımların tərkibində 15-17% təşkil etdiyi üçün ümumi kapital qoyuluşlarının ümumi həcmini artırır.

Yuxarıda yazılanlardan göründüyü kimi, dünyanın ayrı-ayrı ölkələrində ümumi kapital qoyuluşlarının tərkibi eyni deyildir. Bu göstəricinin tərkibində rast gəlinən fərqləri BMT-nin tövsiyyələrində də aradan tam qaldırılmır. BMT-nin müxtəlif ölkələrin kapital qoyuluşlarını əhatə edən nəşrlərində bu fərqlər özünü daha qabarıq şəkildə göstərməklə beynəlxalq müqayisəliliyi çətinləşdirir.

Rusiyanın və keçmiş sosialist sistemi ölkələrinin çoxunun təcrübəsində ümumi kapital qoyuluşu anlayışı yoxdur. Bu göstərici yalnız Polşa və Yuqoslaviyanın statistikasında tətbiq edilir. Hər iki ölkədə əsaslı tə'mirin dəyəri ümumi kapital qoyuluşlarına daxil edilməsə də onların məzmunu eyni deyildir.

1997-ci ildə BMT statistika komissiyasının hazırladığı metodikaya uyğun olaraq Yuqoslaviyada dövriyyə fonduna yatırımlar kapital qoyuluşu kimi nəzərdən keçirilməyə başlandı. Bununla yanaşı əvvəllər amortizasiya ayırmaları hesabına ödənilən əsaslı tə'mirə çəkilən xərclər istehsalın cari maddi məsrəflərinə aid edilməyə başlandı.

3. Elmi təhsil üçün kapital qoyuluşlarının təkrar istehsal baxımından nəzərdən keçirilməsinin böyük əhəmiyyəti vardır. Bu baxımdan bütün kapital qoyuluşları sadə və geniş təkrar istehsala qoyülan məsrəflərə bölünür. Belə bölgü ümumi kapital qoyuluşlarının tərkibində milli gəlir hesabına ödənilən və istifadə prosesində istehlakın ödəniş fondu hesabına ödənilən hissələri müəyyən etməyə imkan verir. Belə bölgü nəticəsində alınan birinci hissə xalis kapital qoyuluşları (net capital formation) adlanır. Kapital qoyuluşlarının bu hissəsi əsas fondların geniş təkrar istehsalına (artımına) yönəldilir.Ümumi kapital qoyuluşlarının ikinci hissəsi amortizasiya fondunun bir hissəsi olmaqla əsas fondların sadə təkrar istehsalına (renevasiyaya və modernləşdirilməyə) yönəldilir.

Xalis kapital qoyuluşu anlayışına iqtisadi ədəbiyyatlarda geniş yer verilir. Kapitalist ölkələrində ümumi kapital qoyuluşlarından amortizasiya ayırmalarını çıxmaqla hesablanan xalis kapital qoyuluşları keçmiş sosialist sistemi ölkələrində hesablanan cyni adlı göstəricidən fərqlənir. Belə hal birinci qrup ölkələrdə dövriyyə kapitalının artırılmasına çəkilən xərclərin kapital qoyuluşlarına daxil edilməsi ilə izah olunur.

Keçmiş sosialist sistemi ölkələrinin bir çoxunun statistika təcrübəsində xalis kapital qoyuluşu göstəricisindən istifadə olunmur.Bu ölkələrin rəsmi statistika nəşrlərində kapital qoyuluşlarının ümumi həcmi göstərilir. Yalnız Polşanın hər il çap edilən statistika külliyyatında istifadə olunan milli gəlirin tərkibi və dinamikası işıqlandırılarkən yığım fondunun tərkibində maddi istehsala xalis kapital qoyuluşları ayrıca göstərilir.

4. Yeni kapital qoyuluşları. Bu göstəriciyə ən çox Yuqoslaviyanın iqtisadi ədəbiyyatlarında rast gəlmək olur. Bu göstərici son məhsulun bir hissəsi kimi istifadə prosesində "təsərrüfatların və qeyri-istehsal sferasının" əsas və dövriyyə fondlarını artırır. Mənbəyi milli gəlir olan yeni kapital qoyuluşuna xalis kapital qoyuluşlarından əlavə geniş təkrar istehsal prosesində istifadə olunan amortizasiyanın bir hissəsi də daxil edilir. Buradan belə nəticə çıxır ki, yeni kapital qoyuluşları ümumi kapital qoyuluşlarından köhnəlmiş və istifadə olunmuş əsas fondların dəyişdirilməsinə çəkilən xərclərin dəyəri qədər azdır.

§6.4.Beynəlxalq kapital qoyuluşları statistikasında istifadə olunan qruplaşdırmalar

Beynəlxalq statistikada kapital qoyuluşlarının tərkibini öyrənərkən qruplaşdırma üsulundan geniş istifadə olunur. Belə qruplaşdırmalar arasında kapital qoyuluşlarının mülkiyyət formasına görə qruplaşdırılmasına xüsusi əüəmiyyət verilir.

Keçmiş sosialist sistemi ölkələrində kapital qoyuluşları mülkiyyət formasına görə dövlət, kooperativ, fərdi yatırımları, kapitalist ölkələrində isə iqtisadiyyatın sektorları üzrə (fərdi şəxslərin, təşkilatların və dövlət idarələrinin) yatırımları fərqləndirirlər. Beynəlxalq statistikada ümumi kapital qoyuluşlarının mülkiyyət formalarına görə qruplaşdırılması onların natural-əşya tərkibinə görə qruplaşdırılması ilə əlaqələri aparılır. Belə qruplaşdırmalar zamanı əsas kapitala və ehtiyatların artırılmasına məsrəflər fərdi şəxslər, ictimai və dövlət müəssisələri üzrə ayrıca göstərilir.

BMT-nin tövsiyyə etdiyi MHS-də isə kapital qoyuluşları maliyyələşdirmə mənbələri və müəssisələrin tipinə görə (fərdi, korporasiya edilmiş, korporasiyalanmamış və dövlət sektor) bölüşdürülür. Həm də belə qruplaşdırmalar zamanı korporasiyaların kapital qoyuluşları daha təfsilatı ilə (yə'ni, korporasiyanın yığımı, amortizasiya fondu, transfertlər, borclar və s.) öyrənilir.

Yeni MHS-də kapital qoyuluşlarının qruplaşdırılması matrisada və III sinif hesablarda verilmişdir. Burada qeyri-maliyyə təşkilatları, maliyyə idarələri, dövlət idarəçiliyi orqanları, ev təsərrüfatı və fərdi qeyri-kommersiya idarələri sektorlarına ayırırlar. Sonuncu sektor isə öz növbəsində ev təsərrüfatına xidmət edən fərdi qeyri-kommersiya idarələri və habelə korporasiyalaşmamış qeyrimaliyyə müəssisələrini də daxil etməklə ev təsərrüfatı yarımsektorlarına bölünür. Onların hər birinin kapital qoyuluşları üzrə maliyyələşdirilməsi hesabları ayrıca tərtib edilir. Daha dəqiq qruplaşdırma isə MHS-nin köməkçi cədvəllərində verilir. Məsələn, 5-ci cədvəldə kapital qoyuluşlarının iqtisadi tərkibi və investorların xarakterinə görə kombinasiyalı qruplaşdırılması, 6-cı cədvəldə isə kapital qoyuluşlarının növünə, istifadə olunduqları sahəyə və alıcıların xarakterinə görə qruplaşdırılması verilmişdir.

Kapital qoyuluşlarının iqtisadiyyatın sahələri və sferaları üzrə qruplaşdırılmasının mühüm əhəmiyyəti vardır. Belə qruplaşdırma hər bir konkret ölkənin kapital qoyuluşları ilə geniş təkrar istehsalı prosesi arasında mövcud olan əlaqəni müəyyən etməyə imkan verir.

Kapital qoyuluşlarının iqtisadiyyatın sahələri üzrə qruplaşdırılması nəticəsində məsrəflərin istehsal və qeyri-istehsal sferaları üzrə neco

bölündüyünü qiymətləndirmək imkanı yaranır. Bu qruplaşdırma BMT-nin tövsiyyə etdiyi "Bütün təsərrüfat fəaliyyəti üzrə Beynəlxalq standart Sənaye təsnifatı"na əsasən uyğun gəlir. Lakin müəyyən fərqlər də vardır. Məsələn, banklar, sığorta və hərəkət etməyən əmlak ayrıca qrup kimi ayrıldığı halda təsərrüfat fəaliyyətinin bütün növlərinin təsnifatında onlar hamısı ticarətlə birləşmişlər. Bundan əlavə burada mənzil təsərrüfatı və dövlət idarəçiliyi ayrıca sahə kimi verildiyi halda təsərrüfat fəaliyyəti növlərinin təsnifatında " Müxtəlif xidmət növləri" qrupuna daxil edilmişdir. Beləliklə, kapital qoyuluşlarının tərkib ünsürlərinin qruplaşdırılması zamanı fəaliyyət sahələrinin təsnifatlaşdırılmasında yer verilmiş qüsurların bir çoxu aradan qaldırılmışdır. Lakin bu təsnifatlaşdırmada bə'zi qüsurlar hələ də qalmaqdadır. Sonuncu MHS-də kapital qoyuluşlarının sahələr üzrə təsnifatı xeyli dəqiqləşdirilmişdir.

Bə'zi ölkələrin milli statistikasında kapital qoyuluşlarının iqtisadiyyat sahələri üzrə qruplaşdırılması prinsipləri həmin ölkədə sahə təsnifatına uyğun aparılır. Məsələn, ABŞ-ın rəsmi statistika nəşrlərində fərdi kapital qoyulușları mövcud sahə təsnifatına uyğun olaraq aşağıdakı kimi təsnifatlaşdırılır:

1. E'maledici sənaye (on dörd ən mühüm sahə üzrə).
2. Hasiledici sənaye (qara və əlvan metaların külçəsi, kömür, neft və qaz hasilatına ayırmaqla);
3. Nəqliyyat (dəmir yolu və s. nəqliyyat növlərini ayırmaqla);
4. Rabitə;
5. Elektrik enerjisi və sün'i qaz istehsalı, suyun təmizlənməsi;
6. Ticarət, maliyyə və tikinti;
7. Kənd təsərrüfatı;
8. Sair sahələr (mənzil və kommunal təsərrüfatları ayırmaqla).

Bu təsnifat dövlət kapital qoyuluşlarına tətbiq edilmir. Bu məsrəflər yalnız yeni tikintilər üzrə uçota alınmaqla və mənzil tikintisi, qeyri-mənzil tikitisi, hərbi tikinti, yol tikintisi və s. qruplara bölünür.

Yuxarıda göstərilən qruplaşdırmalar müxtəlif sosialiqtisadi sistemlərə aid olan dövlətlərdə kapital qoyuluşlarının təsnifatlarında cidd fərq olduğunu və onların qeyri-müqayisəli olmasına sübut edir. Yenidən qruplaşdırma aparmadan belə mə'lumatları nə yekunlaşdırmaq v nə də müqayisə etmək mümkün deyildir.

Beynəlxalq statistikada kapital qoyuluşlarını təhlil edərkən onların növlərinə görə təsnifatlaşdırılmasına xüsusi əhəmiyyət verilir. Belə qruplaşdırma yolu ilə konkret ölkədə texniki tərəqqinin inkişaf səviyyəsi və kapital qoyuluşlarından istifadənin səmərəliyi haqqında müəyyən nəticəyə gəlmək və kapital qoyuluşlarının texniki quruluşunu müəyyən etmək mümkündür.

QİYŞ ölkələrinin statistika üzrə daimi komissiyası kapital qoyuluşlarını aşağıdakı üç qrupda birləşdirməyi tövsiyyə edirdi:

1. Tikinti quraşdırma-işləri;
2. Avadanlıq, alət və inventar;
3. Sair əsaslı işlər və məsrəflər.

QİYŞ ölkələri belə bölgünü əsasən qəbul etsələr də milli statistika təcrübələrindən müəyyən fərqləri saxladılar. Məsələn, Bolqar statistikasında bu üç qrupdan əlavə geoloji kəşfiyyat işinin məsrəfləri qrupunu da ayırırlar. Halbuki, belə məsrəflər əsas fondların təkrar istehsalına bilavasitə tə'sir etmədiyinə görə kapital qoyuluşlarının tərkibinə daxil edilmir. Çexiyanın statistika təcrübəsində isə kapital qoyuluşlarını tikinti işlərinə, habelə maşın, avadanlıq, alət və invertarların alınmasına yönəldilən məsrəflər qrupuna ayırırlar.

BMT-nin statistika komissiyasının tövsiyyələrində tikilən obyektlərin funysiyasına görə kapital qoyuluşları iki qrupa ayrılır:

1. Bina və qurğular.
2. Maşın və avadanlıqlar.

Məsrəflərin natural əşya tərkibinə görə belə qruplaşdırılması həddən artıq ümumiləşdirilmiş olduğuna görə kapital qoyuluşlarının ayrı-ayrı ünsürlərini diferensiallaşdırmağa imkan vermir. Lakin onun üstünlüyü kapital qoyuluşlarının ümumi həcmində fəal və qeyri fəal əmək vasitələrinin xüsusi çəkisini müəyyən etməyə imkan verməsindədir. Bundan əlavə belə qruplaşdırma nəticəsində kapital qoyuluşlarının ümumi həcmi və onun natural əşya tərkibinin müqayisəliliyi müəyyən dərəcədə tə'min olunur.

BMT-nin tövsiyyələri ilə MHS-ndə qəbul edilən qruplaşdırmalar da uyğun gəlir. Lakin MHS-də torpaqla əlaqədar əməliyyatlara məsrəflər ayrıca əlavə qrup kimi göstərilmişdir.

MHS-də kapital qoyuluşları aşağıdakı kimi qruplaşdırılmışdır:

1. Əsas kapitala qoyuluşlar:
   a) Yaşayış binalarına;
   b) Qeyri-yaşayış binalarına;
   c) Sair tikililər;
   d) Torpağın meliorasiyasına, plantasiyaların salınması və genişləndirilməsinə;
   e) Nəqliyyat vasitələrinə;
   f) Maşın və sair avadanlıqlara;
   g) Cins mal-qaraya, süd verən mal-qaraya;
2. Ehtiyatların əlavə artımına:
   a) Əmtəəlik məhsul, material və ehtiyat hissələri istehsal edən sahələrə:

İri əmək vasitələrindən başqa bitməmiş tikintiyə;

İri əmək vasitələrinin bitməmiş tikintisinə;
Cins və süd verən mal-qaradan başqa mal-qaraya;
Hazır mə'mulata;

b) Sair istehsal sahələri və dövlət idarəçiliyi orqanlarına:
Satış üçün hazır məhsula;
İstehsal sahələrinin sair ehtiyatlarına;
Dövlət idarəçiliyi orqanlarının ehtiyatlarına.

Bu təsnifat xeyli geniş olsa da hər bir mövqe istənilən dərəcədə deyildir.

Dünyanın bir sıra ölkələrində kapital qoyuluşları statistikasında ümumi cəhət avadanlıqların quraşdırılmasının dəyəri həmin avadanlıqların öz dəyərinə daxil edilməsidir. Bir sıra ölkələrdə bu xərclər tikintiquraşdırma işlərinin dəyərinə daxil edilir.

Bütün yuxarıda qeyd edilənlər göstərir ki, müxtəlif ölkələrin kapital qoyuluşlarının təsnifatında xeyli fərqlər mövcuddur. Müasir dövrdə beynəlxalq statistikanın qarşısında duran əsas vəzifələrdən biri kapital qoyuluşlarının həcmi və tərkibinin müqayisəliliyini tə'min edən təsnifatları hazırlamaqdır.

§6.5.Kapitalla əməliyyatların beynəlxalq MHS-də əksi

BMT üzvü olan ölkələrdə tətbiqi zəruri olan MHS-də "Kapitalla əməliyyatlar hesabı" ən mühüm hesablardan biridir. Tə"sisat vahidlərinin əldə etdikləri və sıradan çıxan qeyri-maliyə aktivləri, habelə yığım və kapital transfertləri hesabına fərdi kapitalın xalis dəyərinin dəyişməsi bu hesabda əks etdirilir. "Kapitalla əməliyyatlar hesabı" bütün iqtisadiyyat sektorlarının qeyri-maliyyə aktivləri üzrə əməliyyatları əks etdirir. Bu hesab əsas kapitalın ümumi yığımını, əsas kapitalın istehlakını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin, torpağın və başqa istehsal edilməyən maddi və qeyri-maddi aktivlərin xalis əldə edilməsini əhatə edir.

Kapitalla əməliyyatların maliyyələşdirilməsinin əsas mənbəyi "Gəlirlərin istifadəsi hesabı"ndan keçən yığım və alınan kapital transfertlərdir (verilən kapital transfertləri çıxmaqla).

"Kapitalla əməliyyatlar hesabı"nın balanslaşdırıcı maddəsi xalis kreditləşmə (+) və ya xalis borc götürmədir (–). İqtisadiyyat miqyasında bütövlükdə xalis kreditləşdirmə və ya xalis borc götürmə ölkənin "yerdə qalan dünya"nın ölkəyə verdiyi resursların miqdarını göstərir.

§6.6 Qeyri-maliyyə aktivlərinin dəyişməsi

"Kapitalla əməliyyatlar hesabı"nı nəzərdən keçirməmişdən əvvəl bu hesabların tərtibində istifadə olunan iqtisadi aktivlərə tə'rif vermək lazımdır. İqtisadi aktiv dedikdə aşağıdakı əlamətlərə malik olan obyektlər başa düşülür:

1. Tə'sisat vahidləri belə obyektlərə mülkiyyət hüququna (fərdi və ya kollektiv) malik olur;
2. Belə obyektlərə sahib olan sahibkar onlara malik olduğuna görə və ya onlardan müəyyən müddət istifadə etdiyinə görə iqtisadi qazanc əldə edir;
3. Bütün iqtisadi aktivlər maliyyə və qeyri-maliyyə aktivlərinə bölünür. Maliyyə aktivlərinə pul vəsaitləri, maliyyə tələbnamələri və müxtəlif formalarda öhdəçiliklər aiddir. Qeyri-maliyyə aktivləri mənşəyindən asılı olaraq istehsal olunan və istehsal olunmayan aktivlərə bölünür.

İstehsal olunan qeyri-maliyyə aktivləri istehsal prosesində yaranır. İstehsal olunan qeyri-maliyyə aktivlərinin üç növünü ayırırlar:

1. Əsas kapital;
2. Maddi dövriyyə vəsaitləri ehtiyatları;
3. Qiymətlilər.

İstehsal nəticəsində yaranmış, bir ildən çox müddət ərzində istehsal prosesində dəfələrlə istifadə olunan maddi və qeyri-maddi aktivlər əsas kapitala daxil edilir.

Maddi əsas kapitalın tərkibinə aşağıdakı aktivlər daxildir:

a) Bina və qurğular;

b) Maşın və avadanlıqlar, nəqliyyat vasitələri;

v) Dəfələrlə məhsul almaq üçün becərilən (saxlanılan) aktivlər (bala və süd almaq üçün saxlanılan və işçi mal-qara, bağlar və üzümlüklər və başqa ağaclar).

Qeyri-maddi əsas kapitala aşağıdakılar aiddir:

a) Geoloji kəşfiyyat işlərinə məsrəflər;

b) EHM üçün proqram tə'minatı və rəqəmlər (mə'lumat) bazası yaratmaq və ya əldə etmək üçün məsrəflər;

v) Ədəbi və bədii əsərlərin (filmlər, əlyazmaları, teatr tamaşalarının video-audio yazıları, radio və televiziya proqramları və s.) orjinalları (əsli), təsərrüfat vahidlərində olan və əsas kapitalın ümumi yığımına daxil olmayan bütün əmtəələr maddi dövriyyə vəsaitləri ehtiyatlarına daxil edilir.

Maddi dövriyyə vəsaitləri ehtiyatlarına aktivlərin aşağıdakı tipləri daxil edilir:

a) İstehsal ehtiyatları;

b) Bitməmiş istehsal;

v) Hazır məhsullar;
q) Satılmaq üçün alınan əmtəələr;
d) Dövlətin maddi rezervləri (ehtiyatları).

Qiymətlilər dedikdə qiymətli metal və daşlar, antikvar (qədimi, antik) mə'mulatlar, kolleksiyalar və başqa təsviri incəsənət əsərləri başa düşülür. Onlar nə istehsal, nə də istehlak məqsədləri üçün istifadə olunmur və əsasən yığım vasitəsi kimi saxlanılır. Qiymətlilərin müəyyən zaman daxilində real dəyəri qiymətlərin ümumi səviyyəsinə görə aşağı düşmür.

İstehsal olunmayan qeyri-maliyyə aktivləri öz tərkibinə istehsal üçün gərək olan, lakin özləri istehsalın nəticəsi olmayan aktivləri daxil edir. Onlar maddi və qeyri maddi aktivlərə bölünürlər.

İstehsal olunmayan qeyri-maddi aktivlərə torpaq, yerin təki, becərilməyən bioloji resurslar və torpaq altında olan su resursları daxildir.

MHS-də təbii mənşəli aktivlərin hamısı iqtisadi aktivlərə aid edilmir. Buraya mülkiyyət hüququ aid olmayan aktivlər, habelə mövcud texnologiyanın və qiymətlərin səviyyəsində və iqtisadi infrastrukturada iqtisadi fayda gətirməyən aktivlər aiddir. Buraya okeanlar və hava hövzəsi, kəşf edilməmiş və əlçatmaz faydalı qazıntı yataqları, vəhşi heyvanlar, quşlar, balıqlar, əlçatmaz rayonlarda olan meşələr və başqa bitkilər daxil edilir.

İstehsal olunmayan qeyri-maddi aktivlər istehsal prosesi ilə əlaqədar tərtib olunan və müəyyən vaxtdanbir bir tə'sisat vahidindən başqasına keçən hüquqi formadır. Buraya müəlliflik hüquqları, patentlər, lisenziyalar, ticarət nişanları və s. aiddir.

Qeyri maliyyə aktivlərinin dəyişməsi aşağıdakı maddələri əhatə edir:

1. Əsas kapitalın ümumi yığımı;
2. Əsas kapitalın istehlakı (–);
3. Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi;
4. Qiymətlilərin, torpağın və başqa istehsal olunmayan maddi aktivlərin, habelə istehsal olunmayan qeyri-maddi aktivlərin xalis əldə edilməsi (əldə edilmə – sıradan çıxma);

§6.7. Əsas kapitalın ümumi yığımı

Əsas kapitalın ümumi yığımı dedikdə nəticədə yeni gəlir əldə etmək üçün rezident vahidlərinin əsas kapital obyektlərinə vəsait qoyuluşu başa düşülür. Əsas kapitalın ümumi yığımı aşağıdakı komponentləri (tərkib hissələrini) əhatə edir:

1. Yeni və mövcud olan əsas fondların əldə edilməsi (sıradan çıxanları çıxmaqla);

2. İstehsal olunmayan maddi aktivlərin yaxşılaşdırılmasına çəkilən xərclər;
3. İstehsal olunmayan aktivlərə malik olma hüququnun başqalarına verilməsi ilə əlaqədar xərclər;

Aktivlərin əldə edilməsi satınalma, barter, natural formada kapital transfertləri almaq, yaxşılaşdırma və öz istifadəsi üçün istehsal etmək yolu ilə əldə edilə bilər.

Aktivlərin sıradan çıxması satış, barter, natural formada kapital transfertlərin verilməsi, istehsalatda birdəfəlik istifadə üçün verilmə (məs, maddi dövriyyə vəsaitləri aktivləri üçün) ləğv edilmə və s yolu ilə baş verir.

Mövcud əsas kapitalın yaxşılaşdırılması onun əsaslı tə"miri yolu ilə həyata keçirilir. Əsaslı tə"mir mövcud əsas fndların modernləşdirilməsi, yenidən qurulması, genişləndirilməsi, istehsal gücünün istehsal xarakteristikasının yaxşılaşdırmaq yolu ilə həyata keçirilir. Əsas fondların məhsuldarlığı və xidmət müddətini artırmayan və aralıq istehlakında nəzərə alınan cari tə"mirdən əsaslı təmirin fərqi də bunda təzahür edir.

İstehsal olunmayan maddi aktivlərin yaxşılaşdırılması torpağın yaxşılaşdırılması və onu istifadəyə hazırlamaq üçün (meliorasiya, qurutma və s) kapital xarakterli xərcləri əhatə edir.

İstehsal olunmayan aktivlərə mülkiyyət hüququnun başqasına verilməsi ilə əlaqədar xərclər, daşınmaz əmlakla əlaqədar əməliyyatlardan göstərdikləri xidmətlər üçün vəkillərə, agentlərə və başqa vasitəçilərə verilən rüsumlar, ödəniş və vergilər aiddir.

Aşağıdakı maddələr əsas kapitalın ümumi yığımının tərkibinə daxil edilmir:

1. Xidmət müddəti bir ildən yuxarı olan xırda alət, fəhlə paltarı və az qiymətli avadanlıqların əldə edilməsi (bunlar aralıq istehlakına aid olurlar);
2. Ev təsərrüfatları tərəfindən öz istehlak ehtiyacları üçün əldə edilmiş uzunmüddətli xidmət üçün əmtəələr (bunlar ev təsərrüfatının son istehlakına aid edilir);
3. Uzunmüddətli xidmətlər üçün avadanlıqları da daxil etməklə hərbi texnikanın(dağıdıcı vasitələrin) əldə edilməsinə çəkilən xərclər(dövlət idarələrinin aralıq istehlakına aid edilir);
4. Təsərrüfat vahidlərinin elmi tədqiqatlara, reklama və sairəyə çəkdiyi xərclər(aralıq istehlakına aid edilir);
5. Sifarişçi tərəfindən ödənilməyən başa çatmamış tikinti və bitməmiş əsaslı tə"mir (maddi dövriyyə vasitələri ehtiyatlarının dəyişməsinə aid edilir);

6. İstehsal olunmayan maddi və qeyri-maddi aktivlər ("Kapitalla əməliyyatlar hesabı"nda "Qeyri maliyyə aktiv-lərinin dəyişməsi" adlı ayrıca maddədə əks olunur)

Əsas kapitalın ümumi yığımı istehsalatda ondan istifadə edəcək təshihat vahidinə verildiyi anda uçota alınır. Bina və qurğular üçün belə an yerinə yetirilmiş işin sifarişçi tərəfindən ödənildiyi an hesab olunur. Əgər obyekt mərhələlərlə ödənilərsə işin ödənilən hissəsi əsas kapitalın ümumi yığımına, ödənilməyən hissəsi isə bitməmiş istehsal və ya sifarişçidə olan maddi dövriyyə vasitələrinin tərkibində olan hazır məhsuluna daxil edilir. Təsərrüfat üsulu ilə yerinə yetirilən başa çatmamış tikinti əsas kapitalın yığımına aid edilir. Uzun istehsal tsiklinə malik avadanlıqlar(gəmilər, təyyarələr və s) əsas kapitalın yığımına sifarişçiyə çatdırıldığı andan daxil edilir.

Əsas kapitalın ümumi yığımına daxil olan ünsürlərin qiymətləndirilməsi aşağıdakı kimi aparılır:

1. Əsas kapital satın alındıqda əldə edilmə qiymətiylə (alıcının qiymətiylə, daha doğrusu, mülkiyyət hüququnun başqasına verilməsi ilə əlaqədar olan bütün nəqliyyat,qurulma, komission haqları, vergilər və s xərcləri daxil etməklə);
2. Əsas kapitalı fərdi istifadə üçün istehsal etdikdəhesablanmış əsas qiymətlərlə və ya istehsal xərclərinə görə;
3. Mövcud əsas kapitalın satın alınması-mülkiyyət hüququnun başqalarına verilməsi ilə əlaqədar olan bütün xərcləri daxil etməklə əldə edilmə qiymətləri ilə;
4. Mövcud əsas kapitalın satışı-mülkiyyətin başqasına verilməsi ilə əlaqədar satıcının çəkdiyi bütün xərcləri çıxmaqla satış qiymətiylə.

Əsas kapitalın ümumi yığımına aşağıdakılar daxildir:

1. Kapital qoyuluşları;
2. Əsas fondların dəyərinə daxil olmayan məsrəflər;
3. Əsaslı tikintiyə ayrılmış vəsait hesabına əldə edilən az qiymətli və tez köhnələn əşyalar və ehtiyat hissələri;
4. Əsas sürüdəki mal-qaranın dəyərinin əlavə artımı;
5. Əsas fondların əsaslı tə"mirinə çəkilən xərclər;
6. Büdcə təşkilatları tərəfindən alınan avadanlıqlar, inventarlar və kitabxana üçün kitablar;
7. Geoloji-kəşfiyyat işlərinə çəkilən xərclər;
8. EHM üçün proqram tə"minatı və mə"lumat bazasının yaranmasına və əldə edilməsinə çəkilən xərclər;
9. Bədii və ədəbi əsərlərin orjinalının(əslinin) yaradılmasına və əldə edilməsinə çəkilən xərclər;
10. Əsas kapitala və istehsal olunmayan aktivlərə mülkiyyət

hüququnun başqasına verilməsi ilə əlaqədar xərclər;
11. Əsas kapitalın sıradan çıxması;
12. Əsas kapitalın ümumi yığımı;

(1-2-3+4+5+6+7+8+9+10-11)

BMT-nin tövsiyyələrinə əsasən tətbiq edilən MHS-də kapital qoyuluşlarına aşağıdakılar aid edilir:

1. İqtisadi vahidlər tərəfindən satın alınan və ya təsərrüfat üsulu ilə istehsal edilən yeni kapital əmtəələr və ya obyektlər (binalar, qurğular, maşın və ya avadanlıqlar, nəqliyyat vasitələri, alətlər və s);
2. Mövcud olan kapital əmtəələrin və ya obyektlərin satın alınması;
3. Ayrı-ayrı tikinti obyektinə aid olan geolojikəşfiyyat və qazma işlərinə çəkilən xərclər;
4. Torpağın yaxşılaşdırılmasına, giləmeyvə kollarının salınmasına, bar verənədək onların becərilməsinə çəkilən kapital xarakterli xərclər;
5. Sifarişçi tərəfindən ödənilmiş başa çatmamış tikinti;
6. Əsas fondların dəyərini artırmayan məsrəflər;
7. Əsaslı tikintiyə ayrılan vəsait hesabına əldə edilən az qiymətli və tez köhnələn əşyalar və ehtiyat hissələrinin dəyəri.

Əsas fondların dəyərini artırmayan məsrəflər (kadr hazırlığına, tikintinin konservləşdirilməsinə, tikinti sahəsi ayrılan zaman vətəndaşlara məxsus sökülən tikililərin dəyərinin ödənilməsinə və sairəyə çəkilən xərclər) və əsaslı tikintiyə ayrılan vəsait hesabına əldə edilən az qiymətli və tez köhnələn əşyalar və ehtiyat hissələrinin dəyəri kapital qoyuluşlarının həcminə daxil olsalar da əsas kapitalın yığımını artırmadığına görə əsas kapitalın ümumi yığımı hesablanarkən onlar kapital qoyuluşlarının həcmindən çıxılır.

Kapital qoyuluşlarının hesablanması sahələr və təsərrüfat qrupları üzrə aparılır və sonradan iqtisadiyyat sektorları üzrə aqreqasiya edilir (birləşdirilir).

Sektorlar və sahələr üzrə kapital qoyuluşlarının və əsaslı tə"mir xərclərinin hesablanması aşağıdakı sxem üzrə aparılır.

Bə"zi sektorlarda kapital qoyuluşlarının müəyyən edilməsinin öz xüsusiyyətləri vardır: "Kapitalla əməliyyatlar hesabı"nın tərtibinə dair BMT Katibliyinin tövsiyyələrində qeyd edilən belə xüsusiyyətlərdən bə"zisinə nəzər salaq:

-Fərdi ev, təsərrüfat tikililərinin tikintisinə və meyvə ağaclarının salınması və becərilməsinə kapital qoyuluşları əsas fondlar balansının mə"lumatlarına əsasən müəyyən edilir;

-Kənd təsərrüfatı (ev təsərrüfatları olmayan), mənzil və kommunal təsərrüfatları üzrə bir başa mə"lumatlar olmadıqda kapital qoyuluşlarının həcmi ümumi buraxılışa mütənasib götürülür;

-Səhiyyə, bədən tərbiyyəsi, sosial tə"minat, xalq maarifi, mədəniyyət və incəsənət ümumdövlət sektoruna aid olduqlarına görə bu sahədə kapital qoyuluşu dövlət büdcəsinin sosial-mədəni tədbirlərə məsrəflərinə dair mə"lumatlara əsasən müəyyən edilir. Bu sahələrdə olan kommersiya müəssisələrinə kapital qoyuluşları həmin sahələrin kapital qoyuluşları ilə büdcə idarələrinin kapital qoyuluşları arasındakı fərq kimi müəyyən edilir;

-Büdcə və kommersiya elmi idarələrinin kapital qoyuluşları elmi idarələrin xidmətlərinin ümumi buraxılışındakı xüsusi çəkisinə görə müəyyən edilir;

-Qeyri-istehsal təyinatlı sair obyektlər üzrə kapital qoyuluşlarında

7-ci cədvəl

Sektorlar və sahələr üzrə kapital qoyuluşları və əsaslı tə"mir xərclərinin hesablanması

(cari qiymətlərlə, milli valyutada, mln.man.)

Sektorlar və sahələr	Sə-ti-rin nöm rə-si	Kapital qoyuluşları		Əsaslı tə"mir	Arayış: əsas qiymətlə buraxılış ("istehsal hesabı")
		Kapital qoyuluşları statistika-sının mə"lu-matlarına əsasən (forma N2-əsaslı tikinti)	MHS-nin hesab-lama-ları üzrə		
A	V	1	2	3	4
Sənaye	01	133345,2	3065,4		9114,0
Kənd təsərrüfatı	02	8698,2	497,0		3680,0
-kommersiya müəssisələri	03				
-büdcə təşkilatları	04				
-ev təsərrüfatı	05				
Meşə təsərrüfatı	06				
Tikinti	07				71
Balıqçılıq	08	346,2	86,5		830,0
Nəqliyyat	09	37421,3	2240,8		3401,0
-Şose yolları təsərrüfatı olmayan	10	35630,7	2199,4		3687,4
Şose yolları təsərrüfatı	11	1790,6	3581,2		104,0
Rabitə	12	12475,7	17822,4		141,0
Ticarət və ictimai iaşə	13	691,8	147,2		987,4
Madi texniki təchizat və satış	14	153,4	191,7		164,0
Tədarükat	15				19,0
İnformasiya hesablama xidməti	16				5,0
Maddi istehsalın sair material sferaları	17				31,0
Hərəkət etməyən əmlakla əməliyyatlar	18				
Auksion bazarın tə"minatı üzrə kommersiya fəaliyyəti	19				
Yerin tərkinin geologi-yası və kəşfiyyatı, geode-ziya və hidrometeroloji xidmət	20				46,0

7-ci cədvəlin davamı

A	V	1	2	3	4
Mənzil təsərrüfatı: -dövlət(yerli sovet)	21	392145,5	784291,0		105,0
-kooperativ	22				
-büdcə təşkilatlarının	23				
-Kommersiya müəssisələri və ictimai təşkilatların	24				
Ev təsərrüfatlarının	25				
Komunal təsərrüfatı	26	29541,6	8206,0		454,0
-komersiya müəssisələri	27				
-büdcə təşkilatları	28				
Əhaliyə qeyri-istehsal məişət xidməti	29				
Səhiyyə, bədən tərbiyəsi və sosial tə'minat	30	16243,8	20304,7		754,0
-kommersiya müəssisələri	31				
-Büdcə təşkilatları	32				
Xalq maarifi	33	6258,0	3476,6		378,0
-kommersiya müəssisələri	34				
-büdcə təşkilatları	35				
Mədəniyyət və incəsənət	36	8513,4	42567,0		49,0
-kommersiya müəssisələri	37				
-büdcə təşkilatları	38				
Elm və elmi xidmət	39				
-kommersiya müəssisələri	40				
-büdcə təşkilatları	41				
Maliyə, kredit, sığorta, pensiya tə"minatı	42	53925,5	33703,4		324,0
İdarəçilik	43				584,0
İctimai təşkilatlar	44				15,0
Cəmi(01+02+06+07+08+11+12+ +13+14+15+16+17+22+25+26+ +29+32+ 35+38+39+40)	45				
O cümlədən sektorlar üzrə qeyri-maliyyə müəssisələri (01+03+06+07+09+11+12+13+ +14+15+16+18+20+23+25+27+ +30++33+ 36)	46				
Maliyə məsrəfləri(38)	47				
Ümumdövlət idarəçiliyi (04+10+19+24+28+31+34+37+39)	48				
Ev təsərrüfatı (05+21)	49				
Ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları (40)	50				

həmçinin maliyyə, ictimai birliklər və idarəçilik orqanları ümumi buraxılışda onların xüsusi çəkisinə mütənasib bölüşdürülür;

-Əsas sürüdə mal-qaranın dəyərinin əlavə artımı hesabat əsas fondlar balansına əsasən amortizasiyanı (köhnəlməni) çıxmaqla ilin sonuna və əvvəlinə mal-qaranın dəyərinin fərqi kimi müəyyən edilir;

Sektorlar üzrə mal qaranın dəyərinin əlavə artımı hesablanarkən ev

təsərrüfatında olan mal-qara ev təsərrüfatı sektorunda, qalanları isə qeyri-maliyyə müəssisələri sektorunda uçota alınır.-Əsas fondların əsaslı tə"mirinə çəkilən məsrəflər əsas kapitalın ümumi yığımına tikinti məhsulunda uçota alınan həcmdə daxil edilir. Əsaslı tə"mirə aid (o cümlədən maşın və avadanlıqların) əlavə informasiya olduqda onlar da nəzərə almaq lazımdır. Bu məsrəflər praktiki məqsədlər üçün sahələr və təshihat vahidləri qrupları üzrə buraxılışa uyğun nisbətdə bölüşdürülür. Təkrar uçotdan qaçmaq üçün bu xərcləri müvafiq sahələrin "İstehsal hesabı"nda göstərilən aralıq istehlakının məbləğ qədər azaltmaq lazımdır. Sonradan isə bu göstəricini uçota almaq üçün seçmə müşahidəsənin mə"lumatlarından istifadə etmək lazımdır.

-Büdcə təşkilatları tərəfindən avdanlıq və inventarların əldə edilməsi dövlət büdcəsinin sosial-mədəni tədbirlərə və dövlət idarəçiliyi orqanlarının saxlanması xərclərinin təsnifatına əsasən müəyyən edilir.

-Kitabxanalar üçün kitabların alınmasına çəkilən xərclər dövlət büdcəsinin "təhsil" və "mədəniyyət" sahələri üzrə məsrəflərinin təsnifatında göstərilən "sair məsrəflər" maddəsinin bir hissəsini təşkil edir və ekspert üsulu ilə müəyyən edilir. Kitabların alınmasına çəkilən xərcləri əsas kapitalın ümumi yığımına daxil edərkən "İstehsal hesabı"nda müvafiq sahələrin aralıq istehlakını həmin məbləğdə azaltmaq lazımdır.

-İstehsal olunmayan əsas kapitala mülkiyyət hüququnun başqasına verilməsi ilə əlaqədar xərclər əsas kapitalın dəyərinə daxil edilir

İstehsal olunmayan aktivlər əsas kapitalın ümumi yığımına daxil olmadığına və onlara mülkiyyət hüququnun başqasına verilməsi ilə əlaqədar xərclərin isə əsas kapitalın ümumi yığımında ayrıca göstərildiyinə görə həmin xərclərin dəyərini aktivlərin satış və alış dəyərindən ayırmaq lazımdır.

-Əsas kapitalın sıradan çıxması əsas kapitalın ümumi yığımını azaldır. İqtisadiyyat üzrə bütövlükdə sıradan çıxma əsas kapital ləğvindən alınan maddi dəyərlərinin (qırıntı və s. material) məbləğinə bərabər götürülür.

Bu göstərici ləğv edilmiş əsas fondların qalıq dəyəri ilə amortizasiya edilməmiş dəyəri arasındakı fərq kimi müəyyən edilir. Belə məlumatlar köhnəlməsi çıxılmış dəyərlə qurulan hesabat əsas fondlar balansında vardır.

Sıradan çıxmanı sektorlar üzrə hesablayarkən əsas kapitalın başqa sektorlara əvəzsiz verilməsini və satışını da nəzərə almaq lazımdır.

Fəlakət və bədbəxt hadisələr nəticəsində əsas kapitalın sıradan çıxması bu göstəricidə və "Kapitalla əməliyyatlar" hesabında öz əksini tapmır. Onlar "aktivlərin həcmində başqa dəyişiklər " hesabında əks

etdirilirlər.

Əsas kapitalın istehlakı hesabat dövrü ərzində istehsal prosesində istifadə, mə"nəvi köhnəlmə və təsadüfi zədələnmələr nəticəsində əsas kapitalın dəyərinin azalmasıdır.

Əsas kapitalın istehlakı sektorlar və bütövlükdə iqtisadiyyatda aktivlərin azalmasını əks etdirən göstərici kimi "Kapitalla əməliyyatlar hesabı"nın sol tərəfində göstərilir.

§6.8. Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi

Başqa aktivlər kimi maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi də onların alınması və sıradan çıxması nəticəsində baş verir. Verilmiş dövr ərzində ehtiyatların dəyərinin dəyişməsi dövrün sonuna və əvvəlinə olan qalıqların fərqi kimi hesablanır.

Maddi dövriyyə vəsaitləri ehtiyatları istehlakçılarda, habelə topdan və pərakəndə ticarət müəssisələrində olarsa alıcıların qiymətləri ilə, istehsalçılarda olduqda isə əsas qiymətlərlə qiymətləndirilir.

Maddi dövriyyə vəsaiti ehtiyatların dəyişilməsinin hesablanması aşağıdakı tərkibdə həyata keçirilir:

1. İstehsal ehtiyatlarının əlavə artımı (istehsalçı təsərrüfatlarda olan kənd təssərüfatı məhsulları olmadan);
2. Bitməmiş istehsalın əlavə artımı;
3. Hazır məhsulun əlavə artımı (istehsalçı təsərrüfatlarda olan kənd təsərrüfatı məhsulları olmadan);
4. Əmtəələrin əlavə artımı;
5. İstehsalçı müəssisələrində kənd təsərrüfatı məhsulları ehtiyatlarının əlavə artımı;
6. Meşə salınmasının əlavə artımı;
7. Dövlət maddi resurslarının əlavə artımı;
8. Qiymətlərin dəyişməsini müəyyən etmək məqsədi ilə dəyərə edilən düzəlişlər (korrektirlər);
9. Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi (1+2+3-4+5+6+7+8);

Maddi dövriyyə vəsaitləri ehtiyyatlarının dəyişməsini hesablayarkən bu göstəricilərin səviyyəsinə qiymətlərin dəyişməsinin tə"siri aradan qaldırılmalıdır.

Müxtəlif maddi ehtiyatların dəyərinin dəyişilməsi mühasibat uçotunun mə"lumatlarına əsasən dövrün sonuna və əvvəlinə olan qalıqların dəyərinin fərqi kimi müəyyən edilir. Mühasibat hesabatlarında bu qalıqlar əldə edilmə qiyməti və ya maya dəyəri ilə qiymətləndirilmələrinə baxmayaraq MHS -nin prinsiplərinə əsasən onlar hesabat dövrünün orta qiymətlərinə əsasən qiymətləndirilməlidirlər.

MDB dövlətlərində dövrün əvvəlinə və sonuna olan ehtiyatlara aid informasiyaya əsasən maddi ehtiyatlar mənşəyinə görə əmtəə qrupları üzrə aşağıdakı kimi bölüşdürülür:

Sənaye məhsulu:
- o cümlədən:
- neftqaz sənayesi
- kömür sənayesi
- sair yanacaq sənayesi
- qara metallurgiya
- əlvan metallurgiya
- kimya və neftkimya sənayesi
- maşınqayırma və metal e"malı
- meşə, ağac emalı, selüloz-kağız sənayesi
- tikinti materialları sənayesi
- yüngül sənaye
- yeyinti sənayesi
- sənayenin sair sahələri.

Kənd təsərrüfatı məhsulları

Maddi istehsalın sair sahələrinin məhsulu.

Sonradan hər bir məhsul qrupu üzrə qiymət indeksi seçilir (məsələn, kənd təsərrüfatı məhsulları üçün alış qiymətləri, sənayenin müvafiq sahəsinin məhsulunun topdansatış qiymətləri və s).

Hər bir əmtəə qrupu üzrə ilin əvvəlinə ehtiyatların dəyəri. I və II yarım illiklərin qiymət indekslərindən hesablanmış orta hesabi kəmiyyətin dövrün əvvəlinə olan qiymət indeksinə nisbətindən alınan ədədə vurulur. İlin sonuna ehtiyatların dəyəri I və II yarımilliklərin qiymətlərindən hesablanmış orta hesabi kəmiyyətin dövrün sonuna nisbətindən alınan ədədə vurulur.

Belə hallarda bütün indekslər eyni bazaya əsasən hesablanmalıdır. Bu hesablama aşağıdakı kimidir:

$$S_a = S_n \cdot \left(\frac{\bar{J}_{01} \cdot n/x}{Jn/x} \right) - S_0 \times \left(\frac{\bar{J}_{01} n/x}{J_{o/s}} \right)$$

Burada

S_a -ilin orta qiymətləri ilə il ərzində ehtiyatların dəyərinin dəyişməsini;

S_0 -ilin əvvəlinə mühasibat uçotunun mə"lumatları üzrə ehtiyatların dəyərini;

S_n -ilin sonuna mühasibat uçotunun mə"lumatları üzrə ehtiyatların dəyərini;

8-ci cədvəl

Sektorlar üzrə maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi

	Sətrin kodu	Qeyri-maliyyə müəssisələri	Ümum dövlət idarəçiliyi	Ev təsərrüfatı	Cəmi
A	V	1	2	3	4
İstehsal ehtiyatlarının əlavə artımı	01				
Bitməmiş istehsalın əlavə artımı	02				
Hazır məhsulun əlavə artımı	03				
Əmtəələrin əlavə artımı	04				
İstehsalçı təsərrüfatları olan kənd təsərrüfatı məhsullarının ehtiyatlarının əlavə artımı	05				
Meşə salınmasının əlavə artımı	06				
Dövlət maddi rezervlərinin əlavə artımı	07				
Cəmi(01−02+03+04+05−06+ +07)					

$J_{o/x}$ -x bazis dövrünə nisbətən ilin əvvəlinə qiymət indeksini;

$J_{o/x}$ -x bazis ilinə nisbətən ilin sonuna qiymət indeksini;

göstərir.

$$\bar{J}_{0,n/x} = \frac{1}{2}\left[\bar{J}_{1\ yarımil/x} + \bar{J}_{2\ yarımil/x}\right]$$

Mühasibat uçotunun mə"lumatlarına əsasən ehtiyatların dəyərinin dəyişməsi ilə ilin orta qiymətləri ilə ehtiyatların dəyərinin dəyişməsi arasındakı fərq maddi dövriyyə vəsait ehtiyatlarının dəyişməsinin dəyər korrektivini (düzəlişini) göstərir.

Dəyər korrektivi=(S_n - S_0)- S_a

Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi qiymətlərin yüksəldiyi halda bu dəyər korrektivi qədər azaldılmalı və bu sahələrdə aralıq istehlakı müvafiq olaraq artırılmalıdır.

Dəyər korrektivinin həcmini daha dəqiq müəyyənləşdirmək üçün ehtiyatların mühüm növləri üzrə çinsi ifadədə qalıqların rüblər üzrə dəyişməsinə dair,onların saxlanma müddəti haqqında və müvafiq qiymət indekslərinə dair informasiya tələb olunur.

§6.9. Dəyərlilərin, torpağın və başqa istehsal olunmayan maddi aktivlərin, habelə istehsal olunmayan qeyri-maddi aktivlərin xalis əldə edilməsi

Dəyərlilərin əldə edilməsi agentlərə və dəllallara verilən mükafatları da daxil etməklə alıcıların qiyməti ilə qiymətləndirilir.

Dəyərlilərin sıradan çıxması agentlərə və dəllallara verilən mükafatları (komision haqqları) çıxıldıqdan sonra faktiki və ya hesablama qiymətləri ilə qiymətləndirilir. Hal-hazırda dəyərlilərin əldə edilməsi ticarət ststiistikasının mə"lumatına əsasən praktiki olaraq yalnız ev təsərrüfatları üçün zərgərlik mə"mulatlarının alışı həcmində hesablana bilər.

MHS- nin müəyyən etdiyi qaydaya uyğun olaraq torpağın alınması və satılması yalnız rezidentlər arasında baş verə bilər. Əgər belə əməliyyatlarda qeyri rezidentlər iştirak edərsə onlar şərti rezident kimi nəzərdən keçirilir. İrəlidə deyildiyi kimi torpağın alınması və ya satılması ilə əlaqədar mülkiyyət hüququnun başqasına verilməsi xərcləri torpağın qiymətinə daxil olunmur və əsas kapitalın ümumi yığımına daxil edilir. Buna görə də torpağın satıldığı qiymət həm alıcı və həm də satıcı üçün eyni olacaqdır. Beləliklə, alınmış bütün torpaqların dəyəri satılmış bütün torpaqların dəyərinə bərabər olmalıdır. Bu isə o deməkdir ki, iqtisadiyyat üzrə bütövlükdə torpağın əldə edilməsindən alınan xalis dəyər həmişə sıfıra bərabərdir.

Torpağa mülkiyyətin barter və ya əsaslı transfertlər üzrə başqasına verildiyi halda əməliyyatın hər iki iştirakçısı üçün eyni növ torpaqların dəyərinə uyğun gələn qiymətlərdən istifadə olunmalıdır.

İstehsal olunmayan başqa maaddi aktivlərin əldə edilməsi və satışı zamanı da torpaqla əməliyyatlara uyğun metodlardan istifadə olunur. Adətən belə aktivlərin sahibi dövlət idarəçiliyi sektoru olur ki, onlarda öz növbəsində müəyyən haqq ödənilmək şərti ilə həmin aktivləri başqa təshihat vahidlərinə icarəyə verir. Bu ödənişlər mülkiyyətdən alınan gəlir olmaqla "Gəlirlərin ilkin bölgüsü hesabı"nda renta kimi qeydə alınır. İcarəyə götürən onları üçüncü tərəfə sata bilər. Belə satış istehsal edilməyən qeyri-maddi aktivlər kimi, "Kopitalla əməliyyatlar hesabında" ayrıca maddə kimi qeydə alınır.

Torpaqla əməliyyatlardan olduğu kimi, istehsal edilməyən qeyri maddii aktivləri MHS-də əks etdirirərkən mülkiyyət huquqnun başqasına verilməsi ilə əlaqədar xərclər əsas kapitalın ümumi yığımına

daxil edilir və istehsal olunmayan qeyri - maddi aktivlərin dəyəri isə hər iki tərəf (alıcı və satıcı) üçün eyni olur. Əgər bu əməliyyat iki rezident vahidi arasında baş verərsə iqtisadiyyat üzrə bütövlükdə xalis əldə edilmənin dəyəri həmişə sıfıra bərabər olur. Əməliyyat iştirakçılarından biri qeyri rezident olduğu halda "Dünyanın qalan ölkələri hesabı" ilə xalis əməliyyat aparılır.

§6.10 Əsaslı transfertlər

Transfert elə əməliyyatdır ki, təshihat vahidlərindən biri başqa tərfə əmtəə, xidmət və ya aktiv verməklə onun əvəzinə ikinci tərəfdən heç nə (əmtəə, xidmət və ya aktiv) almır.

Transfertlər natural və pul formasında həyata keçirlə bilər. Natural formalı kapital trasfertlər maddi dövriyyə vəsaitləri ehtiyatlarından başqa aktivlərə mülkiyyət hüququnun başqasına verilməsi kimi həyata keçirilə bilər. Pul formasında kapital tronsfertlər isə maddi dövriyyə vəsaitlərindən başqa aktivlərin əldə edilməsi və ya çıxması ilə əlaqədar ola bilər. Kapital transfertlər adətən iri miqyaslı və qeyri-müntəzəm olur, və onlar əməliyyat iştirakçılarından aktivlərin alınması və ya sıradan çıxması ilə əlaqədar olurlar.

Bütün kapital transfertlər "kapitalla əməliyyatlar hesabı" nın sağ tərəfində yazılır. Bu hesab passivlərdə və fərdi kapitalın dəyərində baş verən dəyişiklikləri əks etdirir. Bu hesabda alınmış kapital transfertlər müsbət qeydiyyat kimi, verilən kapital transfertlər isə mənfi qeydiyyat kimi əks etdirilir.

Kapital tronsfertlərin aşağıdakı üç tipini ayırırlar:

1. Kapitala vergilər;
2. İnvestisiya subsidləri;
3. Sair kapital transfertlər.

Kapitala vergilər təshihat vahidlərinə mənsub olan aktivlərə və ya fərdi kapitalın xalis dəyərinə vergilərdən ibarətdir. Onlar qeyri müntəzəm formada aktivlərin dəyərinin artmasıyla əlaqədar, kənd təsərrüfatı üçün yararlı olan torpaqların komerssiya məqsədləri üçün istifadəsinə icazə verildikdə ev təsərrüfatları və müəssisələr tərəfindən ödənilir.

Tə'sisat vahidləri arasında verilən aktivlərin dəyərinə ödənilən vergilər də kapitala vergilərə aid edilir. Sağlığında vərəsəlik və bağışlama ilə əlaqədar vergi və ödənişlər də buraya aiddir. Satış transfert olmadığına görə aktivlərin satışı buraya daxil edilmir.

Kapitala vergilər dövlət büdcəsinin yerinə yetirilməsinə dair hesabat mə"lumatlarına əsasən müəyyən edilir.

İnvestiya subsidlərinə əsas kapitalın əldə edilməsi üçün dövlət tərəfindən başqa sektorların vahidlərinə pul və natural formada

verdikləri kapital transfetlər aiddir.

İnvestisiya subsidləri dövlət büdcəsinin yerinə yetirilməsinə dair hesablara əsasən müəyyən edilir. Buraya aşağıdakı maddələr aiddir:

1.Avadanlıqların və inventarların əldə edilməsi;

2.Dövlət kapital qoyuluşları;

3.Əsaslı tə"mir;

4.Geoloji-kəşfiyyat işləri;

Yuxarıdakılardan əlavə dövlət büdcəsinin aşağıdakı məsrəflərini də investisiya subsidlərinə aid edirlər:

1. Müharibə əlillərinə mənsub olan yaşayış evlərinin əsaslı tə"miri (ev təsərrüfatı sektoruna transfertlər)

2. Qocalar üçün evlər və həyatyanı tikililəri tikmək üçün alınmış kredittlərin bir hissəsinin banklara ödənilməsi (bu evin kimin mülkiyyətində olmasından asılı olaraq qeyri maliyyə müəssisələrinə və ya ev təsərrüfatına verilən transfertlər);

3. Qəzaların nəticələrinin aradan qaldırılmasına kapital qoyuluşları (qeyri-maliyyə sektoruna transfertlər);

4. Torpaq sahiblərinə və torpaqdan istifadə edənlərə torpağın bərpası üçün ayrılan büdcə vəsaiti (qeyri-maliyyə müəssisələrinə və ev təsərrüfatlərına verilən transfertlər);

Sair kapital transfertlər kapitala vergilər və investisiya subsidlərindən başqa yerdə qalan kapital transfertlərindən ibarətdir. Buraya aşağıdakılar aiddir:

1. Ləğv edilmə anında kreditorlarla borcalanlar arasındakı borcun ləğv edilməsi;

2. Partlayışlar, neftin axması və s. nəticəsində dəyən zərərlərin ödənilməsinə kompensasiyalar;

3. Hədiyyə verən şəxsin sağlığında verilən və qeyri-kommersiya təşkilatlarına daxil olan iri miqyaslı hədiyyələr;

4. Müəssisələrin uzun illər ərzində yığılıb qalmış irimiqyaslı zərərlərinin ödənilməsi üçün transfetlər.

5. Əsas kapitalın umumi yığımını maliyyələşdirilməsi üçün ev təsərrüfatı və ya qeyri-komersiya təşkilatlarından daxil olan iri həcmli ianələr: (Məsələn, kitabxanaların, kolleclərin, laboratoriyaların və sairənin tikilməsinə verilən ianələr);

Dövlət büdcəsinin yerinə yetirilməsinə dair hesabatda dövlət tərəfindən verilən sair kapital transfetlər haqqında aşağıdakı informasiya vardır:

-Vətandaşlara vurulan zərərin ödənilməsi (ev təsərrüfatı sektoruna transfertlər);

-Bəraət qazanmış vətəndaşlara dəyən zərərin və xərclərin

ödənilməsi (ev təsərrüfatı sektoruna transfertlər);

-Siyasi represiya qurbanlarına kompensasiyaların ödənilməsi (ev təsərrüfatı sektoruna transfertlər);

-Bəraət qazanmış xalqlara dəyən zərərin ödənilməsinə (ev təsərrfatı sektoruna transfertlər);

-Torpaq sahibləri və torpaqdan istifadə edənlərin hüquqlarının pozulmasından yaranmış zərərlərin ödənilməsinə (qeyri-maliyyə müəssisələri və ev təsərrüfatı sektorlarına transfertlər);

-Mülkiyyət hüququnun dayandırılması ilə əlaqədar dəyən zərərin ödənilməsinə (bütün sektorlara transfetlər);

Qeyri-maliyyə müəssisələri və maliyyə idarələri tərəfindən ev təsərrüfatına verilən və istehlaka yönəldilən vəsaitin bir hissəsi hesab edilən aşağıdıkı ödənişlər də sair kapital transfertlərə aid edirlir:

-Kooperativ mənzil tikintisi üçün ilkin haqqın ödənilməsi, kooperativ və fərdi mənzillərin tikintisi üçün kreditlərin qismən ödənilməsindən ötəri işçilərə edilən maddi yardım;

-Mənzil şəraitini yaxşılaşdırmaq və bağ evlərinin alınması üçün müəssisə işçilərinə verilən ssudaların ödənilməsi xərcləri.

Nəzarət üçün suallar

1. *BMT-nin Statistika Komisiyasının sessiyalarında kapital qoyuluşları statistikasına dair məsələlərin müzakirəsi hansı vaxtdan başlayır?*
2. *Beynəlxalq statistikada kapital qoyuluşları dedikdə nə başa düşülür?*
3. *Beynəlxalq statistika lapital qoyuluşlarının tərkibi necədir?*
4. *Dünyanın müxtəlif ölkələrində kapital qoyuluşlarının tərkibində hansı fərqlər var?*
5. *MHS - də kapital qoyuluşlarının tərkibinə nə aid edilir?*
6. *Beynəlxalq statistikada kapital qoyuluşlarını səciyyələndirən göstəricilər hansılardır?*
7. *Beynəlxalq statistikada kapital qoyuluşları necə qruplaşdırılır?*
8. *MHS - də "Kapitalla əməliyyatlar hesabı"nın mahiyyəti və yeri nədən ibarətdir?*
9. *Əsas kapitalın ümumi yığımı necə müəyyən edilir?*
10. *Əsas kapitalın ümumi yığımına hansı ünsürlər daxildir?*
11. *Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi necə öyrənilir?*
12. *"Əsaslı transfertlər" nədir?*

VII FƏSİL
MƏHSUL VƏ XİDMƏTLƏRİN BURAXILIŞI STATİSTİKASI

§ 7.1. Beynalxalq statistikada istehsal iqtisadi fəaliyyət kimi. Əmtəələr və xidmətlər anlayışı

Konkret ölkənin iqtisadi inkişafını əks etdirən ən mühüm iqtisadi göstəricilərdən birincisi, bəlkə də ən əsası istehsaldır. İstehsalın həcmi, tərkibi, bölüşdürülməsi və istehlakı götürülmüş ölkənin iqtisadiyyatının səviyyəsi və təkrar istehsalının xarakterini özündə birləşdirən sintetik göstəricilərdir.

Hər bir ölkənin iqtisadi fəaliyyətinin son nəticəsi maddi ne'mətlər istehsal etmək, habelə maddi və qeyri-maddi xidmətləri həyata keçirməkdir. İstehsal ümumi şəkildə fəaliyyət prosesi kimi təsəvvür edilə bilər. Müəssisə istehsal prosesinə daxil edilmiş resurslardan məhsul istehsal etmək üçün istifadə edir. Başqa tə'sisat vahidlərinə göndərilən (və ya verilən) məhsul istehsalı olmasa nə əmək bölgüsü, nə istehsalın ixtisaslaşdırılması və nə də onların satışından (ticarətdən) gəlir götürmək olar.


Maddi ne'mətlərin istehsalı sferasında və xidmət sferasında əməyin nəticəsini uçota almaq üçün məhsul və xidmət anlayışlarından istifadə olunur. Məhsul dedikdə əmək nəticəsində yaranmış və müəyyən maddi-əşya formasına malik maddi ne'mətlər (enerjini də daxil etməklə) başa düşülür. Xidmətlər müəyyən fərdi və ya konkret tələbləri ödəmək üçün həyata keçirilən fəaliyyətin nəticəsidir. Xidmətlər zamanı sərf edilən əmək maddi məhsula çevrilmir. Buraya həm maddi, həm də qeyri-maddi xarakterli xidmətlər daxil edilir.

Məhsul və xidmətlər satılmaq üçün nəzərdə tutulduğuna görə ümumi şəkildə əmtəə adlanırlar. Əmtəə maddi-əşya forması olan elə maddi cisimdir (əşyadır) ki, ona mülkiyyət hüququ müəyyən edilə bilər. Həm də bir tə'sisat vahidinə aid olan bu hüquq bazarda aparılan sövdələşmə nəticəsində başqasına verilə bilər. Hər hansı əmtəə istehsal edildikdən sonra istənilən sayda alqı-satqıya mə'ruz qala bilər. Əmtəələrə mülkiyyət hüququnun dəyişməsi başqa fəaliyyət növü üçün istehsal hesab olunmur.

Maliyyə vəsaitəçiliyinin məhsulu və öz şəxsi evində yaşamaq şərti hesablanmış məhsul (əmtəə) kimi nəzərdə keçirilir. Əmtəələr onlara olan tələbatı ödəmək qabiliyyətinə malik olmalıdırlar.

Xidmətlər ayrıca real əşya deyildir. Onlara mülkiyyət hüququ müəyyən edilə bilər və bu hüquq onların istehsalından ayrı satıla bilməz. Xidmətlər istehlakçının sifarişi ilə istehsalçılar tərəfindən istehsal edilir və adətən istehlak olunan vahidin vəziyyətini dəyişir. Onun istehsalı başa çatdıqda mütləq istehsalçıya verilməlidir.

Xidmətləri bir tə'sisat vahidi başqası üçün həyata keçirir. Əks təqdirdə xidmət sferası inkişaf edə bilməz. Tə'sisat vahidləri öz şəxsi istehlakları üçün də xidmət göstərə bilirlər. Belə halda əsas şərt xidmətin başqa vahidlər tərəfindən göstərilməsidir. Bazar iqtisadiyyatı şəraitində xidmətlərin hərtərfli öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Müxtəlif əlamətlər üzrə qruplaşdırılmış xidmətləri aşağıdakı sxem şəklində göstərmək olar (bax: sxem 5).



Sxem 5. Xidmətlər və onların qruplaşdırılması

Xidmət sahəsində istehsalçıların istehsalçıya həvalə etdiyi dəyişikliklər müxtəlif formada ola bilər:

1. İstehsalçıların əmtəələrinin vəziyyətində dəyişikliklər aparmaq: İstehsalçı istehlakçıya aid olan əmtəələrin üzərində işləyərək onu tənzimləyir, təsdiq edir, bir yerdən başqa yerə daşıyır və başqa yolla onları özgə şəklə salır;

2. Şəxsin fiziki vəziyyətində dəyişiklik yaratmaq: istehsalçı fərdi şəxsiyyətə 'mənzil verir, ona terapevtik və ya cərrahiyyə xidməti göstərir, onların xarici görkəmini dəyişir və s;

3. Şəxsin ruhi vəziyyətində dəyişikliklər aparmaq: İstehsalçı istehlakçıya təhsil, məsləhət və informasiya verir, əyləncəli xidmətlər

göstərir və s;

4. Tə'sisat vahidinin ümumi iqtisadi vəziyyətində baş verən dəyişikliklər: istehsalçı istehlakçıya sığorta, maliyyə vəsitəçiliyi, mühafizə xidməti həyata keçirir, tə'minat verir və s.

Dəyişikliklər daimi və ya müvəqqəti ola bilər. Məsələn, tibbi xidməti və ya maarif sahəsindəki xidmətlər istehsalçının vəziyyətində daimi dəyişikliyə səbəb ola bilər, həm də belə dəyişiklik nəticəsində əldə edilən fayda uzun müddət davam edə bilər. Xidmətlər istehsal çının xahişi ilə icra edildiyinə görə belə dəyişikliklər adətən yaxşılaşdırmaya səbəb olur. Yaxşılaşdırma bir qayda olaraq istehsalçıların üzərində və ya da onlara mənsub olan əmtəələr üzərində aparılır və istehsalçıya aid olan ayrıca real əşya deyildir. Belə yaxşılaşdırmanı istehsalçı ehtiyat halında saxlaya bilməz və icra olunduğu yerdən kənarda onların alverini apara bilməz. Bir istehsal prosesində xidmətlər bir nəfərə və ya şəxslər qrupuna göstərilə bilər. Məsələn, bir şəxs və ya müxtəlif tə'sisat vahidlərinə aid olan yükləri eyni təyyarədə və ya gəmidə bir yerdən başqa yerə daşımaq olar. İnsanlara təklikdə və ya sinifdə qrup halında tə'lim keçmək olar və s.

Bir sıra sahələr xidmət sahəsinə aid edilsələr də onun məhsulla əmtəəyə xas olan bir çox əlamətlərə malikdir. Məsələn, informasiyanın istehsalı, verilməsi, saxlanılması, çatdırılması və yayılması, yeniliklərin çatdırılması və tə'sisatların verilməsi, EHM-i üçün proqramların və kinofilmlərin istehsalı, musiqi və s. belələrinə aiddir. Belə sahələrin mülkiyyət hüququ müəyən edilə bilən məhsulları bir çox hallarda maddi obyektlərdə (kağızda, paketdə, diskdə və s. saxlandıqlarına görə adi əmtəə kimi alınıb satıla bilirlər. Bu məhsulların əmtəə və ya xidmət adlanmasından asılı olmayaraq əsas götürülən cəhəti onların bir vahid tərəfindən istehsal edilərək başqalarına göndərilməsidir. Bu isə öz növbəsində əmək bölgüsünü həyata keçirməyə və bazarı yaratmağa imkan verir.

İqtisadiyyat baxımından istehsal dedikdə əmtəə və xidmətlər istehsal etmək üçün əmək resursları, kapital, əmtəə və xidmətlər istifadə etməklə tə'sisat vahidlərinin nəzarəti və məs"uliyyəti altında həyata keçirilən fəaliyyət sahəsi başa düşülür. İnsanın iştirakı və nəzarəti olmadan təbiət tərəfindən məhsulların yaranması iqtisadiyyat baxımından istehsal hesab edilmir. Məsələn, beynəlxalq sularda balıq ehtiyatlarının idarə olunmayan artımı istehsal deyil, balıqçılıq isə istehsaldır.

İnsanın məhsul yaratmayan fəaliyyət sahələri (məsələn, idman, yuxu, yemək, içmək və s.) istehsal hesab edilmir. Bu xidmətlər başqa verənə başqası tərəfindən həyata keçirilə bilməz. Məsələn, haqqı ödəməklə bir şəxsin əvəzinə başqasının məşq etməsiylə sağlamlığı möhkəmləndirmək olmaz.

Lakin qidanın hazırlanması, paltarın yuyulması, qocalara, xəstələrə və uşaqlara qulluq və s. xarakterli xidmətlər pulu ödənilməklə başqası üçün görülə bildiyi üçün ümumi istehsala aid edilir.

Ev təsərrüfatının şəxsin son istehlakı üçün istehsal və ev təsərrüfatının üzvlərinə fərdi xidmətlərin dəyəri milli hesablarda ümumi istehsalın dəyərindən çıxılır.

Ev təsərrüfatı və onun üzvlərinin fərdi son istehlakına xidmətlər sahibkar tərəfindən yerinə yetrilən xırda tə'miri də daxil etməklə mənzilin yığılması, saxlanması, təsərrüfat məişət əmtəələrinin (o cümlədən nəqliyyat vəsaitlərinin) tənzimlənməsi, tə'miri, qidanın hazırlanması və verilməsi, onlara xidmət, xəstələrə, şikəstlərə və qocalara xidmət, ev təsərrüfatı üzvlərinin və onların əmlakının bir yedən başqa yerə daşınması və s. aiddir. Bu xidmətlərə xeyli əmək və vəsait xərclənir. Həmin xidmətlər şəxsi son istehlaka aid edildiyi üçün onların dəyəri ümumi istehsalın dəyərindən çıxılır.

§ 7.2. Beynəlxalq statistikada "istehsal sferası" anlayışı

MHS-də istehsal sferası anlayışı iqtisadiyyatdakı ümumi istehsal sferası anlayışından bir qədər məhduddur. Belə vəziyyət özünün şəxsi son istehlakı üçün xidmətlər və ya ev xidmətləri həyata keçirən ev təsərrüfatı üçün istehsal hesabının tərtib olunmaması ilə əlaqədardır. MHS istehsal sferasına aşağıdakı fəaliyyət sahələri daxil edilir:

1. İstehsal prosesində istehlak olunan əmtəə və xidmətləri də daxil etməklə başqa tə'sisat vahidlərinə göndərilən və ya göndərilməsi nəzərdə tutulan bütün fərdi və kollektiv istehlak malları və xidmətlərin istehsalı;

2. İstehsalçıların şəxsi son istehlakı üçün və ümumi kapital yaratma məqsədilə saxlanan bütün növ əmtəə və xidmətlərin istehsalı;

3. Mənzil sahiblərinin şəxsi istehlakı üçün öz mənzillərinə, habelə müzdlu işçilər tərəfindən icra edilən şəxsi və ev təsərrüfatına xidmətlərin istehsalı;

4. Ev təsərrüfatında özünün şəxsi son istehlakı üçün göstərilən ev və fərdi xidmətlər.

Ev təsərrüfatlarının son istehlakı üçün istehsal və ev təsərrüfatı üzvləri üçün fərdi xidmətlərin dəyəri ümumi istehsalın həcmindən çıxılır. Belə hal bir sıra səbəblərlə əlaqədardır. Bu məsələyə müəyyən aydınlıq gətirmək üçün ilk növbədə ev təsərrüfatına və fərdi xidmətlərə aşağıdakıların aid olduğunu bilmək lazımdır:

1. Sahibkarlar və sakinlər tərəfindən aparılan xırda tə'miri də daxil etməklə mənzilin təmizlənməsi və saxlanması;

2. Uzunmüddətli istifadə edilən mədəni-məişət cihazlarının

təmizlənməsi xidmətləri və tə'miri;

3. Qidanın hazırlanması və verilməsi;
4. Uşaqların tərbiyəsi, tə'limi və onlara xidmət;
5. Xəstələrə, qocalara və əlillərə xidmət;
6. Ev təsərrüaftı üzvlərinin və ya onların əmlakının daşınması.

Haqqı ödənilməyən bu xidmətlərə xeyli əmək sərf edilir və onların istehlakı əhalinin maddi rifahına ciddi tə'sir göstərir. Onların dəyərinin istehsala daxil edilməməsinə səbəb qalan iqtisadiyyata onların tə'sirinin az olmasıdır. Bu xidmətlərin həyata keçirilməsi ilə istehlakı eyni vaxta düşür və onun realizasiyası üçün bazar axtarmaq lazım gəlir. Əmtəələr üzrə isə vəziyyət başqa cürdür. Məsələn, kənd təsərrüfatı məhsulu istehsal edən ev təsərrüfatı becərdikləri məhsulu topladıqdan sonra onun hansı hissəsini öz istehlakına sərf edəcəyini və hansı hissəsini bazarda satacağını müəyyən edir. Satılacaq məhsul bazara çıxarılır. Bu bölgünün nisbəti də alınan məhsulun səviyyəsindən asılı olur.

Ev təsərrüfatı üçün və fərdi xidmətlərin çoxu bazar üçün istehsal edilmir. Buna görə də onları qiymətləndirmək üçün istifadə edilə biləcək qaneedici qiymətlər yoxdur. Belə qiymətlərin olmaması onların istehsalını, istehlakını habelə onlara çəkilən xərclərin və gəlirlərinin həcmini müəyyən etməyə imkan vermir. Beləliklə, ev təsərrüfatı üçün və fərdi xidmətlərin dəyərinin ümumi istehsalın tərkibinə daxil edilməsi məsələləri BMT ekspertləri tərəfindən birmə'nalı həll edilmir. Bu fəaliyyət növlərinin bazardan təcrid edilmiş halda icrası, iqtisadi baxımdan gözəçarpacaq dəyərlərinin olmaması və s. səbəbləri nəzərə alaraq beynəlxalq ekspertlərin bə'ziləri onların dəyərini ümumi istehsalın dəyərindən çıxmağı təklif edirlər.

Öz istehlakları üçün ev təsərrüfatlarında istehsal edilən fərdi və ev xidmətləri MHS-də qəbul edilən istehsal sferasına daxil edilməsə də aşağıdakı məhsulların istehsalı ümumi istehsala aid edilir:

1. Kənd təsərrüfatı məhsullarının istehsalı və saxlanılması, cır meyvələrin və təbiətin verdiyi başqa ne'mətlərin yığılması, ov və balıq ovu, meşə təsərrüfatının başqa məhsulları;
2. Başqa xammal əmtəələrinin istehsalı, torfun tədarükü, su daşınması və s;
3. Kənd təsərrüfatı məhsullarının tədarükü, buğda istehsalı, unun üyüdülməsi, əldə edilmiş gön və dəri saxlamaq məqsədilə ət və balıq məhsullarının istehsalı və e'malı, saxlamaq məqsədilə meyvənin qurudulması, süd məhsullarının (yağ, pendir və s.) istehsalı, pivə, şərab və s. spirtli içkilərin istehsalı və s;
4. E'malın başqa növləri (parça toxunması, paltar tikişi, ayaqqabı və saxsı qabların istehsalı və s.).

Ev təsərrüfatlarında istehsal olunan məhsulların saxlanılması, istehsal

sferasına istehsalın davamı kimi daxil edilir. Suyun daşınması da neftin daşınması kimi, əmtəə istehsalı kimi nəzərdən keçirilir. "Özün elə" prinsipi üzrə yerinə yetrilən və uzunmüddət istifadə olunan istehlak mallarının lazımi səviyyədə saxlanması üzrə ev təsərrüfatı üzrə yerinə yetrilən işlərin dəyəri öz istehlakına xidmət kimi nəzərdən keçirilir və MHS-nin istehsal sferasından çıxılır. Belə fəaliyyət üçün əldə edilən materiallar son istehlaka məsrəflər kimi nəzərdən keçirilir.

§7.3.MHS-də "İstehsal hesabı" və "Əmtəə və xidmətlər hesabı"

MHS-də ilk hesab "İstehsal hesabı"dır. Bu hesab tə'sisat vahidləri, sektorlar (şö'bələr) və iqtisadiyyat üzrə bütövlükdə tərtib edilir. İstehsalda yaranan dəyər sonrakı hesablara keçir. Odur ki, "İstehsal hesabı"nın tərtib olunması üsulu bütün MHS-nə tə'sir göstərə bilər.

Nəzərə almaq lazımdır ki, tə'sisat vahidlərinin buraxdığı məhsulun dəyəri ayrı-ayrı müəssisə və idarələr üzrə istehsalın dəyərinin cəminə bərabər olmalıdır. "İstehsal hesabı"nın balanslaşdırıcı maddəsi əlavə edilmiş dəyərdir. Bu göstərici ümumi və xalis variantlarda, daha doğrusu isə əsas kapitalın istehlakını çıxmamaqla və çıxmaqla hesablana bilər:

1. Ümumi əlavə edilmiş dəyər məhsulun dəyərindən aralıq istehlakını çıxmaqla müəyyən edilir;
2. Xalis əlavə edilmiş dəyər məhsulun dəyərindən aralıq istehlakı və istehlak olunmuş əsas kapitalın dəyərini çıxmaqla tapılır.

"İstehsal hesabı" sistemdə qəbul edilmiş əmtəə istehsalı və xidmətlər sahəsindəki fəaliyyəti əhatə edir. İstehsal prosesi nəticəsində yaranan əmtəələr və yerinə yetirilmiş xidmətlər hesabın "ehtiyatlar" bölməsində əks etdirilir. Hesabat dövründə istehsal edilmiş məhsulun dəyərini aşağıdakı bərabərlik şəklində yazmaq olar:

Məhsulun dəyəri	=	Məhsul kimi istehsal edilərək bütün satılmış məhsulların və ya başqa formada istifadə olunmuş əmtəə və xidmətlərin dəyəri	+	Əmtəə kimi istehsal edilmiş və ehtiyata qoyulmuş əmtəələrin dəyişməsinin dəyəri

Burada ehtiyata qoyulmuş əmtəələrin dəyişməsinin həcmini (dəyərini) müəyyən edərkən mədaxili cəmləyib ehtiyatdan götürülənləri çıxmaq lazımdır.

Məhsul istehsal etmək və xidmətləri yerinə yetirmək üçün müxtəlif

başqa əmtəələr və xidmətlər istehlak olunur. Belə istehlak aralıq istehlakı adlanır. Buraxılmış və istehlak olunmuş əmtəələrin dəyəri arasındakı fərq əlavə edilmiş dəyər adlanır.

9-cu cədvəl

"İstehsal hesabı" aşağıdakı sxem üzrə qurulur:

İstehsal hesabı

İstifadənin növləri	Ehtiyatlar
1. Aralıq istehlakı	1. Məhsul.
2. Əlavə edilmiş dəyər (ümumi)	
3. Əsas kapitalın istehlakı	
4. Əlavə edilmiş dəyər (xalis)	

İstehsal prosesini öyrənərkən əmtəə və xidmətlərin istehsalının həcmi və tərkibinin öyrənilməsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə "Əmtəə və xidmətlər hesabı" tərtib olunur. "Əmtəə və xidmətlər hesabı" iqtisadiyyat üzrə bütövlükdə və ya məhsullar qrupu üzrə resursların ümumi həcmini (məhsullar və idxal) və onların (aralıq istehlakı, son istehsal ehtiyatlarda baş verən dəyişikliklər və əsas kapitalın ümumi əlavə artımının cəmindən qiymətlilərin satılması və ixracatı çıxmaqla) istifadəsi növlərini göstərir. Məhsullara vergilər (subsidiyalar çıxılmaqla) də bu hesabın ehtiyatlar bölməsinə daxil edilir. Bu maddənin məzmunu məhsulun qiymətləndirilməsi üsulundan asılı olaraq dəyişir.

Əmtəələr və xidmətlər hesabı ya son istehlaka məsrəfləri, ya da faktiki olan istehlakı göstərə bilir. İqtisadiyyat üzrə bütövlükdə hər iki maddənin mə'lumatları eynidir. "Əmtəələr və xidmətlər hesabı"nın sxemi aşağıdakı kimidir:

10-cu cədvəl

Əmtəə və xidmətləri hesabı

Ehtiyatlar	İstifadə növləri
1. Məhsullar.	1. Aralıq istehlakı.
2. Əmtəə və xidmətlərin idxalı.	2. Son istehlaka məsrəflər (faktiki son istehlak).
3. Məhsullara vergilər.	3. Ümumi kapital yaratma.
4. Məhsullara subsidilər (-).	4. Əsas kapitalın ümumi əlavə artımı.
	5. Ehtiyatlarda dəyişikliklər.
	6. Qiymətlilərin əldə edilməsi minus satış.
	7. Əmtəə və xidmətlərin ixracatı.

"Əmtəələr və xidmətlər hesabı"nın mühüm cəhəti onun qlobal balanslaşdırılmasında, yə'ni bütün resurslarla (hər bir əməliyyat üzrə deyil) onların hamısının birlikdə istifadəsi arasında balansı tə'min etməsindədir. "Əmtəə və xidmətlər hesabı"nın başqa bir xususiyyəti hesabın sol tərəfində ehtiyatların sağ tərəfində isə onun istifadə növlərinin göstərilməsindədir. Hesabın belə qurulmasında məqsəd tə'sisat sektorlarının hesabları ilə müqayisədə göstərməkdir.

Vergilər, sosial tə'minata ödənişlər, sosial yardımlar və bir sıra başqa əməliyyatlar üçün öyrənilən əməliyyatın xarakteri (kimdən? kimə?) əlaqə tipini müəyyən etməyə imkan verir. Başqa hallarda bütün sektorlar üzrə ehtiyatlar və istifadə növləri göstərilsə də onların qarşılıqlı əlaqəsi birbaşa göstərilmir.

§7.4. İstehsal konsepsiyaları və istehsal amilləri

İqtisadi fəaliyyəti səciyyələndirən ən mühüm ümumiləşdirici kateqoriyalardan biri istehsaldır. Beynəlxalq iqtisadiyyatda aşağıdakı istehsal konsepsiyaları mə'lumdur:

1. Marksist-leninçi maddi istehsal konsepsiyası;
2. Genişləndirilmiş istehsal konsepsiyası;
3. Aralıq bazar konsepsiyası;

Maddi istehsal konsepsiyası yalnız təkrar istehsal oluna bilən maddi ne'mətlərin istehsalına yönəldilmiş əməyi məhsuldar hesab edir. Buna görə də həyata keçirilən xidmətlər və təkrar istehsal edilməyən maddi ne'mətlər (məsələn, maddi incəsənət əsərlərinin yaradılması) istehsal prosesinə daxil edilmir. Bu konsepsiyaya görə qeyri-istehsal sferasında sərf edilən əmək faydalı olsa da məhsuldar deyildir. Bu konsepsiyaya əsasən iqtisadi fəaliyyət sahələri istehsal və qeyri -istehsal sferalarına bölünür. Belə bölgü maddi ne"mətlərin istehsalı prosesində hər bir sahənin iştirakına əsaslanır. Maddi istehsal sferasına aid edilən sahələrdə (sənaye, kənd təsərrüfatı, tikinti, meşə təsərrüfatı, ictimai iaşə və s. maddi istehsal sahələri) sərf edilən əmək ya maddi ne'mətləri yaradır, ya da dövriyyə və tədavüldə iştirak etməklə həmin maddi ne'mətlərin dəyərinin artmasında iştirak edir. İkinci qrupa ticarət, yük nəqliyyatı, istehsala xidmət edən rabitə, maddi-texniki təchizat, tədarükat və informasiya-hesablama xidməti aiddir.

Marksist-leninçi nəzəriyyəyə görə bütün yerdə qalan sahələr qeyri-istehsal sferasına aid edilir. Bu nəzəriyyəyə əsasən qeyri-istehsal xidməti həyata keçirilən sahələr ictimai məhsulun və milli gəlirin yaranmasında iştirak etmirlər. Onlar milli gəlirin bölüşdürülməsindən alınan vəsait hesabına maliyyələşdirilir və mövcud olurlar. Məsələyə belə yanaşma keçmiş sosialist ölkələrində və keçmiş SSRİ-də qeyri-

istehsal sferasına münasibətləri və dövlət siyasətinin xarakterini müəyyən edirdi. Həmin siyasət xidmət sferasının və ilk növbədə mənzil təsərrüfatının, səhiyyənin, təhsilin səviyyəsinin cəmiyyətin tələblərindən geri qalmasına səbəb oldu.

Genişləndirilmiş istehsal konsepsiyasına Qərb ölkələrinin iqtisadiyyatında və təcrübəsində geniş yer verilir. Bu konsepsiyaya əsasən istehsala maddi ne'mətlərin yaradılması və xidmətlər daxil edilir. Maddi ne'mətlər kimi xidmətlər də faydalı olduğu üçün milli məhsulun və milli gəlirin tərkibinə daxil edilməlidir.

Qərb ölkələrinin iqtisadi ədəbiyyatlarında "Texniki istehsal"və "İqtisadi istehsal" anlayışarını fərqləndirirlər. Texniki baxımdan istehsal dedikdə yeni ne'mətlər əldə etmək və xidmətlər həyata keçirmək üçün iqtisadi ne'mətlərin e'malı başa düşülür. İqtisadiyyat baxımından istehsal daha geniş kateqoriyadır. Bu konsepsiya baxımından bilavasitə maddi ne'mətlər istehsalı ilə yanaşı həm də bu ne'mətlərin istifadəsiin asanlaşdıran xidmətlər də istehsala daxil edilir. Buraya ticarət, daşınmalar, saxlanma və s. aiddir. Beləliklə, MHS-də istehsal dedikdə əmək və kapitalla yaradılan, müəyyən iqtisadi tələbləri ödəyən, müəyyən dəyəri və qiyməti olan məhdud həcmə malik maddi ne'mətlərin və xidmətlərin dəyəri başa düşülür. Bununla əlaqədar olaraq məhsulun tərkibinə bazar üçün istehsal edilən (yə"ni məsrəflərdən yüksək qiymətlərlə satılan) maddi ne'mətlər və xidmətlər, uzun müddət istifadə olunan istehlak ne'mətləri üzrə xidmətlər, qeyri-kommersiya xarakterli təşkilatların xidmətləri, ev təsərrüfatlarının öz şəxsi istehlakı üçün istehsal etdikləri əmtəə və xidmətlər daxil edilir.

Genişləndirilmiş istehsal konsepsiyası hal-hazırda müxtəlif variantlarda Qərbi Avropa ölkələrinin çoxunda və beynəlxalq təşkilatlarda tətbiq edilir.

Azərbaycanda tətbiq edilən MHS də bu istehsal konsepsiyasına əsaslanır.

Sonuncu konsepsiya (aralıq bazar iqtisadiyyatı konsepsiyası) 1969-cu ilədək Fransa statistikasında tətbiq edilirdi. Bu konsepsiyaya görə iqtisadi fəaliyyət bütün maddi ne'mətlər istehsalını və bazar xidmətlərini əhatə edir. Pulsuz xidmətlər isə milli məhsulun və milli gəlirin hesablanması zamanı nəzərə alınmır. 1969-cu ildən sonra Fransız statistikası həmin konsepsiyadan əl çəkərək qərb iqtisadiyyatında qəbul edilmiş genişləndirilmiş istehsal konsepsiyasını qəbul etdi.

Mürəkkəb proses olan istehsal müxtəlif sosial, iqtisadi, bioloji, siyasi, təşkilati və s. amillərin tə'siri ilə formalaşır. Elə amillər də var ki, onların statistik ifadəsini vermək çətindir. Əməyin mə'nəvi stimullaşdırması, təchizat və satışın təşkili, əməyin ödənilmə forması və s. belə amillərə aiddir. İstehsal amillərinin əsasında J.B.Seyin

məşhur üçlüyü (əmək, torpaq və kapital) durur. İqtisadi təhlil zamanı adətən əmək, torpaq və təbii ehtiyatlar, habelə kapital amillərinə xüsusi diqqət yetirilir. Son vaxtlarda bu modelə sahibkarlıq fəaliyyətini və elmi-texniki tərəqqini də daxil edirlər.

Marksist-leninçi siyasi iqtisadı ilə qərb iqtisadi fikri arasında istehsal amillərinin tərkibi məsələsində ciddi ixtilaf yoxdur. Prinsipial fərq istehsal prosesində amillərin rolunun şərhindədir. Marksist siyasi iqtisadı istehsal prosesində muzdlu əməyin xüsusi rol oynamasına üstünlük verir. Bu nəzəriyyəyə görə yalnız muzdlu əmək məhsuldardır, dəyəri və izafi dəyəri də yalnız o yaradır. Marksa görə canlı əmək olmadan heç bir iqtisadi fəaliyyət mümkün deyildir. Bu fikirlərin doğruluğunu heç kəs inkar etmir. Lakin Marks istehsalatda sahibkarların hər hansı səmərəli fəaliyyətini qəbul etmirdi. O, hətta məhsul istehsalının və satışının təşkilində sahibkarlıq fəaliyyətini də nəzərə almırdı.

Yuxarıda deyilən məntiqi əsas tutan Marks sahibkarın torpağa, kapitala, və onun şəxsən iştirak etmədiyi istehsal prosesində yaranmış milli gəlirin bir hissəsinə sahib olması hüququnu inkar edirdi. Marksa görə real istehsalçı olan muzdlu fəhlə onun özünün yaratdığı izafi dəyərin çox hissəsini kapitalistə (istehsal, ticarət, maliyyə və torpaq sahibinə) verməyə məcbur olduğundan fəhlə sinfinin istismarı baş verir.

Qərb iqtisadi nəzəriyyəsi istehsal amillərinin iqtisadiyyatda rolunu başqa formada şərh edir. İstehsal prosesində canlı əməyin rolunu e'tiraf etməklə iqtisadi ne'mətlərin yaranmasında bütün başqa amillərin də bərabər hüquqlu olduğunu qeyd edir. İstehsal prosesi yalnız canlı əmək olmadıqda deyil və həm də kapital olmadıqda da həyata keçirilə bilməz. Maddi ne'mətləri yaratmaq üçün əmək vasitələri və əmək cisimlərinin də olması vacibdir. Əmək alətləri və əmək cisimlərinə xüsusi mülkiyyətin mövcudluğu şəraitində sahibkar yaranmış məhsulun və gəlirin müəyyən hissəsini mənimsəmək hüququna malikdir. Bundan əlavə, canlı əməklə (məşğuliyyəti olan əhali) maddiləşmiş əmək (əsas və dövriyyə kapitalı) bir-birini qarşılıqlı əvəz edən amillərdir. Eyni məhsulu bu iki amilin müxtəlif kombinasiyasında (nisbətində) yaratmaq olar.

Elmi-texniki tərəqqi əmək məhsuldarlığını yüksəltdiyinə görə canlı əməyi sıxışdırıb (qənaət edib) istehsal sferasından çıxarır və onun əsas dövriyyə kapitalı ilə əvəz edilməsinə şərait yaradır. Dünyanın bütün ölkələrində işsizliyin mövcud olduğu indiki şəraitdə bu proses daha aydın nəzərə çarpır. Keçmiş sosialist ölkələrində işsizlik sün'i yolla aradan qaldırılırdı. Bu da nəticə e'tibarı ilə əmək məhsuldarlığının səviyyəsinin aşağı olmasına səbəb olurdu. Hətta rəsmi mə'lumatlara görə də 1990-ci ildə əmək məhsuldarlığının səviyyəsi keçmiş SSRİ-də

ABŞ-a nisbətən 2,5 dəfə aşağı idi. Hər bir ölkədə işsizliyin mövcudluğunun zəruriliyi indi hamı tərəfindən e'tiraf edilir. Belə vəziyyətin yaranmasında elmi-texniki tərəqqinin də rolu vardır. İstehsal prosesində kapitalın rolunun artması canlı əməyi sıxışdırıb çıxarır.

Bütün bu deyilənlər torpağa və təbii resurslara da aiddir. Onlar məhdud miqdarda mövcuddur və artırılması imkanları isə yox dərəcəsindədir. Bütün bunlarla yanaşı əhalinin sayının artması və insanın istehsal fəaliyyətinin artması ilə əlaqədar olaraq torpağa və təbii resurslara tələbat sür'ətlə artır.

İkinci dünya müharibəsindən sonra dünya iqtisadiyyatında "Sahibkarlıq fəaliyyəti" adlı istehsal amilinin rolu gündən-günə artır. Sahibkarlıq fəaliyyəti dedikdə təchizatın, məhsul istehsalının, satışının və xidmətlərin təşkili sahəsindəki fəaliyyət başa düşülür. İfrat əmtəə bolluğu və kəskinləşən rəqabət şəraitində sahibkarlıq fəaliyyəti böyük əhəmiyyət kəsb edir və bə'zi hallarda isə həlledici amilə çevrilir. Bütün bu qeyd edilənlər onu göstərir ki, bütün amillər istehsal prosesində bərabər iştirak edir. Hər bir amil, məhsul və milli gəlir istehsalatda öz rolunu oynayır. Odur ki, canlı əmək, əmək haqqı, torpaq və təbii resursların sahibləri renta və icarə haqqı, kapital sahibləri isə mənfəət, divident, icarə haqqı, faizlər və s. alırlr.

BMT tərəfindən tövsiyyə olunan və Azərbaycan respublikasının statistika təcrübəsində tətbiq olunan yeni MHS-ndə də milli məhsulun və milli gəlirin yaranmasında istehsal amillərinin rolu bu cür nəzərdə tutulur. İstehsal prosesini tə'min edən əmək, kapital, torpaq və təbii resurslar sahibkarlıq fəaliyyəti sayəsində düzgün əlaqələndirildikdə daha yaxşı nəticə əldə etmək mümkündür. Sahibkar müəssisənin strategiya və taktikasını hazırlayaraq, onun lazımi əmək, material və maliyyə resursları ilə optimal təchiz olunmasını tə'min edir, məhsul buraxılışı prosesini və xidmətini mövcud sifarişlər qrafikasına uyğun təşkil edir. Sahibkarın ən mühüm vəzifələrindən biri istehsal etdiyi məhsulu bütün xərcləri ödəyə bilən və müəyyən mənfəət almağa imkan verən qiymətlərlə satmaqdır. Buna görə də müəyyən şəraitdə sahibkarlıq fəaliyyəti üstünlük təşkil edən amilə çevrilir.

§ 7.5 Qeyri-qanuni istehsal, gizli istehsal və xəlvəti iqtisadiyyat

İstehsalın ümumi həcmini müəyyənləşdirərkən onun tərkibində qeyri-qanuni istehsal, gizli istehsal və xəlvəti iqtisadiyyatı ayırırlar. Qeyri-qanuni istehsala mahiyyətcə istehsal xarakterli olan, lakin qanunla icazə verilməyən əmtəələrin və xidmətlərin istehsalı, yayılması və onlara sahib olunması aid edilir. Buraya narkotik maddələrin istehsal və yayılması, qaçaqmalçılıq, fahişəlik və sair aiddir. İcrası qanuna uyğun olan, lakin ondan ötrü

xüsusi tələb edilən icazəsi olmayan fəaliyyət sahələri də (məsələn, hakimlik fəaliyyətinə ixtiyarı olmayan şəxslərin hakimlik etməsi və s.) buraya aiddir.

İstehsal sferasına aid olan bə'zi fəaliyyət sahələri müxtəlif səbəblərə görə (gəlir və əlavə dəyər vergilərindən yayınmaq, bir sıra inzibati qaydalara əməl etməmək üçün və s.) bilərəkdən dövlətdən gizlədilir. Belə fəaliyyətlə əlaqədər işlər "gizli istehsal" və ya "xəlvəti iqtisadiyyat" adlanır. Belə fəaliyyətə xırda müəssisələr arasında və bə'zi istehsal sahələrində (məs, tikintidə) daha çox təsadüf edilir.

Bə'zən qeyri-qanuni və gizli istehsal arasında dəqiq sərhəd qoymaq çətin olur. Məsələn, bə'zi fəaliyyət sahələri müəyyən təhlükəsizlik və ya gigiyena tələblərinə cavab vermədiyinə görə qeyri-qanuni sayıldığı halda gizli aparılır. Belə istehsal sahələri qanuni və ya qeyri-qanuni olmasından asılı olmayaraq MHS-də istehsala aid edilirlər.

Əmtəələr və xidmətlər istehsal prosesi nəticəsində yaranır. Lakin bə'zi köməkçi istehsal sahələrində istehsal edilən əmtəələr və xidmətlər həmin hesabat dövründə həmin müəssisədə başqa əmtəə istehsal etmək üçün istehlak olunur. Müəssisədə istehsal olunaraq bu müəssisə daxilində qalarsa əmtəə və xidmətlər həmin müəssisənin məhsulunun bir hissəsi kimi uçota alınmır. Bunlar məhsul istehsalı prosesindən daha çox istehsal vahidinə aid olan anlayışdır. Ona görə də məhsul istehsalı hesabı müəssisə və idarələr kontekstində müəyyən edilir. Deyilənləri nəzərə olaraq məhsula qısa olaraq aşağıdakı kimi tə"rif vermək olar: "Məhsul müəssisədə yaranmış və ondan kənarda istehlak edilən əmtəə və xidmətlərdir."

§7.6.Ümumi buraxılış və onun hesablanması

Beynəlxalq statistikanın tövsiyyə etdiyi yeni MHS-də ÜDM-un hesablanması üçün istifadə olunan ilkin (başlanğıc) göstərici ümumi buraxılışdır.

Ümumi Buraxılış (ÜB) dedikdə hesabat dövründə istehsal edilmiş məhsulların və xidmətlərin (bütün bazar və qeyri bazar məhsulları və xidmətlərini daxil etməklə) dəyərlərinin cəmi başa düşülür.

Beynəlxalq iqtisadiyyatda ümumi buraxılış iqtisadi fəaliyyətin nəticəsini qiymətləndirən göstərici hesab edilmir və yalnız ümumi əlavə edilən dəyəri və başqa göstəriciləri hesablamaq üçün başlanğıc bazası rolunu oynayır. Belə vəziyyət ümümiləşdirici göstərici olan ümumi buraxılışa keçmiş əmək məsrəflərinin dəyərini əks etdirən aralıq istehlakının daxil olması ilə əlaqədardır. Lakin ümumi buraxılışın hesablanmasının dəqiqliyi ÜDM-un və istehsal fəaliyyətinin nəticələrini əks etdirən başqa göstəricilərin dəqiqliyini və tamlığını təmin edən zəruri şərtdir.

Ümumi buraxılışa aşağıdakılar aiddir:

1. Məhsulların buraxılışı;
2. Bazar xidmətlərinin buraxılışı (bankların şərti hesablanmış məhsullarını çıxmaqla);
3. Qeyri-bazar xidmətlərinin buraxılışı;
4. Maliyyə vasitəçiliyinin şərti ölçülən xidmətləri üzrə buraxılış

cari qiymətlərlə qiymətləndirilir. Bazar üçün əmtəələrin buraxılışının qiymətləndirilməsinin əsas prinsipi onların istehsalı anında qüvvədə olan bazar qiymətlərindən istifadə etməkdir. Xidmətlərin ümumi buraxılışı onlar göstərildiyi anda uçota alınırlar. Məsələn, hərəkət etməyən obektlə əməliyyatlar sövdələşmə baş verdikcə həyata keçirilir. Buraxılış satılmış məhsul və bitməmiş istehsalın dəyərinə və habelə hazır məhsul ehtiyatlarının dəyişməsinə dair mə'lumata əsasən qiymətləndirilir. Belə halda hazır məhsulun və bitməmiş istehsal ehtiyatlarının dəyişməsi ehtiyatlara daxil olma və ondan götürmələrin fərqinin həmin anda qüvvədə olan qiymətləri ilə qiymətləndirilirlər.

Satışın uçotu vaxtı onların debitor və kreditor hesablarında uçotu vaxtı, daha doğrusu əmtəəyə sahibkarlıq hüququ istehsalçıdan istehlakçıya keçdiyi zaman və yaxud xidmətlər göstərilən vaxt hesab edilir.

Məhsul buraxılışı istehsal prosesi başa çatdıqda uçota alınır. Lakin ümumi buraxılışın dəyəri adətən il üçün müəyyən edildiyinə görə uçot zamanı məhsullar müxtəlif hazırlıq dərəcəsinə malik olurlar. Buna görə də, hazırlıq dərəcəsinə görə bütün məhsulları üç kateqoriyaya-hazır məhsula, yarım-fabrikata və bitməmiş (başa çatdırılmamış) istehsala ayırılır. Hazırlanması götürülmüş təsərrüfat-rezident vahidi çərçivəsində başa çatmış məhsullar hazır məhsul adlanır. Bir çox hallarda məhsulun hazırlıq dərəcəsi sənədlə (TNŞ-nin aktı, sifarişçi və istehsalçı tərəfindən imzalanan akt və s.) rəsmiləşdirilir. Başqa hallarda məhsulun hazırlandığı an onun realizasiyası (kənd təsərrüfatı məhsullarının dövlətə və başqa bazar kanalları ilə satışı, ictimai iaşə məhsulları və s.) ilə eyni vaxta düşür. Bə'zən məhsulun hazırlıq anı qeydə alınmır. (Məsələn, öz ehtiyacları üçün kənd təsərrüfatı məhsulları istehsal edildikdə, əhalinin fərdi mənzil tikintisi zamanı). Belə halda hazırlıq anı texnoloji prosesin qurtardığı an hesab edilir. Müəyyən hazırlıq dərəcəsinə çatdırılmış və bu müəssisə daxilində yenidən e'mal gözlənən məhsullar yarımfabrikat adlanır. Yarımfabrikat adətən sənaye müəssisələrində və ictimai iaşə müəssisələrində olur.

Bitməmiş (başa çatdırılmamış) istehsal sənaye, kənd təsərrüfatı və ictimai iaşə müəssisələrində olur. Sənayedə və ictimai iaşədə bitməmiş istehsala bir sex və ya bölmə daxilində e'mal prosesini başa vurmamış məhsullar daxil edilir. Kənd təsərrüfatında bitməmiş istehsal

gələcək ilin məhsulu ilə əlaqədar çəkilən xərclərin, habelə çoxillik bitkilərin təsərrüfatında istifadə edilə biləcəyi dövrədək becərilməsinə çəkilən xərclərin məbləği ilə müəyyən edilir. Heyvandarlıqda bitməmiş istehsal kökəldilməyə qoyulmuş cavan mal-qaranı təsərrüfatda istifadə edilə biləcək yaşadək saxlanılmasına çəkilən xərclərin məbləğinə görə müəyyən edilir.

Bitməmiş (başa çatmamış) inşaat tikintisi başa çatmış və sifarişçi tərəfindən ödənilmiş ayrı-ayrı konstruktiv elementlər və tikinti işləri növlərinin dəyəri kimi müəyyən edilir. Başa çatmamış (bitməmiş) tikintini başa çatmış tikinti işlərindən ayırmaq lazımdır. Başa çatmamış tikinti işləri dedikdə bitməmiş və sifarişçi tərəfindən ödənilməmiş konstruktiv elementlər və tikinti işlərinin növləri başa düşülür.

İstehsal edilmiş, lakin realizə olunmamış aşağıdakı məhsul və xidmətlər də bazara göndərilən məhsullar kimi ümumi buraxılışının həcminə daxil edilir:

1. İstehsalçıların istehsaldaxili ehtiyatları üçün istehsal olunmuş məhsullar (əhalinin və təsərrüfat üsulu ilə aparılan fərdi tikinti, kənd təsərrüfatında toxum və başqa əkin materialları, fermer təsərrüfatlarının və əhalinin köməkçi təsərrüfatının məhsulları və s.);
2. Barter üzrə dəyişdirilən məhsul və xidmətlər;
3. Əməyin ödənilməsi hesabına istehsalçıların öz işçilərinə verdiyi məhsul və xidmətlər;
4. Öz işçiləri üçün xidmət göstərən bölmələrə (yeməkxanalara, uşaq müəssisələrinə, tibb xidmətinə və s.) müəssisə tərəfindən verilən məhsullar;
5. Ev təsərrüfatının öz istehsalı üçün istehsal etdiyi kənd təsərrüfatı və qida məhsulları (buğda, ət, süd, yun, şərab və s.);
6. Ev təsərrüfatı tərəfindən öz istehlakı üçün istifadə olunan geyim, ayaqqabı, mebel və başqa istehlak əşyaları;
7. Öz evində yaşadığına görə hesablanan şərti renta;
8. Pullu ev xidmətləri;
9. Maliyyə vasitəçilərinin şərti hesablanılan xidmətləri;

Məhsul və xidmətlərin aşağıdakı növləri buraxılışa daxil edilmir:

1. Pulsuz ev xidmətləri;
2. Torpaq rentası (bunlar mülkiyyətdən gəlir kimi nəzərdən keçirilir və istehsal nəticəsi hesab olunmur);
3. Sahibkarların özləri tərəfindən yerinə yetirilən mənzilə xidmət və tə'mir işləri.

Ümumi buraxılışı hesablayarkən barter (əmtəə və xidmətləri başqa əmtəə və xidmətlərə və ya aktivlərə dəyişmə) əsas qiymətlərlə onların satılacağı halda alınacaq ödəniş qiyməti ilə qiymətləndirilir.

Əməyin ödənilməsi üçün istifadə edilən əmtəə və xidmətlər onların

satıla biləcəyi qiymətlərlə qiymətləndirilir. Bir müəssisə daxilində başqa müəssisə üçün istehsal edilmiş məhsul və xidmətlər əsas qiymətlərlə (və hər hansı üçüncü tərəfə edilən xidmətlər üçün nəqliyyat xidmətlərinin dəyərini əlavə etməklə) qiymətləndirilir.

Maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi ümumi buraxılışa daxil olunmur.

Bitməmiş istehsal qalığının dəyişməsi MHS -də hazır məhsulun ehtiyata qoyulması və oradan götürülməsi kimi nəzərdən keçirilir və həmin vaxta qüvvədə olan əsas qiymətlərlə qiymətləndirilir. Öz ehtiyacları üçün istehsal olunan əmtəə və xidmətlər istehsal olunduğu anda uçota alınır və bazarda satıla biləcək əsas qiymətlərlə qiymətləndirilməlidir. Bu məqsədlə daha əlverişli olan ikici üsuldanda istifadə etmək olar. Belə olduqda öz ehtiyacları üçün istehsal olunan əmtəə və xidmətlərin dəyəri onlara sərf edilən məsrəflərə bərabər götürülür.

İrəlidə deyildiyi kimi, iqtisadiyyat üzrə ümumi buraxı-lışın həcmi maddi ne"mətlər istehsal edən və bütün xidmət sahələrinin ümumi buraxılışlarının cəmi kimi hesablanır. Lakin hər bir sahədə ümumi buraxılışın hesablanmasının özünə məxsus xüsusiyyətləri vardır ki, bu da həmin sahələrin texnologiyası və təşkili prinsipləri ilə bilavasitə əlaqədardır.

Sənayenin ümumi buraxılışı sənaye müəssisələrinin, iqtisadiyyatın başqa sahələrinin sənaye bölmələri və habelə ev təsərrüfatlarının sənaye xarakterli fəaliyyət sahələrinin məhsullarını əhatə edir.

Sənaye müəssisələrinin və yarım sahələrin ümumi buraxılışına aşağıdakılar aiddir:

1. Sonrakı istifadəsindən asılı olmayaraq hazır məhsulun dəyəri;
2. Müəssisədən kənara satılan yarımfabrikatların və müəssisələrin ambarında yarımfabrikatların əlavə artımının dəyəri;
3. Müəssinin köməkçi və əlaltı sexlərinin məhsulundan müəssisədən kənara satılan və müəssisədə onların əlavə artır.'un dəyəri;
4. Sifarişçinin dəyəri ödənilməmiş xammalı və komplektləşdirici ehtiyat hissələrini də daxil etməklə kənarda sifarişlər üzrə yerinə yetirilmiş sənaye istehsal xarakterli işlərin və xidmətlərin dəyəri ;
5. Müəssisələrə aid olan maşın və avadanlıqların əsaslı tə"mirinin dəyəri;
6. İlin əvvəlinə nisbətən ilin axırında bitməmiş istehsal qalığının əlavə artımı.

Zay məhsulunun satışından və sıradan çıxmış əmlakın satışından alınan məhsul sənayenin ümumi buraxılışına daxil edilmir;

Sənayenin ümumi buraxılışının ən mühüm hissələrindən biri məişət xidmətlərinin sənaye-istehsal xarakterli sahələrinin (paltarın və ayaqqabının tikilişi və tə"miri, kimyəvi təmizləmə, çamaşırxana, rəngləmə və sair) məhsulları təşkil edir.

Təkrar hesablamadan qaçmaq üçün sənayenin ümumi buraxılışına yalnız sərbəst sənaye istehsal kooperativlərinin məhsulları daxil edilir.

Ev təsərrüfatlarının sənaye xarakterli fəaliyyət sahələrinə aşağıdakılar aiddir:

1. Satış üçün və öz şəxsi istehlakı üçün bitki yağı, şərab və tikinti materialları istehsalı;
2. Bazarda satmaq üçün kustar sənaye və bədii mə'mulatların, buna bənzər başqa məhsul və xidmətlərin istehsalı.

Sənayenin ümumi buraxılışının ayrı-ayrı komponentləri aşağıdakı kimi qiymətləndirilir:

1. Sərbəst sənaye müəssisələrinin və sənaye istehsal kooperativlərinin hazır məhsulları istehsalçının qiymətləri ilə; istehsalçının qiyməti isə amil dəyərindən əmələ gəlir;
2. İqtisadiyyatın başqa sahələrinin. sənaye bölmələrinin hazır məhsulları ikilik prinsipi üzrə qiymətləndirilir:
   a) öz istehlakı üçün istifadə olunan məhsul maya dəyəri ilə;
   b) müəssisədən kənara satılan məhsullar faktiki satış qiymətiylə;
3. Ev təsərrüfatlarının sənaye fəaliyyətinin hazır məhsulları orta bazar qiymətlərilə;
4. İstehsalı tamamlanmamış məhsullar (yarımfabrikatlar və bitməmiş istehsal) maya dəyəri ilə qiymətləndirilir. Kənara satılan yarımfabrikatlar faktiki satış qiymətləriylə qiymətləndirilir.

Kənd təsərrüfatının ümumi buraxlışı bitkiçilik və heyvandarlıq məhsullarının dəyərini, habelə kənd təsərrüfatına göstərilən bazar və qeyri bazar xidmətlərinin dəyərini daxil edir. Onun tərkibinə aşağıdakılar daxildir:

1. Bitkiçiliyinin hazır məhsulunun dəyəri: Buraya məhsulun yığımı zamanı itkiləri çıxmaqla kənd təsərrüfatı məhsullarının ümumi yığımı daxildir. Bitkiçiliyinin ümumi buraxılışını hesablayarkən kənd təsərrüfatı müəssisəsinin istehsal etdiyi məhsuldan özünün istehsal ehtiyaclarına sərf olunan hissəsini çıxmaq lazımdır. Bu isə ümumi buraxılaşın hesablanmasının ümumi dövriyyə üsulu adlanır.
2. Heyvandarlığın hazır məhsulunun dəyəri. Bu göstərici heyvanların təsərrüfatda istifadəsindən alınan məhsulların (süd, bal, y'murta, yun, ət və sair) dəyərindən və heyvanların müəyyən yaşa çatdırılmasınadək çəkilən xərclərin dəyərlərinin cəmindən əmələ gəlir. Heyvandarlıq məhsullarının xüsusiyyəti ondan ibarətdir ki, istənilən anda ondan istifadə etmək (məsələn, ət kimi) mümkündür. Ona görə də bəzi heyvandarlıq məhsullarına həmişə hazır məhsul kimi baxırlar.
3. Çoxillik əkmələrin təsərrüfatda istifadə vəziyyətinədək becəril-

məsinin dəyəri. Becərilməsi hətta kənd təsərrüffatı müəssisələri tərəfindən həyata keçirilsə də meşələrin becərilməsi və meşə zolağlarının salınma dəyəri buraya daxil edilmir.

4. Bitkiçilikdə və heyvandarlıqda bitməmiş istehsalın ilin əvvəlinə və axırına qalıqlarının dəyərinin dəyişməsi.

Bitkiçilikdə bitməmiş istehsala aşağıdakılar aiddir:

1. Yanvarın birinə bitməmiş istehsal vəziyyətində olan gələcək illərdə alınacaq kənd təsərrüfatı məhsullarının (herik şumu, əkin, səpin, payızlıq səpinlərin kübrələnməsi və s.) əldə edilməsi ilə əlaqədar xərclərin dəyəri;

2. Cari ildə təsərrüfat istifadəsi yaşına çatmamış çoxillik əkmələrin basdırılması və bacərilməsinə çəkilən xərclərin dəyəri.

Heyvandarlıqda bitməmiş istehsala cari ildə təsərrüfatda istifadə edilə biləcək yaşa çatmamış cavan mal qaranın becərilməsinə çəkilən xərclərin dəyərinin cəmindən ibarətdir. Bu göstərici heyvanların balalmalı, çəki artımı və say artımından alınır.

Kənd təsərrüfatının ümumi buraxılışı mülkiyyət və təbəçilik formasından asılı olmayaraq kənd təsərrüfatı məhsulları istehsal edən bütün təsərrüfat vahidlərini (səhmdar cəmiyyət, yoldaşlıq, ev təsərrüfatı, fermer təsərrüfatı, kolxoz, sovxoz və s.) əhatə edir.

Kənd təsərrüfatının ümumi buraxılışına aşağıdakılar daxil edilmir:

1. Salınmış meşələrin becərilməsi;
2. Odun tədarükü;
3. Göbələk, cır meyvə və təbiətin başqa hazır məhsullarının yığımı;
4. Mal qaranın kəsilməsindən alınan məhsullar (ət, gön, sub. məhsullar);
5. Kənd təsərrüfatı müəssisəsində e'mal edilən kənd təsərrüfatı məhsulları;
6. "Balıqçılıq təsərrüfatı" sahəsinin tərkib hissəsi olan balıq ovu və balıqçoxaltma sahələrinin məhsulu.

Kənd təsərrüfatının ümumi buraxılışını müəyyən edərkən ən vacib məsələlərdən biri onun ayrı-ayrı komponentlərinin qiymətləndirilməsi məsələsidir. Kənd təsərrüfatı məhsulunun əmtəəlik hissəsi faktiki satış qiymətiylə, qeyri-əmtəəlik hissəsi kənd təssərüfat müəssisələrində maya dəyəri ilə, fermer təsərrüfatları və əhalinin həyətyanı təsərrüfatında orta bazar qiymətləri, barter mübadiləsi üzrə bazar qiymətləri ilə qiymətləndirilir.

Kənd təsərrüfatı müəssisələrində bitməmiş istehsal maya dəyəri ilə qiymətləndirilir. Fermer təsərrüfatında və əhalinin köməkçi təsərrüfatında bitməmiş istehsala dair mə'lumat toplanır.

Kənd təsərrüfatında kənd təsərrüfatı xidmətlərinə bazar və qeyri-

bazar xarakterli aşağıdakı ünsürlar aiddir:

1. Müqavilədə göstərilən qiymətlərlə istehsalçıların vəsaitləri hesabına ödənilən bazar xidmətləri.

2. Ölkə və ya yerli büdcə hesabına ödənilən qeyri-bazar kənd təsərrüfatı xidmətləri.

Kənd təsərrüfatı xidmətlərinə torpağın yaxşılaşdırılması, kimyalaşdırılması və başqa aqrokimyəvi işlər, torpağın quruluşu və hamarlandırılması işləri, zootexniki və baytar xidməti işlər, irriqasiya və suvarma sistemlərinin istismarı üzrə su təsərrüfatları müəssisələrinə göstərilən xidmətlər aiddir.

Bazar kənd təsərrüfatı xidmətləri faktiki realizasiya qiymətləriylə qiymətləndirilir.

Qeyri-bazar xidmətlərinə dair bir başa mə'lumatların olmaması onların qiymətləndirilməsini çətinləşdirir. Buna görə də belə qiymətləndirməni aparmaq üçün statistika orqanları maya dəyəri, əmək ödənişləri və pulsuz xidmət göstərən müəssisə və təşkilatların amortizasiya ayırmalarına dair mə'lumatlardan istifadə edirlər.

Tikintinin ümumi buraxılışı yeni tikinti işləri fəaliyyətdə olan əsas fondların rekonstruksiyası və genişləndirilməsi üzrə görülən işlərdən ibarətdir.

Tikintinin ümumi buraxılışı öz tərkibinə aşağıdakı komponentlərin dəyərini daxil edir:

1. Tikinti-quraşdırma işləri;
2. Kapital qoyuluşları hesabına yerinə yetirilən layihə-axtarış, geoloji kəşfiyyat və qazma işləri;
3. Bina və qurğuların əsaslı tə'miri;
4. Podrat təşkilatlar tərəfindən bina və qurğuların cari tə'miri;
5. Ev təsərrüfatlarının gücü ilə yerinə yetirilən fərdi evlərin və istehsal-təsərrüfat tikililərinin tikintisi;
6. Torpağın yaxşılaşdırılması, irriqasiya və meliorasiya işləri;

Quraşdırılan və qurulan avadanlıqların dəyəri tikintinin ümumi buraxılışının tərkibinə daxil edilmir.

Tikintinin ümumi buraxılışını məhsulun hazırlıq dərəcəsinə görə də müəyyən etmək olar. Belə halda aşağıdakı komponentləri cəmləmək lazımdır:

1. Bina və qurğuların işə buraxılmasının dəyəri;
2. İlin əvvəlinə nisbətən ilin sonunda başa çatdırılmamış tikinti işlərin dəyişməsinin dəyəri;
3. İlin əvvəlinə nisbətən ilin sonunda bitməmiş tikinti istehsalı qalığının dəyişməsinin dəyəri;
4. Bina və qurğuların əsaslı tə"mirinin dəyəri;
5. Podrat üsulu ilə bina və qurğuların cari tə"miri;

6. Ev təsərrüfatının gücü ilə yerinə yetirilən tikinti;

7. Torpağın yaxşılaşdırılması işləri, irriqasiya və meliorasiya işləri.

Tikintidə ümumi buraxılışın ayrı-ayrı ünsürləri aşağıdakı kimi qiymətləndirilir:

1. Əsas fondların işə buraxılması, bitməmiş tikinti qalığının dəyişməsi, əsas fondların podrat üsulu ilə yerinə yetirilən əsaslı və cari tə"miri, torpağın yaxşılaşdırılması üzrə işlər, irriqasiya və meliorasiya işləri müqavilə qiymətləri ilə qiymətləndirilir. Bu qiymət məzmunca tikinti məhsulunun realizasiya qiymətidir.

2. Podrat tikinti təşkilatının başa çatdırılmamış tikinti istehsalı, habelə təsərrüfat üsulu ilə yerinə yetirilən tikinti maya dəyəri ilə qiymətləndirilir;

3. Ev təsərrüfatının gücü ilə yerinə yetirilən tikintinin qiymətləndirilməsi hesablama yolu ilə həyata keçirilir. Əvvəlcə yeni tikililərin və qurğuların sahəsi müəyyən edilir. Sonradan həmin sahə podrat tikinti təşkilatlarının tikdiyi eyni növ tikilinin hər kvadrat metrinin orta qiymətinə vurulur.

Meşə təsərrüfatının ümumi buraxılışı meşələrə xidmət və onları təsərrüfat istifadəsi üçün yararlı vəziyyətdə saxlamaq üçün lazım olan məsrəflərin məbləği, habelə yeni meşələrin salınması və becərilməsinə çəkilən xərcləri əhatə edir. Meşə təsərrüfatının ümümi buraxılışının qiymətləndirilməsi əsas fondların istehlakını da daxil etməklə həmin işlərə faktiki məsrəflərin məbləğinə görə aparılır.

Nəqliyyatın ümumi buraxılışı nəqliyyatın bütün növlərini (dəmir yolu, su, hava, avtomobil, qaz boru kəməri, meşə materiallarının axıdılması, elektrik nəqliyyatı və s.) əhatə edir. Buraya dövlət, kooperativ və xüsusi nəqliyyat müəssisələri və habelə iqtisadiyyatın başqa sahələrinin nəqliyyat bölmələrinin yerinə yetirdiyi nəqliyyat xidmətləri aid edilir.

Nəqliyyatın məhsulu yüklərin və sərnişinlərin daşınmasından, sərnişinlərə göstərilən müxtəlif xidmətlərdən (saxlama kameralarının gəlirlərindən, hamballarn əməyinin ödənilməsindən, anbar sahələrinin icarəyə verilməsindən, sərnişin qatarlarında göstərilən müxtəlif xidmətlərdən, perron biletlərinin satılmasından, yükləməboşaltma işlərindən və nəqliyyat-ekspedisiya əməliyyatlarından) alınan gəlirlərdən yaranır.

Kifayət qədər informasiyanın olmaması ucundan ev təsərrüfatlarının nəqliyyat xidməti nəqliyyatın ümumi buraxılışına daxil edilmir.

Yol təsərrüfatının ümumi buraxılışı avtomobil yollarının tə"miri və saxlanması ilə məşğul olan idarələrin fəaliyyətini əks etdirir. Kommunal təsərrüfat sahəsinə aid edilən şəhər avtomobil yolları buraya aid deyildir.

Azərbaycan Respublikasında olan avtomobil yolları dövlət mülkiyyətində olmaqla respublika və yerli büdcə hesabına maliyyələşdirilir və əhaliyə qeyri-bazar xidməti göstərirlər. Buna görə də onların ümumi buraxılışı əsas kapitalın istehlakını da daxil etməklə yolların əsaslı tə"miri və saxlanması xərclərinə bərabər götürülür.

Rabitənin ümumi buraxılışı poçta, teleqraf, telefon, radio və televiziya xidmətlərini əhatə edir.Onun həcmi rabitə müəssisələrinin istehsal fəaliyyətindən alınan gəlirlərin məbləğinə əsasən müəyyən edilir. Buraya poçt göndərişlərinin ünvanına çatdırılması üçün haqlar, telefon, radio və televiziya xidmətləri üçün, telefon və telefaks abonement haqqı, telefon və televiziya kanalla-rından istifadə haqqı, reklamdan gəlirlər, poçt markaların, zərf, açıqca satışı, telefon aparatlarının qurulması və və sairədən əldə edilən gəlirlər daxildir. Bə"zi radio və telekanallar istisna olmaqla rabitə dövlətin tabeçiliyindədir. Odur ki, rabitə xidmətləri üçün tariflər mərkəzləşdirilmiş qaydada müəyyən edilir.

Ticarətin ümumi buraxılışı pərakəndə və topdansatış ticarət üzrə ayrıca hesablanır. Pərakəndə satış ticarətə bütün mülkiyyət formalarında olan müxtəlif ticarət müəssisələri, meyvə və tərəvəz ambarları daxildir.

Topdan satış ticarət öz tərkibində daxili ticarət təşkilatları ilə yanaşı həm də xarici ticarət təşkilatlarını və kino prokat idarələrini birləşdirir.

Ticarətin ümumi buraxılışı realizasiya olunmuş ticarət əlavəsilə bərabər götürülür. Bu göstərici satış qiyməti ilə əmtəələrin alış qiymətləri arasındakı fərq kimi müəyyən edilir.

İctimai iaşə müəssisələrinin ümumi buraxılışı onların mal dövriyyəsinə bərabər götürülür. Bu göstərici onun xüsusi məhsulu və satın alınaraq e"mal olunmadan satılan məhsulların həcmindən asılı olaraq formalaşır.

Xarici ticarətin ümumi buraxılışı xarici ticarət təşkilatlarının tədavül xərclərinin üzərinə büdcəyə ödənişləri həyata keçirildikdən sonra qalan normal mənfəəti əlavə etməklə müəyyən edilir. Belə mənfəət daxili və dünya qiymətləri arasındakı fərqə əsasən müəyyən edilir.

Pərakəndə və topdansatış ticarət üzrə buraxılış ticarət əlavəsi (realizə edilmiş əlavə) həcmində müəyyən edilir.

Maddi-texniki təchizat və kənd təsərrüfatı məhsullarının tədarükü müəssisələrin ticarətdə ümumi buraxılışın müəyyən edilməsi üsuluna uyğun olaraq satış və alış qiymətləri arasındakı fərq kimi hesablanır.

Mənzil təsərrüfatının ümumi buraxılışı mənzillərin kirayə haqqı və öz mənzilində yaşamaq üçün şərti rentanı əhatə edir. Dövlətin yerli orqanlarının mülkiyyətində olan mənzillər üzrə ümumi buraxılış kirayə haqlarından və dövlət büdcəsindən verilən dotasiyaların məğləbinin

cəmi kimi müəyyən edilir. Onun həcmi dövlət mənzil fondunun saxlanmasına çəkilən məsrəflərin cəminə bərabər götürülür.

Özəlləşdirilmiş mənzillərin ümumi buraxılışı mənzil haqqına bərabər götürülür.

İdarə, müəssisə və təşkilatların mülkiyyətində olan yataqxanalar və mənzillər üzrə buraxılış onların saxlanması xərclərinə bərabər götürülür.

İcarəyə verilən fərdi yaşayış fondu üzrə renta icarə haqqı göstərilən vergi deklarasiyalarına əsasən müəyyən edilir.

Pullu xidmətlər göstərən sahələrin (kommunal təsərrüfatı, məişət xidməti, pullu təhsil, tibb xidməti göstərən idarələrin və s) ümumi buraxılışı onların yerinə yetirdikləri xidmətlər üçün aldıqları haqqlara görə müəyyən edilir.

Ev təsərrüfatları tərəfindən yerinə yetirilən qismən pullu bə"zi xidmətlərə (idman, bədən tərbiyəsi, turizm və s.) məsrəflərin qalan hissəsi ya dövlət ya da həmkarlar ittifaqı tərəfindən ödənilir. Bu xidmətlərin ümumi buraxılışı onların tam dəyərinə bərabər götürülür.

Pulsuz xidmətlər göstərən sahələrin ümumi buraxılışı onlara çəkilən cari məsrəflərə görə müəyyən edilir.

Maliyyə sektorunun ümumi buraxılışı ölkənin Əmanət Bankı, Kommersiya bankları, çek investisiya fondları, maliyyə kompaniyaları və korporasiyalarının sığorta idarələri və pensiya fondlarının ümumi buraxılışlarından yaranır.

Banklar pullu (valyutanın dəyişdirilməsi, seyflərin icarəyə verilməsi, qiymətli kağızların satışı və s.) və pulsuz xidmətlər yerinə yetirir.

Pullu xidmətlər üzrə ümumi buraxılış həmin xidmətlər üçün bankların aldıqları haqqı və maliyyə vasitəçilərinin dolayı hesablanan xidmətlərinin dəyərinə əsasən müəyyən edilir.

Sığorta idarələrinin ümumi buraxılışı sığorta ödənişlərinin məbləğinə (sığorta kompaniyalarının çatdırdıqları məbləği və rezervlərin əlavə artımını çıxmaqla və sığorta rezervlərinə faizləri əlavə etməklə) əsasən hesablanır.

Sığorta təşkilatları üçün buraxılmış sığortanın bütün növləri üzrə alınan sığorta mükafatlarının üzərinə sığortalaşdırılmış texniki rezervlərinin investisiyalaşdırılmasından əldə edilən xalis gəliri əlavə etmək və sığorta ödənişlərini çıxmaqla müəyyən edilir.

Çek investisiya fondlarının ümumi buraxılışı bu fondların investisiyalardan aldıqları gəlirlərlə qiymətli kağızları saxlayan fondların ödədikləri məbləğ arasındakı fərq kimi müəyyən edilir.

Pensiya fondlarının ümumi buraxılışı bu fondlara daxil olan ödənişlərdən həmin fondlardan pensiyaçılara ödənişləri və pensiya fondlarının əlavə artımını çıxmaqla müəyyən edilir.

§7.7 Bazar üçün və qeyri-bazar məhsulları

Gələcək taleyindən asılı olaraq istehsal olunmuş məhsulları bazar üçün və qeyri-bazar məhsullarına ayırırlar. Bazar üçün məhsul dedikdə bazarda satılan və ya satılması nəzərdə tutulan, yaxud da başqa yolla verilmiş məhsullar (iqtisadiyyat baxımından əhəmiyyətli qiymətlərlə satılan məhsullar istisna olmaqla) başa düşülür.

Haqqında xüsusi şərtlər müəyyən edilmiş bə'zi xidmət sferası sahələrindən başqa istehsalçının bazar məhsuluna hesabat dövründən aşağıdakı dəyərlər daxildir:

1. Satılmış əmtəə və xidmətlərin ümumi dəyəri (iqtisadi baxımdan əhəmiyyətli olan qiymətlərlə);
2. Dəyişdirilən əmtəə və xidmətlərin ümumi dəyəri;
3. Natura formasında kompensasiyaları da daxil etməklə natura ilə ödənilən əmtəə və xidmətlərin ümumi dəyəri;
4. Eyni bazar müəssisəsinə tabe olan bir müəssisənin başqa bir müəssisədə aralıq məsrəfi kimi istifadə olunmaq üçün verdiyi əmtəə və xidmətlərin ümumi dəyəri;
5. Yuxarıda göstərilən istifadə növlərinin bu və ya digərində hazır əmtəələrin və başa çatmamış işlərin ehtiyatlarının dəyişməsinin dəyəri.

Nə satılmayan, nə də bazarda mübadilənin başqa növləri üzrə istifadə edilməyən məhsullar qeyri-bazar məhsullarına aid edilir. Başqa sözlə, istehsalçıların öz şəxsi son istehlakı üçün pulsuz və ya iqtisadi cəhətdən əhəmiyyətli olmayan qiymətlərlə fərdi və ya kollektiv istifadə etmək üçün başqa tə'sisat vahidlərinə verilməkdən ötəri istehsal edilmiş əmtəələr və xidmətlər buraya aid edilir. İstehsalçının qeyri-bazar məhsulunun dəyəri aşağıdakı ünsürlərin cəmindən ibarətdir:

1. Öz şəxsi son istehlakı üçün və ya əsas kapitalın ümumi əlavə artımı üçün istehsal edilən əmtəə və xidmətlərin dəyəri;
2. Pulsuz və ya iqtisadi cəhətdən əhəmiyyətli olmayan qiymətlərlə verilən əmtəə və xidmətlərin dəyəri;
3. Bir qeyri-bazar idarəsinin başqa qeyri-bazar idarəsinə verdiyi əmtəə və xidmətlərin dəyəri;
4. Yuxarıda göstərilən istifadə növlərində istifadə olunması nəzərdə tutulan hazır əmtəələr və başa çatmamış işlər üzrə ehtiyatların dəyişməsinin dəyəri.

Şəxsi son istehlak üçün istifadə olunmuş məhsula əmtəə və xidmətlərin istehsal olunduğu müəssisələrin sahibləri tərəfindən öz şəxsi son istehlakı üçün saxladıqları əmtəələr və xidmətlər aiddir. Ev

təsərrüfatı çərçivəsində fərdi xidmətlər şəklində həmin ailənin üzvlərinin istehlakı üçün icra edilmiş xidmətlər və istehsal olunmuş əmtəələr də bura daxildir.

Korporasiyaların son istehlakı olmadığına görə öz şəxsi son istehlakı üçün saxlanılan əmtəə və xidmətlər yalnız korporasiyalaşmamış müəssisələr tərəfindən istehsal edilir. Məsələn, fermerlər tərəfindən öz şəxsi son istehlakı üçün saxlanılan kənd təsərrüfatı məhsulları və yaxud da öz mənzilinə onun sakinləri tərəfindən edilən xidmətlərin dəyəri buraya aiddir.

Öz istehlakına əsas kapitalın ümumi əlavə artımı üçün istifadə olunan əmtəə və xidmətlər həm korporasiyalar və həm də korporasiyalaşmamış müəssisələr tərəfindən istehsal oluna bilər. Maşınqayırma müəssisələrində öz istehlakı üçün istifadə olunan xüsusi dəzgahlar və ya ev təsərrüfatını genişləndirmək üçün tikilmiş mənzil yuxarıda deyilənlərə misal ola bilər.

Öz şəxsi son istehlakı üçün istehsal edilən əmtəələr və xidmətlər bazarda satılan eyni növ məhsulların bazis qiymətləri ilə, belə qiymətlər olmadıqda isə onların maya dəyəri ilə qiymətləndirilir.

Yuxarıda göstərildiyi kimi, qeyri-bazar məhsulun ikinci növünə pulsuz və ya iqtisadi cəhətdən əhəmiyyətli olmayan qiymətlərlə başqa tə'sisat vahidlərinə və bütövlükdə cəmiyyətə verilən məhsullar aiddir. Belə məhsullar iki halda istehsal edilə bilər:

1. İstehlakına nəzarətin (və ya müşahidənin) təşkili mümkün olmadığına görə kollektiv xidmətlər üçün heç bir şəxsi məcbur etmək mümkün olmadıqda, sövdələşmə xərcləri yüksək olduqda və bazarda qeyri müteşəkkillik olduqda qiymət mexanizmindən istifadə etmək mümkün olmur. Belə halda bu cür xidmətlər kollektiv şəkildə dövlət tərəfindən təşkil olunur və vergiqoyma, ya da dövlət gəliri hesabına maliyyələşdirilir.

2. Dövlət orqanları və qeyri-kommersiya idarələri fərdi ev təsərrüfatı üçün əmtəə və xidmətlər istehsal edə bilər və əvəzində haqq ala bilərlər. Lakin aparılan sosial və iqtisadi siyasətə uyğun olaraq bunu edə bilmədikdə. Pulsuz və ya iqtisadi cəhətdən əhəmiyyətli olmayan qiymətlərlə əhaliyə göstərilən təhsil və tibb xidməti buraya misal ola bilər.

İstehsalına dövlət orqanları və ya qeyri-kommersiya idarələri az tə'sir edən və ya heç tə'sir etməyən məhsulların qiymətləndirildiyi qiymətlər iqtisadi cəhətdən əhəmiyyətsiz qiymətlər sayılır. Belə qiymətlər tələb və təklifə yalnız minimum səviyyədə təsir edə bilir. Beləliklə, bu qiymət tələb və təklifə nəzərə çarpacaq təsir göstərə bilmir. Bu qiymətlərdən bir qədər (az) gəlir əldə etmək və ya xidmətlər pulsuz icra edildiyi halda həddindən artıq tələbi azaltmaq

lazım gəldikdə istifadə olunur.

İqtisadi cəhətdən az əhəmiyyətli qiymətlərdən müəyyən inzibati, siyasi və sosial mülahizələrə əsasən konkret qeyri-bazar məhsulunun və ya xidmətin nəzərdə tutulan miqdarını tənzimləmək lazım gəldikdə istifadə olunur. Bu qiymətlə satılan qeyri-bazar məhsulları pulsuz verilən məhsullar kimi maya dəyəri ilə qiymətləndirilir. Belə məhsulların bir hissəsi ev təsərrüfatları tərəfindən alınır və yerdə qalanları isə dövlət orqanları və qeyri-kommersiya idarələrinin son istehlakına xərclənir.

İstehsal etdiyi məhsulun çoxusu və ya hamısı bazar üçün nəzərdə tutulan müəssisələr bazar istehsalçısı adlanır. Bazar istehsalçısı olan korporasiya edilməmiş kiçik və iri müəssisələr öz fərdi istehlakı üçün məhsul şəklində və əsas kapitalın ümumi artımı formasında qeyri-bazar məhsuluna da malik ola bilərlər.

Məhsulunun çoxu və ya hamısı qeyri-bazar məhsulu olan müəssisə və idarələr qeyri-bazar istehsalçısı adlanır. Qeyri-bazar məhsulunun iki formasına uyğun olaraq qeyri- bazar istehsalçılarının da iki növünü fərqləndirirlər:

1. Ev təsərrüfatına aid olan korporasiya edilməmiş müəssisələr. Məsələn, natural təsərrüfatla məşğul olan və öz məhsulunun az bir hissəsini satan fermerlər;

2. Ev təsərrüfatına və ya bütövlükdə cəmiyyətə pulsuz, ya da iqtisadi cəhətdən əhəmiyyətli olmayan qiymətlərlə məhsul istehsal edən və xidmətlər göstərən dövlət orqanlarına və ya qeyri-kommersiya təşkilatlarına aid olan müəssisələr.

§7.8 Bazar üçün məhsulların və ehtiyatların ölçülməsi

Bazar üçün məhsulların uçotu əmtəəyə mülkiyyət hüququ istehsalçıdan alıcıya keçdikdə (yə"ni alqı-satqı prosesi baş verdikdə) və alıcıya xidmət göstərildikdə aparılır. Əmtəələr və xidmətlər satıldıqları bazis qiymətləri ilə qiymətləndirilirlər. Qiymətləndirməni bazis qiymətləri ilə aparmaq mümkün olmadıqda istehsalçının qiymətlərindən istifadə olunur. Satışın dəyər ifadəsiylə həcmi alıcılar tərəfindən ödəniləcək və satıcılar tərəfindən alınacaq məbləğə əsasən müəyyən edilir. Ödənişlər müəyyən edilmiş vaxtdan əvvəl və ya sonra baş verdikdə alıcılar və ya satıcılar tərəfindən ödənilən faizlər (və ya başqa ödənişlər) satışın dəyərinə daxil edilməməlidir.

Əmtəə və xidmətlər başqa əmtəələrə, xidmətlərə və ya aktivlərə dəyişdirilərsə ilişkilər barter yolu ilə həyata keçirilmiş hesab olunur. Dəyişdirilən əmtəə və xidmətlərin dəyəri onlara mülkiyyət hüququnun başqasına verildiyi anda bazis qiyməti ilə uçota aparılır.

Muzdlu işçilərə natural formada kompensasiya kimi verilən və ya

natural formada başqa ödənişlər üçün istifadə olunan əmtəələr və xidmətlər onlara mülkiyyət hüququ başqasına verildiyi vaxt satılır biləcəyi bazis qiymətləri ilə uçota alınır.

Ehtiyatların həcminin dəyişməsinin ölçülməsi zaman əsas götürülən prinsipin mahiyyəti ondan ibarətdir ki, bu məhsullar sonrakı taleyindən asılı olmayaraq (onlar satıla, ehtiyata keçirilə və ya başqa cür istifadə oluna bilər) istehsal edildiyi anda eyni qiymətlə qiymətləndirilməlidir. Əvvəllər istehsal edilərək ehtiyata keçirilən məhsullardan ehtiyatdan götürülərək satılan və ya başqa cür istifadə olunan əmtəələr cari dövrün məhsulu kimi uçota alınmır. Bu isə o deməkdir ki, ehtiyata keçirilən əmtəələr daxil olduqları andakı bazis qiymətləri ilə qiymətləndirilir. Beləliklə, əvvəllər istehsal edilmişlərdən satılan və ya başqa cür istifadə olunan əmtəələrin dəyəri ehtiyatdan götürülmüş əmtəələrin dəyər ilə silinir (ləğv edilir). Ehtiyatların dəyişməsinin belə qiymətləndirilməsi üsulu "Permanent (fasiləsiz) inventarizasiya üsulu" adlanır. Lakin bu metodu həmişə asanlıqla tətbiq etmək mümkün olmur və o bə'zən istifadə üçün yaralı olmayan nəticələrə gətirib çıxarır.

Qiymətlər sabit olduqda ehtiyatların həcminin dəyişməsini qiymətləndirmək çətin deyildir. Lakin inflyasiya şəraitində ehtiyatlar saxlanıldığı müddətdə əmtəənin qiyməti yüksələ bilər. Elə buna görə də istehsal olunduqdan sonra ehtiyat kimi saxlanılan əmtəələrin satışından alınan mənfəət məhsulun dəyərinə daxil edilmir. Permanent invertarizasiya metodu ehtiyatdan götürülmüş məhsulları ehtiyatdan götürüldüyü anda üstünlük təşkil edən qiymətlə (daxil olduğu vaxtdakı qiymətlə yox) qiymətləndirməklə həmin mənfəəti əmtəənin dəyərindən çıxmağa imkan verir. Bu üsulla əldə edilən rəqəm həm məhsul və həm də mənfəət üzrə mühasibat uçotunda olan ilk dəyərdən hesablanmış göstəricidən xeyli kiçik ola bilir.

Konkret hesabat dövrü ərzində hazır əmtəələrin ehtiyatlarında baş verən dəyişikliklərin dəyər ifadəsiylə həcmini tapmaq üçün ehtiyatlara aid edilən bütün əmtəələrin ümumi dəyərindən ehtiyatdan götürülən bütün əmtəələrin dəyərini və ehtiyat kimi saxlanılan əmtəələrin bütün növ cari itkilərinin dəyərini çıxmaq lazımdır.

Əgər satış və əmtəələrin başqa formada istifadəsi onlar baş verdiyi andakı qiymətlə qeydə alınarsa, habelə satılan və ya başqa formada istifadə edilən əmtəələr və xidmətlər üçün bitməmiş işlərin qalığı da dəyişməzsə aşağıdakı bərabərlik tə'min edilməlidir:

Məhsulun dəyəri = Satışın dəyər ifadəsi ilə həcmi + İstifadənin başqa növləri + Ehtiyatların dəyişməsinin dəyəri

Bu bərabərlik satılan və ya başqa cür istifadə olunan məhsulların dəyərini həmin dövrdə istehsal olunub olunmamasından asılı

olmayaraq müəyyən edərkən tətbiq edilə bilər.

Permanent inventarizasiya üsulu ehtiyatlara daxil olan oradan götürülən əmtəələrin müntəzəm uçotunu və qiymətləndirilməsini tələb etdiyi üçün istənilən anda belə dəqiq informasiya əldə etmək çətindir. Elə buna görə də dünyanın bir çox ölkələrində ehtiyatların dəyişməsinə dair əldə edilən mə'lumatlar qismən qeyri-dəqiq mə'lumatlar sırasına daxil edilir. Bu səbəbdən də bir qədər təqribi mə'lumatlardan istifadə etməyə ehtiyac yaranır. Qiymətlər dəyişmədiyi şəraitdə ehtiyatlara daxilolmaların həmisi və oradan götürülən eyni qiymətlə qiymətləndirilir. Belə vəziyyət xüsusi hal olmaqla ehtiyatlara daxilolmalarla oradan götürülmələrin dəyərlərinin fərqinin kumulyativi sadələşərək başlanğıc və son balanslarda qeyd edilən ehtiyatların dəyərlərinin fərqinə bərabər olur.

Əgər ehtiyat şəklində saxlanan əmtəələrin hesabat dövrünün əvvəlinə və axırına miqdarının fərqi həmin dövrdə üstünlük təşkil edən orta qiymətlərlə qiymətləndirilsə permanent inventarizasiya metodu ilə əldə edilən mə'lumat tapmaq olar. "Miqdar ölçüsü" kimi səciyyələndirilən bu üsul təcrübədə geniş istifadə olunur və bə'zən də səhv olaraq bütün hallar üçün yaralı olan nəzəri üsul adlandırılır. Qiymətlərin sabit qaldığı halda, habelə ehtiyatların qalığının müntəzəm artdığı və ya azaldığı halda "Miqdar" üsulunun nəticəsi Permanent inventarizasiya üsulunun nəticəsi ilə eyni olur. Qiymətlər dəyişdikdə, habelə ehtiyatların qalığının gah artdığı və gah da azaldığı şəraitdə "Miqdar" üsulu ilə əldə edilmiş nəticəyə təqribən yaxın ədədə bərabər olur. Lakin mövsümilik, istehsalın ardıcıllığı və tələbatın quruluşundan asılı olaraq ehtiyatların həcmi tez-tez dəyişən sahələrdə (məs, kənd təsərrüfatı və s.) Permanent inventarizasiya üsuluna təqribi yaxın hesab edilən üsulla əldə edilən nəticənin səhvinin hüdudları xeyli geniş olur.

§7.9. Qeyri-bazar tə'yinatlı məhsulların və xidmətlərin ölçülməsi

İrəlidə qeyd edildiyi kimi, istehsal edilmiş məhsulun hamısı bazarda satılmaq və ya bazarda başqa məqsədlə istifadə üçün istehsal edilmir. İstehsal olunmuş məhsulun bir hissəsi istehsalçının özünün son istehlakına sərf edilir. Ev təsərrüfatı üzvlərinin özlərinin və ailənin başqa üzvlərinin şəxsi son istehlakları üçün istifadə olunan məhsullar da bu kateqoriyaya daxildir. Ümumiyyətlə götürdükdə istehsal edilən məhsulların bazarda satılmaq və ya başqa formada bazarda istifadəsi nəzərdə tutulmayan hissəsi qeyri-bazar məhsulları adlanır.

Ev təsərrüfatı üzvlərinin xidmətlər və istehsal etdikləri məhsullardan özlərinin və ya həmin ev təsərrüfatının başqa üzvlərinin istehlak etdiklərindən başqa bütün istehsal edilmiş məhsullar MHS-də

istehsal kateqoriyasına aid edilir.

Fərdi istehlak üçün istifadəsi nəzərdə tutulan əmtəələr və xidmətlər istehsal olunan vaxtı uçota alınmalıdırlar. Əmtəələr və xidmətlər bazarda satılacaqları halda alıcıya təklif ediləcəkləri bazis qiymətləri ilə qiymətləndirilirlər. Onları bu yolla müəyyən etmək üçün eyni növdən olan əmtəələr və xidmətlər bazarda kifayət miqdarda satılmalı və alınmalıdır ki, onlara əsasən e'tibarlı bazar qiymətləri hesablamaq mümkün olsun. E'tibarlı bazar qiymətləri əldə etmək mümkün olmadığı halda bir qədər qeyri mükəmməl üsuldan istifadə olunur. Belə halda öz fərdi istehlakı üçün istehsal olunmuş əmtəə və xidmətlərin dəyəri şərti olaraq onların istehsalına çəkilən məsrəflərin dəyərinin cəminə bərabər götürülür. Belə məsrəflərə isə aşağıdakı ünsürlərin dəyərləri daxildir:

1. Aralıq istehlakı;
2. Fəhlə və qulluqçulara kompensasiyalar;
3. Əsas kapitalın istehlakı;
4. İstehsal prosesi dövründə ödənilən bütün növ vergilər (subsidiləri çıxmaqla).

§ 7.10. Başa çatmamış məhsulun (işlərin) uçotu və qiymətdirilməsi

Bir çox əmtəələr və xidmətlər öz istehsalını başa vurduqda uçota alınır. Lakin məhsul vahidinin istehsalı uzun müddətə başa gələrsə onu fasiləsiz istehsal edilən məhsul hesab etməklə bitməmiş və ya başa çatmamış istehsal adlandırırlar. Məsələn, istehsalı aylar və illər tələb edən (gəmi, təyyarə və s.) məhsullar belələrinə aiddir. Belə məhsullar iki və daha çox hesabat dövrünü əhatə etdiyinə görə hər bir dövr ərzində istehsal olunmuş məhsulun dəyəri müəyyən edilməlidir. Əmtəələr və ya xidmətlər yalnız istehlakçılara göndərməyə hazır olduqda hazır məhsul hesab edilir. Bitməmiş istehsal qalığı isə konkret hesabat dövründə satışa hazır olmur, lakin o müəyyən vaxt ərzində satışa yararlı məhsula çevrilə bilər.

Bitməmiş işlərin (istehsalın) dövrün sonuna qalığı balans yolu ilə müəyyən edilir və bu qalıq həm də gələn dövrün əvvəlinə olan qalığın həcmini göstərir.

MHS-də başa çatdırılmamış işlərin dəyəri istehsalçılarda saxlanılan məhsul ehtiyatlarının komponentlərindən biri kimi nəzərdən keçirilir. Lakin, uzun müddət istifadə edilən istehsalı qismən başa çatmış əmtəələrlə (körpülər, tunellər, bəndlər və s. iri qurğular) əsas kapitalın ümümi əlavə artımı arasındakı sərhəddi dəqiq müəyyən etmək həmişə çətin olur.

Bitməmiş istehsal qalığının dəyərinin artımı və ya azalması işin

gedişində fasiləsiz baş verir. Odur ki, il və ya rüb ərzində istehsal edilmiş başa çatdırılmamış işlərin dəyərinin kumulyativ həcmini uçota almaq lazımdır. Satış son hesabda uçota alınmayanadək başa çatdırılmamış işlərin dəyərinə əlavələr hər bir dövrün məhsuluna daxil olan yeganə ünsürdür.

Hazır məhsul istehsal edildiyi dövrlərdə hazır məhsulun qiyməti sabit qalarsa həmin dövrdə bitməmiş işlərə əlavələrin dəyərini müəyyən etmək üçün bazis qiymətlərini həmin dövrdə istehsal xərclərinin xüsusi çəkisinə vurmaqla müəyyən edilir. Başqa sözlə desək, son məhsulun dəyəri istehsal məsrəflərinə uyğun olaraq istehsalın həyata keçirildiyi dövrlər arasında bölüşdürülür.

Bitməmiş işlərə əlavələrin dəyərini onların hansı qiymətə satacağını bilənədək hesablamaq lazım gəldiyi halda hər bir dövrdə çəkilən istehsal xərclərinin üzərinə əldə ediləcəyi gözlənilən mənfəətin və onlara bərabər tutulan gəlirləri (və ya qarışıq gəlirləri) məbləğini əlavə etməklə müəyyən edirlər. Belə qiymətləndirməyə satış qiyməti bilindikdən sonra yenidən baxmaq olar. Nəzərdə tutular satış qiyməti istehsal dövründə inflyasiya nəticəsində daima artmağa doğru meyl etdikdə vəziyyət xeyli mürəkkəbləşir. Belə halda bitməmiş işlərə əlavələrin dəyərinin hesablanması həmin dövrdə nəzərdə tutulan satış qiymətlərinə əsaslanmalıdır. Praktiki çətinliklərə baxmayaraq belə hesablama hər bir dövrdə istehsala daxil edilən resurslarla onun nəticələrinin (istehsalın) dəyərləri arasında əlaqə yaratmağa imkan verir. Belə qiymətləndirmə üsulu həm də sonradan başa çatmamış işlərə əlavə edilən dəyəri bazis qiymətləri ilə qiymətləndirmək lazım gəldikdə də istifadə edilə bilər.

§7.11. Operativ və maliyyə lizinqi

Maşın və avadanlığın gözlənilən xidmət müddətindən az vaxta icarəyə verilməsi əməliyyatı Operativ Lizinq adlanır. Bu əməliyyat istehsalın bir forması hesab edilir.

Belə əməliyyat nəticəsində sahibkar və ya Lizinq verən istifadəçiyə (Lizinq alana) müəyyən xidmət göstərir. Bu xidmət nəticəsində yaranmış məhsulun dəyəri Lizinq alanı Lizinq verənə ödədiyi icarə haqqı üzrə qiymətləndirilir.

Operativ Lizinqin aşağıdakı xüsusiyyətləri vardır:

1. Maşın və avadanlığın sahibi (Lizinq verən) müəyyən miqdarda yaxşı vəziyyətdə avadanlıq ehtiyatı saxlayır. İstifadəçinin ilk tələbi ilə bu avadanlıq prokata götürülə bilər.

2. Avadanlıq müxtəlif vaxta icarəyə verilə bilər. Bu müddət başa çatdıqda Lizinq alan icarəni bir neçə dəfə təkrar edə bilər. Lakin istifadəçi həmin avadanlığı bütün xidmət müddəti ərzində icarəyə

götürməyi öz öhdəsinə götürmür.

Lizinq verən çox vaxt icarəyə verdiyi avadanlıqa texniki xidməti və tə'miri öz üzərinə götürür. Bu da Lizinq alana göstərilən xidmətin bir hissəsini təşkil edir. Beləliklə, Lizinq verən avadanlıq vahidini icarəyə verməklə yanaşı və həmdə istifadəçi üçün böyük əhəmiyyətə malik olan rahatlıq və e"tibarlılığın tə'min edilməsi sahəsində öz üzərinə müəyyən öhdəçiliklər götürür.

Operativ lizinqdən fərqli olaraq Maliyyə lizinqi maliyyələşdirmənin bir formasıdır. Maliyyə lizinqi maşın və avadanlıqların alınmasında kreditləşdirmənin bir alternatividir.

Maliyyə Lizinqinə dair müqavilə elə bir kontrakdır ki, onun şərtlərinə əsasən Lizinq verən avadanlığı satın alır, Lizinq alan isə Lizinq verənin bütün xərclərini ödəyə bilən və müəyyən qazanc gətirən məbləğdə icarə haqqı ödəməyi öz öhdəsinə götürür.

MHS-də Lizinq verən Lizinq alanın maliyyələşdiricisi hesab olunur. Bu da öz növbəsində Lizinq alana həmin avadanlığı satın almağa imkan verir. Belə halda icarə haqqı kreditlərin və faizlərin ödənilməsi kimi nəzərdən keçirilir.

Beləliklə, Operativ Lizinq istehsal prosesinin bir forması olduğu halda Maliyyə Lizinqi vəsaitləri kreditordan borc götürənə istiqamətləndirilmə metodudur.

§ 7.12. Bə'zi sahələrdə məhsul buraxılışının xüsusiyyətləri

Bazar üçün və qeyri bazar məhsullarının uçotu və qiymətləndirilməsinin ümumi qaydalarında bə'zi istehsal sahələrinin məhsullarının ölçülməsi üsulları tam əhatə olunmur. Onlardan bir neçəsinin xüsusiyyətlərini nəzərdən keçirək:

a) Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq.

Bu sahədə buraxılmış məhsulun həcminin ölçülməsində qarşıya çıxan çətinliklər istehsal prosesinin aylarla və illərlə davam etməsiylə əlaqədardır. Böyüməkdə olan kənd təsərrüfatı bitkiləri, meşələr, ərzaq əldə etmək üçün balıqların və heyvanların becərilməsi başa çatmamış istehsal kimi nəzərdən keçirilir. Belə hal həmin məhsulların kifayət qədər e"maldan keçmədiyinə görə bazarda təklif ediləcək formaya düşməməsiylə əlaqədardır. Məhsul yığıldıqda, ağac kəsildikdə, heyvan kəsildikdə bu sahələrdə istehsal prosesi başa çatır. Bundan sonra bitməmiş istehsal satıla və ya başqa formada istifadə oluna bilən hazır məhsul ehtiyatına çevrilir. Beləliklə, kənd təsərrüfatında, meşə təsərrüfatında və balıqçılıqda buraxılmış məhsul nəzəri baxımdan istehsal prosesi uzun vaxt tələb edən başqa sahələrdə olduğu kimi müəyyən edilə bilər. Daha doğrusu, bu sahələrin məhsulunun həcmini

müəyyən etmək üçün satışın üzərinə bitməmiş istehsal qalığını və əlavələri də daxil etməklə ehtiyatlarda baş verən dəyişikliyi cəmləmək lazımdır. Buraxılmış məhsul bütün istehsal prosesi ərzində daima istehsal edilən məhsul kimi uçota alınmalıdır. İstehsal prosesi uzun müddət (bir neçə ay, rüb, il) davam edən sahələrdə buraxılmış məhsulun dəyəri həmin dövrlərdə çəkilən xərcə mütənasib olaraq hazır məhsulun dəyərini bölmək yolu ilə müəyyən edilir. Bundan ötəri korporasiya edilmiş firmalarla korporasiya edilməmiş firmaları fərqləndirmək lazımdır. Korporasiyalaşmış müəssisələrdə məhsulun bölüşdürülməsi muzdlu işçilərə verilən əmək haqqlarını da daxil etməklə çəkilmiş real istehsal xərclərinə mütənasib olaraq aparılır. Korporasiya edilməmiş firmalarda buraxılmış hazır məhsulun bölüşdürülməsi aşağıdakı kimi aparılır: əvvəlcə real xərclər (toxuma, yanacağa və s.) baş verdiyi dövrlər üzrə bölüşdürülür. Sonradan buraxılmış hazır məhsulun qalıq dəyəri (yəni satılan qarışıq gəlir) sahibkarın əvəzi ödənilməyən iş saatlarının sayına bölünür. Bundan ötəri müxtəlif dövrlərdə yerinə yetirilmiş işlərin təqribi həcmini hesablamaq kifayətdir.

Hazır məhsulun dəyəri aşağıdakı dəyərləri cəmləməklə müəyyən edilir:

1. Cari bazis qiymətlərində müəyyən edilmiş satılmış və ya dəyişdirilmiş hazır məhsulun dəyəri;
2. Cari və bazis qiymətiylə ehtiyata daxil olan hazır məhsulun dəyərindən ehtiyatdan götürülən dəyərin fərqi;
3. Cari və bazis qiymətiylə istehsalçı tərəfindən istehlak edilən hazır məhsulların dəyəri.

Əgər istehsal edilmiş hazır məhsulun dəyəri yarımfabrikat kimi bölüşdürülürsə bitməmiş istehsal qalığının dəyişməsi də nəzərə alınmalıdır. Əks təqdirdə istehsal olunmuş məhsulun təkrar uçotu baş verə bilər. Bitməmiş istehsalın azalması satışın həcmini də azaldır.

Əgər bütün istehsal prosesi bir hesabat dövrü (məsələn, il) ərzində başa çatarsa buraxılmış məhsulu yüxarıda təsvir olunan qaydada bölməyə ehtiyac qalmır. Lakin hesabat dövrü istehsal prosesinin başa çatmasından tez baş verərsə və ya aralıq mərhələləri (ay, rüb) üzrə hesabat tərtib etmək lazım gələrsə hazır məhsulun dəyərini bitməmiş istehsal kimi bölüşdürmək lazımdır.

Bə'zi başqa sahələrdə olduğu kimi, kənd təsərrüfatında da istehsal prosesi başa çatmadan bitməmiş istehsalı qiymətləndirmək lazım gəlir. Belə halda başa çatmamış istehsalın dəyəri əvvəlcədən real çəkilmiş xərclərə görə müəyyən edilir. Şərti qiymətləndirilmiş operativ mənfəətin və onlara bərabər tutulan gəlirlərin dəyəri onun üzərinə əlavə edilir.

Əgər kənd təsərrüfatı bitkilərinin yetişməmiş məhsulu (yəni

bitməmiş istehsal) yığımadək ciddi zədələnərsə və ya tamam məhv olarsa bitməmiş istehsalın əvvəlcədən müəyyən edilmiş dəyəri müvafiq olaraq azaldılır və ya sıfıra bərabər edilir.

b) Maşınlar, avadanlıqlar və tikinti

Uzun müddət xidmət edən iri əmtəələrin (məs, təyyarə, gəmi, bina və qurğular) istehsal müddəti aylarla və illərlə uzana bilir. Belə istehsal sahələrində məhsul buraxılışı istehsal prosesinin tam başa çatmağını gözləmədən bitməmiş istehsalı uçota almaqla qiymətləndirilir.

Belə halda bitməmiş istehsalın uçotu və qiymətləndirilməsi yüxarıda təsvir olunan metodla aparılır.

Əgər tikintisi bir neçə il davam edən obyekt üzrə satış qaydası müqavilə ilə əvvəlcədən müəyyən edilmişsə hər bir dövrdə buraxılmış məhsul satılmış hesab edilir. Buna görə də alıcı onu bitməmiş istehsal kimi deyil, ümumi kapitalyaratma kimi qəbul edir.

Əgər müqavilədə ödəniş mərhələlər üzrə nəzərdə tutulursa, buraxılmış məhsulun dəyəri təqribən həmin ödənişlərə uyğun götürülür. Satışa dair müqavilə olmadığı halda hər bir dövrdə istehsal olunmuş məhsul satış kimi deyil, bitməmiş istehsal kimi qiymətləndirilməlidir.

v) Daşınma və saxlanma

Daşınmanın məhsulu əmtəələrin və əhalinin daşınması üçün alınan məbləğə əsasən müəyyən edilir. Daşınmanın məhsulunun həcmi tonkilometr və sərnişin- kilometrlə ölçülür. Belə ölçü vahidləri daşınan yükün çəkisi və insanların sayı ilə yanaşı həm də onların daşındığı məsafəni də əks etdirirlər. Daşınma sahəsində işin həcminə və keyfiyyətinə deyilənlərdən əlavə daşınmanın sür"əti və rahatlığı da (komfort) tə"sir göstərir.

Daşınma tipik xidmət sahəsidir. Müəssisə daxilində öz şəxsi istehlakı üçün edilən xidmətlər köməkçi fəaliyyət sayılır və ayrıca uçota alınır.

Bazar məqsədləri üçün saxlanma sahəsindəki xidmətlər geniş yayılmasa da böyük ümumi iqtisadi əhəmiyyətə malikdir. Əmtəələrin müəyyən müddət saxlanması istehsal prosesi kimi nəzərdən keçirilir ki, bu müddət ərzində əmtəələrin miqdarı dəyişməsə də onun iqtisadi qiyməti dəyişə bilər. Əgər əmtəənin (məs. şərabın) fiziki keyfiyyəti saxlanıldıqca yaxşılaşırsa istehsalın dəyəri artır. Saxlanma üzrə xidmətlərin həcmi "həcm-gün" vahidləri ilə ifadə oluna bilər. Bu göstərici eyni zamanda saxlanmanın müddətini, şəraitini və saxlanan əmtəənin həcmini əks etdirir.

Saxlanma müddətində əmtəənin qiymətinin dəyişməsi aşağıdakı **səbəblər üzrə baş verə bilər:**

1. Vaxt müddəti ərzində əmtəənin keyfiyyəti yaxşılaşa, ya pisləşə bilər;

2. Bu müddət ərzində həmin məhsula tələb və təklifə ciddi tə"sir göstərən mövsümi amillər mövcud ola bilər, bu da öz növbəsində qiymətin dəyişməsinə səbəb ola bilər.

3. Həmin məhsulun tə"yinatı və iqtisadi mahiyyətinin dəyişməsinə tə"sir edə bilən ümumi xarakterli amillər (inflyasiya və s.) fəaliyyət göstərə bilər.

Yuxarıda göstərirlən 1-ci və 2-ci hallarda əmtəəni saxlamaya qoyulduğu qiymətlə saxlanmadan götürülən zamandakı qiymətləri arasındakı artım fərqi həmin dövrdə əlavə məhsul istehsalına bərabər tutulur. Yalnız üçüncü halda qiymətlərin həqiqi dəyişməsi prosesi baş verir ki, onun nəticəsində nominal və ya real xoldinq mənfəəti yaranır.

Təsəvvür edək ki, ümumi inflyasiya baş vermir, amma saxlanma nəticəsində əmtəənin (məs, şərabın) keyfiyyəti yaxşılaşır. Əgər əmtəənin istehsal prosesi saxlanma müddətində davam edirsə nəzəri cəhətdən məhsul saxlanmaya daxil olduğu anda hazır məhsul kimi deyil, bitməmiş istehsal kimi uçota alınmalıdır. Saxlanma zamanı onu dəyərinin artımına qiymətlərin artması kimi deyil bitməmiş istehsala əlavə kimi (daha doğrusu, əlavə buraxılmış məhsul kimi) baxmaq lazımdır. Saxlanmaqa qoyulmuş ehtiyatların mühasibatda uçotunu elə aparmaq lazımdır ki, əmtəənin həm saxlanmaya verilmə zamanı bitməmiş istehsalın dəyərini və həm də saxlanmadan götürmə zamanı ona əlavə edilən dəyərini ayırmaq mümkün olsun.

Mövsümün dəyişilməsi ilə əlaqədar tələbatın və qiymətlərin dəyişməsinə məruz qalan əmtəələrin uçotu da yuxarıda təsvir edilən qaydada aparılır.

q) Topdan və pərakəndə satış

Topdan və pərakəndə ticarət zamanı əmtəələr minimum emaldan keçmişsə (çeşidləmə, qablaşdırma və s.) aralıq istehlakının bir hissəsi kimi nəzərdən keçirilmir. Belə hesab edilir ki, pərakəndə və topdansatışla məşğul olan tacirlər aldıqları əmtəələri əlverişli yerdə satışa çıxartmaqla öz müştərilərinə xidmət göstərir. Topdan və pərakəndə ticarətin məhsulu əmtəələrin alınıb və satılmasından əldə edilən ticarət mənfəətinin həcmi ilə müəyyən edilir. Ticarət mənfəəti alınıb-satılan əmtəənin real (və ya şərti hesablanmış) qiymətlə həmin məhsulun satışı ilə məşğul olan sahibkarın bu əmtəəni başqası ilə əvəz edəcəyi halda ödəməli olduğu qiymət arasındakı fərq kimi müəyyən edilir.

Topdan və pərakəndə ticarətdə buraxılmış məhsulun dəyərini hesablamaq üçün satılmış (və ya başqa formada istifadə olunmuş) əmtəənin dəyərindən satılmaq üçün alınmış əmtəələrin dəyərini çıxmaq lazımır.

Pərakəndə və topdan satış ticarətin məhsulunu aşağıdakı bərabərlik şəklində ifadə etmək olar:

Buraxılmış məhsulun dəyəri = ucuzlaşdırılmış satışı da daxil etməklə bütün satışın dəyəri + satılmaq üçün alınmış və başqa məqsədlər üçün istifadə olunmuş əmtəələrin dəyəri- satılmaq üçün alınmış əmtəələrin dəyəri + satılmaq üçün alınmış əmtəə ehtiyatlarına edilən əlavənin dəyəri- satılmaq üçün alınmış əmtəə ehtiyatlarından götürülən (xarab olma və oğurluğu da daxil etməklə) əmtəələrin dəyəri.

Satılmış əmtəələrin dəyəri əmtəənin hansı məqsəd üçün satılmasından asılı olaraq müəyyən edilir. Korporasiya edilməmiş müəssisələrin sahibləri öz son istehlakının və götürdükləri muzdlu işçilərə natura şəklində verilən əmtəələrin dəyəri cari son istehlak qiyməti ilə qiymətləndirilir. Belə halda ticarət mənfəəti sıfra bərabər olur.

Satılmaq üçün nəzərdə tutulan əmtəə ehtiyatlarına əlavə edilən dəyər onların daxil olduqları anda mövcüd olan son istehlak qiymətləri ilə müəyyən edilir.

Satılmaq üçün nəzərdə tutulan ehtiyatlardan götürülən əmtəələr həmin əmtəələr ehtiyatdan götürüldüyü andan mövcud olan son tələbat qiymətləri ilə qiymətləndirilir.

Satılmaq üçün alınmış məhsulların satışında əldə edilən mənfəət də onların son istifadəsindən asılı olaraq fərqləndirilir.

Ticarətçilərin nəzərdə tutduğu tam dəyərə satılan əmtəələrin satışından alınan mənfəət normal mənfəət adlanır. Bu mənfəəti müəyyən edərkən ticarətçilər nəzərə alırlar ki, adi xərclərlə yanaşı əmtəələrin bə'zisi son anda ucuzlaşdırılmış qiymətlə satıla bilər, başqa qismi isə oğurlana və ya itə bilər.

§7.13. Ümumi daxili məhsul (ÜDM)

MHS-nin mərkəzi göstəricisi ÜDM-dur. Bəzi xarici ölkələrin statistikasında bir qədər əvvəlki dövrlərdə makroiqtisadi göstərici kimi ümumi milli məhsul (ÜMM) göstəricisindən istifadə olunurdu. Bu göstəricilərin hər ikisi (ÜDM və ÜMM) iqtisadiyyatın (xalq təsərrüfatının) maddi istehsal və xidmətlər sahəsində fəaliyyətin nəticələrini əks etdirir. Onların hər ikisi konkret dövr ərzində (ay, rüb, il) öl-də (iqtisadiyyatda) istehsal edilmiş son məhsulun , xidmətlərin cari (qüvvədə olan) və sabit qiymətlərin dəyərinin cəmini göstərir.

ÜDM - la ÜMM - un fərqi aşağıdakılardan ibarətdir:

1. ÜDM ərazi əlaməti üzrə hesablanır. Bu göstərici mənsubiyyətindən asılı olmayaraq konkret ölkənin ərazisində yerləşən maddi istehsal sferası və xidmət sferası müəssisələrinin məhsullarının dəyərlərinin cəmidir.

2. ÜMM milli müəssisələrin harada yerləşməsindən (öz ölkəsində və ya onun sərhədlərindən kənarda) asılı olmayaraq milli iqtisadiyyatın hər iki sferasında istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcminin dəyərinin cəmidir.

Beləliklə, ÜMM ÜDM-dan həmin ölkənin sərhədlərindən kənarda istifadə etdiyi resurslarından götürdüyü amil gəlirlərinin məbləğindən xaricilərin bu ölkədən apardıqları eyni cür gəlirlərin məbləğini çıxdıqdan sonra qalan məbləğ qədər fərqlənir. Xatırladaq ki, amil gəlirləri dedikdə muzdlu işçilərin gəliri, renta gəliri, ssudalar üçün faizlər və müəssisələrin (firmaların) mənfəəti başa düşülür. Bu gəlirə konkret ölkənin sərhədlərindən xaricdə mülkiyyəti olan və işçilərinə əmək haqqı verməklə firmaların həyata keçirdiyi kapital qoyuluşların nəticəsində əldə etdikləri və öz ölkəsinə keçirdiyi mənfəət daxildir.

Adətən ÜMM hesablamaq üçün ÜDM göstəricisinin üzərinə aşağıdakıların fərqini əlavə edirlər:

1. Konkret ölkənin müəssisələri və fiziki şəxsləri tərəfindən xaricdə əldə etdikləri mənfəətlə gəlirin fərqi;

2. Başqa ölkənin investorları və xarici işçilərin bu ölkədə əldə etdikləri mənfəət və gəlirlərin fərqi;

Dünyanın aparıcı ölkələrində bu fərq çox da böyük olmur (təqribən ÜDM - un 1%- qədər);

Azərbaycanın ÜMM-un hesablanmasına 1988-ci ildən, ÜDM-un hesablanmasına isə bir qədər gec (təqribən 1992-ci ildən) keçilmişdir. Bu keçid məcmu içtimaii məhsulu (MİM) və milli gəliri (MG) yenidən hesablamaqla həyata keçirilirdi. Xatırladaq ki, keçmiş Sovet statistikasında ÜİM ən mühüm makroiqtisadi göstərici kimi maaddi istehsal sferasında istehsal olunan əmtəələrin və xidmətlərin dəyərinin cəmini əks etdirirdi. Milli gəlir göstəricisi də maddi istehsal sferası bazasında hesablanırdı.

ÜMM-u və ÜDM-u hesablayarkən qarşıya qoyulan əsas şərt ondan ibarətdir ki, il ərzində istehsal olunan əmtəələr və xidmətlər yalnız bir dəfə uçota alınsın. (Daha doğrusu, bu göstəriciləri hesablayarkən bir neçə dəfə alınıb satıla bilən aralıq məhsulları uçota alınmasın və yalnız son məhsul uçota alınsın). Məsələn, kənd təsərrüfatında istehsal olunan buğda son məhsula (çörəyə) çevrilənədək dörd e"mal mərhələsindən (buğdanın yığılması, döyülməsi, çeşidlənməsi, elevatorda təmizlənmə, qurudulma və saxlanma, dəyirmanda üyüdülmə və çörəyin bişirilməsi) keçir. Birinci mərhələdə yaranan dəyər emalın sonrakı mərhələlərində

istehsal olunan məhsulun dəyərinə (istehsal xərclərinə) də daxil edilir. Lakin hər bir emal mərhələsində yaranan real dəyər əmək haqqını, amortizasiyanı və mənfəəti əhatə edir.

Deməli, ÜDM- u və ÜMM- u hesablayarkən təkrar uçotu aradan qaldırmaq üçün emalın hər bir mərhələsində yaranan dəyəri cəmləmək lazımdır. Bu isə son məhsulun dəyərinə bərabərdir. Son məhsul dedikdə alıcı tərəfindən son istehlak üçün (yenidən satmaq üçün yox) alınan əmtəələr və xidmətlərin dəyəri başa düşülür. Son istehlakçıya çatanadək bir neçə dəfə alınıb satılan və ya e"mal edilən əmtəələr və xidmətlər aralıq məhsulu adlanır. Buraxılmış və istehlak olunmuş məhsulların dəyərləri arasındakı fərq əlavə edilmiş dəyər adlanır.

İqtisadi ədəbiyyatların çoxunda və təcrübədə "əlavə dəyər" kimi işlədilən əlavə edilmiş dəyər (ƏED) konkret müəssisənin konkret məhsul istehsalı prosesində yaratdığı dəyərdir. Yuxarıda deyildiyi kimi, ƏED konkret müəssisədə xərclənən əmək haqqı, amortizasiya və mənfəəti əhatə edir. Buna görə də yaradılmasında bu müəssisənin iştirak etmədiyi satın alınmış xammal və materialların dəyəri bu müəssisədə istehsal olunmuş məhsulu əlavə edilmiş dəyərə daxil edilmir.

Başqa sözlə desək əlavə edilmiş dəyər amortizasiyanı daxil etməklə müəssisənin ümumi məhsulundan cari material xərclərini çıxmaqla tapılar. Keçmiş Sovet statistikasında bu göstərici şərti xalis məhsul adlanırdı. ƏED-ə aid olan bu kəmiyyətlərin cəmi təkrar uçot yol vermədən həsablanmış ÜDM - u verir.

MHS-də əlavə edilmiş dəyərin tərkibinə amortizasiya, əmək haqqı, korporasiyaların və korporasiyalanmamış müəssisələrin mənfəəti, onların aldıqları renta, ssuda kapitalı üçün faizlər, habelə "Xalis vergilər" və ya "Xalis ixracat" adlı ünsürlər daxil edilir. Xalis vergilər konkret əmtəənin və xidmətin istehsalına və idxalına dövlət subsidilərini çıxmaqla vergilər aid edilir. Xalis ixracat dedikdə isə ixrac edilmiş əmtəə və xidmətlərin dəyərindən idxalatın dəyərini çıxdıqdan sonra alınan fərq başa düşülür.

MHS-də hesabların yekununu və ÜDM hesablayarkən xalis vergilər və xalis ixracat ayrıca sətirdə qeydə alınır.

Xarici ticarəti də uçota almaqla ÜDM təkrar istehsal tsiklinin hər bir mərhələsinə uyğun olaraq istehsal, bölgü və son istifadə üsulları üzrə hesablanıla bilər.

ÜDM istehsal üsulu ilə hesablanarkən məsələyə müxtəlif baxımdan yanaşmaq olar:

a) Bazar qiymətlərində ÜDM daxili iqtisadiyyatın əsas qiymətlər ilə hesablanmış ümumi buraxılışdan (ÜB) aralıq isğehlakını (Aİ) çıxdıqdan sonra əlavə dəyərə vergilərin (ƏDV) və idxala xalis vergilərin (İXV) məbləğini cəmləməklə hesablanır:

$$\text{YДM} = \sum \text{YБ} - \sum \text{AИ} + \sum \text{ƏДB} + \sum \text{ИXB}$$

b) Bazar qiymətlərində ÜDM bütün iqtisadiyyat sahələri üzrə ümumi dəyərə (ÜDV) vergilərin cəminə (məhsulun və idxala xalis vergiləri daxil etməklə) bərabərdir.

$$\text{YДM} = \sum \text{ƏДB}$$

Belə halda sahənin ƏDV-si ümumi buraxılışla aralıq istehlakının fərqinə bərabərdir:

$$\text{ÜDV} = \text{ÜB} - \text{Aİ}$$

v) Bazar qiymətinin ÜDM iqtisadiyyat sektorları üzrə bazar qiymətlərində ÜƏD - in məbləğinə bərabərdir:

$$\text{YДM} = \sum \text{YƏД}$$

Beləliklə, istehsal mərhələsində ÜDM istehsalın mənbəyini əks etdirən göstəricidir.

Bazar qiymətləri ilə hesablanan ÜDM istehsalçı vahid- rezidentlərin istehsal fəaliyyətinin son nəticəsidir. Mahiyyətcə ÜDM əlavə edilmiş dəyərdir.Bu məbləğ bütün istehsal vahidləri - rezidentlərin ümumi əlavə edilmiş dəyərlərinin üzərinə məhsulun qiymətlərinə daxil olmayan vergiləri (subsidiyasız) çıxmaqla müəyyən edilir.

ÜDM - un sahələr üzrə hesablanması:

Misal. 1996 - cı ildə Azərbaycan Respublikasının İqtisadiyyatına dair aşağıdakı mə'lumatlar vardır (cari qiymətlərdə, milyard manatla):

1)Maddi istehsal sferası üzrə (əmtəə istehsalı) əlavə dəyər	11228,8 milyard manat
2) Xidmət sferası (xidmətlərin istehsalı) üzrə əlavə dəyər	1720,5 milyard manat
3) Məhsula və idxala vergilər	1014,1 milyard manat
4) Məhsullara subsidilər	- 221,7 milyard manat

Buradan ÜDM =11228,8 + 1720,5 + 1014,1 - 221,7 = 13732,0 milyard manat olacaqdır.

Məhsul qiymətləndirilərkən istehlakçıların qiymətindən istifadə olunduğu halda ÜDM-u müəyyən etmək üçün bütün istehsalçı vahidlərin-rezidentlərin ümumi əlavə edilmiş dəyərlərinin cəminin üzərinə idxal vergisini cəmləyib, idxala subsidilərini çıxmaq lazımdır.

İqtisadiyyat üzrə bütövlükdə ÜDM məsrəflərə, gəlirlərə və istehlaka (son istifadəyə) görə hesablanır.

ÜDM - un məsrəflərə görə hesablanması.

ÜDM bu üsulla hesablanarkən onun tərkibinə aşağıdakı maddələr daxil edilir:

1. Ev təsərrüfatlarının son istehlaka məsrəfləri. Buraya gündəlik tələbat malları, uzun müddət istifadə olunan istehlak əşyaları, istehlak xidmətlərinə məsrəflər və s. aiddir.

2. Dövlət idarəçilik orqanlarının son məsrəfləri. Buraya dövlət ehtiyacları üçün istehsal olunan məhsullar üçün iqtisadi resursların və məhsulların alınmasına dövlət və bələdiyyə orqanlarının məsrəfləri, dövlət və bələdiyyə orqanlarının işçilərinə əmək haqqı məsrəfləri və s. aiddir.

3. Ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatlarının son məsrəfləri. Buraya bütövlükdə cəmiyyətə və ev təsərrüfatlarına xidmət edən ictimai və dini təşkilatların, həmkarlar ittifaqlarının, siyasi partiyaların məsrəfləri aiddir.

4. Xalis kapital qoyuluşlarından ibarət (amortizasiya ayırmaları hesabına maliyyələşdirilən) əsas kapitalın ümumi yığımı.

5. Ümumi yığımın bir hissəsi olan maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi.

6. Əmtəə və xidmətlərin daxili qiymətlərə hesablanmış xalis ixracatı.

Misal. 1996-cı ildən Azərbaycan Respublikasının iqtisadiyyatında ÜDM-un istifadəsi üzrə məsrəflər aşağıdaki kimi olmuşdur (cari qiymətlərlə, milyon manatla):

1. Son istehsala məsrəflər	- 14208,8
o cümlədən:	
ev təsərrüfatlarına	- 12420,0
dövlət idarələrinin və qeyri-kommersiya təşkilatlarına	- 1788,0
2. Ümumi yığıma məsrəflər	- 3927,0
o cümlədən	
əsas kapitalın ümumi yığımı	- 3819,0
maddi dövrəyyə vəsaitləri ehtiyatların dəyişməsi	- +108,0
3. Əmtəə və xidmətlərin xalis ixracatı	- 4403,0

Buradan ÜDM =14208,8 + 3927,0 - 4403,0 = 13732,8 milyon manat olacaqdır.

ÜDM-u gəlirlərə (yə"ni, bölgü üsulu ilə) görə də hesablamaq olar. Bu üsulla hesablanan ÜDM iqtisadi vahidlər rezidentlər arasında bölüşdüdürülən gəlirlərin məbləğini əks etdirir. Buraya muzdlu işçilərin əməyinin ödənilməsi (ƏÖ), istehsala və idxala xalis vergilər (İXV), ümumi mənfəət (ÜM) və ümumi qarışıq gəlirlərin (mülkiyyətdən və sahibkarlıqdan) məbləği (ÜQD) aiddir:

ÜDM = ƏÖ + İXV +ÜM +ÜQV

Bu yolla hesablanmış ÜDM gəlirinin tərkibi və quruluşunu, istehsal

amilləri (əsas kapital, işçi qüvvəsi) məsrəflərini, ümumi qarışıq gəlirlərin, onun istehsalçıları arasında necə bölüşdürülməsini öyrənməyə imkan verir.

Gəlirlər üzrə hesablanmış ÜDM ilkin, yəni ev təsərrüfatlarının, müəssisə və dövlət idarələrinin hələ bölüşdürülməmiş gəlirlərini əks etdirir. Bu gəlirləri əməyin ödənişinə (muzlu işçilərin əmək haqqı, sərbəst işçilərin gəlirləri, fərdi, ailəvi kooperativ və yoldaşlıq müəssisələrinin gəlirləri), ümumi mənfəətə (renta, ssuda və bank faizləri, sahibkarlıq mənfəəti, amortizasiya ayırmaları, müxtəlif cür qarışıq gəlirlər) və xalis vergilərə ayırmaq olar.

Misal. 1995-ci ildə Azərbaycan Respublikasında gəlirlər üzrə ÜDM-a dair aşağıdakı mə'lumat vardır (cari qiymətlərlə, milyard manatla):

1. Əməyin ödənişi	-	2385,0
2. Qarışıq gəlirləri də daxil etməklə ümumi mənfəət	-	7409,0
3. Xalis vergilər (+), statistik xəta	-	+ 1071,0
4. İstehsala və istehlaka subsidilər (-)	-	224

Buradan ÜDM = 2385,0 + 7409,0 + 1071,0 - 224,0 = 10641,0 milyard manat

Son istifadə üsulu ilə hesablanan ÜDM son istehlaka (Sİ) ixrac və idxal saldosunu (İx -İd) uçota almaqla ümumi yığımın (Üy) cəmini göstərir.

ÜDM = Sİ + Üy + (İx - İd)

Bu göstərici son istehlakçıların tələblərinin ödənilməsində və ölkənin milli sərvətinin artmasında istifadə olunan ÜDM-un rolunu əks etdirir.

MHS-də ÜDM-un son istehlakı fərdi və dövlət istehlakına, habelə ixrac-idxal saldosuna bölünür.

Beynəlxalq statistikanın tövsiyyə etdiyi ÜDM göstəricisi bir qədər də təkmilləşdirilməlidir. Bu göstərici hər iki sferanın (maddi istehsal və qeyri-maddi istehsal) əhatə etsə də uçotu çətin və ya heç mümkün olmayan bir çox əməliyyatlar buraya daxil olmur. Evdar qadınların öz ev təsərrüfatındakı işi, alimlərin hazır kitab, broşura və s. şəkildə olmamış ("özü üçün") işləri, barter mübadiləsi, kölgə biznesin gəliri, xırda "şirinlik" formasında ödənişlər və s. belə əməliyyatlara aiddir.

ÜDM-un hesablanması üsullarının heç biri qeyri istehsal xarakterli sövdələşmələri (xüsusiylə transfert ödənişləri) əhatə etmir. Belə ödənişlərin həcmi kifayət qədər böyük olmaqla yaranmış ÜDM-un yenidən bölüşdürülməsində nəzərə alınır.

Transfert ödənişlərinə aşağıdakı ödənişlər aiddir:

1. Dövlət transfert ödənişləri (sosial sığorta üzrə ödənişlər, işsizliyə

görə yardım, təqaüd, pensiya, dövlət borcları üzrə faizlərin ödənilməsi və s.)

2. Fərdi transfert ödənişləri (fərdi fondlardan birdəfəlik ödənişlər, fərdi şəxslərin verdiyi təqaüd, qiymətli kağızların alqı-satqısı və s.). Cari istehsalı artırmadığına görə xalis maliyyə əməliyyatları (məs, qiymətli kağızların alqı-satqısı) ÜDM-a daxil edilmir.

İllik istehsalın ümumi həcminin ölçüsü olan ÜDM ciddi bir qüsura malikdir: o istehsalın həcmini illik amortizasiya ayırmalarının məbləği (əsas kapitalın istehlakı) dolayı vergilərin həcmi qədər artırır. Nəzərə almaq lazımdır ki, cəmiyyətin rifahı yalnız istehsalın həcminin artırılması yolu ilə təmin olunur. Xüsusi fondlarda yığılan amortizasiya ayırmaları isə əhalinin həyat səviyyəsini yüksəltmir. Bunları nəzərə alaraq ÜMM və ÜDM həcmini illik amortizasiya ayırmalarının məbləği (əsas kapitalın istehlaka) qədər azaltmaqla başqa makroiqtisadi göstəriciləri - xalis milli məhsul (XMM) və xalis daxili məhsul (XDM) göstəriciləri müəyyən etmək olar. Bu göstəricilərin köməyi ilə konkret ölkənin istehsal etdiyi və istehlak etdiyi əmtəə və xidmətlərin illik ümumi həcmini ölçmək mümkündür. Başqa sözlə, bu göstərici XMM-un istehsalını təmin etmək üçün torpaq, işçi qüvvəsi, kapital və sahibkarlıq qabiliyyəti üçün iqtisadi resursları verənlərin gəlirlərinin həcmini əks etdirir.

XMM-də iqtisadi resursların rolunu əks etdirməyən yeganə komponent dolayı (qeyri-müstəqim) vergilərdir. Odur ki, əmək haqqının, renta ödənişlərinin və mənfəətin ümumi həcmi göstəricilərini müəyyən etmək üçün XMM-dan dolayı (qeyri-müstəqim) xərcləri çıxmaq lazımdır. Bu yolla alınmış göstərici milli gəlir adlanır.

Xalis daxili məhsulu hesablamaq üçün ÜDM-dan əsas kapitalın istehlakını (amortizasiya ayırmalarını) çıxmaq lazımdır. Əsas kapitalın istehlakı yeni yaranmış dəyər deyil, əvvəlcə yaranmış əsas fondların dəyərinin istehsal prosesində iştirakı ilə əlaqədar istehlakıdır. Beləliklə, nəzəri cəhətcə əlavə edilmiş dəyər xalis nəticəyə aid olan anlayışdır. Bu nəticə həm də daxili məhsula aiddir. Nəzəri cəhətdən daxili məhsul da xalis nəticə ilə əlaqədar olan anlayışdır. Lakin ÜDM müxtəlif məqsədlər üçün istifadə edilə bilər.

Əsas fondların amortizasiyası mühasibat uçotunda hesablandığı kimi, MHS-nin tələblərinə cavab vermir. Əsas kapitalın istehlakının hesablanması tələb edir ki, statistiklər əsas fondların cari dəyərini, müxtəlif növ aktivlərin xidmət müddətini, amortizasiyanın xarakterini və s. qiymətləndirsinlər. Lakin belə hesablamalar bəzi ölkələrdə aparılmır. Belə hesablamaları aparan ölkələrin metodologiyasında müxtəliflikər olur. Beləliklə, ümumi göstəricilərdən daha tez-tez istifadə edilir və onlar ölkələr arasında daha münasib göstərici hesab

olunur. Buna görə də konseptual baxımdan xalis daxili məhsulun nisbətən az uyğun gəldiyi yerlərdə də ÜDM-dan istifadə olunur. Nə ÜDM, nə də XDM həyat səviyyəsinin ölçüsü deyil. Daxili məhsul ümumi istehsal fəaliyyətini əks etdirən göstəricidir.

ÜDM-u başqa üsullarla da hesablamaq olar. Həmin üsullar sonrakı bölmələrdə şərh ediləcəkdir.

ÜDM-un dinamikasını və müxtəlif ölkələr üzrə həcmini təhlil edərkən nəzərə almaq lazımdır ki, onun səviyyəsi əhalinin həyat səviyyəsini həmişə düzgün əks etdirə bilmir. Bu məqsədə nail olmaq üçün ÜDM beynəlxalq müqayisəsini təmin etmək lazımdır. ÜDM-un beynəlxalq müqayisəsini apararkən aşağıdakı şərtləri nəzərə almaq lazımdır:

1. Müqayisə aparılan ölkələrdə ÜDM hesablama bazası razılaşdırılmalıdır.

2. ÜDM-un ifadə olunduğu ölçü vahidləri və qiymətlərin miqyasının müqayisəliliyi təmin edilməlidir.

Müxtəlif ölkələrin ÜDM-un müqayisəsinin ən sadə üsulu miqdarın konvertasiyası, yəni vahid valyutada hər nəfərə düşən miqdar göstəricilərinin tutuşdurulmasıdır.

Lakin rəsmi valyuta kursları yerli valyutaların yerli bazarlarda real alıcılıq qabiliyyətini düzgün əks etdirə bilmədiyinə görə qüsurlu hesab edilir. Valyuta kursuna hər hansı siyasi və ya sosial amillər təsir edə bilər.

Alıcılıq qabliyyətinin paritetinə (AQP) və son istehlak üsulu ilə hesablanmış ÜDM-un müasir beynəlxalq müqayisəliliyi XX əsrin 20-ci illərində Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının (indiki Avropa İqtisadi İnkişaf və Əməkdaşlıq təşkilatı) egidası altında yarandı.

11-ci cədvəl

1990-1997-ci illərdə Azərbaycan Respublikasında adambaşına ümumi daxili məhsulun dinamikası

(manatla və ABŞ dolları ilə)

İLLƏR	1 ABŞ dol.= manat	Adambaşına ümumi daxili məhsul	
		manatla	ABŞ dol.
1990	0.6	204.8	341.3
1991	3.8	368.4	96.9
1992	18.4	3286.9	178.6
1993	118.4	21229.4	179.3
1994	1149.8	251164.7	218.4
1995	4417.5	1420431.0	321.5

1996	4295.5	1808289.3	421.0
1997	3986.8	2023220.9	507.5

Cədvəldən göründüyü kimi, 1990-1997-ci illərdə Respublikamızda adambaşına düşən ÜDM-un dəyəri manatla 8863 dəfə, ABŞ dolları hesabı ilə isə yalnız 23.8 faiz artmışdır. Milli valyutamızla (manatla) respublikamızın hər bir sakininə düşən istehsal edilmiş ÜDM-un həcmi ildən-ilə on dəfələrlə artdığı halda ABŞ dolları hesabı ilə isə 1991-ci ildə kəskin surətdə aşağı düşmüş, 1992-ci ildən sonra tədricən yüksəlməyə başlamış və yalnız 1996-cı ildə 1990-cı ilin səviyyəsini 23,8% ötə bilmişdir.

Manat hesabı ilə adambaşına düşən ÜDM-un həcminin 1990-1996-cı illərdə belə fantastik surətlə yüksəlməsi əsasən milli valyutamızın alıcılıq qabiliyyətini sür"ətlə aşağı düşməsi ilə əlaqədərdir.

BMT Statistika Komissiyasının 1965-ci ildə çağırılan sessiyasında müqayisəliliyin daha geniş miqyasda və müntəzəm şəkildə aparılmasının zəruriliyi qeyd edildi və bu layihə 1968-ci ildə həyata keçirildi. Bu müqayisədə iştirak edən ölkələrin sayı 1968-1985-ci illərdə 10-dan-64-dək artdı. İlk vaxtlar Beynəlxalq Müqayisəlilik Proqramı (BMP) tədqiqaq xarakteri daşıyırdı. Bu lahiyəyə rəhbərlik BMT-nin statistika şö"bəsi və Pensilvaniya Universitetinin beynəlxalq müqayisə seksiyası tərəfindən həyata keçirildi.

1993-cü ildən sonra beynəlxalq müqayisələr dünya miqyasında aparılmağa başlandı. BSM müqayisələr həmin vaxtdan yalnız Avropa ölkələri üzrə aparıldı. 1993-ci ildən müqayisədə iştirak edən 86 ölkədən 24-ü, Avropa iqtisadi inkişaf və əməkdaşlıq təşkilatının üzvü, 23-ü Mərkəzi və Şərqi Avropa ölkələrinin, 23-ü Orta Asiya, 22-i Afrika, 17-si Şərqi Asiya və Okeaniya ölkələrinə aiddir.

§ 7.14 Aralıq istehlakı

ÜDM-un və ümumi buraxılışının hesablamasının dəqiqliyi həm də aralıq istehlakının düzgün hesablamasından asılıdır. BMT-nin tövsiyyə etdiyi sonuncu MHS-də aralıq istehlakı istehlak olunan əmtəənin (istehlak olunan əsas kapital istisna olmaqla) dəyəri ilə həmin dövrdə başqa əmtəə və xidmətlərin istehsalı prosesində istehlak olunan bazar xidmətlərinin dəyəri arasındakı fərq kimi müəyyən edilir. Bu isə o deməkdir ki, aralıq istehlakı cari ildə əmtəə və xidmətlər istehsalının ümumi buraxılışı ilə əlaqədar başqa əmtəə və xidmətlərin istehlakına, daha doğrusu, maddiləşmiş əmək məsrəflərini əks ətdirən göstəricidir.

Aralıq istehlakına aşağıdakı ünsürlər daxil edilir:

1. Maddi məsrəflər (məhsullar və maddi xidmətlər);
2. Qeyri - maddi xidmətlər;
3. E"zamiyyə xərcləri (yol pulu və mehmanxana xidmətinin ödənilməsi);
4. Aralıq istehlakının sair ünsürləri;

Maddi məsrəflər məhsul və xidmətlərin istehsalı üçün əmək çisimlərinin sərfindən ibarət olmaqla öz tərkibinə aşağıdakıları daxil edir:

1. Xammal və material;
2. Müəssisədə quraşdırılan yarımfabrikat və detallar;
3. Enerjiyə, istehsal binalarının qızdırılmasına, öz istehsalının nəqliyyat xidmətinə sərf edilən bütün növ yanacaq;
4. Xammalın e" malı üzrə başqa müəssisələrin yerinə yetirdiyi işlər və xidmətlər, tə"mir və istismar işləri, məhsul və xidmətləri istehsalı üzrə sair əməliyyatlar;
5. Özünün və muzdla tutulmuş nəqliyyatın yerinə yetirdiyi nəqliyyat xidmətləri;
6. Hesablama mərkəzlərinin və rabitə xidmətləri;
7. Qablaşdırıcı materialların xalis dəyəri;
8. Buraxılış və aralıq istehlakı zamanı yaranan işlərə düzəliş; lazımı alət və geyimlər üçün fəhlələrin çəkdiyi məsrəflərin ödənilməsi;
9. Öz müəssisəsinin başqa idarəsində istehsalatda istifadə olunmaq üçün göndərilən əmtəə və xidmətlər.
10. Müştərilərə xidmət etmək üçün mehmanxanaların, restoranların və kafelərin aldıqları məhsullar və ya başqa mə"mulatlar, habelə xəstəxana və başqa tibbi idarələrin öz xəstələri üçün satın aldığı ərzaq məhsulları və tibbi ləvazimatı;
11. Ev təsərrüfatlarının öz təsərrüfat fəaliyyəti üçün satın aldığı alətlər, iş paltarı, inşaat materialları, toxum və yemin dəyəri;
12. Öz mənzillərini cari tə"mir etmək üçün sahibkarların məsrəfləri;
13. Hərbi təşkilatların silahlanması və hərbi vasitələrin lazımi yerə çatdırılması xərcləri;
14. Ordu üçün qida məhsulları və geyim;

Qeyri-maddi xidmətlərə daxildir:

1. Əmtəələrin keyfiyyətinin yoxlanılmasının ödənilməsi;
2. Elmi-tədqiqat və eksperimental işlərin ödənilməsi;
3. Maliyyə vasitəçiliyi və sığorta xidmətləri üçün ödənişlər;
4. Öz işçilərinin peşə hazırlığını həyata keçirən təhsil müəssisələrinə ödənişlər (istehsal xərclərinə daxil olanlar);
5. Öz işçilərinin dispanserləşdirilməsi və s. xidmətlər üçün tibb idarələrinə ödənişlər;
6. Bina, qurğu, maşın və başqa avadınlıqların icarəsi üçün ödənişlər;
7. Kommunal xidmətləri, tullantıların yığılması və utilləşdirilməsi

üçün ödənişlər;

8. Hüquqi xidmətlər, reklam və başqa xidmətlər üçün ödənişlər;

9. Əmtəələrin lisenziyalaşdırılmasına və sertifikasiya edilməsinə ödənişlər;

10. Yanğına qarşı və keşişçilik xidməti üçün ödənişlər;

Aşağıdakılar aralıq istehlakına daxil edilmir:

1. Bina və qurğuların tikintisinə və əsaslı tə"mirinə kapital xarakterli məsrəflər;

2. Mənzilin cari tə"miri xərcləri;

3. Natural formada sosial pensiyalar və torpaqdan istifadəyə görə icarə haqqı;

4. İşçilərə və onların ailə üzvlərinə göstərilən sosial-mədəni və istehsalla əlaqədar olmayan sair xidmətlərin dəyəri;

Bütün bunlarla yanaşı BMT-nin tövsiyyə etdiyi yeni (1993-cü il) MHS aralıq istehlakının hesablanması metodikasında müəyyən dəyişikliklər də etdi. Belə dəyişikliklərin realizasiyası gələcəyin işi olsa da, bu sahədə statistika metodlarının inkişafında geniş perspektivlər açır.

Aralıq istehlakının hesablanmasının əsasını maddi məsrəflərin müəyyən edilməsi təşkil edir. Beynəlxalq statistikada və Azərbaycan Respublikasının DSK-də maddi məsrəflərin müəyyən edilməsi sahəsində müəyyən təcrübə toplanmışdır. MHS-də istifadə olunan aralıq istehlakı ilə XTB-dakı maddi istehsal məsrəfləri arasında aşağıdakı fərqlər vardır:

1. Maddi məsrəflər yalnız maddi istehsal sahələri üzrə hesablandığı halda aralıq istehlakı qeyri istehsal xidmətləri göstərən sahələri də daxil etməklə iqtisadiyyatın bütün sahələri və sektorları üzrə müəyyən edilir.

2. Maddi məsrəflər amortizasiya ayırmalarını öz tərkibinə daxil etdiyi halda aralıq istehlakı amortizasiyasını əhatə etmir (ÜMD-a daxil olduğuna görə).

Beləliklə, aralıq istehlakı cari ildə ölkə ərazisində başqa məhsul və xidmətləri istehsal etmək üçün istehlak olunan ne"mətlərin (əsas fondların istehlakından başqa) və bazar xidmətlərinin dəyərlərinin cəmidir.

MDB ölkələrinin statistika idarəsinin tə"limatına əsasən aralı istehlakına aşağıdakı ne"mət və xidmətlər daxil edilir:

1. Məhsul istehsal etmək üçün alınan və istehlak olunmuş maddi ne"mətlərin (istehsal vahidlərinin ambarlarında olan eyni növ məhsulların əlavə artımını çıxmaqla) dəyəri;

2. Əsas fondların, torpaqın və qeyri maddi aktivlərlə əlaqədar xidmətlərdən (hüquqi, marketinq, reklam və s. xidmətlər) hesabat dövründə satın alınmış xidmətlər;

3. İqtisadi vahidlər tərəfindən alınan və istifadə olunan ne"mət və xidmətlər (ümumi buraxılışa aid edildiyi halda). Məsələn, kənd təsərrüfatı müəssisələri, fermer və əhalinin köməkçi təsərrüfatların tərəfindən alınan və öz istehlak ehtiyatlarına sərf edilən toxum, yem və s. belələrinə aiddir;

4. Maliyyə vasitəçilərinin fəaliyyətini əks etdirən xidmətlər. Bu vasitəçilər maliyyə resurslarının toplanması, bölüşdürülməsi və yenidən bölüşdürülməsi funksiyasını yerinə yetirirlər. Maliyyə vasitəçilərinin xidmətləri onların aldıqları faizlərlə kreditorlara verdikləri faizlərin fərqi kimi müəyyən edilir.

MHS-də ümumi buraxılışın və aralıq istehlakının müəyyən edilməsinə dair tə'limata uyğun olaraq maddi məsrəflərə aşağıdakı ünsürlər daxil edilir:

1. Xammal, əsas və köməkçi materiallar, komplektləşdirici mə"mulatlar, öz istehsalından olan və müəssisədə istehlak olunan yarımfabrikatlar və mə"mulatlar;

2. Əsas fondların saxlanılması, istismarı və cari tə"miri üçün istifadə olunan ehtiyat hissələri və materiallar; alət, qurğu, nəzarət-ölçü cihazları və başqa tezköhnələn, az qiymətli əşyaların köhnəlməsi dəyəri;

3. İş paltarı və ayaqqabı, zərərli istehsal sahələrində işləyən işçilər üçün xüsusi qida məhsullarının alınmasına çəkilən xərclər;

4. İstehsal və qeyri-istehsal ehtiyaclarına istifadə olunan yanacaq və enerjinin dəyəri, müəssisədə bütün növ enerji istehsalına və onun başqa yerə verilməsinə çəkilən xərclər;

5. Başqa müəssisə və ya özünün köməkçi bölmələri tərəfindən bu müəssisə üçün yerinə yetirilmiş işlər və xidmətlərin dəyəri;

6. Rabitə, informasiya-hesablama xidmətləri və kənar təşkilatların yerinə yetirdiyi nəqliyyat xidmətlərinin, habelə öz nəqliyyatının saxlanılması xərcləri;

7. Tara və qablaşdırma materiallarının əldə edilməsinə çəkilən xərclər (onların satışından alınan gəlirləri çıxmaqla);

8. Hazır məhsulun və istehsal ehtiyatlarının itgiləri;

9. İşçilərin öz hesablarına əldə etdikləri xüsusi geyim, ayaqqabı, alət və sairəyə məsrəflərin ödənilməsi;

10. İctimai iaşə müəssisələrinin aldıqları hazır qida məhsulları, içki və tütün mə"mulatlarının dəyərinin ödənilməsi ;

11. Tibbi, maarif idarələrinin və xeyriyyə təşkilatlarının aldıqları qida məhsulları və dərmanlara çəkilən xərclər;

12. Ev təsərrüfatlarının öz təsərrüfat fəaliyyətləri üçün təsərrüfat inventarlarının, toxumun, yemin, gübrənin, zəhərli maddələrin alınması xərcləri;

13. Satın alınmış tikinti materiallarının dəyərini də daxil etməklə sahibkarların öz mənzillərinin cari
tə"mirinə çəkdikləri xərclər;

14. Hərbi xidmətçilərin qidalanması və geyindirilməsinə çəkilən xərclər;

15. Ordunun hərbi sursatına və onların daşınma vasitələrinə (avtomobil, təyyarə, gəmi və s.) çəkilən xərclər.

Bunlardan əlavə müəssisələrin tə"minatlı tə"mir və xidmətlərə, elmi-tədqiqat bölmələrinin saxlanılmasına, məhsul satışı ilə əlaqədar, reklama, marketinq tədqiqatına və s. çəkdiyi xərclər də maddi məsrəflərə aid edilir. Müəssisə hesabına işçilərin iş yerinə və işdən geriyə daşınması, nümayəndəlik xərcləri də qismən maddi məsrəflərə aid edilir. Aralıq istehlakının tərkibinə maddi məsrəflərdən əlavə iqtisadi vahidlər tərəfindən istehlak olunmuş aşağıdakı qeyri-maddi xidmətlər də daxil edilir.

1. Hüquq və arbitraj xidməti, istehsal əsas fondlarının icarə haqqı, maliyyə və maliyyə vasitəçiliyi xidmətləri;
2. İşçilərin hazırlanması və öyrədilməsi üçün tədris müəssisələrinə ödənişlər;
3. Müəssisələrin istehsal əmlakının sığortalanması xərcləri;
4. Başqa təşkilatlarının yerinə yetirdiyi reklam, marketinq, səhiyyə və elmi xidmətlərin ödənilməsi;
5. Elmi-tədqiqat işlərinin, məhsulun keyfiyyətinin yoxlanılması, keşikçi və yanğından mühafizə xidmətlərinin ödərilməsi.

Bunlardan əlavə içilərin iş şəraitinin (müəssisə hesabına fəaliyyət göstərən hamam, camaşırxana, tibb idarələri, kitabxana, klub, idman qurğuları və s.) yaxşılaşdırılmasına çəkilən xərclər də aralıq istehlakına daxil edilir. Lakin, müəssisələrin sərbəst bölmələrinin (sanitariya, profilaktika, istirahət evləri, stadion və s.). Sosial-mədəni xidmətləri bu müəssisələrin aralıq istehlakına daxil edilmir (onların ümumi buraxılışı ev təsərrüfatına xidmət edən qeyri kommersiya sektoruna aid olduğu üçün).

Müqaviləyə əsasən müəssisənin öz hesabına kənar təşkilatların işçiləri tərəfindən yerinə yetirilən işlərdə çalışan işçilərə edilən xidmətlər də aralıq istehlakına daxil edilir.

Kapital xarakterli bütün məsrəflər (əsas fondların tikintisi və əsaslı tə"miri və amortizasiyası, dövlət hesabına yerinə yetirilən geoloji kəşfiyyat və qazma işləri, torpağın irriqasiyası, meliorasiyası və s.) aralıq istehlakına daxil edilmir.

Torpağın icariyə götürülməsi haqqı, qiymətli kağızların və mülkiyyətə hüquq kağızlarının əldə edilməsi, müəssisələrin öz işçilərinə göstərdiyi pulsuz xidmətlər və natura ilə sosial transfertlər

də aralıq istehlakına daxil edilmir.

Aralıq istehlakının ümumi həcmini müəyyən edərkən nəzərə almaq lazımdır ki, onun tərkibinə təbii xammalın istifadəsi və ətraf mühitin qurulması ilə əlaqədar vergilər (torpaq və təbii ehtiyatlar üçün vergilər, meşə resursları üçün ödənişlər, çirkləndirici tullantıları yaradanlardan alınan ödənişlər və s.) və yol fondunun yaradılması ilə əlaqədar vergilər (nəqliyyat sahiblərindən alınan vergilər, yol rüsumları və s.) habelə maddi məsrəflər (amortizasiya) daxil edilir. Alınmış ədədin üzərinə rabitə, informasiya-hesablama mərkəzlərinin sığorta, maliyyə vasitəçiləri və s. qeyri-maddi xidmətlərin dəyərini əlavə etməklə aralıq istehlakının ümumi həcmini müəyyən etmək olar. İqtisadiyyatın müxtəlif sahələrində aralıq istehlakının hesablanmasının öz xüsusiyyətləri vardır. İstehsalın və texnoloji proseslərin təşkilat quruluşundan asılı olan belə özünəməxsusluğu bə"zi sahələrin misalında nəzərdən keçirməyi vacib hesab edirik. Sənayedə hesablamalar aşağıdakı üç müəssisələr qrupu üzrə aparılır:

1.İstehsal və onunla əlaqədar məsrəflərə dair hesabat verən müəssisələr üzrə. Belə halda tərtib edilən hesabatlar aralıq istehlakını müəyyən etmək üçün lazım olan bütün göstəriciləri əhatə edir.

2.Məsrəflərin uçotunu aparmayan əlaltı sənaye müəssisələri üzrə. Bu qrup müssələr üzrə aralıq istehlakını hesablamaq üçün ümumi buraxılışı birinci qrup müəssisələrin aralıq istehlakının xüsusi çəkisinə vurmaq lazımdır.

3.Ev təsərüffatlarının sənaye fəaliyyəti üzrə aralıq istehlakını hesablamaq üçün onların ümumi buraxılışını aralıq istehlakının tərkibində ümumi buraxılışın xüsusi çəkisinə vurmaq lazımdır.Belə halda tərtib olunan xüsusi çəki göstəricisi xüsusi müşahidə yolu ilə müəyyən edilir.

Kənd təsərüffatında aralıq istehlakına aşağıdakı məsrəflər daxil edilir:

1.Toxum və səpin materialları;
2.Yem;
3.Gübrə və kimyavi zəhərlər;
4.Neft məhsulları,yanacaq və bütün növ enerjilər;
5.Əsas fondların əsaslı tə"miri üçün ehtiyat hissələri və tikinti materialları;
6.Kənar təşkilatlar və öz yarım-bölmələri tərəfindən yerinə yetirilən xidmət və işlərin (nəqliyyat və rabitə xidməti, zootexniki və baytar xidməti və s.) ödənilməsi;
7.Torpağın yaxşılaşdırılması, melioriyasiyası, kimyalaşdırılması və s.;
8.Mal-qaranın ölməsi, daşınma və saxlanma zamanı kənd təsərrüfatı

məhsullarının itkisi;

9.Normal əmək şəraiti yaratmaq üçün çəkilən xərclər və istehsalın xeyri üçün çəkilən xərclər.

Tikintidə aralıq istehlakına aşağıdakıların cəmi daxildir:

1.Tikinti materialları, konstruksiya və detalların dəyəri;

2.Yanacaq, buxar və bütün növ enerjinin dəyəri;

3.Əsas fondların istismarına və tərkibinə sərf edilən materialların dəyəri;

4.Tikinti maşınları və avadanlıqların icarəsi haqqı;

5.Az qiymətli inventar və alətlərin dəyəri.

Tikinti aparan və tikinti-quraşdırma işlərinə çəkilən məsrəflərə dair hesabat tərtib edən müəssisələr üzrə aralıq istehlakı bu hesabata əsasən müəyyən edilir. Bu mə"lumatlara əsasən tikinti-quraşdırma işlərinin dəyərinin tərkibində aralıq istehlakının xüsusi çəkisi göstəriciləri apardıqları tikinti-quraşdırma işlərinə çəkilən məsrəflərə dair hesabat verməyən təşkilatlara da aid edilir. Layihə-axtarış və qazma işləri, sair əsaslı işlər və məsrəflər üzrə, habelə bina və qurğuların əsaslı və cari tə"miri üzrə də aralıq istehlakı bu qayda ilə hesablanır. Əhalinin fərdi tikintisi üzrə aralıq istehlakı ya təşkil olunmuş mənzil tikintisində aralıq istehlakının ümumi buraxılışında xüsusi çəkisinə görə, ya da xüsusi müşahidəyə əsasən ekspert yolu ilə müəyyən edilməlidir.

Nəqliyyatda aralıq istehlakı onun ayrı-ayrı növləri üzrə (dəmir yolu, su yolu, hava yolu və sair) müəyyən edilir və sərf edilən maddi məsrəflərdən (yanacaq, elektrik enerjisi və s.) və qeyri-maddi xidmətlərdən (sığorta təşkilatlarının, hüquqi və marketinq xidməti, hesablama mərkəzlərinin xidməti və s.) ibarət olur.

Pulsuz xidmətlər göstərən büdcə təşkilatlarının aralıq istehlakı müvafiq büdcələrin yerinə yetirilməsinə dair hesabatlara əsasən hesablanır. Buraya aşağıdakı maddələr aiddir: poçta-teleqraf, dəftərxana və təsərrüfat məsrəfləri, avadanlıq, alətlərin, dərman ləvazimatının, sarğı materiallarının, geyimin və s. əldə edilməsi xərcləri.

Aralıq istehlakının ayrı-ayrı komponentlərini müəyyənləşdirərkən qiymətlərin dəyişməsi ilə əlaqədar olaraq müəyyən çətinliklər qarşıya çıxır. Bu ilk növbədə ehtiyata qoyulmuş əmtəələrə aid edilir. Əmtəələr ehtiyata bir qiymətlə, oradan istehsalata isə başqa qiymətlə daxil ola bilər. Belə vəziyyət müntəzəm olaraq ehtiyatların fasiləsiz inventarizasiya yolu ilə yenidən qiymətləndirilməsini tələb edir. Belə halda aralıq istehlakının bütün ünsürləri onların istehsalatda istehlak olunduqları anda qüvvədə olan amil qiymətləri ilə qiymətləndirilir.

§7.15.MHS göstəricilərinin qiymətləndirilməsi

BMT-nin tövsiyyə etdiyi MHS-də istehsal olunan əmtəələr və xidmətlər

bazis və istehsalçıların qiymətləri ilə qiymətləndirilir. Bazis qiymətləri məhsulların satışı və ya istifadəsi nəticəsində ödənilməli olan vergilər və ya alınmalı olan **subsidiləri** çıxmaqla məhsul kimi istehsal edilmiş əmtəə və ya xidmətlərin hər vahidi üçün istehsalçının aldığı qiymətdir.


İstehsalçıların qiyməti əlavə edilən dəyərə vergiləri çıxmaqla məhsulların satışı və ya istifadəsi nəticəsində ödənilməli olan vergiləri və alınmalı olan **subsidiləri daxil etməklə** məhsul kimi istehsal edilmiş əmtəə və ya xidmətlərin hər vahidi üçün istehsalçının aldığı qiymətdir. Əmtəələrin istehlakçılara çatdırılması üçün istehsalçı tərəfindən hesab-faktura yazılmış məbləğ də buraya daxil edilir.

Satılmış məhsula əlavə edilmiş dəyər vergisi və buna bənzər çıxılmalı olan vergilər bu qiymətlərin heç birinə daxil edilmir. Bazis qiymətləri faktiki qiymətlərdir. Qiymət indekslərini adətən bu qiymətlərə əsasən hesablayırlar.

Alıcının qiyməti bu qiymətlərdən fərqlənir. Alıcının qiyməti əmtəə və xidmətlərin istənilən vaxtda və istənilən yerdə alıcılara çatdırılması üçün əlavə dəyər vergisini və buna bənzər çıxılmalı olan vergiləri çıxmaqla alıcı tərəfindən ödənilən qiymətdir. Bu qiymət əmtəələri və xidmətləri alıcıya istədiyi yerdə və istədiyi vaxtda təqdim etmək üçün bütün nəqliyyat xərclərini öz tərkibinə daxil edir.

MHS-də istifadə olunan qiymətlərin ünsürlər üzrə tərkibinin qarşılıqlı əlaqəsi və fərqlərinin formalaşması prosesini sxematik şəkildə aşağıdakı kimi göstərmək olar:


ÜDM-un istehsalı və istifadəsi cari bazar qiymətləri ilə qiymətləndirilir. Bə"zi ölkələrin (məs, Rusiyada) təcrübəsində ÜDM amil (faktor) qiymətlərində də hesablanır. Amil qiymətləri öz tərkibinə yalnız istehsal xərclərini (daha doğrusu, əsas kapitalın istehlakını, əmək haqqını və mənfəəti) daxil edir. Bazar qiymətlərinə bundan əlavə həm də xalis və dolayı verkilər daxil olur.



Sxem 6. MHS-də qiymətlərinin formalaşması

Beynəlxalq MHS-də müxtəlif qiymətlərlə əlavə edilmiş dəyərin əsas komponentləri üzrə tərkibinin formalaşdırılmasını sxematik şəkildə aşağıdakı kimi köstərmək olar:

Əməyin ödənilməsi + mənfəət	Amil qiyməti üzrə əlavə dəyər + istehsala vergilər - istehsala subsidilər	Əsas qiymətlərlə əlavə edilmiş dəyər + məhsula vergilər-məhsula subsidilər	İstehsalçının qiyməti ilə əlavə edilmiş dəyər



Sxem 7. ÜDM-un qiymətləndirilməsinin növləri

1993-cü ildə BMT MHS-də ÜDM-un hesablanması zamanı əmtəə və xidmətlər axınının ayrı-ayrı ünsürlərinin, habelə əmtəə və xidmətlərini ümumi buraxılışının qiymətləndirilməsini üsulları dəqiqləşdirildi.

Bu göstəricinin ənənəvi istehsalçının qiymətləri ilə qiymətləndirilməsi ilə yanaşı, həm də onu əsas qiymətlərlə qiymətləndirilməsi tövsiyyə olundu. Xatırladaq ki, istehsalçının qiymətlərindən fərqli olaraq əsas qiymətlər məhsula subsidiləri öz tərkibinə daxil edir və məhsula vergiləri isə daxil etmir. Yeni MHS-nin müəlliflərinin fikrincə ümumi buraxılışın və əlavə edilmiş dəyərin əsas qiymətlərlə qiymətləndirilməsi bir sıra üstünlüklərə malikdir. Elə buna görə də 1993-cü ildə tətbiq olunan MHS-də sahələrin məhsulunu əsas qiymətlərlə, bu mümkün olmadıqda isə istehsalçının qiymətləri ilə qiymətləndirmək tövsiyyə olundu. Nəzərə almaq lazımdır ki, yuxarıda göstərilən axının əsas qiymətlə qiymətləndirilməsinin nəticəsi olaraq bütün sahələrin ümumi əlavə edilmiş dəyərin məbləği son

istehlakçının qiyməti ilə ÜDM-a bərabər olmur.

Bu əlaqəni aşağıdakı kimi göstərmək olar:

$$YДM = \sum YƏEД + \sum H_j - \sum C_j$$

Burada :

ÜƏED - istehlakçının qiymətiylə ümumi əlavə edilmiş dəyəri;

N - məhsula vergiləri ;

S - məhsula subsidiləri göstərir;

ÜDM istehsalçıların qiyməti ilə qiymətləndirilərsə, yuxarıdakı bərabərlik aşağıdakı şəkili alar:

$$YДM = \sum YƏEД_j + \sum ƏДB_j + \sum H_j - \sum C_j$$

Burada $\sum ƏДB$ - istehsalçının qiymətiylə əlavə dəyər vergisini göstərir

Əmtəə forması olmayan, lakin satış üçün nəzərdə tutulan məhsullar eyni növ məhsulun bazar qiymətləri ilə, bazar qiymətləri olmadıqda isə maya dəyəri ilə qiymətləndirilir.

Əsas qiymətlərlə ümumi buraxılışla alıcıların qiyməti ilə aralıq istehlakı arasındakı fərq əsas qymətlərlə əlavə edilən dəyəri verir.

Qeyri-bazar xidmətləri onların istehsalına çəkilən faktiki xərclər həcmində qiymətləndirilir.

Sahələrin ümumi buraxılışının tərkibində aralıq istehlakı alıcının qiyməti ilə qiymətləndirilir.

İstehsal olunan ümumi buraxılış və onun istifadəsi göstəriciləri müqayisəli (əvvəlki ilin) qiymətlərlə də yenidən qiymətləndirilir.

Yüksək inflyasiya və ilkin informasiyanın az olduğu şəraitdə ÜDM-un yenidən qiymətləndirilməsi bir başa defilyasiya (sahələrin əlavə edilmiş dəyərini hər sahədə buraxılan məhsulun qiymət indekslərindən istifadə etməklə) metodu ilə və ya sahənin əlavə edilmiş dəyərinin əsas dövr səviyyəsinin fiziki həcm indeksi ilə və ya bu sahədə istehsalın inkişafını adekvat əks etdirən indikatorla ekstropolyasiya etmək üsulu ilə həyata keçirilir. Belə intikator kimi ya bu sahədə məşğul olan işçilərin sayı, ya da bu sahəni səciyyələndirən hər hansı natural göstərici (məs, təhsil sahəsində əlavə edilən dəyəri yenidən qiymətləndirərkən məktəblərdə təhsil alan şagirdlərin sayı) tətbiq oluna bilər.

ÜDM-un istifadəsini müqayisəli qiymətlərlə yenidən qiymətləndirmək üçün aşağıdakılardan istifadə olunur:

1. Ev təsərrüfatının son istehsalına məsrəfləri qiymətləndirmək üçün istehlak qiymətləri indeksindən
2. Dövlət idarələri və ev təsərrüfatına xidmət edən qeyri-

komersiya təşkilatları üçün natural indikatorlar və sahələrdə məşqul olanların sayından.

3. Əsas kapitalın yığımı üçün-kapital qoyuluşları indeksindən.

4. Maddi dövriyyə vəsaitləri qalığının dəyişməsini ölçmək üçün sənayedə və kənd təsərrüfatında qiymət indeksləri;

5. İdxal və ixrac üçün manatın dönərlilik kursunu nəzərə almaqla idxal və ixrac məhsullarının qiymət indekslərindən.

§7.16.Makroiqtisadi göstəricilərin sabit qiymətlərlə hesablanması və defilyator-indekslərin qurulması metodları

İqtisadi yüksəlişi ölçərkən və informasiya prosesini səciyyələşdirərkən, habelə konyunkturanın və makroiqtisadi proseslərin proqnozlaşdırılmasını həyata keçirmək üçün cari qiymətlərlə hesablanmış göstəricilərin bir çoxunu bazis (sabit) qiymətlərlə də qiymətləndirmək lazımdır. Bu yolla yüksək inflyasiya şəraitində iqtisadi proseslərin dəyişməsinə ciddi tə"sir göstərə bilən qiymət dəyişikliklərinin tə"siri aradan qaldırılır. Makroiqtisadi statistikada ÜDM-un və onun komponentlərinin sabit (dəyişməz) qiymətlərə çevrilməsinə xüsusi əhəmiyyət verilir .

Qiymətlərin və fiziki həcmin dəyişməsi inflyasiyanı və iqtisadi yüksəlişi səciyyələndirən qarşılıqlı əlaqəli göstəricilər kompleksində nəzərdən keçirilir.

Yeni MHS-də belə ehtimal edilir ki, bir çox əmtəə və xidmətlərin axını, habelə aktivlərin (ehtiyatların) dəyər ifadəsiylə göstəricilərinin dəyişməsini (cari qiymətlərlə) aşağıdakı iki tərkib hissəsinə ayırmaq olar:

1. Nəzərdən keçirilən əmtəə və xidmətlər axınının və ya aktiv növlərinin qiymətlərinin dəyişməsi;

2. Göstərilən əmtəə, xidmət və aktivlərin fiziki həçminin dəyişməsi;

Lakin elə dəyər göstəriciləri də var ki, (məs, humanitar yardım tipli dəyər formasında olan transfertlər) onları sabit qiymətlərlə ifadə etmək mümkün deyildir. Bununla yanaşı belə yardımın həcminin dəyişməsini izləmək üçün qiymət indekslərinin köməkliyi ilə onların dəyərini defilyasiya etmək mümkündür. Belə defilyator-qiymət indeksləri əmtəə və xidmətlərin seçilmiş xüsusi "Səbət"inin alıcılıq qabiliyyətini əks etdirirlər. Belə "səbətlər" etalon (standart) kimi nəzərdən keçirilir. Qiymət və fiziki həcm indekslərinin hesablanması sahəsindəki dünya təcrübəsini ümumiləşdirən beynəlxalq tövsiyələr makroiqtisadi hesablamalar kontekstində qiymət indekslərini formalaşdıran zaman etalonu seçərkən nəzərdən keçirilən kateqoriyanın məzmunu ilə yanaşı həm də əməliyyatı aparan tə'sisat vahidlərinin

xüsusiyyətlərini də nəzərə almağı vacib hesab edir.

Beynəlxalq təcrübə ÜDM aid olan əmtəə, xidmət və aktivlərin bütün axınını əhatə edən qiymət və fiziki həçm göstəricilərinin inteqrasiyasını praktiki çəhətdən mümkünlüyünü inkar etmir. Bu sahədə müəyyən kordinasiyanın mümkünlüyü formalaşan ÜDM-un dəyər göstəricilərinin ikiqat defilyatorlaşdırılması üsulunun xüsusiyyətlərindən irəli gəlir. İkiqat defilyatorlaşdırma üsulu zamanı nəzərdən keçirilən hər hansı köstəricini sabit qiymətlərlə qiymətləndirmək üçün əvvəlcə onun ilkin (başlanğıc) göstəriciləri sabit qiymətlərlə qiymətləndirilir. Sonradan isə onun tərkib hissəsi olan aralıq göstəriçiləri və habelə sərbəst defilyatorlarla sabit qiymətlərə çevrilmiş göstəricilər ondan çıxılır.

İstehsal mərhələsində bu metoddan ümumi əlavə edilmiş dəyəri sabit qiymətlərlə müəyyən edərkən istifadə olunur. Belə halda daimi qiymətlə ümumi buraxılışın dəyərindən aralıq istehlakının dəyəri çıxılır. ÜDM-un bu yolla hesablanmış göstəricisi yenidən qiymətləndirməni (müqayisəli qiymətlərlə) daha dəqiq əks etdirir. Lakin maddi nemətlərin və xidmətlərin istehsalına və habelə onların qiymətlərinə dair e"tibarlı və müfəssəl mə"lumatların azlığı bu üsulun praktiki tətbiqini çətinləşdirir.

ÜDM-u sabit qiymətlərlə hesablayarkən istehsal və son istifadə üsullarından istifadə olunur. İstehsal üsulu ilə qiymətləndirmənin əsasında iqtisadiyyatın bütün sahələri üzrə əlavə edilmiş dəyərin sabit qiymətlərə çevrilməsi durur. İkinci üsulu tətbiq edərkən ÜDM-in son istifadəsinin bütün komponentlərinin sabit qiymətlərlə dəyərlərinin cəmi götürülür. Bu yolla hesablanmış fiziki həcm indekslərinin müqayisə edilən bazasını dövrü olaraq dəyişməklə silsiləvi (zəncirvari) indeksləri müəyyən etmək olar. Müvafiq silsiləvi indeksləri biri-birinə vurmaqla bazis indeklərini müəyyən etmək mümkündür.

İstehsal mərhələsində ÜDM-un sabit qiymətlərlə yenidən qiymətləndirilməsi aşağıdakı göstəricilərə əsasən aparılır:

1. İqtisadiyyat sahələrinin sabit qiymətlərdə hesablanmış əlavə edilmiş dəyəri;

2. Maliyyə vasitəçilərinin xidmətlərinin ödənilməsinin sabit qiymətlərdə hesablanmış şərti dəyəri;

3. İdxalata subsidiləri də daxil etməklə məhsullara sabit qiymətlərlə subsidilər;

4. Əlavə edilmiş dəyərə vergiləri və idxalata edilən vergiləri də daxil etməklə məhsullara qoyulan sabit qiymətlərlə bütün vergilər;

5. Sabit qiymətlərlə ÜDM = qrafa1 - qrafa2 + qrafa3 - qrafa4

ÜDM-un sabit qiymətlərlə hesablanmasının əsasını əlavə edilmiş dəyərin cari qiymətlərdən sabit qiymətlərə çevrilməsi təşkil edir.

İqtisadiyyatın ayrı-ayrı sahələrində əlavə edilmiş dəyəri sabit qiymətlərlə hesablamaq üçün cari qiymətlə istehsala və aralıq istehlakına dair, habelə qiymət indekslərinə dair e'tibarlı mə"lumatların olması vacibdir. Belə informasiya olmadıqda sabit qiymətlərlə əlavə edilmiş dəyəri hesablamaq üçün onun əsas dövrdəki səviyyəsini fiziki həcm indeksinin vasitəsilə ekstropolyasiya etmək lazımdır.

Məhsullara vergilər və subsidilərin sabit qiymətlərlə qiymətləndirilməsi ekstropolyasiya usulu ilə, daha doğrusu vergilərin əsas ildəki həcmini vergi qoyulan (subsidiləşdirilən) məhsulların fiziki həcminə vurmaq yolu ilə aparılır. Belə halda əgər hesabat dövründə əsas dövrdə olmayan yeni vergi növü (və ya subsidi) üzə çıxarsa, bazis qiymətləri ilə qiymətləndirmə zamanı nəzərə alınmır.

Maliyyə vasitəçilərinin xidmətlərinin şərti hesablanmış ödənişini sabit qiymətlərdə hesablayarkən hesabat dövründə ödənilmiş və alınmış faizlərin məbləğini bu məbləğlərin əsas dövrdəki məbləğinə nisbətini əks etdirən indeksə vurmaq lazımdır.

Sənaye üzrə əsas məhsul növlərinin cari qiymətlərlə istehsalına dair qiymətlər əmtəə qruplarına ayrılaraq müvafiq müəssisə topdan satış qiymətləri indeksinin köməkliyi ilə ayrılıqda daimi (sabit) qiymətlərə çevrilir (yenidən hesablanır). Əgər qiymət indeksləri kifayət qədər e'tibarlı deyilsə əsas dövrdə istehsal edilmiş cari qiymətlərlə məhsul istehsalına dair mə"lumatlar natural ifadədə əmtəə nümunələrinə əsasən hesablanmış fiziki həcm indekslərinin köməkliyi ilə ekstropolyasiya edilir. Ev təsərrüfatları tərəfindən istehsal edilmiş sənayeyə aid məhsulların (bitki yağı, şərab və s.) istehsalı birbaşa qiymətləndirmə üsulu ilə qiymətləndirilir. Ev təsərrüfatları tərəfindən istehsal edilən və tə"mir edilən paltar, ayaqqabı, ev əşyaları və bədii mə'mulatlar yünkül sənaye müəssisələrinin topdan satış qiymət indeksləri üzrə qiymətləndirilir.

Kənd təsarrüfatı müəssisələri , yaxud başqa təsərrüfat subyektləri tərəfindən istehsal edilmiş və satılmış bitkiçilik və heyvandarlıq məhsulları istehsalçıların əsas dövrdəki orta qiymətləri ilə birbaşa qiymətləndirilmə yolu ilə sabit qiymətlərə çevirilir. Alternativ variant kimi fiziki həcm indekslərinin köməkliyi ilə əsas dövrdə məhsul buraxılışına dair mə"lumatların ektropolyasiyası üsulundan da istifadə etmək olar.

Ev təsərrüfatlarının (fermerlər, köməkçi kənd təsərrüfatı və s.) öz şəxsi son istehlakı və aralıq istehlakı üçün istehsal etdikləri kənd təsərrüfatı məhsullarını sabit qiymətlərlə qiymətləndirmək uçun əsas dövrün realizasiya qiymətlərindən (bu şərti qiymətdir) istifadə edilir.

Tikintidə buraxılan məhsullar (fərdi tikintisiz) hesabat ilinin cari qiymətləri ilə işlərin həcminə dair mə"lumatları defilyasiya etmək

yolu ilə (daha doğrusu, cari qiymətlərlə dəyər köstəricisini tikinti - quraşdırma işlərinin qiymət indeksinə bölməklə) sabit qiymətlərə çevrilir.

Əhalinin öz kücü ilə yerinə yetirdiyi fərdi tikintinin həcmini sabit qiymətlərdə ifadə etmək üçün hesabat dövründə həmin buraxılışın cari qiymətlərlə məbləğini podrat təşkilatların əhaliyə tikdikləri tikintinin hər kv m. faydalı sahəsinin qiymət indeksinə bölmək lazımdır.

Natural formada məhsul istehsal edən başqa sahələrdə buraxılan məhsulun sabit qiymətlərlə qiymətləndirilməsi bir qayda olaraq əsas dövrə dair mə"lumatları ekstropolyasiya etməklə həyata keçirilir. Məsələn, bu məqsədlə meşə təsərrüfatında satılan və ya kəsilən meşə sahələri indeksi, balıqçılıq təsərrüfatında tutulan və yetişdirilən balığın kəmiyyətinə körə hesablanmış fiziki həcm indekslərindən istifadə olunur.

Nəqliyyatda buraxılışın sabit qiymətlərdə yenidən qiymətləndirilməsi üçün sərnişinlərin və yüklərin daşınması, habelə köməkçi nəqliyyat fəliyyətindən alınmış gəlirləri cari qiymətlərlə həcminin tariflər indeksi ilə defilyasiyasından ya da ekstropolyasiya üsulundan istifadə edilə bilər.

Tədavül sferasından (ticarət, maddi - texniki təchizat, tədarükat) buraxılışı cari qiymətlərdən sabit qiymətlərə çevirmək üçün əsas dövrdə realizə edilmiş ticarət əlavələrinə dair mə"lumatların mal dövriyyəsi və ya tədarükatın fiziki həcm indeksinin ekstropolyasiyası üsulundan istifadə olunur.

Bazar xidmətlərinin sahələri üzrə buraxılışın (satışdan alınan məbləğ) sabit qiymətlərdə yenidən qiymətləndirilməsi hesabat ilində buraxılışın cari qiymətlərlə həcmini müvafiq xidmətlər üzrə istehlak qiymətləri indeksi ilə defilyasiya etmək yolu ilə həyyata keçirilir.

Bu metoddan bazar üçün kommunal xidmətlər, məişət xidmətinin qeyri istehsal növləri, habelə səhiyyə, maddi tə'minat, idman, bədən tərbiyyəsi, təhsil, mədəniyyət, incəsənət və s. sahələrdə istifadə olunur .

Ümumdövlət idarəçiliyi və kommersiya idarələri tərəfindən həyata keçirilən qeyri bazar xidmətləri üzrə buraxılışı sabit qiymətlərlə müəyyən etmək üçün ona daxil olan ünsürlərin (aralıq istehlakı, muzdlu işçilərin əməyinin ödənilməsi, istehsala verkiləri və əsas kapitalın istehlakı) sabit qiymətlərlə yenidən qiymətləndirilməsi üsulundan istifadə olunur

Qeyri maddi xidmətləri sabit qiymətlərlə yenidən qiymətləndirmək üçün müvafiq qiymət indeksləri üzrə defilyatorlaşdırma metodundan istsfadə etmək tövsiyyə olunur.

Son istifadə mərhələsində ÜDM-un sabit qiymətlərdə yenidən

qiymətləndirilməsi aşağıdakı ünsürlərin cəmlən-məsi yolu ilə həyata keçirilir:

1. Son istehlak (ev təsərrüfatının, ümumdövlət idarəçiliyi və ev təsərrüfatına xidmət edən qeyri kommersiya təşkilatlarının son istehlakının məsrəfləri);
2. Ümumi yığım (əsas kapilın ümumi yığımı və maddi dövriyyə vəsaitlərinin ümumi yığımı);
3. Əmtəə və xidmətlərin ixracatı;
4. Əmtəə və xidmətlərin idxalatı;
5. Ümumi daxili məhsul.

Ev təsarrüfatının son istehlaka məsrəfliyinin sabit qiymətlərdə yenidən qiymətləndirilməsi aşağıdakı məsrəf növləri üzrə aparılır:

1. İstehlak malları və xidmətlərinin alınması üzrə;
2. Öz mənzilində yaşamasına xidmətlərin dəyəri ;
3. Ev təsərrüfatlarının öz şəxsi istehlakı üçün istifadə olunan istehlak malları və əmək ödənişi kimi müəssisədən alınmış əmtəələrin istehlakı;

Ev təsərrüfatlarının əldə etdikləri istehlak malları və xidmətlərinin sabit qiymətlərdə yenidən qiymələndirilməsi müvafiq əmtəə və xidmətlərin istehlak qiymətlərinə görə defilyasiya metodu ilə həyata keçirilir. Əmtəə və xidmət növləri üzrə mə"lumat olmadıqda ev təsərrüfatının aldığı bütün əmtəə və xidmətlərin yekun istehlak qiymətləri indekslərindən istifadə etmək lazımdır.

Öz evində (mənzilində) yaşamaq üzrə xidmətlərin dəyəri icarəyə mənzil verilməsi xidmətləri üzrə buraxılış kimi nəzərdən keçirilir. Bu xidmətlərin sabit qiymətlərdə yenidən qiymətləndirilməsinin praktiki mülahizələrə görə əsas dövrdə buraxılışa dair mə"lumatın xüsusi mənzil fondu sahəsinin dəyişməsi indeksinə əsasən aparılan defilyasiyadan istifadə edilir.

Ev təsərrüfatlarının öz istehlakı üçün istehsal etdikləri və əmək ödənişi kimi müəssisədən natura formasında alınmış əmtəə və xidmətlərin istehlakının sabit qiymətlərə çevrilməsi həmin məhsul və xidmətlərin bazis ilindəki orta satış qiymətləri ilə bir başa qiymətləndirilməsi ilə həyata keçirilir.

Ümumdövlət idarəçiliyinin son istehlaka məsrəflərinin daimi qiymətlərlə yenidən qiymətləndirilməsi həmin qiymətlərə çevrilmiş aşağıdakı ünsürlərin cəmlənməsi yolu ilə həyata keçirilir:

1. Ümumdövlət idarəçiliyi orqanlarının yerinə yetirdiyi fərdi və kollektiv qeyri bazar xidmətlərinin dəyəri;
2. Ev təsərrüfatlarına vermək üçün ümumdövlət idarəçiliyi tərəfindən satın alınmış əmtəə və xidmətlərin dəyəri;

3. Bu təşkilatların ev təsərrüfatlarına göstərdikləri qeyri-bazar xidmətlərinin dəyəri;
4. Ev təsərrüfatlarına vermək üçün qeyri-kommersiya təşkilatlarının satın aldıqları əmtəə və xidmətlərin dəyəri;
5. Müəssisənin ayrıca təsnifatlaşdırıla bilən sərbəst bölmələri (stadionlar, klublar, xəstəxanalar və s.) tərəfindən öz işçilərinə pulsuz və güzəştli qiymətlərlə göstərdikləri xidmətlərin dəyəri;

Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya idarələrinin qeyri-bazar xidmətlərinin dəyəri və öz işçilərinə pulsuz (və ya güzəştli qiymətlərlə) yerinə yetirdikləri sosial-mədəni xarakterli xidmətlərin dəyəri həm cari həm də sabit qiymətlərdə onların buraxılışına bərabər götürülür.

Yenidən qiymətləndirmənin əsas üsulu ümumi daxili məhsulun əsas tərkib hissəsinin qiymət indekslərinin köməkliyi ilə sabit qiymətlərlə yenidən hesablanması üsuludur:

$$\sum q_1 p_1 : \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

ÜDM-un ayrı - ayrı ünsürlərinin (məs, qeyri-bazar xidmətlərinin) sabit qiymətlərlə yenidən hesablanmasının alternativ üsulu onların əsas dövrdəki dəyərinin müvafiq xidmət növlərinin fiziki həcmi indeksinə bölünməsidir:

$$\sum q_0 p_0 : \frac{\sum p_0 q_1}{\sum p_0 q_0}$$

Eyni nəticəni təqribi yolla əldə etmək üçün əmtəə və xidmətlərin əsas dövrdəki dəyərini həmin sahədə məşğul olan işçilərin sayının (T) dəyişməsi indeksinə bölmək yolu ilə də müəyyən etmək olar:

$$\sum q_0 p_0 : \frac{\sum T_1}{\sum T_0}$$

Kapitalın ümumi yığımını sabit qiymətlərə çevirmək üçün onu təşkil edən ünsürlərin (əsas fondların əsaslı tə'mirinə çəkilən xərclər, geoloji kəşfiyyat işlərinə çəkilən məsrəflər və s) sabit qiymətlərə çevrilmiş dəyərlərini cəmləmək lazımdır.

Kapital qoyuluşlarının sabit qiymətlərlə yenidən qiymətləndirilməsi kapital qoyuluşlarının yekun indeksinə əsasən aparılır. Belə defilyator indekslər olmadıqda sənaye, kənd təsərrüfatı və tikintinin investisiya məhsulunun sabit qiymətlərindən istifadə olunur. İnvestisiya məhsulu dedikdə əsas kapitalın istehlakçılarında onun yığılan məhsulu başa düşülür.

Sənayenin investisiya məhsulu ölkədə istehsal edilən maşın və

avadanlıqlara, habelə idxal olunan maşın və avadanlıqlara bölünür.

Vətəndə istehsal olunan maşın və avadanlıqlar üzrə sənayenin investisiya məhsulu maşınqayırmada seçilmiş əmtəə təmsilçiliyi dəsti üzrə hesablanmış qiymət indekslərinə əsasən hesablanır. Xarici investisiya əmtəələrinin cari qiymətlərdən daimi qiymətlərə keçilməsi müvafiq əmtəə qrupları üzrə orta qiymət indekslərinə əsasən həyata keçirilir.

Tikintinin məhsulu kapital qoyuluşlarının tərkib hissəsi kimi sabit qiymətlərə tikilən bina və qurğuların ayrı-ayrı ünsürlərinə çəkilən xərclərin defilyatorlaşdırılması yolu ilə həyata keçirilir.

Kənd təsərrüfatında investisiya sənayesinin həcmi çoxillik əkinlərin salınması və becərilməsinə çəkilən xərclərə görə müəyyən edilir. Onları sabit qiymətlərə çevirmək üçün cari qiymətlərlə əsas dövrdəki mə"lumatları əsas dövrə nisbətən hesabat dövründə həmin çoxillik əkmələrin tutduğu sahənin dəyişməsini əks etdirən indeksə vurmaq lazımdır.

Əsas kapitalın ümumi yığımının ümumi kapital qoyuluşlarına daxil edilməyən başqa ünsürləri informasiya tə'minatından asılı olaraq hesablanır. Məsələn, mal-qara üzrə əsas kapitalın ümumi yığımı sabit qiymətlərlə yenidən qiymətləndirilirkən əsas sürünün bazis qiymətləri ilə ilin sonuna və əvvəlinə olan dəyərlərinin fərqi kimi (bir başa qiymətləndirmə üsulu) müəyyən edir.

Əsaslı tə'mirə məsrəfləri sabit qiymətlərdə yenidən qiymətləndirmək üçün tikinti - quraşdırma işləri indekslərindən və maşınqayırma məhsullarından seçilmiş əmtəə təmsilçiləri üzrə hesablanmış müəssisə topdansatış indekslərindən (defilyatorlaşdırma üsulu) istifadə olunur. Hesabat ilində icra edilmiş əsaslı tə'mirə çəkilən xərclər də (bina və qurğuların, maşın və avadanlıqların) müvafiq qaydada defilyasiya edilir.

İxracatı və idxalı sabit qiymətlərdə yenidən qiymətləndirmək üçün əvvəlcə xarici iqtisadi əlaqələr üzrə qəbul edilmiş əmtəə nomenklaturasına əsasən ixrac və idxal edilən əmtəələr müəyyən qruplara ayrılır.Sonradan isə bu qruplar üzrə orta qiymət indekslərinə əsasən defilyatorlaşdırma metodu tətbiq edilir.

ÜMD-un defilyator indeksləri inflyasiyanı ümumi şəkildə səciyyələndirmək üçün istifadə edilir. Müasir dövrdə inflyasiyanın inkişafını monetar və qeyri-monetar amillər müəyyən edir. Monetar amillər ölkənin pulkredit və maliyyə sisteminin pozulması (pul tədavülünün pozulması, büdcə defisiti) nəticəsində başa verir. Qeyri-monetar amillər inhisarçı qiymət təcrübəsi (bazarda bir neçə inhisarçı kompaniyanın qiymətləri diktə etməsi) ilə və ölkədə iqtisadiyyatın disproporsiyası (ayrı - ayrı sahələrin disbalansı) nəticəsində yaranır.

İnflyasiya tələbatın artması, istehsal xərclərinin yüksək olması, iqtisadiyyatın milletaristləşdirilməsi, bankların kredit ekspansiyası, xaricdən gətirilən əmtəələrin qiymətlərinin yüksək olması və s nəticəsində də baş verir. İnflyasiyanı ölçmək üçün bir qayda olaraq əlavə artım göstəricilərindən istifadə olunur. Lakin təcrübədə ölkə üzrə inflyasiyanı ölçmək üçün ÜDM-un defilyator indekslərindən yox, ÜDM-un defilyator indekslərinin tərkib hissəsi olan istehlak qiymətləri indekslərindən istifadə olunur. Hal-hazırda inflyasiyanın həcmini ölçmək üçün istifadə olunan istehlak qiymətləri indeksləri xüsusi nəşrlərdə və kütləvi informasiya vasitələrində müntəzəm olaraq nəşr edilir.

§7.17. Beynəlxalq statistikada tətbiq olunan Laspeyres, Paaşe və Fişerin "İdeal" indeksləri

Beynəlxalq statistika təcrübəsində və BMT-nin tövsiyyə etdiyi yeni MHS-də aqreqat göstəricilərin təhlili zamanı Laspeyres, Paaşe və Fişerin "İdeal" indekslərindən geniş istifadə olunur. Azərbaycan respublikasında uçot və statistika işlərinin beynəlxaq standartlara uyğun qurulması bu indekslərə bələd olmağı tələb edir.

Mə'lumdur ki, əmtəə və xidmətlər axınının həcminin vaxt etibarı ilə dəyişməsi iki komponentin (qiymətlərin və fiziki həcmin) dəyişməsi ilə bilavasitə əlaqədardır. Bir çox əmtəələrin qalığının dəyişməsini də eyni qayda ilə qiymətə və fiziki həcmə parçalamaq olar. Lakin beynəlxalq MHS-də (pul formasında olan transfertlər kimi) bir çox axınların öz qiymətləri və miqdar həcmləri olmur. Buna görə də onları tərkib hissələrinə bölmək mümkün olmur. Belə axınların dəyişməsini qiymət indekslərinin köməkliyi ilə defilyasiya metoduna əsasən ölçmək olar.

Bir məhsul və ya xidmət üçün dəyər (V) məhsul vahidinin qiymətinin (P) onların miqdarına (q) hasilinə bərabərdir.

$$V=pq$$

İndeksləri qurarkən başlanğıc götürülən dövr "o"-la, onunla müqayisə edilən dövr isə "t" ilə işarə olunur. Bu iki dövr ardıcıl və ya biri birindən aralı ola bilirlər. Konkret məhsulun t dövründəki qiymətinin və ya miqdarının bazis (o) qiymətinə və ya miqdarına nisbəti nisbi qiymət $\left(\frac{p_t}{p_0}\right)$ və ya nisbi miqdar $\left(\frac{q_t}{q_0}\right)$ kimi xarakterizə olunur. Nisbi qiymət və ya nisbi miqdar xalis göstəricilər olmaqla miqdarın uçota alındığı və qiymətlərin müəyyən edildiyi ölçü vahidindən asılı deyildir.

Laspeyresin və Paaşenin indeksləri nisbi qiymət və nisbi miqdar

indekslərindən hesablanmış çəkili orta kəmiyyət kimi müəyyən edilir. Belə hesablamalar zamanı çəki kimi həmin dövrlərdən birinin dəyəri götürülür. Deyilənlərə əsasən y dövründə i məhsulunun dəyəri $V_{ij} = p_{ij} \cdot q_{ij}$ olacaqdır.

Laspeyresin qiymət indeksi (L_p) bazis (0) dövründəki dəyəri (V_{i_0}) çəki kimi götürməklə nisbi qiymətlərdən $\left(\frac{P_{it}}{P_{i_0}}\right)$, yəni fərdi qiymət indkkslərindən hesablanmış çəkili hesabi orta kəmiyyətə bərabərdir:

$$L_p = \frac{\sum_i V_{i_0} \cdot \frac{P_{it}}{P_{i_0}}}{\sum_i V_{i_0}} \qquad (1)$$

Laspeyresin həcm indeksi (L_q), nisbi miqdardan $\left(\frac{P_{it}}{P_{i_0}}\right)$, yə"ni fərdi fiziki həcm indeksindən hesablanmış çəkili hesabi orta kəmiyyətdir.

$$L_p = \frac{\sum_i V_{i_0} \cdot \frac{q_{it}}{q_{i_0}}}{\sum_i V_{i_0}} \qquad (2)$$

Bu indekslərdə çəki kimi götürülən dövr "baza" dövrü kimi xarakterizə olunur. Adətən (lakin həmişə yox) o müqayissələrin aparıldığı başlanğıc dövrünə uyğun gəlir.

Bütün hallarda cəmlənmə eyni əmtəə və xidmətlər qrupuna aid olduğu üçün i simvolundan yan keçmək (nəzərə almamaq) olar .

$V_j = p_j q_j$ olduğu üçün 1 və 2 ifadələrində V_j -u əvəz etsək aşağıdakıları almaq olar:

$$L_p = \frac{\sum_j V_j \cdot \frac{P_{jt}}{P_{j_0}}}{\sum_j V_j} = \frac{\sum p_{j_0} q_{j_t} \cdot \frac{p_{jt}}{p_{j_0}}}{\sum p_{j_0} q_{j_t}} = \frac{\sum p_t q_0}{\sum p_0 q_0}$$

və

$$L_p = \frac{\sum_i V_{i_0} \cdot \frac{qi_{it}}{q_{i_0}}}{\sum_i V_{i_0}} = \frac{\sum p_{i_0} q_{i_t} \cdot \frac{q_{it}}{q_{i_0}}}{\sum p_{i_0} q_{i_0}} = \frac{\sum q_t p_0}{\sum q_0 p_0}$$

Göründüyü kimi, formaca müxtəlif olsalar da aralarında müəyyən oxşarlıq vardır.

Paaşenin qiymətlər (p_p) və həcm (p_q) indeksləri də Laspeyresin indekslərinə ekvivalent kimi müəyyən edilir Paaşe indekslərini qurarkən çəki kimi daha sonrakı dövrün (t) dəyəri götürülür, hesablamaları isə nisbi kəmiyyətlərdən hesablanmış harmonik orta kəmiyyəti düsturu ilə aparırlar

$$p_p = \frac{\sum V_t}{\sum V_t \cdot \frac{p_0}{p_t}} = \frac{\sum p_t q_t}{\sum p_t q_t \cdot \frac{p_0}{p_t}} = \frac{\sum p_t q_t}{\sum p_0 q_t}$$

və

$$p_q = \frac{\sum V_t}{\sum V_t \cdot \frac{q_0}{q_t}} = \frac{\sum p_t q_t}{\sum p_t q_t \cdot \frac{q_0}{q_t}} = \frac{\sum p_t q_t}{\sum p_t q_0} = \frac{\sum q_t p_0}{\sum q_0 p_0}$$

Paaşe indeksi vaxt sırası üçün hesablanarkən çəkilər bir dövrdən sonrakınadək dəyişə bilər. Paaşe indeksini "Geriyə baxan Laspeyres indeksi" kimi də xarakterizə etmək olar. Daha doğrusu, Paaşe indeksləri t dövrünü çəki kimi götürməklə bazis dövrü üçün hesablanmış "Laspeyres" indeksinə ekvivalent olan indekslərdir. Belə qarşılıqlı əlaqənin nəticəsi kimi, Laspeyres və Paaşe indeksləri arasında müəyyən simmetriya olduğunu görmək olar.

$$L_p \cdot P_q = \frac{\sum p_t q_0}{\sum p_0 q_0} \cdot \frac{\sum p_t q_t}{\sum p_t q_0} = \frac{\sum V_t}{\sum V_0}$$

və

$$L_t \cdot P_p = \frac{\sum p_0 q_t}{\sum p_0 q_0} \cdot \frac{\sum p_t q_t}{\sum p_0 q_t} = \frac{\sum V_t}{\sum V_0}$$

Əgər hər iki dövr üçün ümumi dəyərlər məlum olarsa bu qarşılıqlı əlaqədən istifadə etmək olar. $\sum V_t$ və $\sum V_0$ məlum olarsa dolayı yolla Laspeyres və Paaşe indekslərinin daha bir əlavə cütlüyünü müəyyən etmək olar:

$$Lq = \frac{\sum V_t : \sum V_0}{P_p} = \frac{\sum q_t p_t : \sum q_0 p_0}{\sum p_t q_t : \sum p_0 q_t} = \frac{\sum p_0 q_t}{\sum p_0 q_0}$$

və

$$P_q = \frac{\sum V_t : \sum V_0}{L_p} = \frac{\sum p_t q_t : \sum p_0 q_0}{\sum p_0 q_t : \sum p_0 q_0} = \frac{\sum p_t q_t}{\sum p_0 q_t}$$

Beləliklə, dolayı yolla Laspeyresin həcm indeksini hesablamaq üçün dəyərlər indeksini Paaşenin qiymət indeksinə bölmək lazımdır. Bu əməliyyat "qiymət defilyasiyası " adlanır.

Xatırladaq ki, statistikada defilyasiya dedikdə dəyər göstəricilərinin qiymətlərinin köməkliyi ilə müəyyən ilin (bazis) qiymətlərində yenidən hesablanma prosesi başa düşülür.

Qiymət indekslərinin bir başa hesablanması həcm indekslərinin hesablanmasına nisbətən asan olduğuna görə iqtisadi statistikada və MHS-də həcm göstəricilərini adətən dolayı yolla müəyyən edirlər.

Konkret dövr üçün Laspeyres indeksi Paaşe indeksinə nisbətən böyük olur.

$$L_p > P_p \quad \text{və} \quad L_q > P_q$$

Belə asılıq nisbi qiymətlərlə orta kəmiyyət arasında əks korrelyasiya əlaqəsi olduqda daha qabarıq nəzərə çarpır. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, nəzəri indeksə nisbətən Laspeyres indeksi ən yüksək həddi, Paaşe indeksi isə ən aşağı həddi əks etdirir. Hələ 1925-ci ildə sübut olunmuşdur ki, əksər yararlılıq funksiyasını həmcins kvadratik funksiya kimi təqdim etmək mümkün olarsa, Fişerin "İdeal indeksi" (F) əsas nəzəri indeksə bərabər oldu.

Fişerin "İdeal indeksi" Laspeyres və Paaşe indekslərinin hasillərinin kvadrat kökünə bərabərdir:

$$F_p = \left(L_p \cdot P_p\right)^{\frac{1}{2}} = \sqrt{\frac{\sum p_t q_0}{\sum p_0 q_0} \cdot \frac{\sum p_t q_t}{\sum p_0 q_t}}$$

$$F_q = \left(L_q \cdot P_q\right)^{\frac{1}{2}} = \sqrt{\frac{\sum p_0 q_t}{\sum p_0 q_0} \cdot \frac{\sum p_t q_t}{\sum p_0 q_t}}$$

Müxtəlif testlərə cavab verdiyinə görə Fişer bu indeksləri "İdeal" adlandırır.

Fişerin indeksləri bir sıra cəlbedici keyfiyyətlərə malik olduğuna görə iqtisadi statistikada geniş istifadə olunur. Lakin Fişerin "ideal" adlandırdığı indekslərin də bə'zi qüsurları vardır:

1.Fişerin indeksi tələb edir ki, ona lazım olan mə'lumatları əldə

etmək üçün Laspeyres və Paaşe indeksləri hesablanmalıdır. Belə hal indeksin hesablanması və nəşrini çətinləşdirir.

2. Konkret əmtəə və xidmətlər səbətinin dəyərinin dəyişməsini ölçərkən Laspeyres və Paaşe indekslərinə nisbətən Fişerin indeksi daha çətin dərk edilməlidir.

3.Fişerin indeksi tam sərbəst deyildir

Yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, Fişerin indeksi hesablanan indekslər arasında simmetrik orta qiyməti əks etdirir.

Belə simmetrik indekslərdən biri Torikvist (T) indeksidir.

$$T_p = \prod \left\{ \left(\frac{q_t}{q_0} \right)^{\frac{1}{2}(S_0 + S_t)} \right\}$$

Buraya S_0 və S_t ümumi dəyərin tərkibində hər bir məhsulun xüsusi çəkisini $(V : \sum V)$ göstərir.

Tornkvist indeksi çəkiləri hər iki dövrdəki dəyərlərin xüsusi çəkisindən (hissəsi) ibarət olan çəkili orta həndəsi kəmiyyətdir.

Tornkvist qiymət indeksi nisbi miqdarı $\left(q_t / q_0\right)$ nisbi qiymətlə əvəz etmək yolu ilə əldə edilir. Bu indeksdən adətən məhsuldarlığı ölçmək və fiziki həcmi öyrənmək məqsədiylə istifadə olunur. Beləliklə, Tornkvist indeksi Fişer indeksi kimi xüsusi hallarda dəqiq göstərici əldə etməyə imkan verir.

Fişerin "ideal" indeksində olduğu kimi, Tornkvistin indeksinin tərtibi zamanı çəkiləşdirməni aparmaq məqsədi ilə hər iki dövrün dəyər göstəricilərinə dair informasiyadan istifadə olunması tələb olunur. Tornkvist indeksi kəmiyyətcə Fişer indeksinə onların hər birinin Laspeyres və Paaşe indeksinə yaxınlıq dərəcəsindən daha yaxındır.

Nəzarət üçün suallar:

1. Beynəlxalq statistikada "Əmtəə" və "Xidmətlər" anlayışının mahiyyəti nədən ibarətdir?

2. MHS-də istehsal və xidmətlər öz əksini hansı hesablarda tapır?

3. Beynəlxalq statistikada istehsal sferası hansı sahələri əhatə edir?

4. Beynəlxalq statistika istehsal amillərinə nələr aiddir?

5. Bazar və qeyri-bazar məhsulları (xidmətləri) necə ölçülür?

6. Başa çatdırılmamış məhsullar nədir və onlar necə qiymətlən-dirilir?

7. ÜDM nədir və necə hesablanır?

8. Aralıq istehlakın mahiyyəti nədən ibarətdir?

9. MHS-nin göstəriciləri necə qiymətləndirilir?

10. Defilyasiya metodunun vəzifəsi nədən ibarətdir və necə tətbiq edilir?

11. Laspeyres, Paaşe və Fişerin "ideal" indeksləri nəcə və hansı məqsədlər üçün qurulur?

VIII Fəsil
BEYNƏLXALQ ƏMƏK STATİSTİKASI VƏ ƏHALİ MİQRASİYASI

§8.1.Beynəlxalq əmək statistikasının yaranması, təşəkkülü və vəzifələri

Əmək statistikası beynəlxalq statistikanın ən qədim və ən geniş sahələrindən biridir. Dünyada ilk dövlətlərin yaranması, böyük coğrafi kəşflər, müharibələr və qul alverinin genişlənməsi ayrı-ayrı regionlarda və ölkələrdə əhalinin sayı və onun tərkibində işləmək qabiliyyətinə malik olan hissənin öyrənilməsinə ehtiyac yaratdı. Bu ehtiyac isə öz növbəsində beynəlxalq əmək statistikasının yaranmasını zəruri etdi.

Beynəlxalq miqyasda işçi qüvvəsinin sayı və həyat səviyyəsinə dair statistika mə"lumatlarının toplanması ideyası I İnternasionalın 1864-cü ildə Ednevrədə keçirilmiş konqresində irəli sürülmüşdü. Bu konqresin tövsiyyələrində beynəlxalq əmək statistikasının yaranmasının zəruriliyi qeyd edilməklə işçi qüvvəsinin sayı, tərkibi və vəziyyətinə dair statistika mə"lumatlarının toplanmasının gərəkliyi də ayrıca vurğulanırdı. Konqress işçi qüvvəsinə dair mə"lumat toplanmasını asanlaşdırmaq məqsədilə aparılacaq xüsusi müşahidənin anketini də hazırladı. Bu anketə işçinin cinsi, yaşı, əmək haqqı, iş gününün müddəti, iş şəraiti (sahəsi, təmizliyi, işıqlandırılması və s.), fiziki vəziyyəti və sairəyə dair suallar daxil edilmişdi. Lakin Ednevrə konqresinin qərarları yerinə yetirilmədi. 1867-ci ildə çağırılan Lodz konqresinin nümayəndələri tələb etdilər ki, gələn konqresə gündəliyinə fəhlə sinfinin vəziyyəti statistikasına dair xüsusi hesabat təqdim edilsin.

1869-cu ildə Bazel konqresində əmək statistikasına dair ayrıca məsələ müzakirə olundu.

Paris Kommunasının süqutundan sonra İnternasionalın seksiyalarının fəaliyyəti qadağan edildi. Bundan sonra dünyanın müxtəlif ölkələrində əmək statistikası yaranmağa başladı.

Əmək statistikası konkret ölkənin iqtisadi potensialını müəyyənləşdirərkən ən gərəkli informasiya mənbəyinə çevrildi. Bu məqsədlə xüsusi müşahidələrin və siyahıya alınmaların keçirilməsi təcrübəsi dünyanın bir çox ölkələrində sınaqdan keçirildi, əməyə dair statistik mə"lumatlarının nəşr edilməsinə başlandı. Lakin belə mə"lumatlar pərakəndə olmaqla yanaşı həm də müqayisəli deyildi.

1946-cı ildə yaradılan BMT-nin Statistika Komissiyasının fəaliyyətində başqa məsələlərlə yanaşı əmək statistikası göstəricilərinin hesablanma metodologiyasının təkmilləşdirilməsi və müqayisəliliyinin tə"min edilməsi üsullarının işlənib hazırlanması kimi məsələlərə də geniş yer verildi.

Əmək statistikası BMT-nin Beynəlxalq Əmək Təşkilatının (BƏT) fəaliyyətində də xüsusi yer tutur. BƏT BMT-nin ixtisaslaşdırılmış ən iri (işçilərin sayına və fəaliyyətinin miqyasına görə) on iki beynəlxalq təşkilatlarından biridir. BƏT dünyanın ayrı-ayrı ölkələri üzrə işçi qüvvəsinə, işsizliyə, sosial sığortaya, sosial tə"minata, əmək haqqının səviyyəsi və dinamikasına, tə"tillərə, travmotizmə və sairəyə dair mə"lumat toplayaraq ümumiləşdirir. BMT BƏT-nin statistika fəaliyyətinin yekunları hər il buraxdığı "Year Book of Labour Statistics" külliyyatında və "International Labour Review" aylıq məcmuədə nəşr olunur.

BƏT-nin icraedici orqanı Beynəlxalq Əmək Bürosudur. Bu büro həm də əmək statistikasına dair beynəlxalq konfransların çağırılmasının təşkilatçısıdır. Əmək statistikasına dair ilk beynəlxalq konfrans 1946-cı ildə çağırıldı. Belə konfransların çağırılması sonrakı illərdə müntəzəm hal aldı.

Əmək statistiklərinin 1954-cü ildə Ednevrədə çağırılan beynəlxalq konfransında əmək statistikası sahəsində son illərdə əldə edilmiş nailiyyətlər, real əmək haqqının beynəlxalq müqayisəliliyi, peşələrin beynəlxalq standart təsnifatı, məşğulluq, işsizlik statistikası və peşə xəstəlikləri statistikasına dair məsələlər müzakirə olundu.

1961-ci ildə Avropa İqtisadi Komisssiyasının keçirdiyi müşavirədə əmək məhsuldarlığının hesablanmasının ümumi metodoloci məsələləri müzakirə olundu. Bu müşavirədə beynəlxalq miqyasda əmək məhsuldarlığının səviyyəsinin ölçülməsi və əmək məhsuldarlığının nisbi artımına amillərin tə"sirinin müəyyən edilməsi üsulları müzakirə olundu. Müşavirə iştirakçıları qərara aldılar ki, canlı əməyin məhsuldarlığını ölçərkən əmək məsrəfi kimi işləyən fəhlələrin sayı ilə yanaşı, həm də sənaye istehsal heyə"tinin başqa kateqoriyalarını (MTİ, qulluqçular, xırda xidmətçilər) də nəzərə almaq lazımdır. Müşavirə iştirakçıları belə qərara gəldilər ki, əmək məhsuldarlığının hesablanması müxtəlif ölkələrdə vahid metodologiya üzrə aparılmalıdır, bir işləyənə düşən orta hasilat göstəricisi ilə yanaşı, işlənilmiş bir adamsaata düşən əmək məhsuldarlığı göstəricisi də hesablanmalıdır.

Müşavirə İtaliya nümayəndələrinin təşəbbüsü ilə əməyin reduksiyasına dair məsələ müzakirə edərək qərara aldı ki, bu sahədə iki göstərici qəbul edilsin:

1. Reduksiya edilməmiş işçi qüvvəsi əməyinin sərfi göstəricisi;
2. İxtisas səviyyəsi nəzərə alınmaqla sərf edilən əməyin həcyi göstəricisi.

Müşavirə iştirakçıları qərara aldılar ki, əmək məhsuldarlığını

hesablayarkən cinsi, əmək, şərti-cinsi və dəyər ifadəsində hesablanmış məhsul göstəricilərindən istifadə etmək olar. Yuxarıda adı çəkilən müşavirədə iştirak edən əmək statistiklərinin birgə rə"yinə görə əmək məhsuldarlığına tə"sirinin statistik baxımdan ifadə edilməsi mümkün olan amillərinə-əməyin əmək vasitələri ilə silahlanması dərəcəsi, istehsal güclərindən istifadə dərəcəsi, müəssisənin həcyi, işçi qüvvəsinin tərkibi və ixtisas dərəcəsi, istehsalın quruluşu göstəriciləri aiddir.

1965-ci ildə BMT-nin nəşr etdirdiyi illik statistika külliyyatında ilk dəfə olaraq dünya sənayesi üzrə bütövlükdə (və o cümlədən, hasiledici və e"maledici sahələr üzrə və ağır sənaye sahələri üzrə ayrılıqda) əmək məhsuldarlığının indekslərinə dair mə"lumat nəşr edildi. 1955-1964-cü illərdə sənaye sahələri üzrə əmək məhsuldarlığı indeksləri fiziki həcy indeksini məşğulluq indekslərinə bölmək yolu ilə müəyyən edilmişdi. Yekun indeksi isə işçilərin sayı çəki kimi götürülməklə orta hesabi indeksin düsturuna əsasən hesablanmışdı.

Dünyanın ayrı-ayrı ölkələrində əmək sərfi və məhsulun həcyinin uçotunda müxtəlif metodologiyanın tətbiqi dünya üzrə hesablanmış əmək məhsuldarlığı indekslərinin keyfiyyətini aşağı salır.

BƏT dünyanın bütün ölkələri üzrə işçi qüvvəsinin fəaliyyət sektorları üzrə bölüşdürülməsini öyrənirkən aşağıdakı peşə təsnifatından istifadə edir:

1.Qeyri-fiziki əmək, texniki və qarışıq peşələr;
2.Direktorlar, rəislər və inzibati kardlar;
3.Qulluqçular;
4.Satıcılar;
5.Kənd təsərrüfatı, balıqçılıq, ovçuluq, meşəçilik və bu sahələrin qarışıq peşə işçiləri;
5,7,8. Kustarlar, sənətkarlar, istehsal fəhlələri, şaxtaçılar, karyer işçiləri;
6. Nəqliyyat və rabitə işçiləri;
9. Xidmət, idman və istirahət sahələri üzrə ixtisaslaşan işçilər;
10. Sair sahələr.

Peşələrin belə təsnifatı heç bir elmi əhəmiyyətə malik olmadan yalnız empirik xarakter daşıyırdı. Deyilənləri nəzərə alaraq BMT və BƏT-nin statistika mütəxəssisləri peşələrin beynəlxalq təsnifatının dəyişdirilməsi istiqamətində gərgin iş aparmaqdadırlar.

BƏT-nin statistika orqanlarının fəaliyyətində məşğulluq və işsizlik problemlərinin öyrənilməsinə ayrıca yer verilir. İşsizliyin və məşğuliyyəti olan əhalinin uçotu sahəsində ayrı-ayrı dünya ölkələrində tətbiq edilən metodologiyanın müxtəlifliyi dünya üzrə bu sahədə hesablanmış yekun göstəricilərinin keyfiyyətini azaldır. Belə qüsurları aradan

qaldırmaq məqsədilə də BMT ekspertlərinin metodoloci araşdırmaları davam etdirilir.

BMT və onun ixtisaslaşdırılmış xüsusi orqanları dünyanın müxtəlif ölkələrində əhalinin həyat səviyyəsinin ölçülməsi sahəsində metodoloci araşdırmalarını da davam etdirir.

§8.2. BMT Beynəlxalq Əmək Təşkilatı (BƏT)

BMT-nin Beynəlxalq Əmək Təşkilatı (International Labour Organizasion) 1919-cu ildə Mil lətlər Birliyi nəzdində əmək qanunvericiliyi məsələləri üzrə tövsiyyələr və konvensiyalar hazırlamaq məqsədilə yaradılmış ixtisaslaşdırılmış sərbəst təşkilatdır. BƏT-in ali orqanı Baş Konfransdır.

Əmək, məşğulluq, zəhmətkeşlərin sosial tə"minatı və istirahəti, habelə əmək mübahisələri sahəsində BƏT-nin statistika fəaliyyətinin səmərəliliyi e"tibarlı və beynəlxalq müqayisəliliyi tə"min edilmiş informasiyanın olmasını tələb edir. BƏT-da statistika bazasının hazırlanması və təkmilləşdirilməsi məsələləri ilə BƏT-nin işçi orqanı olan əmək statistiklərinin Beynəlxalq konfransı məşğul olur. Bu konfrans əmək statistikası sahəsində tövsiyyələr hazırlamaq üçün müəyyən vaxtdan bir çağırılır. Konfransın sessiyasında qəbul edilmiş tövsiyyələrin layihələri BƏT-nin ali Konfederasiyasının təsdiq etdiyi konvensiyalara daxil edilir.

Əmək statistiklərinin konfransları ikikei dünya müharibəsindən sonra müntəzəm olaraq keçirilir. Konfransın icraedici orqanı-BƏT-nin Beynəlxalq bürosunun Statistika şö"bəsindir. Şö"bə işçi qüvvəsi, məşğulluq və işsizlik, əməyin ödənilməsinin, iş gününün (həftəsinin) uzunluğu, peşə hazırlığı, istehsal mallarının pərakəndəsatış qiymətləri, əmək məhsuldarlığının, sosial tə"minat, əmək mübahisələri və sairə haqqında informasiya toplayır və nəşr etdirir. Bundan əlavə həmin şö"bəyə inkişaf etməkdə olan ölkələrdə əmək statistikasının təşkilinə köməklik göstərmək, ekspert məsləhəti vermək, seminarlar keçirmək və təqaüdlər vermək vəzifələri də həvalə edilmişdir.

BƏT-nin statistika şö"bəsi hər il əmək statistikasına dair nəşr etdirdiyi statistika külliyyatında dünyanın 170-dən çox ölkəsi və ərazisi üzrə əmək statistikasına dair mə"lumat verir. Şö"bə bundan əlavə "Əmək statistikası göstəricilərinin hesablanmasına dair göstəricilər " Bülletenini" (1976-cı ildən) nəşr etdirir.

BƏT-nin son illərdə apardığı əsas işlər sırasına "Peşələrin beynəlxalq stnadart təsnifatlaşdırılması", "Ərzaq mallarının qiymət indekslərinin hesablanmasına dair beynəlxalq tövsiyyələr"in hazırlanması, "Qadınların və gəkələrin vəziyyətinin təhlili" və başqalarını aid etmək olar.

§8.3.Beynəlxalq statistikada əmək ehtiyatlarının əsas səciyyəsi

Əmək ehtiyatları - ölkənin bütün əhalisinin yaş əlamətinə və sağlamlığının vəziyyətinə görə iqtisadiyyatın formalaşması və idarə olunmasında faktiki iştirak edən və ya iştirak edə bilməyən hissəsidir. Əmək ehtiyatlarının həcyi konkret ölçüdə ictimai inkişafın səviyyəsini əks etdirən yevcud sosial-iqtisadi şəraitdən və qəbul edilmiş minimum yaş həddindən asılı olaraq formalaşır. İndiki MDB ölkələrində (o cümlədən Azərbaycan Respublikasında) əmək qabiliyyətli əhalinin 16 yaşdan 59 yaşadək kişilər, 54 yaşadək qadınların (işləyən I və II dərəcəli əlillər də daxil olmaqla) sayından əmək qabiliyyətli yaşda olan, lakin işləməyən əlillərin sayını çıxmaqla müəyyən edilir.

İqtisadi baxımdan inkişaf etmiş ölkələrin əmək qanunvericiliyinə görə əmək qabiliyyətliliyinin ən aşağı həddi 15-16 yaş müəyyən edilmişdir. Əmək qabiliyyətli yaşın ən yuxarı həddi konkret ölkədə əhalinin qocalığa görə pensiya tə"minatına dair qanunvericiliyə əsasən müəyyən edilir. Qocalığa görə təqaüd tə"minatına hüquq verən yaş həddi dünyanın ayrı-ayrı ölkələrində eyni deyildir. Məsələn, təqaüd yaşı hər iki cinsdən olanlar üçün ABŞ-da, Kanadada, İspaniyada və Almaniyada 65 yaş, İsveçdə və İslandiyada 67 yaş, Norveçdə 70 yaş, İngiltərədə, Avstriyada və Belçikada kişilər üçün 65 yaş və qadınlar üçün isə 60 yaş qəbul edilmişdir.

Beynəlxalq statistikada əhalinin yaşayış üçün vəsait mənbələrinə görə səciyyələndirərkən "fəal (və ya iqtisadi fəal) əhali" və bə"zi hallarda isə "özüfəaliyyətli" əhali anlayışlarından istifadə edilir. Adətən yaşayış üçün sərbəst vəsait mənbəyi olan və heç kimin himayəsində olmayan bütün şəxsləri özüfəaliyyətli əhaliyə aid edilirlər. Yaşayış üçün sərbəst gəliri (vəsait mənbəyi) olmayan və başqalarının (adətən öz doğmalarının) vəsaiti hesabına yaşayan şəxslər özüfəaliyyətsiz əhali adlanır. Bir çox hallarda evdar qadınlar, uşaqlar, pensiya almayan qocalar, pensiya almayan işsizlər bu qrupa aid edilir.

Əhalinin iqtisadi quruluşunu daha dərindən təhlil etmək üçün bütün əhalinin tərkibində iqtisadi fəaliyyətdə bilavasitə iştirak edən əhalinin xüsusi çəkisini müəyyən etmək lazımdır. Bu əhali qrupu iqtisadi fəaliyyətdə iştirak etməklə yanaşı həm də sərf etdikləri əməyin müqabilində müəyyən gəlir əldə edirlər. Buna görə də həmin əhali kateqoriyası iqtisadi fəal əhali adlanır. İqtisadi fəal əhali özüfəaliyyətli əhalinin tərkib hissəsi olmaqla ondan gəliri olan, lakin məşğuliyyəti olmayanların (pensiyaçılar, işsizliyə görə yardım alanlar və s.) sayı qədər azdır.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) fəaliyyətində iqtisadi fəal əhali göstəricisindən geniş istifadə olunur. Bu kateqoriyaya aid olan əhalinin sayı və bütün əhalinin tərkibində onların xüsusi çəkisinə dair mə"lumatlara, BƏT-nin hər il buraxdığı illik nəşrlərdə geniş yer verilir.

BƏT-nin təlimatına əsasən "İqtisadi fəal əhali" kateqoriyasına məşğuliyyəti olan bütün əhali (sahibkarları, öz hesabına işləyən şəxsləri, haqqı ödənilmədən işləyən ailə üzvləri), habelə müşahidə anında işsiz olan əhali aid edilir. Şagirdlər, yalnız ev təsərrüfatında məşğul olanlar, pensiyaçılar, başqasının himayəsində olan şəxslər və başqaları "İqtisadi fəal əhali" kateqoriyasına aid edilir. Hərbi qulluqçuların, qapalı tipli müəssisələrdə (ruhi xəstəxanalarda, qazamatda və s.) olan şəxslərin, ilk dəfə iş axtaran şəxslərin, yevsümi fəhlələrin və qismən iqtisadi fəaliyyətlə məşğul olan şəxslərin iqtisadi cəhətdən fəal və qeyri-fəal əhali kateqoriyasına aid edilməsi məsələsində dünyanın ayrı-ayrı ölkələrində müəyyən müxtəliflik yevcuddur. Bu əhali qrupları bə"zi ölkələrdə fəal əhali qrupuna və başqalarında isə qeyri-fəal əhali qrupuna aid edilir. Məsələn, hərbi xidmətdə olanlar, ilk dəfə iş axtaran şəxslər, işsizlər və 4 aydan çox müddətdə iş axtaranlar İsveç statistikasında iqtisadi fəal əhali kateqoriyasına daxil edilmir.

Türkiyədə, Hindistanda və Fillipində ilk dəfə iş axtaranlar, qapalı müəssisələrdə olan şəxslər, Tunis və Mərakeşdə haqqı ödənilmədən ailəyə kəyəklik edən ailə üzvləri, Yunanıstan, Pakistan və Liberiyada silahlı qüvvələrdə olan şəxslər iqtisadi cəhətdən fəal əhali qrupuna aid edilmir.

İqtisadi fəal əhali göstəricisinə dair mə"lumatların müqayisəliliyi bu qrupa müxtəlif yaşlı əhalinin daxil edilməsi ilə daha da çətinləşir. İqtisadi fəal əhaliyə Misirdə və Suriyada 6 yaşdan böyükləri, Meksikada və Serro-Leonada 12 yaşdan böyükləri, İtaliyada, Almaniyada, Avstriyada, İsveçdə, Kanadada və Çilidə 14 yaşdan böyükləri, İngiltərədə, İsveçrədə, Yaponiyada, Fillipində, Avstraliyada 15 yaşdan böyükləri, ABŞ-da, Lüksemburqda 16 yaşdan böyükləri, Danimarkada 18 yaşdan böyükləri iqtisadi fəal əhali kateqoriyasına aid edirlər.

İqtisadi fəal əhalinin ümumi sayı ilə müqayisə etməklə əhalinin ümumi əmək fəallığı əmsalını müəyyən etmək mümkündür, lakin müxtəlif ölkələr üzrə bu əmsalları təhlil edərkən onların əhatə dairəsinin müxtəlifliyi nəzərə alınmalıdır.

Dünyanın müxtəlif ölkələrində əhalinin ümumi əmək fəallığı əmsalının səviyyəsi 30-45% arasında tərəddüd edir.

Dünyanın bir sıra ölkələrində (ABŞ, Yaponiya, İngiltərə və s.) iqtisadi fəal əhali göstəricisi əvəzinə "İşçi qüvvəsi" göstəricisindən istifadə olunur. "İşçi qüvvəsi" kateqoriyasına öz fiziki və yaş əlamətlərinə görə əməyə yararlı olan şəxslərin sayı daxil edilir. "İşçi

qüvvəsi" anlayışı ölkədəki işsizləri və məşğuliyyəti olan əhalini bir qrupda birləşdirir. Bu qrupun aşağı həddi dövlət tərəfindən müəyyənləşdirilsə də yuxarı həddi praktiki olaraq məhdudlaşdırılmır.

İrəlidə qeyd edildiyi kimi, Amerika statistikası 16 yaşlı və daha böyük yaşlardakı bütün məşğuliyyəti olan və işsizləri, Yapon və İngilis statistikası isə 15 yaşlı və daha böyükləri "işçi qüvvəsi" kateqoriyasına daxil edir. Bir qayda olaraq "işçi qüvvəsi" qrupu ə"yani şö"bədə təhsil alan gəkcləri, yalnız ev təsərrüfatı ilə məşğul olanları və bir çox ölkələrdə isə hərbi qulluqçuları öz tərkibinə daxil etmir.

Beynəlxalq statistikada qəbul edilən "işçi qüvvəsi" qrupu MDB ölkələrinin statistikasında istifadə olunan "əmək qabiliyyətli yaşda olan əhali" və ya "əmək ehtiyatları" kateqoriyalarından (ə"yani təhsil alan və ev təsərrüfatında məşğul olan şəxslərin sayı qədər) azdır.

Məşğuliyyəti olanların və işsizlərin sayının müəyyən edilməsi beynəlxalq statistikanın ən mühüm məsələlərindən biridir. Dünyanın inkişaf etmiş ölkələrində adətən məşğuliyyəti olan əhali qrupuna tədqiq edilən dövr (həftə, ay və s.) ərzində işləyən şəxslərin sayı aid edilir. Məşğuliyyəti olanların sayı müəyyən edilərkən tədqiq edilən dövrdə konkret şəxslərin tam və qismən işləməsi nəzərə alınmır.

BƏT-nin tövsiyyəsinə əsasən məşğuliyyəti olanlar kateqoriyasına aşağıdakılar aid edilir:

1. Tədqiq edilən dövrdə muzdla işləyən və haqq alan şəxslər;

2. Məşğuliyyəti olan, lakin işləməyən (xəstəlik, bədbəxt hadisə, məzuniyyət, tə"til və sair səbəblər üzrə) şəxslər;

Sahibkarlar və öz hesabına işləyən şəxslər məşğuliyyəti olan əhali qrupuna muzdla işləyənlər kimi daxil olurlar.

İşsizlik iqtisadiyyatda baş verən sosial-iqtisadi proseslər nəticəsində yaranır. İşsizlik yarandıqda əmək qabiliyyətli yaşda olan işçi qüvvəsinin bir hissəsi əmtəə və xidmətlər istehsalatda iştirak edə bilmədiklərinə görə əmək haqqı da ala bilmir.

İşsizlik ölkədə yevcud əmək resurslarından səmərəli istifadə edilə bilməməsinə ə"yani sübut olmaqla iqtisadiyyatın təşkilində cidd qüsurların yevcudluğunun təzahür formalarından biridir.

BƏT-nin tövsiyyələrinə əsasən işsizlərə (yuxarıdakı yaş sərhədləri daxilində) aşağıdakı əhali qrupları aid edilir:

1. İşi olmayanlar və iş axtaranlar;

2. Əvvəl işlədikləri iş yeri ilə əmək müqaviləsi başa çatmışlar və müqaviləsi pozulmuşlar;

3. Əvvəllər əmək haqqı almayanlar və istehfaya getmiş-lərdə işləmək üçün iş axtaranlar;

4. İşləmək haqqında razılaşma əldə edilsə də, hələlik işə başlamayanlar;

5. Əmək haqqını saxlamamaqla müvəqqəti olaraq qeyri-məhdud vaxta və ya tamamilə işdən azad olunanlar.

BƏT-nin təklifinə əsasən öz xüsusi firmasını və ya müəssisəsini yaratmaq niyyətində olduğu üçün muzdlu iş axtarmayanlar işsiz hesab edilmir. Bu tövsiyyələrdə işsizlər qrupuna yalnız iş axtaranlar daxil edildiyinə görə uzun müddət iş axtardıqdan sonra iş tapacağına ümidini itirdikləri üçün daha iş axtarmayan "gizli işsizlər" uçotdan kənarda qalır.

Lakin bununla yanaşı həftə ərzində bir neçə saat və ya gün təsadüfi tapdıqları işə görə əmək haqqı alanlar işsizlər qrupuna daxil edilmirlər.

İşdən azad edilmişlərlə yanaşı öz razılığı ilə işi qoyub gedənlərdən müəyyən fasilələrdən sonra əmək bazarına gələrək iş axtaranları habelə ilk dəfə əmək bazarına gələnləri də işsizlər sırasına daxil edirlər. Bu kateqoriyaların nisbəti hər şeydən əvvəl iqtisadi tsiklin fazalarından asılıdır.

Cari ildə işsizliyin orta aylıq səviyyəsini aşağıdakı düsturun köməkliyi ilə hesablayırlar:

$$L_{\text{işsiz}} = \frac{\bar{T}_{\text{işsiz}}}{T_{\text{mülki}}}$$

Burada L işsiz - işsizliyin səviyyəsini;

$\bar{T}$ işsiz - işsizlərin orta aylıq sayını;

T mülki - mülki əhalinin ümumi sayını göstərir.

İqtisadi ədəbiyyatlarda işsizliyin təbii səviyyəsi, friksion və tsiklik işsizlik anlayışlarını fərqləndirirlər.

İşsizlik fenomenini müxtəlif baxımdan şərh edirlər. Marksist nəzəriyyəsi işsizliyi kapital yığımı ilə əlaqələndirir. Marksa görə kapital yığımı nəticəsində canlı əməyə (dəyişən kapitala) tələbat sabit kapitala (maşın və avadanlıqlara) nisbətən ləng artır. Qərb ölkələrinin iqtisadi ədəbiyyatlarında belə bir müddəa hakimdir ki, istehsal güclərinin yüklənmə dərəcəsi kimi işsizlik də mahiyyətcə əmək resurslarından istifadənin səmərəlilik dərəcəsini əks etdirən kateqoriyadır. Belə müəlliflər həmin fikri əmək bazarında "işsizliyin təbii səviyyəsi" adlı kateqoriyanın yevcudluğu ilə əsaslandırmağa çalışırlar. İşsizliyin təbii səviyyəsi əmək bazarında quruluş uyğunsuzluğunu (peşə, demoqrafik, coğrafi və başqa mc"yarlar üzrə işçi qüvvəsinə tələb və təklif arasında) əks etdirən kateqoriyadır.

Öz arzuları ilə və yevsümi tələblərlə əlaqədar işçi qüvvəsinin bir işdən başqasına keçmələrini də (friksion işsizlik) adətən təbii işsizliyə aid edirlər.

"Struktur işsizliyi" dedikdə işçi qüvvəsinə tələbatla təklif arasındakı

uyğunsuzluq başa düşülür. "Tsiklik işsizlik" ölkədə iqtisadi konyukturanın vəziyyətini və bununla əlaqədar olaraq işçi qüvvəsinə tələbatın təklifdən artıq olmasını əks etdirir.

Beynəlxalq metodologiya ilə yanaşı məşğuliyyəti olan və işsiz əhalinin uçotu zamanı milli statistikaların təcrübəsində də müəyyən özünəməxsusluqlar yevcuddur. Məsələn, İngilis statistikası işləyən fəhlə və qulluqçuları, sahibkarları, öz hesabına işləyənləri, müvəqqəti işdən azad olunanları, xəstəlik, mə"zuniyyət və sair səbəblər üzrə işdə olmayan bütün mülki əhalini məşğuliyyətli əhali kateqoriyasına aid edir. Ailə işlərində keyəklik edən ailə üzvləri məşğuliyyətli əhali hesab edilmir. Müşahidə aparılan günü işsiz olan və iş axtaran, lakin işləmək imkanına malik olan əmək birjasında və gəkələrin məşğulluğu bürosunda qeydiyyatdan keçmiş 15 yaşlı və böyük əhali işsizlər kateqoriyasına aid edilir.

Fransız statistika orqanları yalnız kənd təsərrüfatı sahələrinə aid təsərrüfatlarda məşğul olan əhalinin sayını müəyyən edir. Məşğuliyyəti olan əhalinin sayını müəyyən edərkən hər rübün birinci günü (yanvarın 1-də, aprelin 1-də və s.) işləyən və müvəqqəti işləməyən, lakin adı işçilərin siyahısında olan bütün fəhlə və qulluqçuların sayını əsas götürür. Fransız statistikasına görə iş axtaran və məşğulluq bürosunda qeydə alınmış bütün şəxslər işsiz hesab edilirlər. İşləmək arzusunda olan hər bir şəxs yaşından, peşəsindən, sosial vəziyyətindən və sairədən asılı olmayaraq məşğulluq bürosunda uçota dura bilər. Bu büroda uçota alınma işsizliyə görə yardım almaq üçün vacibdir.

İtalyan statistikası müşahidə aparıldığı həftə ərzində əmək haqqı və ya müəyyən gəlir əldə etməklə işləyən, habelə xəstəlik, bayram və başqa səbəblərlə əlaqədar müvəqqəti qaib olan 14 yaşlı və ondan böyükləri məşğuliyyəti olan əhali kateqoriyasına aid edir. Nizami orduda xidmət edənləri də bu saya daxil edirlər. İtalyan statistikasında müşahidə aparılan həftə ərzində işləməyən və iş axtaran, ilk dəfə iş axtaran, habelə sonradan işə qaytarılmasına və"d verilməyən işdən çıxarılmış 14 yaşlı və daha böyük şəxslər işsizlər sırasına daxil edilir.

Almaniyada müşahidə aparılan həftə hər şanslı bir hissəsini əmək haqqı və ya müəyyən gəlirə işləmiş şəxslər, haqqı ödənilən məzuniyyətdə olanlar, xəstəlik, tə"til və ya bədbəxt hadisəylə əlaqədar müvəqqəti işləməyən şəxslər də məşğuliyyəti olan əhali qrupuna daxil edilir. Alman statistikasına görə məşğulluq bürosunda qeydə alınmış işləməyən və iş axtaranları, habelə həftədə 24 saatdan çox işləmək arzusunda olan 14 yaşlı və ondan böyük əhalini işsizlər sırasına daxil edilir.

Yapon statistikası müşahidə aparılan həftə ərzində heç olmasa bir

saat işləməmişləri, habelə məşğuliyyətləri olsa da işləməyən 15 yaşlı və ondan böyük bütün şəxsləri məşğuliyyəti olan əhali qrupuna daxil edir. Müşahidə aparılan dövrdə işi olmayan, fəal iş axtaran və ya əvvəllər işləmək haqqında apardıqları danışıqların nəticəsini gözləyən 15 yaşlı və daha böyük şəxslər işsiz əhali qrupuna daxil edilir.

Məşğuliyyəti olan və işsiz əhalinin sayını müəyyən edərkən milli statistikalarda istifadə edilən üsulların müxtəlifliyi adı çəkilən göstəricilərə dair mə"lumatların müqayisəliliyini xeyli çətinləşdirir. Odur ki, bu göstəricilərin beynəlxalq müqayisəsi xeyli təqribi xarakter daşıdığına görə onlara əsasən çıxarılan nəticələri də bir qədər təqribi qəbul etmək lazımdır.

§8.4.ABŞ-da məşğulluq və işsizlik statistikasının bə'zi təşkilati-metodoloji məsələləri

Dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan ABŞ-da məşğulluq və işsizlik statistikası ilə bir neçə rəsmi təşkilat məşğul olur. İşçi qüvvəsinin cari uçotu ilə daha doğrusu, ölkədə məşğuliyyəti olan və işsiz əhalinin uçotu ilə Ticarət Departamentinin siyahıya almalar bürosu məşğul olur. Tələb olunan mə"lumatı əldə etmək üçün Büro hər ay əhalinin təsərrüfatlarının seçmə müşahidəsindən istifadə edir. Sonradan seçmə müşahidəsi nəticəsində əldə edilmiş mə"lumatlar hər on ildən bir keçirilən əhali siyahıyaalmalarının mə"lumatlarına əsasən dəqiqləşdirilir.

Kənd təsərrüfatında məşğuliyyəti olan əhalinin cari uçotu ilə Kənd Təsərrüfatı Departamentliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı Bürosu tərəfindən fermalarda aparılan seçmə müşahidəsinə əsasən həyata keçirilir. Seçmə müşahidəsi nəticəsində əldə edilmiş mə"lumat hər beş ildənbir (sonu 4-lə və ya 9-la bitən illərdə) kənd təsərrüfatı siyahıyaalmalarının mə"lumatlarına əsasən yoxlanılır və dəqiqləşdirilir.

Qeyri-kənd təsərrüfatı sahələrində məşğul olan fəhlə və qulluqçuların cari uçotu ilə əmək Departamentinin Əmək Statistikası Bürosu məşğul olur. Bu təşkilat lazım olan mə"lumatı əldə etmək üçün müxtəlif sahələrin təsərrüfatları və müəssisələrində hər ay apardığı seçmə müşahidəsindən istifadə edir. Bu mə"lumatlar konkret sahələrdə (ticarət, nəqliyyat, dövlət idarələri, hasiledici və e"maledici sənaye) aparılan siyahıyaalmaların mə"lumatlarına əsasən dəqiqləşdirilir.

İşsizlər siyahıyaalmalar Bürosundan əlavə həm də işsizlik üzrə yardımlar verən sığorta kassaları tərəfindən də uçota alınır. Bu təşkilatların hər biri məşğuliyyəti olan və işsiz əhali zəhmətkeşlərinin müxtəlif kateqoriyaları üzrə uçota alır. Elə buna görə də bu təşkilatların statistikası bir-birini əvəz etmir və bir-birini tamamlayır.

Ölkədə məşğuliyyəti olan və işsiz əhalinin ümumi sayı Ticarət

Departamentinin siyahıyaalmalar Bürosu tərəfindən müəyyən edilir. Belə mə"lumat mülki əhalinin hər ay keçirilən seçmə müşahidəsinə əsasən əldə edilir. Bu yevqedən ABŞ-da 863 dairə və sərbəst şəhəri əhatə edən 449 ərazi tədqiq edilir. Hər ay təqribən 50000 mənzildə sayıcılar tərəfindən sorğu aparılır. Seçmə müşahidəsi yolu ilə sorğuya məruz qalan mənzillər bütün təsərrüfatların təqribən 0,1%-ni təşkil edir.

Seçməyə düşən hər bir təsərrüfat yalnız 4 ay dalbadal sorğuya mə"ruz qalır. İlin sonrakı 8 ayını "dikeəlir" sonradan yenə 4 ay təqdim edildikdən sonra seçmə məeyuundan tamamilə çıxarılır. "Rotasiya" adlanan bu qayda müntəzəm səhvləri aradan qaldırmaq və əhalinin eyni qrupunu (seçm müşahidəsinə düşən) yormamaq məqsədilə tətbiq edilir. Amerikan mütəxəssisləri belə hesab edirlər ki, bu yolla aparılan tədqiqatlar kifayət qədər reprezentativdir və işçi qüvvəsinin bölüşdürülməsində yevcud olan ümumi qanunauyğunluğu əks etdirməklə yanaşı, həm də məşğuliyyəti olan və işsiz əhalinin cinsini, yaşını və başqa əlamətlər üzrə tərkibini səciyyələndirə bilir.

Ticarət Departamentliyinin siyahıyaalma Bürosunun hər ay apardığı əhalinin seçmə tədqiqatı ölkədə məşğuliyyəti olan və işsiz əhalinin ümumi sayı, məşğul olduğu sahələr, məşğul olduqları sahələrdə işçilərin yevqeyi (fəhlə, qulluqçu, ailə üzvünə keyək edən və s.), iş həftəsinin müddətinə, peşəsinə, cinsinə, yaşına, təhsil səviyyəsinə və s. əlamətlərinə görə tərkibinə dair mə"lumat əldə etməyə imkan verir.

Seçmə müşahidəsi nəticəsində əldə edilmiş nəticələrin faizlə nisbətini əhalinin ümumi sayına vurmaqla məşğuliyyəti olan və işsiz əhalinin mütləq sayını və tərkibini müəyyən etmək mümkündür. Bu mə"lumatlara əsasən işsiz əhali yaşına, cinsinə, təhsil səviyyəsinə, işsiz qaldığı müddəttə, sonukeu məşğuliyyət sahəsinə və sair əlamətlər üzrə qruplaşdırılır.

Təsərrüfatların seçmə müşahidəsinin nəticələri "məşğulluq və əmək haqqı" (Employment and Earings), "Əməyə dair aylıq xülasə" (Monthey Labour Revien), "ABŞ-ın illik statistika külliyyatı" (Statistical Abstract of the United States) və "Əmək üzrə sorğu kitabı" (Handbook of Labour Statistices) adlı rəsmi nəşrlərdə oxuculara çatdırılır.

ABŞ siyahıyaalma Bürosunun müəyyən etdiyi qaydaya əsasən tədqiq edilən həftə ərzində hər hansı işdə çalışan (əmək haqqı və ya mənfəətdən pay almaqla), ya da ailə müəssisəsində keyəkçi ailə üzvü kimi 15 saatdan çox işləyən, ya da işi olsa da xəstəlik, tə"til, mə"zuniyyət və sairə ilə əlaqədar səbəblər üzrə işləməyən yaşı 16-ya çatmış və daha böyük yaşlı şəxslər məşğuliyyətli əhali hesab edilir. Ölkədəki səfirliklərin ərazisində müvəqqəti yaşayan və məşğuliyyəti

olan şəxslər məşğuliyyəti olan əhalinin ümumi sayına əlavə edilir, yalnız ev işlərində çalışan şəxslər, habelə dini və xeyriyyə təşkilatlarında ictimai işlərlə məşğul olan şəxslər isə ondan çıxılır.

Seçmə müşahidəsi aparılarkən konkret şəxsin bir neçə işi olarsa, o, məşğuliyyəti olan əhaliyə yalnız bir dəfə aid edilir.

ABŞ Siyahıyaalma Bürosunun müəyyən etdiyi qaydaya əsasən son 4 ay ərzində iş tapmağa cəhd göstərsə də, seçmə tədqiqatının aparıldığı həftə ərzində işləməyən və səhhətinə görə işləmək qabiliyyətinə malik olan şəxslər işsiz hesab edilir. Əvvəl işlədiyi iş yerində iş alacağına vəd verilmiş şəxslər, 30 gün ərzində yeni işlə tə"min ediləcəyinə nez verilmiş şəxslər, habelə xəstə olduğu üçün müşahidə aparılan həftə ərzində iş axtarmayan şəxslər də işsizlər sırasına daxil edilirlər.

İşsizlik faizi mülki işçi qüvvəsinə (məşğuliyyəti olan və işsiz) nisbətən hesablanır.

Amerika statistikləri də Beynəlxalq Əmək Bürosu kimi, təsadüfi iş tapmış, və ya həftə ərzində bir-iki saat işləmiş şəxsləri məşğuliyyəti olan əhaliyə aid edir. Həmin əhali qrupu öz vəziyyətlərinə görə işsizlərə daha yaxın olduqları üçün bə]zən qismən məşğul olan və ya yarım işsiz hesab edirlirlər.

Amerikan statistikasında müəyyən edilmiş qaydaya əsasən "fəhlə və qulluqçular" kateqoriyasına xüsusi sahibkarlardan, dövlət idarələri və müəssisələrindən əmək haqqı, komissiyon ödəmələri, natura və başqa formalarda haqq alan şəxsləri daxil edilir. Öz şəxsi mülkiyyətində olan müəssisə və idarələrdə, xüsusi kontorlarda, mağazalarda, fermalarda və müalicə kabinələrində yerinə yetirdikləri iş üçün mənfəət və ya qonorar alan işçilər "öz hesabına işləyənlər" kateqoriyasına aid edilir.

Konkret şəxsin qan və ya nigah qohumu olduğu ailə üzvünə mənsub ferma və müəssisədə əməyi ödənilmədən həftə ərzində 15 saatdan çox işləyən şəxslər "haqq almadan keyəklik göstərən ailə üzvü" kateqoriyasına aid edilir.

Öz evində ev təsərrüfatı ilə məşğul olanlar, şagirdlər, ruhi və fiziki cəhətdən əlil olan 16 yaşdan böyük sair şəxslər amerikan statistikasının metodologiyasına əsasən işçi qüvvəsinin tərkibinə daxil edilmir. Burada sair şəxslər sırasına pensiyaçıların çox hissəsini, işləmək arzusunda olmayanları, yevsümi işçiləri, 15 saatdan az müddətdə əməyi ödənilmədən öz ailə üzvlərinə keyəklik edən şəxslər aid edilir.

ABŞ-da işçi qüvvəsini səciyyələndirən yekun göstəriciləri siyahıyaalmalar Bürosu tərəfindən tərtib edilən aşağıdakı cədvəl şəklində nəşr edilir.

Bir kev ABŞ-da "əmək ehtiyatları balansı" olan bu cədvəldəki

mə"lumatlar ABŞ-ın yaşlı əhalisinin əmək prosesində olan yerinə görə bölgüsünü əks etdirir. Belə bölgü əmək ehtiyatları kateqoriyasının yuxarı yaş hüdudlarını (pensiya yaşı və s.) müəyyən etmədiyinə görə "real işçi qüvvəsi" anlayışından xeyli genişdir. Adi mənтiqə və iqtisadi məzmununa görə də bütün "yaşlı əhalini"; "əmək ehtiyatlarına" bərabər götürmək düzgün olmazdı. Nəzərə almaq lazımdır ki, pensiya yaşından böyük əhalinin yalnız az hissəsi işləyir, qalan əksəriyyəti isə əmək ehtiyatlarının tərkibindən çıxır. Odur ki, bütün yaşlı əhalinin tərkibində mülki işçi qüvvəsinin hissəsi xeyli azalır.

Yuxarıdakı cədvəldə hərbi qulluqçular da potensial işçi qüvvəsinə aid edirlər. Bu əhali qrupu maddi ne'mət

12-ci cədvəl

ABŞ-da yaşlı əhalinin səciyyəsi (min nəfərlə)

Sıra Nº-si	Əhalinin tərkibi	illər		
		1970	1980	1990
1	16 yaşlı və ondan böyük əhalinin ümumi sayı			
	onlardan			
	işçi qüvvəsi:			
	silahlı qüvvələri də daxil etməklə			
	mülki işçi qüvvəsi			
	Cəmi:			
	16 yaşlı və daha böyük əhalinin sayına nisbətən %-lə			
2	Məşğuliyyəti olan əhali - cəmi			
	kənd təsərrüfatında			
	qeyri kənd təsərrüfatı sferasında			
3	İşsizlər - cəmi			
	işçi qüvvəsinə nisbətən faizlə			
4	İşçi qüvvəsinə daxil olmayanlar - cəmi			
	o cümlədən			
	ev təsərrüfatında məşğul olanlar			
	şagirdlər			

lərin istehsalında iştirak etmədiyinə görə milli əmək ehtiyatlarına daxil edilməməlidir.

Bütün bunlara baxmayaraq yuxarıdakı cədvəldə məşğuliyyəti olan və işsiz əhalinin sayı və tərkibinə dair yekun mə"lumatı verildiyinə görə, habelə şagirdləri və ev təsərrüfatında işləyənləri ayırdığına görə tədqiqat üçün xeyli maraqlı mə"lumat verir. Belə mə"lumatların dinamikada təhlili ABŞ-da yaşlı əhalinin istifadəsinin ümumi

qanunauyğunluqlarını aşkar etməyə imkan verir.

Əhalinin seçmə üsulu ilə sorğusuna əsaslanan məşğulluq statistikasından əlavə ABŞ-da muzdlu işçilərin məşğulluğunu öyrənən rəsmi statistika da yevcuddur. Bu statistika ABŞ Əmək Departamentliyinin Əmək Statistika Bürosu tərfindən həyata keçirilir. Əmək Statistika Bürosu hər ay müxtəlif təsərrüfat sahələrinə aid müəssisə, idarə və təşkilatların seçmə müşahidəsinə, habelə ödəniş cədvəllərinə əsasən müxtəlif sahələrdə çalışan fəhlə və qulluqçuların sayını müəyyən edir.

Əmək Statistikası Bürosu apardığı seçmə tədqiqatını könüllülük prinsipinə əsasən həyata keçirir. Büro tədqiq edilən obyektlərə poçta ilə hər ay müvafiq formulyarlar göndərir. Bu formulyarlar doldurulduqdan sonra Əmək Statistikası Bürosunun yerli orqanlarına göndərilir. Əmək Statistikası Bürosu təqribən 160 minədək idarə və təşkilatdan daxil olan belə seçmə müşahidəsi mə"lumatlarına əsasən məşğuliyyəti olan əhalini təsərrüfat sahələri və sənaye sahələri üzrə bölmək imkanı əldə edir.

Müəssisə və təşkilatların seçmə müşahidəsi ilə əhatə dərəcəsi müxtəlif təsərrüfat sahələrində 20-100% arasında tərəddüd edir.

Əmək Statistikası Bürosu seçməyə düşən bütün qeyri- kənd təsərrüfatı müəssisələrində tam və qismən məşğuliyyəti olan əhalinin sayına və tərkibinə dair mə"lumat toplayır.

Əmək Statistikası Bürosu fəhlə və qulluqçuların ümumi sayı ilə yanaşı həm də istehsal fəhlələrinin sayına dair də ayrıca mə"lumat toplayır. İstehsal fəhlələrinin sayı hesabatlarda orta aylıq və saatlıq əmək haqqı və iş həftəsinin orta müddətinə dair mə"lumatlarla əlaqəli verilir. Deyilənlərdən əlavə Əmək Statistikası Bürosu işçi qüvvəsinin axınına dair də mə"lumat toplayır. Yekun nəşrlərində bu mə"lumatlar təsərrüfat sahələri üzrə təsnifatlaşdırılır. Əmək Statistikası Bürosunun əldə etdiyi cari mə"lumatlar hər müxtəlif sahələrin siyahıyaalmaların zəngin mə"lumatlarına əsasən tamamlanır və təshih edilir. Məsələn, sənayedə hər 5 ildən bir aparılan siyahıyaalmalar muzdlu əməkdən istifadə edən bütün fərdi və dövlət sənaye müəssisələrini başdan-başa əhatə edir. Bu siyahıyaalmalar ABŞ-da aparılan ən hərtərəfli və fundamental statistika müşahidələrindən biri olmaqla onun nəticələri müxtəlif iqtisadi tədqiqatlar üçün istifadə edilə bilir.

§8.5. Əmək bazarı və onun tənzimlənməsi

Daxili tənzimləyicilərin çoxluğu, habelə onların səmərəli fəaliyyətinin sosial zəruriliyi əmək bazarının ixtisaslı tənzimlənməsini tələb edir. Məşğuliyyət sahəsində belə tə"sirli tənzimlənmə prosesinin yaradılması hər bir ölkədə aparılan əsas sosial vəzifələrdən biridir.

Məşğulluq haqqında qəbul edilən Qanun, əmək birjasının yaradılması, işsizliyin qeydə alınması və s. bu istiqamətdə atılan zəruri addımlardan hesab edilir.

Əmək bazarının dövlət tərəfindən tənzimlənməsinin aşağıdakı əsas istiqamətlərini ayırmaq olar:

1. Məşğulluq dərəcəsinin artırılması və iş yerlərinin sayının çoxaldılmasının stimullaşdırılması proqramları.
2. İşçi qüvvəsinin hazırlanması və yenidən hazırlanması proqramları;
3. Muzdlu işçilərin işə götürülməsinə yardım proqramları;
4. İşsizliyin sosial sığortası (daha doğrusu) dövlətin işsizlərə yardım üçün vəsait ayırması üzrə proqramlar.

Bu proqram çərçivəsində iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə (Məsələn, ABŞ-da) hər il dövlət sektorunda çoxsaylı iş yerləri yaradılır və işsizliyin azaldılmasına yönəldilmiş konkret tədbirlər həyata keçirilir.


ABŞ-ın işədüzəltmə xidmətinin yerlərdə yaratdığı 2500-dən çox agentlik (əmək birjası) işsizləri qeydə alır, onlara boş yerlər axtarıb tapır və iddiaçıları testdən keçirir.

ABŞ-da kadrların hazırlanması və yenidən hazırlanması ilə ali və orta məktəblər, tədris kursları və mərkəzləri, habelə xüsusi korporasiya mərkəzləri məşğul olurlar.

Bazar iqtisadiyyatına keçmiş ölkələrdə əmək bazarının tənzimlənməsinin əsas məsələlərindən biri işsizliklə əmək haqqı arasındakı asılılığın sıxlığını və formasının müəyyənləşdirilməsidir. Bu iki hadisə arasındakı asılılığı qrafik üsulu ilə əks etdirmək üçün Fillips əyrisindən istifadə edilir.

İngilis iqtisadçısı A.Fillips İngiltərə üzrə 1861-1958-ci illərə aid mə"lumatlara əsasən tərtib etdiyi əyri aşağıdakı kimidir.

İşsizlik və onun ölçülməsi



Şəkil. 1. Fillips əyrisi

Burada Yr - qiymətin orta illik artım sürətini
Yi - işsizliyin səviyyəsini (%-lə) göstərir.

Fillips əyrisi ə"yani surətdə göstərir ki, qiymətlərin səviyyəsi ilə işsizliyin səviyyəsi arasında birbaşa düz əlaqə vardır-qiymətlərin səviyyəsi yüksəldikcə, inflyasiya artdıqca, işsizliyin səviyyəsi də yüksəlir.

Hətta əmək haqqı ilə qiymətlərin artım sür"ətlərinin dəyişmələri arasında eyni nisbət olduğu halda Fillipsin modeli işsizliklə qiymətlərin dəyişmə sür"əti arasındakı nisbəti əks etdirə bilir. Fillips əyrisi iqtisadiyyatın inkişafını tə"min edərkən aşağıdakı variantlardan birini seçməyi vacib hesab edir:

1. Ya yüksək məşğulluq maksimal iqtisadi artım şəraitində qiymətlərin sür"ətlə artımı;
2. Ya da qiymətlərin sabitliyi şəraitində yüksək işsizlik dərəcəsi.

Fillips əyrisi uzun illərdir ki, ABŞ-da və Qərb ölkələrində sosial-iqtisadi tənzimlənmənin əsası kimi istifadə edilir. Lakin bə"zi ölkələrin təcrübəsində işsizliklə inflyasiya arasında birbaşa düz əlaqə olması hallarına da rast gəlmək olur (yəni işsizlik artdığı şəraitdə qiymətlər də yüksəlir). Belə hallar iqtisadiyyatın tənzimləyicisi kimi, Fillips əyrisinə tənqidi yanaşmağı tələb edir.

Yuxarıda göstərilənlərdən əlavə işçi qüvvəsi bazarını dolayı tənzimləmək üçün bir sıra başqa tədbirlərdən də istifadə olunur. Dövlətin həyata keçirdiyi vergi, pul-kredit və amortizasiya siyasəti belə tədbirlərə aiddir. Bunlardan əlavə dövlətin sosial tə"minat, əmək

münasibətləri, vətəndaşlıq hüquqlarının müdafiəsi və bu kimi başqa sahələrdə müəyyən etdiyi qanunvericilik aktları da əmək bazarına tə"sir göstərir.

Əmək bazarının tənzimlənməsinə yönəldilmiş qeyri müstəqil tədbirlər eyni zamanda ümumi iqtisadi tədbirlər olmaqla, ölkədə yevcud olan konyuktura vasitəsi ilə məşğulluq və işsizliyin dinamikasına da tə"sir göstərən tədbirlərdir.

§8.6.Əmək birjası və xüsusi vasitəçi firmalar

Əmək bazarının tənzimlənməsi sistemində əmək bircası (məşğulluq xidməti, işədüzəltmə xidməti, muzdlu işədüzəltməyə yardım xidməti) xüsusi rol oynayır. Əmək bircası əmək bazarında vasitəçilik funksiyasını yerinə yetirən ixtisaslaşmış idarədir.

Bir çox ölkələrdə əmək bircaları dövlət idarəsi olmaqla öz fəaliyyətlərini əmək nazirliyinin (və ya ona bənzər başqa təşkilatların) rəhbərliyi ilə həyata keçirilir.

Bir çox ölkələrin əmək bazarında dövlət məşğulluq xidmətləri ilə yanaşı yüksək səmərəliliyə malik xüsusi vasitəçi firmalar da fəaliyyət göstərir. Məsələn, ABŞ-da 15 minədək belə firma fəaliyyət göstərir. MDB ölkələrində (o cümlədən Azərbaycan Respublikasında) əmək bircaları təzəcə yaradılır. Əmək bircalarının fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

1. İşsizliyin qeydiyyatı;
2. Boş olan yerlərin qeydiyyatı;
3. İşsizlərin və almaq istəyən başqa şəxslərin işə düzəldilməsi;
4. Əmək bazarının konyukturasını öyrənmək və onun haqqında mə"lumat vermək;
5. İş almaq arzusunda olan şəxslərin testləşdirilməsi;
6. İşsizlərin peşələrə yönəldilməsi və yeni peşələrin öyrədilməsi;
7. Yardımların ödənilməsi.

İnkişaf etmiş müasir dövlətlərin çoxunda vətəndaşların əksəriyyəti əmək bircaları vasitəsilə deyil, müəssisə və təşkilatların kadr idarələrinə bilavasitə müraciət etməklə, ya da xüsusi vasitəçi agentlərin keyəkliyi ilə işə düzəlirlər. Dünyada bu tipli ən böyük amerikan kompaniyası Menpauer (Menpower) müxtəlif ölkələrdə olan 1350 şö"bəsinin keyəkliyi ilə ildə 700 min nəfəri işə düzəldir və 30 minədək firmaya xidmət edir. ABŞ-da hər il əmək bircalarının xidmətlərindən (işə düzəltmə, yeni ixtisas alma, yardımların ödənilməsi və s.) 6-8 milyon nəfər işsiz istifadə edir. 1991-ci ildə "Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında" Qanun qəbul edilmiş və məşğulluq orqanları yaradılmışdır. 1991-1995-ci illərdə 207,1 min nəfər iş axtaran məşğulluq xidmətinə müraciət etmiş

onlardan 104,9 min nəfəri işlə tə"min olunmuşdur. 1996-cı ildə isə Azərbaycan Respublikasının məşğulluq orqanlarına 26,1 min nəfər müraciət etmiş və onlardan 12,2 min nəfəri işlə tə"min olunmuşdur. Respublikamızın məşğulluq orqanlarının mə"lumatına əsasən rəsmi qeydiyyatdan keçən işsizlərin sayında qadınların xüsusi çəkisi nisbətən sabit qalır və 60-61% təşkil edir.

Dünya ölkələrinin əmək qanunvericiliyində işsizliyə görə yardım almaq şərtlərini nəzərdə tutur. ABŞ-da onun müddəti 26 həftə müəyyən edilmiş və bə"zi hallarda 13 həftə də uzadıla bilər. 1994-cü ildə işsizliyə görə yardımın orta həftəlik həeyi 200 dollara bərabər olmuşdur.

Rusiya Federasiyasında əhalinin məşğulluğu və işsizliyə görə yardımların ödənilməsinə dair qüvvədə olan Əsasnaməyə əsasən məşğulluq mərkəzi işə düzəltmək üçün müraciət etmiş işsiz vətəndaşlara on gün müddətində iki variantda müvafiq iş təklif etməlidir. Peşəsi olmayan və ilk dəfə işləmək arzusunda olanlara iki variantda peşə hazırlığı keçmək və ya haqqı ödənilən iş təklif etməlidir. İşsizləri tə"min etmək üçün müvafiq iş olmadığında məşğulluq xidməti onları təkmilləşdirir və yeni ixtisas əldə etmək üçün məktəblərə göndərir.

İşsiz və ilk dəfə iş axtaran şəxs işlə tə"min olunmaq üçün ona edilən iki təklifdən istifadə etmədikdə o, işsiz statusundan məhrum edilir.

Məşğulluq mərkəzi konkret şəxsi işsiz hesab edən kimi ona işsizliyə görə yardımın həeyini də müəyyən edir. İşsizliyə görə yardımın həeyi yevcud əsasnaməyə əsasən işsizlər sırasına daxil edilən vətəndaşların kateqoriyasından asılı olaraq müəyyənləşdirilir. Məsələn, hər hansı səbəb üzrə işdən azad edilmiş və işdən azad edilməzdən əvvəl ən azı 12 həftə haqqı ödənilən işi olan şəxsləri işsizliyin ilk üç ayında əvvəlki əmək haqqının 75%-i qədər, sonrakı dörd ayda 60%-i qədər və sonradan isə 45%-i qədər yardım ödənilir. Son on iki həftə ərzində haqqı ödənilən işi olmayanlara işsizlik üzrə yardım minimum əmək haqqı qədər müəyyən edilir və s.

İşsizlik üzrə yardımın verilmə müddəti on iki təqvim ayından çox ola bilməz. İşsiz olan şəxs işə düzəldikdə, təqaüd və ya pensiya aldıqda, yeni peşə aldıqda və ixtisas səviyyəsi artırıldıqda işsizliyə görə yardımın ödənilməsi dayandırılır.

Məşğulluq və işsizlik probleminin dövlət tərəfindən tənzimlənməsi Rusiya Federasiyasında Əmək Nazirliyi və Azərbaycan Respublikasında isə Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir.

Bir çox iqtisadçıların fikrikeə iqtisadi inkişafın stimullaşdırılması, iş həftəsinin ixtisar edilməsi və kadrların yenidən hazırlanmasının səmərəli sistemini yaratmaqla işsizliyi və əmək bazarındakı bir çox

uyğunsuzluqları yumşaltmaq mümkündür.

§8.7.Əhalinin və əmək ehtiyatlarının beynəlxalq miqrasiyası.

a)Beynəlxalq miqrasiyanın mahiyyəti, tərkib hissələri və kateqoriyaları

Dünya iqtisadiyyatının qloballaşması dərinləşdikcə işçi qüvvəsi və əhalinin beynəlxalq miqrasiyası bir çox ölkələrin iqtisadi, sosial və demoqrafik inkişafının ən mühüm amilinə çevrilir. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası (Labor force migration) dedikdə, əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi, siyasi və başqa səbəblər üzündən bir ölkədən başqasına köçməsi başa düşülür. Obyekti və müşahidə vahidi insan olduğuna görə miqrasiya beynəlxalq iqtisadi münasibətlərin ən mürəkkəb ünsürlərindən biri hesab edilir.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının mahiyyəti öz ölkəsindəki nisbətən daha əlverişli işə düzəlmək məqsədi ilə əmək ehtiyatlarının bir ölkədən başqasına yer dəyişməsindən (köçməkdən) ibarətdir. Beynəlxalq miqrasiya prosesi iqtisadi səbəblərdən əlavə siyasi, etnik, mədəni və başqa mülahizələrə əsasən də baş verə bilər.

İşçi qüvvəsinin beynəlxalq miqyasda miqr..siyasının tarixi çox qədimdir. Quldarlıq dövründə aparılan müharibələr nəticəsində əsir götürülmüş əmək qabiliyyətli əhalinin uzaq ölkələrin qul bazarında satılması adi hal idi. Amerika qit"əsi kəşf edildikdən sonra Afrika zəkeilərinin yeni dünyaya daşınması təşkil olunmuş irimiqyaslı miqrasiyaya misal ola bilər. Quldarlıq ləğv edildikdən sonra Köhnə dünyadan ABŞ-a işçi qüvvəsi axını-emmiqrasiyası başlandı.

Miqrasiya edənlər arasında XIX əsrin əvvələrində sənaye fəhlələri, həmin əsrin sonunda isə müflisləşmiş kəndlilər üstünlük təşkil edirdi.

İkikei dünya müharibəsindən sonra dünya əmək bazarına elmi-texniki ziyalılar və ixtisaslı fəhlələr çıxdı.

Beynəlxalq miqrasiyaya mə"ruz qalan işçi qüvvəsinin dəqiq uçotunu aparmaq çətindir. Miqrantların ümumi sayı həmişə müəyyən təqribiliklə müəyyən edilir.

Başqa ölkədə yaşamaq və işləmək istəyənlər leqal yolla getdikdə onların sayını və tərkibini müəyyən etmək asandır. Qeyri-leqal gedən miqrantların dəqiq sayını müəyyən etmək isə çətindir.

XX əsrin 90-cı illərinin ortalarında dünyada təqribən 125 milyon nəfərin öz vətənlərindən kənarda olduğu mə"lumdur. Son illərdə hər il orta hesabla 20 milyonadək adam bir ölkədən başqasına köçür. ABŞ-da 7 milyon, Qərbi Avropada 6,5 milyon, Latın Amerikası ölkələrində 4 milyon, Yaxın Şərq və Afrika ölkələrində 3 milyon nəfər xarici ölkələrdən gəlmə fəhlə çalışdığı mə"lumdur, Fransada, tikintidə çalışan fəhlələrin 1/3-i və avtomobilqayırmaqda isə 1/4-i, Belçikada

dağ-mədən sənayesi işçilərinin yarısı, İsveçrədə tikinti fəhlələrinin 40%-ni immiqrantlar təşkil edir.

Beynəlxalq miqrasiya iki tərkib hissəsindən ibarətdir.

1.Emmiqrasiya.

2.İmmiqrasiya.

Daimi yaşamaq üçün insanların bir ölkədən başqa ölkəyə getməsi emmiqrasiya, başqa ölkədən konkret ölkəyə gəlməsi isə immiqrasiya adlanır.

İnsanların öz daimi yaşadıqları ölkədən zorla çıxarılması deportasiya, köçüb getdiyi ölkədən öz doğma vətəninə qayıtması isə repatriasiya adlanır.

Beynəlxalq miqrantlar aşağıdakı beş kateqoriyaya ayrılır:

1. İmmiqrantlar və ölkəyə buraxılmış qeyri-immiqrantlar. İmmiqrasiyanı daima qəbul edən ən"ənəvi ölkələr üçün 1980-1990-cı illər yüksək immiqrasiya dövrü olmuşdur.

2. Kontraktlar üzrə miqrant işçilər. Əmək ehtiyatları az olan bir çox ölkələrin iqtisadiyyatının inkişafı xarici işçi qüvvəsindən asılıdır. Belə ölkələrin artıq işçi qüvvəsi olan ölkələrlə razılaşmaları kontraktlarla rəsmiləşdirilir. Məsələn, Asiyanın və Yaxın Şərqin bir sıra ölkələri ilə Avropanın inkişaf etmiş ölkələri arasında belə kontraktlardan geniş istifadə olunur. Son vaxtlarda azərbaycanlı mütəxəssislərin belə kontraktlar üzrə xarici ölkələrə getməsi müşahidə olunur.

3. Qeyri-leqal (gizli) immiqrantlar. Sənaydeə inkişaf etmiş ölkələrin demək olar ki, hamısında xəlvəti (gizli) yolla gəlmiş immiqrantlar var. Müəyyən edilməmiş yollarla sərhəddi keçənlər viza müddəti qurtardıqdan sonra gəldikləri xarici ölkədə qalanlar və başqaları belələrinə aiddir. Belə işçilər adətən ən aşağı əmək haqqı verilən yerlərdə işləyirlər.

4. Sığınacaq istəyən şəxslər. Bu kateqoriyadan olan miqrantların sayı səksənikei illərədək çox az idi. Son vaxtlarda dünyada siyasi və iqtisadi münasibətlərdə baş verən ciddi dəyişikliklər belə şəxslərin sayının artmasına şərait yaratdı.

5. Qaçqınlar. BMT-nin mə"lumatına əsasən doxsanıkei illərin əvvəlində dünyada 17 milyondan çox qaçqın vardı. Dağlıq Qarabağda, Abxaziyada, Osetiyada, Bosniyada və dünyanın başqa yerlərində baş verən toqquşmalar qaçqınların sayını daha da artırdı. 1996-cı ildə Azərbaycanda Ermənistandan, Gürcüstandan və Azərbaycanın ermənilər tərəfindən tutulmuş ərazilərindən qovulmuş bir milyonadək qaçqın və köçkün vardır. Belə şəxslər adətən BMT-nin himayəsi altında xüsusi düşərgələrdə yaşayırlar.

İşçi qüvvəsinin miqrasiyası bazar iqtisadiyyatına xas olan obeyktiv

prosesdir. Ölkələr arasında kapital axını, xarici iqtisadi əlaqələrin genişlənməsi, beynəlxalq iqtisadi inteqrasiya və s. kimi miqrasiya da obyektiv prosesdir. Bazar qanunlarına uyğun olaraq əmək ehtiyatları özünə maksimum səmərə verən tətbiq yeri axtarırlar. Belə məkanı onlar adətən vətəndən kənarda tapdıqlarına görə öz daimi yaşayış yerlərini dəyişməli olurlar. Başqa iqtisadi resurslardan fərqli olaraq əmək resursları beynəlxalq iqtisadi münasibətlərin həm obyekti və həm də subyektidir. Bundan əlavə beynəlxalq miqrasiya həm donor ölkələr və həm də qəbul edən ölkələrə iqtisadi, demoqrafik və sosial-psixoloci tə"sir göstərir.

Beynəlxalq miqrasiya axınının əsas istiqaməti inkişaf etmiş ölkələr, xüsusilə də ABŞ-dır. Yetmişikei illərdə bu ölkəyə gələnlərin sayı 4,5 milyon nəfərə çatmışdı. Bu altmışıkeı illərdəki immiqrasiyanın 1/3-i qədər çoxdur. Həmin vaxt ABŞ-da əhali artımının 20%-ni immiqrantlar təşkil etmişdir. Səksənikei illərdə bu axın daha da gücləndi və ABŞ-ın əhali artımının 39%-ni təşkil etdi. Bu illərdə ABŞ-a 6 milyon açıq və qeyri leqal yolla isə 2 milyon şəxs immiqrasiya etmişdir.

Qərbi Avropa ölkələrinə (Almaniya, Fransa və Böyük Britaniya) gələn işçi qüvəsinin orta illik sayı 600 min nəfər, ailə üzvləri ilə birlikdə onların sayı isə 1,3 milyon nəfərə çatır.

Son illərdə İsrail, Avstriya və Rusiya da başqa ölkələrdən işçi qüvvəsi cəlb edən ölkələr sırasına daxil olmuşdur.

Tarixin müxtəlif dövrlərində miqrantların mənşəyi və tərkibində də müəyyən dəyişikliklər baş verir. Belə dəyişikliklər donor ölkələrin və qəbul edən ölkələrin müasir dünyada yevqeyindən, imkanlarından, habelə ölkələr arasında tarixən yevcud olan etnik, coğrafi və tarixi əlaqələrdən asılı olaraq formalaşır. Məsələn, ABŞ-a gələnlərin əsas mənbəyi Kanada və Qərbi Avropa ölkələri (79%) idisə, yetmişikei-səksənikei illərdə Latın Amerikası ölkələri üstünlük (84%) təşkil edirdi. Səksənikei illərdə ABŞ-a leqal gələnlərin çox hissəsini (1,5 milyon nəfər) ali təhsilli şəxslər, sərhəddi gizli keçənlərin isə 33,1%-ni orta təhsili olmayanlar təşkil edirdi. Başqa bir misal: doxsanıkeı illərədək Ermənistan və Gürcüstandan Azərbaycana gələnlərin əksəriyyəti ali təhsilli mütəxəssislər və ali təhsil almağa gələn gəkələr idisə son dövrdə həmin istiqamətdə gələnlər arasında uşaqların, qocaların və aşağı ixtisaslı şəxslərin xüsusi çəkisi artmışdır.

b) Miqrasiyanın miqyası və istiqamətləri İrəlidə deyildiyi kimi, xarici miqrasiyanın həcyini dəqiq müəyyən etmək çox çətindir. Bu məqsədlə istifadə olunan ən e"tibarlı mənbə tə"diyyə balansıdır. Tə"diyyə balansında işçi qüvvəsinin miqrasiyası ilə əlaqədar olan göstəricilər cari əməliyyatlar

balansının bir hissəsi olmaqla aşağıdakı kimi təsnifatlaşdırılır:

1. Zəhmətlə qazanılmış gəlir (Labor incone), məşğuliyyəti olanlara ödənişlər;
2. Miqrantların yer dəyişməsi (migrats transfers);
3. İşçilərin köçürmələri (workers remmittances).

Birikei qrupa qeyri-rezidentlər yerinə yetirdikləri iş üçün rezidentlərin əmək haqqı və başqa ödənişlər şəklində verdikləri məbləğlər daxildir. Qeyri- rezidentlərin muzdla işə götürülməsi ilə əlaqədar olaraq rezidentlərin pensiya, sığorta və başqa fondlara etdikləri ödənişlər də buraya daxil olur. Xatırladaq ki, qeyri-rezident dedikdə bu ölkədə bir ildən az müddətdə işləyən xarici işçilər (o cümlədən müvəqqəti qazake əldə etmək üçün həmsərhəd ölkələrdən gəlmiş işçilər, yevsümi işçilər və xarici səfirliklərin işçiləri) başa düşülür.

Miqrantların yerdəyişməsi ilə əlaqədar xərclərə miqrantların özləri ilə apardıqları əmlakın dəyərinin pulla ekvivalenti başa düşülür. Həm də emmiqrantların özləri ilə apardıqları əmlak ölkədən ixrac edilən əmtəə kimi, onların dəyərinin pulla ekvivalenti də bu maddədə uçota alınır.

İşçilərin köçürmələri dedikdə miqrantların vətəndə qalmış qohumlarına göndərdikləri pul və əmtəələr başa düşülür. Göndərmə əmtəə və ya əşyalardan ibarət olduqda onların dəyəri uçota alınır.

"Miqrantların yerdəyişməsi" və "İşçilərin köçürmələri" adlı maddələr yalnız rezidentlərin, yəni bir ildən çox müddətdə həmin ölkədə yaşayan miqrantların gəlirləri və məsrəflərini əhatə edir. Bu iki maddə cari əməliyyatlar çərçivəsində ödənilməmiş fərdi köçürmələr qrupunda birləşdirilir.

Ödənilməmiş fərdi köçürmələr (private unrequited transfers) miqrantların xaricə gedərkən özləri ilə apardıqları əmlakın və oradan vətənə göndərdikləri əmtəə və əşyaların pul ekvivalentidir. Təcrübədə bu və ya digər köçürmənin dəqiq olaraq hansı maddəyə daxil olmasını müəyyənləşdirmək çətindir.

Müvəqqəti qazake üçün xaricə getmiş şəxs orada bir ildən artıq qalıb (emmiqrant olub) işləyə bilər və yaxud da yaşamaq üçün həmişəlik xaricə köçmüş və əmlakı köçürmə kimi qeydə alınmış şəxs öz fikrini dəyişərək bir il yaşamamış vətənə qayıda bilər. Belə halda bir qayda olaraq sərhəddi keçərkən yevcud durumu qeydə almaq prinsipinə əməl edilir və sonradan heç bir yenidən hesablama aparılmır.

Təqribi hesablamalara görə doxsanıkeı ilin ortalarında miqrasiya saldosu 1 milyon nəfər təşkil edirdi. Proqnozlara görə yaxın illərdə dünya iqtisadiyyatının sabitləşməsi nəticəsində miqrasiya saldosu azalacaqdır. Beynəlxalq miqrasiya ilə əlaqədar illik pul köçürmələrinin

məbləği yüz milyard dollarla ölçülür. Məsələn, 1993-cü ildə bütün maddələr üzrə beynəlxalq miqrasiya ilə əlaqədar pul köçürmələri hesabının debiti 116,3 milyard manata, krediti isə - 129,1 milyard manata bərabər olmuşdur.

Xarici ölkələrdən gəlmiş qeyri-rezident fəhlələrin zəhmətlə qazanılan əməyinin ödənilməsinə çəkilən xərclərin 90%-i, fərdi ödənilməmiş köçürmələrin isə 2/3 hissəsi inkişaf etmiş ölkələrin payına düşür. Bu o deməkdir ki, miqrant müvəqqəti işçilərin əsas kütləsi inkişaf etmiş ölkələrdə toplanmışdır. Keçid iqtisadiyyatına malik ölkələr də daxil olmaqla inkişaf etməkdə olan ölkələrin əmək qabiliyyətli yaşda olan əhalisinin xeyli hissəsi yüksək əmək haqqı ödəyən inkişaf etmiş ölkələrə miqrasiya etməyə can atırlar.

Fərdi qeyri-rezident işçilərə ən yüksək zəhmət haqqı ödəyən ölkələr sırasına İsveçrə, Almaniya, İtaliya, ABŞ, Yaponiya, Belçika və başqaları aiddir. İnkişaf etməkdə olan ölkələrdən CAR, Küveyt, İsrail və Malaziya xarici işçi qüvvəsinin əməyindən daha geniş istifadə edir. İrihəcmli fərdi xarakterli köçürmələr ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya kimi inkişaf etmiş ölkələrdən, habelə yeni yaranmış sənaye və neftçıxarma inkişaf etməkdə olan (Koreya, Venesuela, Səudiyyə Ərəbistanı) ölkələrindən göndərilir. Çox güman ki, bu ölkələr sırasına dünyanın bir çox ölkələri ilə müqavilə bağlamış Azərbaycan Respublikası da daxil olacaqdır.

İnkişaf etməkdə olan ölkələrin bir çoxunda (Banqladeş, Misir, Yamayka, Yunanıstan, Mərakeş, Pakistan, Portuqaliya, Sudan, Türkiyə və b.) fərdi xarakterli köçürmələr əmtəə ixracatından alınan gəlirlərin 25-50%-ni təşkil edir. İordaniya, Lesoto və Yəməndə köçürmələr ÜMM-un 10-50%-ni təşkil edir.

İşçi qüvvəsi ixrac edən ölkələrin gəliri emmiqrantların təkcə xaricdən göndərdikləri pul köçürmələri ilə məhdudlaşmır. ÜMM-u artıran və tə"diyyə balansına müsbət tə"sir edən sair ödənişlər sırasına xaricdə işləmək üçün işçi toplayan firmalara qoyulan vergilər, öz ölkələrinin iqtisadiyyatını yüksəltmək üçün emmiqrantların qoyduğu investisiya, emmiqrantların təhsili, səhiyyəsi və digər sosial xarakterli xərclərin başqa ölkələr tərəfindən ödənilən hissəsi və s. aiddir.

Xaricdə işləyib yüksək qazake əldə edən emmiqrantlar vətənə yüksək ixtisaslı mütəxəssis kimi qayıdırlar. Beləliklə də donor ölkə pulsuz hazırlanmış ixtisaslı kadr əldə etmək imkanı qazanır. Hindistandan və Cənubi Koreyadan olan mühacirlər Silikoniyadakı ABŞ korporasiyalarında çalışdıqdan sonra öz ölkələrinə qayıdaraq dünya rəqabətinə tab gətirə bilən kompyuterlərin istehsalını təşkil etdilər.

Əmək ehtiyatları artıq olan ölkələrdə işsizliyi ixtisar etmək üçün emmiqrasiya ən tə"sirli vasitələrdən biridir. 70-ci illərdə Misir

hökuməti işsizliyə qarşı qəbul etdiyi proqramda İran körfəzi ölkələrinə emmiqrasiyanı stimullaşdıran bəndlər daxil etmişdi. Puerto-Rikoda minimum əmək haqqını müəyyən edərkən işçi qüvvəsinin ən azı üçdə birinin ABŞ-a köçəcəyi nəzərdə tutulmuşdu.

Xaricdən gələnlərin iş yerlərinin sayını azaltmalarını və yerli əhali arasında işsizliyin artmasına şərait yaratmasına əsas tutaraq immiqrasiyanı mənfi hadisə kimi təsvir edirlər. Belə problemin yevcudluğunu inkar etmək olmaz. Nəzərə almaq lazımdır ki, immiqrantlar gəldikləri və qayıtdıqları ölkəyə yeni təcrübə, bilik, vərdiş, iqtisadiyyata dinamiklik gətirir. ABŞ, Kanada və Avstraliya immiqrasiya nəticəsində inkişaf etmişdir.

İmmiqrasiya bir çox hallarda yerli əhalinin can atmadığı boş iş yerlərinin tutulmasında müstəsna rol oynayır. Məsələn, Almaniya və Fransaya immiqrasiya edənlərin 60-80%-ni Türkiyədən və Şimali Afrika ölkələrindən gəlmiş aşağı ixtisaslı işçilər olduğu mə"lumdur. İsraildə ağır işlərdə fələstinlilər, Malaziyada indoneziyalılar, Argentinada boliviyalılar daha həvəslə işə götürülür.

İqtisadi səbəblər üzrə yaranan miqrasiyanın istiqaməti adətən fərdi gəliri aşağı olan ölkələrdən gəliri yüksək olan ölkələrə doğru formalaşır.

İqtisadi vəziyyətin dəyişməsi nəticəsində beynəlxalq miqrasiyanın istiqaməti də dəyişir.

Başqa ölkələrdən miqrantları cəlb edən aşağıdakı cazibə keqtələrini ayırmaq olar:

1. ABŞ, Kanada və Avstraliya;
2. Qərbi Avropa;
3. Yaxın Şərq;
4. Başqa inkişaf etməkdə olan ölkələr;
5. Yeni sənaye ölkələri.

v) Beynəlxalq miqrasiyanın tənzimlənməsi Əhalinin və işçi qüvvəsinin miqrasiyası mürəkkəb proses kimi, beynəlxalq və ayrı-ayrı ölkələrin qanunvericilik aktları ilə tənzimləşdirilir. Bu sahədə yevcud olan qanunvericilikdə iki ən"ənə müşahidə olunur:

1. İşçi qüvvəsi və əhalinin sərbəst yerdəyişməsinə imkan verən açıq iqtisadiyyata uyğun gələn ən"ənə;
2. Beynəlxalq miqrasiya sahəsində himayəçiliyə (proteksionizmə) və məhdudiyyətə uyğun gələn ən"ənə.

Hələ XVIII əsrdə İngiltərədə sənaye fəhlələrinin xaricə emmiqrasiyasını qadağan edən qanun qəbul edilmişdir. XIX əsrdə Avropa dövlətlərinin çoxu arzuolunmaz şəxslərin ölkəyə gəlməsini məhdudlaşdıran

qanunlar qəbul etdilər. Elə o vaxtdan başlayaraq dövlətlər öz aralarında miqrasiyanı tənzimləyən ikitərəfli konvensiyalar qəbul etməyə başladılar. Həmin razılaşmaların bə"zisi indiyədək qüvvədə qalmaqdadır.

Beynəlxalq Konvensiyalar, o cümlədən BMT-nin 1948-ci ildə insan hüquqlarına dair qəbul etdiyi deklarasiyada yaşayış və iş yerinin azad seçilməsi hüququ təsdiqləndi. Bununla yanaşı ölkələrarası miqrasiya prosesini tənzim edən beynəlxalq hüquq aktları əhalinin və işçi qüvvəsinin yerdəyişməsinin liberal normalarını müəyyən edir. Məsələn, Avropa İttifaqının (Aİ) 1957-ci ildə bağlanmış Roma müqaviləsinə görə (52-ci paraqraf) 1958-ci ildən Aİ üzvü olan ölkələrdən olan işçilərə bir-birinin ərazisində iş axtarmaq hüququ verildi. 1985-ci il Şenqen Razılaşmasına əsasən 1993-cü ildən həmin sənədi imza edən ölkələrə gəlmə və getmə vizalarının yeni qaydası müəyyən edildi.

1990-cı il Dublin Konvensiyası isə sığınacaq verilməsi qaydalarını müəyyən etdi.

Hər bir ölkədə milli miqrasiya siyasəti işlənib hazırlanır. Dövlətin miqrasiya siyasəti ölkəyə gəlmə və getmə qaydalarını, vətəndaşlığın verilməsi, məhrum edilməsi və ölkədə yaşamağın başqa statusunu, xarici işçi qüvvəsinin ölkədə istifadəsini miqrant-işçilərin xaricdə işlədikləri müddətdə sosial müdafiəsi sisteminin yaradılması, qaçqın axınını məhdudlaşdıran və onların sosial müdafiəsini tənzimləyən kompleks qanunvericilik, təşkilati və başqa tədbirlərin toplusudur.

Nəzarət edilməyən miqrasiyanın sosial vəziyyətə və əmək bazarına tə"sirinə yol verməmək üçün inkişaf etmiş ölkələrin çoxunda öz ölkəsinin əhalisini və iqtisadiyyatını müdafiə edən müəyyən siyasət həyata keçirilir. ABŞ-da immiqrasiyaya dair 1990-cı ildən qüvvəyə minmiş qanuna əsasən 1995-ci ildən sonra hər il ölkəyə 675 min nəfərin gəlməsinə icazə verir. 1993-cü ildən sonra Almaniyada, Avstriyada, İtaliyada, İspaniyada və Portuqaliyada da immiqrasiyanı məhdudlaşdıran qanun qəbul edilmişdir.

Xaricilərin ölkəyə gəlməsini tənzimləyən ölkələrin qanunvericilik aktlarında hər şeydən əvvəl immiqrantlarla qeyri-immiqrantları dəqiq ayırmağa diqqət yetirilir.

Qəbul edən ölkələrdə kifayət qədər uzun müddət qala bilmələrinə baxmayaraq əsas diqqət əmək immiqrant tənzimlənməsinə yetirilir. Adətən dövlət tənzimlənməsi dövlət büdcəsi vasitəsilə xarici işçi qüvvəsinin axınını (immiqrasiyanı) məhdudlaşdırmaq, ya da miqrantların geri vətənə qayıtmalarının (reemiqrasiyasını) stimullaşdırılması yolu ilə həyata keçirilir.

Qəbul edən ölkələrin çoxu immiqrasiyasını tənzim edərkən məsələyə selektiv yanaşma üsulundan istifadə edirlər. Bu üsulun mahiyyəti başqalarını qadağan etməklə bu ölkəyə lazım olan işçi

kateqoriyasının gəlməsinə icazə verməkdən ibarətdir. İmmiqrasiyasına arzu edilənlərin tərkibi ayrı-ayrı ölkələrdə müxtəlif olsa da əsasən aşağıdakı kateqoriyaları əhatə edir:

1. Minimal əmək ödənişi ilə hər cür ağır, zərərli, çirkli və ixtisas tələb etməyən işlərdə çalışmağa hazır olan işçilər;
2. Yeni və perspektivli sahələr üzrə mütəxəssislər (proqramistlər, dar ixtisaslar üzrə mütəxəssislər, bank işçiləri və s.);
3. Nadir peşələrin mütəxəssisləri (almaz cilalayanlar, rəsm bərpaçıları, qeyri-ən"ənəvi üsullarla müalicə edən həkimlər və s.);
4. Dünya şöhrətli mütəxəssislər (alimlər, artistlər, musiqiçilər, idmançılar, yazıçılar, həkimlər və s.);
5. Qəbul edən ölkələrə investisiya kapitalı gətirən və yeni iş yerləri açan iri biznesmenlər.

Bir çox ölkələrdə immiqrantların ölkəyə daxil olmasına icazə iş verənlərlə bağlanmış müqavilələr və immiqrantların icra etdikləri işə xüsusi vərdişlərin tələb edilməsini və həmin işlərin yerli fəhlələrin yerinə yetirə bilmələrinə dair Əmək Nazirliyinin rə"yinə əsasən verilir. Bə"zi ölkələrdə immiqrantın gəlməsinə icazə verməmişdən qabaq iş verənlər Daxili İşlər Nazirliyi və sahənin həmkarlar ittifaqının icazəsini də almalıdırlar.

Ayrı ayrı ölkələrdə immiqrantların qəbul edilməsi və sosial müdafiəsini tənzimləyən müxtəlif hüquqi sənədlər yevcuddur.

İmmiqrasiya qanunvericiliyinin əsas əlamətləri aşağıdakılardır:

1. Peşə üzrə ixtisas dərəcəsi.

Qəbul edən bütün ölkələrin qanunvericiliyi təhsil səviyyəsi və ixtisas üzrə iş stacına sərt tələblər müəyyən edir. Təhsilə minimum tələbat müvafiq sənədlə təsdiq edilən tam orta məktəbi və ya texniki-peşə məktəblərini bitirməkdən ibarətdir. Bir çox hallarda təhsil və ixtisas səviyyəsinə aid immiqrantın sənədləri (diplom və s.) qəbul edən ölkənin tələblərinə uyğun olub-olmamasını təsdiq etmək üçün yoxlama yolu ilə yenidən qiymətləndirilir;

2. Fərdi xarakterli məhdudiyyətlər.

Qəbul edən ölkələrin qanunları immiqrantın sağlamlığına dair sərt tələblər irəli sürür. Bir qayda olaraq narkomanlar, SPİD və ruhi xəstəliyi olanlar ölkəyə buraxılmır.

Odur ki, hər bir immiqrant öz səhhətinə dair tibb arayışı təqdim etməlidir. Adətən immiqrantlar üçün yaş senzi 25-40 arasında müəyyən edilir.

İmmiqrantın sosial və siyasi simasına ciddi sərt tələblər irəli sürülür. Bir çox hallarda əvvəllər məhkum edilmişlər, terrorçu təşkilatların və arzu edilməz siyasi partiyaların üzvlərinin immiqrasiyasına icazə verilmir.

3. Kəmiyyət kvotalaşdırılması.

Qəbul edən ölkələrin əksəriyyəti qəbul edə biləcəkləri immiqrantların maksimum miqdarını müəyyən edirlər. Kəmiyyət kvotaları iqtisadiyyat üzrə bütövlükdə konkret sahənin və ya ayrıca müəssisənin butun əmək ehtiyatlarının tərkibində xarici fəhlələrin xüsusi çəkisi, müəyyən etməklə və ya hər il ərzində ölkəyə gələn immiqrantların maksimum sayı formasında müəyyən edilə bilər.

4. İqtisadi tənzimləmə. Bu üsul immiqrantların gəlməsini məhdudlaşdırmaq məqsədilə tətbiq edilir. Hüquqi şəxslər istehsalın və ya satışın həcyini müəyyən həcyə çatdırdıqdan, habelə dövlət büdcəsinə müvafiq vergi verdikdən sonra xarici fəhlələri muzdlu işə qəbul edə bilərlər. Fərdi şəxsləri qəbul edən ölkənin iqtisadiyyatına qanunla müəyyən edilmiş məbləğdə investisiya qoymağa, həmin pulların mənbəyinin leqal olmasını təsdiqləyərək yeni iş yerləri açmağa hazır olduqdan sonra immiqrasiya etməyə icazə verilir. Bə"zi ölkələrin qanunvericiliyinə əsasən immiqrasiyanın rəsmiləşdirilməsinin və yerli müəssisələrdə işə düzəldilməsindən ötrü immiqrantlar müəyyən məbləğ ödəməlidirlər.

5. Vaxt məhdudiyyəti. Bir çox ölkələrin qanunvericiliyi immiqrantların ölkədə maksimum qalma müddətini müəyyən edir. Bu müddət qurtardıqdan sonra immiqrant ya həmin ölkəni tərk etməli, ya da həmin ölkədə qalmaq üçün müvafiq orqanlardan icazə almalıdır.

6. Coğrafi üstünlük. Qəbul edən ölkələrin demək olar ki, hamısı immiqrantların milli və coğrafi tərkibini müəyyən edirlər. Bu isə adətən müəyyən ölkədən qəbul ediləcək immiqrantların miqdarı kvotası ilə tənzimlənir.

7. Qadağanlar. Bə"zi peşələrə dair qanunlarda xarici işçi qüvvəsinin qəbul edilməsinə açıq və gizli qadağanlar yevcud olur. Belə qanunlarda xaricilərin işləməsi qadağan edilən peşələrin adı çəkilir, gizli qanunlarda isə yalnız yerli vətəndaşlarının işləməli olduğu sahə və ixtisasların adları verilir.

70-ci illərdən sonra işsizliyin səbəbini immiqrasiyada görən həmkarlar ittifaqlarının təzyiqi ilə bir çox Qərb ölkələri immiqrantların geriyə - öz vətənlərinə qayıtmalarını (reimmiqrasiya) stimullaşdırmaq üçün aşağıdakı tədbirlər həyata keçirməyə başlamışlar:

1.Reimmiqrasiyanı stimullaşdıran proqramların qəbulu.

Belə proqramlar qeyri-qanuni immiqrantların zorla reportasiyasından (çıxarılasından) tutmuş vətənə qayıtmaq arzusunda olan immiqrantlara maddi yardım göstərməyədək geniş tədbirlər sistemini əhatə edir.

2. İmmiqrantların peşə hazırlığı proqramı.

İmmiqrantların vətənlərinə geri qayıtmalarını tə"min etmək üçün

bə"zi Avropa ölkələrində (Almaniyada, Fransada, İsveçdə) immiqrantlara peşə təhsili məktəbləri yaradılır. Belə məktəblərin yaradılmasında məqsəd immiqrantın öz vətəninə yuxarı ixtisaslı sənətkar kimi (yüksək gəlir əldə etmək imkanına malik) qayıtması imkanını stimullaşdırmaqdır. Lakin belə proqramlar immiqrantları cəlb etmədi.

3. Kütləvi emmtiqrasiya ölkələrinin iqtisadi yardım proqramı.

Belə proqramda əsasən inkişaf etmiş ölkələr işçi qüvvəsi ixrac edən ölkələrdə yeni iş yerləri açmaq məqsədilə kooperativlər, birgə müəssisələr, kompaniyalar, komissiyonlar yaradır və immiqrantların geri qayıtması və orada işləməsi üçün güzəştli şərtlər müəyyən edilir. Bu münasibətlər Almaniya və Türkiyə arasında daha geniş inkişaf etməlidir. Almaniyanın pulu ilə yaranmış belə türk kompaniyaları Türkiyədən Almaniyaya immiqrasiyanın qarşısını xeyli almaqla yanaşı reemmiqrasiyanı da qismən stimullaşdıra bildi. Lakin bir çox hallarda belə proqramlar istənilən nəticələri vermir. İnkişaf etmiş ölkələrin belə proqramlara ayırdığı vəsait azaldıqca yeni yaradılmış müəssisələrin səmərəliliyi də azalır. Bu isə reemmiqrasiyanın sür"ətini azaldır.

Keçmiş Sovet ittifaqında olduğu kimi, Azərbaycan vətəndaşlarının xaricə getməsi sərt qanunlarla məhdudlaşdırılmışdır. Öz müstəqilliyini bərpa etmiş və demokratik cəmiyyət quran Azərbaycan Respublikası ölkəmizə gəlmə və getmə qaydalarını tənzimləyən yeni hüquqi qanun qəbul etdi. Bu qanuna əsasən respublikamızda hər bir vətəndaşın istədiyi xarici ölkəyə getmək, orada yaşamaq və işləmək hüququ verir. Həmin qanuna əsasən Azərbaycan Respublikasının hər bir vətəndaşına xarici ölkəyə getmək üçün xarici pasport almaq, xarici ölkələrdə yaşamaq və işləmək hüququ verilir. Dövlət sirlərinə bələd olan və xüsusi xidmət işçiləri (hərbçilər və s., habelə qatı cinayətlər törətmiş şəxslərin xaricə getməsi xüsusi qanunlarla tənzimlənir. Xarici işçi qüvvələrinin Azərbaycanda istifadə olunmasına dair məsələlər Azərbaycan Respublikası Prezidentinin xüsusi fərmanı ilə tənzim edilir.

q)Miqrasiyanın iqtisadi səmərəsi İşçi qüvvəsinin beynəlxalq miqrasiyası həm iqtisadi, həm də qeyri-iqtisadi səbəblər üzrə baş verə bilir. Qeyri-iqtisadi səbəblərə dövlətlərin birləşməsi və ayrılması, müharibələr, təbii fəlakət, ekoloci problemlər, siyasi və başqa səbəblər aiddir. Bu səbəblərin hər biri işçi qüvvəsinin dövlətlərarası yerdəyişməsinə səbəb olur ki, o da öz növbəsində iqtisadi səbəblər üzrə beynəlxalq miqrasiya kimi iqtisadi nəticələrə gətirib çıxarır. Beynəlxalq miqrasiya problemlərinin işlənməsinə iqtisadi inkişaf çərçivəsində altmışıncı illərin sonlarından başlandı. Onun əsas ideyası istehsalın əsas amili olan işçi qüvvəsinin beynəlxalq


miqrasiyasının iqtisadi inkişafa tə"siri təşkil edir. Beynəlxalq miqrasiyanı yaradan əsas səbəb isə əməyin ödənilməsində olan fərqlərdir.

Neoklassik iqtisad nəzəriyyəsinə görə emmiqrasiya qəbul edən ölkələrdə əhalinin rifahını yüksəldir, donor ölkələrdə isə iqtisadi inkişaf əvvəlki tək qalır (hər halda yaxşılaşmır). Neokeynsçilərin fikrikcə isə işçi qüvvəsini (xüsusilə ixtisaslı işçiləri) ixrac edən ölkələrin iqtisadi vəziyyətinin pisləşməsi də baş verə bilər. Bununla əlaqədar olaraq "alıcıların axını" üçün vergi müəyyən etmək məsələsi beynəlxalq orqanlarda müzakirə edilməkdədir. Bu tədbiri müdafiə edənlərin fikrikcə bu yolla əldə edilmiş vəsaiti isə inkişafın ehtiyaclarına sərf etmək üçün BMT-nin sərəkcamına vermək lazımdır. Ümumiyyətlə götürdükdə beynəlxalq miqrasiya nəticəsində donor və işçi qüvvəsi qəbul edən ölkələrdə əməyin ödənilməsi səviyyəsi yaxşılaşır (tarazlaşır), beynəlxalq miqyasda məhsul istehsalının həcyi artır.

Beynəlxalq miqrasiyanın iqtisadi səmərəsini aşağıdakı sxem şəklində göstərmək olar:

Tutaq ki, real əmək haqqının səviyyəsi və əmək ehtiyatlarının həcyi müxtəlif iki ölkə arasında baş verən beynəlxalq miqrasiya yalnız iqtisadi səbəblərə görə baş vermişdir. Əvvəlcə əmək ehtiyatlarının həcyini I ölkədə LA, II ölkədə AL′ və hər iki ölkənin əmək ehtiyatlarının çəmini LL′ ilə, hər bir ölkədə olan işçi qüvvəsinin həcyindən istifadə etməklə istehsal olunmuş məhsulun artımını S1və S2 düz xətti ilə işarə edək. Sonra isə belə təsəvvür edək ki, öz əmək ehtiyatlarından tam istifadə etməklə (beynəlxalq miqrasiya olmadan) real əmək haqqının orta səviyyəsini I ölkə LS və II ölkə L′D səviyyəsində tə"min edir. Belə halda istehsalın həcyi I ölkədə a+b+c+d+e+f, ikikei ölkədə isə I+j+k olacaqdır. LS<L D olduğuna görə işçi qüvvəsinin dəyəri I ölkədə II ölkədəkindən aşağı olacaqdır.

Təsəvvür edək ki, hər iki ölkə işçi .qüvvəsinin ölkələrarası yerdəyişməsinə məhdudiyyəti aradan qaldırmışdır. Əmək haqqının səviyyəsi müxtəlif olduğuna görə AB sahəsində yerləşən işçilərin bir qismi I ölkədən II ölkəyə keçməsi nəticəsində hər iki ölkədə əmək haqqı BR səviyyəsində tarazlaşacaqdır. Həm ölkədə qalan, həm də II ölkəyə miqrasiya edən əhalinin keyəkliyi ilə istehsal olunmuş məhsulun həcyi (a+b+c+d)+ +(e+f+h) olacaqdır. Buradan birikei yetərizə (a+b+c) ölkədə yaşamaqda olan, ikikei yetərizə (e+f+h) isə I ölkədən II ölkəyə miqrasiya etmiş işçi qüvvəsi tərəfindən yaradılmış məhsulu göstərəcəkdir.



Şəkil 2. Əmək miqrasiyasının iqtisadi səmərəliliyi

I ölkənin əmək ehtiyatlarının bir hissəsiin II ölkəyə getməsi nəticəsində işçi qüvvəsindən (II ölkədə) daha səmərəli istifadə olunur. Eyni həcydə əməklə h seqmenti qədər əlavə məhsul istehsal edilir. Bu isə öz növbəsində zəhmətkeşlərin gəlirinin a+b+c+f+h səviyyəsinədək yüksəlməsini tə"min edər, istehsalın başqa amillər hesabına isə gəlirlər c seqmenti qədər ixtisar edilər. Başqa bir tərəfdən də işçi qüvvəsinin I ölkədən ikikeiyə axını II ölkədə real əmək haqqının L′D-dən L′F-dək aşağı düşməsinə (BR-dək) səbəb olacaqdır. Lakin həm özünün və həm də I ölkədən gələn işçi qüvvəsi hesabına II ölkədə istehsalın həcyi (I+j+k)-dan (I+j+k+g+h+e+f)-dək genişlənəcəkdir. h+e+f seqmenti xaricdən (I ölkədən) gələn işçi qüvvəsinin əməyi nəticəsində yaranmış dəyər olduğundan onun çox hissəsi (gəlir vergiləri çıxıldıqdan sonra) əmək haqqı kimi həmin miqrantlara veriləcəkdir. Nəticədə II ölkənin məhsulunun xalis artımı d seqmenti qədər olacaqdır. Real əmək haqqının aşağı düşməsi hesabına II ölkədə zəhmətkeşlərin gəliri (j+k)-dan k-yadək ixtisar olunacaqdır. İstehsalın başqa amillərinin

sahiblərinin gəlirləri isə I-dən (I+g+j)-dək yüksələcəkdir. Bütün dünya baxımından zəhmətkeşlərin bir ölkədən başqasına miqrasiyası nəticəsində istehsalın ümumi həcyi ((a+b+c+d+e+f) + +(k+j+I))-dən ((a+b+c+d)+(c+f+g+h+I+ +j+k))-dək artacaqdır. Yuxarıdakı sxemdə artımın həcyi (d+h) seqmentlərində göstərilmiş həcyə (sahəyə) bərabər olacaqdır. Həm də burada h seqmenti I ölkənin işçi qüvvəsindən səmərəli istifadə etmək hesabına, d seqmenti isə II ölkədə əmək ehtiyatlarının həcyinin artması hesabına istehsalın həcyinin artmasına gətirəcəkdir.

Xaricdə işləyən işçilər öz gəlirlərinin bir hissəsini öz ölkələrinə (donor ölkəyə) köçürürlər. Bu isə nisbi artıq işçi qüvvəsi olan ölkəyə əlavə pul vəsaitlərinin daxil olmasını və işsizliyin azaldılmasını tə"min edir. Başqa bir tərəfdən isə yüksək ixtisaslı işçi qüvvəsinin miqrasiyası donor ölkələrin texnoloci potensialını azaldır, ölkədə çalışan işçi qüvvəsinin mədəni və ixtisas səviyyəsini aşağı salır.

d)Beynəlxalq miqrasiyanın nəticələri İşçi qüvvəsinin miqrasiyası mürəkkəb iqtisadi, siyasi və sosial iqtisadi hadisədir. Bu proses həm donor ölkələrin və həm də miqrantları qəbul edən ölkələrin əmək ehtiyatlarının sayı və tərkibinə tə"sir göstərir, əmək bazarında yeni situasiya yaradır, siyasi və sosial həyatın bir çox sahələrində müxtəlif dəyişikliklərə səbəb olur. Qəbul edən ölkələr üçün beynəlxalq miqrasiyanın yüksək səmərəsi haqqında mətbuatda çox yazılmışdır. Məsələn, ABŞ iqtisadiyyatına "ağıl axını"nın müsbət tə"siri haqqında geniş mə"lumat verilmişdir. Səksənikci illərdə ABŞ-ın əmək bazarına gələnlərin 80%-i mühəndislik və kompyuter texnikası sahəsində elmlər doktoru dərəcəsi alanlar, ali məktəblərdə texniki fənnlərdən dərs deyənlərin 25%-i immiqrantlardan ibarət olmuşdur.

Doxsanıkci illərdə ABŞ-da 11 milyondan çox immiqrant yaşayırdı. Onlar qazandıqları 240 milyard dollarlıq əmək haqqından hər il 90 milyard dollaradək vergi verirdilər. Bununla yanaşı ABŞ dövləti immiqrantların sosial müdafiəsinə hər il 5 milyard dollaradək vəsait xərcləyir. İmmiqrasiya sərf edilən bu vəsait özü iqtisadi baxımdan da tamamilə doğrudur. ABŞ-da və bir sıra inkişaf etmiş ölkələrdə elmin və mədəniyyətin inkişafında immiqrant alimlərin rolu danılmazdır.

Miqrasiya prosesləri donor ölkələrə də böyük fayda verir. İnkişaf etmiş ölkələrdə çalışan alimlərin bir çoxu müəyyən vaxtdan sonra vətənlərinə qayıtdıqda yeni elmi məktəblərin banilərinə çevrilir və biliklərini öz ölkələrinin inkişafına yönəldirlər. Öz vəziyyətini yaxşılaşdıran başqa sənət adamları da müəyyən bilik və təcrübə topladıqdan sonra vətənlərinə qayıdaraq ciddi sahibkarlıq fəaliyyətinə

başlayırlar. Bütün bunlar donor ölkələri məcbur edir ki, öz kadrlarının qiymətini dəqiq qiymətləndirsinlər, iqtisadiyyatı və əmək haqqını yüksəltməklə əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün yeni yollar axtarsınlar.

c) Azərbaycan və dünya miqrasiya axını Keçmiş Sovetlər İttifaqı dağıldıqdan sonra yeni yaradılmış dövlətlərin ərazisində 60 milyon adam milli azlıqda qaldı. 1989-cu ildə keçirilmiş əhali siyahıyaalmasına görə Azərbaycanda 900 min nəfərdən çox başqa ərazidə dövlətçiliyi olan əhali qeydə alınmışdır. Onlardan 392 min nəfəri rus, 392 min nəfəri erməni, 32 min nəfəri ukraynalı idi. Bunlarla yanaşı MDB ölkələri ərazisində bir milyona qədər azərbaycanlı yaşayırdı. Cənubi Azərbaycanda (İranda), Türkiyədə ABŞ-da və bir çox Qərbi Avropa ölkələrində çoxsaylı soydaşımızın yaşadığı mə"lumdur.

13-cü cədvəl

1991-1996-cı illərdə daimi yaşamaq üçün Azərbaycandan köçmüş əhalinin sayı (nəfərlə).

Ölkələr	1990	1991	1992	1993	1995	1996	
cəmi	9144	6503	2912	2491	1600	1348	2120
onlardan							
Almaniyaya	20	6	27	15	38	74	407
İsrailə	8442	4578	1873	1640	1085	1608	1253
ABŞ-a	553	1873	964	699	447	570	445
Yunanıstana	35	15	13	3	1	3	5

Qeyd:

1. Cədvəl "Azərbaycanın statistik göstəriciləri. 1996" adlı statistika külliyyatından götürülmüşdür. (Bakı, 1997, səh.21).

2. 1993-1996-cı illərdə yalnız 18 yaşdan böyük miqrantların sayı göstərilir.

Yuxarıdakı 13-cü cədvəldən göründüyü kimi, son illərdə daimi yaşamaq üçün Azərbaycandan xarici ölkələrə xeyli adam köçüb gedir. Bu miqrasiyanın əsas hissəsi İsrailə köçüb gedən yəhudilərdir. Miqrantlar arasında Almaniyaya və ABŞ-a gedənlərin sayı da nəzərə çarpacaq dərəcədir.

Yuxarıda göstərilənlərdən əlavə hər il Azərbaycandan MDB ölkələrinə və əks istiqamətdə xeyli adam miqrasiya edir.

14-cü cədvəldən göründüyü kimi, 1990-1996-cı illərdə respublikamıza həm gələnlərin və həm də gedənlərin sayı qat-qat azalmışdır. Belə hal ilk növbədə respublikamızda sabitliyin yaranması nəticəsində yaranmışdır. Bu illər ərzində miqrasiyanı törədən səbəblərin xarakteri

də dəyişilmişdir. Doxsanıkcı illərdə miqrantlar arasında etnik və siyasi səbəblər üzrə yerdəyişmə halları üstünlük təşkil etdiyi halda, son illərdə bu səbəb üzrə yer dəyişmə halları xeyli ixtisar edilmişdir. İndi ön sıraya iqtisadi emmiqrasiya çıxmışdır.

İndi on minlərlə soydaşımız Türkiyədə, ABŞ-da və Qərbi Avropa ölkələrində yaşayır və işləyir. Bununla yanaşı dünyanın müxtəlif ölkələrindən (ABŞ, Türkiyə, Rusiya, İsveç və başqa) bizneslə məşğul olan iş adamları işləmək və yaşamaq üçün Azərbaycana gəlirlər.

1988-ci ildə azərbaycanlılara qarşı soyqırımı tətbiq edən ermənilər Ermənistan sərhəddi daxilində qalan dədə-baba oğuz torpaqlarından 200 min nəfərdən çox soydaşımızı öz yurdlarından qovub çıxardılar. Ermənilərin təhriki və bilavasitə iştirakı ilə Borçalıda yaşayan on minlərlə soydaşımız da qaçqın kimi Azərbaycana pənah gətirdi. 1996-ci ildə Azərbaycanda 233,7 min nəfər qaçqın və 843,7 min nəfər köçkün var idi. Onların yarıdan çoxu uşaqlar və qocalardan ibarətdir. Əmək qabiliyyətli yaşda olanlar kişilər arasında 45,8% və qadınlar arasında 54,2% təşkil edir. Bu əhalinin qəbulu, yerləşdirilməsi və işlə tə"min edilməsi Azərbaycan dövlətindən böyük həcydə maddi və mə"nəvi qayğı tələb edir.

§8.8.Əmək münaqişələri statistikası

Əmək münaqişələri beynəlxalq statistika orqanları tərəfindən keçən əsrdən öyrənilsə də MDB ölkələrində (o cülədən də Azərbayean Respublikasında) yalnız son dövrlərdə statistika müşahidəsinin obyektinə çevrilmişdir.

Əmək münaqişəsi dedikdə iş verənlərlə zəhmətkeşlər arasında əməyin ödənilməsi, iş şəraiti və başqa məsələlərə dair narazılıqları tə'tillər, nümayişlər və sair üsullarla həll etmək cəhdləri başa düşülür.

Əmək münaqişələri statistikası Respublikamızda əmək statistikasının ən yeni sahələrindən biri olmaqla, beynəlxalq statistika normalarına əsasən qurulmuşdur. Bu normalar əmək statistiklərinin1993-cü ildə keçirilmiş Beynəlxalq Konfransında qəbul olunmuşdur.

Əmək münaqişələrinin aşağıdakı növləri vardır:

1. İşi dayandırmadan aparılan əmək mübahisələri. Belə halda münaqişə aparan tərəflər öz tələblərini danışıqlar yolu ilə həll edir, ya da iş vaxtından kənar vaxtda münaqişənin həllinə tə'sir göstərə bilən başqa tədbirlər keçirirlər: mitinqlər, nümayişlər, aclıq keçirmək, tə'til komitələri yaratmaq və s. belələrinə aiddir.

14-cü cədvəl

1990-1996-cı illərdə Azərbaycan Respublikasının MDB və Baltikyanı ölkələri ilə miqrasiyası əlaqələri[1]

	Miqrantların sayı		Yekuna görə %-lə	
	1990	1996	1990	1996
Gələnlərin sayı - cəmi	63634	5158	100	100
Baltikyanı ölkələr	423	35	0,7	0,7
Belarus	549	45	0,9	0,9
Qazaxıstan	3190	339	5,0	6,6
Qırğızıstan	1562	27	2,5	0,5
Ermənistan	7377	164	11,6	3,2
Gürcüstan	6637	656	10,4	12,7
Moldova	144	11	0,2	0,2
Rusiya	30857	2800	48,5	54,2
Tacikistan	147	32	0,2	0,6
Özbəkistan	7057	462	11,1	9,0
Ukrayna	4355	385	6,8	7,5
Gedənlərin sayı cəmi	100852	28597	100	100
Baltikyanı ölkələri	387	33	0,4	0,1
Belarus	1621	294	1,6	1,0
Qazaxıstan	1681	500	1,7	1,7
Qırğızıstan	180	91	0,2	0,3
Ermənistan	15958	3276	15,8	11,5
Gürcüstan	1646	512	1,6	1,8
Moldova	195	45	0,2	0,3
Rusiya	65937	21580	65,4	75,5
Tacikistan	109	7	0,1	0
Türkmənistan	1196	153	1,2	0,5
Özbəkistan	1051	250	1,0	0,9
Ukrayna	10891	1856	10,8	6,5

[1] *Cədvəl. "Əmək bazarı rəqəm və diaqramlarda 1996-cı il" adlı statistika məcmuəsindən götürülmüşdür. Bakı, 1997, səh.12.*

1. İşi dayandırmaqla keçirilən əmək münaqişələri. Belə münaqişələrə tə'tillər və lokautlar aiddir. Tə'til öz istəyini qarşıdakı tərəfə zorla qəbul etdirmək, öz narazılıqlarını bildirmək və ya başqa zəhmətkeşlərin tələblərini (və ya narazılıqlarını) müdafiə etmək məqsədilə bir və ya bir neçə qrup əməkdaşın öz işini dayandırmasıdır. Lokaut iş verənlərə öz tələblərini qəbul etdirmək məqsədilə əməkçilərin bir və ya bir neçə iş yerini tam və ya qismən bağlatması, habelə normal əmək fəaliyyətinə mane olmalarıdır.

Əmək münaqişələri onu yaradan səbəblərə görə təsnifatlaşdırılır.

Əmək münaqişələrinə dair statistika mə'lumatları hər ay toplanılır. Belə mə'lumatlara keçirilmiş tə'tillərin və lokautların sayı, müddəti, əmək münaqişəsinə cəlb edilmiş müəssisələrin və zəhmətkeşlərin sayı, istifadə olunmamış vaxt itkiləri və müəssisəyə dəyən iqtisadi zərər və s. aiddir.

Toplanmış belə mə'lumatlara əsasən bir sıra orta və nisbi statistika göstəriciləri də hesablanır. Bir tə'tilə cəlb edilmiş işçilərin orta sayı, bir tə'tilin orta müddəti, münaqişəyə cəlb edilmiş bir işçiyə düşən işlənilməmiş vaxtın orta miqdarı və başqaları belə göstəricilərə aiddir. Belə göstəricilər ayrı-ayrı sahələr, regionlar və iqtisadiyyat üzrə bütövlükdə hesablanır.

Əmək münaqişələrinə dair mə'lumatların beynəlxalq miqyasda müqaiysəsini aparmaq üçün aşağıdakı göstəricilər hesablanır:

1. Münaqişələr nəticəsində hər 1000 nəfər işçiyə düşən iş vaxtı itkiləri:

$$\frac{\text{Münaqişə nəticəsində itirilmiş iş vaxtı}}{\text{İşçilərin orta siyahı sayı}} * 1000$$

2. Hər 1000 nəfər işçiyə düşən münaqişəyə cəlb edilmiş işçilərin sayı:

$$\frac{\text{Əmək münaqişəsində iştirak edənlərin sayı}}{\text{İşçilərin orta siyahı sayı}} * 1000$$

Bu göstəricilər əmək münaqişəsi olan sahələr üçün hesablanır.

§8.9. Əhalinin siyahıyaalınması-əmək ehtiyatlarının həcmi və tərkibinə dair əsas mə"lumat mənbəyi kimi

Əmək ehtiyatlarının həcmi tərkibi və yerləşməsi haqqında əsas mə"lumat mənbəyi BMT qərarı ilə hər on ildənbir keçirilən əhali siyahıyaalınmalarıdır.Tarixinən qədim çağlarından bu günədək əhalinin siyahıyaalınmaları dünyanın müxtəlif ölkələrində

keçirilməkdədir. Beynəlxalq statistika əhali siyahıya alınmalarının bir sıra ümumi prinsiplərini işləyib hazırlamışdır.

a) Əhali siyahıyaalınmalarının təşkilinin ümumi prinsipləri və proqramı

Əhalinin və əmək ehtiyatlarının uçotu (sayımı) uzun müddət primitiv yollarla aparılmışdır. Dünya miqyasında vahid proqramla əhali siyahıyaalınmalarının keçirilməsi qaydalarının işlənib hazırlanmasına XIX əsrin ortalarından başlanıldı. 1853-cü ildə Bryusseldə çağrılmış Beynəlxalq Statistika konqResində əhali siyahıyaalınmalarının keçirilməsinin elmi qaydaları işlənib hazırlandı. Bu konqResin qətnaməsində göstərildi ki, siyahıyaalınmada mövcud əhali adbaad qeydə alınmalıdır. KonqRessin Londonda (1860-cı il) və Peterburqda (1872-ci il) çağırılan iclaslarında isə siyahıyaalınmanın kritik anı məsələsi və onun mümkün qədər qısa müddət ərzində keçirilməsi prinsipləri işlənib hazırlandı. KonqResin 1853-cü ildə Brüsseldə keçirilən iclasında əhali siyahıyaalınmalarının hər on ildən bir keçirilməsi qərara alındı. Əhali siyahıyaalınmalarının hər on ildən bir keçirilməsi məsələsi BMT-nin əhali sakinliyi və statistika komissiyalarının XX əsrin 50-60-cı illərdə keçirilən sessiyalarında dəfələrlə tövsiyyə olunmuşdur. Əhali siyahıyaalınmasının proqramına dair məsələ Beynəlxalq Statistika konqResinin Brüssel (1853), London (1860), Paris (1855), Peterburq (1872) və sonradan keçirilən başqa iclaslarında dəfələrlə müzakirə olundu.

Əhali siyahıyaalınmalarının keçirilməsi prinsiplərinə dair XIX əsrin ikinci yarısında hazırlanmış tövsiyyələrin çoxu müəyyən əlavələr və dəqiqləşdirilmələrlə indiyədək qalmaqdadır. Beynəlxalq tövsiyyələrdə siyahıyaalınmaya aşağıdakı kimi tə'rif verilir: "Əhali siyahıyaalınması müəyyən momentə ölkənin və ya ayrıca ərazinin əhalisinə dair demoqrafik, iqtisadi və sosial mə'lumatların toplanması, işlənməsi və nəşri əməliyyatlarının cəmidir."

Beynəlxalq tövsiyyələrdə əhali siyahıyaalınmalarının aşağıdakı əsas cəhətləri qeyd olunur:

1. Mərkəzləşdirilməsi - yə'ni bu o deməkdir ki, rəsmi milli əhali siyahıyaalınması mərkəzləşdirilmiş qaydada mərkəzi hökumət tərəfindən (bə'zi halda yerli orqanlar ilə birlikdə) aparılır.

2. Müəyyən əraziyə aid olmalıdır. Bu o deməkdir ki, əhali siyahıyaalınması ciddi olaraq konkret ərazini əhat etməlidir.

3. Universallıq - bu o deməkdir ki, əhali siyahıyaalınması heç kəsi buraxmadan bütün əhalini əhatə etməlidir.

4. Birdəfəlik - bu o deməkdir ki, əhalinin hesablanması bir vaxt anına aid edilməlidir.

5. Fərdilik - bu o deməkdir mə'lumat hər bir fərd üzrə ayrılıqda

toplanılır.

6. Mə'lumatların işlənilməsi və nəşri-bu o deməkdir ki, əsas demoqrafik göstəricilər üzrə siyahıyaalınma mə'lumatlarının coğrafi ərazilər üzrə işlənib nəşr edilməsi siyahıyaalınma işinin mühüm tərkib hissəsidir.

Əhalinin siyahıyaalınmasına dair beynəlxalq tövsiyyələrdə mövcud və ya daimi yaşayan əhalinin siyahıyaalınmasının mümkünlüyü c'tiraf edilir. Lakin beynəlxalq təcrübədə mövcud əhalinin siyahıyaalınma metoduna daha çox üstünlük (yer) verilir.

BMT Beynəlxalq Statistika orqanlarının tövsiyyəsinə əsasən ümumdövlət miqyasında geniş proqramla əhali siyahıyaalınmaları təqribən hər on ildən bir, həm də sonu sıfırla (0) qurtaran və ya heç olmasa ona yaxın illərdə keçirilməlidir. Bu prinsip dünya miqyasında siyahıyaalınma mə'lumatlarının müqayisəliliyini tə'min edir və onların yekunlaşdırılmasını asanlaşdırır.

Siyahıyaalınmalar zamanı əldə edilməsi vacib olan ən mühüm göstəricilərdən biri konkret ölkənin əhalisinin ümumi sayıdır. BMT-nin "Standart əhali" adlandırdığı bu göstərici siyahıyaalınma zamanı konkret ölkənin ərazisində mövcud olan (xarici ölkə vətəndaşları nəzərə alınmadan) və müvəqqəti səbəblərlə əlaqədar ölkə ərazisindən kənarda olan (hərbçilər, dənizçilər, diplomatlar və s.) ölkə vətəndaşlarının cəmini əks etdirir. Beynəlxalq tövsiyyələrə əsasən siyahıyaalınma keçirilən ölkə ərazisində olan turistlər və həmin ölkədə uzun müddət yaşayan əcnəbilər bu ölkənin əhalisinin ümumi sayına daxil edilmədən siyahıyaalınmanın nəticəsinə dair nəşr edilən ümumi yekunlarda ayrıca nəşr edilir.

Siyahıyaalınmalarla əlaqədar beynəlxalq təşkilatların toxunduğu əsas mənbələrdən biri əhali siyahıyaalınmaları ilə başqa siyahıyaalınmaların əlaqələndirilməsidir. Əlbəttə burada söhbət eyni vaxtda keçirilən bir neçə (məsələn, sənaye və kənd təsərrüfatı) siyahıyaalınmalarından getmir. Siyahıyaalınmaların əlaqələndirilməsi dedikdə bir müşahidə prosesində eyni vaxtda statistikanın müxtəlif sahələrinə aid informasiyanın toplanması prosesi başa düşülür. Əhali siyahıyaalınması çox vaxt yaşayış sahələrinin siyahıyaalınmaları ilə birlikdə aparılır. Belə vəziyyət demoqrafik proseslərin mənzil şəraiti ilə bilavasitə bağlı olması ilə əlaqədardır. Son vaxtlarda dünyanın bir çox ölkələrində (ABŞ, Kanada, Fransa, Almaniya və s.) hətta 1989-cu ildə Azərbaycanda keçirilən siyahıyaalınmalarda əhali yaşayış sahələrinin siyahıyaalınmaları ilə əlaqəli keçirilir. 1999-cu ildə müstəqil Azərbaycan Respublikasında keçiriləcək əhali siyahıyaalınmasında da demoqrafik mə'lumatlarla yanaşı əhalinin mənzil şəraitinə dair də informasiya yoxlanacaqdır.

Əhali siyahıyaalınmalarının iqtisadi siyahıyaalınmalarla birlikdə aparılmasına dair beynəlxalq təşkilatlar konkret tövsiyyələr hazırlamasalar da belə müşahidələrin keçirilməsinin mümkünlüyünə dair Avropa ölkələri statistiklərinin konfransında müəyyən mülahizələr irəli sürülmüşdür. Məsələn, bə'zi Avropa statistiklərinin fikrinəə əhali və kənd təsərrüfatı siyahıyaalınmalarının birləşdirilməsi aqrar əhaliyə dair daha həmcins mə'lumat əldə edilməsinə imkan verir. Belə mülahizələrə əsasən əhali siyahıyaalınmaların mövcud sənaye və ticarət müəssisələrinin siyahısını dəqiqləşdirdiyinə görə sənaye və ticarət siyahıyaalınmalarının keçirilməsini asanlaşdırır.

BMT-nin hazırladığı "Milli əhali siyahıyaalınmalarının keçirilməsi prinsipləri və tövsiyyələr" adlı sənəddə də əhali siyahıyaalınmalarının yaşayış sahələrinin siyahıyaalınmaları ilə eyni vaxtda aparılması ümumi şəkildə arzu edilən hal hesab olunur. Onların birləşdirilməsi isə yalnız mənzil şəraitinə dair sorğu suallarının bir neçə bəndədək məhdudlaşdırdığı halda mümkün hesab edilir.

Əhali siyahıyaalınmalarının proqramının məzmunu və onlara dair metodik göstərişlər həmişə beynəlxalq statistika təşkilatlarının diqqət mərkəzində olmuşdur. Belə proqramın hazırlanmasına ilk cəhd Birinci Statistika konfransında (Brüssel, 1853-cü il) göstərilmişdi. 1872-ci ildə Peterburqda keçirilən 8-ci Beynəlxalq statistika konfransında əhali siyahıya alınmalarının proqramına daxil olması zəruri hesab edilən on beş sual aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. Ad və soyadı;
2. Cins;
3. Yaş;
4. Ailə başçısına münasibət;
5. Ailə vəziyyəti;
6. Məşğuliyyəti və vəziyyəti (peşə üzrə);
7. Dini e'tiqadı;
8. Ana dili;
9. Savadı;
10. Mənşəyi, milliyyəti, doğulduğu yer;
11. Qeydə alınan şəxsin uçotun kritik anında daimi və ya müvəqqəti yaşaması, daimi yaşadığı yer;
12. Korluğu;
13. Karlığı;
14. Axmaqlığı, səfehliyi;
15. Dəliliyi;

125 il bundan əvvəl müəyyən edilmiş və əhali siyahıyaalınmalarının proqramına daxil edilməsi tövsiyyə edilən bu sualların siyahısında yalnız konkret şəxsin səhhətinə aid sonuncu suallardan

başqa qalanları bu və ya başqa şəkildə müasir siyahıyaalınmalarının proqramlarında qalmaqdadır. Dini c'tiqada dair sual isə müasir siyahıyaalınmalarının proqramında ikinci dərəcəli suala çevrilmişdir.

Müasir siyahıyaalınmalarda əhalinin yaşayış yerinə dair suallar daha dəqiq müəyyənləşdirilmişdir. Məsələn, 1999-cu ildə Azərbaycan Respublikasında keçiriləcək əhali siyahıyaalınmasında hər bir şəxsin yaşayış yerindəki vəziyyətini səciyyələndirmək üçün suallar aşağıdakı kimi qoyulmuşdur:

1. Siyahıyaalma keçirilən anda olduğu yer daimi yaşayış yeridirmi?
2. Doğulduğu yer haradır?
3. Əvvəlki yaşayış yeri haradır?

Müasir siyahıyaalınmaların proqramında əhalinin iqtisadi vəziyyətinin xarakteristikasına xüsusi diqqət yetirilmişdir. Azərbaycanda keçiriləcək əhalinin siyahıyaalınmasının proqramında bu məsələnin öyrənilməsinə aid suallar aşağıdakı kimi qoyulmuşdur:

1. Yaşayış üçün gəlir mənbəyi və sosial vəziyyəti.
2. İşləyənlər üçün əsas iş yeri.
3. Onun məşğuliyyəti, yaxud işi.
4. Əgər işləmirsə, nə vaxtdan işləmir və iş axtarır?

BMT əhali sakinliyi komissiyasının üçüncü sessiyasında qəbul olunmuş tövsiyyələrə əsasən əhali siyahıyaalınmalarının blankına təqribən aşağıdakı sualları daxil etmək olar.

1. Cins;
2. Yaş;
3. Ailə başçısına münasibət;
4. Ailə vəziyyəti;
5. Doğulduğu yer;
6. Vətəndaşlıq;
7. Ana dili;
8. Savadını (və ya təhsil səviyyəsi);
9. İqtisadi fəallıq (konkret şəxsin işləməsi və işsiz olması);
10. Məşğuliyyət növü;
11. Təsərrüfat sahəsi;
12. Məşğuliyyəti;
13. Ailədə yaşlı qadınlarla uşaqların sayının nisbəti;

BMT əhali sakinliyi komissiyasının tövsiyyə etdiyi bu suallar milli statistika orqanlarında dəfələrlə müzakirə olunduqdan sonra öz ölkələrində keçirdikləri əhali siyahıyaalınmalarının proqramlarının (siyahıyaalınma vərəqindəki sualları) müəyyənləşdirilməsində əsas oldu.

BMT Katibliyinin 51 ölkə üzrə topladığı mə'lumata əsasən əllinci illərdə keçirilən əhali siyahıyaalınmalarının proqramına ayrı-ayrı

sualların daxil olmasının tezliyi aşağıdakı kimi olmuşdur:

Siyahıyaalınma vərəqinin sualları	Bu sualı siyahıyaalma vərəqinə daxil edən ölkələrin sayı
Ünvan mə'lumatları	51
Adı, soyadı	51
Şəxsin qeydə alındığı yaşayış məntəqəsi	
Ümumi demoqrafik mə'lumat	
Cins	51
Yaş	51
Ailə vəziyyəti	51
Vətəndaşlıq	51
Milliyyət	48
Doğulduğu yer	14
Dil	48
Ailə başçısına münasibət	25
Sosial iqtisadi göstəricilər	50
İqtisadi fəal və qeyri fəal əhali	
Məşğuliyyət, peşə, sənət	51
Xalq təsərrüfat sahəsi	51
Məşğuliyyətdə vəziyyəti	51
İşsizlik	51
Kənar məşğuliyyət	47
İşlənilmiş vaxtın miqdarı	16
Gəlirlər	13
Mədəniyyət göstəriciləri	12
Savad	
Təhsil səviyyəsi	33
Məktəbə dəvamiyyət	41
Əlavə suallar	26
Dini c'tiqadı	
Valideyn və himayədə olanlar haqqında	31
Doğulmuş uşaqların sayı	8
Sağ olan uşaqların sayı	28
Fiziki və əqli qüsurlar	13
Hərbi xidmət	19
	6

Yuxarıda göstərilən mə'lumatlardan aydın görünür ki, BMT-nin tövsiyyə etdiyi 13 sualdan 10-u demək olar ki, bütün ölkələrin əhali siyahıyaalınmalarının proqramına daxil edilmişdir. Ana dili və

fertilliyə, hərbi xidmətə, milliyyətə, gəlirlərə, valideynin və himayədə olanların sayına dair mə'lumatlar qismən az istifadə olunmuşdur. ABŞ və Avropa ölkələrinin siyahıyaalınma proqramlarında bir qayda olaraq ana dilinə dair sual qoyulmur, savadlığına dair sual isə təhsil səviyyəsinə dair sualla əvəz edilir. Bunlarla yanaşı BMT komissiyasının suallar minimumunda göstərilməyən işsizliyə dair sual isə bir çox ölkələrin əhali siyahıyaalınmasının proqramına daxil edilmişdir. Kənar məşğuliyyətə dair sual bir çox Avropa ölkələrində və bə'zi Asiya ölkələrində siyahıyaalınma vərəqələrinə daxil edilmişdir. Gəlirlərə dair sual isə bir çox Amerika ölkələrinin siyahıyaalınma vərəqələrinə əsas sual kimi daxil edildiyi halda Avropa ölkələrinin heç birini maraqlandırmamışdır.

1960-cı ildə "Ümumdünya əhali siyahıyaalınması"nın keçirilməsiylə əlaqədar olaraq BMT orqanlarında əhali siyahıyaalınmaları proqramının dəqiqləşdirilməsi sahəsində böyük işlər yerinə yetirildi. Bu mərhələdə əsas diqqət sualların siyahısından çox onların məzmununun dürüstləşdirilməsinə yetirildi. Siyahıyaalınmanın əsas və əlavə suallar formasında qruplaşdırılmış proqramı dünyanın bir çox ölkələrində və beynəlxalq təşkilatlarda dəfələrlə müzakirə edildikdən sonra qəbul olundu.

Siyahıyaalınma vərəqinə daxil olan suallar aşağıdakı qrup göstəriciləri əhatə edir:

I. Coğrafi göstəricilər:

1) Siyahıyaalınma zamanı olduğu yer və daimi yaşayış yeri;

II. Ev təsərrüfatı və ailəyə aid informasiya:

2) Təsərrüfatın və ya ailənin başçısına münasibət;

III. Fərdi xarakteristika (ümumi demoqrafik göstəricilər):

3) cins;
4) yaş;
5) ailə vəziyyəti;
6) doğulduğu yer;
7) vətəndaşlıq;

IV. İqtisadi göstəricilər:

8) fəallığın tipi;
9) məşğuliyyəti;
10) xalq təsərrüfatı sahəsi;
11) məşğuliyyətindəki vəziyyəti;

V. Mədəniyyət göstəriciləri:

12) dil;
13) etnoqrafik və ya milli xarakteristikalar;

VI. Təhsil göstəriciləri:

14) savadlılıq;
15) təhsil səviyyəsi;
16) məktəbə davamiyyəti;

VII. Törəmə göstəriciləri:

17) diri doğulmuş uşaqların ümumi sayı;
18) əhalinin ümumi sayı;
19) yaşayış məntəqələrinin həcminə görə əhalinin bölüşdürülməsi;
20) şəhər və kənd üzrə təsnifat;
21) ailələrin və ya təsərrüfatların tərkibi.

b) Siyahıyaalınma proqramının ümumi demoqrafik sualları

Siyahıyaalınma proqramına daxil olan ilk suallardan biri sorğuya mə'ruz qalan şəxsin qeydə alındığı yerdə daimi və ya müvəqqəti yaşamasını aydınlaşdırmaq məqsədiylə qoyulan sualdır. Bu sualın cavabına əsasən beynəlxalq terminologiyada "de fakto" adlanan mövcud əhalini müəyyən etmək məqsədi daşıyır. Siyahıyaalınma zamanı konkret şəxs öz daimi yaşadığı yerdə qeydə alınırsa daimi əhali (beynəlxalq tövsiyyələrdə "de yure" əhali) adlanır. Beynəlxalq tövsiyyələr bu əhali kateqoriyalarının heç birinə üstünlük verməndən onların hər ikisinin uçota alınmasını məqsədəuyğun hesab edir.

Ailə başçısına münasibətə dair sualın proqrama daxil edilməsi siyahıyaalınmanın nəticələrinə əsasən əhalini sosial-iqtisadi əlamətlərinə görə ayırmaq məqsədi daşıyır. Əhalinin sosial quruluşu və ya iqtisadiyyat sahələri üzrə bölüşdürülməsi haqqında təsəvvür əldə etmək üçün iqtisadi fəal əhalidən başqa himayədə olanların da bölüşdürülməsini bilmək lazımdır. Mə'lum olduğu kimi, az yaşlı uşaqların və himayədə olan əhalinin bə'zi qruplarının aid olduğu sosial qrup ailə (təsərrüfat) başçısına əsasən müəyyən edilir. Əhalinin sosial iqtisadi quruluşu göstəricisinin əhəmiyyətini layiqincə qiymətləndirməyən bə'zi iqtisadçıların iradlarına baxmayaraq "Ailə başçısına münasibət" sualı əhali siyahıyaalınmalarının proqramına daxil edildi.

Hal-hazırda beynəlxalq tövsiyyələrdə ev təsərrüfatlarının təsnifatına böyük diqqət yetirilir. Onlar şəxsi (fərdi) və kollektiv təsərrüfatlara bölünür. Şəxsi ev təsərrüfatları öz növbəsində bir nəfərdən ibarət və bir neçə şəxsdən ibarət təsərrüfatlara bölünür. Təsərrüfatların ən mühüm fərqləndirici əlaməti birgə qidalanmadır. Ailələr tərkibinə görə aşağıdakı tiplərə bölünürlər:

1. Uşaqsız nigah cütlüyü;
2. Valideynlər və subay uşaqlardan ibarət nigah cütlüyü;

3. Valideynlər və cvli uşaqları (nəvəsiz) olan nigah cütlüyü;
4. Valideynləri, cvli uşaqları və nəvələri olan nigah cütlüyü;

Ailə başçısı ailənin özü tərəfindən müəyyən edilir. Adətən ailənin iqtisadi yükünü öz çiynində daşıyan şəxs ailə başçısı hesab olunur.

Beynəlxalq statistikada kollektiv təsərrüfat dedikdə məktəblərdə, xəstəxanalarda, kazarmalarda, mehmanxanalarda, həbsxanalarda və başqa birgəyaşayış yerlərində yaşayan insanlar qrupu başa düşülür.

Yaş barəsində BMT-nin əhali sakinliyi komissiyasının tövsiyyəsinə əsasən siyahıya alınan şəxslərin bitmiş yaşı (böyüklər üçün il, uşaqlar üçün ay) qeydə alınmasıdır. Sorğu zamanı isə müxtəlif metodlardan istifadə olunur. Bir çox Avropa ölkələrində siyahıyaalınma vərəqələri doldurularkən uçota alınan şəxsdən hansı ildə doğulduğu, ABŞ, Kanada, və Hindistan kimi ölkələrdə isə tamam olmuş yaş soruşulur. Keçmiş SSRİ-də o cümlədən də Azərbaycanda aparılan siyahıyaalınmalarda bu sual 1979-cu ildə "Yaş", 1989-cu ildə "Doğulma tarixi" kimi qoyulmuşdu. Fransada isə hər bir şəxsin doğum tarixi və həm də yaşına dair sual qoyulur.

Yaş qruplaşdırılmasının standartı kimi əhalini aşağıdakı kimi qruplaşdırmaq tövsiyyə edilir:

a) bir yaşdan aşağı;
b) bir yaşdan dörd yaşadək;
v) beş yaşdan doqquz yaşadək;
q) bundan sonra dörd illik fasilə ilə 99 yaşadək.

Yaşa görə dəqiq qruplaşdırmanın aparılmasında çətinlik yaranan ölkələrdə əhalini aşağıdakı beş qrupa bölmək tövsiyyə edilir:

1.Körpələr (1 yaşadək);
2. Körpə uşaqlar (1-5 yaşlarda);
3. Böyük (6-15 yaşlarda) uşaqlar;
4. İqtisadi aktiv yaşda olan kişilər və uşaq doğma yaşında (16-45 yaş) olan qadınlar;
5. Bu yaşlardan kənarda olan kişilər və qadınlar;

Beynəlxalq tövsiyyələrdə əhalinin nigahlılıq vəziyyətini bir qədər geniş öyrənilir. Əhalini ail vəziyyətinə görə aşağıdakı qruplara bölmək tövsiyyə olunur:

1. Subaylar (heç vaxt nigahda olmayanlar);
2. Nigahda olanlar;
3. Dullar;
4. Boşanmışlar (və ya yenidən nigaha daxil olmuşlar);
5. Ailə vəziyyəti mə'lum olmayan və ya göstərilməyən şəxslər;

Nigahlılığa dair mə'lumat konkret ölkənin qanunvericiliyinin müəyyən etdiyi və ya həmin ölkənin adətləri ilə icazə verilən minimum yaşdan böyük əhali üçün toplanılır. Lakin beynəlxalq müqayisəliliyi

tə'min etmək üçün isə 15 yaşdan böyük əhaliyə dair mə'lumatdan istifadə olunur. Bə'zi ölkələrdə (məsələn, Meksikada) siyahıyaalınma vərəqələrinə nigahın "mülki və ya kilsədə" bağlanmasına dair sual daxil edilmişdir.

Beynəlxalq tövsiyyələrdə siyahıya alınan şəxsin doğulduğu yerə xüsusi diqqət yetirilir. Bu sualın qoyulmasında məqsəd konkret şəxsin ölkə daxilində və ya sərhədlərindən kənarda doğulmasını müəyyənləşdirməkdir. Qərb ölkələrinin təcrübəsində bu sual əsasən beynəlxalq miqrasiyanı öyrənmək üçün nəzərdə tutulur. Keçmiş Sovet İttifaqı ərazisində keçirilən əhali siyahıyaalınmalarının proqramına belə sual daxil edilmirdi. Bunun da səbəbi keçmiş SSRİ vətəndaşlarının beynəlxalq miqrasiyasının dövlət tərəfindən ciddi məhdudlaşdırılması idi. Keçmiş sovet dövləti yalnız işgüzar diplomatik və turist səfərlərinə getdikləri halda xarici ölkələrə getməyə icazə verirdi. Xarici ölkədə qohumu olan şəxslər isə siyasi baxımdan e'tibarsız sayılaraq xüsusi orqanlar tərəfindən izlənirdilər. Odur ki, başqa dövlətlərlə müqayisədə sovet vətəndaşlarının xaricə miqrasiyası çox kiçik rəqəmlə ifadə olunduğundan siyahıyaalınma vərəqinə bunu öyrənmək üçün ayrıca sual daxil etməyə ehtiyac qalmırdı.

Doğum yerinə dair mə'lumatların müqayisəliliyini tə'min etmək üçün BMT statistika bürosu ölkələrin və sərbəst idarə olunmayan ərazilərin siyahısını hazırlamışdır.

BMT orqanlarında milliyyət və ana dili məsələsi ətrafında aparılan diskusiyalar da böyük maraq doğurur. Bu məsələyə dair mübahisələrin yaranmasına səbəb qərb dövlətlərinin və bir sıra Latın Amerikası ölkələri siyahıyaalınma blankına milliyyətə dair sual daxil etməyi lazımsız hesab etmələri idi. Keçmiş sovet hökumətinin BMT Statistika komissiyasında və əhali sakinliyi üzrə komissiyasındakı nümayəndələri milliyyətin müəyyən olunmasına böyük əhəmiyyət verərək bu barədə sualın müşahidə proqramına daxil edilməsini vacib hesab edirdilər. Milliyyət və ana dilinə dair mə'lumat əhalinin tərkibini demoqrafik və sosial-iqtisadi baxımdan səciyyələndirərkən çox gərəkli informasiyadır. Ana dili və milliyyətə dair mə'lumat olmadan ölkədə yaşayan əhalinin tərkibində ayrı-ayrı millətlərin formalaşması və demoqrafik inkişafını öyrənmək mümkün deyildir.

ABŞ-da siyahıyaalınma blanklarında milliyyət əvəzinə siyahıya alınan şəxsin hansı irqə aidliyini müəyyənləşdirən sual qoyulur. Məsələyə belə münasibət yuxarıda adları çəkilən ölkələrin inkişafı tarixi və əhalisinin formalaşmasının xüsusiyyətləri ilə əlaqədardır. Kolumbun Amerika qitəsini kəşf etməsindən sonra Avropa, Afrika və qismən də Asiya qitəsindən gələn müxtəlif xalqların nümayəndələrinin sayca çoxluğu yerli əhalinin (hinduları və s.) məhvinə və

asimmilyasiyasına səbəb oldu. Ünsiyyət vasitəsi kimi isə çoxluq təşkil edən gəlmə əhalisinin dili əsas götürüldü. ABŞ-da və Kanadada ingilis dili, Mərkəzi və Cənubi Amerika isə ispan, portuqal və fransız dilləri əsas ünsiyyət dilinə çevrildi. Həmin ölkələrin sakinləri başqa irqlərə (deməli, həm də başqa millətlərə) aid olduqları halda ünsiyyət vasitəsi kimi seçilmiş hamı üçün ümumi olan dildə danışarlar. Əlbəttə, belə vəziyyətdə milliyyət və ana dilinə dair ayrıca sualın müşahidənin proqramına daxil edilməsi mə'nasız görünür.

Keçmiş SSRİ ərazisində keçirilən bütün əhali siyahıyaalınmalarının proqramına milliyyətə və ana dilinə aid sual daxil edilmişdir. 1926-cı il siyahıyaalınmasında xalq, milliyyət, sorğu alınan şəxsin arzusuna əsasən müəyyən edilirdi. Uşaqların milliyyətini onların valideynləri müəyyən edirlər. Ata ilə ananın milliyyəti müxtəlif olan ailələrdə uşaqların milliyyətini müəyyən etməkdə çətinlik çəkilirsə, o zaman ananın milliyyətinə üstünlük verilir.

Xarici ölkə vətəndaşları üçün onların milliyyəti yazılandan sonra sorğu alınan şəxsin hansı dövlətin vətəndaşı olduğu göstərilir.

Bu sualın cavablarına əsasən çoxmillətli ölkələrdə hər bir millətin sayı və tərkibinin dəyişməsi, millətlərarası münasibətlərin inkişafı, qarışıq nigahların xüsusi çəkisinin dəyişməsi və s. haqqında informasiya toplanır.

BMT-nin tövsiyyələrində milliyyət məsələsində "etnik qrup" anlayışı xüsusi vurğu ilə qeyd olunur. Belə halda bir çox ölkələrdə milliyyəti tə'yin etmək üçün konkret şəxsin mənşəcə hansı ölkədən olması, irqi, dini, tayfa xüsusiyyəti və sairədən istifadə olunurdu. Son nəticədə beynəlxalq təşkilatlar bu sahədə konkret mc'yar müəyyən etməkdən imtina etdilər.

Bir çox ölkələrdə keçirilən siyahıyaalınmalarda milliyyətə aid sualın olmaması dilə dair qoyulan sualla qismən kompensasiya edilir. Beynəlxalq standartlarda bu sual üç müxtəlif variantda qoyulur:

1. Ana dili;
2. Ailədə ən çox istifadə olunan dil;
3. Siyahıyaalma vərəqində göstərilən dillərdən birində və ya bir neçəsində (keçmiş Sovet İttifaqında - SSRİ xalqlarından birinin dilində) sərbəst danışıq dili;

Bunlardan ən çox üçüncü varianta üstünlük verilir. Cmiqrantların və etnik qrupların sayı çox olan ölkələrdə ana dilinə üstünlük verilir. Dünyanın bəzi ölkələrində (məsələn, Fransada, ABŞ-da Yaponiyada) ana dilinə dair sual siyahıya alınma vərəqəsinə daxil edilmir.

Beynəlxalq tövsiyyələrdə müqayisəliliyi tə'min etmək üçün 5 yaş və daha böyük şəxslər üzrə gündəlik danışıqlarda istifadə olunan dilə dair informasiya toplamaq tövsiyyə olunur.

Keçmiş Sovet İttifaqında son dövrlərdə keçirilən siyahıyaalınmalarda ana dilinə dair sual bir qədər mücərrəd qoyulurdu. Ana dilini hər bir şəxs özü müəyyən edirdi. Uşaqların ana dili valideynlər və ya ailədə olan yaşlı şəxslərdən biri tərəfindən müəyyən edilirdi. Körpə uşaqların ana dilinin müəyyən edilməsində ata ilə ana arasında həmrə'ylik olmadıqda adətən ailədə ən çox istifadə olunan dilə və ya ananın dilinə üstünlük verilir. Lal-karların ana dili onların oxuyub yazdıqları dil, yaxud ailələrin işlətdikləri və ya da ən çox başqaları ilə əlaqədə olduqları dil hesab olunur.

Ana dili milliyyətlə uyğun gəlməyə bilər. Hərgah sorğu aparılan şəxs öz ana dilindən əlavə iki və daha çox dil bilirsə, onlardan ən yaxşı bildiyi dili də göstərirdi.

Bu prinsip 1999-cu ildə Azərbaycan Respublikasında keçiriləcək əhali siyahıyaalınması zamanı əsasən saxlanacaqdır. "Azərbaycan Respublikasında əhalinin 1999-cu il siyahıyaalınmasının təşkilat qaydaları və metodoloji əsasları"nda göstərilir ki, "ana dilinə dair" suala cavab verən şəxs özü üçün ana dili hesab etdiyi dilin adını yazır. Məsələn, "azərbaycan dili". Əgər sorğu edilən şəxs ana dilinin müəyyənləşdirilməsində çətinlik çəkərsə, onda onun daxil olduğu ev təsərrüfatının danışdığı dil göstərilir. Dili açılmayan körpələrin və az yaşlı uşaqların ana dili valideynlər tərəfindən müəyyən edilir. Valideynlər də ana dilini müəyyən edə bilmədikdə ev təsərrüfatında danışılan dili yazmaq lazımdır. Lal-karların ana dili onların oxuyub yazdıqları dil, yaxud onların ev təsərrüfatının işlətdikləri və ya ən çox ünsiyyətdə olduqları şəxslərin işlətdikləri dil hesab olunur." (bax səh. 34)

Dini etiqada dair sual müasir siyahıyaalınmaların keçirilməsinə dair beynəlxalq tövsiyyələr minimumundan çıxarılmışdır. ABŞ, İngiltərə, Yaponiya, İtaliya, və Fransa kimi böyük dövlətlərin keçirdikləri əhali siyahıyaalınmalarının blankında dinə dair sual qoyulmur.

BMT-nin əhali sakinliyi komissiyasının tövsiyyələrində əhalinin savadlılığını və təhsil səviyyəsini səciyyələndirmək üçün bir neçə göstəricidən istifadə etmək məsləhət görülür. Beynəlxalq tövsiyyələrə əsasən savadlılıq hər hansı bir dildə sadə mətni oxumaq və yazmaq bacarığı ilə müəyyən edilir. Savadlılıq göstəricisini hesablayarkən yaş minimumunu 15-dən yuxarı götürmənin tövsiyyə olunur. Lakin dünyanın bir çox ölkələrində savadlılıq müəyyən edilərkən 6-7 yaşdan böyük əhli əsas götürülür. Keçmiş SSRİ-də (o cümlədən də Azərbaycanda) savadlılığı müəyyən edilərkən 1970-ci ildə 7 yaşdan və sonrakı siyahıyaalınmada isə 6 yaşdan kiçik əhali üçün bu suala cavab toplanılmırdı. 1999-cu ildə Azərbaycan Respublikasında keçiriləcək əhali siyahıyalınmasında da savadlılığa dair suala cavab 6 yaşından böyük əhalidən alınacaqdır. 6 yaşdan böyük oxuyub-yazmağı bacaran

bütün şəxslər savadlı hesab ediləcəkdir. 6 yaşdan kiçik uşaqlar üçün bu suala cavab alınmayacaqdır.

Dünyanın müxtəlif ölkələrində savadlılığı müəyyən etmək üçün müxtəlif şərtlər qoyulduğu mə'lumdur. Məsələn, Hindistanda əl ilə və ya maşında yazılmış sadə məzmunlu məktubu yazıb oxuya bilən şəxs savadlı hesab edilir. Liviyada qısa bir frazanı yazıb-oxuyan və onun mə'nasını başa düşə bilən şəxs savadlı hesab edilir. İtaliya, Türkiyə, Argentina və başqa ölkələrdə yazmaq və oxumağa dair ayrıca cavab toplanılır.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin bə'zisində siyahıyalınma blankına savadlılığa dair sual daxil edilmir. Xalq maarifi yaxşı təşkil olunmuş ölkələrdə (məs, Ukrayna, Fransa, ABŞ və s.) savadlılıq əvəzinə 6 yaşdan yuxarı uşaqların məktəbə gedib-getməmələri haqqında mə'lumat toplanılır. Bə'zi Latın Amerikası ölkələrində uşaqların məktəbə getməmələrinin səbəblərinə dair də mə'lumat toplanılır.

BMT-nin bə'zi ekspertlərinin fikrincə Qərbi Avropa ölkələrində siyahıyalınma vərəqlərində savadlılığa dair sualdan təhsil səviyyəsinə dair sualın qoyulması daha böyük əhəmiyyətə malikdir. Əlbəttə, savadsızlığın ləğv edildiyi ölkələrdə məsələnin belə qoyuluşu müəyyən məntiqə uyğundur. Çox təəssüflər olsun ki, hələ də dünyanın bir çox ölkələrində savadsızlıq tam ləğv edilməyib. Odur ki, beynəlxalq tövsiyyələrdə həm savadlılıq və həm də əhalinin təhsil səviyyəsinə dair mə'lumatın toplanması zəruri hesab edilir. Savadlılıq və təhsilə dair sualların cavabı ölkə əhalisini səciyyələndirən göstəricilərdəndir. təhsil haqqında suala cavab toplanarkən ən yüksək təhsil səviyyəsi göstərilməlidir. MDB ölkələrində (cləcə də Azərbaycanda) cavabların ali, orta ixtisas, natamam orta, ibtidai və ibtidai təhsili olmayan variantları mümkündür. Əgər təhsil başa çatmayıbsa və ya yarımçıq qalıbsa hansı sinfin və ya kursun bitirilməsi dəqiqləşdirilməlidir. BMT-nin tövsiyyəsinə uyğun olaraq 1999-cu ildə Azərbaycan Respublikasında keçiriləcək əhali siyahıyalınmalarında 6 və yuxarı yaşlılar üçün təhsil sualına veriləcək cavablar aşağıdakı variantlarda alınacağı nəzərdə tutulur:

1. "Ali (magistr, bakalavr)"-ali təhsil məktəblərini - institutu, universiteti, akademiyanı (dövlət və özəl) bitirənlər üçün qeyd edilir.
2. Natamam ali - ali təhsil müəssisəsində oxuyan və təhsil müddətinin yarısından çoxunu keçmiş şəxslər üçün qeyd edilir.
3. Ali təhsil məktəblərində oxuyan və əvvəllər təhsil müddətinin yarıdın azını keçmiş şəxslər üçün ali təhsil məktəbinə daxil olarkən aldıqları təhsil (orta ixtisas, ümumi orta) qeyd edilir.
4. "Orta ixtisas" - orta ixtisas məktəbini - texnikumu (tibb və

pedaqoji məktəbi), kollecı bitirənlər üçün qeyd edilir.
5. "Ümumi orta" - 10 illik, 11 (12) illik orta ümumtəhsil məktəblərini, litseyi, gimnaziyanı, cləcə də orta təhsil verən peşə məktəblərini bitirənlər üçün qeyd edilir.
6. "Natamam orta" - səkkizillik məktəbi (1961-ci ildə və ya əvvəllər 7-ci sinifi, hər hansı bir vaxtda 8-ci sinifi; orta məktəbin 9-cu sinfini; 11 (12) illik məktəbin 10-cu sinfini bitirmiş şəxslər, orta məktəbin 9-11 (12)-ci siniflərində, orta texniki peşə məktəblərində (ümumi orta təhsili olanlardan başqa) oxuyanlar üçün qeyd edilir. Tam orta təhsil almayanların təhsil səviyyəsini müəyyənləşdirmək üçün xüsusi cədvəldən istifadə olunur.
7. "Peşə təhsili" cavabı - texniki peşə məktəblərinin (ümumi orta təhsil verməyən) bitirmiş şəxslər üçün qeyd edilir.
8. "İbtidai" - ibtidai məktəbi, yaxud 1972-ci ildə və sonralar 3 sinif, hər hansı ildə 4-6 sinif, 1962-ci ildə və sonralar 7 sinif bitirmiş şəxslər, 4-8-ci siniflərdə oxuyanlar, 1972/73-cü dərs ilində və sonralar 4-cü sinifdən, hər hansı ildə 5-7-ci siniflərdən, 1962/63-cü dərs ilində və sonralar 8-ci sinifdən çıxanlar üçün qeyd edilir.
9. "Təhsili yoxdur, aneaq oxuyub yazmağı bacarır" - heç bir təhsil (ibtidai təhsili də) olmayan, lakin oxuyub-yazmağı bacaran (ətrafında baş verən hadisəni yığcam şəkildə yazı ilə ifadə edən) 6 və yuxarı yaşlı şəxslər üçün qeyd edilir.
10. "Savadsız" cavabı oxuyub yazmağı bacarmayan 6 və yuxarı yaşlılar üçün qeyd edilir.
11. Ümumi orta təhsil verməyən məktəbləri (təkmilləşdirmə, ixtisasartırma, hazırlıq kurslarını və s.) bitirmiş, habelə həmin məktəblərdə oxuyan şəxslər üçün onların bu məktəbə daxil olanadək aldıqları təhsil qeyd edilir.

v) Siyahıyaalınma proqramının sosial-iqtisadi göstəriciləri

Son vaxtlar müasir siyahıyaalınmaların proqramında sosial-iqtisadi göstəricilər daha çox yer tutmaqdadır. Avropa statistikləri konfransı yanında yaradılmış siyahıyaalınmalar üzrə işçi qrup bu tip sualları konkret şəxsin konkret sahədə işləyib-işləməməsini, himayədə olmasını və ya işsiz olmasını müəyyənləşdirmək məqsədilə ikinci dərəcəli (köməkçi) suallar sırasına daxil etmişdi. Lakin beynəlxalq tövsiyyələrin son variantında sosial-iqtisadi göstəricələrə dair suallar proqramın əsas sualları sırasına keçirildi. Beynəlxalq tövsiyyələrə əsasən fəaliyyətlərinin tipinə görə iqtisadi aktiv və iqtisadi qeyri-aktiv əhaliyə kateqoriyalarına bölmək olar. Bu qrupların hər biri müxtəlif yarım qruplara bölünür.

Siyahıyaalınmanın proqramına daxil olan bu tipli suallardan biri məşğuliyyəti olan əhalinin məşğuliyyətinin, siyahıyaalınma zamanı işsiz olanlar üçün isə əvvəllər gördüyü işin növünə aid sualdır. Bu məsələnin beynəlxalq müqayisəlilyini tə'min etmək üçün Beynəlxalq əmək təşkilatı "Məşğuliyyətin beynəlxalq standart təsnifatı"nı hazırladı. Bu təsnifatda "xalq təsərrüfatı sahələri" əvəzinə "iqtisadiyyat sahələri" anlayışından istifadə olunur. Bazar iqtisadiyyatına keçən ayrı-ayrı ölkələr beynəlxalq tövsiyyələri əsas tutaraq öz milli təsnifatlarını hazırladılar. Azərbayean Respublikası DSK-nın hazırladığı "Məşğuliyyət növlərinin təsnifatı" haqqında mə'lumat bu dərs vəsaitinin "Əsas Beynəlxalq iqtisadi təsnifatlar" bölməsində (IV fəsil) geniş şərh edilmişdir.

Beynəlxalq əmək təşkilatının işçi qruplarında ən çox diskusiyaya səbəb olan məsələlərdən biri konkret şəxsin məşğuliyyət sahəsindəki vəziyyətinin müəyyən edilməsidir. Məşğuliyyət sahəsində vəziyyəti müəyyən etmək üçün aşağıdakı kateqoriyaları ayırmaq tövsiyyə olunur:

1. Sahibkar (işverən);
2. Öz hesabına işləyən şəxs;
3. Fəhlə və qulluqçu;
4. Görülən işlərə əvəzsiz kömək edən ailə üzvü;

Bir çox ölkələrin milli əhali siyahıyaalınmada istifadə edilən bu təsnifatın əhalinin sosial tərkibinin təhlilinə mane olan ciddi qüsurları vardır. Bu təsnifatın ayrı-ayrı qruplarında cəmiyyətin müxtəlif sosial qruplarına aid olan şəxslər qarışdırılır. Məsələn, hər hansı fəaliyyət növü ilə məşğul olan və bu məqsəd üçün bir və ya bir neçə muzdlu işçi tutan şəxslər iş verənlər (sahibkarlar) qrupda birləşdirilir. Bu o deməkdir ki, iri və orta burjuaziya ilə yanaşı bir işçisi olan xırda müəssisə sahibləri, habelə öz fəaliyyətləri üçün muzdlu işçi qüvvəsindən istifadə edən sərbəst peşə sahibləri (həkimlər, hüquqşünaslar və s.) də bu qrupa düşür. Yüksək maaş alan dirıktorlar və müəssisəni idarə edən mə'murlarla yanaşı xırda qulluqçular və fəhlələr bir qrupda (fəhlə və qulluqçular) birləşdirilir.

Avropa statistikləri konfransının işçi qrupunda iş yerində vəziyyət məsələsi müzakirə edilərkən muzdla tutulan işçilərin sayı və torpaq sahəsinə müəyyən məhdudiyyət qoyulması tövsiyyə edildi. Yuxarıda göstərilən və başqa tövsiyyələri nəzərə alan işçi qrup bu təsnifatın təkmilləşdirilməsi istiqamətində öz işini davam etdirir.

Siyahıyaalınmalar əhalini iqtisali cəhətdən fəal və qeyri-fəal qruplara bölünməsinə dair də geniş mə'lumat toplanmasına imkan verir. İqtisadi fəal əhalinin tərkibinə məşğuliyyəti olanlar və işsizlər daxil

edilir.

İqtisadi qeyri-aktiv əhaliyə aşağıdakı qruplar daxildir:

1. Təsərrüfat fəaliyyəti ilə məşğul olmayan və öz evində ev işləri (qidanın hazırlanması, paltar tə'miri və s.)

ilə məşğul olan şəxslər;

1. Şagirdlər;
2. Gəlir mənbəyi icarə haqqı, dividentlər, pensiya və s. olan şəxslər;
3. Həbsxanalarda, xeyriyyə təşkilatlarında və ruhi xəstəxanalarda olan şəxslər;
4. Sair şəxslər;

Demək olar ki, bütün Avropa ölkələrində əhalinin iqtisadi cəhətcə fəal və qeyri-fəal qruplara bölünməsi məşğuliyyətə dair sualın cavabına əsasən (işləyir, işsizdir, evdar qadındır və s.) müəyyən edilir. Bir çox Latın Amerikası ölkələrində aparılan siyahıyaalınmalarda məşğuliyyətdən əlavə iqtisadi aktivliyə (işləyir, işsizdir və s.) dair də əlavə sual qoyulur.

Əhalinin iqtisadi fəal və qeyri-fəal əhaliyə aid edilməsini müəyyənləşdirmək üçün dünyanın bə'zi ölkələrində (Məsələn, Hindistanda) aşağıdakı qruplaşmalardan istifadə olunur:

1. Yaşamaq üçün sərbəst vəsait mənbəyi olan şəxslər;
2. Əmək haqqı və ya gəliri olan himayə olunanlar;
3. Əmək haqqı və ya gəliri olmayan himayədarlar;

Bu qruplaşdırma zamanı ikinci qrupa əmək haqqı və ya gəliri sərbəst yaşamaq üçün kifayət etməyən şəxslər daxil edilir. Əlbəttə, burada "kifayət edir" mc'yarı şərtidir, himayədarların ayrılması isə bu və ya digər şəxsin ailədəki vəziyyəti ilə müəyyən edilir.

"Məşğuliyyəti olan əhali" anlayışı ilə "Yaşayış üçün sərbəst vəsait mənbəyi olan əhali" arasında ciddi fərq olduğu nəzərə alınmalıdır.

Keçmiş Sovet (o cümlədən Azərbayean) statistikasında məşğuliyyəti olan, dövlətin himayəsində və ayrı-ayrı şəxslərin himayəsində olan əhali qrupları fərqləndirilirdi. Avropa statistiklərinin konfranslarında əhalinin iqtisadi fəal və qeyri-fəal qruplara bölünməsi tənqid edilir. İqtisadi fəal, məşğuliyyəti olan və işsizlik anlayışları arasında açıq ziddiyyət olduğu dəfələrlə qeyd edilmişdi. Bə'zi Avropa statistiklərinin fikrincə tamam işsiz olanlardan əlavə həm də qismən işsizlər də iqtisadi fəal əhalidən ayrılmalıdır. Bu məqsədlə həftə və ya ay ərzində işlənilməli olan adam-saatların minimum sayının müəyyən edilməsi təklif olundu. Məşğulluğun dərəcəsini əks etdirən bu minimumlara görə az işləyən işçilər iqtisadi fəal əhali hesab oluna bilməz.

Ailə başçısına təmənnalı kömək edən işçilər haqqında da eyni fikir

söyləmək olar. Belə şəxslər az inkişaf etmiş ölkələrin kənd yerlərində daha çoxdur.

Beynəlxalq tövsiyyələrdə göstərilir ki, ailə başçısının işlərinə təmənnasız köməklik edən ailə üzvü işçilərin işlədiyi saatların 1/3-ni işlədikdə məşğuliyyəti olan əhali qrupuna daxil edilə bilər. Lakin təcrübədə buna həmişə əməl edilmir. Buna görə də konfrans BMT Katibliyinə əhalinin bu kateqoriyasının dəqiq müəyyənləşdirilməsini tə'min etməyə imkan verən göstəricilər hazırlamağı tövsiyyə etdi.

Məşğuliyyəti olan aktiv əhalinin sayını hesablayarkən hansı yaşdan yuxarı əhalinin götürülməsi məsələsi də xüsusi əhəmiyyətə malikdir. ABŞ-da aparılan siyahıalınmalarda uzun müddət iqtisadi fəaliyyətə 10 yaşdan böyüklər aid edilirdi. Lakin 1940 və 1950-ci illərdə keçirilən siyahıyaalınmalarda bu yaş həddi 14-ə qaldırıldı. Kanadada və bir sıra Avropa ölkələrində də bu yaş həddindən istifadə olunur. Məşğuliyyəti olan iqtisadi fəal əhali kateqoriyasını hesablayarkən minimum yaş həddi İsveç və İngiltərədə 15, İtaliya və Yaponiyada 10 və hətta Türkiyədə 6 yaş müəyyən edilmişdir. Dünyanın 23 ölkəsində isə belə yaş həddi müəyyən edilməmişdir.

İqtisadi fəal əhalinin sayının müəyyən edilməsi metodologiyası dəqiqləşdirilməkdədər. Məsələn, BMT-nin bə'zi ekspertlərinin fikrinə iqtisadi fəal əhalinin sayını müəyyən edərkən mülki əhali ilə yanaşı silahlı qüvvələrin tərkibində olan şəxslərin sayını da nəzərə almaq lazımdır.

q) Siyahıyaalınma mə'lumatlarının işlənilməsi Siyahıyaalınmalar nəticəsində hər bir fərd haqqında mə'lumatlar ayrıca toplansa da ölkə əhalinin sayı və tərkibi haqqında ümumiləşdirilmiş yekun əldə olunmalıdır. Belə mə'lumatlar isə siyahıyaalınma mə'lumatlarının işlənməsi və yekunlaşdırılması nəticəsində əldə edilir. Siyahıyaalınma mə'lumatlarının işlənilməsi, yekunlaşdırılması və nəşri siyahıyaalınmanın təşkilat və proqram-metodik məsələlərinin ən mühüm və məs'uliyyətli mərhələlərindən biri hesab olunur.

Siyahıyaalınma mə'lumatlarının işlənməsi qarşıya qoyulmuş məqsədlərə uyğun keçirilməsi əldə olunmuş yekunların müxtəlif məzmunda ümumiləşdirilməsinə gətirib çıxarır.

Siyahayaalınma mə'lumatlarının işlənilməsini və yekunlarının müqayisəliliyini tə'min etmək üçün beynəlxalq standartlar əhalinin tərkibi və demoqrafik səciyyəsini əlaqəli şəkildə əks etdirmək üçün bir-biri ilə əlaqəli 30 əsas cədvəlin tərkibini nəzərdə tutur.

Mə'lumatların işlənməsinin bütöv proqramı aşağıdakı əsas bölmələri əhatə edir:

1. Əhalinin coğrafi yerləşməsi;
2. Ümumi demoqrafik mə'lumatlar (fərdi xarakteristikalar) ;
3. Ailələr (fərdi təsərrüfat) haqqında mə'lumat;
4. İqtisadi göstəricələr;
5. Milliyyət göstəriciləri;
6. Təhsil göstəriciləri;
7. Fertillik (törəmə) göstəriciləri.

Birinci bölmədə əhalinin ərazi vahidləri üzrə, habelə şəhər və kənd əhalisinə bölünməsi nəzərdə tutulur. T. V. Ryabuşkinin fikrinəə (bax. Mcidunarodnaş statistika, M. 1965, səh. 183). Belə qruplaşdırma zamanı əhalinin şəhər və kənd əhalisinə bölgüsü "Coğrafi yerləşmə" əlamətinə (anlayışına) uyğun gəlmir. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr bir yana qalsın, hətta inkişaf etmiş ölkələrdə də kəndlə şəhər arasındakı fərqlər və ziddiyyətlər coğrafi əlamət hesab olunmur. Fəaliyyət və əhalinin həyat səviyyəsinə görə onların arasındakı sosial-iqtisadi fərqlər həmişə mövcuddur və bundan sonra da uzun müddət qalacaqdır. Buna görə də bu qruplaşdırmanı iqtisadi göstəricilər bölməsinə daxil etmək düzgün olardı.

Demoqrafik göstəricilər əhalinin cins, yaş (birillik) qrupları, ailə vəziyyəti, doğulduğu yer və ölkələr üzrə işlənilmişdir. Üçüncü bölmədə aileləri (ev təsərrüfatını) növlərinə və həcminə görə qruplaşdırılmasını nəzərdə tutur.

İqtisadi göstəricilər bölməsi iqtisadi fəal əhalini iqtisadiyyatın (xalq təsərrüfatının) sahələri üzrə və məşğuliyyətinə görə müxtəlif göstəricilərə (cins. yaş və s.) kombinasiyada qruplaşdırmasınını əhatə edir.

Beşinci və altıncı qrup göstəricilərdə ölkə əhalisinin milli tərkibi və təhsil səviyyəsi haqqında mə'lumat əldə etməyə imkan verir. Əhalinin təhsil səviyyəsinə görə bölüşdürdükdə təhsil müəssisələrinin aşağıdakı tipi nəzərdə tutulur:

1. Uşaq bağçaları və məktəblər;
2. Clcmentar və ilkin məktəblər;
3. Təkrar təhsilartırma və orta məktəblər;
4. Universitetlər və ya ali texniki məktəblər.

Yeddinci qrupda qadınlar yaşlarına və diri doğduqları uşaqların ümumi sayına görə qruplaşdırılır.

Siyahıyaalınmanın yekunları işlənilərkən yaşayış məntəqələri əhalisinin sayına görə aşağıdakı kimi qruplaşdırılır:

200-dən az
200-499
500-999
1000-1999
5000-9999;
10000-19999;
20000-39999;
40000-49999;

2000-4999 50000-dən yuxarı;

Belə bölgü əhalinin sıxlığı və məskunlaşması haqqında təsəvvür əldə etməyə imkan verir.

Nəzarət üçün suallar:

1. *Beynəlxalq əmək statistikası hansı vaxtdan təşəkkül tapmışdır?*
2. *Beynəlxalq əmək statistikasının vəzifələri hansılardır?*
3. *Beynəlxalq Əmək Təşkilatı nə vaxt və hansı məqsədlər üçün təşkil edilmişdir?*
4. *Beynəlxalq əmək ehtiyatlarının əsas xüsusiyyətləri hansılardır?*
5. *Beynəlxalq statistikada məşğulluq və işsizlik anlayışları necə başa düşülür?*
6. *Beynəlxalq əmək bazarı necə tənzimlənir?*
7. *Əmək birjası nədir?*
8. *Əmək ehtiyatlarının və əhalinin beynəlxalq miqrasiyası nədir və o hansı səbəblərdən yaranır?*
9. *Beynəlxalq miqrasiyanın hansı növləri vardır?*
10. *Beynəlxalq miqrasiyanın səmərəliliyi necə müəyyən edilir?*
11. *Beynəlxalq miqrasiyanı necə tənzimləmək olar?*
12. *Azərbaycan Respublikasında əhalinin və əmək ehtiyatlarının miqrasiyasının əsas xüsusiyyətləri nədən ibarətdir?*
13. *Əmək münaqişəsi nədir və onlar hansı statistika göstəriciləri ilə səciyyələndirilir?*

IX PƏSİL
GƏLİRLƏRİN YARANMASI, BÖLÜŞDÜRÜLMƏSİ VƏ YENİDƏN BÖLÜŞDÜRÜLMƏSİ STATİSTİKASI

§ 9.1.Bazar iqtisadiyyatı və beynəlxalq milli hesablar sistemində gəlirlərin rolu

Bazar iqtisadiyyatının inkişafının əsas hərəkətverici qüvvəsi gəlir əldə etməkdir. Gəlirlər istehlakı aktivlər və passivlərlə (yığılmış vəsaitlərlə) əlaqələndirilir.

Gəlirlər axınının əsas komponentlərinin dövranı pul ödənişləri axını kimi nəzərdən keçirilir.

Dövlətin, firmanın və ev təsərrüfatlarının tələbatının bir hissəsi idxal edilən əmtəələr və xidmətlər hesabına ödənilir. İxracat daxili milli iqtisadiyyatı xarici ölkələrlə əlaqələndirən növbəti mərhələdir. Xarici alıcılara satılmış əmtəə və xidmətlərin əvəzində alınmış vəsait əmtəə bazarına daxil olur. Bu vəsaitlər orada firmalara, ev təsərrüfatlarına və dövlətə satılan əmtəə və xidmətlərin dəyərindən alınan vəsait axını ilə birləşir. Bütün bu mənbələrdən alınan vəsaitlər firmaların əmtəə və xidmətlərin satışından əldə etdiyi gəlirlərə əlavə edilir.

Milli iqtisadiyyatın xarici ölkələrlə əlaqəsini təhlil edərkən nəzərə almaq lazımdır ki, idxal və ixracat iqtisadi münasibətlər müxtəlif maliyyə əməliyyatları (borclar və kreditlər, maliyyə aktivlərinin beynəlxalq satışı və alışı, transfertlər, mülkiyyətdən alınan gəlir və s.) formasında da həyata keçirilir.

Bazar iqtisadiyyatı sisteminin nəzəri modelinin sxemi iqtisadi dövriyyədir. Buna bəzən təsərrüfat dövriyyəsi və ya əmtəə, resurs və tə'diyyələrin dövriyyəsi də deyilir. Bu məsələlərin təhlilində "axın" dedikdə müəyyən vaxt müddətində fasiləsiz baş verən iqtisadi proses başa düşülür. Resursların, məhsulların və tə'diyyənin axını daima hərəkətdə olur. Axın prosesinin tərkib ünsürlərindən biri olan tə'diyyə məhsul və resurslar üçün bütün ödənişləri əhatə edir. Tə'diyyənin mənbəyi keçmiş dövrlərdə yığılmış vəsaitlər və cari fəaliyyət nəticəsində əldə edilmiş vəsait ola bilər. Normal fəaliyyət göstərən iqtisadiyyatda keçmiş dövrlərdə yığılmış vəsaitlər cari ödənişlər üçün borc kapitalı kimi cəlb edilir. Konkret dövrdə sərf edilmiş əmək və vəsaitin köməkliyi ilə əldə edilmiş vəsait həmin fəaliyyətlə əlaqədar xərcləri ödəməklə yanaşı həm də ona yeni dəyər əlavə etməlidir. Cari fəaliyyət nəticəsində əldə edilmiş belə əlavə vəsait adətən "gəlir" adlanır.

Bazar iqtisadiyyatı şəraitində gəlir istehlakın ödənilməsi mənbəyi və iqtisadi fəaliyyətin stimullaşdırılmasının əsas amilidir. "Gəlir" anlayışı bir çox hallarda öz əmlakının real dəyərini azaltmadan ev təsərrüfatının xərcləyə biləcəyi məbləğ kimi müəyyən edilir.

BMT-nin tövsiyyə etdiyi sonuncu (1993-cü il) MHS-nə görə "gəlir" dedikdə hesabat dövrünün əvvəlində mövcud olan kapitalı dövrün sonunadək saxlamaq şərtilə həmin dövr ərzində istehlak məsrəflərinin maksimum məbləğidir. Başqa sözlə, "gəlir" hesabat dövründə kasıblaşmadan istehlaka sərf edilən xərclərin və yığımın əlavə artımının cəmidir.

MHS-də gəlirlərin müxtəlif göstəriciləri tətbiq edilir. Onların çox hissəsi ümumi və xalis variantlarda hesablanır. Onların köməkliyi ilə yarandığı anda gəlirlərin həcmini və hər hansı ödənişdən və ya da transfertləri aldıqdan sonra onların dəyişməsini müəyyən etmək olar.

Beynəlxalq MHS-də gəlirlər və onunla əlaqədar olan göstəricilər aşağıdakılardır:

1. Milli gəlir;
2. İkinci gəlirlər;
3. Törəmə gəlirlər;
4. Ümumi gəlir;
5. Real gəlirlər;
6. Xalis gəlir;
7. Sərəncamda olan gəlir;
8. Ümumi sərəncamda olaq gəlir;
9. Sərəncamda olan xalis gəlir;
10. Təshih edilmiş sərəncamda olan gəlir;
11. Qarışıq gəlirlər;
12. Son gəlirlər;
13. Bölüşdürülən gəlir;
14. Sahibkarlıqdan alınan gəlir;
15. Mülkiyyətdən gəlirlər;
16. Natural formada gəlirlər;
17. Ümumi milli gəlir;
18. Xalis milli gəlir;
19. Sərəncamda olan ümumi milli gəlir;
20. Dividentlər;
21. Transfertlər;
22. Natural formada dividentlər;
23. Subsidilər;
24. Yardımlar;
25. Sosial yardımlar;
26. Muzdlu işçilərin əmək haqqı;
27. Pul və natural formada əmək haqqı;
28. Ümumi əmək haqqı;

29. Sosial sığortaya ayırmalar;
30. Sığorta ödənişləri və sığorta mükafatları;
31. İqtisadiyyatın ümumi mənfəəti;
32. İqtisadiyyatın xalis mənfəəti;
33. Cari beynəlxalq rüsum;
34. Xarici investisiyadan alınan gəlir;
35. Sair gəlirlər.

Gəlirlər daima hərəkətdə olur və aşağıdakı mərhələlərdən keçir: onlar yaradılır, bölüşdürülür, yenidən bölüşdürülür, son istehlaka və yığıma istifadə olunurlar.

Təkrar istehsal tsiklində gəlirlərin hərəkətinin öz mərhələlərinə uyğun olaraq gəlirlərin birləşdirilmiş yekun hesabları (gəlirlərin yaranması, ilkin bölgüsü, təkrar bölgüsü və son istifadəsi hesabları) işlənib hazırlanmışdır. Gəlirlərin yuxarıda göstərilən növlərinin formalaşması öz əksini bu hesablarda tapır.

Gəlirlərin hərəkətinin ilkin mərhələsi əmtəə və xidmətlərin istehsal prosesində yaranması, ümumi və xalis mənfəətin formalaşmasıdır. İlkin bölgü mərhələsində yaranmış gəlirlər ilkin gəlirlər adlanır.

İstehsal fəaliyyəti nəticəsində yaranmış ilkin gəlirlərdən istehsala və məhsula vergilər, əmək haqqına istifadə edilən resurslar üçün (istehsal amilləri) haqlar ödənilir. Beləliklə, bu mərhələdə yaranmış ilkin gəlirlər əmək haqqına, fondlara, rentaya və korporasiyaların bölünməmiş mənfəətinə çevrilir. Sonradan gəlirlərin yenidən bölgüsü nəticəsində ilkin gəlirlərdən sosial sığortaya ayırmalar (əmək ödənişindən) hesablanır, gəlirlərə vergilər ödənilir, gəlirlərin bir hissəsi müxtəlif transfertlər şəklində müəssisələr və əhali arasında bölüşdürülür, dövlət idarəçilik orqanları, qeyri-kommersiya idarələri və əhali tərəfindən ərzaq alınmasına sərf edilir.

Gəlirlərin yenidən bölüşdürülməsi prosesi məcburi və könüllü ödənişlərin verilməsi və alınması, vəsaitlərin bir subyektdən başqasına bilavasitə verilməsi yolu ilə həyata keçirilir. Bu ödənişlər transfert ödənişləri sırasında aparılır. Transfert ödənişləri zamanı onu ödəyənlər əvəzində heç nə (əmtəə, xidmət və s.) almır.

Gəlirlərin yenidən bölgüsü prosesində sərəncamda olan gəlir formalaşır.

Son istifadə mərhələsində gəlirlərin son istehlaka və yığıma ayrılan hissəsinin həcmi müəyyən edilir. Yığıma ayrılan gəlir hesabına cari ildə sərf edilmiş əmək nəticəsində ölkənin milli sərvətinin əlavə artımı tə'min edilir.

Beynəlxalq Milli Hesablar sistemində bütün hesablar cari axın və yığım hesablarına ayrılırlar. Cari hesablara istehsal, gəlirlərin

yaranması, bölgüsü, yenidən bölgüsü və istifadəsi hesabları, yığım hesablarına isə kapitalla əməliyyatlar və maliyyə hesabları aiddirlər. MHS-də gəlir hesabları mərkəzi mövqeyə malikdirlər. Məhz onların sayəsində məhsul və xidmətlərin istehsalının nəticəsinin gəlirlər və kapitalın yaranması, maliyyə aktivləri və passivlərinin dəyişməsi, habelə milli sərvətin yığılması prosesləri ilə əlaqəsi tə'min edilir. "Gəlirlərin yaranması hesabı"nın vəzifəsi istehsalla əlaqədar olan bütün gəlirləri ayırmaqdır. Bu hesabda muzdlu işçilərin əməyi nəticəsində yaranmış gəlirlərin, vergilərin və amil gəlirlərinin, mənfəət və qarışıq gəlirlər quruluşu əks etdirilir.

"Gəlirlərin bölgüsü hesabı"nda amil gəlirlərinin yerdə qalan hissəsi (faizlər, dividentlər, renta, bölünməmiş mənfəət və s.) əks etdirilir. Bu hesabın balanslaşdırıcı maddəsi əlavə dəyərin istehsal amillərinə müvafiq təhsisat vahidləri arasında bölgüsündən alınan ilkin gəlirlərin bölgüsünün saldosudur.

"Gəlirlərin təkrar (ikinci dəfə) bölgüsü hesabı" müxtəlif transfertlərin tə'siri nəticəsində gəlirlərin necə dəyişməsini, habelə dövlətin cari sosial-iqtisadi siyasətinə uyğun olaraq gəlirlərin yenidən necə bölüşdürülməsini əks etdirir. Hesabın yekununda (onun balanslaşdırıcı maddəsində) sərəncamda olan gəlir cari ildə sərf edilmiş əmək nəticəsində yaranmış gəlirlərin istehlak və yığım məqsədlərinə istifadə edilə bilən məbləği göstərilir.

Sosial transfertlərin natural formada yenidən bölgüsünə düzəliş vermək üçün tərtib edilən sub hesablar dövlət idarəçilik orqanları sektoru və qeyri-kommersiya təşkilatlarının fərdi ev təsərrüfatlarının xeyrinə çəkdikləri məsrəfləri göstərir.

Sərəncamda olan gəlirlərə bu düzəliş "sosial transfertlərin natural formada yenidən bölgüsü hesabında" əks etdirilir. Bu hesabın balanslaşdırıcı maddəsi təshih edilmiş sərəncamda olan gəlirdir.

"Gəlirlərin istifadəsi hesabı"nda gəlirlərin ev təsərrüfatlarının, ev təsərrüfatına xidmət edən dövlət idarəçilik orqanlarının və qeyri-kommersiya təşkilatlarının son istehlak tələbatlarının ödənilməsi və onların yığımı əks etdirilir. Beləliklə, "Ev təsərrüfatı", "ev təsərrüfatına xidmət edən ümumdövlət idarəçiliyi" və "Qeyri-kommersiya təşkilatları" sektorlarında gəlirlər son istehlaka və yığıma sərf edilir. Başqa sektorlarda isə sərəncamda olan gəlir yığıma bərabər olur.

İstehlakla yığım arasındakı nisbət iqtisadiyyatın mövcudluğunu və fəaliyyət göstərməsinin əsas indikatoru olduğu üçün "Gəlirlərin istifadəsi hesabı"nın göstəriciləri iqtisadiyyatın inkişafını və ictimai istehsalın səmərəliliyini təhlil edərkən böyük əhəmiyyətə malikdir.

Sərəncamda olan və təshih edilmiş sərəncamda olan gəlir hesabları

müəyyən mə'nada bir-birinə paraleldirlər. Onlardan ikincisi yalnız gəlirlər natural formada yenidən bölüşdürüldüyü halda tətbiq edilir.

Müasir şəraitdə gəlirlər statistikasının əldə etdiyi informasiya iqtisadiyyatın ümumi vəziyyəti və əhalinin həyat səviyyəsini təhlil etməyə imkan verməklə yanaşı həm də optimal sosial siyasət hazırlamaq, habelə əhalinin ayrı-ayrı qruplarının sosial müdafiəsini təmin edə bilən tədbirlərin hazırlanması zamanı da istifadə olunur.

Yığıma dair əhali qrupları üzrə diferensasiya edilmiş mə'lumatlar vergi siyasəti hazırlanarkən yararlı ola bilər. Ən nəhayət, əhalinin yığımına dair sistemləşdirilmiş informasiya daxili ehtiyatları səfərbərliyə almaqla investisiya prosesinin genişləndirilməsi imkanlarını qiymətləndirmək üçün gərəkdir.

§ 9.2. Beynəlxalq MHS-də "Gəlirlərin yaranması hesabı"

Gəlirlər hesabına bir-biri ilə əlaqəli olan və aşağıdakıları əks etdirən hesabların cəmi daxildir:

- istehsalatda gəlirlərin yaranması;
- istehsalatda yaranmış əlavə edilən gəlirlərə iddiaçı olan tə'sisat vahidləri tərəfindən gəlirlərin bölüşdürülməsi;
- sosial tə'minat fonduna haqqlar, yardım və vergilərə ödənişlər vasitəsi ilə gəlirlərin tə'sisat vahidləri (əsasən dövlət vahidləri) arasında yenidən bölüşdürülməsi;
- gəlirlərin son nəticədə ev təsərrüfatı, dövlət vahidləri və ya qeyri-kommersiya idarələri tərəfindən son istehlaka və ya yığıma istifadəsi.

Burada balanslaşdırıcı maddə kimi bütün gəlir hesablarının cəmindən alınan yığım götürülür. Gəlir hesabları öz-özlüyündə böyük maraq doğurur. Onlar son istehlak (ev təsərrüfatı, fərdi və kollektiv istehlakçıların ehtiyaclarının ödənilməsi) üzrə əsas iqtisadi fəaliyyəti qiymətləndirmək üçün lazımdır. Gəlirlərin yaranması hesabı əmtəə istehsalçısı və xidmətləri yerinə yetirən rezident müəssisələr üçün aparılır. Bu hesab istehsal hesabının davamı olmaqla istehsal prosesində bilavasitə iştirak edən vahidlərin və dövlət idarələrinin əldə etdikləri gəlirləri uçota alır. "İstehsal hesabı"nda olduğu kimi, "Gəlirlərin yaranması hesabı"da həm müəssisələr və sahələr üzrə, həm də tə'sisat vahidləri və sektorlar üzrə aparıla bilər. Bu hesabda ilkin gəlirlər yarandıqları sektorlar, yarımsektorlar və ya sahələr üzrə uçota alınır. "Gəlirlərin yaranması hesabı"nın sağında göstərilən maddələrin əsas məbləği əlavə edilmiş dəyərin ümumi məbləğidir. Bu məbləğ "İstehsal hesabı"nın balanslaşdırıcı maddəsi kimi, həmin hesabın ehtiyatlar hissəsinə köçürülür. İstehsal hesabında olduğu kimi, əlavə edilmiş dəyərin ümumi məbləği məhsulun dəyərindən aralıq istehlakının dəyərini çıxmaqla tapılır. Bundan əlavə, xalis əlavə

edilmiş dəyər göstəricisi də hesablanır. Onu müəyyən etmək üçün əlavə edilmiş dəyərdən istehsal prosesində istehlak edilmiş əsas kapitalın və ya əsas fondların dəyərini də çıxmaq lazımdır. Lakin əldə olunan məlumatlar istehlak olunmuş əsas kapitalı dəqiq müəyyən etməyə imkan vermir. Buna görə də sistemin hesablarında əlavə edilmiş dəyərlərin ümumi və xalis formalarından istifadə edilir. Bununla əlaqədar olaraq bütün sonrakı hesablarda balanslaşdırıcı maddə kimi götürülmüş əlavə edilmiş dəyərin həm ümumi və həm də xalis göstəricilərindən istifadə edilə bilər. İmkan olduğu halda xalis göstəricidən istifadə etmək daha məqsədəuyğundur. Hesabın istifadə bölməsində isə əlavə edilmiş dəyər hesabına ödənilən məsrəflər sadalanır. Buraya ilk növbədə muzdlu əməyin ödənilməsi, daha doğrusu, öz əməyini istehsala qoyan işçilərə istehsal vahidlərinin ödəyəcəyi məbləğ və dövlətdən alınan subsidiləri (maliyyə yardımlarını) çıxmaqla istehsal fəaliyyətinə görə dövlətə ödənilən vergilər daxildir. Belə vergilərə əmtəə kimi istehsal edilən məhsullara ödənilmiş vergilər və ya subsidilər (məsələn, işçi qüvvəsi, maşın, bina və istehsalatda istifadə olunan aktivlər üçün subsidilər) aiddirlər. İstehsala vergilər heç bir gəlir vergisini öz tərkibinə daxil etmir.

Subsidilər çıxılmaqla istehsala və idxala vergilər buraxılan maddi məhsulun qiymətləndirilməsindən asılıdır. Əvvəla nəzərə almaq lazımdır ki, hesab -fakturaya daxil edilmiş əlavə edilmiş dəyərə vergilər (ƏDV) və ya buna bənzər başqa vergilərin hər biri həmin məhsulun dəyərindən (həm də əlavə edilmiş dəyərdən) çıxılır. Deməli, ƏDV əlavə edilmiş dəyərdən ödənilmir. Əvvəllər deyildiyi kimi, buraxılmış məhsul ya bazis qiymətləri ilə, ya da istehsalçıların qiymətləri ilə qiymətləndirilir. Xatırladaq ki, bazis qiymətləri buraxılmış məhsul üçün ödənmiş heç bir vergini və ya subsidiləri öz tərkibinə daxil etmir. İstehsalçıların qiyməti isə ƏDV-ni və buna bənzər silinməli olan vergilərdən başqa bütün belə vergiləri öz tərkibinə daxil edir.

Bundan sonra əlavə edilmiş dəyərdən muzdlu əməyin ödənilməsi xərclərini və istehsala vergiləri (subsidilərdən başqa) çıxmaqla müəssisənin xarakterindən asılı olaraq ya " mənfəət və onlara bərabər tutulan gəlirlər", ya da "qarışıq gəlir" adlı maddə müəyyən edilir. Bu maddə gəlirlər hesabının balanslaşdırıcı maddəsidir. Hesabın "istifadə" bölməsində yerləşdirilən bu maddə ev təsərrüfatına aid olan korporasiya edilməmiş müəssisələr istisna olunmaqla bütün hallarda "mənfəət və ona bərabər tutulan gəlir" adlanır. Sahibkarların və ev təsərrüfatında ailə üzvlərinin iştirakına görə onlara çatacaq mükafatları ümumi gəlirdən ayırmaq çətin olduğu üçün deyilənləri nəzərə alan balanslaşdırıcı maddə "qarışıq gəlir" adlanır.

Əgər müəssisə dövlət idarə orqanına və ya qeyri-kommersiya idarəsinə aiddirsə və qeyri-bazar tə'yinatlı məhsul istehsal edirsə, onların istehlak etdiyi və başqa tə'sisat vahidlərinə düşən məhsul cari qiymətlərlə və ya hesablama yolu ilə bazar qiymətlərinə əsasən qiymətləndirilə bilməz. Belə məhsullar istehsal xərclərinə (aralıq istehlakı, əsas kapitalın istehlakı, muzdlu işçilərə kompensasiya və subsidiləri çıxmaqla vergilərin cəmi) görə qiymətləndirilər. Məhsul bu yolla qiymətləndirildikdə mənfəət və ona bərabər tutulan gəlirlər aradan qalxır. Aralıq istehlakına aid edilən dövlət binalarının istifadəsi hesablama yolu ilə bazar icarə haqqlarına əsasən qiymətləndirilir. Əgər bazis qiymətlərini tətbiq etmək mümkün deyilsə, özünün son istehlakı üçün istifadə edilən məhsulu da istehsal xərclərinə görə qiymətləndirmək olar.

15- ci cədvəl

1990-1995-ci illərdə Azərbaycan Respublikasında gəlirlərin yaranması hesabı

(cari qiymətlərlə, milyard manatla)

	1990	1991	1992	1993	1994	1995
Ehtiyatlar						
Ümumi əlavə dəyər (əsas qiymətlərlə)	1,3	2,5	22,1	149,4	1836,8	9893,0
Cəmi	1,3	2,5	22,1	149,4	1836,8	9893,0
İstifadə İşçilərin əməyinin ödənilməsi	0,8	1,4	9,6	8,4	526,7	2413,0
İstehsala və idxala digər vergilər	0,05	0,02	0,1	2,1	13,2	21,0
İstehsala və idxala digər subsidiləri (-)	-	-	-	-	-	-
Ümumi mənfəət (qarışıq gəlirlər)	0,5	1,1	12,4	63,6	1296,9	7409,0
Əsas fondların istehlakı	0,2	0,3	3,1	21,3	261,3	1500,0
Xalis mənfəət (xalis qarışıq mənfəət)	0,3	0,8	9,3	1035,6	1836,8	5909,0
Cəmi	1,3	2,5	22,0	149,4	1836,8	9843,0

Cədvəldən göründüyü kimi, 1990-1995-ci illərdə ehtiyatların və gəlirlərdən istifadənin səviyyəsi ildən ilə artır. Bu artım əsasən inflyasiya ilə əlaqədar olsa da gəlirlərin yaranması və istifadəsinə dair müəyyən nəticəyə gəlməyə əsas verir.

§ 9.3. "Gəlirlərin ilkin bölgüsü hesabı"

Beynəlxalq MHS-də gəlirlərin ilkin bölgüsü öz əksini "gəlirlərin yaranma sı hesabı"nda və ilkin gəlirlərin yenidən bölüşdürülməsi hesablarında tapır. Birinci hesabın məzmunu və qurulması prinsipləri əvvəlki bölmədə nəzərdən keçirilmişdir.

"Gəlirlərin ilkin bölgüsü hesabı" lazım gəldikdə aşağıdakı subhesabalara bölünür:

a) Sahibkarlıq gəlirləri hesabı;

b) Sair ilkin gəlirlər hesabı.

"Gəlirlərin ilkin bölgüsü hesabı"-nın ümumi tə'yinatı ilkin gəlirlərin tə'sisat vahidlərinin istehsal prosesində iştirak etdiklərinə görə və ya istehsal məqsədləri üçün istifadə edilə biləcək aktivlərə malik olmalarına görə aldıqları gəlirlərə əsasən müəyyən edilir. Onlar istehsalatda yaranan əlavə edilmiş dəyər hesabına ödənilir. Bu hesabın ehtiyatlar hissəsində ümumi mənfəət (qarışıq gəlirlər), işçilərin əməyinin ödənilməsi, istehsala və idxala vergilər, istehsala və idxala subsidilər, habelə mülkiyyətdən alınan gəlirlər yerləşdirilir.

Ümumi mənfəətin mahiyyəti və hesablanma qaydası əvvəlki hesabda şərh edilmişdir. "Gəlirlərin yaranması hesabı"nda göstərilən "İşçilərin əməyininin ödənilməsi" xərcləri (müəssisələr, dövlət təşkilatları və qeyri-kommersiya təşkilatları tərəfindən ödənilən) "gəlirlərin ilkin bölgüsü hesabında " ev təsərrüfatının aldığı gəlir kimi göstərilir və muzdlu əməyin müqabilində ödənişlərin məbləğini göstərir. Bu hesabın ehtiyatlar hissəsində əlavə edilmiş dəyər hesabın "istifadə" bölməsində göstərilən istehsala və idxala vergilər xüsusi yer tutur. Bu vergilər ilkin gəlirlərin "istifadə" hissəsində göstərilən məbləğə uyğun olmalıdır. Buraya istehsal prosesində bilavasitə iştirak etmələrdən və idxaldan vergi qoymaq yolu ilə dövlət orqanlarının tə'sisat vahidləri - rezidentlərin aldığı ilkin gəlirlər aiddir. Müəssisədə e'malla əlaqədar vergilər və idxal vergiləri əlavə edilmiş dəyərdən ödənilsə də dövlətin ilkin gəlirləri hesab edilir.

Gəlirlərin ikinci növü mülkiyyətdən alınan gəlirlərdir. Buraya maliyyə və torpaq da daxil olmaqla istehsal prosesində istifadə olunmaq üçün başqa tə'sisat vahidlərinə verilmiş maddi aktivlərin borca və ya icarəyə verilməsindən alınan ilkin gəlirlər aiddir.

Sosial sığortaya ayırmalar, varidata, gəlirlərə və sairə üçün cari vergilər ilkin gəlirlərə daxil edilmir. Cari transfertlər gəlirlərin təkrar bölgüsündə nəzərə alınır.

"Gəlirlərin ilkin bölgüsü hesabı"-nın "istifadə" bölməsində göstərilən gəlirlərə yalnız tə'sisat vahidləri və ya sektorlar tərəfindən kreditorlara, səhmdarlara, torpaq sahiblərinə və başqalarına verilən mülkiyyətdən ödənilən gəlirlər daxil edilir. Torpaq üçün və faydalı qazıntılar üçün renta istisna olmaqla bütün bu ödənişlər rezidentlərə və eləcə də qeyri-rezidentlərə ödənilə bilər. Bu hesabın "istifadə" hissəsi "ilkin gəlirlərin bölgüsündən yaranan ümumi daxili məhsul" maddəsi ilə tamamlanır.

Ümumi Daxili Məhsul (ÜDM) MHS-nin ən mühüm göstəricilərindən biri olmaqla ölkədə əmtəə və xidmətlərin istehsalının son nəticəsini xarakterizə edir. Bazar qiymətləriləÜDM istehsalçı-rezident vahidlərinin istehsal fəaliyyətinin son nəticəsini əks etdirir. ÜDM iqtisadiyyatın sahələri üzrə, məhsulun son istifadəsinin növünə və gəlirlərin növünə görə hesablana bilər. Gəlirlərin bölüşdürülməsi hesabında ÜDM ilkin gəlirlərin bölüşdürülməsi baxımından hesablandığına görə bilmək lazımdır ki, onun tərkibinə fəhlə və qulluqçuların əməyinin ödənilməsi, mənfəət, sosial sığortaya ayırmalar, subsidilər çıxmaqla vergilər və əsas fondların amortizasiyası daxildir.

MHS-də ÜDM-un hesablanmasının müxtəlif üsulları mövcuddur. Bu üsulların seçilməsi və tətbiqi verilmiş informasiyanın məzmunundan və onun hesablanmasına hansı baxımdan yanaşılmasından asılıdır.

Məsrəflər baxımından ÜDM aşağıdakı kimi müəyyən edilir:

ÜDM = Alıcıların qiymətləri ilə son istehlaka ev təsərrüfatlarının məsrəfləri;

+ alıcıların qiymətləri ilə son istehlaka dövlət məsrəfləri;

+ alıcıların qiyməti ilə son istehlaka QKİ-nin məsrəfləri;

+ alıcıların qiymətləri ilə əsas kapitalın ümumi əlavə artımı;

+ ehtiyatlarda dəyişikliklər;

+ sərhəddə alıcıların qiymətlər ilə (fob) ixracat;

+ fob qiymətləri ilə idxal.

Gəlirlər baxımından ÜDM-u bütün istehsalçı-rezidentlər üzrə aşağıdakı mə'lumatlara əsasən də hesablamaq olar:

1. ÜDM = istehsalçıların qiymətlərilə ümumi əlavə edilmiş dəyərin məbləği

+ idxal vergiləri (subsidiləri çıxmaqla)

+ çıxılmayan əlavə edilmiş dəyərə vergilər;

2. ÜDM = bazis qiymətlərilə ümumi əlavə edilmiş dəyərin məbləği

+ subsidiləri çıxmaqla məhsula bütün vergilər;

3. ÜDM = amil qiymətlərilə ümumi əlavə edilmiş dəyərin məbləği

+ subsidiləri çıxmaqla məhsula bütün vergilər

+ subsidiləri çıxmaqla bütün başqa vergilər;

4. ÜDM = bütün istehsalçı rezident-vahidlərin ümumi əlavə edilmiş dəyərlərinin cəmi

+ məhsula vergilər

- məhsul qiymətləndirilərkən nəzərə alınmayan subsidilər

5. ÜDM = istehsalçıların qiymətləri ilə qiymətləndirilən əmtəələrin və xidmətlərin bütün son istehlakının (aralıq istehlakdan başqa) məbləği

- əmtəə və xidmətlərin idxalının dəyəri

6. ÜDM = istehsalçı-rezident vahidləri arasında bölünmüş ilkin

gəlirlərin məbləğinin cəmi;

7. ÜDM = məhsul+subsidilər (məhsula)+aralıq istehlakı
8. ÜDM = son istehlaka məsrəflər (faktiki son istehlak)
+ ehtiyatlarda dəyişikliklər
+ əsas kapitalın ümumi əlavə artımı
+ əmtəələrin və xidmətlərin ixracı
- əmtəələrin və xidmətlərin idxalı.

Əgər ÜDM-dən əsas kapitalın istehlakı çıxılarsa bazar qiymətləri ilə xalis daxili məhsul (XDM) müəyyən edilər. "Əsas kapitalın istehlakı" dedikdə istehsal prosesində əsas fondların istehlakı (amortizasiyası) başa düşülür. Lakin əsas fondların mühasibat uçotunda hesablanan amortizasiya göstəricisi MHS-nin tələblərinə uyğun gəlmir. Əsas kapitalın istehlakını hesablamaq üçün əsas fondların cari qiymətlərini, müxtəlif növ aktivlərin xidmət müddətini, amortizasiyanın xarakterini və sairəni müəyyən etmək lazımdır. Çox təəssüf ki, dünyanın bütün ölkələrində belə hesablamalar aparılmır. Belə hesablamaları aparan ölkələrdə isə vahid metodologiyaya əməl edilmir. Buna görə də müqayisəlilik baxımından ÜDM göstəricisindən istifadə etmək daha əlverişlidir. Lakin XDM göstəricisini də hesablamaq lazımdır. Nəzərə alınmalıdır ki, əsas kapitalın istehlakının qiymətləndirilməsi təkmilləşdirildikdən sonra bu göstəricinin əhəmiyyəti artacaqdır. ÜDM-u hesablayarkən nəzərə almaq lazımdır ki, o istehsalın həcmini iqtisadiyyatın coğrafi sərhədləri daxilində ölçmək üçün nəzərdə tutulmayıb. Ölkənin iqtisadi ərazisi daxilində olan istehsalçı-rezidentlərin istehsalının müəyyən hissəsi ölkənin coğrafi ərazisindən kənarda da yerləşə bilir. Məsələn, istehsalçı-rezident sərhəddən kənarda avadanlıqların qurulması və ya təʼmiri ilə müvəqqəti məşğul olan muzdlu işçilər briqadasına malik ola bilər. Onların yaratdığı məhsul bu istehsal fəaliyyətinin həyata keçirildiyi ölkənin ÜDM-nun bir hissəsi kimi deyil, istehsalçı-rezidentin məhsulunun ixracı kimi nəzərdən keçirilir. Beləliklə, ÜDM-u hesablayarkən istehsalçı-rezidentlərlə qeyri-rezidentlər arasındakı fərqin müəyyən edilməsi həlledici əhəmiyyətə malikdir. Əlbəttə, istehsalçı rezidentlərin istehsal fəaliyyətinin çox hissəsi onların yaşadıqları ölkənin sərhədləri daxilində həyata keçirilir. Lakin istehsal fəaliyyətinin (xüsusilə də xidmət sahələrinin) sahələri iqtisadiyyatın coğrafi sərhədlərindən daha çox kənara çıxmağa doğru meyl edir. Qeyri-rezidentlərdən alınan ilkin gəlirlərlə onlar tərəfindən ödənilən gəlirlərin məbləği arasındakı fərq adətən "xaricdən alınmış xalis gəlir" adlanır.

Bəzi ölkələrin iqtisadi inkişaf səviyyəsini səciyyələndirmək üçün "xalis maddi məhsul" göstəricisindən də istifadə olunur. Bu göstərici Almaniyada 1968-ci ilədək "ümumi milli məhsul" adı ilə MDB

ölkələrində əvvəlcə milli gəlir, sonralar (1994-cü ilədək) isə "xalis maddi məhsul" adı ilə hesablanırdı.

Beynəlxalq MHS-də "Xalis maddi məhsul" adlı göstərici yoxdur. Gəlirlərin bölüşdürülməsi zamanı isə "ümumi" və "xalis milli gəlir", "sərəncamda olan ümumi və xalis gəlir", təshih edilmiş ümumi və xalis gəlir göstəriciləri hesablanır. Bu göstəricilərin bəʼzilərinin təʼyinatı və hesablama metodları gəlirlərin ilkin bölgüsü hesabı şərh edilərkən nəzərdən keçirilmişdir.

"Xalis maddi məhsul" göstəricisi keçid dövrünün iqtisadiyyatının səmərəliliyini əks etdirən göstərici kimi istifadə olunurdu. Azərbaycan Respublikası DSK-nın hazırladığı "Əsas iqtisadi-statistik göstəricilərə dair metodoloji izahat"da (Bakı 1997-ci il) xalis maddi məhsul aşağıdakı kimi şərh edilir: "Xalis maddi məhsul maddi istehsal sahələrində yeni yaradılan dəyərdir və ya istehsal prosesində istehlak vasitələrinin (xammal, yanacaq, elektrik enerjisi və s.) dəyərini çıxdıqdan sonra yerdə qalan məcmu məhsulun bir hissəsidir. İstehsal olunmuş xalis maddi məhsul ayrı-ayrı maddi istehsal sahələrinin xalis məhsullarının cəmi ilə müəyyənləşdirilir. Ayrıca sahənin xalis məhsulu isə həmin sahədə məhsul buraxılışı ilə material xərcləri arasındakı fərq kimi hesablanır".

"İstifadə edilmiş xalis maddi məhsul" məcmu maddi məhsulun son istehlak, xalis yığım və sair məsrəflər üçün istifadə edilən hissəsini ifadə edir.

Fərdi gəlirlərə uyğun olaraq milli gəlirə istehsal və istifadə baxımından yanaşmaq olar. İstehsal konpensasiyası baxımından milli gəlirin tərkibinə yalnız istehsal fəaliyyətinin dəyər ifadəsi daxil edilirdi. Belə hal istehsalla qeyri istehsal, bölgü və yenidən bölgünün sərhədlərini, habelə bazar əməliyyatlarının hüdudlarını dəqiq müəyyənləşdirməyi tələb edirdi. Deyilənlərlə əlaqədar qarşıya bir sıra problemlər çıxdı:

1. İqtisadi fəaliyyəti qeyri-iqtisadi fəaliyyətdən necə ayırmalı?
2. Sistemin qapalılığını təʼmin etmək, səmərəliliyi və rifahı ölçmək, beynəlxalq və milli səviyyədə müqayisəliliyi təʼmin etmək məqsədilə bəzi əməliyyatları hansı həcmdə şərti qiymətləndirməli?
3. Təshihat və funksional baxımdan iqtisadi tsikli hansı prinsiplə hissələrə ayırmalı?

Ən dar konsepsiya - maddi istehsal konsepsiyasıdır. Bu konsepsiyaya əsasən "istehsal" dedikdə yalnız maddi neʼmətlər istehsalı, habelə istehsalla əlaqədar olan bəzi xidmətlər (quraşdırma, təmir, istehsala xidmət edən sahələrin məhsulu və s.) başa düşülürdü. Keçmiş sosialist ölkələrinin qəbul etdiyi bu konsepsiya əsasən qeyri-maddi xidmətləri həyata keçirərkən (dövlət idarələri qulluqçularının,

bank işçilərinin, sığorta təşkilatlarının və s. işçilərin əmək haqqı), pensiya, yardım, bağışlanma və s. əməliyyatların nəticəsi gəlir kimi nəzərdən keçirilirdi.

BMT-nin tövsiyyəsinə əsasən dünyanın bir çox ölkələrində tətbiq edilən beynəlxalq MHS-də qəbul edilən konsepsiya yuxarıda qeyd edilən konsepsiyaya nisbətən daha genişdir. Bu konsepsiya bazar əməliyyatlarından əlavə həm də şərti qiymətləndirilən bə'zi qeyri-bazar əməliyyatlarını da əhatə edir.

Beynəlxalq müqayisəliliyi tə'min etmək, habelə ölkə daxilində istehsal fəaliyyətinin nəticələrini və gəlirləri müqayisə etmək üçün makroiqtisadi hesablamalar zamanı "saxta" bazar əməliyyatı (şərti qiymətləndirmə) kimi nəzərdən keçirilən və bazar vasitəsilə ödənilməyən fəaliyyət növləri də uçota alınır.

Hal-hazırda Alman statistikasında MHS-də şərti qiymətləndirilən əməliyyatlar aşağıdakılardır:

1. Xırda sahibkarın (məs, fermerlər) öz istehsalından olan istehlak mallarının istehlakı;
2. Natural ödənişlər (natural formada ödənilən əmək haqqı, pulsuz yesək və s.);
3. Öz şəxsi evində və ya mənzilində yaşamağın şərti qiymətləndirilən dəyəri;
4. Dövlətin pensiya fonduna ayırmalar;
5. Bank əməliyyatları üçün şərti ödənişlər (rüsum şəklində müştərilər tərəfindən ödənişlərdən başqa).

Almaniyanın sosial-iqtisadi statistikasında milli gəlir istehsal, bölgü və son istifadə üsullarına görə (keçmiş sovet statistikasında olduğu kimi) hesablanır.

İstehsal üsulu ilə milli gəlir öz tərkibinə vətəndaşlığından asılı olmayaraq bu ölkənin rezidentlərinin gəlirlərinin cəmini daxil edir. Bu üsulla milli gəliri hesablayarkən MHS-də aşağıdakı konsepsiyalar fərqləndirilir:

1. Əsasında ölkənin ərazisi olan konsepsiya: istehsalın xarici amillərini nəzərə almaqla ölkənin ərazisində yaranan əmtəələr və gəlirlər;
2. Rezidentlər konsepsiyası: nəticə e'tibarı ilə ölkənin ərazisində yerləşən təsərrüfat vahidlərinə daxil olan əmtəələr və gəlirlər (o cümlədən xaricdəki istehsal fəaliyyətindən).

Məşğuliyyətdən və mülkiyyətdən gəlirlərin sərhəddən xaricə və xaricə axınını uçota almaqla aşağıdakı bərabərliyi yazmaq olar:

Rezidentlərin gəlirləri (milli gəlir) = daxili məhsul +bu ölkənin rezidentlərinin dünyanın başqa ölkələrində məşğuliyyətindən və mülkiyyətdən aldıqları gəlirlər-bu ölkədə məşğuliyyətdən və mülkiyyətdən alınmış gəlirlərdən dünyanın qalan ölkələrinə verilən gəlirlər.

Bölgü üsulu ilə milli gəlirin hesablanmasında məqsəd gəlirlərin növünə və sektorlar üzrə qruplaşdırılmasını tə'min etməkdir. Bu baxımdan milli gəlir bütün təsərrüfat subyektləri - rezident vahidlərin məşğuliyyətdən və mülkiyyətdən aldıqları gəlirlərin cəmidir. Onlara aşağıdakılar aiddir:

1. Yalnız əhalinin ev təsərrüfatları arasında bölünə bilən muzdlu əməkdən alınan gəlirlər;
2. Bütün sektorlar tərəfindən sahibkarlıq fəaliyyətindən və mülkiyyətdən alınan gəlirlər.

Belə bölgü yalnız hüquqi baxımdan gəlirlərin mənbəyinin xarakterini göstərir.

MHS-də sahibkarlıq fəaliyyətindən alınmış gəliri balanslaşdırıcı maddə kimi hesablayırlar. Bu gəlirə yaşayış sahəsi üçün xalis icarə haqqı, bölünmüş mənfəət və öz şəxsi kapitalından istifadə üçün şərti hesablanmış faizlər daxil edilir. Müəssisələr sektorunun milli gəlirdə xüsusi çəkisi hüquqi şəxs olan müəssisələrin bölünməmiş mənfəətindən ibarət olduğuna görə kapitaldan alınmış gəlirlər bu sektora daxil ola bilməz.

MHS-də müəssisələrin mənfəəti aşağıdakı kimi hesablanır:

Müəssisənin mənfəəti = sahibkarlıq fəaliyyəti və kapitaldan alınan gəlirlər;

+ faizlərin saldosu, xalis icarə haqqı və qeyri-maddi aktivlərdən gəlirlər;

+ hüquqi şəxs olan müəssisələrin bölünmüş gəlirlərindən alınan məbləğ;

+ hüquqi şəxs olmayan müəssisələrin aldığı gəlirlər.

Yaşayış sahəsinin icarəyə verilməsindən alınan gəlirlər sahibkarlıq fəaliyyətindən alınan gəlir hesab edilir. Onları yaşamaq üçün xalis ödəniş məbləği kimi (daha doğrusu muzdlu əməyin ödənilməsinə məsrəfləri çıxmaqla) hesablayırlar.

Bölgü üsulu gəlirlərin ilkin bölgüsünün nəticəsini əks etdirən göstəriciləri müəyyən etməyə imkan verir. Hesablamalara dövlət idarəçiliyi və xüsusi QKİ sektoru tərəfindən həyata keçirilən yenidən bölgü əməliyyatının daxil edilməsi gəlirlərin ikinci dəfə bölünməsinə imkan yaradır.

Bölgü və yenidən bölgü nəticəsində sərəncamda olan gəlirlər yaranır. Dövlət tərəfindən yenidən bölgünü cari transfertlərin köməkliyi ilə (birbaşa və dolayı vergilər, subsidiler, sosial sığortaya ödənişlər və s.) həyata keçirilir. Lakin bu axınlar qeyri-bazar xidmətləri həyata keçirməklə gəlirlərin yenidən bölüşdürülən hissəsini əhatə etmir. Bu gəlirlər vergiyə cəlbedilmədə fərq kimi beynəlxalq müqayisələr zamanı uçota alınmalıdır.

Son istehlak metodu istehsal edilmiş məhsulun hansı məqsədlər üçün və hansı sektorlar tərəfindən istifadə edildiyini göstərir. Bu istifadə təsərrüfat vahidləri-rezidentlərin alıcıların qiymətilə son istifadəsidir. "İstehsal hesabı" və "Məsrəflər-buraxılış"lar cədvəllərindən fərqli olaraq son istifadə üsulu ilə hesablamalarda aralıq istehlakına dair mə'lumat nəzərə alınmır və nəticədə "bazar qiymətləriylə milli gəlir" alınır ki, onun bir ünsürü də xaricdəki iqtisadi fəaliyyətdən və kapitaldan alınan gəlirlərdir. "Rezident" konsepsiyasının "milli ərazi" konsepsiyasından fərqlənməsinə təcrübəvi maraq yalnız şəxsi istehlakla əlaqədardır. Kapital qoyuluşları bir qayda olaraq bu ölkənin rezidentləri tərəfindən həyata keçirildiyinə görə yuxarıda göstərilən konsepsiyaların fərqi kapital qoyuluşlarına aid edilmir. Belə vahidlər hüquqi statusları və mülkiyyətə münasibətindən asılı olmayaraq bu ölkənin rezidentləri olduqları üçün onların kapital qoyuluşunu rezidentlərin kapital qoyuluşuna aid edirlər. Bu isə o deməkdir ki, kapital qoyuluşu sahəsində hər iki konsepsiya bir-birinə uyğun gəlir.

Konkret istehlak mallarının şəxsi və ya dövlət istehlakına aid olması bu əmtəələrin bazarda kim tərəfindən alınmasından asılı olaraq müəyyən edilir. Lakin bazarda alıcı kimi çıxış edənin son istehlakçı olacağını qəti demək də çətindir.

Son vaxtlarda ümumi konsepsiyalara əsasən göstəricilərin hər iki variantından istifadə etməyə təşəbbüs göstərilir. Beləliklə də faktiki son istehlaka məsrəfləri bir-birindən ayırmağa imkan yaranır. Faktiki istehlak dövlətin son istehlakından ayrı-ayrı şəxslərin istehlakına aid olan hissəni ayırmaq imkanı verir. Dövlət orqanlarının istehlakının bu hissəsinin ev təsərrüfatlarının son istehlakına çəkdiyi məsrəflərin üzərinə gəlməklə "əhalinin faktiki son istehlakı" və "geniş şəxsi istehlak" göstəricisini müəyyən edirlər. Bu göstərici həm də son nəticədə əhalinin ev təsərrüfatına daxil olan sosial sığorta tərəfindən istehlak olunan əmtəələri
və xidmətləri də öz tərkibinə daxil edir.

İstehsalçı-rezident vahidinin istehsal fəaliyyəti nəticəsində yaranmış ilkin gəlirlərə əsasən başqa tə'sisat rezident vahidlər arasında bölüşdürülür. Lakin onların bir hissəsi rezident olmayan vahidlərə də gedə bilər. Buna müvafiq olaraq dünyanın başqa ölkələrində yaranmış ilkin gəlirlərin bir hissəsi də rezident vahidlərə gedə bilər. Belə vəziyyət bazar qiymətləri ilə ümumi milli gəlir (ÜMG) göstəricisini müəyyən etməyi tələb edir. ÜMG-i hesablamaq üçün ÜDM-dən qeyri rezident vahidlərə ödənilən ilkin gəlirləri çıxıb qeyri-rezident vahidlərindən alınan ilkin gəlirləri çıxıb qeyri-rezident vahidlərdən alınan ilkin gəlirləri cəmləmək lazımdır. Başqa sözlə desək, ÜMG-i hesablamaq üçün ÜDM-dan istehlaka və idxala vergiləri (minus

subsidiyalar) muzdlu işçilərə mükafatları və dünyanın başqa ölkələrinə ödənilən mülkiyyətdən gəlir çıxılır və dünyanın başqa ölkələrindən alınan müvafiq maddələr cəmlənir. Beləliklə, bazar qiymətlərilə ÜMG-tə'sisat vahidləri (rezident-sektorlar) arasında bölünmüş ümumi ilkin gəlirlərin cəmidir. Qeyd etmək lazımdır ki, bazar qiymətləri ilə ÜMG 1953-cü ilin MHS-də ümumi milli məhsul (ÜMM) adlanırdı və bəzən indi də ÜMM deyirlər. ÜDM-dən fərqli olaraq ÜMM ilkin gəlir anlayışıdır, əlavə edilmiş dəyər deyildir.

ÜMK-dən əsas kapitalın istehlakını çıxmaqla bazar qiymətlərilə xalis milli gəlir (XMG) göstəricisini almaq olar.

Bazar qiyməti ilə xalis milli gəlirin üzərinə gəlirə, əmlaka və sairəyə cari vergiləri (xaricdən alınası olan), sosial sığortaya ödənilən yardımları və başqa cari transferləri (xaricdən alınmalı olan) cəmləməklə sərəncamda olan xalis milli gəliri müəyyən etmək olar. Sərəncamda olan ümumi milli gəlir bütün tə'sisat vahidləri rezidentlərin sərəncamında olan gəlirlərin, yəni tə'sisat vahidlərinin son istehlak və əmanətlər üçün malik olduqları gəlirlərin cəmidir.

BMT-nin tövsiyyə etdiyi MHS-də "Gəlirlərin ilkin bölüşdürülməsi hesabı"nın qısa sxemi aşağıdakı kimidir:

16 - cı cədvəl

Gəlirin ilkin bölüşdürülməsi hesabının sxemi

İstifadənin növləri	Ehtiyatlar
D.1 Muzdlu işçilərə konpensasiyalar	V.1 Əlavə edilmiş dəyər
D.2 İstehsala və idxala vergilər	
D.3 Subsidiyalar (-)	
V.2/V.3 Mənfəət və ona bərabər tutulan gəlirlər	

"Gəlirlərin yerləşdirilməsi hesabı" tə'sisat vahidlərini ilkin gəlirlərin istehsalçısı kimi deyil, ilkin gəlirləri mənimsəyən vahidlər kimi əks etdirir. Bu hesabda tə'sisat vahidinin mülkiyyətdən aldığı və ödədikləri gəlirin məbləği göstərilir.

Yuxarıda qeyd edildiyi kimi, "Gəlirlərin yaranması hesabı" istehsal fəaliyyəti ilə əlaqədar olduğu üçün onu həm idarə və təşkilatlar üzrə və həm də tə'sisat vahidləri və sektorlar üzrə aparmaq olar. "Gəlirlərin yerləşdirilməsi hesabı" ilə belə birbaşa əlaqəyə malik olmadığına görə onu yalnız tə'sisat vahidləri və sektorlar üzrə aparmaq olar. Bu hesabın ehtiyatlar bölməsində sadalanan gəlirlər əsasən aşağıdakı iki gəlir növündən ibarətdir:

1. "Gəlirlərin yaranması hesabı"nda qeydə alınan gəlirlər. Buraya

istehsal prosesində bilavasitə iştirak edən tə'sisat vahidlərinin gəlirləri, ya da idxala və istehsala vergi qoymaq yolu ilə dövlət idarəçilik orqanlarının ilkin gəlirləri aiddir.

2. Mülkiyyətdən alınan gəlirlər. Buraya maliyyə aktivlərinin sahiblərinin aldığı faizlər, dividentlər və buna bənzər gəlirləri, habelə torpaq sahiblərinin icarəyə verilmiş torpaqlar və ya yeraltı sərvətlər üçün aldıqları renta daxildir.

Hesabın sol tərəfində yerləşən "istifadə" bölməsində mülkiyyətdən alınan gəlirlərdən kreditorlara, səhmdarlara, torpaq sahiblərinə və başqalarına tə'sisat vahidləri və ya sektorlar tərəfindən ödənilən hissə göstərilir.

"Gəlirlərin yerləşdirilməsi hesabı"nın sonunda balanslaşdırıcı maddə kimi ilkin gəlirlərin saldosu götürülür. Bu göstəricini hesablamaq üçün təsisat vahidləri və ya sektorların apardıqları lakin gəlirlərin ümumi məbləğindən ödənilən məbləği çıxmaq lazımdır. Ayrıca ölkənin iqtisadiyyatı səviyyəsində bu göstərici "milli gəlir" adlanır.

17-ci cədvəl

1990-1995-ci illərdə Azərbaycanda gəlirlərin ilkin bölgüsü hesabı
(cari qiymətlərdə, milyon manat)

	1990	1991	1992	1993	1994	1995
Ehtiyatlar Ümumi mənfəət (qarışıq gəlirlər)	525,5	1101,9	12395,1	63637,8	1296903,0	7409000,0
İşçilərin əməyinin ödənilməsi	767,9	1396,2	9555,0	83712,4	528486,0	2385000,0
İstehsala və idxala vergilər (+)	267,7	309,1	3224,0	22518,0	118444,0	1071000,0
İstehsala və idxala subsidiyalar (-)	95,1	135,2	1074,2	12785,8	68622,0	224000,0
Mülkiyyətdən alınmış gəlirlər	46,1	123,6	1287,6	13514,6	204457,0	257000,0
Cəmi	1512,1	2795,6	25388,1	170597,0	2079668,0	10898000,0
İstifadə Mülkiyyətdən ödənilmiş gəlirlər	46,1	123,6	1287,6	13452,0	206373,0	248000,0
İlkin gəlirlərin bölgüsündən yaranan ümumi milli gəlir	1466,0	2672,6	24100,5	157145,0	1873295,0	10650000,0
Cəmi	1512,1	2795,6	25388,1	170597,0	2079668,0	10898000,0

§9.4. Gəlirlərin ikinci dəfə və natural formada yenidən bölüşdürülməsi

Gəlirlərin ilkin bölgüsündən sonra onların ikinci dəfə və yenidən bölgüsü baş verir. "Gəlirlərin ikinci dəfə bölgüsü hesabı" tə'sisat vahidləri və sektorların ilkin gəlirlərin qalığının (saldosu) cari transfertləri aldıqdan və ödədikdən sonra (cinsi ifadə ilə sosial transfertlərdən başqa) onların sərəncamlarında qalan gəlirlərinə necə çevrildiyini göstərir. Bu, gəlirlərin yenidən bölgüsünün ikinci mərhələsi hesab edilir.

"Gəlirlərin cinsi ifadəylə yenidən bölgüsü hesabı" gəlirlərin təkrar bölgüsünün sonrakı mərhələsini əks etdirir. Bu hesab ev təsərrüfatı, ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları və dövlət

təşkilatları cinsi ifadədə sosial transfertləri aldıqdan və ya ödədikdən sonra sərəncamda olan gəlir onların təshih edilmiş gəlirlərinə necə çevrildiyini əks etdirir. Maliyyə və qeyri-maliyyə korporasiyaları bu prosesə cəlb edilmir. İmkanda olan və "Gəlirlərin ilkin bölgüsü hesab"ından keçmiş balanslaşdırıcı maddə ilə yanaşı "Gəlirlərin ikinci bölgüsü hesabında" bütün müxabirələşmələr cari transfertlərdən ibarətdir. Transfert-tə'sisat vahidinin başqa vahidə əmtəə, xidmət və aktivləri verməklə əvəzində heç nə almadığı əməliyyatdır. Əsaslı transfertlər - elə əməliyyatdır ki, bir tərəfin aktivlərə sahib olmaq hüququ başqa tərəfə verilir, onlardan biri və ya hər ikisi aktivləri almaq və ya sərəncam verməyi öhdəsinə götürür.

Bu hesabda cari transfertlərin üç mühüm növünü bir-birindən ayırırlar:

- cari gəlir vergiləri, natural dəyərlərə və sairəyə vergilər;
- ictimai sığortaya ödənişlər və yardımlar;
- sair cari transfertlər.

Tə'sisat vahidləri tərəfindən ödənilməli olan transfertlər hesabın "istifadə" bölməsində, alınmalı olan transfertlər isə "ehtiyatlar" bölməsində yazılır.

"Cari gəlir vergiləri və maddi qiymətlilərə və sairəyə vergilər" adlı transfertlərin çox hissəsini ev təsərrüfatlarının gəlirindən vergiləri, korporasiyaların gəlirləri və hər bir vergi dövründə maddi qiymətlilər üçün müntəzəm ödənilməli olan vergilər təşkil edir.

Dövlət idarələrindən alınmış olan cari vergilər hesabın "ehtiyatlar" bölməsində göstərildiyi halda ödənilməli olan vergilər hesabın "istifadə " bölməsində əks etdirilir. Bu hesabın mühüm maddələrindən biri sosial sığortaya ayırmalar və yardımlardır. Sosial müavinətlər dedikdə ev təsərrüfatı tərəfindən alınaraq müəyyən şəraitdə və hallarda (xəstələndikdə, pensiyaya çıxdıqda, işsizliklə, təhsillə, ailə vəziyyəti və s. ilə əlaqədar) öz tələblərinin ödənilməsinə istifadə edilən cari transfertlər başa düşülür. Sosial müavinətların iki növü var:

a) sosial sığorta müavinətləri;
b) sosial yardım müavinətləri.

Sosial sığorta müavinətləri ümumi sosial tə'minat sistemi çərçivəsində özünün indiki və ya keçmiş işçilərinin xeyrinə iş verənlər tərəfindən idarə olunan sosial sığorta yolu ilə verilə bilər.

Sosial yardım müavinətləri da həmin ehtiyacları ödəmək üçün nəzərdə tutulsa da, sosial sığortanın heç bir təşkil olunmuş sistemi çərçivəsində deyil, ondan asılı olmayaraq və əvvəlki ödənişlərdən asılı olmayaraq ödənilir. Sosial sığorta sisteminin fərdi mənbələrindən maliyyələşdirilən natural ifadə ilə sosial sığorta yardımları dəyər ifadəsilə ödənilmiş hesab olunur və gəlirlərin ikinci dəfə bölgüsünə

daxil edilir.

Ümumi sosial tə'minat çərçivəsində verilən natural formada yardımlar və sosial yardım üzrə bütün növ natural müavinətlər natural formalı sosial transfertlər kimi nəzərdən keçirilərək, "Gəlirlərin natural formada yenidən bölüşdürülməsi hesabı"na daxil edilir. Beləliklə, natural formada transfertlərdən başqa bütün sosial müavinətlər ev təsərrüfatı sektoru üçün hesabın "ehtiyatlar" bölməsində yazılır. Prinsipcə başqa tə'sisat vahidləri (iş verən və müavinəti ödəyən rolunu oynadıqlarına görə) üçün bu ödənişlər "istifadə " bölməsinə yazılır.

Sektorların hər biri üçün sosial sığorta ödənişləri prinsipcə "ehtiyatlar " bölməsinə yazıla bilər. Lakin bu bölməyə dövlət idarələri və sığorta korporasiyalarının haqlarını, habelə maliyyə korporasiyalarının pensiya fondlarına üzrə ödənişlərini daxil etmək daha düzgündür. Yalnız ev təsərrüfatı sektoru üzrə sosial sığorta haqqları hesabın "istifadə " bölməsində yazılır.

Sair cari transfertlər müxtəlif məqsədlərə istifadə edilən bir neçə transfert növünü əhatə edir. Məsələn sığorta mükafatları və tərkibinə sığorta mükafatları daxil olmayan sığorta iddiaları, habelə həyatın sığortası ilə ilişgili sığorta iddiaları eyni qrupa aid edilir. Həyatın sığortası ilə bağlı olmayan və sığorta korporasiyalarının almalı olduqları mükafatlar (xidmətlər üçün haqqları çıxmaqla) sığorta korporasiyaları üçün "ehtiyatlar" bölməsinə yazıldığı halda o biri sektorlar üçün "istifadə" bölməsinə daxil edilir. Əksinə, sığorta korporasiyalarının ödəməli olduqları iddialar maliyyə korporasiyaları üçün hesabın "istifadə" bölməsinə, o biri sektorların almalı olduqları iddia məbləğləri isə "ehtiyatlar" bölməsinə yazılır. Sair cari transfertlərə daxil olan başqa bir qrup müxtəlif səviyyəli, idarəçilik orqanları ilə dövlətin mərkəzi orqanları, habelə başqa dövlətlərin hökumətləri arasındakı əlaqələri əks etdirən transfertləri birləşdirir.

BMT-nin tövsiyyə etdiyi milli hesablar sistemində "Gəlirlərin ikinci dəfə bölgüsü hesabı" nın sxemi aşabıdakı kimidir.

18-ci cədvəl

Gəlirin ikinci dəfə bölgüsü hesabı

İstifadənin növləri	Ehtiyatlar
D.5. Cari gəlir vergisi, əmlak və sairəyə vergilər	V.5. İlkin gəlirlərin saldosu
D.6.1. İctimai sığortaya ödəmələr	V.5.1. Cari gəlir vergisi, əmlaka və sairəyə vergilər
D.6.2. Natural formada yardımdan başqa sosial yardımlar	D.6.1. İctimai sığortaya ödənişlər
D.7. Sair cari transfertlər	D.6.2. Natural formada yardımlar-dan başqa sosial yardımlar
D.8. sərəncamda olan gəlir	D.7. Sair cari transfertlər

"Gəlirlərin ikinci dəfə bölgüsü hesabı"nın "istifadə" bölməsinin ən mühüm maddəsi "sərəncamda olan gəlir"dir. Bu maddə hesabın saldolaşdırıcı maddəsidir. Sərəncamda olan gəlir tə'sisat vahidlərinin və ya sektorların ilkin gəlirlərinin saldosundan aşağıdakı kimi hesablanır:

Sərəncamda olan gəlir = Bütün tə'sisat vahidi və ya sektorun almalı olduğu cari transfertlər (natural formada sosial transfertlərdən başqa) ;

+ tə'sisat vahidləri və ya sektorların ilkin gəlirlərinin saldosu;

- Natural formada transferdlərdən başqa (çıxmaqla) bu tə'sisat vahidləri və ya sektorların ödəməli olduğu bütün cari transfertlər,

Sərəncamda olan gəlirin ümumi və xalis (əsas kapitalın istehlakını nəzərə almaqla) formaları mövcuddur.

Gəlirlərin natural formada yenidən bölüşdürülməsi hesabında saldolaşdırıcı maddə olan sərəncamda olan gəlirlər və sərəncamda olan təshih edilmiş edilmiş gəlirlərdən başqa bütün yerdə qalan mövqeyin hamısı natural formada transfertlərdən ibarətdir. Sərəncamda olan təshih edilmiş gəliri müəyyən etmək üçün sərəncamda olan gəlirin üzərinə tə'sisat vahidləri və ya sektorların almış olduğu əlavə edilmiş dəyərlərlə sosial transfertlərin dəyərini cəmləyib bu tə'sisat vahidi və sektorların ödəməli olduğu natural formada sosial transfertlərin dəyərini çıxmaq lazımdır. Sərəncamda olan gəlir kimi təshih edilmiş gəlir də xalis kapitalın ümumi və xalis istehlakı kimi yazıla bilər.

Natural formada sosial transfertlər natural formada sosial yardımlardan, dövlət orqanları tərəfindən ev təsərrüfatına verilmiş fərdi istifadə üçün qeyri-bazar əmtəələri və xidmətlərinin transfertlərindən ibarətdir.

Natural formada sosial transfertlərin dörd növü vardır:

1. Sosial tə'minatlar üzrə yardımlar və ödənişlər;
2. Natural formada sosial tə'minat üzrə sair yardımlar;
3. Natural formada sosial yardım üzrə müavinətlər;
4. Fərdi istifadə üçün qeyri-bazar əmtəə və xidmətlərin transfertləri.

§9.5.Gəlirlərin istifadəsi və MHS-dən onun əks etdirilməsi

"Gəlirlərin istifadəsi hesabı"nın aparılmasında məqsəd ev təsərrüfatı, dövlət bölmələri və qeyri-kommersiya idarələrinin sərəncamda olan gəlirlərinin son istehlaka və yığıma bölünməsində ev təsərrüfatına necə kömək etmələrini göstərməkdir. "Gəlirlərdən istifadə hesabı"nın sərən camda olan gəlirlərin iki konsepsiyasına uyğun alına iki variantı mövcuddur. Birinci variantda diqqət bu gəlir hesabına ödəniləcək əmtəələr və xidmətlərin istehlakından əldə edilə biləcək sərəncamda olan gəlirlər

və məsrəflərə yönəldilir. İkinci variantda əsas diqqət xərc çəkməklə və ya natural formada sosial transfertlər vasitəsilə tə'sisat vahidlərinin aldığı və istehlak etdikləri istehlak mallarına və xidmətlərə yönəldilir.

19-cu cədvəl

1990-1995-ci illərdə Azərbaycan Respublikasında gəlirlərin təkrar bölgüsü hesabı

(cari qiymətlərlə, milyon manat)

Göstəricilər	1990	1991	1992	1993	1994	1995
Ehtiyatlar						
İlkin gəlirlərin bölgüsündən yaranan ümumi milli gəlir	1466,0	2672,6	24100,5	157145,0	187329,5	10650000,0
Alınmış cari transfertlər	394,3	852,9	5822,4	65736,0	591522,0	2605000,0
o cümlədən: gəlir-lərə, sərvətə və s. vergilər	111,7	223,5	1966,3	18179,2	139445,0	562000,0
sosial sığortaya ayırmalar	90,6	217,7	1503,8	18440,6	112010,0	497000,0
Sosial tə'minat üzrə müavinatlar	122,4	351,6	1673,3	22781,0	184065,0	553000,0
Digər cari transfertlər	69,6	60,1	679,0	6555,6	156002,0	993000,0
Cəmi:	1860,3	3524,9	29922,9	222881,0	246481,7	13255000,0
İstifadə						
Verilmiş cari transfertlər	394,3	852,9	5822,4	62991,4	482278,0	2116000,0
o cümlədən: Gəlirlərə, sərvətə və s vergilər	111,7	223,5	1966,3	18179,2	139445,0	562000,0
Sosial sığortaya ayırmalar	90,6	217,7	1503,7	18440,6	112010,0	497000,0
Sosial təminat üzrə müavinatlar	122,4	351,6	1673,3	22781,0	184065,0	553000,0
Digər cari transfertlər	69,5	60,1	679,0	3590,6	46758,0	504000,0
Sərəncamda qalan ümumi gəlir	1466,0	2672,0	24100,5	159890,0	1982539,0	11139000,0
Cəmi:	1860,3	3524,5	29922,9	222881,4	24621817,0	13255000,0

20-ci cədvəl

Gəlirlərin natural formada yenidən bölüşdürülməsi hesabı

İstifadənin növləri	Ehtiyatlar
D. 63 natural formada sosial transfertlər	V.6. Sərəncamda olan gəlir
V.7. Təsdiq edilmiş sərənamda olan gəlir	V.63. Natural formada sosial transfertlər

Gəlirlərdən istifadə hesablarını ikinci variantında son istehlaka məsrəflər sərəncamda olan gəlirlərin ümumi (və ya xalis) məbləğindən çıxılır. Burada məqsəd qalıq maddəsi kimi yığımı müəyyən etməkdir. Eyni nəticəni əldə etmək üçün ikinci variantda təshih edilmiş sərəncamda olan gəlirin ümumi (və ya xalis) məbləğindən faktiki son istehlak çıxılır. Bundan əlavə, hər iki hesabda pensiya fondları üzrə aktivlərin ev təsərrüfatına xalis ödənilən hissəsinin

dəyişməsini təshih edən maddə vardır.

Nəzərə almaq lazımdır ki, korporasiyalar son istehlaka məsrəflər həyata keçirmirlər. Onlar ev təsərrüfatının son istehlaka istifadə etdiyi həmin əmtəələri və xidmətləri (məs. elektrik enerjisi və ya ərzaq) satın ala bilər. Lakin belə əmtəələr və xidmətlər ya aralıq istehlakına sərf edilə bilər, ya da natural formada mükafat kimi muzdlu işçilərə verilə bilər. Sistemdə korporasiyaların ev təsərrüfatının istehlakı üçün əmtəələrin və xidmətlərin transfertləşdirilməsinə yol verilmir. Korporasiyalar sosial transfertləri etmədiklərinə və almadıqların görə onların sərəncamda olan və təshih edilmiş sərəncamda olan gəlirləri arasında məqsədyönlü fərq qoymaq da mümkün deyil. Buradan isə belə nəticə çıxır ki, son istehlaka məsrəflərə və faktiki son istehlaka dair mə'lumata malik olmadıqlarına görə həm "Sərəncamda olan gəlirlərin istifadəsi hesabı" və həm də "təshih edilmiş sərəncamda olan gəlirlərin istifadəsi hesab"ları korporasiyalar üçün şərti hesablardır.

Pensiya fondları üzrə təshihedici maddə ilə yanaşı korporasiyaların ümumi və ya xalis yığımları onların ümumi və xalis sərəncamda olan gəlirlərinə uyğun olmalıdır. Başqa kontekstdə korporasiyaların yığımı bir çox hallarda korporasiyaların "bölünməz mənfəəti" və ya "bölünməz gəliri " kimi təsvir edilir.

"Sərəncamda olan gəlirlər hesabı"ndan istifadə zamanı yalnız iki müxabirələşmə aparılır. Sərəncamda olan gəlir "gəlirlərin ikinci dəfə bölünməsi hesabı"ndan gələn qalıq maddəsi kimi, hesabın "ehtiyatlar" bölməsində yazıldığı halda son istehlaka məsrəflər hesabın "istifadə" bölməsində yazılır. Bu hesab əsasən ev təsərrüfatına xidmət edən sektorlar (dövlət, qeyri-kommersiya idarələri), ev təsərrüfatı və bütövlükdə iqtisadiyyat üçün əlverişlidir. Bu hesab üçün qalıq maddəsi yığımdır. Lakin balanslaşdırmanı aparmamışdan əvvəl yığımın müəyyən növünü bir sektordan başqasına köçürmək üçün bir maddədən istifadə olunur. Bu maddə pensiya fondları üzrə ev təsərrüfatının aktivlərin xalis ödənilən hissəsinin dəyişməsini nəzərə alan düzəlişdir. Mühasibat baxımından qarşılıqlı əlaqələri əks etdirmək üçün son istehlaka fərdi və kollektiv məsrəflər ayrıca uçota alınır. Lakin son istehlaka məsrəfləri uçota alarkən onları tə'yinatlarına və yaxud da əmtəələrin ya da xidmətlərin növünə görə təsnifatlaşdırmaq daha yaxşı olardı. Məsrəflərə dair təsnifatlaşdırılmış mə'lumatlar müxtəlif analitik və strateji məqsədlər üçün istifadə oluna bilər.

Dövlət bölmələri və qeyri kommersiya idarələri tərəfindən ev təsərrüfatına verilmiş ayrı-ayrı əmtəə və xidmətlər üçün natura formasında verilən sosial transfertlər dövlət bölmələri və qeyri kommersiya-idarələri tərəfindən çəkilən son məsrəflər kimi göstərilmişdir. Onlar belə əmtəə və xidmətləri fiziki olaraq istehlak etməsələr də dövlət

bölmələri və qeyri-kommersiya idarələri onların zəruri məbləğini müəyyən edən və ödəyən vahidlərdirlər. Ona görə də belə əmtəələr və xidmətlərə dair informasiya sistemin hesablarında əks olunmalıdır. Lakin belə qeydiyyat dəqiq mənzərə yaratmaq üçün kifayət deyildir. Həmin malların istehlakından xeyir görən vahidləri müəyyən etmək üçün e'tiraf etmək lazımdır ki, həmin əmtəələr və xidmətlər ev təsərrüfatı tərəfindən faktiki olaraq götürülmüşlər. Faktiki son istehlak son istehlaka məsrəflərə əlavə kimi yazılmalıdır.

"Düzəliş verilmiş sərəncamda olan gəlirlərin istifadəsi hesabı"nda saldoedici maddədən (yığımdan) əlavə mə'lumatların yalnız iki növü göstərilir. Natura ilə gəlirlərin yenidən bölüşdürülməsi hesabından gələn saldolaşdırıcı maddə (yığım) bu hesabın "məsrəflər" bölməsində və faktiki son istehlak isə "istifadə" bölməsində yazılır. Bu hesab yalnız dövlət bölmələrinə və qeyri- kommersiya idarələrinə aiddir.

Natura ilə ev təsərrüfatının almalı olduqları ümumi məbləğ dövlət bölmələri və qeyri-kommersiya idarələrinin ödəməli olduqları ümumi məbləğə bərabər olmalıdır. Bütövlükdə iqtisadiyyat üçün son istehlakın dəyəri son istehlaka məsrəflərin məbləğinə bərabərdir. Ev təsərrüfatının faktiki son istehlakı dövlət bölmələri və ya da qeyri-kommersiya təşkilatlarının ödədiyi transfertlər alış yolu ilə ev təsərrüfatının əldə etdikləri istehlak mallarının dəyərini müəyyən etməyə imkan verir. Buna görə də onlar ev təsərrüfatının həyat səviyyəsinin ən yaxşı göstəricisi hesab olunur.

Bə'zi ölkələrdə natura formasında ev təsərrüfatına verilən sosial transfertlərlə əldə edilən bə'zi qeyri- bazar əmtəələri və xidmətlərin dəyəri kifayət qədər çox ola bilər. Bu həmin ölkədə iqtisadi və sosial siyasətdən asılıdır. Belə ki, ev təsərrüfatının son istehlakına məsrəflərin məbləği onların məsrəflərindən xeyli üstün ola bilər. Bu səbəblərə görə bə'zən ev təsərrüfatının faktiki son istehlakı onların "geniş" istehlakı və ya n "ümumi" istehlakı kimi təsvir olunur. Bu terminlər isə sistemdə tətbiq olunmur. Şübhəsiz ki, mərkəzi dövlət sektorunun faktiki son istehlakı son istehlaka dövlətin məsrəflərindən xeyli çox ola bilər.

Yuxarıda təsvir olunan iki variant ardıcıl deyil və biri o birinə tabe deyildir. Bunlar müxtəlif analitik və strateji məqsədlərə xidmət edən paralel hesablardır. Natural sosial transfertlərə cəlb edilən əmtəə və xidmətlər sistemində hər biri dövlət bölmələri və qeyri-kommersiya idarələrinin resurslardan istifadəsi növlərini göstərən müxtəlif üsullar kimi qeydə alınırlar:

1. Dövlət bölmələri və qeyri-kommersiya idarələri tərəfindən ödənilməli olan son istehlaka məsrəflər kimi;
2. Dövlət bölmələri və qeyri-kommersiya idarələri tərəfindən

ödənilməli olan natura ilə cari transfertlər kimi.

Sərəncamda olan və təshih edilmiş sərəncamda olan gəlir arasındakı fərq natural cari transfertlərlə əlaqədar olsa da sərəncamda olan gəliri nəqd gəlir hesab etmək olmaz. Sərəncamda olan gəlir gəlirlərin təkrar bölgüsü hesabının qalıq (saldo) maddəsidir. O, tə'sisat vahidləri və sektorların ilkin gəlirlərinin qalıqları üzərinə tə'sisat vahidi və ya sektoru natural formalı sosial transfertlərdən başqa almalı olduğu butun transfertləri əlavə etməli, ya da həcmindən həmin vahidlərin ödəməli olduğu bütün cari transfertləri (natural formalı sosial transfertlərdən başqa) çıxmaqla müəyyən edilir. İlkin gəlirlərin qalığı kimi, sərəncamda olan gəlir də əsas kapital ümumi və xalis istehlakı formasında yazıla bilər. Əsas kapitalın istehlakını ölçən zaman yaranmış çətinliklərlə əlaqədar olaraq sərəncamda olan gəlirləri ümumi istehlak kimi yazmağa ehtiyac yarana bilər. Belə halda nəzərə almaq lazımdır ki, əsas kapitalın istehlakı gəlirlərin tərkib hissəsi (komponenti) deyil, istehlak xərcidir. Sərəncamda olan gəlirlərin hamısı dəyər formasında olmur.

Öz istehlakı üçün istehsalla və barterlə əlaqədar əməliyyatların və ya natural formada mükafatların hesaba daxil edilməsi göstərir ki, ev təsərrüfatlarının əmtəə və xidmətlərin müəyyən növünü istehlak etməkdən başqa imkanları yoxdur. Bunun üçün isə sərəncamda olan gəlirlərdən məsrəflərin şərti məbləği hesablanır. Dövlət təşkilatlarından və ya ev təsərrüfatlarının qeyri-kommersiya idarələrindən sosial transfertlər gəlirlərin cinsi ifadə ilə yenidən bölgüsü hesabında ayrıca yazılsa da natural formada başqa transfertlər "Gəlirlərin ikinci dəfə bölüşdürülməsi hesabı"nda dəyər formasında olan transfertlərlə birlikdə yazılır. Məsələn, təbii fəlakət və müharibələr nəticəsində yaranmış aclığı və başqa məhrumiyyətləri yumşaltmaq məqsədilə ərzaq, geyim, tibbi ləvazimat üzrə beynəlxalq transfertlər belələrinə aiddirlər.

Ev təsərrüfatlarının sərəncamda olan gəlir mülkiyyətdən alınan gəlirlərin dəyər formasında olmayan bir neçə növünü də öz tərkibinə daxil edir. Onların sırasında həyatın sığortasına qoyulan investisiyalardan alınan gəlirlər və ya ev təsərrüfatına aid edilən pensiya ehtiyatlarından alınan gəlirlər aiddir. Bu gəlir "İlkin gəlirlərin bölüşdürülməsi hesabı"nda müvafiq ev təsərrüfatlarının gəliri kimi göstərilir. Onlar maliyyə hesabında ev təsərrüfatının həyatın sığortası və pensiya fondu ehtiyatları ilə əlaqədar olan "öz şəxsi kapitalında dəyişikliklər" başlığı altında qeydə alınır və maliyyə aktivlərini əldə etmək üçün nəzərdə tutulur.

Cari transfertlərin çoxu tə'sisat vahidləri- rezidentlərlə qeyri-rezidentlər və habelə rezident vahidləri arasında baş verir. Lakin qeyri rezidentlər tərəfindən istiqamətləndirilən və alınan bütün sosial

transfertlər dəyər formasındakı transfertlər kimi nəzərdən keçirilir. Bu isə o deməkdir ki, sərəncamda olan ümumi və xalis milli gəlir ümumi və xalis milli gəlirdən aşağıdakı yolla əldə edilir:

a) tə'sisat vahidi - rezidentlərin qeyri-rezidentlərdən almalı olduqları natural və dəyər formasında olan bütün cari transfertləri cəmləməklə;

b) tə'sisat vahidləri - rezidentlərin qeyri-rezident vahidlərə ödəməli olduqları dəyər və natural formalı bütn transfertləri çıxmaqla.

Rezident və qeyri-rezidentlər arasında həyata keçirilən ən mühüm cari transfertlər sırasına aşağıdakılar aiddir:

a) Cari beynəlxalq əməkdaşlıq. Buraya müharibələr, təbii fəlakət və s. nəticəsində əziyyət çəkən əhalinin həyat səviyyəsini təmin etməyə yönəldilmiş yardım proqramı üzrə həyata keçirilən dövlətlərarası cari transfertlər;

b) Sosial sığorta haqqları və ya yardımlar;

v) Sığorta mükafatları və ya sığorta iddiaları;

q) Cari gəlir vergiləri üzrə ödənişlər və maddi qiymətlilərə vergilər;

d) Ev təsərrüfatı-rezidentlərlə qeyri-rezidentlər arasındakı köçürmələr.

Hər hansı ölkənin istehlak vəziyyətini təhlil edərkən həmin ölkənin xalis sərəncamda olan gəlir göstəricisi xalis milli gəlir göstəricisindən daha yaxşı göstərici hesab edilir.

BMT-nin tövsiyyə etdiyi standartlar üzrə "sərəncamda olan gəlirlərin istifadəsi hesabı" nın və "təshih edilmiş sərəncamda olan gəlirlərin istifadəsi hesabı"nın qısa sxemi aşağıdakı kimidir:

Təshih edilmiş sərəncamda olan gəlir natural formada gəlirlərin yenidən bölünməsi hesabının qalıq maddəsidir. O tə'sisat vahidləri və sektorlarının sərəncamda olan gəlirlərindən aşağıdakı yolla alınır:

21-ci cədvəl

Sərəncamda olan gəlirin istifadəsi hesabının sxemi

İstifadənin növləri	Ehtiyatlar
R.3. Son istehlaka	V.6 Sərəncamda olan gəlir
D.8. Pensiya fondunda ev təsərrüfatlarının şəxsi xalis aktivlərinin dəyişməsinə düzəlişlər	D.8. Pensiya fondunda ev təsərrüfatının şəxsi xalis aktıvlərinin dəyişməsinə düzəlişlər
V.8. Yığım	

22-ci cədvəl

Təshih edilmiş sərəncamda olan gəlir hesabının sxemi

İstifadənin növləri	Ehtiyatlar
R.4. Faktiki son istehlak	V.7. Təshih edilmiş sərəncamda olan gəlir
D.8. Pensiya fondunda ev təsərrüfatının xalis aktivlə-rinin dəyişməsinə düzəlişlər	D.8. Pensiya fondunda ev təsərrüfatının şəxsi xüsusi aktivlərinin dəyişməsinə düzəlişlər
V.8. Yığım	

23-cü cədvəl

1990-1995-ci illərdə Azərbaycan Respublikasında sərəncamda olan gəlirlərin istifadəsi hesabı

(cari qiymətlərlə, milyon manatla)

	1990	1991	1992	1993	1994	1995
Ehtiyatlar Sərəncamda qalan ümumi gəlir	1466,0	2672,0	24100,5	159890,0	1982539,9	11139000,0
Cəmi:	1466,0	2672,0	24100,5	159890,0	1982339,9	11139000,0
İstifadə Son istehlak xərcləri	1028,7	1875,4	19656,0	150456,6	1872651,0	10364000,0
Ümumi yığım	437,3	796,6	4444,5	9433,4	109888,0	775000,0
Cəmi:	1466,0	2672,0	24100,5	159890,0	1982539,0	11139000,0

a) Tə'sisat vahidləri sektorlar tərəfindən alınmalı olan natural formada sosial transfertlərin dəyərini əlavə etməklə;

b) Həmin tə'sisat vahidləri və sektorlar tərəfindən ödənilməli olan transfertlərin dəyərini çıxmaqla.

Təshih edilmiş sərəncamda olan gəlir əsas kapitalın ümumi və xalis istehlakı kimi yazıla bilər.

§ 9.6. Son istehlak və yığım

Sərəncamda olan gəlirlərin əsas hissəsi son istehlaka və yığıma sərf olunur. BMT statistika orqan larının tövsiyyələrinə əsasən "maddi ne'mətlərin son istehlakı" dedikdə fərdi və ictimai tələbatı ödəmək üçün istifadə edilən maddi ne'mətlərin dəyəri başa düşülür.

Maddi ne'mətlərin son istehlakının tərkibinə aşağıdakılar aiddir:

1. Maddi ne'mətlərin əhali tərəfindən şəxsi istehlakı;

2. Əhaliyə mədəni məişət xidməti göstərən təşkilat və idarələrdə maddi ne'mətlərin istehlakı;

3. Cəmiyyətin kollektiv tələbatını tə'min edən idarələrdə maddi ne'mətlərin istehlakı.

Maddi ne'mətlərin şəxsi istehlakı əhali tərəfindən fərdi pul gəlirləri hesabına satın alınan, habelə özünün şəxsi təsərrüfatından və digər mənbələrdən alınan və natura şəklində istehlak olunan maddi nemətlərin dəyərini əhatə edir.

Mədəni-məişət və sosial xidmətlər göstərən idarələrdə maddi ne'mətlərin istehlakı təhsil, mədəniyyət, mənzil-kommunal təsərrüfatı, səhiyyə, sosial tə'minat, incəsənət və əhaliyə məişət xidməti sahələrində əhaliyə pullu, pulsuz və ya pulu qismən ödənilən xidmətlər göstərən idarə və təşkilatların material xərclərinin (o cümlədən əsas fondların aşınmasını) əhatə edir.

Kollektiv tələbatı tə'min edən idarələrdə material istehlakı cəmiyyətə elm, idarəetmə, müdafiə, maliyyə, sığorta və s. sahələr üzrə kollektiv xidmətlər göstərən idarələrin material xərclərini əhatə edir.

Faktiki son istehlak maliyyələşdirmə mənbəyindən asılı olmayaraq ev təsərrüfatı-rezidentlər tərəfindən fərdi istehlak üçün alınan bütün əmtəə və xidmətlərin dəyərini və dövlət idarəetmə orqanları tərəfindən bütövlükdə cəmiyyətə göstərilən kollektiv xidmətlərin dəyərini özündə əks etdirir. Ev təsərrüfatları üçün o, istehlak mallarının və xidmətlərin satın alınması xərclərini və natura şəklində sosial transfertlər kimi dövlət idarəetmə orqanlarından və qeyri-kommersiya təşkilatlarından ev təsərrüfatlarının pulsuz aldığı fərdi əmtəə və xidmətlərin dəyərini özündə birləşdirir. Dövlət idarəetmə orqanları üçün son istehlak kollektiv xidmətlərin dəyərinə bərabərdir. Ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarında faktiki son istehlak yoxdur. Bütövlükdə iqtisadiyyat üçün yekuna görə faktiki son istehlak xərcləri eynidir.

Son istehlak xərcləri-ev təsərrüfatı-rezidentlərin istehlak mallarına, habelə dövlət idarəetmə orqanlarının və ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatlarının fərdi və kollektiv istehlak üçün əmtəə və xidmətlərə çəkdikləri xərclərdir. Belə qruplaşdırma son istehlak üçün xərclərin kim tərəfindən maliyyələşdirilməsini göstərir. Ev təsərrüfatının son istehlak üçün xərcləri onların gəliri hesabına alde edilən istehlak mallarının və xidmətlərin faktiki məsrəflərinin ölçüsü ilə müəyyənləşdirilir. Dövlət idarəetmə orqanlarının və ev təsərrüfatına xidmət edən qeyri-kommersiya idarələrinin son istehlak üçün xərcləri onların cari xərclərinin (əsas kapitalın istifadəsi də daxil olmaqla) ölçüsü ilə müəyyənləşdirilir. Fərdi istehlak üçün əmtəə və xidmətlərin sosial tə'minat, səhiyyə, təhsil, mədəniyyət və incəsənət büdcə təşkilatları, habelə ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya idarələri təqdim edirlər. Kollektiv xidmətlər isə hüquq-mühafizə,

idarəetmə, müdafiə, elm və s. büdcə təşkilatları tərəfindən göstərilir.

Beynəlxalq MHS-də gəlirlərdən istifadənin hər iki hesabında saldolaşdırıcı maddə kimi yığım götürülür. Sərəncamda olan gəlirlə son istehlaka məsrəflərin fərqi kimi, ya da təshih edilmiş sərəncamda olan gəlirlə faktiki son istehlak arasındakı fərq kimi hesablanmasından asılı olmayaraq onların dəyəri eyni olur. İrəlidə deyildiyi kimi, qeyri-maliyyə və maliyyə korporasiyalarının son istehlaka məsrəfləri və faktiki son istehlakı olmur. Onların xalis yığımları xalis sərəncamda olan və ya təshih edilmiş sərəncamda olan gəlirlərinə bərabər olur. (Təqaüd fondları üzrə təshihedici maddələr istisna olmaqla).

Yığım sərəncamda olan gəlirlərin son istehlak üçün əmtəələrə və xidmətlərə sərf edilməyən hissəsidir. Sərəncamda olan gəlirlərdən son istehlaka məsrəflərdən asılı olaraq o neqativ və ya pozitiv ola bilər. Yığımın pozitiv olduğu halda xərclənmiş gəlir aktivlərin əldə edilməsinə və ya öhdəçiliklərin azaldılmasına yönəldilməlidir. Xərclənmiş gəlir bilərəkdən maliyyə və ya qeyri-maliyyə aktivlərinin alınmasına, ya da öhdəçiliklərin azaldılmasına sərf olunmadıqda bu mövcud və ən çox likvidliyə malik maliyyə vəsaitlərinin artırılmasına gətirib çıxarır. Yığım neqativdirsə, ya maliyyə və ya qeyri-maliyyə aktivlərin müəyyən hissəsi ləğv ediləcək, ya da bə'zi öhdəçiliklər artacaqdır. Beləliklə, yığım sistemi cari hesablarla sonrakı hesablar arasında əlaqə yaradır. Əgər yığım sıfıra bərabər olarsa tə'sisat vahidi öz vəsaitinin bir hissəsini ləğv etmək və ya hər hansı öhdəçiliyinin dəyişməsi vacib deyil. Bütün yuxarıda deyilənlər nəzərə aldıqda sərəncamda olan gəlirə mövcud vəsaitləri azaltmadan, özünün başqa aktivlərini ləğv etmədən və öz öhdəçiliyini artırmadan təsisat vahidlərinin hesabat dövründə son istehlaka əmtəə və xidmətlərin alınmasına yönəldə biləcəyi maksimal məbləğ kimi baxmaq olar.

Nəzarət üçün suallar

1. *Beynəlxalq MHS-də "Gəlir" anlayışına nə daxildir?*
2. *Gəlirlərin hansı növləri var?*
3. *"Gəlirlərin yaranması hesabı" necə qurulur?*
4. *Gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi necə aparılır?*
5. *Gəlirlər necə istifadə olunur?*
6. *Son istehlak v son istehlaka məsrəflər nə deməkdir?*
7. *Yığım nədir və necə hesablanır?*
8. *Yığım hesabları hansılardır?*

X FƏSİL
ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN STATİSTİKASI

§ 10.1. Əhalinin həyat səviyyəsi və onun statistik öyrənilməsinin vəzifələri

Əhalinin həyat səviyyəsi insanların maddi ne'mətlər, məişət və mədəni xidmətlərə tələbatlarının öyrənilməsinin səviyyəsi və dərəcəsini əks etdirən sosial-iqtisadi kateqoriyadır. Maddi ne'mətlər dedikdə ərzaq məhsulları, geyim, ayaqqabı, mənzil, mədəni və məişət əşyaları başa düşülür. Əhaliyə komunal, nəqliyyat, rabitə, mədəni, tibbi, məişət və s. xidmətlər ümumi adla-məişət xidmətləri qrupunda birləşdirilir.

Həyat səviyyəsi statistikasının əsas vəzifələri aşağıdakılardır:

1. Əhalinin sosial-iqtisadi rifahını əks etdirmək:
2. Cəmiyyətin sosial-iqtisadi diferensasiyası dərəcəsini, əhalinin müxtəlif təbəqələri və demoqrafik qruplarının həyat səviyyəsinin müxtəlifliyini qiymətləndirmək:
3. Əhalinin həyat səviyyəsi, onun tərkibi və dinamikasına müxtəlif sosial-iqtisadi amillərin tə'sirini öyrənmək:
4. Sosial-iqtisadi müdafiyəyə ehtiyacı olan az tə'minatlı əhali qruplarını ayırmaq və səciyyələndirmək.

Mürəkkəb məsələ olan həyat səviyyəsi, onun dinamikası və diferensasiyası konkret ölkədə və ya ərazidə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, milli sərvətin həcmi və quruluşu, ÜMD və milli gəlirin istehsalı və bölüşdürülməsi ilə bilavasitə əlaqədardır. Bu sistemə daxil olan göstəricilərin bir göstərici halında birləşdirilməsi beynəlxalq miqyasda qeyri-mümkün olduğu üçün həyat səviyyəsini hərtərəfli xarakterizə edən vahid göstərici hesablamaq da mümkün deyildir.

§ 10.2. Həyat səviyyəsi statistikasının göstəricilər sistemi

BMT-nin tə'limatına görə onun əsas vəzifələrindən biri əhalinin həyat səviyyəsinin yüksəldilməsinə köməklik etməkdir.

BMT-nin Baş Assambleyasının 1952-ci ildə qəbul etdiyi xüsusi qətnamədə İqtisadi və Sosial Şuraya təklif olunurdu ki, əhalinin həyat səviyyəsinə dair lazımi mə'lumatların toplanılması və istifadəsini asanlaşdıran statistika üsulları hazırlamaq üçün tədbirlər görsün. BMT-nin İqtisadi və Sosial Şurasının xüsusi ekspertlər qrupu əhalinin həyat səviyyəsini səciyyələndirən göstəricilər sistemi, həyat səviyyəsinin ölçülməsi üsulları və həyat səviyyəsi göstəricilərinin beynəlxalq müqayisəsinə dair öz müşahidələrini 1954-cü ildə BMT Statistika İnstitutunun 8-ci sessiyasına təqdim etdi. BMT ekspertləri komitəsi həyat səviyyəsinin göstəriciləri sistemini aşağıdakı ünsürləri nəzərə

almaqla hazırlamağa təklif etdilər:

1. Sanitar-gigiyenik şəraiti;
2. Ərzaq məhsullarının istehlakı;
3. Təhsil (o cümlədən, savadlılıq və texniki peşə);
4. Əmək şəraiti;
5. Məşğuliyyət;
6. Cəmi istehlak və yığım;
7. Nəqliyyat vasitələri;
8. Mənzil şəraiti (o cümlədən mənzilin abadlığı);
9. Geyim;
10. İstirahətin təşkili;
11. Sosial tə'minat;
12. İnsan azadlığı.

Sosial statistika üzrə işçi qrup yuxarıdakı sxemdəki 4-cü və 5-ci mövqeləri birləşdirdi, 6-cı və 7-ci mövqeləri isə ixtisar etdi. Beləliklə də həyat səviyyəsini səciyyələndirmək üçün sanitar-gigiyenik şəraiti, ərzaq məhsulların istehlakını, təhsili, məşğulluq və insan azadlığını əsas şərt kimi götürməyi tövsiyyə etdi. Bundan başqa yuxarıdakı siyahıya "əsas informasiya" bölməsi əlavə etdilər. Bu bölməyə əhali və işçi qüvvəsi, gəlirlər və xərclər, nəqliyyat, rabitə və informasiya mövqeləri daxil edildi.

Bu şərtlərin hər biri həyat səviyyəsi ilə əlaqədar olsa da ona tə'sir dərəcələri eyni deyildir. Mənzil şəraiti, istehlak və s. həyat səviyyəsini bilavasitə ifadə edən, bütövlükdə cəmiyyət üzvlərinin və ya onun ayrı-ayrı sektorlarının gəlirləri və məsrəfləri isə bütün əhaliyə aid olduğu üçün həyat səviyyəsini dolayı əks etdirən şərtlərdir.

BMT ekspertləri həyat səviyyəsini əks etdirən geniş göstəricilər sistemi müəyyən etsə də beynəlxalq miqyasda həyat səviyyəsinin bütün tərəflərini özündə birləşdirən ümumiləşdirici göstəricinin hələlik olmamasını (statistika tərəfindən kəşf edilmədiyini) e'tiraf edirlər. Ekspertlərin fikrincə belə vahid ümumiləşdirici göstəricinin olması beynəlxalq müqayisə baxımından da arzu edilməzdir.

BMT-nin statistika komissiyası da təqribən eyni nəticəyə gəldi. Komissiya hesab edirdi ki, "müxtəlif ölkələrdə həyat səviyyəsindəki fərqlər vahid həyat səviyyəsi indeksini müəyyən etməyə imkan vermir. Odur ki, faktiki həyat səviyyəsinin ölçüsü kimi hər hansı dəyər indeksindən istifadə tövsiyyə edilmir". Komisiyanın fikrincə buna görə də həyat səviyyəsinə dair BMT çərçivəsində hər il mə'ruzə hazırlamaq mümkün deyildir.

Ekspertlər Komitəsi həyat səviyyəsinin əks etdirən sintetik göstərici kimi milli gəlir (xüsusilə əhalini hər nəfərinə düşən milli gəlir) və

qarşıdakı ömrün orta müddəti göstəricisindən istifadə etməyi təklif etdi. Lakin sonradan sosial statistika qrupu keçmiş SSRİ-dən olan ekspertlərin e'tirazına baxmayaraq milli gəliri əsas göstəricilər sırasından çıxardı və onun yerinə bir sıra xüsusi göstəricilər əlavə etdi. Sosial statistika qrupu öz qərarlarını dünyanın müxtəlif ölkələrində milli gəlirin hesablanma metoduna, tərkibində və bölüşdürülməsində müxtəlifliyin olunması ilə əlaqələndirdi.

BMT ekspertləri həyat səviyyəsini öyrənmək üçün aşağıdakı göstəricilər kompleksindən istifadə etməyi tövsiyyə etdi:

a) Demoqrafik şərait və əhalinin həyat səviyyəsi göstəriciləri: ömrün orta müddəti, uşaq ölümü, əhalinin xəstəxana çarpayıları ilə tə'min olunması, tibbi yardımın səviyyəsi (hər min nəfərə düşən həkimlərin sayı).

b) Əmək şəraiti ilə əlaqədar göstəricilər: fəhlə və qulluqçuların nominal və real əmək haqqı, iş günü və iş həftəsinin müddəti, il ərzində haqqı ödənilən məzuniyyət günlərinin sayı, işə götürülməsi üçün minimum yaş həddi.

Yuxarıda verilən sxem əhalinin həyat səviyəsindən daha çox onun həyat tərzini əks etdirirdi. Keçmiş sovet statistiklərinin təşəbbüsü ilə qəbul olunmuş belə bölgü keçmiş sovet quruluşunun "üstünlüklərini" əks etdirmək məqsədi daşıyırdı.

Müasir sosial ictimai şəraitdə belə geniş və mürəkkəb bölgüyə ehtiyac qalmadığından həyat səviyyəsini ölçmək üçün aşağıdakı göstəricilər müəyyən edilmişdir:

1. Ümumiləşdirici göstəricilər (ÜDM, istehlak fondu, həyatın dəyəri indeksi və s.);
2. Əhalinin gəliri;
3. Əhalinin istehlakı və xərcləri;
4. Əhalinin pul yığımı;
5. Yığılmış əmlak və mənzil;
6. Əhalinin sosial differensiallaşdırılması;
7. Əhalinin az tə'minatlı təbəqələrinin ayrılması.

Buraya bir-biri ilə mə'naca yaxın olan "yaşayış minimumu və "minimum istehlak büdcəsi" kimi anlayışlar daxil edildiyindən bu göstəricilər sisitemi də metodik baxımdan təkmil hesab edilə bilməz. Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəriciləri müəyyən şərtliklə aşağıdakı üç qrupa bölmək olar:

1. Sintetik dəyər göstəriciləri (ÜMD, istehlak fondu, əhalinin məcmu gəlirləri və s.)
2. Konkret maddi ne'mətlərin istehlakını ifadə edən natural göstəricilər (fərdi əmlakla tə'min olunma dərəcəsi, ərzaq məhsullarının istehlak səviyyəsi və s.)

1. Maddi rifahın bölgüsünün quruluşu və nisbətlərini əks etdirən göstəricilər (gəlirlərin səviyyəsinə görə əhalinin qruplara ayrılması, gəlir və istehlakın təmərküzləşməsi və diferensasiya göstəriciləri).

Əhalinin həyat səviyyəsi hər şeydən əvvəl istehlakın səviyyəsi göstəriciləri ilə xarakterizə olunur. Lakin istehlakın səviyyəsi və tərkibi hər bir şəxsin, ailənin və cəmiyyətin sərancamında olan resurslardan asılı olaraq formalaşır.

BMT statistika orqanlarının tövsiyyəsinə əsasən hər bir ölkənin milli statistikası öz ölkəsində həyat səviyyəsini xarakterizə etmək üçün müvafiq göstəricilər sistemi işləyib hazırlamalıdır.

Keçmiş SSRİ məkanında həyat səviyyəsini xarakterizə etmək üçün aşağıdakı sintetik göstəricilər qrupundan istifadə etmək tövsiyyə olunur:

1. Cəmiyyətin sosial quruluşu;
2. Əhalinin məşğuliyyəti və əmək şəraiti;
3. Dövlətin idarə olunmasında və ictimai həyatda zəhmətkeşlərin iştirakı;
4. Əhalinin gəliri;
5. Əhalinin pul yığımı;
6. Əməyin ödənilməsi;
7. İctimai istehlak fondları;
8. Əhaliyə sosial və məişət xidməti;
   o cümlədən:
   a) Ticarət, ictimai iaşə;
   b) Nəqliyyat və rabitə;
   v) Əhaliyə mənzil-komunal və məişət xidməti;
   q) Səhiyyə, bədən tərbiyəsi, turizm, sosial tə'minat;
   d) Xalq maarifi;
   e) Mədəniyyət və incəsənət.
9. Əhalisi tərəfindən maddi ne'mətlərin və xidmətlərin istehlakı;
10. Əhalinin əmlakı;
11. Ailələrin büdcəsi;
12. Əhalinin vaxt büdcəsi;
13. Əxlaq (mə'nəviyyət) statistikası;
    o cümlədən:
    a) cinayətkarlıq;
    b) inzibati hüquq pozuntuları;
    v) cinayətkarlıq və qanun pozuntularına imkan yaradan sosial təhlükəli hadisələr.

Metodik göstəricilərə əsasən "yaşayış minimumu" dedikdə maddi ne'mətlərin və xidmətlərin minimal dəstinin əldə edilməsini tə'min

edən gəlir səviyyəsi başa düşülür. "Minimal istehlak büdcəsi" isə müvafiq yaşayış minimumunu tə'min edə bilən maddi ne'mətlər və xidmətlər dəstinin dəyərini göstərir (Bax: «Vdpokji noaojnojij» jurnalı, 1992-ci il, N12, səh. 14).

Həyat səviyyəsi hər şeydən əvvəl əhalinin gəlirindən asılı olaraq formalaşır.

Müasir şəraitdə əhalini (o cümlədən Azərbaycanda da) gəlirlərin mənbələri aşağıdakılardır:

1. Əmək haqqı və işçilərin öz əməyi üçün aldığı ödənişlər;
2. Fərdi əmək fəaliyyətindən əldə edilən gəlirlər;
3. İctimai istehsal fondundan, xüsusi fondlardan ödənilən ödənişlər və güzəştlər, həyatın sığortası üzrə illik ödənişlər;
4. Mülkiyyətdən alınan gəlirlər (maliyyə aktivləri, torpaq və mənzildən, müəlliflik hüququ, patent və sairdən istifadə üçün);
5. Fərdi həyatyanı təsərrüfat, bağ-bağça və sairdən alınan gəlirlər (xalis məhsulun dəyəri);
6. Sair gəlir mənbələri (lotoreya uduşları, konkurslar və yarışlarda qalib gəldiyinə görə və s.).

Hüquqi baxımdan qanuni və kölgə iqtisadiyyatı çərçivəsində qeyri-qanuni gəlirləri fərqləndirirlər. Sonuncuya müəyyən edilmiş qaydada qeydiyyatdan keçməyərək vergidən və nəzarətdən gizlənmək yolu ilə əldə edilmiş gəlirlər aiddir.

Əhalinin gəlirlərinin səviyyəsini və quruluşunu ölçmək üçün müxtəlif göstəricilərdən istifadə olunur. Belə göstəricilərdən ən əsası əhalinin fərdi gəlirlərinin həcmi göstəricisidir. Buraya əhalinin pul və natural şəkildə aldıqları gəlirlərin cəmi daxildir. Əhalinin cəmi gəlirləri (ƏCG) fərdi gəlirlərlə ictimai fondlar hesabına pulsuz və ya güzəştli şərtlərlə əhaliyə göstərilən xidmətlərin dəyərinin cəmləmək yolu ilə müəyyən edilir. Belə halda xidmətlərin dəyəri hesablama yolu ilə müəyyən edilir. Cari qiymətlərlə hesablanmış bu göstərici gəlirlərin nominal göstəriciləri adlanır. Fərdi kapitalın gəlirlərindən (FKG) ictimai təşkilatlara məcburi ödənişləri və vergiləri (ÖV) çıxmaqla fərdi sərəncamda olan gəlirləri (FSG) müəyyən etmək olar.

Manatın alıcılıq qabiliyyətinin dəyişməsindən asılı olaraq əhalinin nominal və sərəncamda olan gəlirləri arasında ciddi fərq yarana bilər. Gəlirlərin real həcmini müəyyən etmək üçün hesablamalar aparılan zamanı sabit qiymətlərdən, ya da onların dəyişməsi ilə əlaqədar pulun alıcılıq qabiliyəti indeksindən istifadə etmək olar. Pulun alıcılıq qabiliyyəti indeksi əmtəə və xidmətlərin qiymətləri indeksləri ilə tərs mütənasib kəmiyyət olduğu üçün həmin məqsəd üçün qiymət indeksindən də (J_p) istifadə etmək olar. Qiymətlərin dəyişməsini

nəzərə almqla sərəncamda olan real gəlirlərin həcmi (SRG) aşağıdakı kimi hesablanır:

$$CPK = (\Phi HK - \Theta B) \cdot J_{паг} = \Phi CK \cdot d_{\Phi CK} \cdot J_{пан}$$

Tutaq ki yuxarıdakı misalda olduğu mə'lumdur. Belə halda

CPK = 150x0.9 = 135.0 милјард доллар

və ya

CPK = 200x0.75x0.9 = 135.0 милјард доллар

olacaqdır.

FSG sahibkar tərəfindən öz şəxsi gəlirlərindən istehlaka və yığıma ayrılan hissədir.

$$\Phi CK = \Phi HK - \Theta B$$

Gəlirlərin bu hissəsinin FNG-nin tərkibində xüsusi çəkisi aşağıdakı kimi müəyyən edilir:

$$d_{\Phi CK} = \frac{\Phi CK}{\Phi HK} = \frac{\Phi HK - \Theta B}{\Phi HK}$$

Tutaq ki, il ərzində əhalinin nominal gəlirlərinin dəyəri 200.0 milyard dollar, məcburi ödənişlərin və vergilərin məbləği isə 50 milyard dollara bərabər olmuşdur. Burada fərdi sərəncamda olan gəlirlərin məbləği:

ΦCK = ΦHK - ΘB = 200 - 50 = 150 милјард доллар

Fərdi nominal gəlirlərin tərkibində FSG-nin xüsusi çəkisi

$$d_{\Phi CK} = \frac{\Phi CK}{\Phi HK} = \frac{150}{200} = 0.75$$ və ya 75% олачагдыр

Burada $J_{паг} = 1 : J_P$

Real ümumi gəlirləri də (RÜG) eyni qayda ilə, yə'ni yekun gəlirlərinə (YG) müvafiq düzəliş verməklə hesablamaq olar:

$$PYK = JK \cdot \frac{1}{J_P} = JK \cdot J_{паг}$$

Bu göstəricilərin dinamikasını öyrənmək üçün sərəncamda olan real gəlirlər indeksindən (J_{CPK}) istifadə etmək olar:

$$J_{CPK} = \frac{CPK_1}{CPK_0} = \frac{\Phi HK_1 \cdot d_{1\,паг} \cdot J_{пег}}{\Phi HK_0 \cdot d_{0\,паг}} = J_{паг} \cdot Jd_{паг} \cdot J_{паг}$$

Buradan göründüyü kimi, real gəlirlərin dəyişmə sür'əti nominal gəlirlərin artım sür'ətindən, vergi və ödənişlərin dəyişmə dəyərindən və pulun alıcılıq qabiliyyətinnin dəyişməsi dərəcəsindən asılıdır.

BMT ekspertlərinin fikrincə təhsil və texniki ixtisas göstəricilərinə məktəbyaşlı uşaqların tərkibində məktəbə gedənlərin xüsusi çəkisi, ibtidai və orta məktəblərdə şagirdlərin sayı, məktəb yaşında olan hər

yüz min əhaliyə düşən məktəblilərin sayı, məktəblərdə müəllimlərin sayının şagirdlərə nisbəti, müəyyən yaşdan böyük əhalinin savadlılıq dərəcəsi, əhalinin hər yüz min nəfərinə düşən ali məktəb tələbələrinin sayı, hər min nəfərə düşən gündəlik qəzet tirajı, hər yüz min əhaliyə düşən il ərzində nəşr edilən kitabların sayı aid edilmişdir.

Əhalinin məşğuliyyəti göstəricilərinə əhalinin tərkibində məşğuliyyəti olanların xüsusi çəkisi, məşğuliyyəti olan əhalinin tərkibində 20 yaşadək, 65 yaşdan böyük əhalinin və işizlərin xüsusi çəkisi, məşğuliyyəti olan əhalinin məşğuliyyəti, sahələr üzrə və fəaliyyət sahələrində tutduğu mövqeyə görə bölüşdürülməsi və s. aid edilməlidir.

Sosial statistika üzrə işçi qrup yuxarıda deyilənlərə mənzil şəraiti ilə əlaqədar aşağıdakı göstəriciləri əlavə etdi:

1. Mənzildə yaşayan əhalinin faizi;
2. Bir otağa üç nəfərdən çox adam düşən mənzildə yaşayanların xüsusi çəkisi;
3. Su xətti olan mənzildə yaşayan əhalinin xüsusi çəkisi.

Əhalinin həyat səviyyəsinin təhlilində bu göstəricilərin əhəmiyyəti eyni deyildir. Məsələn, əhalinin orta ömr müddəti göstəricisi həyat səviyyəsi və onun dəyişməsi ilə bilavasitə əlaqədar olması danılmaz həqiqətdir. Həyat səviyyəsi yaxşılaşdıqca ölümün ümumi səviyyəsi və xüsusilə də 1 yaşadək uşaq ölmünün səviyyəsi aşağı düşür. Lakin o da həqiqətdir ki, eyni orta ömür müddəti göstəricisi arxasında ayrı-ayrı şəxslər və insanlar qrupu üzrə müxtəlif həyat səviyyəsi dura bilər. Ayrı-ayrı hallarda isə uzunömürlülərin heç də hamısının həyat səviyyəsi yüksək olmur. Odur ki, həyat səviyyəsini xarakterizə etmək üçün orta ömür müddəti göstəricisini başqa göstəricilərlə əlaqəli götürmək və təhlil etmək lazımdır.

Eyni sözləri ümumi ölüm, və 1 yaşadək uşaq ölümü göstəriciləri haqqında da demək olur. Həyat səviyyəsinin yüksəlməsi əhalinin ümumi və xüsusiylə 1 yaşadək uşaq ölmünün aşağı düşməsinə və beləliklə də orta ömür müddətinin yüksəlməsinə səbəb olur. Lakin irəlidə deyildiyi kimi eyni ölüm əmsalı arxasında müxtəlif həyat səviyyəsi dura bilər. Bundan əlavə ölüm səviyyəsinin aşağı düşməsi həqiqətən həyat səviyyəsinin yüksəlməsi nəticəsində deyil, bu həm də tibb elminin nailiyyətlərindən (yolxucu xəstəliklərlə mübarizə tədbirləri, sanitar-gigiyenik şəraitin yaxşılaşması, yeni daha tə'sirli dərmanlardan istifadə və s.) daha geniş istifadə ilə də əlaqədardır. İnkişaf etməkdə olan ölkələrdə ölüm səviyyəsinin aşağı düşməsini həmin ölkələrdə əhalinin həyat səviyyəsinin yüksəlməsi kimi qiymətləndirmək düzgün olazdı. Ölüm səviyyəsinin yüksəlməsi qidalanmanın və mənzil tə'minatının yaxşılaşdığı halda da baş verə bilər. Bunlardan əlavə nəzərə almaq lazımdır ki, orta ömür göstəricisi

yeni doğulan nəslin "qarşısındakı ömrünün" orta müddəti konkret dövrdə konkret ölkədə yaşayan hər nəfərin maddi və mədəni ne'mətlərə olan tələbatının ödənilmə dərəcəsini əks etdirən göstəricidir. Odur ki, həyat səviyyəsi iqtisadistatistik baxımdan təhlil edilərkən məsələni bu tərəfdən də nəzərdən qaçırmamalıdır və onu dinamikada öyrənmək lazımdır.

Həyat səviyyəsini səciyyələndirmək üçün əhalinin sağlamlıq dərəcəsini əks etdirən göstəricilərdən də istifadə etmək olardı. Lakin indiki zamanda əhalinin sağlamlıq dərəcəsini dəqiq müəyyənləşdirən me'yar olmadığından belə konkret ümumiləşdirici göstəricisini hesablanılması da qeyri-mümkündür.

Əhalinin qidalanmasını xarakterizə etmək üçün istehlak olunan qidanın kəmiyyəti və keyfiyyətini səciyyələndirən göstəricilərdən istifadə olunur. BMT ekspertləri bu məqsədlə ərzaq ehtiyatlarını ön plana çəkməyi məsləhət bildirir. Beynəlxalq statistika ilə məşğul olan bə'zi statistiklərin (məs: T.V.Ryabuşkin) fikrinə görə bu məqsədlə faktiki istehlak olunmuş ərzaq məhsullarının həcmi göstəricisindən istifadə etmək daha düzgün olardı. Məsələ ondadır ki, ehtiyatlar (resurslar) yalnız əhalinin istehlakını ödənilmə imkanını əks etdirdiyi üçün əhalinin faktiki istehlak səviyyəsini düzgün əks etdirə bilmir.

Son vaxtlaradək istehsalın ən geniş yayılmış yekun göstəricisi kimi istehlak olunan ərzağın kaloriliyi götürülürdü. Bu göstərici iqtisadi ədəbiyyatlarda mütəxəssislər tərəfindən kifayət qədər tənqid edilmişdir. İstehlak edilmiş qidanın miqdarını əks etdirmək üçün onun tərkibində olan zülal maddələrin (xüsusilə heyvan mənşəyli zülallar) səviyyəsi göstəricisindən istifadə etmək daha düzgündür. İstehlakın səviyyəsi və keyfiyyətini düzgün əks etdirmək üçün qidanın tərkibində olan vitaminlərin və mineral maddələrin xüsusi çəkisindən istifadə etmək olar. Çox təəssüf ki, müvafiq statistik informasiyanın olmaması ucundan onu statistika göstəriciləri sisteminə daxil etmək olmur.

BMT ekspertlərinin tövsiyyə etdiyi göstəricilər sırasında əhalinin ümumi təhsil səviyyəsi göstəriciləri yoxdur. Bə'zi mütəxəssislərin fikrincə təhlillə əlaqədar tövsiyyə edilən göstəricilər həyat səviyyəsini deyil, təhsil şəraitini əks etdirir. Halbuki, MDB ölkələri və Azərbaycan Respublikası DSK-nın fəaliyyətində istifadə olunan təhsil səviyyəsi göstəricisi (bütün əhalinin və ya 10 yaşdan böyük olan və bütün əhalinin tərkibində ali və orta təhsilə malik şəxslərin xüsusi çəkisi) əhalinin mədəni səviyyəisni əks etdirən köməkçi göstərici kimi istifadə edilə bilər.

Həyat səviyyəsini öyrənərkən əmək şəraiti ilə əlaqədar göstəricilər arasında əmək haqqının səviyyəsi, iş günü və iş həftəsinin müddəti göstəricilərinin fikrincə iş gününün qısaldılması həyat şəraitinin

yaxşılaşdırılması sahəsində mühüm tədbir olsa da qismən işsizliyin yaranmasına səbəb olur.

Həyat səviyyəsini təhlil edərkən əhalinin əmək haqqına görə qruplaşdırılmasından geniş istifadə olunmalıdır.

Əhalinin həyat səviyyəsini öyrənərkən göstəricilər sisteminə məşğulluq göstəricisinin daxil edilməsi BMT ekspertlərinin böyük nailiyyətidir. Yüksək məşğulluq və işsizliyin olmaması normal həyat səviyyəsinin tə'min edən şərtlərdəndir. Odur ki, işsizlərin həyat şəraitinin öyrənilməsinə xüsusi diqqət yetirmək lazımdır. BMT-nin bə'zi ekspertləri "işsizlik" anlayışına qarşı inkişaf etməkdə olan ölkələr üçün xüsusi əhəmiyyət malik olan ölkələr üçün xüsusi əhəmiyyətəm malik olan "qeyri-tam məşğulluq" anlayışından istifadə etməyi daha düzgün hesab edir.

Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər arasında real əmək haqqı göstəricisi xüsusi yer tutur. BMT-nin statistika komissiyalarında və xüsusilə də BƏT-də real əmək haqqı göstəricisinin hesablanması və müqayisəliliyinin tə'min edilməsi məsələsi dəfələrlə müzakirə olunmuşdur. Bu müzakirələr zamanı real əmək haqqının aşağıdakı iki baxımdan öyrənməyə üstünlük verilirdi:

1. Müxtəlif ölkələrdə işçi qüvvəsinin dəyərini müəyyən etmək üçün;

2. Müxtəlif ölkələrdə həyat səviyyəsini öyrənmək əmək haqqını müqayisəli təhlil etmək üçün.

Məsələyə birinci baxımdan yanaşarkən ölkələrdə əmək haqqı istehsal xərclərinin bir amili kimi öyrənilir. Burada əsas məqsəd ucuz işçi qüvvəsi axtarmaq idi. Məsələyə bu baxımdan yanaşarkən işsizlərin vəziyyəti və ayrı-ayrı işçi qrupların həyat səviyyəsinin öyrənilməsi ikinci plana keçir. Məsələyə ikinci baxımdan yanaşdıqda işsizlərin vəziyyətinin öyrənilməsinə ehtiyac yaranır. BƏT konfransının tövsiyyəsinə görə müxtəlif ölkələrdə əmək haqqının səviyyəsinin müqayisəsində məqsəd həyatın nisbi səviyyəsinin öyrənilməsidir. Lakin bu tövsiyyələrdə nədənsə zəhmətkeşlərin faktiki həyat səviyyəsi insan orqanizminin normal tələbatı ilə müqayisəsi tələb edilmir. Halbuki, qida məhsullarına tələbatı müəyyən edərkən bu tələbatın neçə ödənilməsini öyrənmək çətin deyildir.

Real əmək haqqının səviyyəsi müxtəlif ölkələr üzrə müqayisə edilərkən onu ölkədə mövcud olan sosial-iqtisadi şəraitlə əlaqələndirmək lazımdır. Əmək haqqının səviyyəsi müqayisə olunarkən hər ölkədə həyata keçirilən sosial tədbirlər də nəzərə alınmalıdır. Sosial tədbirlərin (səhiyyəni, təhsili və s.) dövlət tərəfindən maliyyələşdirmə dərəcəsi həyat səviyyəsinə bilavasitə tə'sir edən amillərdəndir.

Əmək haqqına dair mə'lumatlar müqayisə olunarkən nəzərə almaq

lazımdır ki, nominal və real əmək haqqı göstəricisi yalnız məşğuliyyəti olan əhali üzrə hesablanır. Bu göstərici işsizlərin acınacaqlı vəziyyətini və və həyat səviyyəsini əks etdirmir. Real əmək haqqı hesablanarkən nominal əmək haqqı, vergilər, manatın alıcılıq qabiliyyəti və başqa iqtisadi göstəricilər nəzərə alınmalıdır. BƏT-nin tövsiyyələrinə əsasən real əmək haqqı hesablanarkən nominal əmək haqqından müstəqim vergiləri çıxmaq və müxtəlif yardımları isə əlavə etmək lazımdır.

Orta əmək haqqı göstəricisinin hansı vaxt vahidi (adam/saat, adam/gün) üçün hesablanması da mühüm məsələdir. Bir çox ekspertlərin fikrincə müqayisə üçün ən yaxşı göstərici orta saatlıq əmək haqqı göstəricisidir.

Real əmək haqqının təhlili zamanı qiymət indekslərinin qurulması da mühüm problemlərdən biridir.

Mənzil şəraitini öyrənərkən qarşıya çıxan əsas çətinliklərdən biri müxtəlif ölkələrdə "mənzil" və "mənzil şəraiti" anlayışlarının müxtəlif cür başa düşülməsidir. Belə müxtəliflik beynəlxalq müqayisəliliyi çətinləşdirir. Ümumiyyətlə götürdükdə həyat səviyyəsi statistikasının göstəriciləri sisteminə daxil olan göstəricilərin miqyası və əhatə dairəsi eyni deyildir. Onlardan bə'zisi ölkədə yaşayan bütün əhaliyə, bə'zisi hər min nəfərə, üçüncü qrup göstəricilər isə xalq təsərrüfatı və iqtisadiyyatın ayrı-ayrı sahələri arasındakı nisbətən əsasən hesablanır. Belə ardıcıllıq müəyyən baxımdan məntiqi olsa da onların ardıcıllığı düzgün müəyyən edilməlidir. Bu sistemdə ilk sıraya ölkədə həyat səviyyəsinin ümumi vəziyyətini ifadə edən göstəriciləri (milli gəlirlərin həcmi və s.), onun ardınca isə əhalinin ayrı-ayrı qruplarının həyat səviyyəsini əks etdirən göstəricilər (hər nəfərə düşən ərzaq istehlakı, fəhlə və qulluqçuların real əmək haqqı və s.) yerləşdirilməlidir.

Əhalinin həyat səviyyəsinin öyrənilməsi sahəsində BMT-inin ixtisaslaşmış təşkilatları da müəyyən işlər görür. Məsələn, Beynəlxalq Səhiyyə Təşkilatı həyat səviyyəsinin statistik öyrənilməsini təkminləşdirmək üçün ölüm səbəblərinin və xəstəliklərin təsnifatını hazırlamış, ölüm əmsalının nisbi səviyyəsinin hesablanmasına dair öz mülahizələrini BMT statistika komitəsinə təqdim etmişdir. Beynəlxalq ərzaq və kənd təsərrüfatı idarəsi istehlakın həcmini koloriliyinə görə (bitki mənşəli qidalarda olan koloriyinin ümumi istehlakda tutduğu hissə kimi) müəyyən edilməsi qaydasını işləyib hazırladı. BƏT-ə isə məşğulluq statistikası üzrə bir sıra gərəkli tövsiyyələr hazırlayıb beynəlxalq statistika təcrübəsinə daxil etdi.

Beynəlxalq Statistika orqanları həyat səviyyəsi statistikasının göstəricilər sistemini və onların hesablanması metodlarının təkmilləşdirilməsi sahəsində öz səmərəli fəaliyyətini davam etdirməkdədir. Bu sahədə əsas fəaliyyət milli statistikalarda ilk uçot və statistikanın

beynəlxalq standartlara uyğun qurulması, MHS-nin tətbiqi, ümumi orta kəmiyyətlərdən qrup orta kəmiyyətlərə keçmək xətti üzrə aparılır.

§ 10.3. Real əmək haqqının göstəriciləri

Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər sırasında real əmək göstəricisi xüsusi əhəmiyyətə malikdir. Bu göstəricinin qurulması metodologiyası ilə Beynəlxalq Statistika təşkilatları (BMT-nin Statistika komissiyası, BƏT və s.) uzun müddət məşğul olmuşlar. Əmək statistiklərinin 1954-cü ildə çağırılmış 8-ci Beynəlxalq konfransının gündəliyinə "real əmək haqqının beynəlxalq müqayisəsi" adlı xüsusi məsələ daxil edilmişdir. Burada aparılmış diskussiyalarda məsələyə iki baxış yarandı:

1. Əmək haqqının beynəlxalq müqayisəsinin məqsədi müxtəlif ölkələrdə işçi qüvvəsinin müqayisəli dəyərini müəyyən etməkdir. Lakin burada söhbət dünyanın müxtəlif ölkələrində əmək haqqının faktiki səviyyələrini bir-biri ilə müqayisə etməkdən gedirdi. Məsələyə bu baxımdan yanaşdıqda işsizlərin vəziyyəti tədqiqatdan kənarda qalırdı.

2. Dünyanın müxtəlif ölkələrində əmək haqqının səviyyələrini müqayisə etməklə həyat səviyyələrini xarakterizə etmək. Məsələni belə qoyduqda işsizlərin vəziyyəti də hesablamalardan kənarda qalmır.

Nədənsə müzakirələr zamanı zəhmətkeşlərin faktiki həyat səviyyəsinin insan orqanizminin normal inkişafı üçün lazım olan tələbatların (fizioloji normativlərin) müqayisə edilməsinə diqqət yetirilmədi. Halbuki, ərzaq məhsullarına olan tələbatı bilməklə konkret ölkədə verilən əmək haqqının bu tələbatı necə ödədiyini müəyyən etmək çətin deyildi.

Real əmək haqqı anlayışı əhalinin real gəlirləri və həyat səviyyəsinin xarakteri ilə sıx bağlı olsa da onu həyat səviyyəsinin başqa göstəricilərindən ayırmaq olmaz. Məsələn: ayrı-ayrı ölkələrin sosial-iqtisadi şəraiti və zəhmətkeşlərin maddi tələbat dərəcəsi nəzərə alınmadan əmək haqqına dair göstəriciləri müqayisə etmək mümkün deyildir.

Beynəlxalq əmək bürosunun bu konfransında ən çox mübahisəyə səbəb olan məsələlərdən biri həyat səviyyəsini qiymətləndirərkən sosial tədbirlərin uçotu məsələsi idi. Həyat səviyyəsi göstəricilərinin müqayisəsində bu məsələnin əhəmiyyəti böyükdür. Həyat səviyyəsini müqayisə edərkən nominal əmək haqqının məbləği ilə yanaşı əhalinin ictimai fondlardan aldığı ödənişləri, fərdi fəaliyyətdən qazandığı gəlirləri, qiymətlərin səviyyəsini və informasiyanı nəzərə almamaq mümkün deyildir.

Yuxarıda adları çəkilən və bu qəbildən olan başqa məsələləri nəzərə almamaq həyat səviyyəsinə və real əmək haqqına dair

göstəricilərin müqayisəsini metodoloji cəhətdən çox qüsurlu edirdi.

Şərh edilən bu məsələlər konfransın qətnaməsində öz əksini qismən tapdı və müqayisələr zamanı "Əmək haqqı göstəricisini sosial yardımlarla əlaqəli öyrənmək" tövsiyyə olundu. Bu tövsiyyələrin əsas qüsuru həyat səviyyəsini səciyyələndirən konkret tədbirləri "sosial yardım" adlı mücərrəd anlayışla əvəz etməsi idi. Əmək haqqı göstəriciləri işsizliyi nəzərə almadan müqayisə edildikdə həyat səviyyəsini əks etdirən göstərici rolunu oynaya bilmir. Bu göstərici yalnız məşğuliyyəti olan əhaliyə aid olduğu üçün konkret ölkənin əhalisinin həyat səviyyəsini səciyyələndirən göstərici ola bilməz. Bu hələ bir yana qalsın, işsizlərin vəziyyətini nəzərə almadan real əmək haqqının dinamikası haqqında düzgün təsəvvür əldə etmək mümkün deyildir. İşsizliyin artdığı şəraitdə orta nominal əmək haqqı isə orta və ya həmin səviyyədə qala bilir. İlk növbədə aşağı ixtisaslı və az əmək haqqı alan işçilərin işdən azad edildiyini nəzərə aldıqda əhalinin həyat səviyyəsini öyrənərkən işsizliyin nəzərə alınmaması müqayisə edilən məsələ barəsində səhv təsəvvür yarada bilir. Məsələnin bu cəhətinə üstünlük verən konfransın qətnamələrində real əmək haqqının müqayisəsi zamanı işsizliyin nəzərə alınması tövsiyyə edildi.

Əmək haqqının səviyyəsi üzrə yuxarıda deyilən bütün amillərin və şərtlərin praktikada nəzərə alınması öz əksini müvafiq göstəricilərin qurulmasında tapmalıdır. Belə halda ilk növbədə qarşıya çıxan məsələ orta əmək haqqını hesablayarkən hansı məcmunun götürülməsi məsələsidir. Bu məqsədlə bə'zi qərb ölkələrinin statistika təcrübəsində çox da böyük olmayan seçmə ortadan və ya da subyektiv "tipik" orta əmək haqqı göstəricilərindin istifadə olunur. Belə halda işsizliyin və eləcə də sosial tədbirlərin real əmək haqqının dinamikasına tə'sirini müəyyən etmək ya çətin və ya da heç mümkün olmur. Odur ki, bu məsələninn düzgün həlli hesablamalar zamanı işsizləri də daxil etməklə bütün zəhmətkeş kütlələrin nəzərə alınmasını tələb edir. Bu məsələ də konfransın tövsiyyələrində öz şərhini tapmışdır.

Mə'lumdur ki, real əmək haqqı müəyyən edilərkən ilkin mə'lumat nominal əmək haqqı hesab edilir. Bu göstəricinin hesablanması metodologiyası müzakirə edilərkən vergilərin əmək haqqına daxil edilməsi (və ya ondan çıxılması), habelə hesablamaların aid edildiyi vaxt məsələsi ciddi mübahisələrə səbəb oldu. Vergilərin dərəcəsinin artması qiymətlərin və nominal əmək haqqı sabit qaldığı şəraitdə belə real əmək haqqının və həyat səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər. Bə'zi konfrans iştirakçısı olan ölkə nümayəndələrinin fikrincə bir başa vergi, əmək haqqının bir hissəsi olduğuna görə onu nominal əmək haqqının məbləğindən çıxmaq olmaz. Başqa qrup ölkələrin fikrincə isə vergilər real əmək haqqının səviyyəsini azaltdığına görə hesablamalara

daxil edilməməlidir. Bu məsələ ətrafında mübahisələr sonrakı illərdə keçirilən beynəlxalq forumlarda da aparılmışdır.

Orta əmək haqqı göstəricisinin hesablanması zamanı hansı vaxt vahidindən istifadə edilməsi də indiyədək mübahisəli qalır. Bə'zi iqtisadçıların fikrincə real əmək haqqı və həyat səviyyəsinə dair mə'lumatları müqayisə edərkən orta saatlıq əmək haqqından istifadə etmək daha məqsədəuyğundur. Bir sıra ölkələrin (o cümlədən də keçmiş SSRİ-nin) BMT-də çalışan ekspertlərinin fikrincə tam və qismən işsizlik şəraitində orta saatlıq əmək haqqı həyat səviyyəsinin düzgün qiymətləndirilməsi üçün istifadə oluna bilməz. Belə mübahisələrin nəzərə alaraq həftə ərzində işlənilmiş saatların sayı əsas götürülməklə bu məqsəd üçün saatlıq və ya həftəlik əmək haqqı göstəricisindən istifadə edilməsi daha məqsədəuyğun hesab edildi. Hesablamalarda həftə ərzində istifadə olunmuş saatların sayının nəzərə alınması orta saatlıq əmək haqqı göstəricisinin mə'lum qüsurlarını aradan qaldırmaq məqsədini daşıyır.

Keçmiş Sovet və indiki MDB ölkələrinin milli statistikasında bu məqsəd üçün orta saatlıq əmək haqqı göstəricilərindən istifadə edilməsi məqsədəuyğun sayılmır. Belə vəziyyət ilk növbədə ictimai fondlardan ödəniş bir sıra dövlət yardımları və ödənişlərin saatlıq deyil, günlük və ya aylıq əmək haqqı fondlarına aid edilməsi ilə izah edilir.

Müxtəlif ölkələrdə həyat səviyyəsini müqayisə edərkən ən çox mübahisəli məsələlərdən biri qiymət indekslərinin qurulması məsələsidir. Beynəlxalq müqayisələr zamanı bu sahədə qarşıya çıxan çətinliklər ən çox ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafında və istehlakın quruluşunda müxtəlifliyin mövcudluğu ilə əlaqədar olur. BMT Statistika İnstitutunun tövsiyyələrinə görə real əmək haqqının və ümumiyyətlə, həyat səviyyəsini müqayisə edərkən ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi, istehlakın quruluşu və s. məsələləri nəzərə almaq zəruridir. Odur ki, belə müqayisələri ilk növbədə oxşar sosial-iqtisadi şəraitdə olan ölkələr üzrə aparmaq daha məqsədə uyğun hesab edildi və əmək haqqının reqional miqyasda tədqiqinin zəruriliyi ayrıca qeyd olundu.

Dünyanın bir sıra ölkələrində (İngiltərə, Fransa, İsveçdə və s.) sabit tərkibli indekslərin belə qüsurlarını nəzərə alaraq müntəzəm büdcə tədqiqatlarına əsaslanan silsiləvi indekslərdən istifadə edirlər. Bə'zi ölkələrdə isə ümumi indeksdən əlavə əhalinin ayrı-ayrı qrupları (az gəliri olan təqaüdçü və ya yüksək gəliri olan ailələr) üçün də həyatın dəyəri indekslərini hesablayırlar. Belə indeksləri hesablayarkən xüsusi müşahidə aparılmır və həyat dəyərinin ümumi indeksini hesablamaq üçün əldə olan mə'lumatdan istifadə olunur.

Dünyanın bir çox ölkələrində zəhmətkeşlərin ayrı-ayrı qruplarının

real əmək haqqının dinamikasını müəyyən edərkən əmək haqqı və təqaüdlərin səviyyəsinin dövlət tənzimlənməsi zamanı və s. məqsədlər üçün də həyatın dəyəri indekslərindən istifadə olunur.

Keçmiş SSRİ məkanında olan ölkələrin statistika orqanları başqa təşkilatlar və elmi idarələrlə yanaşı gəlir səviyyəsi müxtəlif olan əhali qrupları üzrə istehlak olunmuş əmtəələr və pullu xidmətlərin həqiqi quruluşu üzrə qiymətlərin və tariflərin dəyişmə dərəcəsini öyrənmək üçün həyatın dəyəri indeksini hesablayırlar.

§10.4. Gəlirlərə görə əhalinin bölünməsinin statistik səciyyəsi

Yuxarıda deyildiyi kimi, Beynəlxalq statistikada gəlirlərə görə əhalinin bölüşdürülməsini səciyyələndirmək üçün uyğun geniş göstəricilər sistemindən istifadə olunur.

Onlardan bə'zilərini nəzərdən keçirək:

1. Modal gəlir. Bu göstərici əhali arasında ən çox təsadüf edilən gəlir səviyyəsidir.

2. Mediana gəlir. Bu göstərici ranjirə edilmiş gəlirlərin səviyyəsinə görə əhalinin bölgü sırasının ortasında olan (sıranı 2-yə bölən) gəlir göstəricisidir.

3. Gəlirlərin diferensiallaşmasının desil əmsalı ($Ə_d$). Bu göstərici əhalinin 10% ən varlı qrupunun minimum gəlirinin həmin miqdarda (yə'ni 10%) ən aşağı tə'minata malik hissəsinin gəlirlərindən neçə dəfə çox olduğunu göstərir. Bu əmsal aşağıdakı düstur üzrə hesablanır:

$$Ə_d = d_9/d_1$$

Burada d_9 və d_1- müvafiq olaraq 9-cu və 1-ci qrupların desilini göstərir. Xatırladaq ki, desil dedikdə bölgü sırasında əlamətin məcmu vahidlərinin onda birinə bərabər olan qiyməti başa düşülür.

4. Fondlar əmsalı ($Ə_G$)

Bu əmsal əhalinin 10-cu və 1-ci desil qruplarının gəlirlərinin nisbətini göstərir.

$$Ə_G = \frac{\bar{d}_{10}}{\bar{d}_1}$$

Burada $\bar{d}_{10}$ əhalinin ən aşağı əmək haqqı olan 10%-nin, $\bar{d}_1$ ən yüksək əmək haqqı olan 10%-nin hər nəfərinə düşən orta aylıq əmək haqqını göstərir.

$\bar{d}_1$ və $\bar{d}_{10}$-nu hesablayarkən kəsrin məxrəcində eyni kəmiyyət durduğuna görə Fonder əmsalını aşağıdakı kimi göstərmək olar:

$$Ə_G = \frac{D_{10}}{D_1}$$

Burada D_1 və D_{10} əhalinin 10% ən kasıb və 10% ən varlı təbəqələrinin gəlirlərinin ümumi məbləğini göstərir.

5. Cinni əmsalı - Bu əmsaldan əhalinin gəlirlərinin bölgüsündəki qeyri-bərabərlik dərəcəsini səciyyələndirmək üçün istsfadə olunur.

Cinni əmsalı ($Ə_L$) aşağıdakı düstur üzrə hesablanır:

$$Ə_L = \sum p_i q_{i+1} - \sum p_{i+1} q_i$$

Burada P_i- i-ci qrupdakı maksimal səviyyədən yüksək gəliri olmayan əhalinin xüsusi çəkisini

q_i- bütün əhalinin tərkibində i-ci qrup gəlirlərinin artan yekunla hissəsini göstərir.

Bu əmsal 0-dan 1-dək qiymətlər ala bilər. Əmsalın qiyməti 0-dan 1-ə nə qədər çox yaxınlaşarsa gəlirlər də əhalinin ayrı-ayrı qrupları arasında bir o qədər çox təmərküzləşmiş hesab olunur.

Aşağıdakı mə'lumata nəzər salaq (24-cü cədvəl).

Bu mə'lumata əsasən R_i-ni hesablayaq:

R_1=0,208

R_2=0,208+0,212=0,420

R_3=0,420+0,172=0,592

və bu qayda ilə

R_8=1,0 olacaqdır.

Gəlirlərin bölünməsindəki qeyri bərabərliyi qrafik şəklində əks etdirmək üçün Lorens əyrisindən istifadə olunur. Lorens əyrisini qurmaq üçün absis və ordinat oxları üzərində 0-dan 100-ədək faiz şkalası yerləşdirilir. Sonradan absis oxu üzərində gəlirlərin müvafiq tezliyi, ordinat oxu üzərində isə variantların gəlirlərinin nisbi tezliyinə


24-cü cədvəl

1997-ci ilin yanvar-aprel aylarında bir nəfərə görə hesablanmış orta aylıq pul gəlirlərinin həcminə görə Rusiya Federasiyası əhalisinin bölüşdürülməsi

Bir nəfərə düşən orta aylıq pul gəlirləri, min rubl.	Milyon nəfər	Yekuna görə %-lə
400,0 - dək	30,6	20,8
400,1-600,0 - dək	31,3	21,2
600,1-800,0 - dək	25,3	17,2
800,1-1000,0 - dək	18,2	12,3
1000,1-1200,0 - dək	12,6	8,5
1200,1-1600,0 - dək	14,6	9,9
1600,1-2000,0 - dək	7,0	4,8
2000-dən yuxarı	7,9	5,3
Cəmi	147,5	100

Cədvəl «Statistiçeskoe obozrenie» jurnalının 1997-ci ildə çıxan 2-ci nömrəsindən götürülmüşdür (səh. 68).

hasillərinin cəmini əks etdirən ədədi yerləşdirirlər. Əlamətin (gəlirlərin) bərabər bölgüsü zamanı müvafiq nöqtələri birləşdirən ədəd kvadratın aşağı sol küncü ilə yuxarı sağ küncünü birləşdirən diaqonalın üstünə düşəcəkdir. Qeyri-bərabər bölgü zamanı isə (yə'ni faktiki bölgüyə uyğun) əlamətin (gəlirlərin) təmərküzləşmə səviyyəsini əks etdirən «təmərküzləşmə xətti» adlı əyri alınacaqdır.



Şəkil 3. Lorens əyrisi

«Təmərküzləşmə xəttinin» diaqonaldan kənarlaşması təmərküzləşmənin dərəcəsini əks etdirəcəkdir.

Lorens əyrisinə görə Cinni əmsalını da hesablamaq olar. Bunun üçün bərabər və qeyri-bərabər bölgü xətləri arasından sahəni (S_1) S_1 və S_2 sahələrinin cəminə bölmək lazımdır. Adətən $S_1+S_2=1/2$ olur.

Lorens əyrisinə görə hesablanmış Cinni əmsalı ($Ə_L$) aşağıdakı düstur üzrə hesablanır.

$$Ə_L = \frac{S_1}{S_1 + S_2} = \frac{S_1}{\frac{1}{2}} = 2S_1 = 1 - 2S_2$$

Əhalinin həyat səviyyəsini statistika baxımından öyrənərkən və təhlil edərkən kasıblığın «səviyyəsi» və «dərinliyi» göstəricilərinə diqqət yetirmək lazımdır. Belə halda əvvəlcə istehlakın icazə verilən minimum səviyyəsinin sərhədləri, daha doğrusu yaşayış minimumu müəyyən edilməlidir. Sonradan əhalinin ayrı-ayrı təbəqələrinin faktiki gəlirləri bu göstərici (yaşayış minimumu) ilə müqayisə olunur. Yaşayış minimumuna insanın yaşaması üçün lazım olan qida məhsullarının (kaloriliyi, qida keyfiyyəti nəzərə alınmaqla), qeyri-ərzaq malları və xidmətlərinin minimum dəstinin dəyərini, ən aşağı gəliri olan ailələrin məcburi ödəməli olduqları vergilərin və başqa ödənişlərin məbləğini əhatə edir.

Minimal yaşayış zənbili bütün əhali üzrə və həm də əhalinin ayrı-ayrı qrupları üzrə hesablanır. Məsələn, Rusiyada il ərzində istehlak

olunan çörəyin minimum səviyyəsi bütün əhali üzrə 130,8 kq, 16-59 yaşlı kişilər üçün 177,0 kq, əmək qabiliyyətli yaşda olan qadınlar üçün 124,9 kq, pensiyaçılar üçün 119 kq, 0-6 yaşlı uşaqlar üçün 64,4 kq və 7-15 yaşlı uşaqlar üçün isə 112,3 kq müəyyən edilmişdir. İstehlakın quruluşunda mövcud olan fərqlər «İstehlak səbətinin» dəyərinin ayrı-ayrı ərazilər üzrə də fərqlənməsinə səbəb olur.

«İstehlak səbəti»nin dəyərini müəyyən etmək üçün ora daxil edilən hər bir məhsul üzrə istehlak normativinin həcmini onun orta qiymətinə vurmaq lazımdır. Yaşayış minimumuna daxil olan qeyri-ərzaq malları və xidmətlərin həcmini, habelə vergilərin və başqa məcburi ödənişlərin məbləğini müəyyən etmək üçün əhalinin ən az tə'min olunmuş təbəqəsinin 10%-li seçmə müşahidəsinin mə'lumatlarından istifadə olunur.

Hər nəfərə düşən gəlirlərin orta səviyyəsinə görə bölgüyə əsasən bütün əhalinin tərkibində yaşayış minimumundan aşağı olan əhalinin xüsusi çəkisini müəyyən edirlər. Rusiyada gəliri minimum yaşayış səviyyəsindən aşağı olan əhalinin xüsusi çəkisi 1992-ci ildə 33,5%, 1994-cü ildə 22,4% və 1996-cı ildə 21,6% olmuşdur (bax, "Mgnnjş v sjpmar", Ygniva 1997, səh.65-66).

Kasıb əhalinin gəlirlərinə dair mə'lumata əsasən "Gəlir defisiti" adlı göstərici hesablanır.

Bu göstərici əhalinin yaşayış minimumunun səviyyəsindən çatmayan gəlirlərinin məbləğinin cəminə bərabərdir. 1995-ci ildə Rusiyada gəlir defisiti 36 trilyon rubla (gəlirlərin ümumi həcminin 3%-nə) bərabər olmuşdur.

Konkret ölkədə kasıblığın səviyyəsinin dinamikasını təhlil etmək üçün aşağıdakı iki göstəricidən istifadə oluna bilər:

1. Kasıblığın dərinliyi indeksi

$$J_{kd} = \frac{1}{N}\sum_{i=1}^{n}\left(\frac{C_{min\cdot i} - D_i}{C_{min\cdot i}}\right)$$

2. Kasıblığın kəsginliyi indeksi

$$J_{k\cdot k} = \frac{1}{N}\sum_{i=1}^{n}\left(\frac{C_{min\cdot i} - D_i}{C_{min\cdot i}}\right)^2$$

Burada N - tədqiq edilən ev təsərrüfatlarının ümumi sayını;

n - gəliri yaşayış minimumundan aşağı olan ev təsərrüfatlarının sayını;

i - onların sıra nömrəsini;

$S_{min\,i}$ - i-ci ev təsərrüfatında olan əhalinin cins-yaş tərkibini nəzərə

almaqla hesablanmış yaşayış minimumunun hər nəfərə görə hesablanmış orta səviyyəsini;

D_i - i-ci ev təsərrüfatının bir nəfərə görə hesablanmış orta gəlirini göstərir.

ABŞ-da kasıblığın səviyyəsi və gəlirlərin bölgüsünün bərabərliyini təhlil etmək üçün "ekvivalentlik şkalası" adlı göstərici də hesablayırlar. Bu göstəricinin əsasında müxtəlif ev təsərrüfatı qruplarının ərzaq mallarının minimum dəstinə məsrəflərinin qiyməti durur. 60-cı illərin əvvəllərində ABŞ-da aparılmış müşahidəyə əsasən Mediana ailəsi öz gəlirlərinin 30%-ni ərzaq mallarının alınmasına xərcləyirmiş. Bu mə'lumata əsasən kasıb ailənin gəlirini müəyyən etmək üçün ev təsərrüfatlarının müxtəlif qruplarında ərzaq malları dəstini dəyərini üçə vurmaq lazımdır. Bu göstəricidən Alman statistikasında da istifadə olunur.

§10.5 Əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəriciləri

İrəlidə qeyd edildiyi kimi yuxarıdakı göstəricilərə əsasən dünya miqyasında əhalinin həyat səviyyəsini ölçmək və regionlar üzrə onu müqayisə etmək praktiki cəhətdən qeyri-mümkündür. Bununla əlaqədar olaraq göstərilən problemin həlli ümumiləşdirici göstəricinin (və ya göstəricilərin) işlənib hazırlanmasını tələb edir. Bu məsələnin mübahisəli və diskusion xarakterini nəzərə olaraq həyat səviyyəsinin ölçülməsi üçün təcrübədə işlənən və müəyyən elmi maraq doğuran göstəricilərdən bə'zilərinin üzərində dayanaq.

Hər bir cəmiyyətin rifahını müəyyən edən amil ölkənin iqtisadi inkişaf səviyyəsidir. Buna görə də iqtisadiyyatın inkişafının əsas indikatorları həyat səviyyəsinin ümumiləşdirici göstəriciləri kimi istifadə olunur. Buraya ilk növbədə ölkənin ümumi daxili məhsulu (ÜDM), ümumi milli gəlir (ÜMG) və xalis sərəncamda olan milli gəlir (XSMG) göstəriciləri aid edilir.

Həyat səviyyəsini, onun dinamikasını və regionlar üzrə müqayisəsini həyata keçirmək üçün real ifadədə (sabit qiymətlərlə) əhalinin hər nəfərinə düşən ÜDM, ÜMG və XSMG göstəricilərindən istifadə olunur. Beynəlxalq müqayisələri apararkən bu göstərici valyutaların alıcılıq qabiliyyəti paritetinə əsasən dollarla hesablanır.

Həyat səviyyəsinin yuxarıda adı çəkilən ümumiləşdirici dəyər göstəricilərinin ən ciddi qüsurlarından biri həyat səviyyəsi ilə əlaqədar olmayan bə'zi ünsürləri öz tərkibinə daxil etmələridir. Məsələn, ÜDM ordunun, dövlət aparatının və sairənin saxlanması xərclərini öz tərkibinə daxil edir. Buna görə də əhalinin rifahı səviyyəsini qiymətləndirmək üçün natural göstəricilərdən istifadə etmək təklif olunur. Əhalinin

hər nəfərinə düşən natural göstəricilərlə bir yaşadək uşaqların ölümü və qarşıdakı ömrün orta müddəti göstəriciləri arasında sıx əlaqə vardır.

Müasir statistika nəzəriyyəsi və təcrübəsi ictimai rifahın səviyyəsini ölçmək üçün müxtəlif ümumiləşdirici göstəricilərdən istifadə etsə də, həyat səviyyəsini əks etdirən vahid göstərici hazırlamaq məsələsi qarşıda duran əsas problemlərdən biri olaraq qalır. Belə göstəricilərdən biri də BMT-nin inkişaf proqramının müəllifləri tərəfindən 1995-ci ildə təklif olunmuş insan potensialının inkişafı indeksidir (İPİİ). İPİİ həyat səviyyəsinin mühüm cəhətlərini əks etdirən üç göstəricini (qarşıdakı ömr müddətinin gözlənilən orta müddəti, təhsilin əldə edilməsi səviyyəsi və əhalinin hər nəfərinə düşən ÜDM) sintezindən alınmış törəmə göstəricidir.

İPİİ yuxarıda göstərilən üç göstəricinin indekslərindən hesablanmış orta hesabı kəmiyyətdir. Hər göstəricinin indeksi aşağıdakı düsturla hesablanır:

$$Ji = \frac{Xi - Xi\min}{Xi\max - Xi\min}$$

Burada Xi – i-ci göstəricinin faktiki qiymətini;

$Xi\min$ və $Xi\max$ i-ci göstəricinin minimum və maksimum qiymətlərini göstərir.

Uşaq doğulan zamanı qarşıdakı ömrün müddətinin gözlənilən orta müddəti indeksi (J_1) hesablanarkən ömrün minimum müddəti 25 ilə, maksimum isə 85 ilə bərabər götürülür:

$$J_1 = \frac{X_1 - 25}{85 - 25}$$

Təhsilin əldə edilmiş səviyyəsi indeksi (J_2) aşağıdakı iki subindeksdən hesablanmış çəkili hesabı orta kəmiyyətin düsturuna əsasən müəyyən edilir:

1. Yaşlı əhali arasında savadlılıq indeksi. Bu indeksi (i_{21}) hesablayarkən çəki $\frac{2}{3}$ - yə bərabər götürülür.

2. İbtidai, orta və ali məktəblərdə oxuyanların yekun xüsusi çəkisi indeksi (i_{22}). Bu indeksi hesablayarkən çəki $\frac{1}{3}$ – ə bərabər götürülür:

$$J_2 = i_{21} \cdot \frac{2}{3} + i_{22} \cdot \frac{1}{3}$$

Yaşlı əhali (15 yaşlı və böyüklər) arasında savadlıq indeksini

hesablayarkən $X_{i\min}$ vahidə, $X_{i\max}$ isə 100%-ə bərabər götürülür.

Oxuyanların yekun xüsusi çəki indeksini hesablayarkən yaşı 24-dən az olan gənclər götürülür. Burada da hissənin kənar həddini əvvəlki indeksdə olduğu kimi 0 (sıfır) və 100%-ə bərabər götürülür.

İPİİ-nin hesablanmasını 1995-ci ildə BMT-nin inkişaf proqramı çərçivəsində ona təqdim olunmuş "İnsanın inkişafına dair hesabat"ın mə'lumatlarını əsaslı nəzərdən keçirək. Həmin hesabatda göstərilirdi ki, 1992-ci ildə dünya üzrə bütövlükdə bir nəfərə düşən ÜDM-in orta həcmi 5120 dollar (x^1_3=5120), minimum həddi 100 dollara, maksimum səviyyəsi isə 5448 dollara bərabər olmuşdur.

Adı çəkilən hesabatda Ukraynaya dair aşağıdakı mə'lumat verilmişdir:

1. Doğulan uşağın gözlənilən orta ömür müddəti (x_1) - 69,4 il
2. Yaşlı ahalinin savadlılıq səviyyəsi (x_{21}) - 95 %
3. İbtidai,orta və ali məktəblərdə oxuyanların xüsusi çəkilərinin cəmi (x_{22}) - 70 %
4. Milli valyutanın alıcılıq qabiliyyəti paritetinə əsasən əhalinin hər nəfərinə düşən real ÜDM (x_3) - 5010 dollar

Bu mə'lumata əsasən irəlidə adı çəkilən göstəriciləri hesablayaq:

1. Gözlənilən ömrün orta müddəti indeksi (Y_1)

$$Y_1 = \frac{69.4 - 25}{81 - 25} = 0.74$$

2. Savadlılıq indeksi (Y_{21})

$$Y_{21} = \frac{95 - 0}{100 - 0} = 0.95$$

3. Oxuyanların xüsusi çəki indeksi (Y_{22})

$$Y_{22} = \frac{70 - 0}{100 - 0} = 0.70$$

4. Təhsil səviyyəsi indeksi (Y_2)

$$Y_2 = 0.95 \cdot \frac{2}{3} + 0.70 \cdot \frac{1}{3} = 0.87$$

5. ÜDM indeksi (Y_3)

$$Y_3 = \frac{5010 - 100}{5448 - 100} = 0.92$$

6. İnsan potensialının inkişafı indeksi (Y_{ipii})

$$Y_{ipil} = \frac{(0.74 + 0.87 + 0.92)}{3} = 0.84$$

olacaqdır.

İPİl-nin hesablanma metodologiyası BMT ekspertləri tərəfindən təkmilləşdirilməkdədir. Onun qurulması zamanı göstəricilərin, habelə çəkiləri, istifadə olunan əmsalların seçilməsi məsələləri mübahisəli olduqları üçün diskussiya edilməkdədir.

§10.6.Həyatın dəyəri indeksi

Pullu xidmətlərin qiymətləri və tarifləri indekslərini hesablamaq üçün statistika orqanları1989- cu ildən sonra hər ay təmsilçi əmtəələr və xidmətlər (650 mövqe) üzrə qiymətlərin qeydiyyatını keçirir. Lakin qeyd etmək lazımdır ki, qeydə alınanlar əmtəələrin satışı zamanı alıcıya təklif olunan qiymətlərdir. Bu qiymətlər isə bir çox hallarda alış qiymətlərindən fərqlənir. Ümumi istehlak qiymətləri indeksi aşağıdakı düstur üzrə hesablanır:

$$Y_r = \frac{\sum q_0 p_0 i_p}{\sum q_0 p_0}$$

Həyatın dəyəri indeksi adlanan bu indeks qiymətlərin dəyişdiyi və istehlakın səviyyəsinin əsas dövr səviyyəsində qaldığı şəraitdə hesabat dövründə əsas dövrə nisbətən ərzaq malları, əmtəələr və xidmətlərin əldə edilməsinə əhalinin nə qədər artıq (və ya az) vəsait xərclədiyini göstərir. Belə hesablamalar təhlil aparılan dövrdə istehlak xərclərinin tərkibində ciddi dəyişiklik baş verdikdə daha düzgün nəticə verir.

Həyatın dəyəri indeksi dünyanın bir sıra inkişaf etmiş ölkələrində həyatın müəyyən (standart) səviyyəsini tə'min edə biləcək dəyərin zaman daxilində necə dəyişməsini öyrənmək üçün də hesablanır. Həyatın dəyəri indeksi ya sabit tərkibli «əmtəə zənbilinin» dəyərinin dəyişməsi üzrə, ya da əmtəələrin qiyməti və xidmətlərin tariflərindən çəkili hesabı orta kəmiyyət kimi hesablanılmış qruplu indekslərindən hesablanır. Bunlar hamısı istehlak xərclərinin quruluşu məqsədli və təsadüfi qaydada seçilmiş ev təsərrüfatı büdcəsinin tədqiqatının nəticələrinə əsaslanır.

Həyatın dəyəri indeksini hesablayarkən statistika uçotunun vahidi kimi ailə götürülür. Ailə məsrəflərinin tərkibinə qida məhsulları, paltar, ayaqqabı, yanacaq, elektirik enerjisi, təhsil, tibb, nəqliyyat və kommunal xidmətlər üçün ödənişlər, mənzil haqqı, uzun müddət xidmət edən əmtəələr və sair üçün xərclər daxil edilir. İstehlak dəstinin tərkibinin orta aylıq məsrəflərinin ayrı-ayrı məsrəf maddələri üzrə uçotu metodikası, coğrafi rayonlar və sosial quruplarına görə informasiya mənbələrinin differensiallaşdırılması dünyanın müxtəlif

ölkələrində eyni deyildir. Əmtəələrin qiyməti və xidmətlərin tariflərinə dair mə'lumatlar bilavasitə müşahidə yolu ilə xüsusi tə'lim keçmiş işçilər tərəfindən toplanılır. Belə mə'lumatları toplayarkən bə'zi əmtəələr üzrə müşahidənin müxbir üsulundan, habelə rəsmi statistika orqanlarının mə'lumatlarından istifadə olunur. Dünyanın bir çox ölkələrində həyatın dəyəri indeksini qurarkən kifayət qədər uzun müddət ərzində qüvvədə olan sabit çəkilərdən istifadə olunur. Buna görə də belə çəkiləri seçərkən normal iqtisadi şəraitin mövcudluğunu və qiymətlərin dəyişmə meylinin nisbətən sabit olduğu dövr götürülməlidir.

§ 10.7. Gəlirlərin indekləşdirilməsi (indeksasiyası)

İnflyasiyanın tə'siri nəticəsində əhalinin gəlirlərinin (əmək haqqı, təqaüd, yardım və s) alıcılıq qabiliyyətinin aşağı düşməsinin qarşısını almaq üçün onların indeksləşdirilməsi üsulundan istifadə olunur. İndeksləşdirmə qiymətlərin yüksəlməsindən asılı olaraq nominal gəlirlərin artırılması deməkdir.

Gəlirlərin indeksləşdirilməsi sistemi 60-70-ci illərdə Qərbi Avropa ölkələrində yaranmışdır. Adətən indeksləşdirmə ümumdövlət səviyyəsində (müvafiq qanunvericiliyə əsasən) və ayrıca müəssisə (kompleks müqavilə yolu ilə) səviyyəsində həyata keçirilir. İndeksasiya sistemi gəlirlərə ən aşağı səviyyədən ən yüksək səviyyəyədək differensial yanaşmanı tələb edir. Sənayecə inkişaf etmiş ölkələrin çoxunda indeksləşdirmə əmək qabiliyyətli əhalinin az hissəsinə (məsələn, ABŞ-da muzdlu işçilərin 10%-dən bir qədər çoxunu) əhatə edir. Bununla yanaşı sabit gəlirə malik əhalinin (pensyaçılar və s) həyat səviyyəsinin saxlanmasında indeksləşdirmədən geniş istifadə olunur. İndeksləşdirməni apararkən (xüsusilə də inflyasiya yüksək olduqda) təmsilçi əmtəə və xidmətlərin düzgün seçilməsinin böyük əhəmiyyəti vardır. İstehlak qiymətləri indeksi hesablanarkən dövlət orqanları ilə həmkarlar ittifaqı arasında ən çox müqavilə mənzil haqqına, ərzağa, paltara, ayaqqabıya və istirahətə məsrəflərin nəzərə alınıb alınmaması ətrafında aparılır. Belə halda nəzərdə tutulur ki, istehlak qiymətləri indeksinin artımı adətən həyatın dəyərinin artımını aşağı salır, ya da istehlak büdcəsinə məsrəflərin xüsusi çəkisini azaldır.

Beynəlxalq təşkilatların tövsiyyələrinə əsasən pərakəndə satış qiymətləri 6%-dən yüksək olduqda indeksləşdirmə aparılmalıdır. Lakin dünyanın ayrı-ayrı ölkələrində bu tədbir müxtəlif qaydada aparılır. Məsələn, Rusiya pul gəlirlərinin indeksləşdirilməsi 24 oktyabr 1991-ci il tarixli qanuna əsasən həyata keçirilir. Bu qanuna əsasən yalnız büdcə təşkilatı işçilərinin əmək haqqı, habelə təqaüdlər, və yardımlar indekləşdirilir. Məşğuliyyəti olan başqa əhali qrupları üçün isə yalnız

minimum əmək haqqı tənzim edilir. Bu qanuna əsasən minimum əmək haqqının 1.5 səviyyəsindən gəlirlər tam, qalanları isə onun yarısı qədər kompensasiya edilir. Lakin inflyasiyanın səviyyəsi yüksək olduğuna görə bu qanun həyata keçirilmədi. 1992-1996-cı illərdə əhalinin inflyasiyanın tə'sirindən qorumaq üçün müəyyən vaxtdan bir əmək haqqının, təqaüdlərin və sosial yardımların səviyyəsi müxtəlif dərəcədə yüksəldildi. İnflyasiyanın səviyyəsi bir qədər aşağı düşdüyünə görə 1996-cı ildə indeksləşdirmənin həyata keçirilməsinə dair yeni qanun qəbul edildi. Bu metod MDB ölkələrində də (o cümlədən Azərbaycan Respublikasında da) tətbiq edilir.

İndeksəşdirmə iqtisadi baxımdan ciddi qüsurlara da malikdir. Bu tədbirin həyata keçirilməsi əhalinin aşağı və yüksək gəlirə malik hissələri arasındakı fərqi azaltmaqla yanaşı onların daha gərgin əməyə can atmalarını səngidir. Bundan əlavə indeksləşdirmə antinflyasiya tədbirlərini həyata keçirməyə də imkan vermir. Bütün bu səbəblərə görə 80-cı illərdə Qərbi Avropanın bə'zi ölkələrində indeksləşdirmə sistemini yenidən qorumağa cəhd göstərildi. Bu ölkələrdə indeksləşdirmə müvəqqəti olaraq dayandırıldı,qiymətlərin artmasının yuxarı hədləri müəyyən edildi. Fərdi gəlirlərin qorunması istiqamətində aparılan sosial siyasətin hazırlanmasında əhalinin kasıb təbəqələrinin qorunması böyük əhəmiyyətə malikdir. Əhalinin bu təbəqəsinin sosial müdafiəsində pul və natural yardımlar sisteminin inkişafı həlledici rol oynayır. Belə sistem bazar iqtisadiyyatına keçmiş bütün ölkələrdə mövcuddur.

Ayrı-ayrı şəxslərin sosial yardım alan əhali kateqoriyasına daxil olmasını müəyyən etmək üçün kasıblıq səviyyəsi göstəricisindən istifadə olunur. Sosial praktikada kasıblıq yaşayış minimumunun köməkliyi ilə ölçülür. Bu göstərici iki formulada ifadə olunur:

a) sosial minimum,

v) fizioloji minimum.

Sosial minimum fizioloji tələblərin ödənilməsi norması ilə yanaşı həm də minimal sosial və mənəvi tələblərin ödənilməsi xərclərini də əhatə edir. Bu isə cəmiyyətdə qəbul edilmiş minimum həyat səviyyəsini saxlamaq üçün lazım olan əmtəə və xidmətlərin dəyərini göstərir. Həm də belə halda nəzərdə tutulur ki, kasıblar pis və ya yaxşı normal mənzil şəraitinə malikdirlər.

Fizioloji minimum yalnız əsas fizioloji tələblərin ödənilməsinə və əsas xidmətlərin ödənilməsi xərclərini əhatə edir. Belə halda paltar, ayaqqabı və başqa qeyri ərzaq mallarının alınması nəzərdə tutulur.

MDB ölkələrində tətbiq edilən (1992-ci il) fizioloji minimumu dəstinə 19 əsas ərzaq məhsulu daxil edilmişdir. Bu məhsullar üzrə fizioloji normaların səviyyəsi əmək qabiliyyətli yaşda olan kişinin illik

istehlak normasına əsasən müəyyən edilir. Buraya çörək (178,7 kq), yarma (18,1 kq), vermişel (7,3 kq), qənd (24,8 kq), bitgi yağı (10 kq), heyvan yağı (3,6 kq), mal əti (42 kq), kolbasa (3,3 kq), süd (184,3 kq), xama (4,2 kq), pendir (2 kq), yumurta (183 ədəd), kartof (146 kq), təzə kələm (29,8 kq), baş soğan (10,2 kq), alma (11 kq), və siqaret (96 qutu).

Minimal istehlak büdcəsi (MDB) insanın normal həyat fəaliyyətini tə'min etmək üçün gərək olan sosial vəsait minimumudur. MİB-nin 46,1%-i qida,39%-ni qeyri ərzaq malları, 13,2%-ni xidmətlər, 2,7%-ni vergilər təşkil edir.

Gəlirlərin yaşayış minimumuna uyğunluq dərəcəsindən asılı olaraq sosial yardım alacaq hüququna malik olan əhali əhali qurupu müəyyən edir.

§10.8 Əhalinin həyat səviyyəsinə dair statistika mə'lumatlarının mənbələri

Əhalinin həyat səviyyəsini əks etdirən göstəricilərin hesablanması geniş və dəqiq informasiyanın olmasını tələb edir.

Milli statistikaların təşkili və təkmilliyində mövcud olan fərqlər bütün ölkələr üzrə tələb olunan mə'lumatların əldə edilməsinə imkan vermir. Bir qayda olaraq hər bir ölkənin ərazisi, əhalisi və başqa ümumi göstəricilərin əldə edilməsi çətinlik törətmir. Əhalinin müxtəlif qrupları üzrə həyat səviyyəsini əks etdirən informasiyanın əldə edilməsi isə xeyli çətindir. Müxtəlif ölkələrdə ilkin və statistika uçotunun təşkilində və metodologiyada mövcud olan fərqlər həyat səviyyəsinə dair ekspertlər tərəfindən təklif edilən göstəricilərin hesablanması üçün lazım olan mə'lumatın hamısını əldə etməyə imkan vermir.

BMT ekspertləri belə vəziyyətdən çıxış yolunu müxtəlif siyahıyaalmaların və birdəfəlik müşahidələrin keçirilməsində görürlər. Lakin siyahıyaalmalar arasındakı vaxt müddətinin böyüklüyü (məsələn, əhali siyahıyaalmaları, təqribən hər on ildən bir keçirilir). Həyat səviyyəsinin cari təhlilini aparmağa imkan vermir. Belə halda ən yararlı üsul seçmə üsulunun tətbiqidir.

Son vaxtlarda beynəlxalq statistika təcrübəsində seçmə üsulunun tətbiqinə geniş yer verilir. Bu üsul ev təsərrüfatları büdcələrinin tədqiqində bə'zi xəstəliklərin, mənzil şəraiti, qida məhsulları istehlakının öyrənilməsində müvəffəqiyyətlə tətbiq edilir.

BMT ekspertlərinin tövsiyyələrinə əsasən gələcəkdə statistikanın bir çox sahələrində seçmə tədqiqatı başdan-başa uçotu əvəz etməlidir. Azərbaycan Respublikası DSK-ndə bu sahədə əməli fəaliyyətə başlanmışdır.

Nəzarət üçün suallar:

1.Əhalinin həyat səviyyəsi dedikdə nə başa düşülür?
2.Bu sahədə beynəlxalq statistikanın əsas vəzifələri hansılardır?
3.Həyat səviyyəsi statistikasının göstəriciləri sisteminə hansı göstəricilər daxildir?
4.Əhalinin həyat səviyyəsini əks etdirən ən mühüm göstəricilər hansılardır?
5.Nominal və sərəncamda olan gəlir göstəriciləri necə hesablanır?
6.Real gəlir indeksi necə qurulur?
7.Real əmək haqqı indeksi necə qurulur?
8.Həyatın dəyəri indeksi necə hesablanır?
9.İnsan potensialının inkişafı indeksi necə hesablanır?
10.Gəlirlərin diferensiallaşdırılmasının desil əmsalı necə hesablanır?
11.Fonder əmsalı necə hesablanır?
12.Cinni əmsalı necə hesablanır?
13.Lorens əyrisi necə qurulur?

XI FƏSİL
PUL-KREDİT VƏ MALİYYƏ STATİSTİKASI

§11.1. Pul-kredit və maliyyə statistikasının vəzifələri

Beynəlxalq valyuta fondunun (BVF) qənaətinə görə son vaxtlarda beynəlxalq aləmdə və ayrı-ayrı ölkələrdə baş verən ictimai, iqtisadi və siyasi proseslər pul-kredit və maliyyə statistikasının təşkili və müstəqil tədqiqat aparmaq üsullarının yeni şəraitə uyğun qurulmasını zəruri etdi. Zamanın tələbi ilə indi elə statistika üsulları hazırlanmalıdır ki, onlardan iqtisadi dəyişikliklər baş verdiyi halda və müxtəlif şəraitdə istifadə etmək mümkün olsun. Lakin belə halda statistika mə'lumatları vahid sxem üzrə toplanmalı, iqtisadi siyasətlə məşğul olan şəxslərin və idarələrin şəbəkəsi tərəfindən istifadə edilə bilməsi üçün yararlı olmalı və habelə beynəlxalq müqayisələr aparmağa imkan verməlidir.

BVF-nun hazırladığı "Dövlət Maliyyə statistikasının aparılmasına dair rəhbər tutulan əsasnamə"yə görə pul-kredit və maliyyə statistikasına dair statistika mə'lumatlarının toplanılmasında əsas məqsəd ölkənin maliyyə və iqtisadi siyasətini hazırlamaq, bu siyasətin gedişini müşahidə etmək, habelə makroiqtisadi təhlil aparmaq üçün informasiya əldə etməkdir.

Pul-kredit və maliyyə aqreqatları ilə dövlətin apardığı iqtisadi siyasət (və eləcə də maliyyə siyasəti) arasındakı qarşılıqlı əlaqə həm də nisbətən sadə və həm də kifayət qədər mürəkkəb ola bilər. Onların qarşılıqlı hərəkəti aşağıdakı kimi ola bilər:

1.Siyasi tədbirlərin maliyyə dəyişkənlərinə birbaşa tə'siri ilə;
2.Maliyyə siyasətinin həyata keçirdiyi dolayı tədbirlərlə (məsələn, mübadilə kursunu dəyişməklə);
3.Qeyri-maliyyə siyasətini həyata keçirməklə (məsələn, dövlət tənzimlənməsi və vergi-büdcə siyasətində dəyişiklik etməklə);

Maliyyə statistikasının mə'lumatları aşağıdakı məqsədlər üçün istifadə oluna bilər:

1.Maliyyə sferasında və bütövlükdə iqtisadiyyatda cari vəziyyəti qiymətləndirərkən;
2.İqtisadi siyasətin nəzərdə tutulan tədbirlərini kəmiyyətcə müəyyənləşdirmək istəyərkən;
3.Aparılan tədbirlərin aralıq məqsədli tədbirlərə və iqtisadi siyasətə tə'sirini müşahidə edərkən;
4.İqtisadi təhlil apararkən, iqtisadi modellər qurarkən, hipotezləri yoxlayarkən və proqnozlar tərtib edərkən;

Müxtəlif ölkələrdə maliyyə əlaqələri fərdi xüsusiyyətlərə malik olur və zaman keçdikcə dəyişirlər. Buna aşağıdakılar səbəb ola bilər:

—Maliyyə instrumentləri və idarəçiliyi sahəsindəki yeniliklər;

—Dövlət tənzimlənməsində müxtəlif sistemlərin, iqtisadi siyasətin, valyuta rejiminin, bazarın quruluşu və milli maliyyə bazarlarında rəqabətin mövcudluğu;

—İqtisadiyyatın sikkələşdirməsi ilə əlaqədar və ya maliyyə vasitəçilərinin və fəaliyyətinin daralması və rəsmi qeydə alınmış vasitəçi təşkilatların əməliyyatlarının genişlənməsi nəticəsində maliyyə fəaliyyətinin ümumi şəkildə dəyişməsi;

—Maliyyə fəaliyyətinin kompüterləşdirilməsi, informasiyanın işlənilməsi və başqasına verilməsi metodlarının təkmilləşdirilməsi sahələrində texniki tərəqqi;

—İnformasiyalar və transmilli sahələrə çəkilən xərclər, risqin və mənfəətin səviyyəsinin qarşılıqlı razılaşdırılmasına dair qərarların və aktivlər portfelinin idarə olunması ilə əlaqədar maliyyə aktivlərinə yaranmış tələbatın dəyişməsi;

—Maliyyə bazarı, əmtəə, xidmətlər və əmək bazarı sahəsində başqa ölkələrlə inteqrasiya dərəcəsi;

—Beynəlxalq əməliyyatların keçirilməsi, beynəlxalq aktivlərə, əmtəələrə və xidmətlərə üstünlük verilməsi ilə əlaqədar xərclərin yaranması;

Maliyyə siyasətinin tə'sirliliyi və maliyyə statistikasının gərəkliliyi, onların iqtisadi siyasətin son məqsədinə tə'siri dərəcəsi ilə əlaqədardır. Pul-kredit və maliyyə siyasətinin əsas vəzifələri aşağıdakılarla əlaqədardır:

—İnflyasiyanın sür'əti ilə;

—İqtisadi yüksəliş və məşğulluqla;

—Tə'diyyə balansı ilə;

—Ayrı-ayrı sektorların dinamik göstəriciləri (dövlət borcu, xüsusi sektorun krediti və s.) ilə;

—Maliyyə bazarının səmərəliliyi ilə;

—Ölkə üzrə bütövlükdə iqtisadi sistemin e'tibarlılığının və sabitliyinin tə'min edilməsi vəzifələri ilə;

Həyata keçirilən pul-kredit siyasətinin səmərəliliyini qiymətləndirmək üçün indikatorlardan və məqsədli aralıq göstəricilərinə əsaslanırlar. "İndikator" dedikdə bu və ya digər iqtisadi göstəricinin dinamikası haqqında və ya aparılan siyasi tədbirin tə'siri haqqında informasiya verən maliyyə dəyişkəni başa düşülür. Məsələn, banklar tərəfindən verilən ssudanın həcminin azaldılması pul-kredit siyasətinin sərtləşdirilməsi üzrə tədbirlərin səmərəliliyinin indikatoru ola bilər.

Məqsədli aralıq göstəricisi elə makroiqtisadi dəyişkən kateqoriyadır ki, siyasi tədbirlərinin köməkliyi ilə ona tə'sir göstərmək olar və bu da

öz növbəsində başqa dəyişkən makroiqtisadi kateqoriyalara tə'sir edə bilər. Məsələn, dövlət tənzimlənməsi orqanları pul kütləsinin artım sür'ətinin azalmasını tənzim edən tədbir (aralıq məqsədli göstərici) həyata keçirə bilər. Belə halda onlar belə hesab edirlər ki, bu tədbirlər öz növbəsində inflyasiyanın aşağı düşməsinə gətirə bilərlər.

İndikatorların və məqsədli aralıq göstəricisinin seçilməsi qismən mə'lumatların dəqiqliyi, əhatəliliyi və vaxtında əldə edilməsindən də asılıdır. BVF-nun yuxarıda adı çəkilən tövsiyyəsinə görə pul-kredit və maliyyə statistikası iqtisadi siyasət instrumentinin nəticələrinin kəmiyyət baxımından ölçülməsini tə'min etməlidir. Buraya bank rezervləri, kreditlər üzrə mərkəzi bankın stavkaları, açıq bazarda əməliyyatların həcmi, vergilər, subsidilər, dövlət orqanlarının başqa vergi-büdcə əməliyyatları, dövlət tənzimləmə orqanları tərəfindən yaradılan qadağalar, güzəştlər və başqa xüsusi şərait, mübadilə kursu və s. aiddir.

§11.2.Pul-kredit və maliyyə statistikasının təşkilat sxemi

BMT BVF - nunun rəhbərlik üçün statistika orqanlarına tövsiyyə etdiyi "Əsasnamə" yə görə statistika aqreqatları daha geniş və ciddi sistem çərçivəsində təqdim edildikdə onların analitik dəyəri də artır. Həmin əsasnaməyə görə pul-kredit və maliyyə statistikasının sxemi dörd mühüm prinsipə əsaslanır.

1.Pul-kredit və maliyyə statistikasının 1993-cü ildə qəbul edilmiş MHS-nin müəyyən etdiyi normalar, tə'riflər və təsnifatlarla uyğunluğu;

2.Pul-kredit aqreqatlarının kəmiyyətcə ölçülməsi üçün "Geniş mə'nada pul kütləsinin xülasəsi" (KMPKX) adlı konkret sxemdən istifadə edilməsi;

3.Maliyyə sektorunu və qeyri-maliyyə sektorlarının maliyyə fəaliyyətini statistik baxımdan daha geniş miqyasda əhatə etmək məqsədilə MHS-nin "Maliyyə-hesabı" və "Maliyyə axını hesabı"ndan istifadə;

4.Beynəlxalq bankların fəaliyyətinə nəzarət etmək məqsədilə Balansarxası törəmə instrumentləri və statistika uçotu məsələləri də daxil olmaqla iqtisadi təhlildə mühüm rol oynayan maliyyə statistikasının bə'zi xüsusi sahələrinin seçmə yolu ilə (dar) əhatəsi.

§11.3 MHS-də "Pul", "Kredit" və "Borc" anlayışları

"Pul", "Kredit" və "Borc" mühüm maliyyə aqreqatlarıdır. Bütövlükdə maliyyə aqreqatları ya maliyyə aktivlərindən, ya da müəyyən qrup tə'sisat vahidlərinin öhdəçiliklərindən tərtib edilir. Maliyyə aktivlərinin həcmi başqa iqtisadi subyektlərin əxlaqına və başqa göstəricilərin dinamikasına tə'sir göstərdikdə tədqiqatçılar üçün müəyyən maraq kəsb edir. Tədqiqatçılar maliyyə aqreqatlarını qurarkən onların başqa iqtisadi göstəricilərlə

əlaqəsini yoxlamağa imkan yaratmağa çalışırlar.

"Pul", "kredit" və "borc" konkret ölkənin şəraitinə əsaslanan emprik anlayışlardır və onlara tə'rif verərkən ölkədə istifadə olunan maliyyə instrumentlərinin, fəaliyyət göstərən maliyyə idarələrinin və ümumi iqtisadi situasiyanın bu tərifdə öz əksini tapmasına çalışırlar.

"Pul" kateqoriyası iqtisadi nəzəriyyədə xüsusi rol oynayır. Adətən "Pul" maliyyə aqreqatı kimi müəyyən edilir. Onun tərkib hissələri əməliyyatları həyata keçirməyə və qiymətliləri likvid formasında saxlamağa imkan yaradır, əmtəə və xidmətlərin dəyər ölçüsü rolunu oynayır və sabit nominal dəyərə malik olur. Pul aqreqatları inflyasiyanı, istehsalın artımı, tə'diyyə balansının vəziyyəti və tədavül kursu kimi anlayışları da daxil etməklə daha mühüm makro-iqtisadi göstəricilərlə də əlaqədar ola bilər. Bundan əlavə dövriyyədə olan pulun miqdarı bir çox hallarda makroiqtisadi siyasətin tə'siri altına düşür ki, bu da dövlət tənzimləmə orqanlarına inflyasiyanın sür"ətinə və başqa makroiqtisadi göstəricilərə tə'sir etmək imkanı verir.

Sahibkarlar istehsal və kommersiya fəaliyyətini həyata keçirərkən öz ölkəsinin (milli) və başqa xarici ölkələrin pulundan istifadə etməli olurlar. Əmtəə istehsalına xas olan pul, tarixi və iqtisadi kateqoriyadır. Lakin pul elə xüsusi növ əmtəədir ki, hamı üçün bu bütün hallarda ekvivalent rolunu oynayır.

Tarixi baxımdan pul həmişə olmamışdır. Mə'lumdur ki, pul yaranandək cinsi (natural) mübadilə mövcud olmuşdur. Bu dövrdə insanlar gündəlik istehlak tə'yinatlı əmtəələrdən (buğda, mal qara, xəz və s.), sonralar zinyət əşyalarından (sırqa, üzük, qolbaq və s.), əmək alətləri (balta, bıçaq), silahdan, qiymətli metallardan və sairədən istifadə etmişlər. Eramızdan əvvəl VII əsrdə metal sikkələr (mis, gümüş, qızıl və s.) kəsilməyə başlandı. Sonralar, əmtəə istehlakının inkişafı ilə əlaqədar gümüş və qızıl sikkələrin kəsilməsinə üstünlük verildi.

İlk kağız pullar Çində 812-ci ildə, Avropada 1661-ci ildə Stoqholmda, Rusiyada isə 1769-cu ildə buraxılmışdır. Pulun qüdrətini tərənnüm etmək üçün dünyanın qabaqcıl elm və mədəniyyət xadimləri müxtəlif obrazlı ifadələrdən istifadə etmişlər. Adam Smit pulu "tədavülün təkəri", K.Marks "ümumi ekvivalent" və məşhur fransız yazıçısı O.Balzak isə "özündən əvvəlki beş hissdən ləzzət almağa imkan verən altıncı hiss" adlandırmışdır. Böyük Azərbaycan şairi M.Ə.Sabir isə yarı ciddi və yarı kinayəli şəkildə olsa da

"Adamı adam eyləyən paradır,
Parasız adamın üzü qaradır"

demişdir.

Minilliklər ərzində pula aid olan konkret instrumentlər dəsti tədricən dəyişmişdir. Müəyyən dövrdə yalnız dövriyyədəki qiymətli

metallardan olan sikkələr pul hesab edilirdi. Sonralar mərkəzi banklar tərəfindən buraxılan pul nişanları pul hesab edildi və onun tərkibinə banklarda olan çek hesabları və tələb olunanadək hesablar da daxil edildi. Daha sonralar bu kateqoriyaya başqa depozitlər və onların əvəzediciləri də daxil edildi. Hal-hazırda dünyanın bütün ölkələrində nəqd pul və likvid depozitləri pulun tərkibinə daxil edilir. Lakin belə halda bir çox ölkələrdə bir sıra müxtəlif likvid maliyyə instrumentlərini də pul anlayışına daxil edirlər. Bə'zi hallarda xarici valyutalarda ifadə olunan instrumentlər də "pul" kateqoriyasına daxil edilirlər.

Dünyanın müxtəlif ölkələrində pul aqreqatlarını qurmaq üçün pulun yerli şəraiti nəzərə alan və onu daha düzgün təhlil etməyə imkan verən bir neçə tə'rifindən istifadə olunur.

Gələcəkdə pulun elektron formasını da daxil etməklə yeni instrumentlərinin yaranması da gözlənilir. Bu anlayışa hansı instrumentlərin daxil edilməsindən asılı olmayaraq pul dəyər ölçüsü, qiymətlilərin saxlanma forması və mübadilə əməliyyatlarını asanlaşdırma vasitəsi kimi iqtisadiyyatda mühüm rol oynamışdır.

Müxtəlif ölkələrdə pulun tə'rifi müəyyənləşdirilərkən aşağıdakı çətinliklərlə qarşılaşmaq mümkündür:

1.Ən'ənəvi pulun əvəzedicisi kimi çıxış edə bilən çoxsaylı instrumentlərin mövcudluğu;

2.Maliyyə idarələrinin müxtəlif kateqoriyaları arasındakı sərhədlərin pozulması;

3.Maliyyə bazarında tətbiq edilən yeniliklər nəticəsində pul aqreqatları ilə başqa makroiqtisadi göstəricilər arasındakı sərhədlərin silinməsi.

Bunlardan əlavə ölkələrdə mövcud olan maliyyə sistemlərinin müxtəlifliyi də pul aqreqatlarının müqayisəsini çətinləşdirir. Elə bu səbəblərə görə də BVf-nun tövsiyyə etdiyi son göstərişlərdə pulun hər bir ölkədə mövcud olan idarələri, istifadə olunan instrumentləri, təsərrüfat subyektlərinin aparılmasının başqa modellərini və pulkredit sistemini ümumilikdə əhatə edən tə'rifinə və onun müxtəlif variantlarına rast gəlmək mümkündür.

BVF-nun adı çəkilən göstərişlərində pula "geniş mə'nada" və "dar mə'nada" tə'rif verilir. "Geniş mə'nada" pul kateqoriyası ölkədə mövcud olan şəraiti və tə'sisat vahidlərinin quruluşunu nəzərə almaqla nəqd pulu, likvidlik depozitlərini və depozitlərin yaxın əvəzedicilərini də daxil etməklə maliyyə vasitəçilərinin müəyyən öhdəçiliklər dəstini əhatə edir.

Dünyanın bir çox ölkələrində "dar mə'nada" pul kateqoriyasından istifadə olunur. Bu kateqoriyanın müəyyən analitik dəyərə malik olması nəzərə alınmaqla iqtisadi əməliyyatların keçirilməsində pulun

xüsusi rolu qeyd edilir. Pulun bu cəhətini nəzərə alaraq BVF-nun tövsiyyələrində dəyər ifadəsiylə göstəricilərdən daha geniş istifadə etmək məsləhət görülür.

Statistik anlayış kimi, pul mərkəzi banklar və onlara bənzər başqa idarələr (bə'zi ölkələrdə dövlət idarələri) tərəfindən buraxılmış müəyyən instrumentlərin cəmindən ibarət aqreqatdır. Pul aqreqatları qurularkən ölkənin təşkilati-hüquq sistemi və onun apardığı iqtisadi siyasət nəzərə alınmaqla onların analitik dəyəri tə'min olunur.

Pulun statistik göstəriciləri banklar və maliyyə təşkilatları tərəfindən buraxılan və müəyyən səciyyəyə malik olan likvidlik öhdəçilikləri dəsti kimi müəyyən edilir. Bu idarələr qrupu "Pul sektor-emitenti" adlanır. Pul sektor-emitentlərinə adətən mərkəzi banklar, başqa banklar və bir çox hallarda idarəçilik orqanları daxil edilir. Ölkə daxilində pul sektor-emitentlərinə daxil olmayan və pul aktivlərinə sahib olan tə'sisat vahidləri "pul saxlayanlar" sektorunu təşkil edir. Pulun sektor-emitentlərinin öhdəçilikləri və ya pul saxlayan sektorların maliyyə aktivlərinin dəsti kimi nəzərdən keçirilməsindən asılı olmayaraq onun komponentləri MHS-ndən ayrılmalıdır. Belə ayrılma nəticəsində pul anlayışına daxil olan aktivləri MHS-də ayrıca balansda göstərməklə, sektor-emitentləri və pul saxlayanlar sektorlarını isə MHS-nin sektorları və yarımsektorları mövqeyindən nəzərdən keçirmək imkanı yaranır.

BVF-nun tövsiyyələrinə əsasən vəsaitlərin ssudaya verilməsi, borc, qiymətli kağızların satın alınması və maliyyə aktivlərinin başqa formalarının əldə edilməsi "Kredit" adlanır. Kredit istehlak, kapital qoyuluşları və başqa məqsədlər üçün tə'sisat vahidlərinə verilən vəsaitdir. Buna görə də bu vəsaitlərin həcmi təsərrüfat fəallığının səviyyəsi ilə əlaqələndirilir. Transfertlər də iqtisadi resursların bir tə'sisat vahidlərindən başqasına keçməsini tə'min edir. Həmin vəsaitlər də yuxarıda deyilən məqsədlər üçün istifadə edilə bilər. Lakin belə halda kreditor-borclu münasibətləri yaranmadığına görə transfertlər kredit hesab olunmur.

Pul-kredit məsələlərinin təhlili zamanı əsas diqqət banklar tərəfindən verilmiş kreditlərə yönəldilir. BVF-nun fəaliyyətində və dövlətlərin iqtisadi siyasətinin təhlilində ən geniş istifadə olunan kreditlər ən çox istifadə olunan iqtisadi kateqoriyalardan biridir.

Tə'sisat vahidlərinin götürdüyü öhdəçiliklər "borc" adlanır. Borcu öyrənərkən statistika aşağıdakılara dair informasiyaya istinad edir:

1.İqtisadi fəaliyyəti həyata keçirməkdən ötrü iqtisadi resurslar əldə etmək üçün tə'sisat vahidlərinin götürdükləri borc öhdəçiliklərinin həcmi.

2.Borc öhdəçilikliyi ilə əlaqədar bu və ya başqa sektorların üstünə

düşən maliyyə ağırlığının (yükünün) həcmi.

Bu və ya digər konkret sektorun (banklar, qeyri-maliyyə korporasiyaları, ev təsərrüfatları və s.) maliyyə vəziyyətini təhlil edərkən çox vaxt əsas diqqəti borcların həcminə və uzunmüddətli planda onların ödənilməsi imkanlarına yönəldilir. Statistika ölkənin xarici və daxili borclarını ayrıca öyrənir. Son dövrlərdə korporasiyaların, sektorların və dövlətlərin borclarının həcminin sür'ətlə artımı iqtisadi siyasəti təhlil edərkən "borc" kateqoriyasının potensial əhəmiyyətə malik olduğunu göstərir. Borc statistikası qiymətli kağızlar buraxan və birbaşa borc verən banklar və başqa maliyyə təşkilatları qarşısında öhdəçilikləri geniş əks etdirir.

§11.4 BVF-nun rəhbər tövsiyələrində müəyyən edilmiş statistik normalar

Pul-kredit və maliyyə statistikasının 1993-cü ildə qəbul edilmiş beynəlxalq MHS-i ilə əlaqələndirilməsinin zəruriliyi uçotun aparılması, təsnifatların həyata keçirilməsi və konkret anlayışların tə'rifini dəqiqləşdirmək üçün müəyyən əsas verir. MHS-ndəki hesabların quruluşu pul-kredit statistikasını ümumi MHS-nə, habelə tə'diyyə balansı və dövlət maliyyə statistikası kimi başqa iri miqyaslı makroiqtisadi statistika sistemlərinə daxil etməyə imkan verir. Bunun nəticəsində də statistika fəaliyyətinin aparılmasının səmərəliliyi təlqin edilir və maliyyə fəaliyyətinin iqtisadiyyata tə'sir dərəcəsini təhlil etmək imkanı yaranır.

İndi qüvvədə olan MHS balans uçotunun tam inteqrasiya edilmiş sistemini və əməliyyatları əhatə etmək imkanına malikdir. MHS-də iqtisadi subyektləri sektorlar üzrə qruplaşdırmağa və hər bir sektorun yığımı və kapital qoyuluşuna dair mə'lumatları ayırmaqla imkan yaranır.

Yuxarıda gösətərilən normalar statistika mə'lumatlarının "bazis blokunu" qurarkən istifadə olunur. Bu da ayrı-ayrı sektorların statistikası deməkdir. Bu statistika maliyyə instrumentlərini sektorlar üzrə bölüşdürür, ümumi qaydalara uyğun olaraq mə'lumatların uçotda əks etdirilməsi, qiymətləndirmə metodlarını və statistik baxımından şərhi qaydalarını hazırlayır. Bazis blokunun çox hissəsi əməliyyatlar üzrə birbaşa mə'lumatlarına, mərkəzi bankların və idarəçilik orqanlarının mə'lumatlarına əsasən tərtib edilir. Xüsusi məsələlərin təhlili üçün isə əlavə mə'lumatlar toplanır.

25-ci cədvəl

BVF-nun tövsiyyə etdiyi əsas statistik normalar

Normalar	Tə'yinatı
İqtisadiyyatın sektorlara bölünməsi və rezident aidiyyətinin müəyyən edilməsinə dair normalar	
MHS-nin müəyyən etdiyi qaydalara əsasən ölkənin iqtisadi ərazisini müəyyən etmək	Müxtəlif ölkələrdə statistik əhatənin ardıcıllığını tə'min edir. Bu qayda ölkənin iqtisadi ərazəsinin sərhədlərindən istifadə qaydalarını nəzərdə tutur
MHS-nin və tə'diyyə balansının müəyyən etdiyi qaydalara əsasən rezident mənsubiyyətini müəyyən etmək	Ölkə və onun iqtisadiyyatının mahiyyəti "dünyanın başqa ölkələri" sektorundan ayrılmaqla standartlaşdırılmış mahiyyətə malikdir
MHS-nin qəbul etdiyi qaydalara əsasən iqtisadi sektorların müəyyən edilməsi	Müxtəlif ölkələrdə istifadə olunan qaydaya əsasən maliyyə sektorları anlayışı qeyri-maliyyə sektorları üzrə maliyyəyə dair mə'lumatlar razılaşdırılmış ölçülərdə verilir
Tə'sisat vahidləri üzrə mə'lumatların toplanması	İqtisadi fəaliyyət aparmaq qərarına gəlmiş ilkin tə'sisat vahidlərindən daxil olan mə'lumatlar sektorlar üzrə iqtisadi fəaliyyəti təsnifatlaşdırmaq
Əsas fəaliyyət növlərinə uyğun olaraq tə'sisat vahidlərinin sektorlar üzrə təsnifatı	Oxşar fəaliyyətlə məşğul olan tə'sisat vahidlərinin qruplaş-dırılmasına imkan verən üsul
Maliyyə instrumentlərinə və əməliyyatlara dair normalar	
Ehtiyatların və əməliyyatların hüdudları müəyyənləşdirilir, dəyərlər yenidən qiymətləndirilir, habelə maliyyə aktivləri və öhdəçiliklərin həcmində dəyişikliklər həyata keçirilir	Ehtiyatların və başqa dəyişikliklərin təhlilinin keyfiyyəti yaxşılaşır, əməliyyatlar üzrə mə'lumatların saxtalaşdırılması halları aradan qalxır, maliyyə və qeyri-maliyyə əməliyyatlarına dair mə'lumatların birləşdirilməsi asanlaşır
MHS-nin normaları üzrə maliyyə instrumentlərinin təsnifatı	Maliyyə instrumentlərinin mahiyyətinə uyğun olaraq əsas kateqoriyalar üzrə təsnifatı müxtəlif ölkələrdə maliyyə instrumentlərinin müəyyən edilməsi qaydaları razılaşdırılır

25-ci cədvəlin davamı

Əməliyyatlar üzrə dəyişikliklərin dəyər ifadəsiylə həcminə dair mə'lumatların aktivlərin və öhdəçiliklərin həcmindəki başqa dəyişikliklərə dair mə'lumatlardan ayrılması	Maliyyə əməliyyatları üzrə mə'lumatları MHS-də əks etdirilən mə'lumatlarla inteqrasiya etmək, dəyərlərin yenidən qiymətləndirilməsi və aktivlərin həcmində sair dəyişikliklər nəticəsində təhrifləri aradan qaldırmaq
MHS-nin qaydalarına əsasən maliyyə instrumentlərinin uçotunu qaydaya salmaq	Müxtəlif ölkələrdə əməliyyatların və maliyyə aktivləri ehtiyatlarının uçotunu razılaşdırmaq, yeni instrumentlərə dair vahid normalardan ardıcıl istifadə etmək
Uçot sistemindən şərti maliyyə instrumentlərinə dair mə'lumatları çıxarmaq	Maliyyə balansına daxil edilən maliyyə instrumentlərinin seçilməsini və pul-kredit statistikasının başqa formalarının tətbiqini tə'min edən normaların ardıcıl istifadəsi
Uçot və dəyər ifadəsiylə qiymətləndirmə normaları	
Maliyyə aktivlərinin bazar qiymətləndirilməsi	Müxtəlif sektorlarda və müxtəlif funksional statistika sistemlərində tətbiq edilə bilən qiymətləndirmə normalarından istifadə etmək
Əlavə hesablamalara əsaslanan uçot	Əməliyyatlar real həyata keçirildiyi anda və yə maliyyə tələb-nameləri və öhdəçiliklər yaran-dığı anda uçotda əks etdirilir; Maliyyə və qeyri maliyyə fəaliy-yətinin uçotda əks etdirilməsi sahəsində ardıcıllıq tə'min edilir
Xarici valyutada ifadə olunmuş aktivləri daxili pul ekvivalentinə çevirmək	Ardıcıl və çoxmərhələli mübadilə üsullarından istifadə etmək
Vaxtı ötmüş ödənişlər, borc mübahisələri və başqa xüsusi əməliyyatlara dair normalar	Qeyri-standart əməliyyatları uçot və statistikada əks etdirən normalar hazırlamaq

§11.5 Maliyyə statistikası göstəricilərinin MHS-də əksi

İqtisadiyyatın hərəkətverici qüvvəsi olan maliyyə, kapital və onlarla əlaqədar olan istilahlar beynəlxalq MHS-də də çox istifadə olunan iqtisadi kateqoriyalardandırlar. Yeni MHS-də Maliyyə statistikasının göstəriciləri (maliyyə və qeyri-maliyyə aktivləri, öhdəçiliklər, onların investisiyadan götürülməsi, qiymətlərin dəyişməsi nəticəsində aktivlərin dəyişməsi, iqtisadiyyat

üzrə bütövlükdə və ayrı-ayrı sektorların balansında aktivlərin və yığımın dəyişməsi) öz əksini müxtəlif hesablarda və balanslarda tapır. Onlardan ən əsasları aşağıdakılardır:

1. Başlanğıc balansı;
2. Balans hesablarında dəyişikliklər;
3. Kapitalla əməliyyat hesabı;
4. Maliyyə hesabı;
5. Dəyərlərin yenidən qiymətləndirilməsi hesabı;
6. Aktivlərin həcmində sair dəyişikliklər hesabı;
7. Yenidən qiymətləndirmə hesabı;
8. Yekun (son) balansı;

MHS-nin balansları və yığım hesabları bank, pul-kredit və maliyyə statistikasına aid ən müxtəlif göstəriciləri hesablamağa, ayrıca ölkənin maliyyə fəaliyyətini vahid makroiqtisadi sistemdə birləşdirməyə, istənilən maliyyə aqreqatını kəmiyyətcə qiymətləndirməyə və təhlil etməyə imkan yaradır.

İndi də MHS-nə daxil olan balansları və yığım hesablarını nəzərdən keçirək:

a)Balanslar (başlanğıc və son)

Balanslar konkret tarixə (hesabat üzrə dövrün əvvəlinə və sonuna) ölkə üzrə bütövlükdə və ya ayrıca sektor və tə'sisat vahidi üzrə qeyri-maliyyə aktivləri ehtiyatlarının, maliyyə aktivləri və öhdəçiliklərinin dəyərləri haqqında hesabatdır.

Eyni quruluş sxeminə malik olan başlanğıc və yekun balanslarının balanslaşdırıcı maddəsi "əmlakın xalis dəyəri" adlı (aktivlərin xalis dəyərindən öhdəçilikləri çıxmaqla hesablanır) göstəraəkdir. Ölkə üzrə bütövlükdə "Əmlakın xalis dəyəri" milli sərvət adlanır. Bu göstərici ölkənin qeyri-maliyyə aktivləri ilə "dünyanın qalan ölkələri" sektoruna aid xalis maliyyə tələbnamələrinin məbləğinin cəminə bərabərdir.

Hesabat dövrünün əvvəlinə olan balans "Başlanğıc balansı", sonuna olan balans isə "Yekun balansı" adlanır. MHS-ndəki balansların (başlanğıc və yekun) əsas komponentləri aşağıdakılardır:

Sxemdən göründüyü kimi, balanslar yalnız MHS-də iqtisadi aktivlər hesab edilən instrumentləri əhatə edir. Şərti maliyyə aktivləri və real nəzarət altında olan təbii sərvətlər balansa daxil edilmir.

Balans MHS-nin "Kapitalla əməliyyatlar hesabı"na və "Maliyyə hesabı"na uyğun olaraq "Qeyri-maliyyə aktivləri" və "Maliyyə aktivləri" bölmələrinə ayrılır.

MHS balansının formatı hansı məqsədlər üçün tərtib edilməsindən asılı olaraq müxtəlif ölçüdə ola bilər. Məsələn, irəlidə verilən balansı aşağıdakı kimi də vermək olar:

26-cı cədvəl

Başlanğıc və Yekun balansının sxemi

Aktivlər								Passivlər və əmlakın xalis dəyəri						
Cəmi	Dünyanın qalan ölkələri	İqtisadiyyatın bütün sektorları	Ev təsərrüfatına xidmət edən qeyri-kommersiya təşkilatları	Ev təsərrüfatı	Mərkəzi idarəetmə orqanları	Maliyyə korporasiyaları	Qeyri-maliyyə korporasiyaları	Ehtiyatlar və balanslaşdırıcı maddələr	Qeyri-maliyyə korporasiyaları	Maliyyə korporasiyaları	Mərkəzi idarəetmə orqanları	Ev təsərrüfatı	Ev təsərrüfatına xidmət edən qeyri kommersiya təşkilatları	İqtisadiyyatın bütün sektorları	Dünyanın qalan ölkələri	Cəmi
								AN.Qeyri maliyyə aktivləri AN.1.Təməl aktivlər AN.1.1.Əsas vəsaitlər FN.1.12 Əmtəə ehtiyatları AN.1.13.Qiymətlilər AN.2.İstehsal edilməmiş aktivlər AN.2.1.İstehsal edilməyən maddi aktivlər AN.22.İstehsal edilməyən qeyri-maliyyə aktivlər							
								A.F Maliyyə aktivləri və öhdəçiliklər AF1.Sikkə qızılı və SDR AF.2.Nəqd pullar və depozitlər AF3.Səhmlərdən başqa qiymətli kağızlar AF4.Səudalar AF5.Kapitalda iştiraka to'min edən səhmlər və başqa qiymətli kağızlar AF6.Sığorta-texniki kağızlar AF7.Debitor/kreditor boreları							

27-ci cədvəl

MHS-də balansın alternativ formasının sxemi

Aktivlər	Passivlər
Qeyri-maliyyə aktivləri - məbləğ	Passivlər - məbləğ
Maliyyə aktivləri - məbləğ	Əmlakın xalis dəyəri - məbləğ

BMT statistika orqanlarının tövsiyyələrinə əsasən balansa daxil edilən iqtisadi kateqoriyaları aşağıdakı kimi başa düşmək lazımdır:

1.İstehsal edilən qeyri-maliyyə aktivləri-Bunlar istehsal prosesi nəticəsində yaranan aktivlər olmaqla öz tərkibinə maddi əsas fondları (maşınlar, binalar, avadanlıqlar, bağlar və s.), qeyri-maddi əsas fondları (proqram tə'minatı və s.) dövriyyə vəsaitləri (əmtəə-material ehtiyatları) və qiymətliləri daxil edir.

2.Qeyri-maliyyə və qeyri-istehsal aktivləri. Buraya istehsal edilməyən, təbii yolla yaranan və ya hüquq normalarının fəaliyyət və mühasibat əməliyyatları nəticəsində yaranan aktivlər aiddir. İstehsal edilməyən qeyri maliyyə aktivləri (torpaq, su və hava ehtiyatları və s.) bu aktivlər qrupuna real mülkiyyət hüququ olduqda və onlar öz sahiblərinə iqtisadi xeyir gətirdiyi halda daxil edilirlər.

3.Maliyyə aktivləri - tə'sisat vahidləri arasında bağlanmış kontrakt və ya müqavilə nəticəsində yaranmış kreditor-borclu münasibətləri nəticəsində və tə'sisat vahidləri arasında mülkiyyət münasibətləri nəticəsində yaranan aktivlərdir. SDR və sikkə qızılı da maliyyə aktivləri hesab olunur.

4.Öhdəçiliklər (passivlər) - Bir tə'sisat vahidinin maliyyə öhdəçiliyi başqa tə'sisat vahidlərinin maliyyə aktivlərinə əks maddədir.

5.Əmlakın xalis dəyəri - Balansın tarazlaşdırıcı maddəsi olmaqla bütün aktivlərin dəyərindən üçüncü tərəf qarşısında götürülmüş bütün öhdəçilikləri çıxmaqla müəyyən edilir.

b) Balansda dəyişikliklər hesabı. Bu hesab balansın tərtib edildiyi iki tarix arasında balanslarda baş verən dəyişiklikləri əks etdirən yekun cədvəlidir. Onun quruluşu balansın quruluşuna uyğun ola bilər. Lakin çox zaman o, aktivlərin və öhdəçiliklərin əsas kateqoriyalarını əhatə edir. "Əmlakın dəyərində dəyişikliklər" bölməsində bütün dəyişikliklər üç tərkib hissəsinə bölünür:

1.Yığımların və kapital tranfertlərin yaranması ilə əlaqədar dəyişikliklər.

2.Aktivlərin həcmində baş verən dəyişikliklər.

3.Aktivlərin bazar dəyərində baş verən dəyişikliklərlə əlaqədar mənfəətin və ya zərərlərin nominal məbləğində yaranan dəyişikliklər.

v)Kapitalla əməliyyatlar hesabı. Bu hesabda əməliyyatlar və ya kapital transfertlər nəticəsində satılmış və ya alınmış qeyri-maliyyə aktivlərinin dəyəri əks etdirilir, yığım və kapital transfertlər nəticəsində əmlakın xalis dəyərində yaranmış dəyişiklikləri də əhatə edir.

"Kapitalla əməliyyatlar hesabı"nın əsas komponentləri aşağıdakı kimidir:

28-ci cədvəl

Kapitalla əməliyyatlar hesabının əsas komponentləri

Aktivlərdə dəyişikliklər							Passivlərdə və əmlakın xalis dəyərində dəyişikliklər							
Cəmi	Dünyanın qalan ölkələri	İqtisadiyyatın bütün sektorları	Ev təsərrüfatları xidmət edən qeyri-kommersiya təşkilatları	Ev təsərrüfatları	Mərkəzi idarəetmə orqanları	Maliyyə korporasiyaları	Qeyri-maliyyə korporasiyaları	Əməliyyatlar və balanslaşdırıcı maddələr	Qeyri-maliyyə korporasiyaları	Maliyyə korporasiyaları	Mərkəzi idarəetmə orqanları	Ev təsərrüfatları	Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları	İqtisadiyyatın bütün sektorları	Dünyanın qalan ölkələri	Cəmi
								V.8.Xalis yığım V.12.Cari xarici iqti-sadi əməliyyatlar üzrə qalıq R.51.Əsas vəsaitin ümumi yığımı K.1 Əsas vəsaitin istehsalı R52 Əmtəə-madii ehtiyatda dəyişiklik R.53.Qiymətlilərin satışını çıxmaqla əldə edilmələr K2.İstehsal edilməyən qeyri-maliyyə aktivləri çıxılmaqla əldə edilmələr K21.Torpaq və başqa istehsal olunmayan maddi aktivlər K22.Qeyri-maddi qeyri-istehsal aktivlər D.9 Kapital transfertlər üzrə debitor borcları D9.Kapital transfertlər üzrə kreditor borcları V.9 Xalis kreditləşdirmə (+) xalis borc götürmə (-) V.10.1 Yığım və kapital transfertlərlə əlaqədar əmlakın xalis dəyərində dəyişikliklər								

Bu hesabın aparılmasında məqsəd əməliyyatlar aparan tə'sisat vahidləri-rezidentlər vasitəsilə əldə edilən və ya realizasiya edilən qeyri-maliyyə aktivlərinin dəyərini qeydə almaqdan, yığım və kapital transfertlər nəticəsində öz kapitalının dəyişməsini göstərməkdən ibarətdir. Lakin bu hesab əməliyyatların nəticəsi olmayan vahidlərin ixtiyarında olan qeyri-maliyyə aktivlərini əks etdirmir. Onlar "Aktivlərin başqa dəyişiklikləri hesabı"nda qeydə alınırlar.

"Əsaslı xərclər hesabı" tə'sisat vahidlərinin ixtiyarında olan aktivlərinin dəyərinin dəyişməsi ilə əlaqədar olan dörd hesabdan birincisidir. Bu dörd hesab əməliyyatların nəticəsi olmalarından asılı olmayaraq hesabat dövrünün əvvəlindən sonunadək qiymətlərin və həcmlərin bütün dəyişmələrini qeydə almaqla tə'sisat vahidləri və sektorları öz kapitallarını tərkib hissələrinə bölməyə imkan verir.

Balanslar tərtib edilərkən, adətən aktivlər onun sol tərəfində, öhdəçiliklər və öz şəxsi kapitalları isə onun sağ tərəfində qeydə alınır. Bu qayda yığım hesablarında da saxlanılır. Aktivlərin dəyişməsi bu hesabın sol tərəfində və başqa mövqelər isə onun sağ tərəfində qeydə alınır. Cari hesablarda olduğu kimi, "kapital hesabı"nda balanslaşdırıcı maddələr, yə'ni xalis kreditləşdirmə və ya onların əvəzediciləri hesabın sol tərəfində qeydə alınır.

Əsas kapitalın alınması da hesabın sol tərəfində qeydə alınır. Aktivlərin yığılması üçün resurslar "kapital hesabı"nın sağ tərəfində əks etdirilir. Buraya xalis yığım (gəlirlərin istifadəsi hesabından keçmiş balanslaşdırıcı maddə) və kapital transfertlər daxildirlər. Ödənişlərə əsaslı xərc transfertləri mənfi işarə ilə qeydə alınırlar.

Müxtəlif əməliyyatlar zamanı əldə edilən və ya satılan qeyri maliyyə aktivlərinin dəyəri əsaslı xərclər hesabının sol tərəfində qeydə alınır. Aktivlər alına, satıla, əldə edilə, barter mübadiləsi və ya öz istehlakı üçün istehsalda realizasiya oluna bilər. Satılmayan və alınmayan aktivlərin dəyəri qiymətləndirmə yolu ilə müəyyən edilir. "Kapital hesabı"nda aktivlərin dəyişməsinin aşağıdakı kateqoriyalarını ayırırırlar:

1.Əsas kapitalın ümumi əlavə artımı;
2.Əsas kapitalın alınması;
3.Maddi ehtiyatların dəyişməsi;
4.Realizasiyanı çıxmaqla qiymətlilərin əldə edilməsi;
5.Realizasiyanı çıxmaqla istehsal edilməmiş qeyri-maliyyə aktivlərinin əldə edilməsi.

Tə'sisat vahidləri və ya sektorların əsas kapitalının ümumi əlavə artımı əsasən realizasiyanı çıxmaqla yenilərini və ya mövcud olan əsas kapitalın əldə edilmə dəyəri ilə ölçülür.

Realizasiya əsas kapitalın alınmasını əhatə etmir.

Əsas kapital istehsal prosesinin məhsulu kimi yaranan və bir ildən artıq müddətdə daima və dəfələrlə başqa istehsal prosesində istifadə olunan maddi və qeyri-maddi aktivlərdir. Aktivlərin dəyişməsi ya müsbət, ya da mənfi ola bilər. Əsas kapitalın alınması da aktivlərin dəyişməsi kimi "kapitalla əməliyyatlar hesabı"nın sol tərəfində qeydə alınır. Belə halda nəzərdə tutulur ki, "Gəlirlərin istifadəsi hesabı" ndan keçən və hesabın sol tərəfində qeydə alınmış yığım xalis yığım

olmalıdır.

'Aşınma' dedikdə hesabat dövründə istifadə ilə əlaqədar fiziki köhnəlmə və qəza nəticəsində əsas kapitalın dəyərinin aşağı düşməsi başa düşülür. Onu əsas kapitalın ümumi əlavə artımından çıxmaqla əsas kapitalın xalis əlavə artımını müəyyən etmək olar. Əsas kapitalın xalis əlavə artımı "əsas kapital hesabı"nda ayrıca maddə kimi göstərilmir. Əgər mə'lumatların olmaması ucundan əsas kapitalın alınmasını müəyyən etmək mümkün deyilsə yığımın ümumi həcmi götürülməlidir. Belə halda əsas kapitalın əlavə artımının da ümumi həcmi götürülməlidir. Əgər bu səbəbə görə əsas kapitalın aşınması hesabın hər iki tərəfindən çıxarılırsa bu hesabın balanslaşdırıcı maddəsini əks etdirə bilməz. Xalis kreditləşmə əsas kapitalın aşınmasının qiymətləndirilməsinin mümkünlüyündən asılı olmayaraq qalığa görə hesablana bilər. Lakin əsas kapitalın aşınması qiymətləndirilməyibsə, son iki ardıcıl balansların tərtib olunma vaxtları arasındakı dövrdə bütün dəyişikliklər "Yığım hesabı"nda qeydə alınmır.

"Əsas kapital hesabı"nın solunda yazılan qalan maddələr maddi ehtiyatlara, qiymətlilərə və istehsal olunmamış qeyri-maliyyə aktivlərinə aiddirlər. Bitməmiş istehsal da daxil olmaqla maddi aktivlərin dəyişməsi maddi ehtiyatlara daxil olmalardan, oradan götürülmüş və maddi ehtiyatlara daxil olan istənilən əmtəə növünün cari itkilərinin dəyərini çıxmaqla müəyyən edilir. "Əsas kapital hesabı"nın sağ tərəfində qeydə alınan maddələr xalis yığımdan, alınmaq üçün nəzərdə tutulan kapital transfertlərdən və ödənişlərdən ibarətdirlər. Ödəniş üçün nəzərdə tutulan kapital transfertlər mənfi işarə ilə yazılır. "Kapital transfertlər" dedikdə aktivlər (mövcud və maddi ehtiyatlardan başqa) üzrə mülkiyyət hüququ bir tə'sisat vahidindən başqasına verilməsi əməliyyatı və yaxud da başqa aktivlərin satışı nəticəsində əldə edilmiş vəsaitlərin verilməsi başa düşülür. Belə halda verilmə nəqd yolla aparılır ki, onu alan başqa aktivləri də əldə edə bilsin. Beləliklə, hesabın sağ tərəfində göstərilən ehtiyatların məbləği yığımın və kapitalın xalis transfertləri nəticəsində şəxsi kapitalın dəyişməsi kimi təsvir edilir. Bu isə maliyyə və qeyri-maliyyə aktivlərini əldə etmək üçün tə'sisat vahidləri və sektorların əmlakı hesab olunur.

"Kapital hesabı"nın balanslaşdırıcı maddəsi (xalis kreditləşdirmə və ya götürülmüş) aşağıdakı kimi müəyyən edilir.

1.Xalis yığımın üzərinə alınmalı olan kapital transfertləri cəmləyib ödənilməli olan kapital transfertləri çıxmaqla;

2.Realizasiyanı çıxmaqla qeyri-maliyyə aktivlərinin dəyərindən əsas kapitalın alınmasını çıxmaqla.

Xalis yığım müsbət qiymət aldığı halda sərəncamda olan gəlirlərin əmtəə və xidmətlərin istehlakına sərf edilməyən hissəsini göstərir.

Buna görə də onlar qeyri-maliyyə və maliyyə aktivlərinin əldə edilməsinə və ya öhdəçiliklərin ödənilməsinə sərf edilməlidir.

Xalis yığım mənfi qiymət aldığı halda son istehlaka məsrəflərin sərəncamda olan gəlirdən artıq olan məbləğini göstərir. Bu artıqlıq aktivlərin realizasiyası və ya yeni öhdəçiliklərin əldə edilməsinə görə qeydə alınır.

Eyni qayda ilə alınmalı olan kapital transfertlər (nağd və ya natura ilə) alıcıya aktivlər əldə etməyə və ya öhdəçilikləri ödəməyə, ödənişli kapital transfertlər isə aktivlərin realizasiyasına imkan verməlidir. Beləliklə, əsas kapital hesabının balanslaşdırıcı maddəsi (yığım və kapital transfertlər nəticəsində şəxsi kapitalın dəyişməsi ilə qeyri-maliyyə aktivlərinin əldə edilməsi arasındakı fərq) kreditləşdirmə və ya alınma üçün zəruri olan resursların qalığının məbləğini göstərir. Əsaslı xərclər və maliyyə hesablarının balanslaşdırıcı maddələrin köməkliyi ilə balanslaşdırması bütövlükdə hesablar sisteminin əsas ünsürlərindəndir. Kapitalın ümumi artımı əsas kapitalın ümumi dəyərinin artması, maddi ehtiyatların dəyişməsi və qiymətlərin səviyyəsi ilə ölçülür.

1990-1996-cı illərdə Azərbaycan respublikasında "əsaslı xərclər hesabı" aşağıdakı kimi olmuşdur:

29-cu cədvəl

1990-1996-cı illərdə Azərbaycan respublikasında "əsaslı xərclər (kapital) hesabı"

(cari qiymətlərlə, milyon manatla)

	1990	1991	1992	1993	1994	1995	1996
Ehtiyatlar ümumi yığım	437,3	796,6	4444,5	9433,4	109888,0	775000,0	341300,0
Alınmış əsaslı transfertlər	100,5	108,3	1304,1	11253,1	45720,0	133000,0	246500,0
Verilmiş əsaslı transfertlər	-100,5	-108,3	-1304,1	-11253,1	-45720,0	-775000,0	-246500,0
Xalis dəyərin dəyişilməsi	437,3	796,6	4444,5	9433,4	109888,0	775000,0	341300,0
İstifadə Əsas fondların ümumi yığımı	297,1	305,8	5258,2	32898,8	491957,0	1669000,0	3976800,0
Maddi dövriyyə vəsaitlərin ehtiyatının dəyişilməsi	92,1	-223,2	-5424,8	1325,0	205067,0	868000,0	-14700,0
Torpaqların və qeyri maddi aktivlərin xalis alışı	-	-	-	-	-	-	-
Xalis kreditlər(+) Xalis borclar (-)	48,1	714,5	4811,1	24790,0	177002,0	-1782000,0	-3620800,0

"Kapitalla əməliyyatlar hesabı" tərtib edilərkən "gəlirlərin istifadəsi hesabı"ndan keçən "Xalis gəlirlər"dən balanslaşdırıcı maddə kimi istifadə olunur. Xatırladaq ki, xalis gəlir sərəncamda olan gəlirlərin bir

hissəsi olmaqla qeyri-maliyyə aktivlərinin, ya da qeyri-maliyyə aktivləri öhdəçilikləri ödəmək üçün maliyyə aktivlərinin əldə edilməsinə istifadə olunur. Xalis gəlir investisiya məqsədləri üçün sərəncamda olan resurslardan ibarət olmaqla "dünyanın başqa ölkələri" sektoru ilə əməliyyatlar zamanı cari xarici iqtisadi əməliyyatların saldosu kimi istifadə edilir. Bu saldonun ölkə üzrə müsbət olması gəlirlərin məsrəflərdən çox olduğunu göstərir. Bu maddə üzrə defisitin (mənfi işarə ilə yığım) mövcudluğu ölkə üzrə məsrəflərin cari gəlirlərdən çox olmasını göstərir. Bu fərq xarici borclar hesabına maliyyələşdirilir. Bu hesab üzrə müsbət saldo "Maliyyə hesabı"da xalis xarici aktivlərin xalis yığımı kimi, defisit isə xarici aktivlərin mənfi yığımı kimi əks etdirilir.

İqtisadiyyatın daxili sektorları arasında kapital transfertlər investisiya məqsədləri üçün istifadə edilə bilir və resursların ümumi məbləğinə tə'sir göstərmir. Ölkələrarası transfertlər isə resursların ümumi həcminə bilavasitə tə'sir göstərir. "Əsas kapitalın ümumi yığımı" yeni əldə edilmələrdən, təzə əldə edilənlərdən və əvvəldən mövcud olanlardan satışların dəyəri çıxılmaqla müəyyən edilir.

Xalis kreditləşdirmə və borc götürmə "Kapitalla əməliyyatlar hesabı"nın balanslaşdırıcı maddəsidir. Yığım və kapital transfertlər nəticəsində yaranmış və kapital qoyuluşları üçün istifadə edilməyən ölkənin və ya sektorların sərəncamında olan xalis resurslar xalis maliyyə investisiyaları üçün istifadə oluna bilər. Əsaslı məsrəflərdən çox resursları olan ölkələr və ya sektorlar xalis kreditorlar hesab edilir. Əsaslı məsrəfləri resurslarından çox olan ölkə və sektorlar - öz xərclərini maliyyənləşdirmək üçün borc götürməyə məcburdurlar. "Xalis kreditləşdirmə və borc götürmə"nin məbləği MHS-nin "Maliyyə hesabı"nın sağ tərəfinə köçürülür. Bu göstəricini müəyyən etmək üçün xalis yığımın üzərinə xalis əsaslı transfertləri cəmləyib, əsas kapitalın istehlakına və istehlak edilən qeyri-maliyyə aktivlərinin məbləğini (satışdan başqa) çıxmaq lazımdır. Qeyri-maliyyə və xalis maliyyə aktivlərini əldə etmək üçün ölkənin və ya sektorun sərəncamında olan resursların ümumi həcmində baş verən dəyişikliklər milli sərvətin həcmindəki dəyişiklikliyə bərabər olmalıdır.

q)Maliyyə hesabı

"Maliyyə hesabı" yığımla əlaqədar olan ikinci hesabdır. Eyni zamanda bu hesab tə'sisat vahidləri arasında əməliyyatları qeydə alan sonuncu hesabdır. Qalan hesablardan fərqli olaraq "Maliyyə hesabı"ndan başqasına keçən balanslaşdırıcı maddə yoxdur. Buna baxmayaraq "Maliyyə hesabı"nın saldosu öz həcminə görə əks işarə ilə "Kapital hesabı"nın balanslaşdırıcı maddəsinə bərabərdir.

"Maliyyə hesabı"nda tə'sisat vahidləri arasında, habelə tə'sisat

vahidləri ilə dünyanın yerdə qalan ölkələri arasındakı əlaqələrin maliyyə aktivləri və öhdəçiliklərinə aid olan əməliyyatlar qeydə alınır.

30-cu cədvəl

Maliyyə hesabının qısa sxemi

Ehtiyatlar	İstifadə
Xalis kreditlər Xalis borclar Maliyyə passivlərinin xalis əldə edilməsi	Maliyyə aktivlərinin xalis əldə edilməsi
Balans	

Göründüyü kimi, "maliyyə hesabı"nın "ehtiyatlar" bölməsində xalis kreditlər, borclar və maliyyə passivlərinin əldə edilməsi (ödənilmiş öhdəçiliklər çıxılmaqla) göstərilir.

Dəyərə görə xalis əldə edilmiş maliyyə aktivləri çıxılmaqla xalis qəbul edilmiş öhdəçiliklər əks işarə ilə, kapital hesablarının kreditləşmə (və götürülmə) məbləğinə (xalis) bərabərdir.

MHS-də maliyyə aktivləri yeddi kateqoriya üzrə aşağıdakı kimi təsnifatlaşdırılır:

1.Qızıl və borc götürülmənin xüsusi hüququ;
2.Nəqd pul və depozitlər;
3.Səhmlərdən başqa qiymətli kağızlar;
4.Borclar;
5.Səhmlər və başqa qiymətli kağızlar;
6.Sığorta-texniki ehtiyatları;
7.Alınmalı (ödənilməli) olan başqa hesablar.

Bu kateqoriyalar məzmunundan asılı olaraq "Maliyyə hesabı"nın hər iki tərəfində yazılır.

Beynəlxalq valyuta fondu (BVF) tərəfindən buraxılmış sikkə qızıl və borc götürülmənin xüsusi hüququ icra olunmamış, öhdəçiliyi olmayan aktivlərdir.

Sikkə qızılı ilə əməliyyatlara maliyyə orqanları tərəfindən qızılın alınması və satılması aiddir. Sikkə qızılının mülkiyyət hüququ adətən mərkəzi banka və mərkəzi dövlətə məxsus olur. Bə'zi hallarda başqa tə'sisat vahidləri də (məsələn, maliyyə korporasiyaları) qızıla mülkiyyət hüququna malik olurlar. Belə halda qızılın satılması maliyyə orqanları ilə razılaşdırıldıqdan sonra həyata keçirilə bilər.

Yalnız maliyyə aktivi olan və xarici valyuta ehtiyatının bir hissəsi olan qızıl, sikkə qızıl kateqoriyasına aid edilə bilər. Buna görə də təşkilat xarakterli bə'zi məhdud saylı hallar istisna olmaqla qızıl yalnız mərkəzi bank və mərkəzi hökumət üçün maliyyə aktivi ola bilər.

Sikkə qızılın alınması (satılması) milli maliyyə orqanlarının "maliyyə hesabı"nda aktivlərin əlavə artımı (və ya ixtisarı) kimi yazılır. Dünyanın başqa ölkələri üçün qarşılıqlı müxabirələşməsində isə aktivlərin ixtisarı (və ya əlavə artımı) qeydə alınmalıdır.

Hakimiyyət orqanları qızıl aldıqda bu əməliyyat "əsas kapital hesabı"nda "daşqaş çıxılmaqla əldə edilmə" başlığı altında müsbət müxabirələşmə kimi, ya da ehtiyatların dəyişməsi kimi qeyd edilir. Sikkə qızılı xaricdən alınarsa, əməliyyat idxal kimi qeydə alınır.Sikkə qızılı adətən sikkə, ən azı 995 əyarlı ərinti və ya tirciklər formasında olur. Onlar adətən təşkil olunmuş bazarlarda və ya mərkəzi banklar tərəfindən bağlanmış ikitərəfli müqavilələr üzrə satılır.

Mövcud nəqd pul dövriyyədə olan və ödənişləri həyata keçirmək üçün istifadə olunan əskinazlardan və sikkələrdən ibarət olur. Dövriyyədə olmayan yubiley sikkələri istisnalıq təşkil etdiyi üçün ümumi məbləğdən çıxılır.

Milli və xarici valyutanı bir-birindən ayırmaq lazımdır. Bütün tə'sisat vahidləri aktivlər haqqında nəqd pula malik ola bilər. Lakin onu yalnız maliyyə korporasiyaları və dövlət buraxa bilər.

Cari hesablardakı depozitlər cərimə sanksiyaları və məhdudiyyət olmadan nominalı üzrə istifadə olunar. Çeklər və ya orderlər vasitəsilə sərbəst olaraq dəyişdirilmə və ən'ənəvi ödənişlər üçün istifadə oluna bilər.

Mərkəzi banka, başqa depozit idarələrinə, hökumət orqanlarına və bə'zi hallarda başqa tə'sisat vahidlərinə sənədlərlə təsdiq edilmiş bütün tələbnamələr sair depozitlərə aid edilir. Köçürülməli olmayan əmanət qoyuluşları da bu depozitlərin tipik formasıdır. Ssuda-əmanət assosasiyaları, tikinti cəmiyyətləri, kredit ittifaqları və s. tərəfindən buraxılan səhmlər və depozitlərin buna bənzər növləri də bu kateqoriyaya aiddir. Beynəlxalq ehtiyatların komponenti olan və istiqrazlarda təsdiq edilməyən BVF-na tələbnamələr də bu kateqoriyaya daxildir. İstiqrazlarda təsdiq edilən BVF-na tələbnamələr istiqrazlar kateqoriyasına aid edilir.

Cari hesablarda olan depozitlər və s. depozitlər bütün tə'sisat vahidlərinə və sektorlarına mənsub ola bilər. Bir çox halda depozitlər maliyyə korporasiyaları və mərkəzi hökumətin öhdəçiliyi kimi qəbul edilir. Lakin bə'zi ölkələrdə tə'sisat vahidləri arasındakı müqavilələr qeyri-maliyyə korporasiyalarına və ev təsərrüfatına depozit qəbul etməyə icazə verir.

Veksellər, istiqrazlar, depozit sertifikatları, qısa müddətli kommersiya kreditləşməsi sənədləri, borc öhdəçilikləri, köçürmə, törəmə maliyyə sənədləri və adətən maliyyə bazarında dövriyyədə olan buna bənzər instrumentlər "səhmlərdən başqa qiymətli kağızlar"

kateqoriyasına aid edilir. Veksil-sahibinə qeyd olunan vaxtda göstərilən məbləği almağa şərtsiz hüquq verən qiymətli kağızdır. Onlar təşkil olunmuş bazar tərəfindən diskontla (veksillərin uçotu) buraxılır və dövriyyədə olur. Diskontlar faiz stavkalarından və ödəmə vaxtının çatmasından asılı olaraq dəyişir. Xəzinə səhmləri, sərbəst dövr edən depozit sertifikatları, bank aksepti və qısa müddətli kommersiya kreditlərin sənədləri veksillərə misal ola bilər.

İstiqrazlar və borc öhdəcilikləri onu saxlayanlara pul ifadəsində maliyyə gəliri və ya müqavilə ilə müəyyən edilən faizi əldə etməyə şərtsiz hüquq verən qiymətli kağızdır. Bə'zən mövcud aktivlərlə tə'min edilməklə dövriyyəyə yeni qiymətli kağızlar buraxılır. İstiqrazlar hərəkət etməyən mülkiyyətə beh, kredit kartoçkası üzrə borc və s. belələrinə aiddir. Aktivlər paketinin belə dəyişməsi 'tə'minat' adlanır. Yeni aktivlərin yaranması maliyyə hesabında köçürmələrə gətirib çıxarır. Yeni aktivləri "səhmlərdən başqa qiymətli kağızlar" kateqoriyasına aid etmək lazımdır. Əvvəldən mövcud olan aktivlər onu saxlayan tə'sisat vahidlərinin balansında yazılmalıdır. De-fako dövriyyədə olan istiqrazlar da "səhmlərdən başqa qiymətli kağızlar" kateqoriyasına aid edilməlidir.

İpoteka (mülkün girov qoyulması) borc kateqoriyasına aid edilir.

Sıfır kuponlu istiqrazlar uzun müddətli qiymətli kağızlar adlanır. Onlar öz nominal qiymətlərindən müəyyən güzəştlərlə satılır və vaxtı gələndə onların dəyəri tam ödənilir. Bunların güzəştlə buraxılış və ödəniş qiymətləri arasındakı fərq MHS-də istiqrazın müddəti keçdikdən sonra yığım kimi qeydə alınır. Məsələyə belə yanaşmaq güzəştli buraxılış qiyməti ilə vaxtı çatan zaman ödəniş qiymətləri arasındakı fərq müəyyən faizə kimi qeydə alınan (rüblər üzrə və ya ildə bir dəfə) ödənişlərə çevirməyi tələb edir. Faizlərin bu axınının müxabirələşməsi maliyyə hesabında "səhmlərdən əlavə qiymətli kağızlar" kimi qeydə alınır. Bunun nəticəsində də kapitalın verilməsi xərcləri ilə bu kapitalın verilmə müddətini uzlaşdırmağa imkan yaranır. Əgər ödənişlər kupon (faiz) üzrə ödənilərsə, yaxud borcun məbləği əmtəənin xammalının qiyməti, ya da valyutanın kursu indeksi ilə əlaqədardırsa onu tənzimləyən instrumentlər indekslərlə əlaqədar qiymətli kağızlar hesab olunur. Belə halda əsas məqsəd inflyasiya müddətində faiz şəklində əlavə gəlir əldə etməklə alıcılıq qabiliyyətini və ya material qiymətliləri saxlamaqdan ibarətdir. Kupon üzrə ödənişlər indekslərlə əlaqədardırsa, onlar bütövlükdə faizlərlə alınan gəlir kimi nəzərdən keçirilir. Borcun əsas dəyərinin məbləği indeksləşdirildikdə buraxılış anında qiymətli kağızın qiyməti borcun əsas məbləği kimi yazılır, dövrü olaraq və ödənmə müddəti çatarkən həyata keçirilən indeksləşdirilmiş ödənişlər isə faiz kimi nəzərdən

keçirilir. İndeksləşdirmə ilə əlaqədar ödənişlər qiymətli kağızın fəaliyyət dövrü keçənədək faiz kimi yazılır, "Maliyyə hesabı"na köçürmə isə səhmlərdən əlavə uçota alınmalıdır.

Səhmlərdən əlavə qısamüddətli qiymətli kağızlara ilkin ödənilmə müddəti bir il və daha tez müəyyən edilmiş qiymətli kağızlar aiddir. Lakin dünya ölkələrinin təcrübəsində qısa müddətli qiymətli kağızlara iki ildən sonra və daha tez ödənilən ödənişlər aid edilir. İlkin ödənişi bir ildən gec müəyyən edilmiş qiymətli kağızlar "uzun müddətli səhmlərdən əlavə qiymətli kağızlara" aid edilir. Lakin dünya ölkələrinin təcrübəsindəki müxtəlifikləri nəzərə almaqla uzun müddətli səhmlərdən əlavə qiymətli kağızlara ilkin ödəmə müddəti iki ildən gec olan qiymətli kağızlar aiddir.

Borclara aid edilən maliyyə aktivləri kreditorlar tərəfindən bilavasitə borc alanlara vəsait verdikdə yaranır. Onlar başqasına verilə bilməyən sənədlərlə təsdiq edilir, həm də kreditor bu əməliyyatı təsdiq edən qiymətli kağız almır.

Banklar, maliyyə kompaniyaları və başqa idarələr tərəfindən sahibkarlara, dövlətə və ev təsərrüfatına verilən bütün borc və aktivlər borclara aiddir. İstehlak məqsədi üçün ssudalar, sonradan ödəniş yolu ilə ödəniləcək malların alınması üçün kreditorlar, alış və satışlar üçün kreditlər və kommersiya kreditinin maliyyənləşdirilməsi üçün ssudalar da buraya aiddir. Sonradan geri alınmaqla qiymətli kağızların satışına dair razılaşmalar, maliyyə lizinqinə dair razılaşmalar və buna bənzər başqa razılaşmalar da buraya aiddir.

Sığorta-texniki ehtiyatlar öz tərkibində həyatın sığorta olunması ehtiyatlarında, pensiya fondlarında, sığorta mükafatlarında, avans ödənişlərində və sığorta iddialarının tənzim olunmamış ödənilməsində ev təsərrüfatının bir başa xalis səhmdar kimi iştirakını birləşdirir. Birinci kateqoriyaya ödənilməmiş risklər üzrə ehtiyatlar və mənfəətdə iştirak hüquq üçün ehtiyatlar aiddir. İkinci kateqoriyaya sığorta mükafatlarının avans ödənişləri və iddiaları ödəmək üçün sığorta idarələrinin saxladıqları ehtiyatlar aiddir. Alınmalı və ödənilməli olan sair hesablar kateqoriyasına əmtəə və xidmətlər üçün verilən kreditlər, yerinə yetirilməmiş işlər üçün və ya icrası nəzərdə tutulan işlər üçün avanslar aiddir.

Yuxarıda təsvir edilən hesablardan başqa alınmalı və ödənilməli başqa hesablar sair hesablar kateqoriyasına aid edilir.

Maliyyə aktivləri üzrə artan yekunla hesablanan faizlər təsnifatın müxtəlif kateqoriyalarında qeydə alına bilər. Səhmlərdən başqa qiymətli kağızlar üzrə artan yekunla hesablanan faizlər qiymətli kağızların dəyərinin artması kimi qeydə alınmalıdır. Depozitlər və borc üzrə artan yekunla hesablanan faizlər milli praktikaya uyğun qeydə

alına bilər. "Maliyyə hesabı"nda maliyyə aktivlərinin xalis əldə edilməsi və maliyyə aktivlərinin tipləri üzrə bütün tə'sisat sektorlarının öz üzərinə götürdükləri öhdəçiliklərin saldosu qeydə alınır. "Maliyyə hesabı"nda hər bir sektorun maliyyə resurslarını səfərbər etmək və maliyyə aktivləri əldə etmək məqsədi ilə götürdüyü maliyyə öhdəçilikləri göstərilir. Beləliklə, "maliyyə hesabı" maliyyə əməliyyatlarını iki ölçüdə əməliyyatda hansı maliyyə aktivi və ya öhdəçiliyin iştirakını göstərmək baxımından və əməliyyatlarda maliyyə aktivləri və öhdəçiliklərin iştirak edib etməmələri baxımından əks etdirir. Bu informasiya öz maliyyə defisitlərini örtmək üçün netto-borc alan sektorlar hansı maliyyə aktivlərindən istifadə etmələrini və netto-borc verən sektorlar öz artıq aktivlərini - ayırmalarını öyrənmək üçün çox qiymətlidir.

Maliyyə axını və iqtisadiyyatda onların oynadığı rolu tam dərk etmək üçün bə'zi sektorlar arasındakı maliyyə münasibətləri və bu münasibətlərin həyata keçirildiyi maliyyə aktivləri haqqında daha ətraflı mə'lumat əldə etmək tələb olunur. Məsələn, bə'zi dövlətə öz difisitini müəyyənləşdirmək üçün hansı maliyyə öhdəçilikləri tipindən istifadə etdikləri ilə yanaşı həm də maliyyələşdirmənin hansı sektor tərəfindən həyata keçirilməsini bilmək lazım gəlir. Belə müfəssəl mə'lumatlar maliyyələşdirmənin necə keçirilməsini, habelə vaxt keçdikcə onun necə dəyişməsini öyrənmək üçün zəruridir. Bu informasiya həm də maliyyə əməliyyatlarında maliyyə vasitələrinin oynadığı rolu müəyyən etmək üçün gərəkdir. Bir çox hallarda maliyyə korporasiyaları apardıqları əməliyyatların həcminə nisbətən çox kiçik saldoya malik olurlar. Maliyyə vasitəçilərinin əsas rolu elə bundadır. Onlar müxtəlif sektorların maliyyə resurslarını səfərbər edərək ödəmə müddətini və aktivlərin növünü dəyişərək lazım olan istiqamətə yönəlir.

Yuxarıda təsvir olunan "Maliyyə hesabı", "Maliyyə axını hesabları" adı ilə iri xalq təssərüfatı miqyaslı sektorial matrisaya da çevrilə bilər. Bu hesablarda gəlirlərin yaranması mənbəələri və sektorlar arasındakı maliyyə axınları əks etdirilir. Maliyyə axını hesabları maliyyə axınlarının (vəsaitlərin) kimlər tərəfindən və hansı vasitələrlə azadılmasını əks etdirən üçölçülü matrisadır. Belə təfsilat maliyyə statitstikası baxımından "Maliyyə axını hesabı"nın sadələşdirilmiş sxemi aşağıdakı kimi göstərilir:

31-ci cədvəl

"Maliyyə axını hesabı"nın sadələşdirilmiş sxemi

	Banklar		Ev təsərrüfatları		Müəssisələr		Bütövlükdə iqtisadiyyat	
	Aktiv-lər	Öhdəçi-liklər	Aktiv-lər	Öhdəçi-liklər	Aktiv-lər	Öhdəçi-liklər	Aktiv-lər	Öhdəçi-liklər
Depozitlər								
Ssudalar								
İstiqrazlar								
CƏMİ								
Xalis kre-ditləşmə (+)								
Xalis borc götürmə (-)								

"Maliyyə axını" hesablarının qısa sxemi tərtib edilərkən xalq təssərüfatının yalnız üç sektordan-istehlakçılardan, müəssisələrdən və banklardan ibarət olması fərz edilir. İstehlakçılar və müəssisələr öz əmanətlərini və depozitlərini banklarda saxlayır və ondan ssuda və ya qiymətli kağızlar formasında kreditlər alır. Fərz edilir ki, banklar "dünyanın başqa ölkələri" ilə heç bir əməliyyat aparmır, saxladığı əmanət və depozitləri daraldır.

Tərtib edilən belə hesab sektorlar və maliyyə instrumentləri üzrə əməliyyatları əks etdirən matrisadır. Tutaq ki, ev təsərrüfatı müəssisələr tərəfindən tərtib edilən 20 ədəd istiqraz əldə edir. Hər bir instrument üzrə yekun göstəricisi hər bir instrumentin emisiyasının ümumi həcmini, habelə aktivlər və öhdəçiliklər üzrə mövqelərin bərabərliyini göstərəcəkdir. Hər bir sektora aid sütünlar əldə edilmiş aktivlərin və ya öhdəçiliklərin ümumi həcmini, habelə sektorların xalis kreditləşdirilməsini və borc götürməsini göstərəcəkdir.

"Maliyyə axını" hesabları müxtəlif səviyyələrdə və müxtəlif dərəcədə xırdalanmış formada tərtib edilə bilər. Təfsilatın dərəcəsi tələb olunan statistika mə'lumatlarının əldə olunmasından və aparılacaq təhlilin dərəcəsindən asılı olaraq müəyyən edilir.

"Maliyyə axını" hesabları müxtəlif formalarda və müxtəlif variantlarda tərtib edilə bilər.

MHS-də maliyyə axınları xırdalanmış (detallaşdırılmış) matrisa şəklində, "Kapitalla əməliyyatlar" hesabının "Maliyyə hesabı" ilə birləşmiş şəkildə, "Yığım və investisiya hesabı" şəkilində tərtib edilir. "Maliyyə axını hesabları"nın belə müxtəlif formalarda qurulması hesablar tərtib edilən zaman informasiya qıtlığı sahəsindəki çatışmamazlıqları aradan qaldırmaq məqsədini daşıyır.

"Maliyyə axını hesabları"nı qurarkən əsas informasiya mənbəyi kimi MHS-nin "Kapitalla əməliyyat hesabı"nın balanslaşdırıcı maddəsi, mərkəzi bankının və başqa depozit yarımsektorlarının hesabatları,

dövlət maliyyə statistikasının və tə'diyyə balansının mə'lumatlarından istifadə olunur.

Pul və kredit göstəriciləri "Maliyyə hesabı"nda və ya "Maliyyə axını hesablarında" əks etdirilən statistik mə'lumatlarını cəmləməklə əldə edilə bilər. Pul aktivləri ilə əməliyyatlar "Maliyyə hesabı"ndan, pul kütləsinə dair mə'lumatlar isə aktivlər ehtiyatına dair müqaisəli mə'lumatlardan əldə edilir.

"Maliyyə axını hesabları"ndan alınmış pul vəsaitlərinə dair mə'lumatlar mərkəzi banklar tərəfindən əməli tədbirlər hazırlayarkən, ya da xüsusi aqreqatları qurarkən istifadə edilə bilər. Proqnozlaşdırmalar zamanı maliyyə axını hesabları pul kütləsinin artımını başqa makroiqtisadi göstəricilərlə əlaqəli şəkildə səciyyələndirə bilər.

Maliyyə axınını qiymətləndirmək yolu ilə pul kütləsi komponentlərinin dinamikasını aşkar etmək, yekun göstəricilərinə amillərin təsirini müəyyən etmək mümkün olur.

Pul, kredit və başqa maliyyə aqreqatlarına dair maliyyə hesabı və maliyyə axını hesablarından alınmış mə'lumatlar adi qayda ilə alınmış eyni adlı mə'lumatlardan bir qədər fərqlənə bilər. Konkret pul-kredit instrumentlərinə və ya emitent-təşkilatlara səmtləşdirilən belə mə'lumatlar müəyyən üstünlüklərə malik olurlar:

1. Bir çox ölkələrin iqtisadiyyatında müxtəlif maliyyə instrumentlərinin biri-birini əvəz etməsi və müxtəlif maliyyə təşkilatları arasındakı fərqin silinməsi nəticəsində pul-kredit sferası və instrumentləri arasındakı münasibətləri daha əyani şəkildə əks etdirmək imkanı yaranır.

2. Pul-kredit aqreqatlarının MHS ilə uzlaşdırılması onların praktiki əhəmiyyətini artırır və makroiqtisadi münasibətləri daha dərindən başa düşməyə imkan yaradır.

d) Aktivlərin həcmində sair dəyişikliklər hesabı

Bu hesab nadir hadisələr (zəlzələ, müharibələr və sair) nəticəsində aktivlərin və öhdəçiliklərin dəyərində və həm də onun həcmində baş verən dəyişiklikləri qeydə alır. Yuxarıdakılardan əlavə bu hesab öz şəxsi kapitalında dəyişikliyə səbəb olan bə'zi tə'sisat ünsürlərini də (təsnifat və quruluşda baş verən dəyişikliklər) əhatə edir.

Bu hesabın qalıq (saldo) maddəsi (aktivlərin həcmində sair dəyişikliklər nəticəsində öz şəxsi kapitalında baş verən dəyişikliklər) onun sağ tərəfində yazılır.

y) Yenidən qiymətləndirmə hesabı

Bu hesab xoldinq mənfəəti və zərərləri qeydə alır. İlk əvvəl nominal xoldinq mənfəətini və ya zərərləri əks etdirir. Bu maddə müxtəlif aktivlər və öhdəçiliklərin uçot dövrünün əvvəlindən və ya daxil olduqlarından götürülənədək, yaxud da uçot dövrünün axırınadək konkret qiymətlərin dəyişməsi nəticəsində dəyərin tam dəyişməsini qeydə alır.

Əməliyyatlar və aktivlərin başqa axınları hesabın sol tərəfində, öhdəçiliklərlə əməliyyatlar isə onun sağ tərəfində qeydə alınır. Aktivlərdən alınmış nominal mənfəət (+) qeydə alındığı halda maliyyə öhdəçiliklərindən alınan mənfəət onun sağ tərəfində qeydə alınır.

§11.6. Pul emitentləri

Əsas pul emitenti mərkəzi bank və "başqa depozit korporasiyaları" dır. Dünyanın bir çox ölkələrində MHS-yə daxil olan aşağıdakı beş qrup pul emitentləri mövcuddur:

1.Mərkəzi banklar;
2.Kommersiya bankları;
3.Başqa banklar və maliyyə vasitəçiləri;
4.Mərkəzi idarəçilik orqanları və xəzinədarlıq;
5.Poçt xidmətinin əmanət bankları.

Bir sıra ölkələrdə "dünyanın başqa ölkələri" sektoru da pul emitenti təşkilatı hesab edilir. Bu sektor ölkədə dövrüyyədə olan xarici valyutanın, habelə qeyri-rezident maliyyə vasitəçilərində olan əmanətləri və depozitlərinin bir hissəsini öz əlində saxlayır.

Praktiki statistikanın tələblərinə uyğun olaraq emitent sektorları yarımsektorların aşağıdakı kombinasiyalarından biri kimi müəyyən edilə bilər:

a)Mərkəzi bank və depozit pul korporasiyaları;

b)Mərkəzi banklardan və başqa depozit korporasiyalarından ibarət "depozit korporasiyalar" yarımsektoru;

v)Sığorta kompaniyaları və pensiya fondlarından ibarət maliyyə korporasiyaları sektoru;

q)Yuxarıda adı çəkilən sektorlarla başqa kateqoriyaların kombinasiyasından ibarət birlik.

MHS-də nəqd pul dedikdə ölkənin ərazisinin hər yerində tə'diyyələr üçün istifadə edilən banknot, sikkə və ya başqa sərbəst dövr edən instrumentlər nəzərdə tutulur.

Nəqd pula dair mə'lumatı ölkə daxilində olan bütün emitent sektorlardan toplamaq lazımdır. Milli valyutada nəqd pulun əsas emitentləri aşağıdakılardır:

1.Mərkəzi bank;
2.Həm də sərbəst pul orqanları adlanan pul emissiyasını tə'min edən mexanizm (valyuta şurası);
3.Milli banklardan yuxarıda duran Məhəllə bankları;
4.Dövlət xəzinədarlıq şö'bələri;
5.Rəsmi orqanların adından fəaliyyət göstərən xüsusi banklar.

Bə'zi ölkələrin xəzinədarlıq şö'bələri sikkə və ya kağız pul nişanları buraxmaqla məşğul olurlar. Bu pullar adətən dövlət sektoruna

aid edilir.

Adətən ölkədə dövriyyədə olan xarici pul nişanları milli pul nişanı orqanlarının balansında əks etdirilir. Konkret ölkənin ərazisində dövriyyədə olan nəqd xarici pul nişanlarının son emitenti "dünyanın qalan ölkələri" sektorudur.

Bir sıra ölkələrdə xarici pul nişanları dövriyyəyə dövlətin iştirakı olmadan xüsusi banklar, əhali və təşkilatlar tərəfindən daxil edilir. Belə halda pul nişanları xarici dövlətin öhdəçiliyi hesab edilir. "Qəbul edən ölkənin" pul orqanları dövriyyədə olan xarici valyuta ilə əlaqədar heç bir öhdəçiliyə malik olmur. Xarici valyutanın daxili "Saxlayıcıları", "dünyanın qalan ölkələri" sektoruna maliyyə tələbatına malik olurlar.

Başqa hallarda mərkəzi banklar və onun təşkilatları xarici pul nişanlarını alıb satmaqla məşğul olan agent kimi çıxış edirlər.

Müəyyən qrup dövlətlərin ittifaqı çərçivəsində fəaliyyət göstərən məhəlli mərkəzi bankları həmin qruppa daxil olan ölkələr üçün ümumi pul nişanları buraxa bilər, onları vahid fondda saxlayar, regionda dövr edən valyuta üzrə klirinq xidməti göstərər, bu ittifaqa üzv olan ölkələrin mərkəzi banklarına nəzarət edə bilər.

Bə'zi ölkələrdə mövcud olan qanunvericiliyinə əsasən maliyyə sektoru anlayışı MHS-nin təsnifatından kənarlaşır. Məsələn, bə'zi ölkələrin nəşrlərində maliyyə lizinqi kompaniyaların instrumentləri, banklar tərəfindən idarə olunan qarşılıqlı fondlar, broker və maliyyə xidmətləri kompaniyaları və başqaları maliyyə aqreqatlarına daxil edilmədiyi halda lombardlar maliyyə idarəsi kimi təsnifatlaşdırılır. Belə vəziyyət maliyyə idarələri və pul emitentləri anlayışında müəyyən fərqlərin yaranmasına şərait yaradır.

§11.7 Maliyyə instrumentləri və aktivləri, onların təsnifatı BMT-nin tövsiyyə etdiyi sonuncu (1993-cü il) MHS-də ölkələrarası və bir ölkə daxilində iqtisadi münasibətlərin tənzimlənməsində maliyyəyə geniş yer verilir. Beynəlxalq miqyasda maliyyəyə dair toplanan statistika mə'lumatlarının müqayisəliliyinin tə'min edilməsində BVF-nun hazırladığı və bütün ölkələr tərəfindən qəbul olunması tövsiyyə edilən təlimatların rolu böyükdür. Bu təlimatlarda əsas diqqət ilk növbədə maliyyə statistikasına aid olan terminlərin, fəaliyyət sahələrinin, kateqoriyaların və göstəricilərin hamı tərəfindən eyni cür başa düşülməsinə yönəldilir. BVF-nun adı çəkilən təlimatında "maliyyə instrumentləri" və "maliyyə aktivləri" anlayışlarının şərhinə xüsusi yer verilir. "Maliyyə instrumentləri" anlayışı tə'sisət vahidləri arasında bağlanmış maliyyə kontraktlarının geniş dairəsini əhatə edir. "Maliyyə aktivləri" isə MHS çərçivəsində xüsusi ayrılmış maliyyə instrumentləri dəstidir.

Bir sıra şərti maliyyə instrumentləri və yaxud da gələcəkdə icra ediləcək iqtisadi əməliyyatlara tə'minat verən öhdəçiliklər MHS-də maliyyə aktivi hesab edilməyərək nə MHS-nin maliyyə hesabına, nə ölkə üzrə bütövlükdə iqtisadiyyat balansına, nə də iqtisadiyyat sektorlarının balansına daxil edilmir. Lakin, ölkənin ümumi iqtisadiyyatını təhlil edərkən bütün maliyyə aktivlərinə xüsusi diqqət yetirmək lazım gəlir. Məsələn, dövlət orqanlarının, mərkəzi bankların və maliyyə idarələrinin maliyyə vəziyyəti təhlil edilərkən qəbul edilmiş öhdəçiliklərin və müəyyən törəmə maliyyə instrumentlərinin uçotuna ehtiyac yarana bilər. Buna görə də BVF-nun tövsiyyələrinə uyğun olaraq bütün ölkələrdə maliyyə instrumentlərinin mühasibat uçotu və hesabatlarının, habelə təsnifatının təkmilləşdirilməsi prosesi gedir. Son iyirmi ildə maliyyə bazarında baş verən dəyişikliklər nəticəsində ənənəvi maliyyə instrumentləri arasındakı hüdudlar ciddi surətdə pozulmuş və bir sıra yeniləri yaranmışdır. Dəyişikliklər bir qədər dərin xarakter daşıdıqlarına görə mühasibat uçotu və hesabatı ilə məşğul olan milli və beynəlxalq təşkilatlar bütün maliyyə instrumentlərinin müəyyən edilməsi qaydasını və normalarını hərtərəfli yenidən nəzərdən keçirilir. MHS-nin tə'diyyə balansı statistikasının yenidən baxılan normalarında maliyyə yeniliklərini əks etdirən bir sıra dəyişikliklər vardır.

Maliyyə aktivləri iqtisadi aktivlərin bir hissəsidir. Tə'sisat vahidlərinin mülkiyyəti olan iqtisadi aktivlər əmtəə və xidmətlər istehsal etməklə faiz və ya mənfəətin bir hissəsi kimi, mülkiyyətdən gəlir yaratmaqla qiymətlərinin dəyişməsindən və ya dəyərləri saxlama vasitəsi kimi iqtisadi səmərə gətirir.

Maliyyə aktivləri iqtisadi aktivlərdən aşağıdakı əlamətləri ilə fərqlənirlər:

1.Onlar bir tə'sisat vahidinin başqa tə'sisat vahidinin iqtisadi resurslarına tələbnaməsidir;

2. Onlar əmtəə və xidmətlər istehsal etmirlər;

3. Başqa tə'sisat vahidlərinin xalis gəlirində iştirak etməklə faiz şəklində iqtisadi səmərə gətirir.

Maliyyə aktivləri tə'sisat vahidləri arasında bağlanmış müqavilələrə (və ya kontraktlara) əsasən yaranır. Bu müqavilələr rəsmi və qeyri rəsmi ola bilərlər.

Maliyyə aktivlərinin bir çoxu kreditor-borclu münasibətləri yaradır. Bu münasibətli aktivlər, öhdəçiliklər və faiz formasında ifadə oluna bilər. Bunlardan əlavə elə maliyyə aktivləri də vardır ki, onların mövcudluğu tərəflər arasında bağlanmış müqavilələrə əsasən öhdəçiliklərin götürülməsi ilə əlaqədar deyildir. Belə maliyyə instrumentlərin kapital (kapitalda iştirak), sikkə qızılı və SDR aiddir.

MHS-də "şərti" maliyyə aktivlərini də ayırırlar. Bu aktivlər tə'sisat vahidləri arasındakı münasibətlərdə faktiki mövcud olmur. Lakin MHS-də belə maliyyə aktivlərinə aşağıdakılar aid edilir:

1. Maliyyə lizinqi;
2. Geri alınmaq haqqında razılıq;
3. Torpağı və binaları olan şərti tə'sisat vahidlərinə qeyri-rezidentlərin tələbləri;
4. Korporasiya edilməmiş qeyri-rezident müəsisələrin kapitalında ev təsərrüfatlarının mülkiyyatı.

Maliyyə aktivləri tə'sisat vahidləri arasında kommersiya fəaliyyəti və ya qanunvericilikdə nəzərdə tutulan iqtisadi öhdəçiliklərlə əlaqədar əməliyyatlar nəticəsində yaranır.

MHS-də qəbul edilmiş qaydaya (tə'rifə) əsasən şərti instrumentlər və hər hansı qeyri müəyyən hadisədən asılı olan öhdəçiliklərin icrasından yaranan instrumentlər maliyyə aktivlərinə daxil edilmir.

"Maliyyə hesabı"nda onlar (əməliyyatlar) yalnız faktiki maliyyə aktivi yarandıqda və ya bu aktivlərə sahibkarlıq hüququ bir vahiddən başqasına keçdikdə əks etdirilir. Belə halda dəyəri olan və tə'sisat vahidləri arasında alqı-satqı əməliyyatlarının gətirib çıxaran şərti kontraktlar (məsələn, optsionlar) maliyyə aktivi hesab edilir. Beləliklə, təşkil olunmuş birjalarda alqı-satqı əməliyyatlarına obyekti olan istənilən maliyyə instrumentləri maliyyə aktivləri kateqoriyasına aid edilir. Tə'sisat vahidləri MHS-nin aktivləri anlayışına daxil edilməyən müxtəlif qeyri-maliyyə aktivlərinə, hüquqlara və öhdəçiliklərə də malik ola bilər. MHS-də "Kapitalla əməliyyatlar hesabı"nda əks etdirilən aşağıdakı maliyyə instrumentləri maliyyə aktivlərinə daxil edilmirlər:

1.Mal göndərilməsi və ya xidmətlər göstərilməsinə dair fərdi razılaşma müqaviləsi hesab edilən kommersiya və ya işguzar kontraktlar;

2.Patent, ticarət markası və ya "qudvill" (firmanın işguzar əlaqələri və reputasiyasının şərti dəyəri) kimi qeyri-maddi aktivlər;

3.Əmtəə-material ehtiyatları, torpaq, təbii resurslar, tikintilər və əsaslı avadanlıqları daxil edən fiziki aktivlər;

4.Nə istehlak üçün, nə də istehsal prosesində istifadə edilməyən yalnız yığım vasitəsi kimi saxlanılan dəyərlər (zərgərlik məmulatları, incəsənət əsərləri və s.)

Qızıl sikkələr, külçələr və ərintilər yalnız ölkənin rəsmi ehtiyatlarının bir hissəsi olduqda maliyyə aktivi hesab edilirlər. Qalan bütün halda onlar əmtəə (onlar istehsal prosesində istifadə olduqda) və maddi qiymətlilər (onlar yığım vasitəsi kimi çıxış etdikdə) kimi təsnif edilirlər.

MHS-də maliyyə aktivlərinin təsnifatı aşağıdakı kimidir (32-ci cədvələ bax):

Bu təsnifatda istifadə olunan maliyyə instrumentlərinin bə'zilərinin azərbaycanlı oxucular üçün yeni olmasını nəzərə alaraq onların qısa şərhini verək:

1.Sikkə (monetar) qızılı və borc götürmənin xüsusi hüquqi (BGXH). Sikkə qızılı mərkəzi bankların və idarəçilik orqanlarının mülkiyyətində olan və ölkənin beynəlxalq ehtiyat larının bir hissəsini təşkil edən yüksək (995/1000 və yüksək) əyarlı qızıl ərintisi, tirlər və sikkələrdən ibarət ola bilər. Xüsusi hallarda qeyri-dövlət müəssisələrinin mülkiyyətindəki dövlətin nəzarətində olan qızıl da sikkə qızıl hesab edilir.

Yeni hasil edilmiş və ya əmtəəlik qızıl dövlətin rezerv ehtiyatlarının tərkibinə daxil ediləndə qızılın sikkələşməsi baş verir. Qızılın qeyri-sikkələşdirilməsi isə dövlət rezerv ehtiyatlarından çıxarılaraq fərdi istehlakçılara və sərvət yığanlara satıldığı zaman baş verir.

32-ci cədvəl

Maliyyə aktivlərinin genişləndirilmiş təsnifatı

Maliyyə instrumentləri	MHS-nin tə'rifinə əsasən maliyyə aktivləri	Paralel öhdəçilikli aktivlər	Nəqd pullar Depozitlər Ssudalar Borc qiymətli kağızları Sərbəst dövr edən törəmə instrumentlər Sığorta-texniki ehtiyatları Kommersiya krediti Sair debitor və kreditor borcları
		Paralel öhdəçiliyi olmayan aktivlər	Səhmlər və kapitalda iştirakın sair formaları Sikkə qızılı SDR (borc götürmənin xüsusi hüququ)
		Şərti aktivlər	REPO (geri almaq haqqında müqavilə) Maliyyə lizinqi Sair
	Sair maliyyə aktivləri	Birjadan kənar törəmə maliyyə instrumentləri	Svoplar (kontrakt üzrə dəyişmələr) Forvard (tə'cili) kontraktları Birjadan kənar optsionlar
		Tə'minat	Depozitlərə tə'minat Ssudalar və qiymətli kağızlar üzrə tə'minatlar
		Formal öhdəçiliklər	Ticarət əməliyyatları üzrə qiymətli kağızlar Ssuda və emision öhdəçilikləri Sair formal öhdəçiliklər

2.Beynəlxalq ədəbiyyatlarda SDR kimi işlədilən borc götürənlərin xüsusi hüququ ingiliscə Spesial Drawing Right sözlərinin baş hərflərindən yaranmışdır. SDR əşya formasına malik olmur, yalnız mərkəzi bankların hesablarında və BVF-nun xüsusi hesabında əks etdirilir. Likvidlik vəsaiti kimi SDR bu və ya digər ölkənin tə'diyyə balansındakı difisiti örtmək, habelə BVF-na və başqa ölkələrə borcları ödəmək üçün istifadə olunur.

SDR-in dəyəri BVF tərəfindən bu fondun üzvü olan 5 ölkənin valyutaları (ABŞ dolları, Alman markası, Yapon ienası, Fransız frankı və İngilis funt sterlinqi) səbətinə görə hər gün hesablanır. Bu hesablamanı aparmaq üçün hər bir valyutanın səbətdəki həcminin ABŞ dolları ilə mübadilə kursunu onun çəkisinə vurub alınan hasilləri cəmləmək lazımdır. Bu cəm ABŞ dolları ilə SDR-nin kursunu göstərəcəkdir. Hesablamalar zamanı hər bir valyutanın borc götürmədə xüsusi hüququ aşağıdakı kimi bölüşdürülür: ABŞ dolları 40%, Alman markası 21%, Yapon ieni 17%, Fransuz frankı 11% və İngilis funt sterlinqi 11%. Lakin beynəlxalq iqtisadi münasibətlərdə SDR bilavasitə hesablama vasitəsi rolunu oynamır. Bu aktiv mərkəzi banka yalnız tə'diyyə balansının difisitinin ödəmək üçün istənilən valyutanı almaq üçün hüquq verir. Son nəticədə SDR dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən səmərəli alət ola bilmədi və beynəlxalq valyuta rezervlərinin mövcud strukturunda sün'i üstquruma çevrildi.

3.REPO. İngiliscə repurshase agrement (RERO) sözlərindən yaranmış bu ifadəyə görə onların kvotasına uyğun satın alınmaya dair razılaşmanı göstərir.

REPO kontragentə qiymətli kağızların satılması və razılaşdırılması vaxtda onların geriyə satın alınmasını rəsmiləşdirən razılaşmadır. REPO qiymətli kağız və təminatçı ssuda hesab edilir. Satış qiyməti ilə geri alınma qiyməti arasındakı fərq REPO faizi adlanır.

4."Sığorta sertifikatı" (varrantlar) adlı sərbəst satılan və alınan optsionlar alıcıya pul emitetlərindən qiymətli kağızları sərbəst almaq və satmaq hüququ (şərti) verir. Bu sertifikatlar çox vaxt buraxılan istiqrazlarla birlikdə satılır.

Fərdi qaydada və birjadan kənar təşkil edilmiş optsionlar MHS-də maliyyə aktivləri hesab edilmirlər. Buraya alğıya opsion, faiz stavkasının yuxarı ("kep") və aşağı ("flor") hədlərini təyin edən kontraktlar, "kep" və "flor" kontraktlarının birləşməsindən ibarət olan "kollar" kontraktları və s. aid edilir. "Kep", "flor" və "kollar" kontraktları sərhədyanı bazar instrumentləri hesab olunurlar.

5.Forvard (təcili) kontraktları elə kontrakt növüdür ki, ona əsasən tə'sisat vahidi "fiziki" və ya "faktiki" adlı bazis instrumentini saya bilir.

Forvard instrumentlərinin ən çox yayılmış formaları fyuçerslər

(təşkil olunmuş birjada dövriyyə edən), faiz stavkasına dair forvard razılaşması (gələcəkdə göstərilən tarixdə faiz stavkasına sabit saxlamaq üçün banklararası bazalarda istifadə olunan forvard kontraktıdır) faiz svopları (bu maliyyə instrumentində kontragentlər faiz ödənişləri axınını mübadilə edilir), valyuta svopları (sonradan geri dəyişməklə valyuta mübadiləsi kontraktı), faizin valyuta svopları (bu kontraktda əsasən müxtəlif valyutalarda ifadə olunan faiz ödənişləri axını mübadilə edilir) və başqa svoplardır.

6.Svop (intereset rate swap) - elə maliyyə instrumentidir ki, həmin çərçivədə tə'sisat vahidləri arasında ödəniş faizləri axınını mübadilə edirlər. Svopa ödənişlər ilə əsasən qiymətli kağızlarının alınması və ya satılması zamanı qiymətlər müəyyənləşdirilir. Bunun nəticəsində faizli gəlir gətirən qiymətli kağız yaranır.

7.Optsion-alıcıya hüquq verir ki, bazis instrumentini (mübadilə kursu, faiz stavkası və s.) razılaşdırılmış vaxtadək razılaşdırılmış qiymətə alsın və ya satsın.

Bütün optsionlar şərti maliyyə vasitəsi (instrumenti) hesab olunur. MHS-də şərti optsionlar bir qayda olaraq, maliyyə aktivi hesab edilmir. Lakin, optsionlar maliyyə bazarında sərbəst hərəkət etdiyinə görə bazar dəyərinə malikdir və maliyyə aktivi hesab olunurlar. Maliyyə aktivi hesab edilən maliyyə əməliyyatlarının qiymətləndirilməsinə və balans hesablarına daxil edilən optsionların ən adisi birja optsionudur. Bu optsionlar bazar dəyərinə malik olduğuna görə tə'sisat vahidləri arasında aparılan əməliyyatlarda fəal iştirak edir. Birja optsionları fond indeksləri, dövlət xəzinə öhdəçilikləri, mübadilə kursu, əsas faiz stavkası, fəal dövr edən qiymətli kağızlar və başqa bazis instrumentləri üzrə aparıla bilər. Maliyyə instrumentlərinin belə təsnifatı maliyyə idarəsinin ümumi fəaliyyəti təhlil edərkən istifadə edilir.

Maliyyə idarəsinin mə'ruz qaldığı risqi qiymətləndirmək üçün onun aktivlərinin və öhdəçiliklərinin bütün spektrləri, fərdi kapitalın həcmi və kifayətlilik göstəriciləri, balans arxası mövqeyi və onun kredit potensiyalını nəzərdən keçirmək lazımdır.

MHS-nin qəbul etdiyi tə'rifə əsəsan maliyyə aktivləri öz tərkibinə real əməliyyatlar nəticəsində yaranmış maliyyə instrumentini daxil edir.

MHS-də aşağıdakılar arasında fərq qoyulur:

1.Maliyyə instrumentləri ilə əməliyyatlar;

2.Onların qiymətlərinin dəyişməsi;

3. Aktivlərin həcmində sair dəyişikliklər;

4. Ödənilməmiş mövqeylər.

Maliyyə aktivlərinin dəyərinin dəyişməsinin ayrı-ayrı komponentlərinin təhlili maliyyə bazarını müxtəlif baxımdan öyrənməyə imkan

verir.

Ölkənin iqtisadi inkişafı, habelə dövlətin maliyyə və pul-kredit münasibətləri sahəsində aparılan tədqiqatların xeyli hissəsi sektorlar və ya tə'sisat vahidləri arasında resurslar axınının öyrənilməsi ilə əlaqədar olur. Bu da öz növbəsində maliyyə instrumentlərinin səciyyəsinə və onlarla aparılan əməliyyatlara dair mə'lumatların toplanmasını tələb edir. Belə mə'lumatlar MHS-nin və tə'diyyə balansı tərtibində, habelə pul-kredit statistikasında geniş istifadə olunur.

MHS-də müəyyən edildiyi kimi, tə'sisat vahidləri arasında, habelə tə'sisat vahidi ilə "dünyanın yerdə qalan ölkələri" arasındakı əməliyyatlar maliyyə tələblərinin yaranması və ləqvini də daxil etməklə maliyyə aktivlərinə mülkiyyət hüququnun başqasına keçməsi ilə əlaqədar bütün əməliyyatları əhatə edir.

Hər bir əməliyyatın ikitərəfli qeydiyyatı aparılır.

Maliyyə əməliyyatları aşağıdakılardan ibarət olabilər:

-Borc almaq və ya valyuta maliyyə instrumentini satmaq yolu ilə vəsaitləri cəlb etmək;

-Bazar əməliyyatları nəticəsində borc öhdəçiliyi götürmək;

-Maliyyə instrumentləri üzrə öhdəçilikliyinin əsas məbləğini və ya onun bir hissəsini ödəmək;

-Maliyyə instrumentini satmaq;

-Əmtəələri, xidmətləri, hərəkət etməyən mülkiyyəti və başqa aktivləri başqa maliyyə instrumentlərinə dəyişmək;

-Köhnə instrumentləri yeniləri ilə əvəz etmək;

-İnstrumentin qüvvədə olma müddətinin qurtarması.

Aşağıdakı axınlar maliyyə instrumentlərinin yaranmasının mövcudluğunun başa çatmasını və başqa dəyişikliklərini əhatə etsə də "əməliyyat" kateqoriyasına daxil edilmir (onlar ya kapital transfertlərə ya da aktivlərin dəyişməsini əks etdirən başqa kateqoriyaya aid edilir):

-Qızılın sikkələşməsi və qeyri-sikkələşdirilməsi;

-SDR-in bölüşdürülməsi və ləğvi;

-Kreditor tərəfindən silinməsi;

-İnstrumentin qanunla ləğvi;

-Borclunun öhdəçiliklərinin kreditor tərəfindən ödənilməsi;

-Maliyyə instrumentinin birtərəfli verilməsi;

-Borclunun müflisləşməsi nəticəsində maliyyə tələbinin itməsi;

-Şəraitin dəyişməsi ilə əlaqədar olaraq pensiya ödənişlərini alma hüququnun dəyişməsi;

-Tə'sisat vahidləri və maliyyə instrumentlərinin statistik təsnifatlaşdırılması mexanizminin dəyişməsi;

-İqtisadi vahidlərin bir sektordan başqa sektora keçməsi;

-Bazar statusundan qeyri-bazar statusuna (və ya əksinə) keçmək.

§11.8 İslam ölkələrinin maliyyə instrumentləri

İslam ölkələrinin bank fəaliyyətinin tarixi otuz ildən bir azca artıqdır. İslam banklarından keçən aktivlərin həcmi də dünyanın kommersiya banklarında olan aktivlərin ümumi həcmi ilə müqayisədə çox da böyük deyildir. Buna baxmayaraq islam dövlətlərinin birgə bank fəaliyyətinin coğrafiyası xeyli genişdir. Bu ittifaqa daxil olan bank idarələri bir çox ölkələri əhatə edir. Dövlətlərarası islam inkişaf bankı yaradılmış və bir neçə beynəlxalq islam bankı fəaliyyət göstərir. Bəzi islam ölkələri islam bank fəaliyyətinin inkişafına köməklik göstərirlər.

"İslam bankı" adı geniş yayılsa da onların bəzi əməliyyat növləri dünyada yayılmış kommersiya banklarının standart fəaliyyətə uyğun gəlmir. Bu fəaliyyət "İslam maliyyə idarəsi" adına daha uyğun gəlir.

BVF ekspertlərinin fikrincə İslam bank fəaliyyəti standart beynəlxalq kommersiya bank fəaliyyətindən fərqlənməsinin səbəbi onun icmaya xidmət etməsi və faizlər alınmasına dini qadağa qoyulmasıdır. Bunun əksinə olaraq mənfəət almaq üçün kommersiya ticarəti və investisiya mükafatlandırılır. Buna görə də İslam banklarının işi investisiyalarda iştirak etmək, layihələrin realizasiyasından alınan mənfəətin bir hissəsini mənimsəmək, yerinə yetirdiyi xidmətlər üçün haqq almaq və faiz stavkaları arasında fərqə görə mənfəət əldə etməkdən ibarətdir.

Müasir kommersiya banklarına müasir tələbatı ödəmək üçün islam ölkələrində bir neçə növ xüsusi bank hesabları və maliyyə instrumentləri işlənib hazırlanmışdır.

İslam hüququnun tələblərinə uyğun olaraq əvvəlcədən müəyyən edilmiş mənfətlə maliyyə instrumentlərindən istifadə edilməyə icazə verilmir. Lakin, bununla yanaşı, artıq qoyulmuş vəsaitlərdən alınan mənfəəti bölüşdürmək üçün bir neçə düstur təklif edilir. Bazar konyukturasından asılı olan qiymətlərlə (ticarət əlavəsi ilə) əmtəələrin satışı kimi bəzi fəaliyyət sahələrində isə müəyyən sabit mənfəət norması müəyyən edilir.

Bəzi mütəxəsislərin fikrincə İslam banklarının fəaliyyətini iki yerə bölmək olar:

1. Əmanətlərin və depozitlərin ("amanat" və "kard-əl-xasana") saxlanılması;

2. Səhmdarlar və başqa vəsait qoyan vahidlərlə tərəfi-müqabilliklə mənfəət əldə etmək məqsədiylə kommersiya təşkilatlarının kapitalında iştirak etmək.

İslam banklarının depozit fəaliyyəti adi kommersiya banklarının depozitlərin və əmanətlərin saxlanması və hesablardakı qalıqların

bilavasitə köçürülməsi sahəsindəki fəaliyyətinə uyğundur. İrəlidə deyildiyi kimi, əmanətlərə və depozitlərə faizlər hesablanmır. Lakin, banklar bankların nominal dəyərini saxlamağa borcludurlar. Uzunmüddətli əmanət və depozitlər 2,5%-lik yığıma mə'ruz qalırlar. "Zəkat" (kasıblara ianə) adlanan bu vəsait sosial proqramların maliyyələşdirilməsinə yönəldilir.

Beynəlxalq pul-kredit statistikasında İslam banklarındakı əmanətlər və depozitlər standart bank əmanətləri və depozitləri kimi nəzərdən keçirilir.

İslam banklarının partnyorluq (tərəfi-müqabillik) fəaliyyəti eyni vaxtda həyata keçirilən adi bank vasitəçiliyi və qarşılıqlı fondlar və məhdud məs'uliyyətli yoldaşlıq formasında icra edilir. Bu banklar adi maliyyə vasitəçiliyi funksiyasını yerinə yetirərkən depozit instrumentlər buraxmaqla əhalidən və təşkilatlardan vəsaitləri cəlb edir və sonradan bu vəsaitləri kommersiya fəaliyyətini maliyyələşdirmək üçün istifadə edir. Bankların depozit və əmanət xarakterli bu instrumentlərinin xarakterik xüsusiyyəti hər bir konkret investisiya üzrə alınan mənfəət və zərərlərin həm əmanətçilərə və həm də banklara təsir etməsidir. Bunun nəticəsində də "təcili iştirak sertifikatları", "mənfəət və zərərlərin bölüşdürülməsinə sertifikat" və "investisiya depozit sertifikatı" adı ilə məşhur olan əmanətlər və depozitlər kompaniyaların səhmlərinə uyğun xüsusiyiyyətlərə malik olurlar.

Əmanətçilərin və investorların mənfəət almaq məqsədi ilə kommersiya fəaliyyətində iştirakı, habelə bankların bu əməliyyatlarda işkuzar tərəfi-müqabil kimi (maliyyə lizinqi, broker və başqa xidmətlər göstərən idarə kimi) iştirak etməsi nəticəsində vasitəçi idarə kimi, bankın təbiətində müəyyən dəyişikliklər baş verir. Səhmidarlar və depozit saxlayanlarla birlikdə banklara qoyulmuş kapitala mülkiyyət hüququnun olması faktı adi maliyyə vasitəçiyindən fərqli olaraq onları heç bir risq qarşısında qoymur.

İslam bankları adi kommersiya banklarından balansın quruluşuna, bank strategiyasının xüsusiyyətlərinə, risq amillərinin quruluşuna görə də fərqlənirlər. İslam banklarında şəxsi kapitalın həcmi çox olur. Portfel krediti isə çox vaxt qısamüddətli ticarət instrumentlərindən ibarət olur.

Yuxarıda deyilənlərdən əlavə İslam banklarına məxsus olan bir sıra anlayışlar və fəaliyyət formaları da vardır. Onlardan bəzilərini nəzərdən keçirək:

1.Kard-əl-xasana - fiziki şəxslərə faizsiz verilən ssudadır. Bu ssudalar ehtiyacı olanlara və ya hər hansı sosial ehtiyacları (təsil, səhiyə və s.) ödəmək üçün verilir.

2.Mudaraba - investorlarla passiv (yalnız pay verən və idarəçilikdə

iştirak etməyən) partnyor kimi çıxış edən banklar arasında bağlanan razılaşmadır. Bu müqaviləyə əsasən əməliyatlar və depozitlər kommersiya fəaliyyətinə qoyulur və hər bir tərəf mənfəətin əvvəlcədən razılaşdırılmış hissəsini alır. Müdaraba üzrə investisiya sabit vaxt üçün müəyyən edilməklə "investisiya depoziti sertifikatı" və ya "mudaraba sertifikatı" ada alır və adi səhm səciyyəsinə malik olduğu üçün bank aktsepti kimi təsnifatlaşdırılır.

3.Murabaxa - ticarət veksilləri və bank aktseplərinin yenidən uçotuna uyğun olan kontraktdır. Bu kontrakta əsasən bankir əmtəə-maddi ehtiyatları və yolda olan malları maliyyələşdirir. Belə halda banklar alıcı tərəfindən ödənişlərin gecikdirilməsinin əvəzində mal göndərənlərə lazımi ödənişləri həyata keçirilməyi öz üzərinə götürür. Bu da bank aktsepti kimi təsnifatlaşdırılır.

4.Muşaraka - Bankla bankın dövrüyyə kapitalı verdiyi müəssisə arasındakı uzunmüddətli razılaşmadır. Belə halda maliyyələşdirmə investorlar tərəfindən qısamüddətli istiqrazları satmaq hesabına tə'min edilir. Bu fəaliyyət ssuda kimi təsnifatlaşdırılır.

5.İcara - elə kontrakt növüdür ki, ona əsasən banklar aldığı avadanlığı müəssisəyə icarəyə verir. Bank aldığı avadanlığı icarəyə verə bilər, ya da bu avadanlığın istifadəsindən alınan mənfəətin bir hissəsini götürə bilər. Bu fəaliyyət də ssuda kimi təsnifatlaşdırılır.

6.İcara va iktına - icarəyə uyğun kontraktdır. Burada istisnalıq təşkil eyləyən odur ki, aktivə mülkiyyət hüququ, icaraçiya aktivin dəyərinin hissə-hissə ödənilməsi icazə verir. Bu da ssuda kimi təsnifatlaşdırılır.

7.Salaf - qısamüddətli razılaşmadır. Bu razılaşmaya əsasən banklar firmaların buraxdığı məhsulu əvvəlcədən almaq üçün dövriyyə kapitalı verir. Bu fəaliyyət də ssuda kimi təsnif edilir.

8.Tə'cili iştirak sertifikatı-korporasiyanın mənfəətinin bir hissəsi olmaqla hüquq verən uzunmüddətli investisiya instrumentidir. Bu instrumentlər əgər bankın passivində əks etdirilirsə və onun daimi sabit kapitalının bir hissəsi deyilsə əmanət və depozitlər kimi təsnif edilməlidir.

9. Mənfəət və zərərlərdə iştirak sertifikatı və investisiya depozit sertifikatları-kompanyaların səhmlərini yada salan mudaraba sertifikatları kimi investor əmanətləridir.

10. "Zəkat" fondu - sosial məsələləri həll etmək üçün yaradılan xüsusi fonddur. Bu fond əmanətçilərin verdiyi haqlar hesabına yaradılır və islam banklarında saxlanır.

§11.9 Nəğd pul və depozitlər

Maliyyə aktivlərin beynəlxalq təsnifatında "nəqd pul" və "depozitlər" adlı aktivlər ilk sırada yerləşirlər. Maliyyə statistikasında pul ən çox işlədilən analitik kateqoriya (göstərici) olmaqla xüsusi əhəmiyyətə malikdir. Pul başqa mühüm iqtisadi göstəricilərlə (məsrəflər, gəlir, milli gəlir, istehsal, inflyasiya və s.) bilavasitə əlaqədar olduğuna görə ölkənin iqtisadi siyasəti hazırlanarkən və dinamikası təhlil edilərkən başqa göstəricilərlə onların əlaqəsinə xüsusi diqqət yetirilir. Statistik kateqoriya kimi "pul" dedikdə maliyyə vasitəçiləri və başqa idarələrinin birgə müəyyən etdikləri likvidlik öhdəçiliyi anlayışı başa düşülür. Pulun dar və geniş mə'nada tərifi vardır. "Dar mə'nada pul" dedikdə yalnız nəğd pul və "tələb olunanadək" hesablarda olan pul başa düşülür. "Geniş mə'nada pul" öz tərkibinə aşağıdakıları daxil edir:

1. Nəğd pulu;
2. "Tələb olunanadək" hesabda və başqa hesablarda olan və tə'diyyə vasitəsi kimi istifadə olunan pulları.
3. Yüksək likvidliyə malik, dəyərləri saxlamaq üçün istifadə olunan, əməliyyatlarda istifadə etmək üçün asanlıqla nəğd pula çevrilən başqa maliyyə instrumentləri.

Yuxarıda təsvir edilən pul kateqoriyaları MHS çərçivəsində ayrı-ayrı iqtisadiyyat sektorlarının balanslarına əsasən müəyyən edilir. Bu kateqoriyaların MHS ilə əlaqəsi müxtəlif konkret məsələlərin həlli üçün lazım olan statistik aqreqatları qurmağa imkan yaradır, iqtisadi siyasəti qiymətləndirmək və iqtisadi təhlil aparmaq üçün statistika göstəricilərini başqa makroiqtisadi göstəricilər sistemi ilə əlaqələndirməyə imkan verir.

Klasik iqtisad nəzəriyyədən mə'lumdur ki, pul cəmiyyətdə dəyər ölçüsü olmaqla, yığım, tə'diyyə və tədavül vasitəsidir. Tədavül üçün lazım olan pulun miqdarı xüsusi hesablamalar vasitəsi ilə müəyyən edilir.

Ölkədə naqd pulun dövriyyəsini xarakterizə etmək üçün "pul kütləsinin aqreqatları" adlı mütləq göstəricilərdən istifadə edilir.

Pul kütləsi aqreqatları pul tədavülünün tənzimlənməsi məqsədi ilə onun öyrənilməsinə yönəldilən pul kütləsinin həcmini və strukturunu əks etdirən göstəricilərdir. Aşağıdakı aqreqat göstəriciləri fərqləndirirlər:

1. M_0 = tədavüldə olan nəğd pul;
2. $M_1 = M_0$ + bankdan tələb olunanadək hesabdakı vəsait;
3. $M_2 = M_1$ + banklardakı təcili əmanətlər;
4. $M_3 = M_2$ + depozit sertifikatları + dövlət borc istiqrazları;

1993-cü ilin səkkiz ayı ərzində Russiyada pul tədavülünün quruluşu aşağıdakı kimi olmuşdur.

33-cü cədvəl

1993-cü ilin yanvar-fevralında Russiyada pul kütləsinin quruluşu[1]

Pul kütləsinin tərkibi	1993-cü ilin yanvarın 1-nə		1993-cü ilin sentyabrın 1-nə	
	milyard rubllə	yekuna görə %-lə	milyard rubllə	yekuna görə %-lə
1.Nəğd pul (M_0)	1791,6	24,66	7620,6	29,943
2.Kommersiya və əmanət banklarının "tələbolunanadək" hesablarında olan vəsait	4858,6	66,86	15277,7	60,029
3.Kommersiya və əmanət banklarında olan təcili əmanətlər	603,3	8,30	2535,4	9,962
4.Depozit sertifikatlar və dövlət borc istiqrazları	13,2	0,18	16,7	0,66
Cəmi (M_3)	7266,7	100,0	25450,6	100,0

Yuxarıdakı cədvəlin mə'lumatına əsasən pul kütləsinin yuxarıda adı çəkilən aqreqatlarını hesablayaq:

	01.01.93-cü il	01.09.93-cü il	8 ay ərzində artım sürəti %-ilə
M_0	1791,6	7620,8	425,4
M_1	6650,2	22898,5	344,3
M_2	7253,5	25433,9	350,6
M_3	7266,7	25450,6	350,2

Bir neçə il üzrə tədavüldə olan pul kütləsini ÜDM-la (və ya ÜMM-la) müqaisəsi ölkədə inflyasiyanın artmasını və ya azalmasını göstərən defilyator indekslərini verir.

Konkret ölkə üzrə defilyator indekslərini başqa bir ölkənin müvafiq göstəriciləri ilə müqayisəsi inflyasiya tempinin qabaqlanması və ya ləngiməsini əks etdirir.

Milli banklar tərəfində tədavülə pul buraxılışı və tədavüldən pul çıxarması milli bankların kassa hesablarına əsasən (məxaric və mədaxil arasındakı fərq kimi) hesablanır.

Daxili dövriyyədə kredit pulları və onların törəmələri üstünlük təşkil etdikdə tədricən pul sistemi pul-kredit sisteminə çevrilir.

Kredit pulu dedikdə kreditə əsasən qızılın əvəzinə yaranmış kağız dəyər nişanları başa düşür. Kredit pulunun üç törəmə növünü fərqləndirirlər: veksel, banknot və çek. Onların törəmələrinə isə elektron pullar və depozit pullar aiddir.

[1] Журнал "Деньги и кредит". 1993г. N10-11

Depozit - banklarda və ya onabənzər maliyyə idarəsində yerləşdirilən aktiv olmaqla yanaşı həm də bu maliyyə idarəsinin öhdəçiliyidir. Adətən depozitlərə əsasən nominal üzrə nəğd pul və əlavə olaraq hesablanmış faizlər almaq olar.

Depozitlər vəsaitləri saxlamaq, yığım toplamaq, faizdən gəlir əldə etmək, çek tə'diyyələri və valyuta mübadiləsi həyata keçirmək üçün edilir.

Bank əməliyyatları və depozitlər bankların maliyyələşdirilməsinin əsas mənbələridir. Bir çox depozit hesabları üzrə faizlər hesablanır. Lakin, bununla yanaşı hesablara xidmətlə əlaqədar əməliyyatlardan banklara dolayı gəlir gətirən faizsiz hesablara da mövcuddur.

Bir çox ölkələrdə əmanətlər və depozitlər ev təsərrüfatlarının sərəncamında olan maliyyə instrumentlərinin ən böyüyüdür. Odur ki, dövlət depozitlərin saxlanmasının etibarlılığını tə'min etmək üçün onları sığortalayır və tə'minat verir.

Depozitlər qeyri-rəsmi maliyyə bazarında da mövcuddur. Burada ayrı-ayrı kreditorlar və korporasiyalaşmamış müəssisələr əmanətləri qəbul edə bilərlər. Xırda tacirlər və ev təsərrüfatları öz vəsaitlərini (məsələn, gündəlik satışdan aldıqları vəsaiti) yerləşdirə bilərlər.

Avropa hesabdarlıq sistemində (AHS) depozitlərlə ssudaları biribirindən ayırmaq üçün müəyyən normalardan istifadə olunur. Bu normalar yerli şəraiti nəzərə almaqla istifadə olunur. AHS tövsiyyələrinə əsasən ssudalar borc götürənin, depozitlər isə borc verənin təşəbbüsü ilə verilir. Bu tövsiyyələrə əsasən pul-kredit maliyyə idarələrinə verilən bütün qısamüddətli ssudalar əmanət və depozit kimi, başqa maliyyə idarələrində əsas qısamüddətli əmanət və depozitlər isə ssuda kimi təsnifatlaşdırılır.

İstənilən anda cərimə və məhdudiyyətlərsiz nominalı üzrə pula çevrilən çek, trat və jirotapşırıqlarına sərbəst köçürülən və tə'diyyələri həyata getirmək üçün başqa yolla geniş istifadə olunan əmanət və depozitlər likvidlik əmanətinə daxil edilirlər. Likvidlik əmanətləri və depozitləri ifadə olunduqları valyuta, habelə yerləşdikləri rezident və qeyri-rezident idarələrə görə təsnifatlaşdırılır.

Qarşılıqlı fondlar tərəfindən təklif edilən instrumentlər də depozitlərə yaxındırlar. Bu hesablar üzrə çeklərin köməkliyi ilə hesabların silinməsinə icazə verilir və sabit nominal dəyər müəyyən edilir. Qarşılıqlı fondların belə instrumentləri əmanət və depozitlər kimi təsnifatlaşdırılır və bəzən də ölkədə istifadə edilən pul aqreqatlarına daxil edilir. İnkassa üçün çeklər də bu kateqoriyaya aid edilir. Lakin, müəyyən edilmiş vaxtadək ödənilməmiş qalan çeklər vaxtı ötmüş hesab edilərək "sair qısamüddətli debitor borcları" kateqoriyasına daxil edilir.

Likvidlik depozitlərindən başqa mərkəzi banka, idarəçilik orqanları

və maliyyə idarələrinə bütün tələbnamələr, sair əmanət və depozitləri təşkil edir. Buraya aşağıdakılar aiddir:

-Yalnız müəyyən müddət keçdikdən sonra götürülə bilən və ya müəyyən məhdudiyyətə malik olan tə'cili depozitlər və əmanətlər;

-Xarici valyutada ifadə olunan qeyri-köçürmə əmanətləri və depozitləri;

-Maliyyə idarələrinin kapitallarında iştirak;

-Mərkəzi bankda olan məcburi rezervlər;

-Ssudalar istisna olmaqla BVF-na tələbnamələr;

-Mərkəzi bankda olan başqa depozitlər.

Bunlardan əlavə mərkəzdən planlaşdırma şəraitində olan ölkələrdə ev təsərrüfatlarının tə'cili hesablarında olan depozitləri də bu kateqoriyaya aid edirlər.

Elektron tə'diyyələr texnoloqiyası sahəsində tərəqqi bir sıra müxtəlif və yeni ödəniş vəsaitlərinin hazırlanmasına imkan yaradır. Son dövrlərdə bir neçə yeni tə'diyyə üsulları istifadəyə daxil edilmişdir. Onlardan ən əsasları aşağıdakılardır:

1.Çeklərin yerinə yetirdiyi funksiyanı icra edən debet kartoçkaları;

2.Əvvəlcədən müəyyən edilmiş məbləğlə "Pul kartoçkaları". Belə kartoçkalar əmtəə və xidmətlərin dəyərini ödədikdə istifadə edilə bilər. Onları sensor qurğularından keçirdikdə əməliyyatın dəyəri kartoçkadan silinir. Əvvəlcədən həyata keçirilən telefon ödənişləri buna misal ola bilər;

3.SMART-kartlar. Bu kartlarda müəyyən məbləğ kodlaşdırılır. Onlardan istifadə zamanı göstərilən məbləğ kartdan silinərək satıcının kartoçkasına və ya hesabına köçürülür. Belə kartoçkalar nəğd pul kimi dövr edə bilər. Belə kartların bir çox dəfə istifadə edilən formaları da mövcuddur. Həmin kartlara yeni vəsaitlər köçürülə və sonradan silinə bilər.

4. Əməliyyatları təşkil etmək, ödənişləri və vəsaitlərin köçürülməsini həyata keçirmək üçün kompyuter şəbəkəsindən də istifadə etmək olar.

Elektron pulların Azərbaycanda tətbiqi üçün hər cür obyektiv zəmin vardır və bu istiqamətdə müəyyən işlər görülməkdədir.

Elektron ödəniş sistemi çağdaş iqtisadiyyatda bank sektorunun işlərində əsas amildir.

Dünyanın inkişaf etmiş ölkələri hər il ödəniş sistemlərinin (PAYMENT SYSTEM) inkişafına çox böyük miqdarda vəsait sərf edirlər, çünki bunun faydası göz önündədir və ikili səciyyə daşıyır. Makrosəviyyədə bu ölkənin pul kütləsinin tədavülünü və nəğd pulların bank dövriyyəsinə cəlbolunma sür'ətini artırır və bununla da iqtisadiyyatda işgüzar fəallığın yüksəlməsinə təkan verir, mikrosəviyyədə

(kommersiya bankları səviyyəsində) bu bank xidmətləri bazarının genişləndirilməsi, əlavə gəlir mənbələri və sairdir.

Elektron ödənişlər sistemində iki iriləşdirilmiş növü fərqləndirirlər:

1.İri ödənişlər sistemi (valyuta və fond bazarları vasitəsilə bu bazarların iştirakçıları tərəfindən gerçəkləşdirilən ödənişlərin iri həcmləri;

2.Xırda ödənişlər sistemi (plastik kartlar, çeklər və s.) əsasında.

Azərbaycanda fond bazarı-qiymətli kağızlar, banklararası kreditlər və s. bazarı hələlik yalnız formalaşdırılma mərhələsində olduğundan (hətta tam ölçüdə qanunvericilik bazası belə yoxdur) yalnız xırda elektron ödənişlər sistemi intensiv inkişaf edə bilmişdir.

Aparıcı kommersiya bankları - Azərbaycan Beynəlxalq Bankı, Mostbank, Azərbaycan Rabitə Bank, Azərdəmiryol Bank, Azəriqaz Bank və s. plastik kartların emissiyası hüququnu verən beynəlxalq ödəniş sistemlərinin üzvləri olmuşlar. Hazırda dünyada ən geniş yayılmış və alınanlar - VISA, EUPO SARD/MASTER SARD, AMERISAN EXPRESS, PINERS SLUB, JBS plastik kartlarıdır. Onlar VISA INTERNATIONAL, EUROPAY INTERNATIONAL və s. beynəlxalq hesablaşma şirkətlərinə (ödəniş sistemlərinə) məxsusdur. Azərbaycanda hələlik ilk iki şirkətin məhsulları VISA plastik kartlarının beş növü və EUROPAY plastik kartların 4 növündən istifadə olunur, onlar kredit kartlar ilə dünya üzrə dövriyyənin 90% qədərinə nəzarət edirlər

Kağız əsaslı nağdsız hesablaşma sistemində (tə'diyyə sistemləri, tə'diyyə tələbnamələri) banklararası hesabların gerçəkləndirilməsində əsas mexanizm Milli Bankın mərkəzi əməliyyat idarəsidir. Elektron ödənişləri şəraitində bu, prosessinq mərkəzidir. Belə bir prosessinq mərkəzi - Azərikard respublikamızda yaradılmış və fəaliyyt göstərməkdədir.

Azərikard - plastik kartlar, çeklər, elektron pul köçürülmələri və s. köməyi ilə aparılan maliyyə əməliyyatları üzrə regional banklararası klirinq sistemdir (BKS). Azərbaycanın Beynəlxalq Bankı və Mostbank-Azərbaycan birlikdə Azərikardın yaranmasına 1,5 milyon dollar vəsait sərf etmişlər.

Plastik kartların (və çeklərin) köməkliyi ilə bağlanan sövdaların ən geniş yayılmış növləri aşağıdakılardır:

1. Pərakəndə ticarət sövdaları;
2. Xidmətlərin ödənilməsi (kommunal, servis və s.);
3. Bankomatlar vasitəsiylə nəqd pul verilməsi;
4. Nəqd pulların kassa vasitəsiylə verilməsi;
5. Poçt, telefon və İnternet şəbəkəsi və s. vasitəsiylə əmtəələrin sifarişi.

Bu fəaliyyət sahələrinin hər bir növü və istifadə edilən plastik kartların tipindən asılı olaraq müxtəlif texniki qurğuların-imprinqterlərin, ticarət terminal və bankomatların bazasında gerçəkləşdirilir.

Azərbaycanda elektron ödənişlər sisteminə keçid üçün hazırda Milli Bankın kifayət qədər nə texniki vəsaiti (kompyuter şö'bəsi, klirinq proqram tə'minatı, nəzarət, ona daxilolma, müdafiə sistemləri və s.), nə də hazır milli kadrları yoxdur. Nəticədə banklararasında dollarla klirinq prosesi birgün ərzində, milli valyuta ilə kommersiya banklarının bütün müxbir hesabları Milli Bankın mərkəzi əməliyyat idarəsində cəmləşdiyindən bu əməliyyatlar 4-5 gün vaxt aparır.

Depozit pullarla bank əmanətlərinin bir hesabdan başqasına köçürülməsi yolu ilə banklar arasında aparılın xüsusi hesablaşma sistemidir.

§11.10. Sair maliyyə aqreqatları

Beynəlxalq statistikada aşağıdakılar sair maliyyə aqreqatları hesab olunurlar:

1.Pul bazası (rezerv pullar);
2.Beynəlxalq rezervlər (beynəlxalq likvidlik vasitələri);
3. Xalis xarici aktivlər və xalis daxili aktivlər;
4. Bank rezervləri;
5. Öz kapitalının kifayətlilik əmsalı;
6. Pulun dövriyyəsi sürəti.

Hər bir konkret halda aqreqat göstəricilər müəssisələr qrupunda müəyyən aktivləri və öhdəçiliklərini birləşdirmək yolu ilə "statistika mə'lumatlarının bazis bloku" kimi MHS-nin müəyyən etdiyi qaydalara əsasən formalaşır.

Pul bazası iqtisadiyyatda pul və kredit emisiyasının əsas rolunu oynayan maliyyə instrumentləri dəstindən ibarətdir. Pul bazası "Rezerv pul" və ya "Yüksək gücə malik pullar" kimi də adlana bilər. Dar mənada pul kütləsinin pul bazasına nisbəti "pul multipikatorları" adlanır.

Pul bazası iqtisadi siyasətin məqsədli aralıq göstəricisi olduğu üçün bir çox pul nəzəriyyələrində vacib kateqoriya hesab edilir və tənzimləyici orqanların nəzarəti altında olur. Bu kateqoriya gəlirlərin həcminə, istehsalın və qiymətlərin səviyyəsinə ciddi təsir göstərir.

Müxtəlif balans maddələrinin nisbətinə əsasən pul bazasının üç formada müəyyən edilir:

1.Birinci forma maliyyə vasitəçiləri, əhali və təşkilatların müəyyən aktivlərində avuarlarına əsaslanır. Bu baxımdan pul bazasına əhalidə və təşkilatlarda olan nəğd pul, vasitəçi təşkilatların kassa rezervləri və vasitəçi təşkilatların mərkəzi bankdakı rezerv depozitləri daxil edilir. Pul multipikatoru (m) pul bazası (B) ilə pulun kütləsi (M) arasında

aşağıdakı qarşılıqlı əlaqəni əks etdirir: M = mB

2.İkinci baxımdan pul bazasının əsasını mərkəzi bankların və idarəçilik orqanlarının pul öhdəçikləri təşkil edir. Bu baxımdan pul bazasına mərkəzi bankın nəğd pulu, depozitləri və buna bənzər başqa öhdəçikləri, idarəçilik orqanlarının pul öhdəçikləri və dövriyyədə olan sikkə daxil edilir. Rəsmi orqanların adı çəkilən öhdəçilikləri tə'diyyələri həyata keçirmək üçün öhdələrinə götürdükləri iltizam (təəhhüd) olmaqla maliyyə vasitəçiləri tərəfindən kredit vermək üçün, əhali və təşkilatlar tərəfindən isə əməliyyatları həyata keçirmək üçün istifadə oluna bilər.

3.Üçüncü baxımdan pul bazası mərkəzi bankın balansının aktivində əks etdirilən istrumentlərə əsasən müəyyən edilir. Belə halda pul bazası mərkəzi bankın maliyyə aktivləri ilə onun qeyri-pul öhdəçiliklərinin fərqi kimi müəyyən edilir. Belə halda maliyyə aktivlərinə aşağıdakılar aid edilir:

1.Mərkəzi bank tərəfindən verilən müxtəlif formalı kreditlər;

2.Beynəlxalq rezervlər (qızıl, SDR valyuta rezervləri);

3.Rezerv xarakterli olmayan valyuta aktivləri;

4.Avuarlar formasında olan sikkə və idarəçilik orqanları tərəfindən buraxılmış nəğd pulun başqa formaları.

Pul bazasının müəyyən edilməsinin irəlidə təsvir edilən üçüncü variantı "kənar" və ya "ekzoqen" pul anlayışlarına çox yaxındır. "Ekzoqen pul" iqtisadiyyatda kreditorlar və borcluların qarşılıqlı hərəkətindən kənarda yaranır. Belə pullar vəsaitlərin beynəlxalq axını nəticəsində mərkəzi bankda yaranmış aktivlərdən ibarət olmaqla tədiyyə balansında əks etdirilir.

Pul bazası "ekzoqen pula" nisbətən daha geniş kateqoriyadır.

Beynəlxalq rezervlər pul-kredit tənzimləməsi ilə məşğul olan orqanlar tərəfindən nəzarətdə saxlanılan və tə'diyyə balansının kəsirini maliyyələşdirmək üçün birbaşa, habelə valyuta bazarında mübadilə kursunu dəyişməklə bu prosesə dolayı təsir etmək üçün istifadə edilə bilən xarici (kənar) aktivlərdən ibarətdir. Rezerv aktivlərinə sikkə qızıldan, SDR, BVF-dakı rezerv mövqeydən, valyuta aktivlərindən (naqd xarici valyutalar, əmanətlər, depozitlər, qiymətli kağızlar və s.) və başqa öhdəçiliklər daxil edilir;

Beynəlxalq rezervlər tə'diyyə balansında sərbəst funksional kateqoriya kimi ayrılır və bir çox hallarda ölkənin tə'diyyə balansının vəziyyətini qiymətləndirmək üçün istifadə olunur.

Beynəlxalq rezervlərə dair statistika mə'lumatları pul-kredit siyasətini həyata keçirərkən və tə'diyyə balansının tərtibi zamanı ən mühüm kateqoriya kimi nəzərə alınır.

Bu rezervlər standart əməliyyatlar nəticəsində xarici valyuta axınını

tənzimləmək, mübadilə kursuna tə'sir göstərmək, qeyri sabit bazarda qiymətlərin tərəddüdünü hamarlamaq və valyuta böhranı baş verdikdə fəal müdaxilə üçün istifadə edilir.

Dönərli olmayan aktivlər və müəyyən məhdudiyyət qoyulmuş aktivlər rezerv hesab edilmir. Rezervlər kateqoriyasına yalnız faktiki aktivlər daxil edilir.

Mərkəzi banklar və idarəçilik orqanları xarici valyutada ifadə olunan xarici aktivlərə malik ola bilərlər. Belə aktivlər tə'diyyə balansını ödəmək üçün istifadə edilə bilindiyinə görə rezerv hesab edilmir. Rezerv aktivlərlə əməliyyatlar aktivlərin yenidən qiymətləşdirilməsini və başqa dəyişiklikləri nəzərə almır.

Beynəlxalq maliyyə statistikasının nəşrləri üçün hər ay bazar kursu ilə beynəlxalq rezervlərə dair mə'lumat toplayırlar. BVF-nun apardıqları təhlil zaman rezervlərin valyuta tərkibi haqqında da mə'lumatlar toplanır. Belə mə'lumatlar həm də milli aqreqatların xarici valyutaların növləri üzrə qlobal aqreqatlarla əlaqələndirilməsi zamanı da istifadə olunur.

Maliyyə təhlilində və proqramlaşdırmada "Xalis xarici aktivlər" və "Xalis daxili aktivlər" kateqoriyaları istifadə edilərkən əsas götürülən eyniliyə uyğun olaraq maliyyə sektorunun pul öhdəçiliklərinin (rezidentlərə münasibətlərdə) məbləği bu sektorun xalis daxili aktivlərin və xalis xarici aktivlərin məbləğinin cəminə bərabərdir.

Bank rezervləri əmanətçilərə vəsait vermək, banklararası hesablaşmaları aparmaq və gözlənilməz hallarda istifadə olunmaq üçün maliyyə vasitəçiləri tərəfindən saxlanmış aktivlərdir. Rezervlər adətən mərkəzi bankda faizsiz əmanətlər və depozitlər formasında, klirinq hesablarda qalıq və bank xəzinələrində saxlanılan nəğd pul vəsaitləri formasında olurlar. Rezervlərin üç növünü fərqləndirirlər:

1.Qanunla müəyyən edilmiş rezervlər. Belə rezervlər qanuna əsasən depozit korporasiyaları və başqa vasitəçilər tərəfindən yaradılır. Adətən belə rezervlərin sabit norması əmanət və depozit öhdəçiliklərinə nisbətən faiz şəklində müəyyən edilir.

2.Funksional rezervlər. Bunlar maliyyə vasitəçiləri tərəfindən saxlanılan və nəğd pula olan tələbatı ödəmək üçün onların sərəncamlarında olan aktivlərdir.

3.Statistik rezervlər. Bu rezervlər nəğd pul vəsaitlərinin üzərinə depozit korporasiyalarının mərkəzi bankında idarəçilik orqanlarına likvidlik tələbnamələrini cəmləməklə tapılır. Bu rezervlər mərkəzi bankların və idarəçilik orqanlarını pul bazasını təşkil edən instrumentlər üzrə öhdəçiliklərinə kontr maddə kimi nəzərdən keçirilə bilər.

Statistik məqsədlər və beynəlxalq müqaisələr üçün aktivlər sadələş-

dirilmiş metodla hesablanır. Belə halda bu kateqoriyaya depozit korporasiyalarının mərkəzi bankda olan naqd pul vəsaitləri, əmanətləri, depozitləri və habelə mərkəzi bankda olan başqa tələbnamələr (ssudalar üzrə tələbnamələr, mərkəzi bankların qiymətli kağızları və s.) aid edilir.

Bir çox ölkələrdə bu məbləğ qanunla müəyyən edilən rezervlərə uyğun gəlir.

Məcburi ehtiyatlardan əlavə bankların sərəncamında "sərbəst rezervlər" və ya "artıq rezervlər" də olur (və ya olmalıdır). Belə rezervlər kommersiya əməliyyatları aparmaq və tələbatın təbii tərəddüdlərinə uyğunlaşmaq üçün istifadə olunur.

BVF-nun tövsiyyəsinə əsasən statistika orqanları qanunla müəyyən edilmiş rezervlərdən istifadəyə dair mə'lumatları toplamalı və nəşr etdirilməlidirlər.

Bank rezervlərinə dair statistika mə'lumatları iqtisadi siyasətdə məqsədli aralıq göstəricisi kimi istifadə olunduğuna görə ölkənin pul-kredit siyasəti üçün böyük əhəmiyyətə malikdir.

Bank tənzimlənməsinə dair beynəlxalq normalarda beynəlxalq banklar üçün öz kapitalının minimum səviyyəsi müəyyən edilmişdir. Bu normalar qəbul edilən zaman onlar maliyyə vasitəçilərinin aktivləri üzrə kredit risqindən qorunmaq üçün nəzərdə tututlurdu. Hal hazırda belə normalar maliyyə aktivlərini bazar qiymətlərində baş verən dəyişikliklərlə əlaqədar risk faizini və risk amilini uçota almaq üçün istifadə olunur. Bu normalar kapitalın müəyyən formalarının nisbəti və risk dərəcəsinə görə çəkiləşdirilmiş kəmiyyət olmaqla maliyyə vasitəçilərinin aktivlərini əks etdirir.

Pul dövriyyəsinin sürəti göstəricisi konkret həcmdə əməliyyatı həyata keçirmək üçün istifadə olunan pulun dövriyyə sürətini (PDS) ölçmək üçün istifadə olunur.

PDS = Nominal ÜDM / Pul kütləsi

Pul dövriyyəsinin sürəti (PDS) Fişerin tənliyinə və Kembric tənliyinə əsasən də hesablanır.

Fişerin mübadilə tənliyi mühasibət eyniliyi olmaqla əmtəə və xidmətlərə sərf edilən pulun məbləği ilə həmin əmtəə və xidmətlərin həcminin onların qiymətlərinə hasillərinin cəminə bərabərliyini göstərir.

$$MV = PT$$

Buradan tədavül üçün lazım olan pulun miqdarını da tapmaq olar.

$$M = PT : V$$

Burada M - pul kütləsi,
V - pulun dövriyyə sürətini,
P - əmtəə və xidmətlərin qiymətini,

T - əmtəə və xidmətlərin aparılan əməliyyatların miqdarını göstərir.

PDS (V) əməliyyatın nominal dəyərinin (PT) pul kütləsinin həcminə (M) nisbəti kimi ifadə olunur.

$$V = PT : M$$

Fişerin tənliyində pul axını və əməliyyatın keçirilməsi ilə əlaqədar kateqoriya kimi nəzərdən keçirilir.

Kembric tənliyi aşağıdakı formaya malikdir

$$M = KPT$$

Burada $K = \frac{1}{V}$ olmaqla verilmiş pul kütləsinin hansı müddət ərzində əmtəə və xidmətlərin əldə edilməsinə istifadə oluna biləcəyi vaxt müddətini və ya pul qalığı formasında saxlanılan gəlirlərin həcmini göstərir. Belə halda pul alıcılıq qabiliyyəti ehtiyatı kimi çıxış edir və nəzəri baxımdan öz tərkibinə geniş likvidlik instrumentləri spektrlərini daxil edə bilir.

PDS müasir pul-kredit siyasətində böyük rol oynayır və indikator kimi istifadə oluna bilər. Müasir pul nəzəriyyələrində təsdiq edilir ki, əgər PDS və əməliyyatın həcmi qısa müddətli planda sabit kəmiyyət olarsa, pulun miqdarının dəyişməsi qiymətlərin mütənasib dəyişməsinə səbəb olur.

§11.11 Milli və dünya valyuta sistemləri

"Milli valyuta sistemi" dedikdə daxili pul dövriyyəsini və ölkənin beynəlxalq hesablaşmaları sferasını əhatə edən pul münasibətlərinin təşkili forması başa düşülür. Beynəlxalq iqtisadi münasibətlər inkişaf etdikcə milli valyuta sistemləri əsasında beynəlxalq hesablaşmaların dünya valyuta sistemi yaranır. Beynəlxalq hesablaşmalar dövlətlər arasında və eləcə də müxtəlif ölkələrin ərazisində olan təşkilatların, firmaların və vətəndaşların arasında aparılan hesablaşmalardır. Beynəlxalq hesablamalar sferasında iki əsas problem yaranır:

1.Milli pul vahidlərinin xarici pul vahidlərinə mübadiləsi zamanı nisbətləri necə müəyyənləşdirmək və tənzim etmək;

2.Milli iqtisadiyyatın xarici dünya ilə hesablaşmalarının qeyri tarazlığı problemini necə həll etməli?

Beynəlxalq hesablaşmalar zamanı bütün münasibətlər kompleksi öz əksini tə'diyyə balansında tapır. Bu və ya digər ölkənin tə'diyyə balansındakı qeyri tarazlıqlar onun hamarlanması mexanizmini hərəkətə gətirməyi tələb edir.

Pul tədavülü və beynəlxalq hesablaşmaların təşkilat sistemi milli pul vahidlərinin arxasında duran sabit qızılın miqdarını (paritetini) müəyyən etməyi nəzərdə tutur. Müəyyən edilmiş qızılın pariteti həm də onun rəsmi qiymətidir. Dövriyyədə olan qızıl sikələr qanunla

tə'diyyə vasitəsidirlər. Ona görə də beynəlxalq təcrübədə müəyyən edilmiş qaydalara əsasən mərkəzi banklar kağız pulları (banknotları, pul nişanlarını və s.) nominala uyğun qızıla çevirməyə borcludurlar. Bu məntiqə uyğun olaraq tarixin müəyyən dövrlərində istənilən formada qızılın sərbəst aparılıb gətirilməsinə icazə verilirdi. Ölkələrin valyuta kursu milli pul vahidlərinin qızıl pariteti əsasında qeydə alınırdı və yalnız dar "qızıl nöqtələrində" qızılın daşınması və sığortası ilə əlaqədardar ölkələrarası daşınma xərclər qədər fərqlənirdilər.

Tarixən öz klassik formasında qızıl standartı XIX əsrin əvvəlində İngiltərədə formalaşmış və həmin əsrin sonunadək dünyanın sənayecə inkişaf etmiş bütün ölkələrini əhatə edərək dünya sisteminə çevrildi. Qızıl standartı şəraitində tə'diyyə balansının tənzimlənməsi qızılın fərdi kanallarla bir ölkədən başqasına özbaşına axını yolu ilə həyata keçirilməsinə şərait yaratdı. Beynəlxalq hesablaşmaların tənzimləməsində dövlət praktiki olaraq iştirak etmirdi. Tədiyyə balansının qeyri-tarazlığının əsas tənzimləyicisi rəsmi qızıl ehtiyatları idi.

Kapitalın beynəlxalq hərəkətinin inkişafı, habelə kredit və qeyri-naqd pulların hakim mövqe tutduğu daxili ödəniş mexanizminin təkamülü qızıl standartı sisteminin ləğv edilməsi üçün obyektiv əsas yaratdı. Bunun nəticəsi kimi tə'diyyə balansı saldosunun yaranması və ödənilməsi mexanizmi də keyfiyyətcə dəyişdi. Beynəlxalq hesablaşmaların cari balanslaşdırılmasını həyata keçirmək üçün dövlət orqanlarının sərəncamında olan iqtisadi tənzimləmə vasitələri xeyli genişləndi. Valyuta kursunun yüksəlməsi və enməsi, faiz stavkalarının dəyişməsi, əmtəələrin, xidmətlərin və kapitalın hərəkəti zamanı inflyasiya və defilyasiya siyasətini yeritmək, beynəlxalq kredit və borclardan istifadə və s. tə'diyyə balansını müvəqqəti olaraq tarazlanmış halda saxlamaqa imkan yaratdı. Həm də aydın oldu ki, müxtəlif ölkələrdən olan tərəfi-müqabillər arasındakı münasibətlər müntəzəm təkrar olunduğu halda xarici valyutanın (nəğd və qeyri-nəğd halda) toplanması vacibdir və mümkündür. Toplanmış belə xarici valyuta ehtiyatları hesabına partnyorlar arasındakı borcları və öhdəçilikləri də ödəmək mümkün idi. Pul vəsaitləri üzrə köçürmələrin fasiləsizliyi kommersiya və milli bankların hesablarında olan valyuta ehtiyatları hesabına təmin olunur. Nəticədə beynəlxalq hesablaşmalarda geniş tətbiq olunan hər hansı xarici valyuta ehtiyatı yarandı. Bütün bunlar qızıl standartı sistemini ləğv etmək üçün obyektiv əsas yaratdı.Birinci dünya müharibəsindən sonrakı dövrdə və ikinci dünya müharibəsi dövründə dünya iqtisadiyatında və beynəlxalq münasibətlərindəki qeyri sabitlik bu prosesi daha da gücləndirdi və katalizator rolunu oynadı.

Beynəlxalq valyuta sisteminin yenidən qurulması planı ikinci dünya müharibəsinin əvvələrində hazırlansa da onun hərəkəti prinsipinin

mexanizmi 1944-cü ildə Bertton-Vudsda (ABŞ-da) BMT-nin valyuta-maliyyə məsələlərinə həsr etdiyi konfransında e'lan edildi. Bretton-Vuds valyuta sisteminə görə ABŞ dolları (və bir qədər az miqdarda ingilis funt sterlinqi) qızılla yanaşı rezerv funksiyasını həyata keçirir və bu məqsədlə də qızıla dəyişdirilirdi. Belə dəyişmə zamanı qiymətlər sabit saxlanılırdı: qızılın 1 untsiyası (31,1 qram) 35 dollara bərabər götürülürdü, qeydə alınmış milli valyutalarla əsasən beynəlxalq münasibətlərin tənzimləməsi ilə isə Beynəlxalq valyuta fondu məşğul olurdur.

Qızıl valyuta standartlarının normal fəaliyyət göstərməsi üçün dünya iqtisadiyyaının yüksəliş tempinə uyğun valyuta və qızıl ehtiyatlarının da artırılması tələb olunurdu. Belə tarazlıq qızılın qiymətini sabit saxlanmaqa imkan yarandırdı. Lakin, təcrübədə vəsait (dollar, funt sterlinq) ehtiyatlarının azlığı dünya ticarətini ləngidə, onun artıqlığı isə valyuta kursunun qeyri -sabitliyinə səbəb ola bilərdi.

Yeni valyuta sistemi şəraitində mərkəzi bankların rezervlərində valyuta komponenti qanuna uyğun olaraq artmağa başladı. 60-cı illərin sonunda ABŞ dolları beynəlxalq hesablaşmaqlarda inhisarçı rolulu oynayırdı. Bunun nəticəsi olaraq bütün dünya ölkələrinin qızıl-valyuta ehtiyatlarının tərkibində dolların xüsusi çəkisi 1950-ci ildəki 9%-dən 1970-cı ildə 75%-ə yüksəldi. Bununla yanaşı amerika iqtisadiyyatının rəqabət qabiliyyətinin nisbi azalması nəticəsində 70-ci illərdən sonra ABŞ-nın tə'diyyə balansında mənfi saldo xarakterik hala çevrildi və dollara etibar azaldı. Beynəlxalq rezervlərdə dolların ehtiyatı ABŞ-ın qızıl ehtiyatlarını bir neçə dəfə ötüb keçdikdə başqa ölkələr dollar ehtiyatlarını qızıla dəyişdirməyi tələb etdilər. ABŞ isə rəsmi olaraq 15 avqust 1971-ci ildən amerika dollarının qızıla dəyişdirilməsini dayandırdı. Buna görə də Qərbi Avropa dövlətləri dolların kursunun müdafiəsindən imtina etdilər. Bu da öz növbəsində dolların kursunun enməsinə və qalxmasına səbəb oldu.

§11.12.Valyutaların dönərliyi və valyuta kursu

Müxtəlif əməliyyatlar üzrə valyuta sövdələşmalarının tənzimlənməsinin milli rejimi rezidentlər və qeyri-rezidentlər üçün valyutaların dönərlilik dərəcəsini müəyyən edir. Bu baxımdan bütün valyutaları aşağıdakı üç qrupa bölmək olar:

1.Sərbəst dönərli valyuta;

2.Qismən dönərli valyuta;

3.Dönərli olmayan (qapalı) valyuta.

Rezidentlər və qeyri-rezidentlər tərəfindən istənilən əməliyat növünün (ticarət, qeyri-ticarət, kapitalın hərəkəti) aparılmasına qanunla məhdudiyyət qoyulmamış bütün valyutalar sərbəst dönərli valyuta

(SDR) hesab edilir.

Müxtəlif əməliyyat növləri və ya valyuta sövdələşmələrinin müxtəlif subyektləri üçün valyuta mübadiləsinə müəyyən miqdar məhdudiyyəti qoyulan və ya xüsusi icazə tələb olunan valyuta qismən dönərli valyuta hesab olunur.

Praktiki olaraq bütün əməliyyat növləri üzrə qanunvericilik yolu ilə məhdudiyyət qoyulmuş ölkələrin valyutası dönərli olmayan və ya qapalı valyuta hesab olunur. 1992-ci ilədək keçmiş SSRİ-nin valyutası (rubl) dönərli olmayan valyuta idi.

1978-ci ildə qüvvəyə minən BVF-nun nizamnaməsinə edilən düzəlişdə dünya valyuta sistemində baş verən dəyişikliklər öz əksini tapdı. Onların mahiyyəti aşağıdakılardan ibarətdir:

1. Qızılın rəsmi qiyməti aradan götürülür.
2. Rəsmi oaraq enən və qalxan (üzən) kurs müəyyən edilir.
3. BVF-na üzv olan dövlətlərin daxili və xarici iqtisadi siyasətinin əlaqələndirilməsinə tələb artır.
4. Borc götürmənin xüsusi hüququnu (spesial drawinq rights) əsas ehtiyat aktivi olması niyəti e'lan edildi. Buna SDR-də deyilir.

Beynəlxalq münasibətlərdə keniş tətbiq edilən "Borc götürmənin xüsusi hüququ" (BGXH) aktivlərin elə beynəlxalq rezervidir ki, onun emisiyası BVF tərəfindən həyata keçirilir. BGXH üzv ölkələr arasında BVF tərəfindən bölüşdürülür.

Beynəlxalq hesablaşmalar zamanı "Ekyu" və "qızıl frank" törəmə valyuta vahidlərindən də istifadə olunur. Ekyu-Avropa ittifaqı çərçivəsində dəyər vahidi kimi Avropa valyuta vahidlərini (Ekyu) təmsil edən şərti valyutadır. Avropa ölkələrində pul vahidi kimi istifadə olunan Ekyu iqtisadi konvergensiyaların (iqtisadi şərtlərin dəyişməsi) müəyyən tələblərinə cavab verir. Maastrixt razılaşdırılmasına əsasən Ekyu - da istifadə olunan valyutalar səbətini dondurdarkən Avropa İttifaqına daxil olan 12 ölkənin valyutalarından istifadə olunur. Rəsmi Ekyu Avropa Valyuta İnstitutu tərəfindən Avropa ittifaqının üzvü olan dövlətlərin mərkəzi bankları üçün ABŞ dolları ilə və 20% milli qızıl rezervi ilə emitetləşdirilir.

Bə'zi beynəlxalq təşkilatlar, müstəqil borc götürənlər və fərdi emitetlər tərəfindən Ekyu ilə ifadə olunan bir sıra maliyyə instrumentləri də işlənib hazırlanmışdır. Məsələn, İsveçrənin Bazel şəhərində yerləşən beynəlxalq hesablaşmalar bankı (BHB) mərkəzi bankla beynəlxalq təşkilatlar arasında müxtəlif maliyyə əməliyyatlarını həyata keçirmək üçün "qızıl frank" adlı hesab vahidi tətbiq edir. Qızıl frankın dəyəri 0.29032258 qramı xalis qızılla bərabərdir. Onun ABŞ dolları ilə ekvivalenti 1 frank = 1,94 ABŞ dolları (xalis qızılın 1 untsiyasının 208 dollar hesabı ilə) götürülür. Beynəlxalq Hesablama

Bankının başqa valyutalarla ifadə olunan aktivləri və öhdəçilikləri qızıl franka dönərliliyi həmin valyutaların bazar kursunun ABŞ dollarına nisbətinə görə aparılır.

Beynəlxalq hesablaşmalarda və münasibətlərdə iştirak edən bütün milli pul vahidləri valyuta hesab edilir. Maddi əşya formasına görə beynəlxalq hesablamalar zamanı bu və ya digər milli pul vahidində ifadə olunan tə'diyyə sənədi və pul öhdəçiliyi valyuta hesab olunur. Belə halda söhbət banknotlardan, xəzinə biletlərindən, müxtəlif növ bank hesablarından, çeklərdən, veksellərdən, akreditivlərdən və başqa tə'diyyə sənədlərindən gedir. Müxtəlif valyutalarda ifadə olunan tə'diyyə sənədləri xüsusi valyuta bazarında alınıb satılır. Milli valyuta bazarında bu valyutalara tələb və təklif pulun beynəlxalq əmtəə, xidmətlərin mübadiləsi və kapitalın dövriyyəsi ilə qarşılaşması zamanı formalaşır. Məsələn, Almaniyada kompyuter satan amerika ixracatçısı aldığı alman markasını milli valyutaya (dollara) çevirmək istədikdə, marka təklif edilir, dollara isə tələbat yaranır. Valyutalara tələb və təklif başqa beynəlxalq əməliyyatlar (nəqliyyat, sığorta, turizm və s) və kapitalın müxtəlif formalarda hərəkəti zamanı da yaranır. Milli pul vahidlərinin xarici valyuta ilə sabit kursu valyuta katirovkası (qiymət tə'yin etmək) adlanır. Milli valyuta xarici valyutaya bir başa (xarici valyutanın hər 1, 10 və 100 vahidi = x milli valyutaya) katirovka edilə bilər. Dünyanın bir çox ölkələri öz valyutalarına qiymət qoyarkən (katirovka edərkən) birbaşa katirovkadan, ABŞ-da hər iki katirovka növündən, Böyük Britaniyada isə əks katirovkadan istifadə edilir.

Bir milli valyutanın pul vahidini başqa ölkənin valyutasının pul vahidləri ilə ifadə etdiyi qiymət valyuta məzənnəsi adlanır.

Valyuta bazarında alıcının və satıcının valyuta məzən-nəsini ayırırlar. Alıcının məzənnəsi rezident-Bankın xarici valyutanı milli vapyutaya aldığı məzənnə, satıcının məzənnəsi isə həmin xarici valyutanın milli valyutaya satdığı məzənnədir. Məsələn, 1$= 1,5635/55 DM məzənnəsi müəyyən edilibsə bu o deməkdir ki, Alman kommersiya bankı 1 dolları müştəridən 1,5635 markaya alıb 1,5655 markaya satmağa hazırdır. Satış məzənnəsi ilə alış məzənnəsi arasındakı fərq marj adlanır. Kommersiya bankları marj hesabına valyuta əməliyyatları üzrə xərclərini ödəyir və əlavə mənfəət əldə edirlər.

Mübadilənin obyekti olan tə'diyyə sənədlərinin növünə əsasən teleqraf köçürməsinin məzənnəsini, çek məzənnəsini, banknot məzən-nəsi və sairəni fərqləndirirlər.

"Kross - kurs" anlayışı da var. Bu anlayış sövdalaşmada iştirak edən tərəflərin milli valyutalarının üçüncü bir ölkənin milli valyutasına nisbətini əks etdirən katirovkanı göstərir. (Məsələn, dolların iene

nisbətinin alman bankında müəyyən edilməsi).

Beynəlxalq münasibətlərdə nağd sövdələşmə (kassa) kursu, stop kursu (iki iş günü ərzində tə'cili ödənilməli valyuta kursu və tə'cili sövdələşmə (forvard) kurslarını biri-birindən ayırırlar. Kurs stop - valyuta bazarında baza kursudur. Cari ticarət və qeyri ticarət əməliyyatları bu kurs üzrə aparılır.

Forvard kursunu (məzənnəsini) sövdələşmədə iştirak edən tərəflər müəyyən edir ki, konkret tarixədək ödəniş həyata keçirilməlidir.

Valyuta məzənnəsi milli pul vahidinin alıcılıq qabiliyyəti nəzərə alınmaqla müəyyənləşdirilir və bə'zi amillərin tə'siri ilə yaranır. Belə amillərdən ən başlıcası aşağıdakılardır: ölkənin tə'diyyə balansı, inflyasiyanın səviyyəsi, ölkənin ümumi iqtisadi vəziyyəti, daxili bazarın vəziyyəti, vergi, xarici ticarət və investisiya rejimləri.

Milli valyutanın dünya valyuta bazarlarında konyukturası, ticarət və qeyri-ticarət əməliyyaları üzrə fəaliyyətdə olan beynəlxalq hesablaşmalar sistemi də həmçinin valyuta məzənnəsinin hərəkətinə tə'sir göstərir. Milli valyutaların ABŞ dollarına nisbətən məzənnələrini milli banklar ölkələrin valyuta birjalarında tələb və təklif arasındakı nisbətə əsasən müəyyənləşdirirlər.

Milli banklar valyuta məzənnələri haqqında mə'lumatları milli valyuta birjalarında gedən alqı-satqının yekunları arasında rəsmi bildiriş şəklində mütəmadi olaraq nəşr etdirirlər.

§11.13 Milli valyutaların alıcılıq qabiliyyətinin pariteti (AQP)

AQP müqayisə edilən (baza sayılan) ölkənin bir valyuta vahidinə alına bilən əmtəə qədər əmtəə almaq üçün lazım olan valyuta vahidlərinin miqdarını ifadə edir.

AQP dəyər göstəricilərinin tərkibini əks etdirən əmtəə və xidmətlərin vahid dəstinin "səbətinin" qiymətləri arasındakı nisbətlə hesablanır. Beynəlxalq müqayisələr zamanı dəyər göstəriciləri üçün paritet orjinal "defilyator" hesab edilir.

İki ölkənin valyutaları arasındakı AQP-ni hesablamaq üçün qiymətlərin dinamikasının müqayisələrini apararkən istifadə olunan indeks növlərindən istifadə edilir.

İlkin əmtəə qrupları səviyyəsində qiymətlərin fərdi nisbətindən ibarət olan orta həndəsi indeksin düsturundan istifadə edilir.

$$\bar{J}_{tp(A/B)} = \sqrt[m]{\prod_{j=1}^{m} i \cdot (A/B)}$$

burada:

A/V - A ölkəsinin V ölkəsinə nisbətən fərdi qiymət indeksləridir.

Y_{qr} (A/V) - A ölkəsinin V ölkəsinə nisbətən orta qruplu qiymət indeksidir.

m - qurupda təmsiledici əmtəələrin sayıdır. Aqreqasiya edilmiş səviyyədə AQP yuxarıda göstərilən düsturla hesablanmış orta qrup AQP-dən və milli valyuta ilə əmtəə qruplarının çəkisindən istifadə etməklə Paaşe və Laspeyres aqreqat indekslərinin köməyi ilə alına bilər.

İstehlak mallarının və xidmətlərinin orta qiymətləri valyutaların alıcılıq qabiliyyətinin paritetlərini hesablamaq və ev təsərrüfvtının son istehlakı göstəriçisini müqayisə edilən valyutaya çevirmək üçün təmsiledici reprezentativ malların (xidmətlərin)siyahısınıa daxil edilən əmtəə və xidmətlərin qiymətləri üzərində hər ay müşahidə aparmaq nəticəsində əldə edilən orta milli qiymətləri əks etdirir.

Qiymətlər haqqında informasiyanı istehlak qiymətlərinin milli indekslərdən (İQİ) və ya beynəlxalq müqayisələr üçün keçirilən xüsusi qiymət müayinəsidən əldə etmək olar.

Qeydə alınan qiymətlər ticarət əməliyatlarının elə qiymətləri olmalıdır ki, satınalma anında tam ödənmiş olsun. Vergilər (əlavə dəyər verkisi və ya dikər istənilən istehlak verkisi) qiymətlərə də daxildir.

Fərz edək ki, A və V ölkələrində əmtəə qruplarının miqdarı (Q_A və Q_B) və qiymətləri(R_A və R_V) mə'lumdur. A və V ölkələrində əmtəə qruplarının milli valyuta ilə dəyərinin həcminin W_A və W_B olduğunu bilərək Paaşe düsturu ilə hesablanmış AQP-ni aşaqıdakı kimi ifadə etmək olar:

$$R_{A/V} = \frac{\sum P_A \cdot Q_A}{\sum P_B \cdot Q_A} = \frac{\sum W_A}{\sum W_A (P_A / P_B)} = \frac{\sum W_A}{\sum W_A \bar{i}zp(A/B)}$$

Laspeyresin düsturu ilə hesablanmış AQP isə aşağıdakı kimidir;

$$L_{A/B} = \frac{\sum P_A \cdot Q_B}{\sum P_B \cdot Q_B} = \frac{\sum W_B \cdot (P_A / P_B)}{\sum W_B} = \frac{\sum W_B \cdot \bar{i}zp(A/B)}{\sum W_B}$$

Beynəlxalq qoşa müqayisələrdə nəticələrin eyni mə'nalılığı icmal indeksin Fişer düsturu ilə hesablanması yolu ilə əldə edilir. Yıxarıda göstərilən iki indeksin orta həndəsi kəmiyyəti:

$$J = \sqrt{P \cdot L}$$

Müqayisədə iştirak edən ölkənin AQP-ni hesablamaq üçün razılaşdırılmış siyahılara uyğun olaraq təmsiledici istehlak və investisiya mallarının (xidmətlərinin) milli qiymətləri üzrə çıxış mə'lumatını və ÜDM məsrəfləri təsnifatına uyğun olaraq milli valyuta ilə dəyər həcmlərini təqdim edirlər.

§11.14 Borc aqreqatları Borc elə bir öhdəçiliklər dəstidir ki, ona əsasən borc götürən maliyyə resurslarının geriyə (kreditora) ödənişini həyata keçirir.

Tə'sisat vahidləri iqtisadi fəaliyyəti aparmaqdan ötrü lazım olan resursları almaq üçün öz üzərinə borc öhdəçiliyi götürməlidirlər.

Borcu nəzərə alan tə'sisat vahidləri öz iqtisadi fəaliyyətlərinə müəyyən məhdudiyyət qoya bilər, borcu ödəmək üçün öz iqtisadi əlaqələrini dəyişə bilərlər. Borcun yüksək səviyyəsi tə'sisat vahidlərini iqtisadi sarsıntının tə'sirinə daha çox mə'ruz qoya bilər. Borca xidmət isə real resursların xərclənməsi deməkdir ki, bu da bə'zi hallarda müəssisələrin imkanı daxilində olmur. Belə hal vəsaitləri başqa məqsədlər üçün istifadə edilməsindən yayındırır və görülmüş tədbirlərin bə'zisi iqtisadiyyata mənfi tə'sir göstərə bilən (məs.inflyasiya) hallara gətirib çıxara bilər.

80-90-cı illərdə beynəlxalq miqyasda baş verən böhranların bə'zisi borc göstəricilərini makroiqtisadi göstəricilər(dəyişkən göstəricilər) kimi təqdim etdi. Borc statistikası yuxarıda göstərilən problemləri öyrənmək və təhlil etmək üçün lazım olan informasiya əldə etməyə imkan verir.

"Borc", "kredit"lə birlikdə cütlük təşkil edən kateqoriyadır. Kredit və borc aqreqatları cütlüyünün yanaşı nəzərdən keçirilməsi maliyyə və real iqtisadi fəaliyyətin mühüm nisbətlərini düzgün qiymətləndirməyə imkan verir. Bu aqreqatlarda maliyyə vasitələri və başqa kreditorlar tərəfindən verilən kreditlər, eləcə də istehlakçılar, kommersiya təşkilatları və idarəçilik orqanlarının öz üzərinə götürdükləri öhdəçiliklər(bir başa borc və ya maliyyə vasitələrindən borc vəsaiti almaqla) öz əksini tapır. Şərti öhdəçiliklər, tə'minat və formal öhdəçiliklər bu kateqoriyaya daxil edilmir.

Adi ümumi təhlil üçün adətən öhdəçiliklər üzrə mə'lumatlar kifayət edir. Belə mə'lumatlar sektorların və beynəlxalq investisiya vahidlərinin balanslarında vardır. Xüsusi məsələləri həll etmək üçün isə başqa əlavə göstəricilərdən istifadə etmək lazım gəlir.

İqtisadiyyatın qeyri-maliyyə sektorunun borclarının həcminin ÜMD–a nisbəti iqtisadi fəaliyyət haqqında geniş mə'lumat verə bilər. İqtisadiyyatını düzgün qurmuş ölkələrdə bu göstəricinin səviyyəsi uzun illər ərzində sabit qalır. Lakin 80-cı illərin ikinci yarısından sonra ödənməmiş borcların həcmi artdığına görə onların ÜMD-a nisbəti də dəyişdi. Borcun həcminin artması maliyyə sahəsində quruluş dəyişikliyi və öhdəçiliklərə münasibətin dəyişməsi ilə də əlaqədar ola bilər.

İpoteka ssudaları üzrə borclar, istehlakçı borcu, Qiymətli kağızları almaq üçün borc öhdəçilikləri və ev təsərrüfatlarının başqa borc növləri bu və ya başqa borc öhdəçiliyi üçün səciyyəvi olan konkret aktivlərlə

tə'min edilir.

Bir çox hallarda vəsait yatımını həyata keçirmək məqsədi ilə aktivlvri almaq üçün içtehlakçılar borc vəsaitlərini də cəlb edirlər və bu aktivlər girov kimi istifadə olunur. Girov öhdəliyinin qiymətinin aşağı salınması sektorun kapitalının xalis dəyərinin aşağı düşməsinə, istehsalın və investisiyanın azalmasına səbəb ola bilər. Əksinə sektorun kapitalının xalis dəyərinin artmasının rəhni olan aktivlərin qiymətlərinin artması məsrəflərin artmasını və yeni borc götürməni stimullaşdırılmasıdır. Təcrübədə girovun dəyəri ilə istehlakçıların borc götürməyə hazırlığı arasında sıx əlaqə vardır. Bu da öz növbəsində aktivlərin qiymətlərinə və iqtisadi fəallığın ümumi səviyyəsinə əks tə'sir göstərir.

Adətən ipoteka ssudaları, ev təsərrüfatı borclarının ən böyük hissəsini təşkil edir. Tikinti işlərinin həyata keçirilməsini, torpaq və ya ev alınmasının maliyyələşdirilməisnə yönəldilən belə ssudaların girov tə'minatı əldə edilən daşınmaz əmlakın özüdür.

İpoteka ssudaları uzun müddətli ssudalardır. Onların ödənmə müddəti 30 il və bə'zən də daha çox olmaqla hər ay faizlər şəklində müntəzəm ödənilir. Borcların ödənilməsi xərclərinin statistik qiymətləndirilməsi ipoteka ssudaları üzrə borcların ödənməmiş hissəsinin həcminə görə və müvafiq ssuda kateqoriyasının faiz stavkalarından hesablanmış çəkili orta kəmiyyətə əsasən həyata keçirilir. Belə hesablamanı aparmaq üçün verilmiş ipoteka ssudaların həcmi, onların ödənilməsi və faiz stavkalarına dair statistika mə'lumatları toplamaq lazımdır.

İstehlak ssudaları üzrə borclar ev təsərrüfatlarının qısa və orta müddətli borclarından əmələ gəlir. Adətən onlar uzun müddət istifadə edilən aşyaların (məs. avtomobil və ya məişət texnikası) alışı ilə əlaqədar olurlar.

İstehlak kreditlərinin konkret növləri üzrə statistika mə'lumatları çox vaxt iqtisadi fəallığın indikatoru kimi istifadə olunur.

İstelak borclarının həcminin artımı adətən sərəncamda olan və gözlənilən gələcək gəlirlərin faiz stavkalarından və aktivlərin bazar dəyərinin dəyişməsindən alınması gözlənilən mənfəətdən asılı olaraq formalaşır. Təcrübə göstərir ki, gənc əhali qrupları yaşlı əhaliyə nisbətən istehlak ssudaları üzrə borclərdan daha çox istifadə edirlər.

Ev təsərrüfatlarının maliyyə öhdəlikləri üzrə mə'lumatların mürəkkəbliyi üzündən adətən istehlak ssudaları üzrə borclara dair mə'lumatları kreditlərə dair mə'lumatlara əsasən hesablayırlar. İstehlak kreditinin əsas növləri arasında aşağıdakıları ayrıca qeyd etmək lazımdır:

– satıcılara verilən pərakəndə kredit (formal və qeyri rəsmi kommersiya krediti);

– ixtisaslaşmış kreditor - kompaniyaları tərəfindən verilmiş borc hesabına ödənilən kredit kartoçkaları;

–bankların və maliyyə kompaniyaları kimi başqa vasitəçi təşkilatların ssudaları;

Belə ssudalar adətən uzun müddət xidmət edən əmtəələrin (avtomobil və s) və xidmətlərin (məs, təhsil) əldə edilməsinə istifadə olunur;

– lombardın ssudaları;

– sığorta və ya pensiya proqramlarına girovlu vəsait qoymaqla ssudalar;

– hissə–hissə ödəməklə əmtəə və xidmətlərin satışı, möhlətli satışa dair müqavilələr və maliyyə lizinqi.

İnkişaf etməkdə olan ölkələrdə ev təsərrüfatlarına qeyri formal kreditlər üzrə ssudalar istehlak mallarının əldə edilməsini maliyyələşdirmək və ya ailə müəssisələrinin dövriyyə kapitalı kimi istifadə etmək üçün verilir. Belə ssudalar adətən nağd pul vəsaitləri və ya əmtəələr formasında verilir. Ssudalar nəğd verildiyi halda onları tə'yinatları üzrə bölüşdürmək imkanı az olur. Kommersiya fəaliyyəti ilə əlaqədar əmtəə formasında olan ssudalar bir çox hallarda istehlak ssudaları üzrə borcların tərkibinə daxil edilmir. Məsələn, toxum və gübrə kimi gələcək dövrün kənd təsərrüfatı məhsulları hesabına verilən ssudalar istehlak ssudaları üzrə borclar kimi deyil, kommersiya borclarının bir forması kimi nəzərdən keçirilir.

Kommersiya təşkilatları cari istehsalı maliyyələşdirmək, maddi əmtəə ehtiyatlarına avadanlıqların əldə edilməsinə, bina və torpaq sahəsinin alınmasına və başqa əsaslı məsrəflərə kapital qoyuluşlarını həyata keçirmək üçün borc götürülmüş vəsaitlərdən istifadə edir. Müəssisələr öz məsrəflərini adətən daxili ehtiyatlar və kommersiya fəaliyyətindən alınan gəlirlər hesabına ödəyirlər. Lakin bununla yanaşı bir çox hallarda onlar maliyyə bazarında borc instrumentləri və kapitalda iştirakı tə'min edən başqa borc istrumentlərinin göməkliyi ilə vəsait cəlb etməklə də məşğul olurlar.

Maliyyə bazarında vəsait cəlb olunması ilə "Kapital maliyyələşdirmə defisiti" anlayışı sıx əlaqədardır.

Kapital maliyyələşdirmə defisiti = **Kapital məsrəflər** – **Daxili resurslar**

və ya

Kapital maliyyələşdirmə əmsalı = **Kapital məsrəflər** : **Daxili resurslar**

Burada "kapital məsrəflər" dedikdə hərəkət etməyən əmlakın (bina, qurğu və avadanlıqların) və maddi-əmtəə ehtiyatlarının xalis alınmış məbləği, "daxili resurslar" dedikdə isə bölünməmiş mənfəətin məbləği əsas kaptalın və amortizasiya fondlarının istehlakı başa düşülür.

Yuxarıda təsvir edilən defisitin həcmi nə qədər çox olarsa müəssisə kapitalda iştirak etmək və investisiyaları maliyyələşdirmək üçün bir o qədər çox vəsait cəlb etməli və ya maliyyə instrumentləri buraxmalıdır.

İnvestisiya vasitələrinə yüksək tələb faiz stavkalarının artımına səbəb ola bilər.

Kapital maliyyələşdirmə defisiti istehsal məqsədləri üçün müəssisələrə lazım olan borc vəsaitlərinin həcmini tam müəyyən etmir. Məsələn, istehsalı genişləndirmək üçün xammal-məterial almaq, işçi qüvvəsini ödəmək, ya da satışı tə'min etmək üçün əlavə dövriyyə tələb oluna bilər. Maliyyələşdirmədə belə hal dövri hal ola bilər.

Maliyyələşdirmənin ümumi defisti	=	**Kapital məsrəfləri + + dövriyyə kapitalı + + kommersiya krediti**	–	**Daxili resurslar**

Burada "dövriyyə kapitalı" dedikdə əmək haqqı, lisenziya və xammal – materialın dəyərinə daxil olmayan sair istehsal xərcləri başa düşülür.

Borclara dair mə'lumat müəssisənin məliyyə bazarı vasitəsilə əldə etdiyi vasitələrin ümumi məbləğini əks etdirən aqreqat göstəricisi kimi maliyyə instrumentləri buraxmaqla cəlb etdiyi vəsaitlərlə birlikdə istifadə oluna bilər. Belə mə'lumatlar fərdi müəssisələrin imkanında olan resursların həcminin dövlət büdcəsinin kəsirini və kapitalın xalis xarici axınının (defisitini) maliyyələşdirmək üçün lazım olan vəsaitlərə tələbatla necə uzlaşmalarına dair informasiya verir.

İqtisadi siyasət üçün mərkəzi idarəçilik orqanlarının (və ya dövlətin nəzarəti altında olan mərkəzi bank, müəssisə və idarəçilik orqanlarından ibarət dövlət sektorları) borcları əsas dəyişkən kateqoriyalardan biri hesab edilir. Belə statistika mə'lumatları ölkədəki yığımın xüsusi sektor tərəfindən istifadə edilə bilməyən həcminin təhlili zamanı gərəkli ola bilər. Bunlardan əlavə, borcun həcmi, onun artımının dinamikası, faiz stavkaları, ödəmə müddəti, valyuta ifadəsi və bazarda dövriyyəsi imkanları ölkədə maliyyə bazarının işinə və iqtisadi fəallığın ümumi dialektikasına da tə'sir göstərir.

Borcun təhlili zamanı onun ödənilməsinin quruluşuna xüsusi diqqət yetirmək lazımdır. Maliyyə vasitələri və başqa pul gətirən vahidlərin nəzərdə tutulan vaxtda mövcud borcu ödəyə bilməmələri müəssisənin

və bütövlükdə iqtisadiyyatı qeyri–tə'diyyə qabiliyyətli vəziyyətə gətirib çıxara bilər. Ödəmə müddəti yaxın olan böyük məbləğdə borc öhdəçiliyinin mövcudluğu və qısa müddətli borc öhdəçiliyinin götürülməsi ayrı-ayrı firmaları və sektoru maliyyələşdirmədən məhrum olmaq risqi qarşısında qoya bilər. Qısamüddətləi bank əməliyyatlərının yenidən maliyyələşdirilə bilməməsi 80-ci və 90-cı illərdə bir neçə borc böhranının yaranmasına səbəb olmuşdu. Nəzərdə tutulan vaxtda ödənilməsinin quruluşunun təhlili həmişə bank fəaliyyətinin tənzimlənməsi ilə məşğul olan orqanların diqqət mərkəzində durur. Dövlət boröları və qeyri maliyyə korporasiyalarının borclarının ödəmə müddətinin təhlili, yığımın bölüşdürülməsi və kapitalın beynəlxalq axınını (qabarma) öyrənmək üçün də əhəmiyyətlidir.

Ölkənin xarici iqtisadi vəziyyətini və valyutasının sabitliyini təhlil edərkən xarici borclara dair statistika mə'lumatlarından istifadə olunur. Belə mə'lumatlar həm də ümumi makroiqtisadi təhlil apararkən, mübadilə kursunu proqnozlaşdırarkən, borcun ödəmə müddətinin dəyişdirilməsinə dair beynəlxalq danışıqlar apararkən, habelə mülkiyyətdən alınan gəlirlər axınını qiymətləndirərkən istifadə edilir. İnkişaf etməkdə olan ölkələrdə və keçid iqtisadiyyatı şəraitində olan ölkələrdə xarici borcun həcmi makroiqtisadi siyasətin sabitliyini təhlil edərkən xüsusi əhəmiyyətə malik olur. Beynəlxalq MHS-də qəbul olunmuş təsnifata əsasən ümumi xarici borc istənilən vaxt anında ölkənin rezidentləri tərəfindən alınmış və ödənilmənin konkret öhdəliklərinin məbləğini göstərir.

§11.15.Kredit statistikası və MHS

Kredit bir tə'sisat vahidinin başqa tə'sisat vahidinə maliyyə resursu verməsi prosesidir. Bu proses nəticəsində verilmiş resursların ödənilməsi haqqında birincilərin ikincilərə tələbatı yaranır. Belə resurs axını başqa iqtisadi göstəricilərə ciddi tə'sir etdiyinə görə kreditlərin statistik öyrənilməsi böyük nəzəri və praktiki əhəmiyyətə malikdir.

"Kredit" kateqoriyası öz tərkibində əmanətləri və depozitləri, maliyyə vasitəçiləri və başqa sektorların verdiyi müxtəlif ssuda növlərini, kapitalda iştirakı tə'min etməyən qiymətli kağızların alışını birləşdirir.

Xarici valyutada kredit aqreqatı həmişə sərbəst kateqoriyada göstərilir.

Kredit siyasətinin tə'sirini təhlil edərkən kredit axınını sektorlar və instrumentlər üzrə bölmək lazım gəlir.

Pul-kredit siyasətinin iqtisadiyyata tə'siri prosesinin mühüm ünsürü olan kredit pul vəsaitlərinin alınmasının şərtliyi və ya liberallığı şərtlərinin dəyişmə dərəcəsinin qeyri-maliyyə sektorunun istehsala, istehlak üçün əlavə kapital qoyuluşlarına dair qərarlarına necə tə'sir

etməsini müəyyən edir. Geniş kredit aqreqatları iqtisadi fəallığın ümumi səviyyəsi ilə, kreditin konkret növləri (ipoteka və istehlak krediti, tikinti ssudaları) üzrə mə'lumatlar ilə təsərrüfat fəaliyyətinin müəyyən növü ilə əlaqələndirilir.

Bir çox ölkələrdə vasitəçi idarələrin kredit riski maliyyə idarələrinin fəaliyyətinə və mikroiqtisadi siyasət baxımından böyük əhəmiyyət kəsb edir.

Kreditin kəmiyyət göstəriciləri kreditorların, borc götürənlərin və instrumentlərin müxtəlif kateqoriyalarını nəzərə almaqla müəyyən edilir. Bu göstəricilər iqtisadiyyat üzrə bütövlükdə və kreditlərin konkret növləri (məsələn, depozit korporasiyaları tərəfindən qeyri-maliyyə müəssisələrinə verdiyi kreditlər) üzrə hesablana bilər.

Kredit göstəriciləri və aqreqatlar bir sıra situasiyaları təhlil etmək üçün istifadə oluna bilər:

- Bir sıra ölkələrdə sektorlar və borc götürənlər arasında kredit axınına nəzarət üçün istifadə edilir.
- Açıq iqtisadiyyata malik ölkələrdə daxili pul aqreqatlarının tənzimlənməsi imkanlarının məhdudluğu üzündən kredit siyasəti pul siyasətinə nisbətən daha tə'sirli vasitəyə çevrilir.
-Kredit axınına nəzarət stabilləşdirmə proqnozları hazırlanarkən gərəkli olur.
- Bə'zi ölkələrdə borc götürənlərin ödəniş qabiliyyətinin aşağı olması maliyyə sisteminin işində fasilələrin yaranmasına səbəb olur.
- Mərkəzdən planlaşdırmanı həyata keçirən ölkələrdə kredit plan və uçota dair qərarların həyata keçirilməsində xüsusi mexanizm rolunu oynayır.
-Keçid iqtisadiyyatı ölkələrində kredit axınlarının genişmiqyaslı pozulması kreditin mühüm makroiqtisadi göstərici olmasını göstərir.

BVF-nun proqramlarında da kredit mühüm işçi göstəricilərdən biri hesab edilir. İqtisadi siyasətin istiqamətləri müəyyənləşdirilərkən pul və kredit aqreqatları arasında seçmə mübadilə kursu rejimi, iqtisadiyyatın açıqlıq dərəcəsi, ölkənin təşkilat-hüquq xarakteri, kredit axınının tənzimlənməsinə maraq və sairədən asılı olaraq həyata keçirilir.

Kreditlərin verilməsi kanalı ölkələr üzrə və zaman etibarilə təkamülə uğrayırlar. Hər bir konkret ölkənin iqtisadiyyatının inkişaf dərəcəsindən asılı olaraq kreditin daha çox hissəsi maliyyə vasitəçilərinin əlindən və ya qiymətli kağızlar bazarından keçir.

Maliyyə bazarında yeniliklərin tətbiqivə kreditlərin verilməsi kanallarına tə'sir göstərir. Məsələn, kreditin qiymətli kağızlara dəyişdirilməsi (sekyuritizasiya) maliyyə vasitəçilərinin balansından kredit instrumentlərinin silinməsinə, "vasitəçilərin kənarlaşdırılması " isə ev təsərrüfatları və başqa (qeyri-maliyyə) tə'sisat vahidlərinin

kreditlərin daha çox hissəsinin maliyyə vasitəçiləri olmadan son borc götürənlərə verilməsinə səbəb olur.

Maliyyə vasitəçilərini və köməkçi təşkilatlar kreditin özünəməxsus xüsusiyyətlərini dəyişdirən xidmətlər də həyata keçirirlər.

Aşağıdakı maliyyə instrumentləri ölkədaxili kredit göstəricilərinə daxil edilirlər:

1. Bir maliyyə kateqoriyasının başqasına və ya "dünyanın qalan ölkələri" sektoruna verdikləri ssudalardan başqa bütün növ ssudalar (məsələn, qiymətli kağızları almaq üçün ssudalar, BVF-nun ssudaları).

2. Aşağıdakılar istisna olmaqla səhmlərdən başqa bütün "qiymətli kağızlar":

a) yalnız maliyyə sektoru çərçivəsində həyata keçirən əməliyyat vasitələri (məsələn, sərbəst dövr edən depozit sertifikatlar və mərkəzi bankların qısamüddətli istiqrazlar).

b) Müqavilələr bağlanarkən vəsaitlərin dəyişdirilməsinə və ya əsas məbləğin ödənilməsinə tələbatın ciddi dəyişdirilməsinə tə'sir etməyən törəmə maliyyə instrumentləri

3. Kommersiya kreditləri və avanslar.

Aşağıdakılar dar mə'nada kredit göstəricilərinə daxil edilir:

- kapitalda iştirakı tə'min edən instrumentlər;
- həyatın sığortası kompanyaları və pensiya fondlarına maliyyə tələbnamələri;
- törəmə maliyyə instrumentlərinin hesablama dəyəri;
- müxtəlif hüquq iradları, şərti tələbnamələr;
- alınmalı olan sair vəsaitlər (debitor borcları və s).

Geniş mə'nada kredit aqreqatlarına qeyri-maliyyə sektoruna kapital axını və borc öhdəliklərinə xidmət hesabına ödənişlərdə olduğu kimi kapitalda iştirakı tə'min edən maliyyəinstrumentlərini də daxil edirlər.

Kreditlərin verilməsində olduğu kimi, müəyyən iqtisadi nəticələrə gətirib çıxaran transfertlər kredit aqreqatlarına daxil edilir.

Kredit statistikasında kreditorlar dar və geniş mə'nada fərqləndirilir. Dar mə'nada kreditorlara ssuda verən "depozit pul korporasiyaları" və ya "sair depozoit korporasiyaları" aid edilir. Geniş mə'nada kreditorlar anlayışı sığorta kompaniyaları da daxil edilməklə bütün maliyyə korporasiyaları sektorunu əhatə edir.

Tam kredit anlayışı həm də dövlət ssudaları, kommersiya krediti, ev təsərrüfatlarının ipoteka krediti və sairəni də laxil etməklə - maliyyə sektorundan kredit axınını də əhatə edir.

Maliyyə müəssisələrindən onunla əlaqədar olan müəssisələrə gedən kreditlər və ssudalar axını dövlət sərhəddini keçdiyi bütün hallarda ümumi kredit göstəricilərinə daxil edilir.

Geniş mə'nada ölkədaxili kredit anlayışına görə broc alanlar sektoruna, dövlət idarəçilik orqanlarına, dövlət sektoruna aid başqa müəssisə və təşkilatlar və xüsusi sektora bölünməklə bütün qeyri-maliyyə sektorları aid edilir. Kredit axınını tam uçota almaq üçün qeyri-rezidentlərə verilən kreditlərə dair də mə'lumat lazımdır. Banklararası kredit və maliyyə vasitəçiləri arasındakı başqa kreditlər adətən ümumi kredit göstəricilirinə daxil edilmir, lakin bu göstəricilər makroiqtisadi səviyyədə başqa maliyyə vasitəçilərinə və mərkəzi bankların maliyyələşdirmə kanallarını təhlil edərkən, iqtisadiyyatın sektorları üzrə balanslar tərtib edilərkən böyük əhəmiyyətə malik olurlar.

Pul-kredit və maliyyə siyasətinin hazırlanmasında iştirak edən idarə və sektorlara kredit axınını əks etdirən aşağıdakı statistika göstəricilərinin qurulması məsələsi böyük əhəmiyyətə malikdir:

- maliyyə vasitəçilərinə verilən kredit;
- mərkəzi banklara verilən kredit;
- mərkəzi idarəçilik orqanlarına verilən kredit;
- mərkəzi idarəçilik orqanları tərəfindən verilən kredit.

Pul-kredit siyasətində mərkəzi banklar tərəfindən başqa banklara və sair maliyyə vasitəçilərinə verilən vəsaitin şərhi ayrıca nəzərdən keçirilir. Belə vəsaitləri ifadə edən statistik kateqoriya"Mərkəzi bankın kreditləri" adlanır. Bu göstərici maliyyə instrumentlərinin əsas kateqoriyaları və valyutalar üzrə bölünərək müəyyən edilir. Belə bölgü maliyyə vasitəçilərinin maliyyə bazarında cari əməliyyatları həyata keçirmək üçün şərait yaradan likvidlik vasitələrini əldə etməyə, kreditləşmənin səviyyəsində mövsümi dəyişikliyə diqqət yetirməyə, ölkənin maliyyə sferasındakı situasiyaya və pul kütləsinin həcminə tə'sir göstərmək üçün və fövqaladə hallarda istifadə etməyə imkan verir.

Mərkəzi banklar vəsaitləri maliyyə vasitəçilərinin əmanətlərinə və depozitlərinə köçürə bilər, ya da onlara ssuda kimi verə bilər. Hər iki halda vəsaitlər vasitəçilərə verilən kredit hesab edilir və vasitəçilər isə bu vəsaiti kreditlərin maliyyələşdirilməsinə və pul kütləsinin genişləndirilməsinə istifadə edə bilərlər.

Bir çox ölkələrdə mərkəzi idarəçilik orqanları da maliyyə vasitəçilərinnə kredit verirlər. Buna müvafiq statistik kateqoriya "Mərkəzi idarəçilik orqanlarının krediti"dir. Bu göstərici instrumentlərin kateqoriyaları və valyutalar üzrə müəyyən edilir. Maliyyə vasitəçilərinə münasibət sahəsində cari əməliyyatları aparmaq və investisiya kimi istifadə edilən əmanət və depozitlər mərkəzi orqanların ən geniş yayılmış tələbnamə formasıdır. "Mərkəzi banklarda tələbnamə" adlı statistik kateqoriya mərkəzi bankın sərəncamında olan vəsaitlər haqqında informasiya verir. Tələbnamə kreditorun aid olduğ sektorlar,

əsas instrumentlər və valyutalar üzrə təqdim olunmalıdır.

Dövriyyədə və maliyyə vasitəçilərində olan naqd pul mərkəzi banklarda olan maliyyə tələbnaməsinin ən iri kateqoriyasıdır. İqtisadiyyatın bütün sektorları aktiv kimi nağd pulun saxlayıcılarıdır. Ayrı-ayrı valyutalar üçün isə "dünyanın qalan ölkələri" sektoru ən iri pul saxlayan hesab olunur.

Mərkəzi banka verilən kreditin ən iri formalarından ikincisi mərkəzi bankın hesabında olan maliyyə vasitəçilərinə aid rezervlərdir. Bu vəsait əvvəlcədən gözlənilməyən hallarda, ya da banklararası klirinq əməliyyatlarında istifadə etmək üçün tələb oluna bilər. Belə rezervlərin istifada olunması pul-kredit sisteminin həyata keçirilməsində prinsipial əhəmiyyətə malik ola bilər. Lakin bu və ya digər statistik vəzifəni yerinə yetirmək üçün rezervlərdə baş verən dəyişikliklərin pul-kredit siyasəti ilə əlaqədar tədbirlər nəticəsində, yaxud da kommersiya əməliyyatları və ya başqa səbəblərlə əlaqədar olmasını ayırmaq həmişə mümkün olmur. Buna görə də adətən aparılan pul-kredit siyasəti nəticəsində rezervlərdə baş verən dəyişiklikləri əks etdirən göstəricinin əvəzinə maliyyə vasitəçilərinin, mərkəzi bank tələbnamələrində dəyişikliklərin ümumi həcminə aid mə'lumatlardan istifadə olunur.

Mərkəzi banklar qısamüddətli istiqrazlar da buraxa bilərlər. Bundan əlavə onlar xüsusi mənbələrdən (vasitəçi rezidentlərdən) xarici valyuta formasında ssuda da ala bilərlər.

Mərkəzi idarəçilik orqanları öz vəsaitlərini mərkəzi bankdakı hesablarda saxlaya bilər və mərkəzi banklara qarşı müəyyən tələblər irəli sürə bilərlər. Bu münasibətlərə dair mə'lumatlar iqtisadi siyasətin təhlili üçün böyük əhəmiyyətə malikdir və statistika hesabatlarında əks etdirilməlidir.

"Dünyanın qalan ölkələri" sektorunun ssudaları və başqa resurslara (o cümlədən beynəlxalq maliyyə idarələrindən və xarici dövlətlərdən yardım kimi daxil olmlara) dair mə'lumatlar statistika hesabatlarında ayrıca göstərilir.

Bə'zi hallarda inkişaf məqsədləri üçün yardımlar və başqa yardımlar mərkəzi banklar vasitəsi ilə istiqamətləndirilir. Belə halda mərkəzi banklar bank-agent və ya tə'minatçı (qarant) rolunu oynayır. Tə'minatçı kimi fəaliyyət göstərdikdə mərkəzi bankın hesablarından keçən vəsait onun krediti hesab olunmur və son borc götürənə kredit kimi nəzərdən keçirilir. Belə hallarda mərkəzi bank öz üzərinə müəyyən öhdəçilik götürdükdə ona kredit verilmiş hesab olunur.

İqtisadi siyasətlə və bir sıra səbəblərlə əlaqədar olaraq mərkəzi idarəçilik orqanları tərəfindən alınan resurslar axınının müşahidə edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Mərkəzi idarəçilik orqanlarının aldığı kreditlərə dair mə'lumatlar

statistik kateqoriya kimi, kreditor sektorları, maliyyə instrumentləri və valyutalar üzrə bölünərək dövlətin öhdəçiliyi üzrə informasiyadan və MHS-nın balanslarından götürülə bilər.

İdarəçilik orqanları ilə əməliyyatlar üzrə inforomasiya böyük analitik əhəmiyyətə malik olduğu üçün kreditor idarələrin idarəçilik orqanları ilə əməliyyatları dövlət qiymətli kağızlarının alınmasının statistik uçotu ayrıca kateqoriya kimi tənzim olunur.

Maliyyə vasitəçiləri və qeyri-maliyyə müəssisələrinin statistika uçotu sistemi elə aparılmalıdır ki, mərkəzi və başqa səviyyəli idarəçilik orqanları ilə əməliyyatları ayırmaq mümkün olsun. Bir çox hallarda əməliyyatların tam spektri üzrə mühasibat və statistika uçotunun tələblərinə cavab verən mə'lumat tərtib etmək üçün dövlətin mərkəzi idarəçilik orqanlarının və qiymətli kağızlar buraxılışının reestrini aparmaq lazım gəlir.

İdarəçilik orqanlarına kredit yalnız dövlət idarəçilik orqanlarının bir başa öhdəçilik götürdüyü maliyyə instrumentlərini əhatə edir.

Mərkəzi idarəçilik orqanlarının bank mexanizmlərində olan əmanətləri və depozitləri də idarəçilik orqanlarının krediti hesab edilir.

Mərkəzi bankın mərkəzi idarəçilik orqanlarının kreditinə mərkəzi bank qarşısında götürdüyü bütün öhdəçilikləri aid edilir. Bu öhdəçiliklər qısımüddətli və uzunmüddətli istiqrazlar, xəzinəyə ssuda avanslar, cari depozit hesabları üzrə ovodraftlar və s formasında ola bilər.

Dövlət qiymətli kağızlarının mərkəzi banka bir başa satışı idarəçilik orqanlarına kredit hesab edilir. Qiymətli kağızların alışı adətən mərkəzi bankdakı dövlət xəzinədarlıq hesabına köçürmələr yolu ilə ödənilir. Belə hesablardan vəsaitlərin sərfi başqa sektorların mərkəzi banka maliyyə tələblərinin həcmini artırır. Bu da öz növöəsində pul kütləsinin artmasına səbəb ola bilir.

Dolayı əməliyyatlar zamanı mərkəzi bank dövlət qiymətli kağızlarının maliyyə vasitəçilərindən nağd pul vasitələri və ya vasitəçilərin mərkəzi bankdakı hesabını kreditləşdirmək yolu ilə alır. Belə əməliyyat nəticəsində mərkəzi bank mərkəzi idarəçilik orqanları qarşısında öhdəçilik götürür. Lakin əməliyyatın bu ilkin nəticəsi idarəçilik orqanlarına öhdəçiliklərin ümumi həcmini dəyişmir. Maliyyə vasitəçiləri tərəfindən alınan nağd pul vəsaitləri isə onlar tərəfindən yeni kreditlərin verilməsinə sərf edilə bilər ki, bu da son nəticədə pul kütləsinin artmasına gətirib çıxara bilər. Mərkəzi bankla mərkəzi idarəçilik orqanları arasında aktivlər və öhdəçiliklərlə əlaqədar çoxsaylı qarşılıqlı və biribirini kompensasiya edən əməliyyatlar apardıqlarına görə mərkəzi bankın kredit statistikası hesabladığı göstəriciləri xalis əsasda müəyyən edir. Burada da əsas məqsəd verilmiş vəsaitlərin xalis həcmini düzgün qiymətləndirməkdir. Lakin iqtisadi təhlili aparmaq

üçün bu əməliyyatların ümumi məbləğini də bilmək tələb olunur.

Bir çox hallarda dövlət iqtisadi siyasətlə əlaqədar və ya fövqəladə hadisələr çərçivəsində kommersiya məsələlərini həll etmək üçün subsidləşdirmə və ya güzəştli yardımlar etmək yolu ilə geniş ssuda əməliyyatları həyata keçirir. Ssuda əməliyyatları çox vaxt dövlət siyasətinin qarşıya qoyduğu məqsədə nail olmaq üçün istifadə olunur. Dövlətin ssuda əməliyyatlarının həcmi vergi-büdcə siyasəti üçün mühüm əhəmiyyətə malikdir.

Dövlət orqanları problem situasiyalarda "xidmət olunmayan" və ya "zəiflədilmiş" aktivləri nominal üzrə və ya tə'minatlı dəyəri üzrə də əldə edə bilər. Bu aktivlər balansda alış qiymətləri ilə əks etdirilir. Lakin analitik məqsədlər üçün ayrılıqda onların hər birinin dəyəri, habelə transfertlər kimi, balans və bazar qiymətləri arasındakı fərqini də bilmək lazım gəlir. Belə yardımlar da ödənilməyən (və ya qismən ödənilən) ssuda formasında verilir.

§11.16 Beynəlxalq kredit və onun valyuta-maliyyə şərtləri

Beynəlxalq kredit - beynəlxalq iqtisadi münasibətlər sferasında qaytarılmaq, müddətlilik və faiz ödəmək şərtilə valyuta və əmtəə resursların hərəkəti ilə əlaqədar verilən ssuda kapitalının hərəkətidir.

Kreditor və borc götürən rolunda fərdi inhisarlar (banklar, firmalar), dövlət idarələri, hökumətlər, beynəlxalq və məhəlli valyuta-kredit və maliyyə təşkilatları çıxış edə bilərlər.

"Kredit" kateqoriyasının ayrıca növü olan beynəlxalq kredit istehsal münasibətlərinin bir ünsürü kimi, başqa iqtisadi kateqoriyalarla (mənfəət, qiymət, pul, valyuta kursu, tə'diyyə balansı və s) əlaqədardır. Beynəlxalq kredit daxili kreditlə birləşərək kapitalın dövranının bütün mərhələlərində dəyər formasının dəyişməsində və təkrar istehsalın fasiləsizliyinin tə'min olunmasında iştirak edir.

Beynəlxalq kreditin əsas mənbəyi dövriyyə prosesində müəssisələrin müvəqqəti pul formasında azad edilən kapitalının bir hissəsi, dövlətin və fərdi sektorun banklar tərəfindən cəlb edilən pul yığımıdır.

Beynəlxalq kreditə obyektiv tələbat vəsaitlərin təsərrüfatda dövranı, istehsalı və satışı xüsusiyyətləri, xarici iqtisadi dəyişikliklər, istehsalın genişləndirilməsi üçün iri kaptal qoyuluşları həyata keçirmək lazım olduqda yaranır.

Beynəlxalq kreditlərin köməkliyi ilə ssuda kapitalı dövlətlər arasında yenidən bölüşdürülür, həqiqi pulun (qızıl, gümüş) kreditlə əvəz edilməsi yolu ilə beynəlxalq hesablaşmalarda tədavül xərclərinə qənaət edilir, kapitalın təmərküzləşməsi prosesi sür'ətlənir.

Beynəlxalq kreditlər mənbəyinə görə daxili və xarici kreditlərə,

tə'yinatına görə kommersiya, (xarici ticarət və xidmətlərlə əlaqədar) məliyyə (investisiya, qiymətli kağızların alınmasına, xarici borcların ödənilməsinə və s), növünə (əmtəə, valyuta və s), müddətinə görə (qısa müddətli, orta müddətli, uzun müddətli), təqdim olunma texnikasına baxımından (nəqd, aksept, depozit sertifikatları, istiqraz borcları və s) və başqa əlamətlərə görə təsnifatlaşdırılır.

Beynəlxalq kreditin valyuta-maliyyə şərtlərinə valyuta borcu, valyuta tə'diyyəsi, kreditin məbləği, valyuta dəyəri, müddəti, ödəmə şərtləri, kredit verilən zaman risqin sığortalanması və başqa anlayışlar daxildir.

Kredit valyutasının qeyri-sabitliyi kreditorları itgilərə doğru apardığına görə kreditorlarla borc götürənlər arasında münasibətlərin tənzimlənməsi zamanı beynəlxalq kreditlərin hansı valyutada verilməsinin mühüm əhəmiyyəti vardır. Borc valyutasının seçilməsinə müxtəlif amillər (o cümlədən inflyasiya dərəcəsi, beynəlxalq hesablaşmaların təcrübəsi və s) tə'sir göstərir. Beynəlxalq kredit valyutası kimi, milli pul vahidləri, avrovalyutalar (50-ci illərin sonlarından), və başqa beynəlxalq pul vahidindən istifadə oluna bilər.

Valyuta tə'diyyəsi valyuta krediti ilə uyğun gəlməyə də (kreditorun valyutasında verilən "yumşaq" borclar borc götürənin milli valyutası ilə ödənildikdə) bilər.

Kreditin məbləği - əmtəə və ya pul formasında borc götürənə verilən ssuda kapitalının bir hissəsidir. Firma kreditinin məbləği kommersiya kontraktında qeyd edilir. Bank kreditinin məbləği kredit razılaşdırmaları və ya teleks mübadiləsi (qısamüddətli ssudalar zamanı) müəyyən edilir.

Kreditlər bir-birindən fərqli şərtlərlə bir neçə tranş (hissə) şəklində verilir. Kreditlərin verilməsi təcrübəsinə uyğun olaraq adətən ixrac edilən maşın və avadanlıqların 85-90%-i kredit şəklində ödənilir, yerdə qalan hissəsi isə avanslar, nəqd yolla və idxalçının ixracatçıya tə'minatlı tə'diyyələri formasında tə'min edilir.

Növbəti tə'diyyənin məbləği aşağıdakı düsturla müəyyən edilir:

$$\frac{LimZ}{1-\frac{1}{(1+Z)^n}}$$

Burada Lim - kredit limitini;

Z - faiz stavkasını;

n - borcun kapital məbləği və faizlərin ödəniləcəyi dövrlərin miqdarını göstərir.

Beynəlxalq kreditlərin əsas şərtlərindən biri onun müddətidir. Bu şərt müxtəlif amillərdən (tələb və təklifin nisbətindən, kontraktın

həcmindən, milli qanunvericilikdən, ənənəvi kreditləşdirmə təcrübəsindən və s.) asılı olaraq müəyyən edilir. Kreditləşdirmə müddəti dünya bazarında rəqabət mübarizəsinin mühüm silahıdır. Kreditin səmərəliliyini müəyyən etmək üçün tam və orta müddət anlayışlarını fərqləndirirlər. Tam müddət kreditin istifadəsi anından onun tam ödənilməsinədək müddətə əsasən hesablanır. Buraya verilmiş kreditin istifadəsi müddəti, güzəştli müddət (istifadə olunan kreditin ödənilməsinə möhlət verilməsi) və borcun ödənilməsi müddəti daxil edilir.

Bank kreditlərindən fərqli olaraq firma kreditlərinin istifadə müddəti kontrakt üzrə əmtəənin göndərilməsi müddətinə uyğun gəlir. Belə halda tam müddətin başlanğıcı ixracatçı tərəfindən əmtəənin son partiyasının göndərilməsindən sonra alıcı tərəfindən aksept edildiyi tarix götürülür.

Kreditin güzəştli müddəti kommersiya sövdələşmələrində və komplekt (dəst)avadvnlıqların göndərilməsində xüsusi əhəmiyyətə malikdir. Belə hal həqiqi kreditlərin ödənmə anının başlanmasının bu avadanlıqların istismara buraxılmasıanına daha yaxın olması ilə əlaqədar olduğu üçün idxal edilmiş investisiyanın ödəmə müddətini azaltmağa imkan verir. Güzəştli kreditlər üçün başqa kreditlərə nisbətən daha aşağı faiz stavkası alınır.

Müxtəlif şərtli kreditləri müqayisə etmək üçün çox vaxt orta müddət göstəricisindən istifadə olunur. Bu göstərici kreditin bütün müddətinin hansı dövrə aid olduğunu əks etdirən orta göstəricidir. Orta müddət bütövlükdə güzəşt dövrünü və kreditin istifadəsi və ödənilməsi dövrlərini tam əhatə edir. Misal: Tutaq ki,1998-ci ilin əvvəlində verilmiş kreditlərin tam və orta müddəti aşağıdakı kimi olmuşdur:

34-cü cədvəl

Verilmiş kreditlərin müddəti (il)

Göstəricilər	tam müddət	orta müddət
1998-2001-ciildə istifadə üçün	3	1.5
2001-2004-cü illər üçün güzəştli dövr	3	3
2005-2011-ci illərdə ödənmə müddəti	6	3
Yekun	12	7.5

Kreditin orta müddəti adətən tam müddətdən az olur. Kredit bütövlüklə birdəfə verildikdə və bir dəfə ödənildikdə bu müddətlər uyğun kəlir. İstifadəsi və ödənilməsi qeyri-bərabər həyata keçirilən kreditlər üzrə orta müddət göstəricisini yalnız təqribi hesablamaq mümkündür. Məsələn, ayrı-ayrı hissələrinin dəyəri müxtəlif olan avadanlıqların hissə-hissə göndərilməsi zamanı kredit qeyri-bərabər istifadə olunur. Belə halda kreditin orta müddəti borcun məbləğini (müəyyən tarixə istifadə olunan, lakin ödənilməyən krediti) kredit

limitinə bölmək yolu ilə hesablanır.

Kreditin dəyəri (yə'ni borc götürənin kreditora ödədiyi məbləğ) illik faiz kimi kredit üzrə bütün xərcləri il ərzində faktiki istifadə olunan ssudaya bölmək yolu ilə müəyyən edilir.

Kreditin ümumi məbləği aşağıdakı düsturla hesablanır:

$$S = Lim \cdot Z_0 \cdot t_{orta}$$

Burada S - Kreditin ümumi dəyərini,

Lim - Kredit limitini,

t_{orta} - Kreditin orta müddətini,

Z_0 - ümumi illik faiz stvkasını(bu göstərici əsas stavkanı və illik faizlə komission yığımları əks etdirir) göstərir.

Kredit dəyərinin müqavilədə göstərilən və gizli ünsürlərini fərqləndirirlər. Kreditin müqavilədə göstərilən məsarif ünsürləri razılaşmalarda müəyyən edilməklə əsas və əlavə məsrəflərə bölünürlər. Kreditin dəyərinin əsas ünsürlərinə borclunun kreditora bilavasitə ödədiyi məbləğlər (Borcun rəsmiləşdirilməsi üçün ödəniliş məsrəflər, faizlər və s.), əlavə məsrəflərə isə borc götürənin üçüncü şəxsə ödədiyi (məsələn, tə'minat üçün) məbləğlər aid edilir.

Kreditin dəyərinin gizli ünsürlərinə alınmış və istifadə olunmuş kredit üzrə ödənilən və razılaşmalarda qeyd edilməyən sair məsrəflər daxil edilir. Firma kreditləri üzrə əmtəələrin qiymətlərinin artması, məcburi depozitlər, kreditin sığortalanması xərcləri və s. məsrəflər buraya aiddir.

§11.17.Kredit risqi və bazel norması

Kreditin verilməsi borc götürənlər tərəfindən alınmış vəsaitlərin risqi ilə əlaqədardır. Belə risq "kredit və ya" ödənilməmə risqi" adlanır. Bank fəaliyyətini tənzimləyən beynəlxalq oraqnlar belə qərara gəlmişlər ki, kredit risqi ayrı-ayrı bankların və ölkə üzrə bütövlükdə bakn sisteminin maliyyə vəziyyəti üçün ciddi qorxudur. Müxtəlif ölkələrin bank tənzimləyici orqanlarının konsersiumu olan Bazel Komitəsi ödənilməmək nəticəsində maliyyə problemlərindən qorunmaq məqsədilə beynəlxalq bankların fərdi kapitalının həcminə görə minimum normalar müəyyən etmişdir. Bu normalardan istifadə kapital rezervinin saxlanılması ilə əlaqədar müxtəlif xərclərlə bağlı olduğu üçün bank idarələrinin maliyyə əxlaqını başa düşmək üçün böyük əhəmiyyətə malikdir. Bu xərclərin həcmi kreditin verilmə formasından, ödəmə müddətindən və borc götürənin kateqoriyasından asılıdır.

Bazel normaları potensial formada kredit emissiyanın ümumi həcminin məhdudlaşdırılmasına xidmət edir və borc götürənlərin müxtəlif kateqoriyaları arasında kreditin bölüşdürülməsinə tə'sir göstərir. Bu

nofihalar kredit statistikasının işinə də bilavasitə tə'sir göstərirlər. Kapital bazasının kifayətlilik dərəcəsini əks etdirən mə'lumatların hesablanması instrumentlər, borc götürənlərin kateqoriyaları və ödəmə müddətlərinə görə kredit mövqelərinə dair müfəssəl hesabat mə'lumatları tələb edirlər. Bunun üçün isə balansda əks etdirilən instrumentlər üzrə və eləcə də balansarası instrumentlər üzrə ətraflı mə'lumat toplanması vacibdir. Bu məqsədlə milli statistika orqanlarından bankların, kapitalına dair BVF-nun tövsiyyələrinə uyğun mə'lumatlar toplamaq tələb olunur. Belə mə'lumatlar başqa maliyyə qiymətləndirilmələri üçün də istifadə oluna bilər.

§11.18.Dövlət büdcələri statistikası

Ayrıca götürülmüş ölkənin və eləcə də beynəlxalq birliklərin (BMT, Avropa Birliyi və s.) üzvü olan ölkələrin iqtisa di inkişaf səviyyəsi və maliyyə vəziyyətini səciyyələndirən bir sıra makroiqtisadi göstəricilər öz əksini dövlət büdcəsində tapır. Dövlət büdcəsi iqtisadiyyatın dövlət tənzimlənməsinin vacib instrumentidir. Dövlət büdcəsi ölkədə maliyyə resurslarının yaranması, metodları və formalarını, habelə onların istifadə istiqamətlərinin özündə əks etdirən ən mükəmməl dövlət sənədidir. Dövlət büdcələri statistikasının əsas vəzifəsi maliyyə siyasətinin məzmunu və istiqamətlərini müəyyən edən əsas göstəriciləri səciyyələndirməkdir. Konkret olaraq dövlət büdcəsi staistikası aşağıdakı vəzifələri yerinə yetirir:

1. Dövlət büdcəsinin gəlirlərinin və xərclərinin həcmini, xərclərin gəlirlərdən artıqlığını (defisiti) və yaxud da gəlirlərin xərclərdən artıqlığını (profisiti) müəyyən etmək;
2. Gəlirlərin və xərclərin quruluşunu müəyyən etmək;
3. Büdcə defisitinin maliyyələşdirmə mənbələrinin öyrənmək;
4. Dövlətin daxili borcunun həcmini öyrənmək;
5. Dövlətin apardığı fiksal siyasətin səmərəliliyini və bu siyasətin iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinə tə'sirini öyrənmək.

Hər bir dövlətin praktiki maliyyə statistikası yuxarıda deyilən göstəriciləri toplayaraq ümumiləşdirir, təhlil edir və alınmış nəticələri dövlət idarəçilik orqanlarına və s. Beynəlxalq təşkilatlara təqdim edir. Bu göstəricilərdə hər bir dövlətin iqtisadiyyatının təşkilat quruluş və idarəçilik orqanlarının xüsusiyyətləri əks etdirilir.

Dövlət büdcəsi statistikasında tətbiq edilən ən mühüm kateqoriyalardan biri dövlət idarəçiliyi sektorunun müəyyən edilməsidir. Bu sektorun müəyyən edilməsi gəlirləri və xərcləri dövlət büdcəsində əks etdirilməli olan tə'sisat vahidləri dairəsini dəqiqləşdirmək məqsədi daşıyır. Dövlət idarəçiliyi sektorunda fəaliyyətə dövlət idarəçiliyi funksiyasının icrası ilə əlaqədar olan tə'sisat vahidləri daxildir. Buraya

qeyri-bazar xidmətləri göstərmək, habelə gəlirləri və sərvəti yenidən bölüşdürmək yolu ilə dövlət siyasətini həyata keçirən fəaliyyət sahələri aiddir. Bir qayda olaraq yenidən bölüşdürmə iqtisadiyyatın başqa sektorlarına vergi qoymaq, habelə pensiya, yardım və başqa ödənişləri həyata keçirmək yolu ilə həyata keçirilir.

Əmtəələrin və xidmətlərin iri miqyaslı satışı ilə məşğul olan müəssisələr və korporasiyalar dövlət idarəçilik sektoruna daxil edilmir. Pul-kredit tənzimlənməsi (valyuta rezervlərinin idarə olunması, bank xidmətləri və s.) ilə məşğul olan orqanların fəaliyyəti də dövlət idarəçili orqanları sektoruna aid edilmir. Beynəlxalq valyuta fondunun təsnifatına əsasən belə fəaliyyət sahələri sair maliyyə idarələrinin fəaliyyəti ilə birlikdə ayrıca sektora daxil edilirlər.

Dövlət büdcəsi statistikası sisteminin xarakterini müəyyən edən başqa mühüm kateqoriyalar dövlət idarəçilik orqanlarının iqtisadiyyatın başqa sektorları ilə həyata keçirdikləri müxtəlif təsərrüfat əməliyyatlarının mahiyyətini əks etdirir. Buraya müxtəlif daxilolmalar və tə'diyələr, onların tərkibi (qaytarılan və qaytarılmayan, əvəzi ödənilən və ödənilməyən), maliyyə aktivlərinin əldə edilməsi və ya öhdəçiliklərin qəbul olunması və s. aiddir. Bu kateqoriyaların dəqiq müəyyən edilməsi müxtəlif təbiətə malik iqtisadi əməliyyatları düzgün əks etdirmək üçün zəruridir.

Maliyyə statistikasına dair qüvvədə olan beynəlxalq standartlarda göstərilir ki, "dövlət büdcəsi statistikasında uçot kassa əsasında aparılır". Bu o deməkdir ki, uçot faktiki pul axınının qeydiyyatına əsaslanır. Xatırladaq ki, MHS-də belə uçotun debitor və kreditor borclarının yarandığı anda qeydə alınması tövsiyyə olunur. Buna baxmayaraq BVF-nun 1995-ci ildən başladığı yenidənqurma prosesində dövlət büdcəsinə dair mə'lumatların uçotunun kassa metodundan hesablama ani metoduna keçirilməsi nəzərdə tutulur. Nəzərdə tutulan yenilik əməliyyatların qeydə alınması sahəsində BMT-nin 1993-cü ildən tətbiq edilən yeni MHS-i ilə uyğunluq yaradacaq və dövlət idarəçiliyinə aid olan əməliyyatları daha tam əhatə etməyə imkan verəcəkdir.

Dövlət büdcəsi statistikasının əsas göstəricilərinə aşağıdakılar aiddir:

1. Gəlirlər;
2. Rəsmi transfertlər;
3. Məsrəflər;
4. Kreditləşmə, minus ödəmələr (xalis kreditləşdirmə);
5. Gəlirlərin məsrəflərdən artıqlığı (profisit) və ya məsrəflərin gəlirlərdən artıqlığı (defisit);

Gəlirlər cari və kapital formalara bölünürlər. Cari gəlirlərə vergi və qeyri-vergi xarakterli daxilolmalar aiddir. Vergi dövlət ehtiyaclarını

ödəmək üçün idarəçilik orqanları tərəfindən alınan (tutulan) məcburi, əvəzi ödənilməyən və geri qaytarılmayan daxil olmalardır. Dövlət fiksal, idxal və ixrac inhisarları tərəfindən götürülən mənfəəti, habelə xarici valyutanın alışı və satışı ilə məşğul olan inhisarların mənfəəti də vergiyə daxil edilir.

Qeyri-vergi daxilolmalarına mülkiyyətdən gəlirlər, əmtəə və xidmətlərin satışından və təsadüfi satışdan əldə edilən rüsumlar bir sıra geri qaytarılmayan (cərimə, ianə və s.) daxil olmalar aid edilir.

Dövlət büdcəsinin məcburi transfertləri dedikdə başqa dövlət idarələrindən və beynəlxalq təşkilatlardan alınan və geri qaytarılmayan, əvəzi ödənilməyən və məcburi olmayan (birdəfəlik, qeyri-müntəzəm, könüllü) daxilolmalar başa düşülür. Qeyri-dövlət mənşəli əvəzsiz, geri qaytarılmayan və qeyri-məcburi daxilolmalar (məsələn, fərdi təşkilatların xəstəxana tikmək üçün verdikləri vəsait) gəlirlər kateqoriyasına daxil edilir. BFV defisiti hesablayarkən gəlirlər kateqoriyasına daxil olan rəsmi transfertləri o biri transfertlərlə birləşdirərək defisiti azaldan əməliyyat kimi nəzərdən keçirməyi tövsiyyə edir. Məsrəflər hansı məqsəd üçün nəzərdə tutulmasından, habelə əvəzi ödənilən və ya ödənilməyəcəyindən asılı olmayaraq geri qaytarılmayan ödənişlərdir. Başqa dövlət idarəçilik orqanlarına transfert ödənişləri məsrəflərə daxil edilmir və sərbəst kateqoriyaya ayrılır.

Xalis kreditləşdirmə (kreditləşdirmə, minus ödənmə) dövlət siyasətini həyata keçirmək üçün dövlət idarəçilik orqanlarının başqa sektorlarla əlaqələri zamanı maliyyə tələbnamələri ilə həyata keçirilən əməliyyatlardır. Alınmış kreditlərin məbləğini çıxmaqla verilmiş ssudalar və səhmlərin əldə edilməsi, səhmlərin satışından, ya da fərdi kapitalın geri qaytarılmasından alınan gəlir bura daxil edilir.

Dövlət büdcəsinin defisitini gəlirlərlə alınmış transfertlərin cəmindən məsrəfləri və xalis kreditləşmənin cəmini (kreditləşmə, minus ödənmə) çıxmaqla müəyyən etmək olar.

Defisitin maliyyələşdirilməsinin ümumi həcmi əks işarə ilə defisitin həcminə bərabərdir. Maliyyələşdirmək baxımından o aşağıdakı kimi hesablanır:

$$\text{Defisit} = \begin{pmatrix}\text{Борч көтүрмə -}\\ \text{борчун дəjишмəси}\end{pmatrix} + \begin{pmatrix}\text{ликвидлилик}\\ \text{маjjə васитəлə -}\\ \text{ринин азалмасы}\end{pmatrix}$$

Defisitin artması nəticəsində dövlət borcu yaranır. Dövlət borcu dövlət idarəçilik orqanlarının iqtisadiyyatın başqa sektorları və dünyanın başqa ölkələri qarşısında götürdüyü birbaşa öhdəçilikləri üzrə ödənilməmiş və ödənilməli (və ya borc kimi rəsmiləşdirilməli) olan məbləğdir. Müxtəlif sektorların daxili və sektorlararası borcları dövlət

borclarına daxil edilmir. Belə mə'lumatlar ayrıca toplanılır. Əgər büdcə kəsirinin (defisitin) ÜDM-a nisbəti 3%-i ötməyibsə, dövlətin maliyyə vəziyyəti normal hesab edilir.

Statistika mə'lumatlarına əsasən büdcənin yerinə yetirilmə dərəcəsini təhlil etmək, habelə gəlirlər və xərclər arasındakı kənarlaşmalara ayrı-ayrı amillərin tə'sirini müəyyən etmək mümkündür. Məsələn, mə'lumdur ki, vergi gəlirləri iki amildən: vergi bazasından və vergi stavkasının dəyişməsi dərəcəsindən asılıdır. Birinci amil (vergi bazası) hesabına verginin əlavə artımı aşağıdakı düstur üzrə hesablanır:

$$\Delta B_B = (B_1 - B_0)C_0$$

Vergi stavkasının dəyişməsi hesabına vergilərin əlavə artımı isə

$$\Delta V_S = (S_1 - S_0)B_1$$

düsturu ilə müəyyən edilir.

Burada ΔV - verginin əlavə artımını,

B_1 və B_0 hesabat və əsas dövrlərdə vergi bazasının,

S_1 və S_0 isə həmin dövrlərdə vergi stavkasının səviyyəsini göstərir.

Bu iki amil üzrə əlavə artımın cəbri cəmi təhlil edilən dövrdə götürülmüş vergi növünün ümumi əlavə artımını əks etdirəcəkdir.

$$\Delta V = \Delta V_B + \Delta V_S$$

§11.19. Beynəlxalq büdcə təsnifatları

Dövlət idarəçilik orqanlarının həyata keçirdikləri əməliyyatlara dair informasiyanın təsnifatlaşdırma yolu ilə qaydaya salınması borc vəsaitlərini və əvvəlki dövrlərdə yığılmış vəsaiti cəlb etmədən nağd mövcud olan resurslar hesabına dövlət idarəçiliyi üçün məsrəflərə və kreditlərə tələbatın ödənmə dərəcəsini təhlil etməyə imkan verir. Bu prinsip dövlət büdcəsinin təsnifatının əsasını təşkil edir.

Təsnifatlaşdırma nəticəsində dövlət idarəçiliyi üzrə təşkilatların oxşarlığı müəyyən edilir. Dövlət büdcəsinə daxil olan komponentlərə çoxsaylı əməliyyat və proqramlar, qruplaşdırmaq yolu ilə gəlirlər, alınmış transfertlər, məsrəflər, kreditləşdirmə, ödəmə, borc və maliyyələşdirmə kimi göstəricilərin xarakteri, quruluşu və iqtisadi tə'sirini aşkar etmək imkanı yaranır.

Əsas komponentlərə daxil olan əməliyyatlar fəaliyyət növlərinə, ya da onların tə'sir göstərdiyi dövlət idarəçiliyi sektorundan kənarda fəaliyyət göstərən bazar seqmentinə uyğun olaraq təsnifatlaşdırılır.

Belə tə'sir mexanizmi vergilərin səviyyəsi və ya subsidiyaların həcmini dəyişdirmək, əmtəə və xidmətlər üzrə bazar rəqabətini, habelə maliyyə bazarında maliyyə tələbatının həcmini artırmaq və ya azaltmaqdan ibarətdir.

Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən tövsiyyə edilən və dövlət büdcəsi göstəricilərinin quruluşunu müəyyən edən təsni-

fatlaşdırma sisitemi aşağıdakı bölmələri əhatə edir:

A. Gəlirlərin və alınmış rəsmi transfertlərin təsnifatı;

B. Məsrəflərin və ödənişləri çıxmaqla kreditləşmənin təsnifatı;

V. Büdcə kəsirinin (defisitinin) maliyyələşdirilməsi əməliyyatlarının təsnifatı;

Q. Dövlət borcunun təsnifatlaşdırılması.

BVF-nun tövsiyyəsinə əsasən gəlirlər və alınmış rəsmi transfertlər aşağıdakı kimi təsnifatlaşdırılır:

I. Ümumi gəlirlər və alınmış rəsmi transfertlər (II+VII);

II. Ümumi gəlirlər (III+V);

III. Cari gəlirlər (IV+V).

IV. Vergidən daxilolmalar:

1. Gəlir vergiləri, mənfəətə vergi, kapitalın bazar dəyərinin artırılmasına vergilər;
2. Sosial sığortaya ayırmalar;
3. Əmək haqqı fonduna və işçi qüvvəsinə vergilər;
4. Mülkiyyətə vergilər;
5. Əmtəə və xidmətlərə daxili vergilər;
6. Beynəlxalq ticarətə və xarici əməliyyatlara vergilər.

V. Qeyri vergi daxil olmaları;

VI. . Kapitalla əməliyyatlardan gəlirlər;

VII. Alınmış rəsmi transfertlər.

Göründüyü kimi, gəlirlər təsnifatlaşdırılarkən hər şeydən əvvəl gəlirlər (məcburi, əvəzi qaytarılmayan, dövlət idarəçiliyi idarələrinin qaytarılmayan ödənişləri) və qeyri vergi daxil olmaları ayrılır. Vergilər nəticəsində vergi öhdəçiliyi yaranan fəaliyyət sahəsinin xarakterinə görə (məsələn, əmtəələrin və xidmətlərin idxalı, satışı, gəirlərin əldə edilməsi) təsnifatlaşdırılır.

Cari qeyri-vergi daxilolmaloarı onların xarakterinə görə (mülkiyyətdən gəlirlər, satışdan alınan gəlir, cərimələr, rüsumlar və fərdi ianələr) qruplaşdırılır.

Kapitalla əməliyyatlardan əldə edilən gəlirlərə müxtəlif növ kapital aktivlərin satılmasından və qeyri dövlət məntəqələrindən kapital qoyuluşlarına könüllü daxil olmalar aiddir.

Rəsmi transfertlər mənbələrinə görə (vətən və ya xarici), habelə onların tə'yinatına (cari məsrəflərə və ya kapital qoyuluşlarına) görə təsnifatlaşdırılır.

Məsrəfləri və ödənişləri çıxmaqla kreditləşmələrin təsnifatı məsrəflərin aid olduğu fəaliyyətin tə'yinatına və həmin məsrəflərin çəkildiyi əməliyyatın iqtisadi xarakterinə görə həyata keçirilir.

Məsrəfləri və ödənişləri çıxmaqla kreditləşmələrin funksional

təsnifatı aşağıdakı kimidir:

1. Ümumi xarakterli dövlət xidmətləri;
2. Müdafiə;
3. İctimai asayiş və təhlükəsizlik;
4. təhsil;
5. Səhiyyə;
6. Sosial sığorta və sosial tə'minat;
7. Mənzil-kommunal təsərrüfat;
8. Mədəniyyət və din sferasında fəaliyyətin və istirahətin təşkili;
9. Yanacaq-enerji kompleksi;
10. Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və ov;
11. Dağ-mədən sənayesi və faydalı qazıntılar (yanacaq çıxılmaqla) emaledici sənaye, tikinti;
12. Nəqliyyat və rabitə;
13. İqtisadi fəaliyyətlə əlaqədar sair xidmətlər;
14. Əsas qruplara aid edilməyən məsrəflər.

Məsrəfləri və ödənişləri çıxmaqla kreditləşdirmənin iqtisadi təsnifatlaşdırılması aşağıdakı sxem üzrə aparılır:

I. Ümumi məsrəflər və kreditləşdirmə (ödənişlər çıxılmaqla), (II+V);

II. Ümumi məsrəflər (III+IV);

III. Cari məsrəflər;

1. Əmtəə və xidmətlərə məsrəflər;
2. Faizlərin ödənilməsi;
3. Subsidilər və sair cari transfertlər.

IV. Əsaslı məsrəflər:

4. Əsas kapitalın əldə edilməsi;
5. Ehtiyatları yaratmaq üçün əmtəələrin əldə edilməsi;
6. Torpaq və qeyri-maddi aktivlərin əldə edilməsi;
7. Kapital tarnsfertlər.

V. Kreditləşdirmə minus ödənişlər:

8. Daxili kreditləşdirmə;
9. Xarici kreditləşdirmə.

BVF-nun tövsiyyələrinə əsasən büdcə kəsirinin maliyyələşdirilməsi əməliyyatlarının təsnifatlaşdırılmasını kreditorların tipinə və borc öhdəçiliklərinin tipinə görə aparmaq lazımdır.

Kreditorların və ya borc öhdəçilikləri sahiblərinin iqtisadi davranışlarının həmcinsliyinə görə təsnifatlaşdırılması iqtisadiyyata ehtimal edilən tə'sirinə dair informasiya alınmasına imkan verir.

Büdcə kəsirinin maliyyələşdirilməsi əməliyyatlarının kreditorların

tipinə görə təsnifatlaşdırılması aşağıdakı sxem üzrə aparılır:

I. Ümumi maliyyələşdirmə (II+III);

II. Daxili maliyyələşdirmə:

1. Dövlət idarəçiliyi sektorlarının başqa hissələrindən;
2. Pul-kredit sistemini tənzimləyən başqa orqanlardan;
3. Depozit banklarından;
4. Sair daxili maliyyələşdirmə ;
5. Düzəlişlər.

III. Xarici maliyyələşdirmə:

6. Beynəlxalq iqtisadi inkişaf təşkilatlarından;
7. Xarici idarəçilik orqanlarından;
8. Sair xarici borclar;
9. Likvidliyi, (nəğdiyyəni) idarə etmək üçün nəzərdə tutulan pul vəsaitlərinin, depozitlərin və qiymətli kağızların dəyişməsi.

Maliyyələşdirmə əməliyyatlarının belə təsnifatlaşdırılması dövlət idarəçiliyi sektorunun kəsirini örtmək üçün lazım olan maliyyə vəsaitlərinin əldə edilmə mənbələrini, habelə gəlirlərin məsrəfləri üstələməsi nəticəsində yaranmış vəsaitlərin istifadəsini göstərmək məqsədilə aparılmışdır.

Borc öhdəçiliklərinin tipinə görə büdcə kəsirinin maliyyələşdirilməsi əməliyyatlarının aşağıdakı təsnifatı dövlət idarələri öz kəsirini maliyyələşdirmək və gəlirlərin məsrəflərdən çox olduğu şəraitdə yaranmış maliyyə resurslarının bölüşdürülməsi üsulları haqqında informasiya almağa imkan verir:

I. Ümumi maliyyələşdirmə (II-III);

II. Daxili maliyyələşdirmə:

1. Uzun müddətli istiqrazlar;
2. Qısa müddətli istiqrazlar və veksellər;
3. Başqa kateqoriyalara aid edilməyən uzun müddətli ssudalar;
4. Başqa kateqoriyalara aid edilməyən qısamüddətli ssudalar və avanslar;
5. Sair öhdəçiliklər;
6. Likvidliyi (nəğdiyyəni) idarə etmək üçün nəzərdə tutulmuş nağd pul vəsaitləri, depozitlər və qiymətli kağızlar.

III. Xarici maliyyələşdirmə:

7. Uzunmuddətli istiqrazlar;
8. Qısamüddətli istiqrazlar və vəsaitlər;
9. Başqa kateqoriyalara aid edilməyən uzunmüddətli ssudalar və avanslar;
10. Başqa kateqoriyalara aid edilməyən qısamüddətli ssudalar və

avanslar;

11. Sair öhdəçiliklər;
12. Likvidliyi (nəğdiyyəni) idarə etmək üçün nəzərdə tutulan nəğd pul vəsaitləri, depozitlər və qiymətli kağızlar.

Nəzərdən keçirilmiş bu təsnifatda borc götürmənin tədavül üçün nəzərdə tutulmayan ssuda forması və qiymətli kağızlar, uzunmüddətli və qısamüddətli (bir ilədək və bir ildən yuxarı), formaları fərqləndirilməklə yanaşı sair öhdəçiliklər üçün ayrıca kateqoriya nəzərdə tutulur.

Dövlət borcları statistikası bütövlükdə dövlət idarəçilik sektorunu, mərkəzi dövləti, ərazi idarəçilik orqanlarını və yerli idarəçilik orqanlarını əhatə etmişdir. Borclara dair mə'lumatlar iqtisadiyyatın başqa sektorların tələbatını nəzərə almadan dövlət idarəçiliyi üçün öhdəçiliklərin ümumi məbləğini göstərir. Dövlət borcu idarəçilik orqanlarının iqtisadiyyatın başqa sektorlarına və başqa dövlətlərə faizlər və ya başqa formalarda ödəməli olduqları məbləğə əsasən müəyyən edilir.

Dövlət borcunun ən vacib təsnifatlaşması borc öhdəçiliklərini saxlayanların tipinə (daha doğrusu kreditorun tipinə) görə aparılan təsnifatdır.

Həmin təsnifat aşağıdakı sxem üzrə aparılır:

I. Borcun ümumi məbləği (II +III);

II. Daxili borc;

1. Dövlət idarəçiliyi sektorunun başqa hissələrinə;
2. Pul-kredit sisteminin tənzimləyici orqanları;
3. Depozit bankları;
4. Sair daxili borclar;
5. Dəyərlərin qiymətləndirilməsində yaranmış fərqlərin təhsisinə.

III. Xarici borc.

6. Beynəlxalq inkişaf orqanlarına;
7. Xarici idarəçilik orqanlarına;
8. Sair xarici borclar;
9. Dəyərlərin qiymətləndirilməsində yaranmış fərqlərin təshihinə.

Yuxarıda qeyd edilənlərdən əlavə dövlət borcları iqtisadiyyatın sektorları və yarım sektorları üzrə, habelə borc öhdəçiliyinin tipinə (daxili və ya xarici, tədavül üçün nəzərdə tutulmayan qiymətli kağızlar və ya ssuda formasında) görə də təsnifatlaşdırıla bilər.

§11.20. Fond bazarı statistikası

"Fond bazarı" dedikdə qiymətli kağızlar bazarı (başqa sözlə fondlar bazarı) başa düşülür. Bazar iqtisadiyyatının ayrılmaz hissəsi olan fond birjasında yığımın investisiyaya çevrilməsi prosesi gedir və iqtisadiyyatda quruluş dəyişikliklərini şərtləndirən kapitalın sahələrarası axını formalaşır. Fond bazarının birja və birjadan kənar tipləri mövcuddur. Fond bazarının vəzifəsi cari makroiqtisadi konyukturanı əks etdirmək və ondan asılı olaraq pul və büdcə siyasətinə dair tədbirlər hazırlamaqdır.

Fond birjası qiymətli kağızlar bazarının müəyyən qaydada qurulmuş hissəsidir. Burada vasitəçilərin köməkliyi ilə alqı-satqı sövdələşmələri aparılır. Birjada bütün sövdələşmələr açıq alver yolu ilə həyata keçirilir və onların hər birinə dair geniş informasiya verilir.

İndiki birjalara bənzər fəaliyyət sahələri qədim Misirdə, Vavilonda və Finikiyada mövcud imiş. İlk daimi birja 1406-cı ildə Hollandiyanın Bryuqqe şəhərində Van der Burs evinin yanında yaranmışdır. İndi işlədəilən "birja" sözü də latın dilindəki "bursa" sözündən götürülmüşdür. Sonradan Antverpendə (1460-cı il), Amstredamda (1530-cu il), Parisdə (1563-cü il), Hamburqda (1564-cü il), Berlində (1716-cı il), Vyanada (1771-ci il), Peterburqda (1703-cü il) və başqa yerlərdə yaradılmış əmtəə və fond bazarları da birja adlandırıldı. Sonradan fond birjası Yaponiyada, Böyük Britaniyada, ABŞ-da və başqa yerlərdə də yarandı. Bütün bunlara baxmayaraq birjaların yaranma tarixi 1608-ci il Amstredam birjasının yarandığı vaxtdan götürülür.

Qiymətli kağızların tipinə görə daxili, məhəlli və beynəlxalq fond birjalarını fərqləndirirlər. Daxili fond bazarlarının aşağıdakı seqmentləri mə'lumdur:

1. Dövlət istiqraz bazarı;
2. Bələdiyyə (munisipial) istiqraz bazarı;
3. Korporativ müəssisələrin səhmlər bazarı (dar mə'nada fond bazarı);
4. Korporativ istiqrazlar və veksellər bazarı.

Fond bazarı statistikasının vəzifəsi bu sahəyə aid ümumiləşdirici göstəriciləri (qiymətlərin faiz stavkaları və gəlirliliyin səviyyəsini, risk dərəcəsini, aparılan əməliyyatlaın və cəlb edilən maliyyə aktivliyinin həcmini) öyrənir. Bu göstəricilərin dinamikada öyrənilməsi mövcud ən'ənələri öyrənməyə bazar iştirakçılarına aktivləri idarə etmək üçün istiqamət seçməyə imkan verir. Birjalar əmtəə, fond və valyuta brjalarına bölünür. Əmtəə birjasında ayrı-ayrı əmtəələr (neft, taxıl, metal və s.), fond birjalarında qiymətli kağızlar üzrə əməliyyatlar aparılır. Hal-hazırda dünyada 200-ədək fond birjası fəaliyyət göstərir. Onların hər birinin öz xüsusiyyətləri vardır. Onlardan ən böyükləri

ölkənin əsas maliyyə mərkəzində yerləşənlər hesab olunur. Belə birjalarda ümummilli hesab edilən əməliyyatlar təmərküzləşir. Əyalət birjaları isə tədricən öz mövqeylərini itirirlər. Monosentrik birja sistemi belə yaranır. Bunlardan ən mükəmməli London birjasıdır. Beynəlxalq fond birjası adlanan London birjası bütün İngiltərənin birjalarından əlavə həm də İrlandiyanın birjalarını da özündə birləşdirir.

Monosentrik birjalar Yaponiyada, Fransada, Rusiyada və başqa ölkələrdə fəaliyyət göstərir.

Bir çox ölkələrdə polisentrik birjalar fəaliyyət göstərir. Belə birjalarda eyni mövqeyə malik olan fond ticarəti mərkəzləri təqribən eyni dərəcədə fəaliyyət göstərirlər. Məsələn, Kanadada Monerial və Torranto, Avstraliyada Sidney və Melbrun, ABŞ-da Nyu-York və Amerika fond birjaları liderlik edirlər. Ayrıca götürülmüş hər bir maliyyə sövdələşməsində üç tərəf iştirak edir: satıcı, alıcı və vasitəçi. Bu prosesdə vasitəçi iki formada iştirak edə bilər:

1. Qiymətli kağızları öz hesabına almaqla müəyyən müddətə o qiymətli kağızların sahibi olur. Sonradan o alqı-satqı kursları arasındakı fərq hesabına gəlir əldə edir. Belə halda həmin vasitəçi "diler" adlanır.

2. Öz müştərilərindən qiymətli kabızlar almaqdan ötəri tapşırıq alaraq səlahiyyətli nümayəndə kimi hər bir sövdələşmə üçün müəyyən haqq (və ya faiz formasında gəlir) alır. Belə halda o "broker" və ya "idarəedici" adlanır.

Yuxarıda deyilənlərdən əlavə vasitəçilər klirinq (qiymətli kağızlar bazarında qarşılıqlı öhdəçilikləri qoruyan), qiymətli kağızların sahiblərinin reestrini aparmaq və başqa vasitəçilik xidmətləri də həyata keçirirlər.

Birja kursunun hərəkətini qiymətləndirmək üçün səhmlər kursunun indeksi hesablanır. Hər bir səhmin (istiqrazın) qiyməti kursu indeksini hesablamaq üçün onun kursunu birjada katirovka edilən həmin tipdən olan səhmlərin miqdarına vurub səhmin nominalına bölmək lazımdır. Bundan sonra səhm qiymətləri kursu indeksləri aqreqat birja indekslərinin hesablanması üçün istifadə olunur.

Fond indekslərindən ən geniş yayılmışı 1898-ci ildən Nyu-York Fond birjasında hesablanan Dou-Cons indeksidir. Bütün başqa birjaların indeksləri də buna uyğun hesablanır.

Dou-Cons indeksi aparıcı amerikan kompaniyalarının səhmlərinin orta qiymətlərindən hesablanmış orta kəmiyyət kimi müəyyən edilir. Bu indeksi investorlar baxımından ən çox nüfuza malik olan 30 aparıcı sənaye korporasiyası (Ceneral Motors, Ceneral elektrik, teksako və başqaları), 20 nəqliyyat kompaniyası və 15 aparıcı kommunal təsərrüfat kompaniyaları üçün ayrıca, həm də onların hamısı üzrə birlikdə hesablayırlar. Hesablanmış belə indekslərin qiyməti əvvəlki gündəki

qiymətlə müqayisə edilir. İndeksin günlər üzrə qiymətlərinin fərqi bəndlər üzrə ifadə olunur. Məsələn, tuaq ki, Dou-Cons indeksinin qiyməti hesabat günü üçün 1164,5-ə, ondan əvvəlki gündə isə 1166,2-yə bərabər olmuşdur. İndeksin bu qiymətlərinin fərqi 1164,5-1166,2 = -1,7 əvvəlki günə nisbətən səhmlərin qiymətinin 1,7 bənd aşağı düşdüyünü göstərir. Dou-Cons indeksinin dəyişməsi ABŞ-ın sərhədlərindən kənara da tə'sir göstərir. Belə hal sənayecə inkişaf etmiş ölkələrin birja dövriyyələrinin 50%-dən çoxunun Nyu-York birjasında təmərküzləşməsi ilə əlaqədardır. Bu birjadan keçən səhmlərin ümumi dəyəri bir neçə trilyon dollara bərabər olduğu üçün Dou-Cons indeksinin hərəkəti bazar iqtisadiyyatı ölkələrinin maliyyəsi və iqtisadiyyatının vəziyyətinə dair mühüm siqnal hesab edilir. Ona görə də Nyu-York birjasının Dou-Cons indeksi hər yarımsaaatdan bir hesablanır və rəsmi surətdə elan edilir.

ABŞ-ın qiymətli kağızlar bazarını tədqiq edən ən iri "Stendard end purs" firması eyni məqsədlə 1957-ci ildən sonra 500 aparıcı amerikan kompaniyalarının (400 sənaye, 40 kommunal xidməti, 40 maliyyə və 240 nəqliyyat) səhmlərinə əsasən çəkili orta qiymət indekslərini hesablayır. Bu indeksin rəqəm qiyməti Dou-Cons indeksindən kiçik olduğu üçün səhmlərin qiymətlərində baş verən dəyişiklikləri tam həssaslıqla əks etdirə bilmir.

Bu əsas göstəricilərdən əlavə hər bir inkişaf etmiş ölkənin birjasında ayrıca olaraq onda qeydə alınmış kompaniyaların səhmlərinin qiymət indeksləri hesablanır. Məsələn, Dou-Cons indeksinin analoqu kimi Yaponiyanın 225 iri kompaniyası üzrə "Nikkey", Tokio Fond birjasının "Topiks", Almaniyanın 30 kompaniyasını əhatə edən "Daks" indeksləri hesablanır.

Rusiyada fəaliyyət göstərən müxtəlif kompaniyaları (Skeyt Pres agentliyi, First Boston, AK və M agentliyi, İnterfaks agentliyi, F.T. Qrant, Kommersant Daily və s.) əhatə edən bir neçə fond indeksi hesablanır. Bu indekslərdən ən çox istifadə olunanı Ros-Jndex (21 kompaniyanı əhatə edir) və Mi-Jndex (50 kompaniyanı əhatə edir) və başqalarıdır.

Fond indekslərini hesablamaq üçün orta kəmiyyətlər üsulundan istifadə olunur. Metodik baxımdan indekslər kompaniyaların məcmuuna (hesablamaya cəlb edilmiş), dəyişkən orta kəmiyyətin növünə və çəkiləri müəyyən etmə üsuluna (çəkili orta kəiyyət tətbiq edildikdə) görə fərqləndirilir. Adətən fond indekslərini hesablayarkən hər hansı bir kompaniyanın səhmini hesablamaya daxil etmək üçün əsas meyar kimi konkret qiymətli kağız növünün əmtəə fəallığından istifadə edilir. Qiymətli kağızın əmtəə fəallığı göstəricisi kifayət qədər uzun dövr müddətində bir ticarət günü ərzində baş vermiş ticarət sövdələş-

mələrinin orta miqdarı kimi müəyyən edilir. Belə halda yalnız ticarət fəallığı müəyyən edilmiş minimum səviyyədən yüksək olan səhmlər ümumi yekuna daxil edilir.

Fond indekslərini hesablayarkən ümumi yekuna daxil ediləcək kompaniyaları müəyyən edərkən başqa metod kimi reprezentativlik göstəricilərindən istifadə olunur. Hesablamalar zamanı reprezentativliyi tə'min etmək üçün bir tərəfdən iqtisadiyyatın əsas sahələri ümumi yekuna daxil edilməli, başqa bir tərəfdən isə əsas ticarət meydançalarında yaranmış qiymətlərin səviyyəsi nəzərə alınmalıdır.

Müxtəlif kompaniyaların səhmlərinin dəyişməsi əsasən sinxron baş verdiyinə görə bazarda qiymətlərin dinamikası haqqında təsəvvür əldə etmək üçün indeksləri hesablayarkən kifayət qədər böyük xüsusi çəkiyə malik və az saylı kompaniyaların səhmlərindən istifadə olunur. Məsələyə belə yanaşma klassik statistikada əsas massiv üsulu adlanır.

Bazar kapitallaşmasının həcminə görə çəkiləşdirilən indeksin düsturunu aşağıdakı kimi yazmaq olar:

$$J_t = \frac{\sum (P_1 / P_0) P_0 Q_0}{\sum P_0 Q_0} \cdot J_0 \approx \frac{\sum P_1 Q_0}{\sum P_0 Q_0} J_0$$

burada P_1 və P_0 - t anında və bazis anında səhmin qiymətini;
P_1/P_0 - fərdi qiymət indeksini;
Q_0 - dövriyyədəki səhmlərin miqdarını;
J_0 - İndeksin başlanğıc (bazis) qiymətidir.

Bu indeksi J_0-ın başlanğıc qiymətinə böldükdə alınmış nəticə bazis anına nisbətən kompaniyaların nəzərdən keçirilən məcmu üzrə yekun bazar kapitallaşmasının neçə artmasını müəyyən etmək olar.

Rusiyanın birjadan kənar səhmlər bazarı indeksi və ya Rusiyanın ticarət sistemi (RTS) indeksi də eyni düstur üzrə hesablanır. RTS indeksi hər saatdan bir hesablanır. Onun qiyməti saat 18^{00}-ə (RTS-də ticarət gününün başa çatdığı ana) müəyyən edilir. Hesablamalar üçün ondan əvvəlki 24 saatın mə'lumatlarından istifadə olunur.

Vaxt üzrə tranzitivliyi bilavasitə nəzərə alan indeksin düsturu aşağıdakı görkəmə malikdir:

$$J_t^* = \frac{\sum P_t Q^*}{\sum P_{t-1} Q^*} J_{t-1}$$

Burada Q^*- məcmuun yeni tərkibində olan səhmlərin miqdarını ;
J_{t-1} - dəyişmə anından əvvəlki məcmuun tərkinin dəyişməsi indeksini göstərir.

Səhmlərin fərdi göstəricilərinə onların "bazar əmsalı" adlanan göstərici də aiddir. Bu əmsal səhmin qiymətini (r) kompaniyanın bir səhminə düşən mənfəətinə (E) bölməklə hesablanılır:

Bir səhmin bazar əmsalı = R:E

Bu göstəricini başqa variantda da hesablamaq olar. Bundan ötəri bir səhmə ödənilən dividenti (D) onun qiymətinə bölmək lazımdır:

Bir səhmin bazar əmsalı = D : R

Bu əmsallar müvafiq olaraq bazarda səhmin qiymətləndirmə dərəcəsini və onun illik gəlirlilik dərəcəsini qiymətləndirmək üçün istifadə olunur.

Bazar Fondu statistikasında istifadə olunan mühüm göstəricilərdən biri konkret qiymətli kağız növünün miqdarı göstəricisidir. Onun miqdarını səhmin bazar qiymətinə vurmaqla bazarın tutumunu (dövlət istiqrazları üzrə bu göstərici dövriyyədə olan qiymətli kağızların dəyəri, səhmlər üzrə bazar kapitallaşmasının həcmi və ya kompaniyanın bazar dəyəri adlanır) müəyyən etmək olar.

Rusiyanın dövlət istiqrazları bazarında istiqrazı saxlayanın qarşısında dövlətin borc öhdəçiliyini əks etdirən qiymətli kağızlar dövr edir. Dövlət qısamüddətli istiqrazları (DQİ) auksionda diskontla (yə'ni nominala görə faizlə müəyyən edilmiş qiymətlə) müəyyən edilir və əvvəlcədən müəyyən edilmiş müddətdən sonra ödənilir. İstiqrazı saxlayanların bir qiymətli kağız hesabı ilə gəliri nominalla istehslak qiyməti arasındakı fərq kimi müəyyən edilir. Başqa aktiv əməliyyatları ilə müqayisə etmək üçün gəlirlilik il üzrə hesablanır:

$$y = \frac{100 - p}{p} 365 / t$$

Burada p - əldə edilmə qiymətini (nominaldan faizlə);

t - ödənilməyədək olan müddəti (günləri) göstərir.

DQİ-nin yerləşdirilməsi hər həftə həyata keçirilir.

DQİ bazarının gəlirliyi səviyyəsini əks etdirən ümumiləşdirici göstəricisini əldə etmək üçün hər bir ticarət günü üçün çəkili hesabi orta kəmiyyətin düsturuna əsasən orta gəlirlilik göstəricisi hesablanır:

$$y = \frac{\sum Q_i P_i d_i y_i}{\sum Q_i P_i d_i};$$

Burada Q_i , P_i , d_i və y_i müvafiq olaraq gün ərzində bağlanmış sövdələşmələrin sayının orta qiymətini, ödənillənədək qalan müddəti və i-cı qiymətli kağızın ödənilməli olan gəlirliliyini göstərir.

Orta gəlirlilik göstəricisi bazar faiz stavkasını əks etdirən ümumiləşdirici göstəricidir. Mə'lum olduğu kimi faiz stavkası kreditin verildiyi müddətlə sıx əlaqədardır. Buna görə də DQİ üzrə bazarın orta gəlirliliyi göstəricisi "bazarın dyurasiyası" adlanan ödənilməyədək qalan orta vaxt müddəti göstəricisi ilə tamamanmalıdır. Bazarın dyurasiyası bazarda dövr edən qiymətli kağızların ödənmə müddətinədək qalan vaxta əsasən hesablanmış çəkili hesabi orta kəmiyyət kimi müəyyən edilir:

$$y = \frac{\sum Q_i P_i d_i}{\sum Q_i P_i}$$

Bazarın dyurasiyası göstəricisi sabit kəmiyyət olmadığına görə tam müqayisə olunmur. Uzunmüddətli ödənmə stavkası müəyyən edilmiş qiymətli kağızların xüsusi çəkisinin dəyişməsi bazarın orta gəlirlilik (dyurasiya) göstəricisinin dəyişməsinə bilavasitə tə'sir göstərir. Odur ki, daha əsaslı elmi təhlil aparmaq üçün orta gəlirlilik göstəricilərini ödəmə müddəti qismən yaxın olan həmcins qiymətli kağızlar üzrə (müddəti 30 günədək, 31-60 günədək, 61-120 günədək və 120 gündən çox) hesablamaq daha məqsədəuyğundur. Belə qruplu göstəricilərə əsasən hesablanmış sabit çəkili hesabi orta kəmiyyət orta gəlirlilik göstəricisinin quruluş dəyişikliyi amilinin tə'sirini bir qədər aradan qaldırır.

Bə'zi dövlətlərdə dövlət istiqrazlarının başqa növü dəyişkən kuponlu federal borc istiqrazlarıdır (FBİ). Onlardan gəlir hər rüb hesablanır, lakin hər bir kuponun faiz stavkası ondan əvvəlki kupon dövrünün əvəlində müəyyən edilir. Bu isə o deməkdir ki, FBİ üzrə gəlirlilik göstəricisini yalnız cari kuponun ödənilməsi üçün hesablamaq olar. FBİ-nin orta gəlirliliyi DQİ-nin orta gəlirlik göstəricisi düsturuna əsasən hesablanır. Belə halda nəzərə almaq lazımdır ki, ödənmə müddətində böyük fərqlər olduğuna görə qeyri-sabit bazar şəraitində FBİ-nin orta gəlirliliyi göstəricisi öz əhəmiyyətini itirir.

§11.21.Tədiyyə balansı makroiqtisadi maliyyə statistikasının mühüm bölməsidir

Konkret ölkənin dünyanın başqa ölkələri ilə iqtisadi əlaqələrini əyani şəkildə əks etdirmək üçün xarici iqtisadi əlaqələrin tə'diyyə balansının tərtib edirlər. Tə'diyyə balansı ölkənin iqtisadiyyatın xarici ölkələrlə əlaqəsini ümumiləşdirilmiş şəkildə əks etdirən statistik göstəricilər sistemidir. Milli ərazinin sərhəddindən hər iki istiaqmətdə hərəkət edən (aparılan və gətirilən) əmtəə və xidmətlər, habelə kapitalın məbləği öz əksini tə'diyyə balansında tapır.

"Tə'diyyə balansı" termini ilk dəfə olaraq (1767-ci ildə) son merkantilizmin nümayəndəsi D.Styuartın "Siyasi iqtisadın prinsiplərinə dair tədqiqat" adlı əsərində işlədilmişdir. İlkin mə'nada tə'diyyə balansı anlayışı xarici ticarətin saldosunu və bununla əlaqədar olaraq qızılın hərəkətini əks etdirirdi. Merkantilistlər milli sərvətin artımını qızılın yığılması ilə əlaqələndirir və belə hesab edirdilər ki, dövlət özünün həyata keçirdiyi bütün iqtisadi tədbirlərlə ticarət balansının aktiv saldosunu stimullaşdırmaqla, ölkəyə qızıl axınını tə'min etməli və heç olmasa ölkədən xaricə qızılın getməsinin qarşısını almalıdır.

Xarici iqtisadi əlaqələrin XIX əsrdə xeyli genişlənməsinə baxmayaraq XX əsrədək bu sahədə aparılan əməliyyatlara dair lazımi informasiya yox idi. İlk rəsmi tə'diyyə balansı 1923-cü ildə ABŞ-ın ticarət nazirliyi tərəfindən hazırlandı. Bu balansda bütün əməliyyatlar üç qrupa - cari, əsaslı, habelə qızıl və gümüşlə aparılan əməliyyatlara bölünürdü.

Millətlər birliyi 1924-cü ildə bir sıra ölkələrin tə'diyyə balansını nəşr etməklə tə'diyyə balansının qurulması metodologiyasının inkişafına təkan verdi. Bununla da tə'diyyə balansının qurulması prinsipləri və göstəricilərin beynəlxalq müqayisəliliyinin metodoloji prinsipləri müəyyən edildi.

1943-cü ildə amerikan iqtisadçısı Leri 1919-1939-cu illər üçün ABŞ-ın tə'diyyə balansını tərtib etdi. Bu balans ikinci dünya müharibəsindən sonra ABŞ-da tərtib edilən tə'diyyə balanslarının əsasını təşkil etdi.

1947-ci ildə BMT Millətlər Birliyi tərəfindən hazırlanmış tə'diyyə balansının sxemini nəşr etdi. Sonralar tə'diyyə balansının qurulması metodologiyasının hazırlanması işini Beynəlxalq Valyuta Fondu davam etdirdi. Hal-hazırda BMT üzvü olan ölkələr öz tə'diyyə balanslarını BVF-nun tövsiyyələrinə və göstəricilərinə əsasən qururlar.

Azərbaycan Respublikasında tə'diyyə balansının tərtibinə 1994-cü ildən sonra başlanmışdır. Respublikanın ilk tə'diyyə balansı 1995-ci il üçün respublika DSK və Milli Bankı tərəfindən tərtib edilmişdir. 1996-cı il üçün tərtib edilən tə'diyyə balansı respublikanın 5 minə yaxın hüquqi, 400 mindən çox fiziki şəxslərini, habelə 75 xarici ölkənin rezidentləri ilə apardıqları xarici iqtisadi əlaqələri əks etdirdi.

Tə'diyyə balansı tərtib edilərkən iki prinsip əsas götürülür:

1.Müəyyən dövr (il) ərzində ölkənin bütün xarici iqtisadi əlaqələrini tam əks etdirmək.

2.İkitərəfli (bir hesabın debetində və başqa bir hesabın kreditində) qeydiyyata əsaslanmaq.

Tə'diyyə balansını qurarkən xarici və daxili əməliyyatları, habelə balansı tərtib edən ölkənin və xarici ölkələrin rezidentlərini ayırmaq lazımdır.

Dünya ölkələri ilə iqtisadi əlaqəyə malik olan ölkənin iqtisadiyyatı bütövlükdə bir sıra tə'sisat vahidlərirezidentlərin cəmindən ibarət olur. Tə'sisat vahidlərinin iqtisadi maraqları konkret ölkənin iqtisadi ərazisində yerləşdiyi halda onu rezident hesab edirlər. İqtisadi fəaliyyətdə iştirak edən və ya uzun müddət iştirak etmək niyyətində olduqları üçün iqtisadi ərazidə mənzili, istehsal üçün yeri və başqa binası olduğu halda onlar iqtisadi maraq mərkəzinə malik olurlar. Rezidentlik konsepsiyası tə'diyyə balansları üzrə beynəlxalq valyuta fondunun

rəhbər göstərişlərinə uyğundur. Bununla yanaşı rezidentliyin bə'zi cəhətlərini bir qədər müfəssəl nəzərdən keçirmək yerinə düşərdi. Eyni ev təsərrüfatının bütün üzvləri ev təsərrüfatının özü kimi (hətta xarici ölkələrdə) rezident ola bilər. Onlar iqtisadi maraq mərkəzi əldə edərək xaricdə uzun müddət işlədikdə özlərinin aid olduqları ilkin ev təsərrüfatlarının üzvlüyündən çıxırlar.

Qeyri- korporativ müəssisələr də ev təsərrüfatları kimi rezidentliyə malik olurlar. Əgər korporativ müəssisə xaricdə uzun müddət ofis, şö'bə və ya istehsal sahəsi saxlayarsa onların yerləşdiyi ölkənin kvazikorporasiyaları kimi nəzərdən keçirilir.

Korporasiyalar və qeyri-kommersiya idarələri qeydə alındıqları və hüquqi cəhətdən borclu olduqları ölkənin rezidentidirlər. Əgər korporasiya xaricdə "qız" korporasiyaları yaratmadan uzun müddət şö'bə, ofis və ya istehsal sahəsi saxlayarsa bu şö'bə, ofis və ya istehsal sahələri yerləşdikləri ölkənin rezidenti olmaqla kvazikorporasiya kimi nəzərdən keçirilir. "Qız" korporasiyaları və tə'sisatçı korporasiyalar rezident ola bilərlər.

Hər hansı ölkədə torpaq və bina sahibləri başqa iqtisadi fəaliyyətdə iştirak etsələr də bu ölkədə iqtisadi maraq mərkəzinə malik olurlar. Buna görə də bütün torpaq və bina rezidentlərin mülkiyyətləridir.

"Korporasiyalar" termini beynəlxalq MHS-də ən çox işlənilən termindir (istilahdır). Korporasiyalar müxtəlif adla adlana bilər: korporasiya, birləşmiş müəssisələr, dövlət qapalı müəssisələri, dövlət koperasiyaları, xüsusi kompaniyalar, səhmdar kompaniyalar, məhdud məsuliyyəli kompaniya və ya yoldaşlıq və s. Korporasiya bazar üçün məhsul istehsal etmək və ya xidmət göstərmək üçün yaradılan, onun sahibi üçün mənfəət və ya başqa maliyyə qazancı gətirən hüquqi şəxs kimi təsvir edilə bilər. O, səhmdarların kollektiv mülkiyyətidir. Onun idarə olunmasına cavabdeh olan direktorun tə'yin edilməsi də həmin səhmdarların səlahiyyətidir. Özünü korporasiya adlandıran şəxslərdən başqa mənfəət əldə etmək üçün bazar istehsalında iştirak etmək məqsədi ilə yaradılan başqa hüquqi şəxslər də vardır. Belələri kifayyət qədər ixtisaslaşdırılmış funksiyalara malik olduqları üçün başqa cür təsvir edilə bilər. Belə şəxslər sistemdə korporasiya kimi təsnif edilirlər. Məsələn, istehsalçılar tərəfindən buraxılmış məhsulu satmaq üçün yaradılmış kooperativlər belələrinə aiddir. Belə kooperativlərin mənfəəti müəyyən edilmiş qaydaya əsasən bölüşdürülür və onlar mahiyyətcə korporasiya kimi fəaliyyət göstərirlər. Üzvləri məhdud məsuliyyətə malik olan yoldaşlıqlar da özlərini korporasiya kimi aparırlar. Mahiyyətcə partnyorlar eyni zamanda səhmdar, idarəedici və menecerlərdir. Ümumiyyətlə, bazar istehsalında iştirak etmək məqsədi ilə və öz sahibinə mənfəət və ya başqa maliyyə qazancı gətirə bilən

bütün vahidlər özlərini necə adlandırsalar da qanunla hüquqi şəxs kimi tanınırlar. Beləliklə öz sahiblərindən ayrıca məhdud mə'suliyyətə malik olur və MHS-də "Yoldaşlıq" adlanır. Bə'zən elə olur ki, korporasiya özü heç bir istehsalla məşğul olmur. Onun vəzifəsi bir qrup "qız" korporasiyalarına nəzarət və rəhbərlik etməkdən ibarət olur. Belə korporasiyalar adətən "Xoldinq korporasiyaları" və ya "Xoldinq kompaniyaları" adlanır.

Nəzərə almaq lazımdır ki, diplomatlar, hərbçilər, turistlər, hətta öz ölkələrinin ərazisindən kənarda yerləşsələr də vətəndaşı olduqları ölkənin rezidentləri hesab olunurlar.

Konkret ölkəyə xarici valyutanın daxil olması müxtəlif əməliyyatlar, əlaqələr və iqtisadi münasibətlər nəticəsində daxil olar. Buraya əmtəə və xidmətlərin ixracatı, xarici səhmlərin sahiblərinə ödənilən dividentlər və faizlər, birtərəfli köçürmələr və transfertlər, xarici ölkələrin bu ölkəyə verdikləri qısamüddətli borclar və investisiyalar və s. aiddir.

Konkret ölkədən valyuta aparılması, xarici əmtəələrin idxalı, pensiya və başqa pul köçürülmələri, xüsusi firmalara və dövlətlərə kreditlərin verilməsi və s. nəticəsində baş verə bilir. Beləliklə, əmtəə və xidmətlərin idxalı və ixracı, faiz və dividentləri, birtərəfli köçürmələri və transfertləri, alınan və verilən borcları, habelə ehtiyatların gəlməsi və getməsini əlaqəli şəkildə əks etdirən göstəricilər sistemi tə'diyyə balansı adlanır. Tə'diyyə balansında cari əməliyyatlar (ticarət, qeyri-kommersiya və xidmətlərinə bağlı əməliyyatlar balansı), habelə kapital qoyuluşlarının və kreditlərin hərəkətini əks etdirən balanslar birləşdirilir.

BVF-nun tövsiyələrinə əsasən (1993-cü il) tə'diyyə balansının standart komponentləri aşağıdakı kimidir:

I. Cari əməliyyatlar hesabı:
A. Əmtəələr və xidmətlər:
1.Əmtəələr (ticarət balansı):
1.1. Əmtəələrin ixracı və idxalı;
1.2. Emal üçün nəzərdə tutulan əmtəələr;
1.3. Təmir;
1.4. Yük daşıyanlar tərəfindən limanlara çatdırılmış əmtəələr;
1.5. Qeyri monetar qızıl;
2. Xidmətlər (qeyri amil):
2.1. Nəqliyyat xidmətləri;
2.2. Turizm:
2.2.1.İşgüzar;
2.2.2.Fərdi;
2.3.Rabitə xidməti;

2.4.Tikinti xidməti;
2.5.Sığorta xidməti;
2.6.Maliyyə xidməti;
2.7.Kompleks unifikasiya edilmiş xidmətlər;
2.8.Royalti və lisenziya mükafatları;
2.9.Biznes sferasında sair xidmətlər;
2.10.Vaxt keçirmək, mədəni tədbirlər və istirahət;
2.11.Dövlət idarələri tərəfindən başqa ölkələr üçün yerinə yetirilən və başqa maddələrə daxil edilməyən xidmətlər;
B.Daxil olanlar (amil xidmətlərindən):
1.Muzdlu əməklə məşğul olanların ödənişləri:
2.İnvestisiyadan gəlirlər:
2.1.Birbaşa investisiyalar;
2.1.1.Səhmlərdən gəlirlər;
2.1.2.Verilmiş kreditdən daxil olmalar;
2.2.Portfel investisiyası (faizlər);
2.2.1.Səhmlərdən gələn gəlir (dividentlər)
2.2.2.İstiqrazlar, qısamüddətli qiymətli kağızlar və pul bazarının sair instrumentlərindən alınan faizlər
2.3.Sair investisiyalar;
C. Cari köçürmələr (cari transfertlər):
1.Ümümdövlət;
2. Sair sektorlar;
2.1.İşləyənlərin pul köçürmələri;
2.2. Sair köçürmələr
II Kapitalın və maliyyənin hərəkəti hesabı:
A. Kapitalın hərəkəti hesabı:
1.Kapital köçürmələr (kapital transfertlər):
1.1.Ümumidövlət;
1.2. Sair sektorlar:
1.2.1.Miqrantların köçürmələri,
1.2.2.Borcların silinməsi,
1.2.3.Sair.
2.Qeyri maliyyə aktivlərin əldə edilməsi (satılması).
B. Maliyyə hesabı:
1.Birbaşa investisiya:
1.1.Sərhəddən kənarda:
1.1.1.Səhmdar kapital,
1.1.2.Reinvestisiya gəliri,
1.1.3.Kapitalın sair növləri,
1.2.Daxili iqtisadiyyata
1.2.1.Səhmdar kapital

1.2.2.Reinvestisiya gəliri
1.2.3.Kapitalın sair növləri,
2. Portfel investisiyası:
2.1.Aktivlər:
2.1.1.Qiymətli kağızlar:
2.1.2.Borc qiymətli kağızları;
2.1.2.1.İstiqrazlar və qısa müddətli qiymətli kağızlar;
2.1.2.2. Pul bazarlarının instrumentləri:
2.1.2.3. Törəmə maliyyə instrumentləri,
2.2.Passivlər:
2.2.1.Qiymətli kağızlar;
2.2.2.Borc qiymətli kağızlar;
2.2.2.1.İstiqrazlar və qısamüddətli qiymətli kağızlar;
2.2.2.2.Pul bazarının instrumentləri;
2.2.2.3.Törəmə maliyyə instrumentləri;
3. Sair investisiyalar:
3.1. Aktivlər;
3.1.1.Ticarət krediti
3.1.2.Borclar;
3.1.3.Valyuta və depozitlər;
3.1.4.sair aktivlər;
3.2. Passivlər:
3.2.1.Ticarət krediti;
3.2.2. Borclar;
3.2.3. Valyuta və depozitlər;
3.2.4. Sair passivlər.
4.Rezerv aktivləri (rəsmi rezervlər):
4.1.Monetar qızıl;
4.2.Borc götürmənin xüsusi hüququ;
4.3.BVF-də xüsusi hüquq;
4.4.Xarici valyuta:
4.4.1.Valyuta və depozitlər,
4.4.2.Qiymətli kağızlar,
4.5.Sair tələbnamələr.

"Kapitalın hərəkəti hesabı" kapitalı tipinə (birbaşa investisiya, portfel investisiya, sair kapital və rezervlər), uzunmüddətli aktivlərə və passivlərə və mənsubiyyətinə (dövlət təşkilatları, maliyyə orqanları, sair banklar və s.) görə təsnifatlaşdırılır.

Rezerv aktivlərinə dövlət qızıl ehtiyatı (monetar qızıl), ölkənin BVF-da rezerv mövqeyi və tə'diyyə balansını tənzimləmək üçün mərkəzi pul-kredit orqanlarının sərəncamında olan aktivlər aid edilir.

Göründüyü kimi, BVF-nun metodikası üzrə tə'diyyə balansı maddələrinin təsnifatı MHS-nə uyğun olaraq iki böyük bölmədən ibarətdir:

1. "Cari əməliyyatlar hesabı" (cari tə'diyyə balansı);
2. "Kapital və maliyyənin hərəkəti hesabı" (kapital maddələr)

Cari əməliyyatlar hesabı öz növbəsində üç geniş kateqoriyaya (əmtəə və xidmətlər, amil əlamətlərindən daxil olanlar və cari köçürmələr) bölünür. Cari hesab real resurslarla (əmtəələrlə, xidmətlərlə, gəlirlərlə) əməliyyatları, kapitalın hərəkəti hesabı isə, real resurslar axınının hərəkətinin maliyyələşdirilməsini göstərir. Belə halda transfertlər cari əməliyyatlar üzrə balanslaşdırıcı maddə olduğuna görə cari hesaba daxil edilir. Cari əməliyyatlar üzrə tə'diyyə balansının saldosu əmtəə balansının (ixrac, idxal) saldosu ilə "görünməz" əməliyyatları (xidmətlər, qeyri-kommersiya əməliyyatları) saldosunun cəmisinə bərabərdir.

"Kapitalın və maliyyənin hərəkəti hesabı" kapitalın köçürülməsini və qeyri-istehsal qeyri-maliyyə xarakterli aktivləri əhatə edir.

Ölkəmizin zəngin xammal ehtiyatları xarici kapitalın son illərdə respublikamıza daha geniş miqyasda axınını tə'min etmişdir. Buna görə də müstəqilliliyini bərpa etmiş Azərbaycan beynəlxalq iqtisadi münasibətlər sisteminə ildən-ilə daha geniş miqyasda qoşulur (35-ci cədvəl).

Tə'diyyə balansını təhlil edərkən ilk növbədə cari əməliyyatlar balansına diqqət yetirilir. Cari əməliyyatlar balansı başqa ölkələrlə cari əməliyyatlar nəticəsində respublikanın investisiya mövqeyinin xalis dəyişməsini əks etdirir. Cari əməliyyatlar hesabını ümumi şəkildə qiymətləndirmək üçün ilk növbədə onun tərkibinə daxil olan xarici ticarət, qeyri-kommersiya və xidmətlər balansları araşdırılmalıdır.

1996-cı ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 1995-ci ilə nisbətən xeyli artmışdır. Həmin dövrdə idxalın artımı 35,7%, ixracın artımı isə 5,1% olmuşdur. Nəticədə ticarət balansının ixracı 693,9 milyon dollara bərabər olmuşdur. 1996-cı ildə Azərbaycanda xarici ticarət dövriyyəsinin artımı əsasən idxalın çoxalması ilə bağlıdır. Xarici investisiya yönümlü idxal mallarının dəyəri beş dəfə artaraq 300 milyon dolları keçmişdir.

Xarici ticarət balansının kəsirinin 64,8%-i (450 milyon dollar) bir tərəfli iqtisadi fəaliyyətin nəticəsində yaranmışdır. Bu məbləğin 37,6% (yə'ni 261 milyon dollar) neft müqavilələri ilə bağlı investisiya yönümlü idxal mallarının 18,9%-i (131 milyon dollar) fiziki şəxslərin respublikaya idxal etdikləri əmtəələrin payına düşür.

35-ci cədvəl

1995-1996-cı illərdə Azərbaycan Respublikası tə'diyyə balansın əsas maddələri
(milyon ABŞ dolları ilə)

Əsas göstəricilər	1995			1996		
	kredit (daxil olan)	debet (ödəmə)	fərq (±)	kredit (daxil olan)	debet (ödəmə)	fərq (±)
1. Cari əməliyyatlar balansı konsersiumsuz	923.9 -	1324.6 -	160.7 -	915.2 915.2	1846.41 453.7	-931.2 -538.5
2. Xarici ticarət balansı konsersiumsuz	612.3 -	-985.4 -	373.1 -	643.76 43.7	1337.8 1125.0	-693.9 -481.3
3. Xidmətlər balansı konsersiumsuz	172.4 -	304.6 -	132.2	149.3 149.3	440.9 274.6	-291.6 -125.3
4. Gəlirlər konsersiumsuz	9.9 -	16.0 -	-6.1 -	15.1 15.1	27.2 13.4	-12.1 1.6
5. Cari trans-fertlər konsersiumsuz	129.3 -	79.5 -	110.8 -	107.2 -	40.7 -	66.5 -
6. Kapital və maliyyə hərəkəti balansı konsersiumsuz	612.0 -	211.4 -	400.7 -	1297.7 838.8	1201.5 390.0	90.2 448.8
7. Müəyyən olunmalı vəsait	-	-61.1	-61.6	-	29.5	- 29.3
Ümumi balans	1535.9	1535.9	0	2236.4	2236.4	0

1995-1996-cı illərdə Azərbaycanın xarici iqtisadi əlaqələrində xarici ölkələrlə qarşılıqlı xidmətlər nəzərə çarpacaq yer tutur.

Deyilənləri 36-cı cədvəldən daha aydın görmək olar.

36-cı cədvəldən göründüyü kimi, hər iki ildə xarici ölkələr tərəfindən Azərbaycana göstərilən xidiətlər içərisində turizm və nəqliyyat xidmətləri böyük xüsusi çəkiyə malikdir. Lakin müqayisə olunan dövrlərdə bütün xidmətlərinin ümumi həcmində həmin xidmətlərin xüsusi çəkisi azalmış, rabitə və xarici ölkələrlə işgüzar sahələrin xüsusi çəkisi artmışdır. 1996-cı ildə göstərilmiş xidmətlərin ümumi dəyərinin 74,7%-i xarici rezidentlər tərəfindən Azərbaycana və 25,3%-i isə Azərbaycan tərəfindən xarici rezidentlərə göstərilən xidmətlərdir. Beynəlxalq xidmətlər balansının kəsiri 1995-ci ildə 159,4 milyon və 1996-cı ildə 291,6 milyon dollara bərabər olmuşdur. Xidmətlər balansının belə passiv xarakter daşımasının əsas

səbəblərindən biri Azərbaycanın BƏŞ-nin fəaliyyəti ilə bağlı keoloji tədqiqatlara, seysmik və qazma işlərinə, şimal istiqaməti üzrə terminalın tikintisinə və başqa işlərlə əlaqədar xidmətlərə çəkilən xərclərin yüksək olmasıdır.

36-cı cədvəl

1995-ci və 1996-cı illərdə Azərbaycan Respublikasında beynəlxalq xidmətlər balansının əsas göstəriciləri (milyon dollarla)

Əsas göstəricilər	1995-ci il					1996-cı il				
	kredit	debet	fərq	xüsusi çəkisi, %		kredit	debet	fərq	xüsusi çəkisi %	
				kredit	debet				kredit	debet
Xidmətlər və balans	172,4	304,6	-132,2	100,0	100,0	149,3	4408,9	-4959,6	100,0	100,0
Konsersiumsuz	-	-	-	-	-	149,3	274,6	-1253.2	-	-
Nəqliyyat xidmətləri	76,2	92,1	-15,9	44,2	30,2	53,7	116,1	-62,4	36,0	36,0
Yük daşımaları	47,8	63,5	-15,7	27,7	20,9	34,5	89,9	-55,4	25,1	20,4
Sərnişin daşımaları	17,5	18,9	-1,4	10,1	6,2	11,1	14,9	-3,7	7,5	3,4
Digər nəqliyyat xidmətləri	10,9	9,7	1,2	6,4	3,1	8,01	11,31	-3,2	5,4	2,5
Turizm xidmətləri	70,2	145,6	-75,4	40,7	47,8	4565	99,7	-54,2	30,5	22,6
İşgüzar səfərlər	10,1	9,76	0,4	5,8	3,2	21,2	142,2	-121,0	14,2	3,2
Şəxsi səfərlər	60,1	13,6	-73,7	34,9	44,6	24,4	85,5	-61,1	16,3	19,4
Rabitə xidmətləri	8,3	3,7	4,6	4,8	1,2	7,5	2,3	5,2	5,0	0,5
Tikinti xidmətləri	1,7	18,8	-17,1	1,0	6,2	9,9	60,9	-51,0	2,6	13,8
Konsersiumsuz	-	-	-	-	-	3,9	17,7	-13,8	-	-
Sığorta xidmətləri	0,1	2,4	-2,3	0,02	0,8	1,0	1,9	-1,9	0,7	0,4
Maliyyə xidmətləri	0,2	0,1	0,1	0,1	0,00	0,2	0,2	0	0,2	0,3
Hüquqi xidmətləri	6,4	8,1	-1,7	3,7	2,6	10,1	8,3	1,8	6,7	1,9

1996-cı ildə Azərbaycan respublikasının ümumi xidmət dövriyyəsində turizm xidmətləri də müəyyən yer tutur. 1996-cı ildə xarici ölkələrdə olan Azərbaycan vətəndaşları 85,5 milyon dollar məbləğində vəsait xərcləmişlər. Respublikamızda olan xarici müsafirlər yalnız 24,4 milyon manat xərcləmişlər. Bu müddət ərzində işküzar səfərlərlə əlaqədar olaraq respublikamızın vətəndaşları xarici ölkələrdə 14,2 milyon dollar, xarici vətəndaşlar isə respublikamızda 21,2 milyon dollar vəsait xərcləmişlər.

Tə'diyyə balansının təhlili ölkənin öz xarici iqtisadi fəaliyyətinin nə dərəcədə səmərəli idarə etməsinə dair nəticə çıxarmaqa imkan verir və xarici iqtisadi fəaliyyət sahəsində yeni qərarlar qəbul etməyi əsas yaradır.

Azərbaycanın 1997-ci il üçün tədiyyə balansı respublikamızın 4,5 mindən çox hüquqi, 600 mindən çox fiziki şəxsinin və 80-dan çox

ölkənin rezidentləri ilə iqtisadi sazişlərini özündə əks etdirir. Ölkənin tə'diyyə vəziyyətinin passiv xarakteri 1997-ci ildə də qalmışdır. Belə hal ticarət balansı və xidmətlər balansındakı kəsirlərlə (müvafiq olaraq -567 milyon və -394 milyon ABŞ dolları) əlaqədar yaranmışdır.

1997-ci ildə Azərbaycan Respublikasının tə'diyyə balansı aşağıdakı kimi olmuşdur (37-ci cədvəl).

Əmtəə ixracı və idxalının quruluşunun təhlili göstərir ki:

1. Ölkənin ixracının əsas hissəsini (80%) xammal və materiallar (neft məhsulları, pambıq lifləri və s.) təşkil edir.

2. İdxalın tərkibində isə əsas yeri (60%) ərzaq və qeyri ərzaq məhsulları (neft müqavilələrinə uyğun daxil olan mallar istisna olmaqla) təşkil edir.

37-ci cədvəl

Azərbaycan Respublikasının 1997-ci il üçün tə'diyyə balansı*

(min ABŞ dolları ilə)

Əsas göstəricilər	Kredit (ölkəyə daxil olan)	Debet (ölkənin ödənişləri)	Saldo ("+", "-")
1	2	3	4
A.Cari əməliyyatların hesabatı	1268519	2184274	-915755
1. Xarici ticarət balansı	808257	1375164	-566907
-Malların ixracı,cəmi (FOB)	808257	-	808257
-Malları idxalı, cəmi (FOB)	-	1375164	-1375164
2. Xidmətlər balansı	341796	725954	-384158
- Nəqliyyat xidmətləri cəmi:	96893	109285	-12392
onlardan:			
-yük daşımaları	67159	77337	-10178
-sərnişin daşımaları	13719	6677	7042
sair nəqliyyat xidmətləri	16015	25271	-9256
-Turizm üzrə xidmətlər cəmi:	161763	186308	-24545
onlardan:			
-işgüzar səfərlər	125949	28046	97903
-şəxsi xarakterli səfərlər	35814	158262	-122448
-rabitə xidmətləri	12702	6016	6686
-tikinti üzrə xidmətlər	17066	189071,	-172005
-sığorta xidmətləri	995	5381	-4386
-maliyyə xidmətləri	123	4292	-4169
-dövlət xidmətləri	9748	11827	-2079
-sair işgüzar xidmətlər	42506	213774	-171268
3. Gəlirlər	22780	32265	-9485

* Баланс «Ајна» гәзетинин 13 ијун 1998-чи ил тарихли нөмрәсиндән көчүрүлмүшдүр.

37-ci cədvəlin davamı

4. Cari transfertlər	95686	50891	44795
B. Kapital və maliyyənin hərəkət hesabları	1554063	603910	950153
5. Kapitalın hərəkət hesabları	68844	14861	53983
-Kapital transferləri-cəmi:	66599	13840	52759
o cümlədən:			
-neft bonusu	64199	-	64199
-Mühacirlərin transfertləri	2400	13840	-11440
-Qeyri-istehsal maliyyə aktivlərinin alqı-satqısı	2245	1021	1224
6. Maliyyənin hərəkət hesabları	1485219	589049	896170
-Birbaşa investisiyalar-cəmi:	1067636	17001	1050635
o cümlədən:			
-səhm kapitalı	825254	568	824686
-sair kapital	242382	16433	2255949
7. Portfel investisiyaları	1193	130	1063
8. Sair investisiyalar	416390	327718	88672
-Aktivlər, cəmi:	6329	108968	-102639
o cümlədən:			
-kommersiya kreditləri	993	98400	-97407
-kreditlər və ssudalar	300	-	300
-depozitlər	5000	-	5000
-sair aktivlər	36	10568	-10532
-Passivlər, cəmi:	410061	218750	191311
o cümlədən:			
-kommersiya kreditləri	112522	162246	-49724
-kreditlər və ssudalar, cəmi:	203669	9381	194288
o cümlədən:			
-BVF	112475	-	112475
-sair kreditlər	91194	9381	81813
-depozitlər	-	188000	-188000
-sair passivlər	93870	28323	65547
V. Rezerv aktivləri (azaldılma (+), artırılma (-))	-	244200	-244200
Q. Balanslaşdırma maddəsi	-	34398	-34398

Xidmətlər balansının belə passiv xarakteri qazma işləri üzrə beynəlxalq neft müqavilələri, istehsal istiqamətində terminalın inşaası, qərb marşrutu üzrə, ilkin neft hasilatı üzrə "Çıraq-1" platformasında işlərin görülməsi ilə bağlı olaraq qeyri-rezidentlərin məsrəfləri və s. ilə əlaqədardır. Bütövlükdə cari əməliyyatlar üzrə 915,7 milyon ABŞ dolları həcmindəki kəsirlərinin yeri "kapital və maliyyə hərəkəti hesabı"nda olan müsbət saldo hesabına örtülür. Burada əsas rolu neft bölməsinə bir başa investisiyalar (780 milyon ABŞ dolları), neft bonusu (64 milyon ABŞ dolları) və s. investisiyalar, beynəlxalq

maliyyə tə'sisatlarının kreditləri və ssudaları (BVF-112,4 milyon ABŞ dolları, Dünya Bankı - 91,1 milyon ABŞ dolları) oynamışdır. Cari əməliyyatlar üzrə kəsirlərin kapital və maliyyənin hərəkətinin müsbət saldosu ilə örtürülməsi dövlətin rezerv aktivlərinin 1997-ci ildə 244,2 milyon dollar artırmışdır.

Nəzarət üçün suallar:

1. *Beynəlxalq pul-kredit və maliyyə statistikasının vəzifələri hansılardır?*
2. *MHS-də 'Pul', 'Kredit' və 'Borc' anlayışları necə başa düşülür?*
3. *Əsas maliyyə instrumentləri hansılardır?*
4. *İslam ölkələrinin maliyyə instruientlərinin özəlliyi nədən ibarətdir?*
5. *Valyutaların dönərliyi və valyuta məzənnəsi nə deməkdir?*
6. *Kredit statistikasının əsas göstəriciləri hansılardır?*
7. *Kredit riski nədir?*
8. *Büdcə statistikasının əsas göstəriciləri hansılardır?*
9. *Tə'diyyə balansı necə qurulur?*

XII FƏSİL
BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏR VƏ TİCARƏT STATİSTİKASI

§ 12.1. Beynəlxalq iqtisadi əlaqələr haqqında anlayış və bu sahədə statistikanın vəzifələri

Hal-hazırda az-çox inkişaf etmiş ölkənin iqtisadiyyatının müxtəlif sahələri çoxsaylı gözə görünməz tellərlə dünya iqtisadiyatı ilə bilavasitə əlaqədardır. Tarixi təcrübə göstərir ki, belə əlaqə və qarşılıqlı asılılıqlar XVIII əsrin birinci yarısında İngiltərədə kapitalizm şəraitində daha intensiv inkişaf etməyə başlamışdır. Həmin əsrin sonunda bu proses Qərbi Avropanın başqa ölkələrinə və Şimali Amerika ölkələrinə də yayıldı. Məşhur alman iqtisadçısı Y.Kuçinskinin[1] tədqiqatlarına görə 1820-1860-cı illərdə dünyada istehsal olunan sənaye məhsulunun həcmi 6 dəfədən çox artmışdır. XIX əsrin I yarısında İngiltərədə pambıq parça istehsalı 10 dəfə, çuqun əridilməsi 14 dəfə və daş kömür hasilatı 5 dəfə artmışdı. Sənaye istehsalının belə inkişafı dünya bazarını da daxil etməklə geniş satış bazarı tələb edirdi. Bütün bunlar xarici iqtisadi əlaqələrin (həmin vaxtadək təsadüfi xarakter daşıyan) daha da dərinləşməsinə gətirib çıxardı. Bu prosesin güclənməsinə həmin vaxtda nəqliyyat vasitələrinin inkişafı və Avropadan Afrikaya, Asiyaya və Amerikaya gedən yeni ticarət yollarının mənimsənilməsi də köməklik etdi.

Bir çox Qərb iqtisadçılarının fikrincə daxili əmək bölgüsünün inkişaf edərək beynəlxalq əmək bölgüsünə çevrilməsinin əsasını müxtəlif ölkələrdə istehsal şəraitinin və təbii-iqlim şəraitinin müxtəlifliyi təşkil edir. Bu fikirlə müəyyən dərəcədə razılaşmaqla yanaşı nəzərə almaq lazımdır ki, ölkələr arasında asılılıqların və qarşılıqlı əlaqələrin yaranmasına beynəlxalq əmək bölgüsü və dünya bazarında gedən rəqabət də güclü tə'sir göstərmişdir.

Məhsuldar qüvvələrin inkişafına əsaslanan beynəlxalq əmək bölgüsü ictimai əmək bölgüsünün dərinləşməsində yeni mərhələ oldu və milli dövlət sərhədlərindən kənara çıxdı.

Beynəlxalq əmək bölgüsü ayrı-ayrı ölkələrdə maddi resurslardan daha yaxşı istifadə olunmasına və bununla da dünya miqyasında əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olur.

Bazar iqtisadiyyatı şəraitində istehsalın əsas məqsədi mənfəət əldə etməkdir. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi və ona əsasən də beynəlxalq əmtəə mübadiləsinin genişlənməsi istehsalın həcmini

[1] *Гобсон А. Джон, Развитие современного капитализма. -М. 1926, сəh.8*

artırmaqla yanaşı əsas xammal və material növlərinə qənaət edilməsinə gətirib çıxarır ki, bu da öz növbəsində böyük məbləğdə mənfəət əldə etməyə imkan yaradır. Müxtəlif inkişaf səviyyəsində olan ölkələrin (və xalqların) beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsi prosesi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təzyiqi nəticəsində baş verir. Tam könüllü əməkdaşlığa əsaslanmayan belə əlaqələr zamanı sosial-iqtisadi inkişafın aşağı mərhələsində olan ölkələr onunla iqtisadi əlaqə yaradan inkişaf etmiş ölkələrin xammal istehsal edən "əlavəsinə" çevrilir. İnkişaf etmiş ölkələrin tə'sir dairəsinin başqa, az inkişaf etmiş ölkələrə yayılması (beləliklə də onların müstəmləkə halına salınması) dünya klassik kapitalist təsərrüfatının tipik əlamətidir. Lakin zaman dəyişdikcə iqtisadi əlaqələrin mahiyyəti və formaları da təkmilləşir, genişlənir və yeni formalarda təzahür edir.

Müasir dövrdə ərazisinin böyüklüyündən, iqtisadiyyatının inkişaf səviyyəsindən və sosial inkişaf səviyyəsindən asılı olmayaraq ölkələr beynəlxalq əmək bölgüsündən istifadə etməklə müəyyən fayda götürmək üçün beynəlxalq əməkdaşlıqa can atır. Konkret ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının iqtisadi əməkdaşlıq formalarının cəmi onun xarici iqtisadi əlaqələrini təşkil edir. Ölkələr beynəlxalq iqtisadi və elmi-texniki əməkdaşlıq etmək yolu ilə öz milli təsərrüfat quruculuğunda qarşıya çıxan problemləri həll etmək, istehsalın səmərəliliyini artırmaq, habelə elm və texnikanı daha da inkişaf etdirmək üçün əlavə mənbələr axtarırlar. Elə buna görə də müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikası bərabər və qarşılıqlı səmərə verə bilən beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə çalışır.

İndi respublikamız bir sıra nüfuzlu beynəlxalq iqtisadi təşkilatların üzvüdür. Ölkəmiz artıq 120 ölkə ilə əlaqə yaradıb, onların 80-i ilə əlaqələr səfirlik səviyyəsindədir. Hazırda Azərbaycanda onlarla xarici ölkənin iqtisadi və ticarət nümayəndəliyi. 17 minədək birgə və xarici müəssisələr fəaliyyət göstərir.

Xarici iqtisadi əlaqələr statistikasının vəzifəsi ayrı-ayrı ölkələr və beynəlxalq təşkilatlar arasında baş verən içtimai, iqtisadi və sosial hadisələrin səviyyəsi, quruluşu və dinamikasını öyrənməkdən ibarətdir.

Beynəlxalq statistika bu vəzifələri yerinə yetirmək üçün bütün dünya ölkələri tərəfindən qəbul edilməsi tövsiyə olunan geniş göstəricilər sistemi hazırlayır, həmin statistika göstəricilərinin vahid metodologiya üzrə hesablanmasını tə'min etmək üçün təlimatlar və metodik göstərişlər hazırlayır.

§ 12.2. Xarici iqtisadi əlaqələr statistikası beynəlxalq statistikanın əsas sahələrindən biri kimi

Xarici iqtisadi əlaqələr "Beynəlxalq statistika"nın ən mühüm sahələrindən biridir. Xarici iqtisadi əlaqələrin öyrənilməsi, bazar iqtisadiyyatının genişlənməsi və ayrı-ayrı ölkələrin dünya iqtisadiyyatı ilə inteqrasiyasının gündən-günə genişlənməsi ilə əlaqədardır.

Xarici iqtisadi əlaqələrə dair statistika mə'lumatlarının yığılması, işlənməsi və nəşrinə dair metodoloji biliklərə malik olmadan xarici partnyorlarla əməkdaşlıq etmək mümkün deyildir. Məhz buna görə də XX əsrin ikinci yarısında beynəlxalq iqtisadi əlaqələr (o cümlədən onun tərkib hissələri olan xarici ticarət, gömrük və xidmətlər) statistikası sür'ətlə inkişaf etməkdədir.

Xarici iqtisadi əlaqələr statistikası bütövlükdə "İqtisadi statistika"nın və xüsusilə də "Beynəlxalq statistika"nın əsas tərkib hissələrindən biri kimi xarici iqtisadi əlaqələr (o cümlədən də xarici ticarətin) sahəsində baş verən proseslərin həcmi, quruluşu, dinamikası və coğrafiyasını öyrənməyə imkan verir. Belə informasiya idxal və ixracatın həcmi, qiymətlərin səviyyəsi və dəyişmə dərəcəsi, xarici iqtisadi fəaliyyətlə məşğul olan müəssisə və təşkilatların işinin səmərəliliyini müəyyən etməyə, ölkələrarası xarici iqtisadi əlaqələrə dair göstəriciləri müqayisə etməyə, ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakını öyrənməyə, beynəlxalq ticarət təsnifatı və əmtəə nomenklaturasından istifadə etməyə imkan verir.

Beynəlxalq iqtisadi əməkdaşlığın aşağıdakı formaları daha geniş yayılmışdır:

1. Ölkənin (və ya istehsal sahəsinin) beynəlxalq ixtisaslaşması və kooperasiyalaşması;
2. Müştərək müəssisələrin yaradılması;
3. Konsersiumlar;
4. Konsessiyalar;
5. Lizinq;
6. Kompensasiya əsaslarında əməkdaşlıq;
7. Elmi-texniki əməkdaşlıq;
8. Lisenziya və texnologiyalarla ticarət;
9. Tikinti xidmətləri ilə ticarət;
10. Xarici ticarət;
11. Nəqliyyat xidmətləri ilə ticarət;
12. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası;
13. Xarici turizm və başqa sosial-mədəni xidmətlərin göstərilməsi;
14. Kapitalın beynəlxalq miqrasiyası;
15. Sərbəst iqtisadi zonaların yaradılması.

Beynəlxalq əmək bölgüsü dərinləşdikcə və ölkələrarası inteqrasiya

genişləndikcə ayrı-ayrı ölkələrdə milli iqtisadiyyat, istehsal sahələrinin və ayrıca məhsul növlərinin beynəlxalq ixtisaslaşması və kooperasiyası prosesi də güclənir. Bu proses ayrı-ayrı ölkələrin beynəlxalq inteqrasiyadan öz milli iqtisadiyyatının xeyrinə faydalanmaq ehtiyacından və tələbindən asılı olaraq formalaşır.

İstehsalın beynəlxalq ixtisaslaşması tam istehsal sahələri və ərazi istiqamətləri üzrə inkişaf edir. İstehsal istiqaməti üzrə ixtisaslaşma sahələrarası və sahədaxili (ayrı-ayrı tə'sisat vahidləri üzrə) formalarda baş verir.

Ərazi üzrə ixtisaslaşma ayrı-ayrı ölkələrin və regionların dünya bazarında satılmaq üçün məhsulların istehsalı üzrə ixtisaslaşmasıdır. Məsələn, Yaponiyanın elektron cihazlar və avtomobilqayırma, Azərbaycanın neft istehsalı, Özbəkistanın pambıq, Türkmənistanın qaz istehsalı üzrə ixtisaslaşması deyilənlərə misal ola bilər.

Beynəlxalq ixtisaslaşma dərəcəsi beynəlxalq və milli iqtisadiyyatlarda baş verən proseslər nəticəsində dəyişə bilər.

Ayrıca ölkənin beynəlxalq miqyasda ixtisaslaşması həmin ölkənin milli iqtisadiyyatının dünya bazarına çıxardığı rəqabət qabiliyyətli məhsulları istehsal edən sahələrə əsasən müəyyən edilir.

Sahənin beynəlxalq ixtisaslaşma dərəcəsini səciyyələndirmək üçün sahənin nisbi ixraca ixtisaslaşma əmsalı və sahənin istehsalında ixrac kvotası göstəricilərindən istifadə edilir.

Nisbi ixraca ixtisaslaşma əmsalını ($Ə_{ix}$) hesablamaq üçün ölkənin ixracatında konkret məhsulun (və ya sahənin bütün məhsulunun) xüsusi çəkisini ($İ_ə$), dünya ixracatında anoloji məhsulların xüsusi çəkisinə ($İ_d$) bölmək lazımdır.

$$Ə_{ix} = \frac{И_ə}{И_d}$$

Hesablanmış əmsal vahidə nə qədər yaxın olarsa həmin sahənin beynəlxalq ixtisaslaşma dərəcəsi bir o qədər yüksək hesab edilir.

Milli sənayenin və onun ayrı-ayrı sahələrin xarici bazara nə dərəcədə istiqamətləndiyini əks etdirən göstərici "İxrac kvotası" adlanır. Bu göstərici konkret sahənin məhsulunun (və ya ayrıca məhsul növünün), tərkibində ixraca yönəldilən hissəsinin xüsusi çəkisini müəyyən etməklə hesablanır. İxrac kvotası göstəricisi həm də ölkədə (və ya sahədə) istehsal olunan məhsulun hansı hissəsinin milli bazardan ayrılma dərəcəsini qiymətləndirmək üçün də istifadə olunur.

İstehsalın beynəlxalq kooperasiyalaşmasının əsas əlamətləri aşağıdakılardır:

1. Tərəflər arasında birgə fəaliyyət şərtlərinin müqavilə ilə əvvəlcədən razılaşdırılması;
2. Müxtəlif ölkələrdən olan partnyorlar (tərəf-müqabillər)

tərəfindən müəssisələrin təsərrüfat fəaliyyəti və bu fəaliyyətin razılaşdırılmış koordinasiyası;

3. Müxtəlif ölkələrin müəssisələrinin (firmaların, korporasiyalarının və s.) kooperasiyanın subyekti kimi çıxış etməsi;
4. İstehsal ediləcək hazır məhsulun, onun komponentlərinin və texnoloqiyanın müvafiq müqavilə ilə müəyyən edilməsi;
5. İxtisaslaşdırmanın dərəcəsi və coğrafiyasını dəqiqləşdirmək məqsədiylə partnyorlar arasında tapşırıqların bölüşdürülməsi;
6. Kooperasiyalaşdırma çərçivəsində mal göndərmələrinin istiqamətlərini (ikitərəfli və ya bir tərəfli) müqavilə ilə müəyyən etmək.

Beynəlxalq ixtisaslaşma genişləndikcə buraya yeni əlaqədar sahələr cəlb edilir və əməkdaşlıq kompleks xarakteri alır. Belə əməkdaşlıq "Sənaye əməkdaşlığı" adlanır. İstehsaldan əlavə buraya ticarət, texniki xidmət, elmi tədqiqat və sair fəaliyyət sahələri də daxil edildiyindən "sənaye əməkdaşlığı" əhatə dairəsinə görə istehsalın kooperativləşməsindən daha genişdir.

Beynəlxalq kooperasiya əlaqələri yaradılarkən birgə proqramların həyata keçirilməsi, müqavilə qaydasıyla ixtisaslaşma və müştərək müəssisələrinin yaradılması üsullarından istifadə edilir.

Beynəlxalq birgə proqramların həyata keçirilməsi zamanı istehsalın ixtisaslaşmasının podrat kooperasiyalaşması və birgə istehsal sahələrinin yaradılması yolu ilə həyata keçirilir.

İstehsal kooperasiyasının ən qədim forması olan podrat kooperasiyası zamanı sifarişçi icraçıya öz şərtlərini (istehsalın həcmi, keyfiyyəti, sifarişləri yerinə yetirmə müddəti, satışı və s.) əvvəlcədən bildirir və qarşılıqlı əlaqələr həmin şərtlərə əsasən tənzim edilir.

Müqavilə qaydasında ixtisaslaşmanın mahiyyəti istehsalın həcmi və onun nəticələrinin partnyorlar tərəfindən əvvəlcədən bağlanmış müqavilə ilə tənzimlənməsindən ibarətdir.

Son dövrlərdə müştərək müəssisələrin yaradılması beynəlxalq əməkdaşlığın ən geniş yayılmış formalarından birinə çevrilib. Belə müəssisələr yerli qanunvericiliyə uyğun hüquqi şəxs hesab edilir.

Müştərək müəssisələr yaradılarkən əməkdaşlıq yerli tərəf-müqabilin təbii resursları, xammalı və işçi qüvvəsi, xarici tərəf-müqabilin isə kapitalı və yeni texnologiyası əsas götürülür. Əməkdaşlığın hüquqi və iqtisadi tərəfləri isə yerli qanunlara uyğun tərtib edilmiş müqavilələrlə tənzimlənir. Adətən müştərək müəssisələr yaradılarkən nizamnamə kapitalında yerli tərəf-müqabil üstün paya (51%-dan az olmamaqla) malik olur. Təcrübədə tərəf-müqabillərin bərabər paya malik olmalarına da istisna kimi icazə verilir. Belə əməkdaşlıq ölkədə iqtisadi səmərəliliyi yüksəltməyə, iqtisadiyatda quruluş dəyişikliyi yaratmağa, ixracat potensialını yüksəltməyə, dünya bazarına çıxarılan

əmtəələrin rəqabət qabliyyətini artırmağa və daxili istehsalat bazarını zəruri mallarla doldurmağa imkan yaradır.

Birgə sahibkarlığın ən səmərəli formalarından biri birinə müəssisələrin yaradılmasıdır. Birgə müəssisələr iqtisadi fəaliyyətə yeni keyfiyyət verir, ölkələrarası iqtisadi əməkdaşlığın ağarlıq mərkəzini mikrosəviyyədə inventisiyanı üfiqi istiqamətdə istifadə olunan ən çevik və operativ iqtisadi əlaqə vasitəsinə çevirirlər.

1996-cı ilin məlumatına əsasən Azərbaycanda 1060 birgə müəssisə qeydə alınmışdı. Onlardan 293-ü real fəaliyyət göstərirdi.

1993-1995-ci illərdə Azərbaycanda fəaliyyət göstərən birgə müəssisələrin sayı, tərkibi və fəaliyyətlərinin nəticəsinin dinamikası aşağıdakı kimi olumuşdur.

38-ci cədvəl

1993-1995-ci illərdə Azərbaycan Respublikasında real işləyən birgə müəssisələrin sahələr üzrə bölüşdürülməsi

Sahələr	Birgə müəssisələrin sayı				Birgə müəssisələrin fəaliyyətinin nəticəsi (milyon manatla)			
	1993	1994	1995	1995-ci il 1993-cü ilə nisbətən	1993	1994	1995	1995-ci il 1993-cü ilə nisbətən
Cəmi o cümlədən	74	256	293	3,9 dəfə	1993,6	21314,2	311868,9	15,6 dəfə
Sənaye	38	59	65	1,7 dəfə	929,9	15913,7	53618,2	75,7 dəfə
Tikinti	-	2	12	-	-	-	12438,8	-
Nəqliyyat	4	3	5	125%	3,3	17,0	5090,3	1542,5 dəfə
Rabitə	2	2	3	150%	0,3	72,8	80,7	269,0 dəfə
Ticarət	27	145	166	6,1 dəfə	130,6	2326,4	213390,2	1628,9 dəfə
Sair	3	25	42	14 dəfə	919,5	2284,3	27250,7	29,5 dəfə

Cədvəldən göründüyü kimi, 1993-1995-ci illərdə Azərbaycan fəaliyyət göstərən birgə müəssilərinin sayı artır və onların fəaliyyətinin həcmi genişlənir. Bu dövr ərzində bütün sahələrdə yaranmış birgə müəssisələrinin sayı 3.9 dəfə artıqı halda onların fəaliyyəti nəticəsində əldə edilmiş vəsaitlirin həcmi 14.6 dəfə artmışdır. 1993-cü ildə bütün birgə müəssisələrin tərkibində ən çox xüsusi çəki sənaye (51,4%) müəssisələri və ticarət (36,5%) təşkilatlarının payına düşürdü. Lakin nəzərdən keçirin üç il ərzində birgə sənaye müəssisələrin 3,9 dəfə artdığı halda ticarət təşkilatların 6.1 dəfə artmışdır. Bu artım nəticəsində göstərilmiş birgə müssisələrin xüsusi çəkisi müvafiq olaraq 22,2% və 56,7% olmuşdur. Bu dövrdə sənaye istehsalının nəticəsi 15,6 dəfə artdığı halda ticarətin mal dövriyyəsi 1628,9 dəfə artmışdır.

1996-cı ildə Azərbaycanda istehsal olunan sənaye məhsulunun 0,6%-i, ixracın 3,2%-i və idxalın 9,5%-i, birgə müəssisələrin paymа düşürdü.

Birgə sahibkarlıq nəqliyyat, tikinti, rabitə, turizm, mehmanxana xidməti, vasitəçilik və başqa sahələrdə də xeyli inkişaf etdirilmişdi.

İrəlidə deyilənlərdən belə nəticəyə gəlmək olur ki, kiçik və orta biznes birgə sahibkarlıq fəaliyyəti yolu ilə Azərbaycana daxil olmağa daha çox can atırlar. Lakin xarici investisiyaların respublikamızda qorunmasına dair dövlətin qəbul etdiyi qərar və görülmüş başqa tədbirlər İrimiqyaslı beynəlxalq kapitalın Azərbaycana axıb gəlməsini sür'ətləndirdi. Deyilənlər ilk növbədə xəzər neftinin birgə istismarına dair dünyanın bir çox iri sənaye maliyyə birlikləri ilə bağladıqları müqavilələrə aiddir. Həmin kontraktlardan bəzilərini səciyələndirən iqtisadi göstəricilərə nəzər salın:

39-cu cədvəl

1994-1996 - ci illərdə Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarına dair bağlanmış beynəlxalq müqavilənin əsas iqtisadi göstəriciləri

Müqavilənin adı	Neft ehtiyatı		Qaz ehtiyatı		Müqavilənin		İştirakçıların sayı	Bonus mln. $	Gəlirlərdən Azərbaycanın payı (bonusla birlikdə)		
	mln. ton	mlrd. $	mlrd. m³	mlrd. $	İmza tarixi	Müddəti (il)			%	Real çıxarış (mlrd. $)	İnflyasiya nəzərə alınmaqla
1."Odlu Yeniləkin"	340	96,1	35,0	4,5	20/09-94	30	11	360,0	80,0	20,0	77,5
2."Qarabağ"	120	21,3	30,0	3,9	10/11.95	25	4	135,0	61,9	8,6	21,3
3."Şahdəniz"	200	35,6	500,0	39,5	4/11-96	30	5	250.0	62,4	17,3	43,2
Cəmi	860	153,0	605,0	47,5	-	-	20	945,0	-	45,9	142,2

Dövrü mətbuatda verilmiş informasiyalara əsasən iqtisad elmləri namizədi Əvəz Bayramov tərəfindən tərtib edilmiş bu cədvəldən (bax, Əvəz Bayramov "Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika", Bakı, 1997-ci il səh. 132) göründüyü kimi, 20 ölkəylə bağlanmış üç kontrakta əsasən Azərbaycan yaxın 30 ildə 45,9 milyard manat real gəlir əldə edəcəkdir. Bu gəlir isə xarici ölkələrin respublikamıza neft sənayesinin qoyulan böyük məbləğdə investisiya hesabına reallaşmaqdadır.

Yuxarıda göstərilən və sonralar bağlanmış kontraktların işə başlanması ümumi milli mənafeyimiz baxımından bir sıra məsələləri həll etməyə imkan yaradacaq və respublikamızın beynəlxalq münasibətləri sferasında əməkdaşlığını daha da möhkəmləndirəcəkdir. Bağlanmış neft müqavilələri sayəsində Azərbaycan bir çox siyasi, sosial və iqtisadi dividentlər əldə edəcəkdir

Xarici ölkələrin Azərbaycanda iqtisadi maraq mərkəzlərinin yaranması dövlət müstəqilliyimizin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunmasında, xəzərin statusunun milli sektorlar üzrə bölünməsi prinsipinin həyata keçirilməsində, iqtisadiyatın və sənayenin infrastrukturunun yaxşılaşması və yeni texnologiya (nou-xau) əsasında inkişafında mühüm rol oynayacaqdır.

Konsersium bir neçə iştirakçı tərəfindən müəyyən müddət ərzində

birgə iqtisadi, bank, elmi-texniki, texnoloji, ticarət və başqa xarakterli əməliyyatları həyata keçirmək məqsədiylə yaradılmış birlikdir. Xarici iqtisadi fəaliyyətin başqa formalarına nisbətən konsersiumlar müəyyən üstünlüklərə malikdirlər. Əməkdaşlıq etməyə maraq göstərən tərəfi-müqabillərin birləşməsi, fəaliyyət formasının çevikliyi və s. belə üstünlüklərə aiddir. Xüsusi sahibkarlara və dövlətə mənsub olan müəssisələr, şirkətlər, assosiyasiyalar və hatta dövlətlər konsersiumun üzvləri (iştirakçıları) ola bilər.

Konsesiyalar dövlətə mənsub olan torpaqların, təbii ehtiyatların, müəssisələrin və başqa təsərrüfat obyektlərinin müəyyən şərtlər daxilində istifadəyə verilməsi üzrə razılığa gəlməsidir. Konsesiya müqavilələri uzun müddətə bağlanılır. Belə müqavilələr əsasında yaradılmış fəaliyyət sahələri iqtisadiyyatı zəif olan ölkələrin təbii sərvətlərinin minimum məsrəflərlə səmərəli istifadəsi üçün şərait yaradır. Konsersiumdan istifadəyə görə ödənclər onun sahibkarlarının mülkiyyətinə qoyulmuş kapitalın həcminə görə faizlər və rentanın əsasında müəyyən olunur.

Beynəlxalq iqtisadi əlaqələrin müxtəlif formalarının geniş şərhi ilə K.F. Sadıqov, K.S. Qafarov və N.V. Bədirov tərəfindən yazılmış "Xarici-iqtisadi fəaliyyətin makroiqtisadi tənzimlənməsi" (Bakı, 1994) adlı kitabda tanış olmaq mümkündür.

§12.3Xarici ticarət beynəlxalq iqtisadi əlaqələrin əsas forması kimi

Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadəni tə'min edən əsas iqtisadi əməkdaşlıq formalarından biri xarici ticarətdir.

Xarici ticarətin əsas təzahür forması xarici ölklərlə maddi əmtəə mübadiləsidir. İqtisadiyyatın mühüm sahəsi kimi, xarici ticarətin köməkliyi ilə dövlət özünün xarici iqtisadi proqramını həyata keçirir.

Əvvəlini ingilis siyasi iqtisadından götürən beynəlxalq ticarət nəzəriyyələri dünyada iqtisadi fikrin inkişafı ilə əlaqədar olaraq bir neçə mərhələ keçmişdir. Lakin əvvəllərdə və indi də onun mərkəzi məsələsi aşağıdakılar hesab olunur:

1.Beynəlxalq əmək bölgüsünün əsasında nə durur?

2.Ayrı-ayrı ölkələr və regionlar üçün hansı beynəlxalq ixtisaslaşma daha da çox faydalıdır və onlara daha çox fayda gətirir?

3.Dünya ticarətində ölkənin rəqabət qabiliyyəti hansı amillərlə əvvəlcədən müəyyən edilir?

Adam Smitin[1] (1723-1790) nəzəriyyəsinə görə beynəlxalq ticarətin inkişafının əsasını tədavül xərclərinin mütləq səviyyəsindəki

[1] *Смит А. Исследование о природе и причинах богатства народов. М., 1962, səh. 330-351*

müxtəliflikliklər təşkil edir. Onun nəzəriyyəsinə görə əmtəələrin mütləq tədavül xərcləri aşağı olan ölkədən idxal etmək və tədavül xərcləri yüksək olan ölkəyə isə ixrac etmək lazımdır.

David Rikardo[1] (1772-1823) bu nəzəriyyəni inkişaf etdirərək özünün müqayisəli xərclər nəzəriyyəsini yaratdı. Bu nəzəriyyəyə görə əmtəə istehsalında bir ölkənin başqasından üstün olduğu şəraitdə də qarşılıqlı faydalı ticarət mümkündür. Belə halda hər bir ölkə başqalarına nisbətən daha aşağı tədavül xərci və kapital xərclənən məhsulların istehsalı üzrə ixtisaslaşır, nəticədə tam azad ticarət şəraitində müqayisəli tədavül xərcləri prinsipi avtomatik hərəkətə başlayır. Bu isə öz növbəsində optimal ixtisaslaşmaya gətirib çıxarır.

Müqayisəli üstünlüklər nəzəriyyəsi prinsipinə əsaslanan ixtisaslaşma sayəsində dünya resurslarının yerləşməsi və müvafiq məhsulların dünya miqyasında istehsalının artması şübhəsizdir.

Nəzərə almaq lazımdır ki, əmək bölküsünün bu modeli yalnız iki ölkənin və iki əmtəə qrupunun, azad ticarətin işçi qüvvəsinin ölkə daxilində hərəkəti, istehsal xərclərinin sabitliyi və sair şərtlərin mövcudluğu prinsipinə əsaslanırdı. Lakin dünya iqtisadiyyatı inkişaf etdicə bu prinsiplərin bir qismi dəyişdi. Məsələn, hasiledici sənayedə zənkin və əlverişli şəraitdə yerləşən yataqlar işlənib qurtardığına görə daha kasıb yataqlardan istifadə edilməsi istehsal xərclərinin artmasına səbəb oldu. Bundan əlavə resursların bir sahədən başqasına keçirilməsi nəticəsində də istehsal xərcləri arta bilər. Dünyanın müxtəlif ölkələrində əməyin ödənilmə səviyyəsinin artım sür'ətində müxtəliflik yaranır və s. İstehsal olunan əmtələrin həcmi artdığı şəraitdə istehsal və tədavül xərclərinin səviyyəsi də yüksəlir. Buna görə də bir çox hallarda müqayisəli xərcləri aşağı olan ölkələrin tam ixtisaslaşması aradan götürülür.

Uzun illər boyu beynəlxalq əmək bölküsündə və ticarətdə D. Rikardonun müqayisəli üstünlük nəzəriyyəsi yeganə nəzəriyyə hesab olunurdu. XIX əsrdə "əmək dəyər nəzəriyyəsi" "istehsal amilləri nəzəriyyəsi"nin müxtəlif variantlarının müəllifləri tərəfindən xeyli sıxışdırılsa da beynəlxalq ticarət nəzəriyyəsi sahəsində ən iri addım XX əsrin 20-ci illərində neoklassik iqtisadçılar tərəfindən atıldı. Bu məktəbin ən görkəmli nümayəndələrindən olan İsveç iqtisadçısı Eli Xekşer (1879-1952) beynəlxalq ticarət sahəsində özünün orjinal nəzəriyyəsini yaratdı. Bertil Olin (1899-1979) tərəfindən sonradan inkişaf etdirilmiş bu nəzəriyyə elm aləmində "Xekşer-Olin" nəzəriyyəsi kimi tanındı. Yeri gəlmişkən qeyd edək ki, bu nəzəriyyələrin inkişaf etdirdiklərinə görə B. Olin və P. Samuelson 1915-ci ildə

[1] *Рикардо Д. Начало плитической экономии и налогового облажения, III чизд, М. 1955.*

iqtisadiyyat sahəsində Nobel mükafatına laiq görüldülər.

Ayrı-ayrı ölkələrin ixtisaslaşması və beynəlxalq ticarətə neoklassik yanaşmanın (Xekşer-Olin modelinin) mahiyyəti ondan ibarətdir ki, tarixi və coğrafi səbəblər ucundan maddi və əməki resursları bərabər bölünmədiyinə görə əmtəələrin qiymətində nisbi fərq yaranır. Bu isə öz növbəsində ayrı-ayrı ölkələrin istehsal amillərinin nisbətində müəyyən fərqlərin (üstünlüklərin) yaranmasını tə'min edir. Elə buna görə də "istehsal amilərinin nisbəti nəzəriyyəsi"nin müəliflərinin fikrincə hər bir ölkə ən çox onda olan amilləri tələb edən əmtəələrin istehsalı üzrə ixtisaslaşır. Olin bu qanunu daha qısa formada izah edir: "Beynəlxalq mübadilə - bolluq təşkil edən amillərin nadir amillərə mübadiləsidir". Xekşer-Olin modelinə əsasən beynəlxalq ticarət prosesində istehsal amillərinin qiyməti tarazlaşır. Tarazlaşma mexanizminin mahiyyəti isə ondan ibarətdir ki, əvvəlcə istehsal amilinin qiyməti (əmək haqqı, suda faizi, renta və s.) konkret ölkədə bolluq təşkil edən amillər üzrə aşağı, qıtlıq təşkil edən ölkələr üzrə isə yüksək olacaqdır.

Bu və ya digər ölkənin kapital tutumlu məhsullar istehsalı üzrə ixtisaslaşması dərhal kapitalın ixracat sahələrinə (və xarici ölkələrə) axınına səbəb olur. Bu da öz növbəsində kapitala tələbatın təklifə nisbətən daha sür'ətlə artmasını tə"min edir. Eyni məntiqə əsasən əmək tutumlu məhsullar üzrə ixtisaslaşan başqa ölkələr əmək ehtiyatlarının xeyli hissəsinin həmin sahəyə axını üçün şərait yaradır. Bu da öz növbəsində işçi qüvvəsinin qiymətini (əmək haqqını) artırır. Beləliklə, bu modelə əsasən ölkələrin hər iki qurupu əvvəlki ilkin üstünlüyünü tədricən itirir və onların inkişaf səviyyəsi tarazlaşır. Bununla da ixracat sahələrinin dairəsi genişlənir, yeni inkşaf səviyyəsində yaranmış müqayisəli üstünlüyü uçota almaqla beynəlxalq əmək bölküsünə daha dərindən daxil olmağa şərait yaranır.

İkinci dünya müharibəsindən sonra Xekşer-Olin nəzəriyyəsi bir çox iqtisadçılar tərəfindən müxtəlif baxımdan yoxlanıldı. Belə yoxlamaların əsas məqsədləri müxtəlif ölkələrdə sənayenin əmək tutumlu və kapital tutumlu sahələri ilə onların idxal və ixracatlarının real məzmunu arasında korrelyasiya asılılığının mövcudluğunu aydınlaşdırmaqdan ibarət idi.

Rus mənşəli, məşhur amerika iqtisasçısı V. Leontyev (1906-cı il) müxtəlif testlərlə subut etdi ki, Xekşer-Olin nəzəriyyəsinin şərtləri təcrübədə həmişə təsdiq olunmur. İkinci dünya müharibəsindən sonra kapitalist ölkələri arasında ABŞ ən zənkin və çox kapital toplanılmış və əmək haqqı nisbətən yüksək olan ölkələrdən biri sayılırdı. Xekşer-Olin modelinə əsasən ABŞ kapital tutumu yüksək olan məhsul ixrac etməli idi. V. Lenotyev 1956-cı ildə ABŞ-ın idxal və ixracının

quruluşunu tədqiq edərək müəyyən etdi ki, ABŞ-ın ixracatında əmək tutumu yüksək olan, idxalında isə kapital tutumu yüksək olan əmtəələr üstünlük təşkil edir. Bu nəticə sonradan "Leontyev paradoksu (təzadı)" kimi məşhurlaşdı. V. Leontyevin fikrincə verilmiş miqdarda kapitalı başqa amillərin istənilən formada kombinasiyalarında amerikan işçisinin bir adam-ili xarici əməyin üç adam-ilinə bərabərdir. Odur ki, ABŞ həqiqətən də əmək ehtiyatı yüksək olan ölkədir və heç bir zidiyyət yoxdur. Deyilənlərdən əlavə V. Leontyev sübut edirdi ki, ABŞ-da əmək məhsuldarlığının səviyyəsinin yüksək olması amerikan fəhləsinin ixtisas səviyyəsinin yüksək olması ilə əlaqədardır. Odur ki, ABŞ onunla rəqabətdə olan ölkələrə nisbətən daha yüksək peşə səviyyəsi tələb edən məhsullar ixrac edir. Bu nəticəni subut etmək üçün o bütün əmək növlərini beş peşə səviyyəsinə bölərək ABŞ-ın ixrac etdiyi və rəqabətə davamlı idxalının əmtəələrinin hər bir miliyon dollarının istehsalına hər bir peşə üzrə nə qədər insan əməyi (adam-il) lazım kəldiyini hesablamışdır. Bu hesablamalar nəticəsində mə'lum olmuşdur ki, ixrac edilən əmtəələr idxal edilən əmtəələrə nisbətən daha çox ixtisaslı əmək tələb etmişlər.

V. Leontyev 1947-ci ildə ABŞ-a idxal edilən əmtəələrin hər vahidinə düşən kapital və əməyin miqdarını [(KL)im] ixrac ediln məhsullar üzrə müvafiq göstəricilərlə [(KL)x] müqayisə etmişdir. Belə müqayisə zamanı əgər

$$\frac{(K/L)im}{(K/L)x} < 1$$

olarsa, ölkə kapital bolluğuna malik olduğunu, və əgər

$$\frac{(K/L)im}{(K/L)x} > 1$$

olarsa, ölkə əmək bolluğuna malik olduğunu söyləyərik. Belə müqayisə qərb ölkələrində "Leontyev statistikası" adı aldı.

V. Leontyev belə müqayisələri apararkən Xekşer-Olin nəzəriyyəsinə görə ABŞ-ın ixrac etdiyi əmtəələrin idxal olunan əmtəələrə nisbətən daha kapital tutumlu olduğu aşkar ediləcəyini gözləyirdi. Nəticə tam əksinə oldu. Sən demə, Amerikan idxalının kapital tutumu ixracatdan 30% yüksək imiş. Bu isə o demək idi ki, ABŞ heç də kapitalı artıq olan ölkə deyilmiş, əksinə əmək bolluğu olan ölkə imiş. Bu da mövcud təsəvvvürlərə uyğun olmadığı üçün paradoks hesab olunurdu. Leontyev öz hesablamalarını sonradan (1951 və 1962-ci illərdə) bir neçə dəfə təkrar apardı. Nəticə təqribən eyni idi - ABŞ-ın idxal etdiyi əmtəələr ixrac etdiyi əmtəələrə nisbstən daha (6-27%) kapital tutumlu idi. Eyni hesablamaları başqa ölkələr üzrə apardıqda da eyni nəticə üzə çıxdı: belə ki, 50-ci illərdə əmək artımına malik olan

Yaponiya, habelə böyük əmək ehtiyatlarına malik olan Hindistan ABŞ-a kapital tutumu yüksək olan məhsullar ixrac edirdilər. Bu gözlənilməyən nəticələr o vaxt beynəlxalq ticarətə dair mövcud neoklassik nəzəriyyəyə uyğun gəlmədiyinə (alt -üst etdiyinə) görə iqtisad elmi tarixinə "Leontyev paradoksu (təzadı)" adı ilə daxil oldu.

Sonrakı illərdə nəşr edilən iqtisadi ədəbiyyatlarda və elmi diskussiyalarda Xekşer-Olin nəzəriyyəsinin doğruluğunu və Leontyev paradoksunun yalan olduğunu sübut edənlər çox olmuşdur.

Amerikan iqtisadçısı Donald Kisinq öz tədqiqatında işçi qüvvəsini ixtisas səviyyəsinə görə alim və mühəndislərdən tutmuş ixtisası olmayan fəhləyədək 8 kateqoriyaya ayıraraq sübut etdi ki, ABŞ-da yüksək ixtisaslı işçi qüvvəsinin artıqlığı və aşağı ixtisaslı işçi qüvvəsinin isə nisbi azlığı mövcuddur. Odur ki, ABŞ ixtisaslı əməyin məhsullarını ixrac edir. İxtisaslı işçi qüvvəsinin xərclərini kapital hesab etmək olar. Bütün bunlar Xekşer-Olin qanununun düzgünlüyünü sübut edir.

Bir neçə alim (o cümlədən amerikan alimi C. Xartigen) kapital qoyuluşu yüksək olan sahələri istisna etməklə V. Leontyevin hesablamalarını həmin illər üçün təkrar etdikdə paradoks aradan qalxdı. Beləliklə də onlar Xekşer -Olin nəzəriyyəsinin düzgünlüyünü "sübut etdilər".

ABŞ dövlətinin öz sənayesinin kapital tutumlu sahələrini rəqabətdən qorumuaq üçün idxal edilən əmtəələrə qoyduğu yüksək tariflər V. Leontyevin hesablamalarında nəzərə alınmır. Bu amili hesaba aldıqda Leontyev paradoksu aradan qalxmır və yalnız onun effektinin 5%-ini azaldır. İqtisadi ədəbiyyatlarda sayca çox olan belə arqumentlər mövcud nəzəriyyələrin birinin düzgün və o birilərinin qüsurlu olmasını sübut etməyə çalışanlar ümumilikdə beynəlxalq ticarət nəzəriyyəsinin inkişafına köməklik edirlər.

Xarici ticarətin həyata keçirilməsində ölkələr arasında danışıqlar, razılaşdırılmış fəaliyyət və münasibətlərin fasiləsizliyi üsulundan geniş istifadə olunur. Danışıqlar üsulu ölkələrin əməkdaşlığa can atma prinsipinə əsaslanır. Həcmi və gərəklilik dərəcəsindən asılı olmayaraq xarici ticarətdə həyata keçirilən hər bir tədbir danışıqlardan başlayır. Danışıqların nəticəsi müvəffəqiyyətlə başa çatdıqda səlahiyyətli şəxslər tərəfindən imzalanmış sənədlər (müqavilə, protokol, kontrakt və s) tərtib olunur.

Qarşılıqlı razılaşdırılmış hərəkət üsulu tərəflərin hüquq bərabərliyinə və qarşılıqlı fayda götürmək prinsipinə əsaslanır. Bu üsulun mahiyyəti danışıqlar nəticəsində əldə edilmiş nəticələrin razılığa gəlmiş ölkələr tərəfindən bütünlüklə yerinə yetirilməsi prinsiplərinin əsaslanmasındadır.

Fasiləsizlik üsulu ölkələrin iqtisadi əməkdaşlığının xarakterindən doğur. İdxal və ixrac milli iqtisadiyyatın tələblərindən irəli gəlir. Təssərrüfat əməliyyatları prosesi fasiləsiz baş verdiyi üçün xarici ticarət də fasiləsiz aparılmalıdır. Xarici ticarətin maddi əsasını ölkədən əmtəələrin aparılması (ixracat) və ölkəyə gətirilməsi (idxal) təşkil edir. Bu yolla xarici ticarət bir tərəfdən ölkədə istehsal olunmuş əmtəələri xaricə aparmaqla öz ölkəsinin milli sərvətini azaldır, başqa bir tərəfdən isə xaricdə istehsal olunmuş malları ölkəyə gətirməklə onu artırır. Bütövlükdə bu proses balanslaşdırılmış şəkildə həyata keçirilir.

§12.4. Xarici ticarət statistikasının göstəricilər sistemi

Xarici ticarət sahəsində konkret dövlətin iqtisadi fəaliyyətini xarakterizə etmək üçün statistika geniş göstəricilər sistemindən istifadə edir. Bu göstəricilər arasında ölkəyə gətirilən və ölkədən aparılın əmtəələrin natural əşya tərkibi və dəyər ifadəsilə məbləğini əks etdirən mütləq və nisbi göstəricilər xüsusi əhəmiyyətə malikdir. Statistika öz qarşısına qoyulan vəzifələri yerinə yetirmək üçün ixrac edilən malların tədarükü, istehsalı və satışına dair, habelə idxal edilən malların cinsi və dəyər ifadəsiylə həcminə dair ümumiləşdirici göstəricilərdən istifadə edir. Bundan əlavə statistika ticarətdə tərəf-müqabil olan ölkələrin sayı, dünyanın coğrafi rayonları üzrə bölüşdürülməsi, onların sosial-iqtisadi quruluşları və başqa əlamətlərə görə tərkibini də öyrənir.

Statistika tədqiqatının əsas obyekti ölkənin xarici dövlətlərlə əmtəə dövriyyəsidir. 'Xarici ticarət dövriyyəsi' dedikdə ölkənin (və ya ölkələr qrupunun) müəyyən dövr ərzində icra etdiyi idxal və ixrac əməliyyatlarının dəyərlərinin cəmi başa düşülür. İdxal və ixrac əməliyyatlarının hansı ticarət müqaviləsinə əsasən aparılmasına baxmayaraq, xarici ticarət dövriyyəsinin uçotu ciddi surətdə təqvim dövrü üçün aparılır. Xarici ticarət dövriyyəsinin hesablanması müvafiq illərin qiymətlərində və müqayisəli qiymətlərdə aparılır. Dünya ticarətinin məbləğinə dair mə'lumatlar BMT-nin nəşr etdirdiyi statistika bülletenlərində ABŞ dolları ilə ifadə olunur. Son dövrlərdə uçot və statistika işlərini beynəlxalq stardartlara uyğun quran Azərbaycan Respublikasının xarici ticarət balansı da manatla yanaşı milli valyutanın kursunu nəzərə almaqla ABŞ dolları ilə tərtib edilir. Beynəlxalq statistika təcrübəsində xarici ticarət dövriyyəsinin Ekyü (Avropa iqtisadi birliyi çərçivəsində) ilə tərtibinə də yol verilir.

Kommersiya xarakteri daşımayan iqtisadi münasibətlər nəticəsində ölkəyə gətirilən və ölkədən aparılan əmtəələr xarici ticarət üzrə mal dövriyyəsinə daxil edilmir.

Azərbaycanda xarici ticarət fəaliyyəti ilə bir neçə dövlət təşkilatı

məşğul olur: Azərbaycan Xarici Ticarət idarəsi, Şərq xarici ticarət idarəsi, Ticarət nazirliyi, Azərittifaq, Xarici iqtisadi əlaqələrt nazirliyi və s.

Xarici ticarətin inkişaf qanunauyğunluqlarını səciyyələndirmək üçün mütləq göstəricilərlə yanaşı bir sıra nisbi analitik statistika göstəricilərindən də istifadə olunur. Buraya konkret dövr əazində idxal və ixracın artım sür'əti və nisbi artımı, elastiklik əmsalı, idxal, ixrac və xarici ticarət dövriyyəsinin məbləğinin ÜDM-un (və ayrıca olaraq sənaye məhsulunun) tərkibində xüsusi çəkisi (kvotası), milli iqtisadiyyatın dünya təsərrüfatından asılılıq əmsalı, idxalın ixracı ödəmə faizi, ayrı-ayrı sahələrin və əmtəə qruplarının ixrac kvotası, nisbi ixracın ixtisaslaşması əmsalı, ixracın diversifikasiya indeksi və başqa statistika göstəriciləri aiddir.

"Statistikanın ümumi nəzəriyyəsi" fənnindən mə'lum olduğu kimi, artım sür'əti göstəricisi öyrənilən ictimai hadisənin hesabat dövr səviyyəsinin həmin hadisənin əsas (və ya özündən əvvəlki) dövr səviyyəsinə bölünməsi yolu ilə hesablanır. Artım sür'ətindən 100% (və ya 1-i) çıxmaqla nisbi artımı müəyyən etmək olar. Orta artım sür'ətini müəyyən etmək üçün orta həndəsi kəmiyyətin düsturlarından istifadə edilir.

İdxalın, ixracatın və ümumi xarici ticarət dövriyyəsinin ÜDM-un (və eləcə sənaye məhsulunun) tərkibində xüsusi çəkisini müəyyən etmək üçün quruluş-xususi çəki göstərən nisbi kəmiyyətlərdən (hissənin tama nisbəti) istifadə edilir.

İdxal, ixrac və ticarət dövriyyəsinin nisbi artımını ÜDM və ya sənaye məhsulunun nisbi artımı ilə müqayisə etməklə elastiklik əmsalını müəyyən etmək mümkündür. Elastiklik əmsalı konkret ölkənin milli iqtisadiyyatının nisbi artımına nisbətən xarici ticarətin nisbi artımının müqayisəsini əks etdirir.

Milli iqtisadiyyatın beynəlxalq bazara istiqamətləndirmə və inteqrasiya dərəcəsin səciyyələşdirmək üçün milli iqtisadiyyətın dünya təsərrüfatından asılılıq dərəcəsini səciyyələşdirən asılılıq əmsalını hesablamaq üçün idxal və ixrac kvotasının cəmini 2-yə bölmək lazımdır.

İxracın idxalı ödəmə faizini hesablamaq üçün ixracın məbləğini 100-ə vurub idxalın məbləğinə bölmək lazımdır.

İxrac edilən konkret məhsulun dəyərini ixracın ümumi dəyərinə bölməklə həmin məhsulun bütün ixracatın tərkibində xüsusi çəkisini müəyyən etmək olar. Bu yolla bütün ixracatın tərkibində ayrı-ayrı məhsulların və eləcə də iqtisadiyyat sahələrinin tutduğu mövqeyi müəyyənləşdirmək olar.

Konkret ölkənin başqa ölkələrlə ticarət əlaqələrinin intensivliyini

xarakterizə etmək üçün ixracın diversifikasiya indeksini (Y_d) hesablayırlar

$$J_d = \frac{\sum UX_{\text{мигдар}}}{\sum UX_{\text{дүнја}}}$$

Burada $\sum UX_{\text{мигдар}}$ -ixrac olunan əmtəələrin miqdarının artımını;

$\sum UX_{\text{дүнја}}$ -ixrac olunan əmtəələrin dünya ticarətində xüsusi çəkisini göstərir.

Bu indeksə əsasən ixracatın tərkibində (əmtəə quruluşunda) hansı əmtəə qrupunun daha sür'ətlə artdığını müəyyən etmək olar.

Beynəlxalq ticarətin obyekti olan əmtəələrin istehsalı və satışı mövsumiliklə əlaqədar olduğundan iqtisadi təhlil zamanı onu nəzərə almaq lazımdır. Mövsumi tərəddüdlərin intensivliyini öyrənməklə onların tə'sirini aradan qaldırmaq mümkündür. Bu məqsədlə xüsusi mövsumi tərəddüdlər şkalası qurulur. Belə şkalanı qurmaq üçün əvvəlcə bir neçə il üzrə idxal və ixracın aylıq və rüblük dəyəri müəyyən edilir. Sonradan öyrənilən dövrdə (il, rüb və s.) hər ay üçün ayrılıqda və seçilmiş dövr üçün ümumilikdə orta göstərici hesablanır. Hesablanmış orta aylıq mə'lumatların orta illik göstəricilərlə müqayisəsi aylıq mövsumi tərəddüdlərin dərəcəsini əks etdirəcəkdir.

İxracla idxalın (və ya əksinə) fiziki həcmini müqayisə etməklə (bölməklə) "Xarici ticarət şəraiti"ni araşdırmaq mümkündür. Belə müqayisə idxala nisbətən ixracın miqdarının "əlverişli" və ya "qeyri-əlverişli" inkişafını əks etdirir. Bu göstəricinin dinamikasının təhlili xarici ticarətin səmərəliliyinin dərəcəsini qiymətləndirməyə imkan verir.

1991-1996-cı illərdə Azərbaycanın ticarət dövriyyəsində baş verən dəyişikliklərin dinamikasını aşağıdakı cədvəldən görmək olar.

40-cı cədvəl

1991-1996-cı illərdə Azərbaycanın xarici ticarət dövriyyəsi
(mln. ABŞ dolları ilə)

Göstəricilər	1991	1992	1993	1994	1995	1996
Cəmi	1333,9	2423,6	1353,4	1414,7	1215,0	1591,8
İdxal	632,8	1484,0	724,6	636,8	547,4	960,6
İxrac	701,1	939,9	628,8	777,9	667,6	631,2
Saldo	68,3	-544,1	-95,8	141,1	120,2	-329,4
MDB ölkələrinə ixrac	658,3	729,8	373,7	274,2	217,6	290,1
"Uzaq xaric"ə ixrac	42,8	754,1	350,9	362,6	329,8	341,1

Tədqiq edilən dövrdə respublikamızın iqtisadiyyatında baş verən böhran sənaye və kənd təsərrüfatı məhsullarının ilbəil azalmasına səbəb oldu. İdxalın ixraca qarşı birtərəfli inkişafı 1994-1995-ci illərdəki müsbət saldonu 1996-cı ildə mənfi ədədə çevirdi. Ticarət balansındakı kəsirin yaranması aşağı keyfiyyətli məhsulların, habelə idxalda maşın, avadanlıq, nəqliyyat vasitələri, hesablama texnikası kimi məhsulların yüksək xüsusi çəkiyə malik olması ilə əlaqədardır. İxrac edilən məhsulların quruluşunun təhlili göstərir ki, onun tərkibində rəqabətə davamlı məhsul yalnız neft məhsulları, pambıq və az miqdarda da başqa məhsullar olmuşdur. 1996-cı ildə neft məhsullarının ixracı 1,4 dəfə artmış və 2639,6 min tona çatmışdır. Bütün ixracatın tərkibində neft e'malı məhsulları, metal filizi və onlardan hazırlanmış məhsulların xüsusi çəkisi 1994-1996-cı illərdə 50,7%-dən 67,7%-ədək artmışdır.

Maşın mexanizmləri və elektron cihazları kimi məhsulların xüsusi çəkisi həmin dövr ərzində 14,0%-dən 6,9%-ə, neft avadanlıqları və maşınların ixracı 89,4 milyon ABŞ dollarından 43,0 milyon dollara enmişdir. Belə vəziyyət ilk növbədə MDB ölkələri ilə iqtisadi əlaqələrin zəifləməsi və dünya bazarında bizim istehsal etdiyimiz məhsulların rəqabətə davamsızlığı ilə əlaqədar yaranmışdır.

Xarici ticarət dövriyyəsinin intensivliyi özünü bir sıra makroiqtisadi göstəricilərdə daha aydın əks etdirir. Məsələn, idxalın ÜDM-a nisbəti 1992-1996-cı illərdə 10,3%-dən 30,0%-ədək, ixracın ÜDM-a nisbəti isə 6,6%-dən 19,7%-ədək artmışdır. Bu dövr ərzində sənaye məhsulu istehsalının azalması ixracın ÜDM-a nisbətini 91,8%-dən 57,0%-ə, idxalın isə 55,2%-dən 54,3%-ə enməsinə səbəb olmuşdur.

§12.5.Xarici ticarət balansı

Beynəlxalq ticarətdə idxal və ixrac əməliyyatları öz əksini xarici ticarət balansında tapır. Xarici ticarət balansı konkret dövr ərzində (il, ay) idxal və ixrac edilən əmtəələrin dəyərlərinin nisbətini əks etdirən cədvəldir. Götürülmüş vaxt müddəti ərzində ölkədən ixrac olunan malların dəyəri idxalın dəyərindən çox olarsa balans aktiv (fəal), artımın qalığı (saldosu) isə **aktiv saldo** hesab edilir. Əgər ölkəyə idxal edilən əmtəələrin dəyəri ixrac edilən əmtəələrin dəyərindən çox olarsa ticarət balansı passiv, artımın məbləği isə passiv saldo adlanır. İdxal ixraca bərabər olduqda ticarət balansı Netto-balans adlanır.

Balansın pozulması halları olduqda problemlər maraqlı tərəflər arasında aparılan razılaşmalar yolu ilə tənzimlənir.

Dövlətin xarici ticarət fəaliyyətinin məqsədi ölkənin iqtisadiyyatının maraqlarını tə'min etmək üçün ölkədə istehsal olunan malları xaricə aparıb satmaq və bu ölkədən lazım olan malları öz

ölkəsinə gətirməkdir.

Bu fəaliyyət hər biri müəyyən konkret məsələnin həllinə yönəlmiş təsərrüfat aktlarının həyata keçirilməsi yolu ilə təzahür edir. İqtisadiyyatdan asılı olaraq bu əməliyyatlar "idxal" və ya "ixrac" əməliyyatları adlanır.

Xarici ticarət statistikası ayrı-ayrı dövlətlər arasında baş verən kütləvi-iqtisadi hadisələri (dar mənada isə əmtəə mübadiləsini) öyrənir.

Ticarət balansının dəyişməsini şərh (izah) edərkən bu dəyişmənin hansı amil hesabına əmələ gəlməsinə xüsusi diqqət yetirmək lazımdır. Məsələn, əgər mənfi saldo ixracatın ixtisar edilməsi nəticəsində yaranmışsa belə hal milli iqtisadiyyatın rəqabəq qabiliyyətliliyinin aşağı düşməsi ilə əlaqədar ola bilər. Bu isə neqativ hadisə hesab olunur. Əgər belə vəziyyət ölkəyə birbaşa investisiyanın və idxalın artması ilə əlaqədardırsa, onu milli iqtisadiyyatın zəifləməsi hesab etmək olmaz.

§12.6. Xarici ticarət statistikasında tətbiq olunan əmtəə təsnifatları

Xarici ticarətin obyekti olan əmtəələrin sayca çoxluğu ilk növbədə onların siyahısını-Nomenklaturasını hazırlamağı və onların müəyyən qaydada sistemləşdirilməsini, daha doğrusu müəyyən əlamət üzrə təsnifatlaşdırılmasını tələb edir. Dar mə'nada 'əmtəələrin təsnifatı' dedikdə xarici ticarət dövriyyəsində olan əmtəələrin həmcins siniflərə, mal qruplarına və yarımqruplarına bölünməsi başa düşülür.

Təsnifatlaşdırma əmtəə nomenklaturasını müəyyən sistemə salır və xarici ticarət fəaliyyətini dərindən təhlil etməyə imkan yaradır.

Beynəlxalq miqyasda istifadə edilə biləcək vahid əmtəə nomenklaturasının və təsnifatının tərtibi 1913 - cü ildə beynəlxalq ticarət statistikasının təşkili üzrə Konvensiya qəbul edildikdən sonra başlandı. Qəbul olunmuş Konvensiyaya əsasən ölkələr öz milli nomenklaturalarını saxlaya bilərdilər. Lakin onlar ildə bir dəfə Bryuseldə yerləşən Ticarət Statistikasının Beynəlxalq bürosuna öz xarici ticarətlərinə dair vahid təsnifat və nomenklatura üzrə mə'lumat verməyə borclu idilər. Bu təsnifat beş sinfə bölünmüş 186 əmtəəni əhatə edirdi. Belə məhdudiyyətlərə baxmayaraq Brüssel Konvensiyası Beynəlxalq Ticarət statistikasının inkişafı sahəsində irəliyə atılan bir addım idi. Burada qəbul edilmiş vahid əmtəə nomenklaturası və təsnifat xarici ticarətə mə"ruz qalan əmtəələri oxşar qruplar üzrə beynəlxalq miqyasda ümumiləşdirməyə və müqayisə etməyə imkan yaratdı.

Brüssel Konvensiyası qəbul edilmiş əmtəə nomenklaturasının və təsnifatın mə'lum qüsurlarını aradan qaldırmaq məqsədi ilə İkinci

Dünya Müharibəsinədək olan dövrdə bu sahədə bir neçə layihə təklif edilsə də onların heç biri beynəlxalq miqyasda qəbul edilmədi.

Müharibədən sonrakı dövrdə beynəlxalq ticarətdə əmtəələrin vahid nomenklaturası və təsnifatının iki variantından istifadə edilməyə başlandı. Onlarından birincisi BMT Statistika İnstitutu tərəfindən 1950 - ci ildə, ikincisi 1952 - ci ildə Qarşılıqlı İqtisadi Yardım Şurasının təşəbbüsü ilə yaradılmışdı. Hər iki nomenklatura beynəlxalq ticarəti uçota almaq üçün nəzərdə tutulurdu. Onların tətbiqi beynəlxalq ticarət statistikasının inkişafına köməklik etdi. BMT Statistika İnstitutunun hazırladığı "Xarici ticarətin vahid əmtəə nomenklaturası" dünyanın bir çox ölkələri tərəfindən, (13 ölkə) qəbul edilsə də keçmiş sosalist ölkələri onu qəbul etmədilər. Keçmiş SSRİ-nin təşəbbüsü ilə QİYŞ ölkələri yuxarıda göstərilən sənədi nəzərdən keçirərək yeni iiqtisadi təşkilata daxil olan ölkələrdə beynəlxalq ticarətə uyğun gələn "QİYŞ üzvü olan ölkələr üzrə xarici ticarətin vahid əmtəə nomenklaturasını işləyib hazırladılar.

Təsniflaşdırmanı aparkən qruplaşdırma əlaməti kimi əmtənin tə'yinatı (istehsal vasitələri, əmək cismlərinə), onların mənşəyi (məhsulun sənaye və kənd təsərrüfatının hansı sahəsində yaranması), e'mal olunma dərəcəsi xammal, yarım fabrikat, hazır məhsul), mə'mulatın hazırlandığı material və s. götürülə bilər.

Təsnifatlaşdırma zamanı əmtəə qruplarının düzgün ardıcıllıqla yerləşdirilməsi xarici ticarətin əmtəə tərkibinə və onların dəyişməsi qanunauyğunluqlarını aşkar etməyə imkan yaradır. İctimai məhsulun hərəkətini (istehsal, istehlak) düzgün əks etdirən təsnifat elmi cəhətdən əsaslandırılmış hesab edilir.

Əmtəələrin qruplaşdırılması onların istehsal istehlakına və fərdi istehlaka istifadəsini aşkar etməyə imkan verməlidir. Bu təsnifatlar tərtib edilərkən irəli sürülən əsas tələblərdən biridir.

Xarici ticirət statistikasında istifadə olunan "Vahid əmtəə nomenklaturası "nı ümumi şəkildə nümunə kimi nəzərdən keçirək:

Xarici ticarətin "Vahid Əmtəə Nomenklaturasısının" belə təsnifatlaşdırma sistemi 9 bölmədən, 57 qrupdan və 288 yarım qrupdan ibarətdir. Qəbul edilmiş bu sxem xarici ticarət dövriyyəsində olan əmtəələri istehsal vasitələri və əmək cisimlərinə, sənaye və kənd təsərrüfatı məhsullarına və e"mal olunma dərəcəsinə görə (xammal, yarımfabrikat, hazır mə"mulat) bölməyə və əlavə olaraq bir sıra başqa iqtisadi qruplaşdırmanı aparmağa da imkan verir.

Vahid Əmtəə Nomenklaturasının sxemi

Bölmənin sıra №-si	Bölmənin adı	Sayı	
		qrup-ların	yarım-qrupların
1	Maşınlar və avadanlıqlar	10	59
2	Yanacaq, meneral xammal, materiallar	10	45
3	Kimyəvi məhsullar, gübrə, kauçuk	6	30
4	Tikinti materialları və hissələr	3	12
5	Bitkiçilik və heyvandarlıq mənşəyli xammal (ərzaqdan başqa)	10	42
6	Diri heyvanlar	1	5
7	Ərzaq mallarının istehsalı üçün xammal	3	10
8	Ərzaq malları	5	29
9	Xalq istehlakı üçün sənaye malları	9	48

Sistemləşdirilmiş əmtəə nomneklaturası və elmi cəhətdən əsaslandırılmış təsnifat həm ayrı-ayrı ölkələrin milli statistikası həm də beynəlxalq statistika üçün böyük əhəmiyyətə malikdir. Öz aralarında beynəlxalq qarşılıqlı iqtisadi əlaqələri günü-gündən inkişaf etdirməkdə olan ölkələr arasında xarici ticarətə dair mə'lumatların müqayisəliliyinin tə"min edilməsi probleminin həllində də hamı tərəfindən qəbul edilmiş əmtəə nomenklaturalarının və təsnifatların mövcudluğu çox zəruridir

Əmtəə nomenklaturasına vahid münasibətinin olmaması konkret məhsulların Beynəlxalq ticarətinə dair yekun mə'lumatının əldə edilməsini qeyri mümkün edir.

Beynəlxalq ticarətlə məşğul olan ölkələr arasında uzun müddət belə razılaşdırılmış əmtəə siyahıları və təsnifatlaşdırma olmamışdır.

Bütün ölkələr tərəfindən istifadə edilə bilən Beynəlxalq əmtəə nomenklaturası və təsnifatının yaranması məsələsi iqtisadçılar, statistiklər və gömrükxana işçiləri tərəfindən dəfələrlə beynəlxalq miqyasda müzakirə edilsə də uzun müddət vahid nəticəyə gəlmək mümkün olmamışdır.

Bu məsələ ilə Beynəlxalq Statistika İnstitutu da uzun müddət məşğul olmuşdur.

Bu təsnifatda əmtəə qruplarının sayı və tərkibi xeyli genişləndirilərək QİYŞ ölkələrinin praktiki tələblərinə uyğun şəkildə quruldu.

"QİYŞ üzvü olan ölkələr üçün xarici ticarətin vahid əmtəə nomenklaturası" sxemi üzrə təsnifat əmtəələri 9 bölməyə 57 qrup və 317 yarımqruplara bölərək 3945 əmtəəni əhatə edirdi.

BMT orqanları çərçivəsində hazırlanmış "Beynəlxalq Standart

Ticarət Təsnifatı "ticarət dövriyyəsində olan məhsulları 10 bölməyə 56 qrupa və 177 yarımqrupa bölərək 1312 adda əmtəni əhatə edir.

BMT - nin qəbul etdiyi "Beynəlxalq Standart Ticarət Təsnifatı "nın ümumi sxemi aşağıdakı kimidir:

41-ci cədvəl

Beynəlxalq Standart Ticarət Təsnifatının sxemi

Şifrlər	Bölmənin adı	Qrupların sayı
0	Ərzaq malları	10
1	İçkilər və tütün	2
2	Yanacaqdan başqa qeyri - ərzaq xammalı	9
3	Mineral yanacaq, yağlar və onlara bənzər sair məhsullar	4
4	Bitki və heyvan mənşəli yağlar və piylər	3
5	Kimyəvi məhsullar	9
6	Xammal kimi təsnifatlaşdırılan emal edilmiş məmulatlar	9
7	Maşınlar və avadanlıqlar, nəqliyyat vasitələri	3
8	Müxtəlif hazır məmulatlar	7
9	Əvvəlki bölmələrə daxil edilməyən sair əmtəələr	-

Beləliklə son vaxtlarda Beynəlxalq statistikada üç əmtəə təsnifatı sistemindən istifadə olunurdu:

1. Beynəlxalq Standart Əmtəə Təsnifatı (BSƏT);
2. Keçmiş QİYŞ ölkələrində tətbiq olunan əmtəələrin vahid təsnifatı;
3. Gömrük rüsumları üzrə əmtəələrin beynəlxalq təsnifatı.

Bu təsnifat təcrübədə Brüssel Gömrük Nomenklaturası (BGN) adı ilə də məşhurdur.

Dünya ölkələrinin çoxu Beynəlxalq Standart Əmtəə Təsnifatından istifadə edir. Bir çox beynəlxalq təşkilatlar tərəfindən xarici ticarətə dair nəşr edilən Statistika külliyyatında da BSƏT təsnifatından istifadə edilir.

BGN üzrə təsnifatlaşdırmanın əsasını əmtəələrin e"mal olunma dərəcəsi təşkil edir. Bu əmanət gömrük rüsumları müəyyən edilərkən də nəzərə alınır və müəyyən dərəcədə BSƏT ilə də əlaqədardır.

Yuxarıda göstərilən əmtəə təsnifatlaşdırmalarına əsasən statistika mə"lumatlarının müqayisəliliyini tə'min etmək məqsədi ilə BMT Avropa İqtisadi Komisiyasının Katibliyi həmin təsnifatların birindən başqasına keçməyə imkan verən açar (üsul) hazırlasa da onların beynəlxalq miqyasda tətbiqində müəyyən məhdudiyyətlər qalmaqda idi.

Bu çətinlikləri aradan qaldırmaq üçün son illərdə (1988-ci ildən

sonra) Beynəlxalq Standart Ticarət Təsnifatı və Brüssel Gömrük Nomenklaturası əsasında əmtəələrin təsviri və kodlaşdırılmasının harmoniyalaşdırılmış təsnifatı tətbiq edilir. Bu sənədlərə əsaslanan Azərbaycan respublikasının DSK respublikamızda tətbiq edilə biləcək yeni standart təsnifatlaşdırma hazırlayır.

§12.7.Xarici Ticarətdə qiymət statistikası

Xarici ticarətdə əmtənin qiyməti mühüm iqtisadi kateqoriya hesab edilir. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakından yüksək səmərə əldə edilməsində qiymət müəyyənedici rol oynayır.

Xarici ticarətə mə'ruz qalan əmtəələrin qiymətinin öyrənilməsinə maraq xarici ticarət praktikasının tələblərindən irəli gəlir. İdxal - ixrac əməliyyatlarının həyata keçirilməsi ilə məşğul olan xarici ticarət təşkilatlarının gündəlik fəaliyyətində qiymətlərin səviyyəsi və dəyişilməsinə dair etibarlı informasiyanın olmasına ehtiyac yaranır. İxrac və idxal edilən əmtəələrin qiymətlərinə dair belə mə'lumatlar xarici ticarətə rəhbərlik etmək və bu sahədə dövlətin iqtisadi siyasətinin yerinə yetirilməsinə nəzarət etmək üçün gərəkdir.

Ölkələr arasında iqtisadi (o cümlədən də ticarət) əlaqə formalarının çoxluğu və onların həyata keçirilməsi şəraitinin müxtəlifliyi idxal-ixrac əməliyyatlarını həyata keçirərkən müxtəlif qiymətlərdən istifadə olunmasına gətirib çıxarmışdır. Dünya bazarında xarici ticarət fəaliyyətinin həyata keçirilməsi zamanı ən çox istifadə olunan qiymətlər aşağıdakılardır:

1. FAS qiymətləri. Bu qiymət əmtəələrin istehsalı və gəmiyədək daşınması üzrə əlaqədar xərclərin cəmidir.
2. FOB qiymətləri. Adı ingiliscə frec of board sözlərinin baş hərflərindən yaranmış bu qiymət FAS qiymətlərindən əlavə gəmiyə sərbəst yükləmə xərclərini də əhatə edir.
3. SİF idxal qiymətləri (ingiliscə cost insurande freidlit sözlərinin baş hərflərindən düzəlib). FOB qiymətlərindən əlavə yüklərin sığorta dəyəri, habelə idxalçı ölkənin sərhədlərinədək daşınması xərclərini əhatə edir.

İdxal olunan əmtəənin müqavilə qiyməti daşınma, sığortalama (insurande) və boşaltma dəyəri də daxil olmaqla onun satılan real qiymətidir.

İdxal olunan ölkədə əlavə edilən idxal rüsumları və bu cür yığımlar əmtəənin idxal dəyərinə aid edilməməlidir. Beləliklə, idxal olunan əmtəələrin müqavilə qiyməti SİF-bazis qiymətlərinə gətirilir.

Əgər müqavilə SİF şərtləri ilə bağlanılıbsa, satıcı öz hesabına əmtəəni göndərmə məntəqəsinə gətirir, nəqliyyat vasitəsi (gəmi və orada yer) icarəyə götürür (fraxtlaşdırır), yükləri orada tələb olunan

qaydada yerləşdirir, ixracla əlaqədar bütün rüsumlar, yığım və vergiləri ödəyir, əmtəni alıcının adına sığortalayır, konsamenti (gəmi ilə yük göndərmə sənədini) ödəyir, yükləmə zamanı hər cür zay olma riskinə məsuliyyət daşıyır.

FOB qiymətiylə əmtəənin dəyəri, ixracat vergisi (və bu qəbildən olan sair vergilər), əmtənin ölkə daxilindəki məntəqələrdən ölkənin sərhədlərinədək daşınması xərcləri, komision yığımlar, müqavilənin formalaşması və əmtəələrin nəqliyyat vasitələri ilə gətirilməsi xərcləri, konsul yığımları, tara, qablaşdırma xərcləri, işçi qüvvəsinin dəyəri və yüklənmə xərclərini də daxil edirlər.

SİF qiymətiylə hesablanmış idxal olunan əmtəənin dəyəri FOB qiymətiylə hesablanmış ixrac olunan əmtənin dəyərindən aşağıdakı xərc ünsürlərinin dəyərinin cəmi qədər fərqlənir.

1. İxrac edilən ölkənin sərhəddindən idxal edən ölkənin sərhəddinə qədər əmtəələrin nəqliyyat və sığorta xərcləri.
2. Boşaltma (əgər müqavilədə nəzərdə tutulubsa) xərcləri.
3. Gömrük nəzarəti xərcləri.
4. Əmtəənin qəbulunu həyata keçirmək üçün sərhəddin müvafiq yerinə qədər daşıması xərcləri.

SİF qiymətləri ilə hesablanmış idxalı FOB qiymətlərinə gətirmək üçün onun ümumi dəyərindən fraxt (kirayə), sığorta, nəqliyyat və s. xərcləri çıxılır.

5. Kontrakt qiymətləri. Bu qiymət tərəflərin razılığına görə tə'yin edilir və tərəfi müqabil ölkələrin hökumətləri tərəfindən təsdiq edilir.

6. Birjada tə'yin edilən qiymətlər. Bu qiymətlər beynəlxalq hərracların və ticarət təşkilatlarının tərəfindən əmtəə birjasında müəyyən edilir. Birjada müəyyən olunan qiymətlər real kontrakt qiymətlərinə uyğun gələn qiymətdir.

7. İri firmaların təklif etdiyi qiymətlər və faktiki sövdələşmə qiymətləri. Bu qiymətlər sorğu qiymətləri də adlandırılır.

Dünya bazar qiymətləri əmələ gəlməsinin, xarakterinə görə şərti olaraq "azad" bazar qiymətlərinə və "Qapalı" bazar qiymətlərinə bölünür. "Azad " bazar qiymətləri rəqabət şəraitində və tələblə təklif arasında obyektiv şəkildə yaranan nisbətlərdən asılı olaraq formalaşır. Buraya əmtəələrin satışı təşkil olunan yerlərin (hərracların, ticarət təşkilatlarının, birjaların) qiymətləri aiddir. Bu qiymətlər əmtəələrin satışı zamanı yaranan konkret şəraitdə eynicinsli məhsula görə formalaşır. "Qapalı" bazar qiymətləri satıcılar və alıcılar arasında müəyyən spesifik münasibətlərdə formalaşır. Bu qiymətlərin formalaşmasına tələb və təklif arasındakı nisbət ciddi tə'sir göstərir. "Qapalı" bazar qiymətlərinə firmadaxili ticarət qiymətlərini, regional iqtisadi qruplaşdırmaların qiymətlərini və xüsusi preferensial (imtiyazlı)

qiymətləri aid etmək olar. Prefernsal qiymətlər konkret əmtəənin göndərilməsi haqqında hökumətlər arası razılaşmalara görə qoyulur.

Beynəlxalq ticarət təcrübəsinə əsasən dünya qiymətləri aşağıdakı əlamətlərə malik olmalıdır:

1. Bu qiymətlər beynəlxalq ticarət və iri müntəzəm sövdələşmələrin qiyməti olmalıdır;
2. Həmin sövdələşmələr kommersiya xarakteri daşımalıdır;
3. Sövdələşmələr azad dönərli valyutaya görə bağlanmalıdır.
4. Sövdələşmələr ya ixrac, ya da idxal istiqamətində olmalıdır.
5. İxrac və ya idxal əməliyyatları azad rejimə malik bazarlarda baş verməlidir.

Xarici ticarətin həcminin, quruluşunun və coğrafiyasının, habelə ayrı-ayrı əmtəə qruplarının idxalı və ixracatının səmərəliliyini öyrənmək və təhlil etmək üçün də qiymətlərə dair dəqiq və operativ informasiyanın olmasını tələb edir.

Əmtəələrin qiymətlərinə dair əsas mə'lumat mənbəyi idxal və ixrac edən ölkələr arasında xarici ticarətə dair bağlanmış kontraktlardır. Kontrakt qiymətləri real qüvvədə olan qiymələrdir, lakin onlardan istifadə edərkən mal göndərilməsi şərtlərlərindən irəli gələn xüsusiyyətləri nəzərə almaq lazımdır. Bu xüsusiyyətlərdən asılı olaraq bə"zi hallarda kontrakt qiymətləri ilə malı alan ölkənin mal satan ölkəyə ödədiyi qiymətlər arasında fərq yaranır.

Müasir beynəlxalq ticarətdə əmtəələrin satılması və alınmasına dair kontrakların bağlanması onların istehsalını qabaqlayır. Bir illik, beşillik və hətta onillik beynəlxalq ticarət müqavilələrinin bağlanması Beynəlxalq ticarət təcrübəsində geniş tətbiq edilir. Bu da öz növbəsində kontrakt qiymətləri ilə real qiymətlər arasında fərqin yaranmasına şərait yaradır. Real qiymətlər yalnız məhsul istehsal edildikdən sonra dəqiqləşdirildiyinə görə tərəflər müqaviləni bazis məhsulları üzrə bağlayırlar. Belə halda kontrakda gələcəkdə istehsal ediləcək məhsulun bazis məhsulundan kənarlaşma dərəcəsinə müəyyən məhdudiyyət qoyulur.

Kontrakda müəyyən edilmiş əmtəənin qiyməti isə bu kənarlaşmadan asılı olaraq dəqiqləşdirmə lidir. Buna görə də əmtəənin real qiyməti göndərmələr başa çatdıqdan sonra dəqiqləşdirilir.

Xarici ticarət statistikasının mə'lumatına əsasən ayrı - ayrı ölkələr arasında, ölkələr qrupunda və dünya bazarında ixrac və idxal qiymətlərinin nisbətini və dinamikasını öyrənmək mümkündür. Bu mə'lumatlara əsasən ixrac və idxal üzrə fiziki həcm, qiymət və ümumi mal dövriyyəsi indekslərini hesablayırlar.

İxrac və idxal edilən məhsulların kontrakt qiymətləri tərəflər tərəfindən razılaşdırılmış (kontraktda göstərilən) miqyasda və vahid

bazis göndərişlərinə çevirməklə hesablanır.

Kontrakt qiymətlərinin dəyişməsinə dair mə'lumat ixrac-idxal əməliyyatlarına rəhbərliklə əlaqədar operativ məsələləri həll edərkən istifadə olunur.

Vahid bazis göndərmələrinə çevrilmiş (hesablanmış) qiymətlərin tətbiqi dairəsi isə xeyli genişdir.

İxrac və idxal edilən əmtəələrin kontrakt qiymətlərinin dəyişməsi bağlanmış kontraktların başdan-başa müşahidəsi yolu ilə müəyyən edilir. Xarici ticarət statistikasında 'qiymətlərin dəyişməsi' dedikdə kontrakda əks etdirilmiş köhnə qiymətlərin əvəzinə tərəflərin razılığı ilə yeni qiymətlərin müəyyən edilməsi başa düşülür. Qiymətlər müntəzəm olaraq, kontrakt bağlandıqca qeydə alınır. Bu yolla qiymətlərin səviyyəsinə dair mə'lumatlara əsasən moment dinamika sırası alınır.

İqtisadi statistikada olduğu kimi, beynəlxalq ticarət statistikasında da mə'lumatların müqayisəliliyi mühüm rol oynayır. Qiymətlərin müqayisəliliyini tə'yin etmək üçün ixrac-idxal əməliyyatlarına mə'ruz qalan əmtəələrin ölçü vahidi, həcmi, tərkibi, bazis göndərmələri və qiymətlərinə dair müfəssəl mə'lumat olmalıdır.

Qiymətlərin dəyişməsinə dair hesabatlar müəyyən vaxt müddəti (ay, rüb, il) üçün tərtib edildiyinə görə bu hesabatlara əsasən hesablanmış qiymətlər interval dinamika sırasını təşkil edir. Belə dinamika sıralarının mə'lumatlarından qiymətlərin səviyyə və dinamikasının öyrənməsində və xarici ticarətdə qiymət indekslərini hesablamaq üçün istifadə olunur.

Xarici ticarətin interval qiymət indeksinin hesablanması orta qiymətlərin hesablanmasını tələb edir. Moment dinamika sırasının mə lumatına əsasən orta qiymətləri hesablayarkən nəzərə almaq lazımdır ki, onun səviyyəsinə əmtəələrin qiymətinin bazar tərəddüdü və onların keyfiyyət xarakteristikası tə'sir göstərir.

Dünya bazarında və onun ayrı-ayrı sektorlarında əmtəələrin qiymətinin səviyyəsi bazar konyukturası nəticəsində daima dəyişikliyə mə"ruz qalır. Belə dəyişiklik bir sövdələşmədən başqa sövdələşməyə keçərkən də dəyişə bilir. Bu cəhət orta qiymətin hesablanmasını zəruri edir.

Qiymətlərin səviyyəsi əmtəənin növü, keyfiyyəti, qablaşdırmasının növü, ölçüsü və başqa keyfiyyət əlamətlərinə görə də fərqlənir.

İxrac və idxal edilən əmtəələrin orta qiymətini ($\overline{P}$) hesablayarkən çəkili hesabi orta kəmiyyətin düsturundan istifadə edilir.

$$\overline{P} = \frac{\sum qp}{\sum q}$$

Burada q - əmtənin miqdarını,

r - əmtəənin bir vahidini qiymətini;

$\sum$ - cəmlənməni göstərir.

Tutaq ki, ay ərzində üç müxtəlif kontrakt üzrə üç müxtəlif ölkəyə məişət kondinsionerləri satılmışdır.

Onların miqdarı və qiyməti aşağıdakı kimi olmuşdur.

42-ci cədvəl

Ay ərzində ixrac edilmiş məişət kondisionerlərinin miqdarı və qiyməti

Kontraktın N-si	ixrac edilən kondisionerlərin	
	miqdarı (ədədlə)	qiyməti (dollarla)
1	500	182
2	200	149
3	300	210

Buradan bir ədəd kondisionerin orta qiyməti

$$\overline{P} = \frac{500*182 + 200*149 + 300*210}{500+200+300} = \frac{183800}{1000} = 183{,}8 \text{ dollar}$$

olacaqdır.

Beynəlxalq miqyasda ixrac və idxal edilən əmtəələrin qiymətlərinin dəyişməsi haqqında təsəvvür əldə etmək üçün dünya bazar qiymətləri indekslərindən istifadə edilir. Bu indekslər verilmiş mə'lumatın xarakterindən asılı olaraq çəkili orta, hesabi orta

$$J_p = \frac{\sum \frac{P_1}{P_0} Q_1}{\sum Q_1}$$

və ya aqreqat indeksinin düsturu üzrə

$$J_p = \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

hesablanır. Burada:

Q_1 - hesabat dövründə konkret məhsul növünün xüsusi çəkisini;

Y_P - ümumi qiymət indeksini göstərir.

Xarici ticarətin qiymət indeksi xarici ticarətə mə'ruz qalan (idxal və ya ixrac) əmtəələrin fiziki həcmi sabit qaldığı şəraitdə qiymətlərin dəyişməsi hesabına ixracın (və ya idxalın) dəyərinin dəyişməsini göstərir.

İxracın (və ya idxalın) orta qiymət indekslərini hesablayarkən

silsiləvi (hesabat dövrü özündən əvvəlki dövrə isbətən) indekslərə üstünlük verilir. Müstəqil dövlətin ixrac - idxal əməliyyatlarının çeşidində ciddi dəyişiklik baş verdiyi şəraitdə bu çox böyük əhəmiyyətə malikdir. Həm də nəzərə almaq lazımdır ki, hesabat dövrü ilə əsas dövr arasındakı vaxt müddəti artdıqca əmtəələrin çeşidində dəyişiklik də bir o qədər çox baş verir. Bu da öz növbəsində indeksi hesablamaq üçün seçilən müqayisəli təmsilçi əmtəələrinin sayını azaldır və hesablanmış indekslərin dəqiqliyini aşağı salır.

Silsiləvi indekslərdən bazis indekslərinə keçmək üçün ardıcıl hesablanmış silsiləvi indeksləri biri - birinə
vurmaq lazımdır.

Xarici ticarətin fiziki həcm indeksi əsas dövrə nisbətən hesabat dövründə qiymətlərin sabit qaldığı şəraitdə (p_0) ixracatın (və ya idxalın) həcminin (q) neçə dəyişdiyini göstərir.

$$J_q = \frac{\sum q_1 p_0}{\sum q_0 p_0}$$

Fiziki həcm indeksləri həm sabit və həm də dəyişkən baza ilə hesablana bilər.

Xarici ticarətin fiziki həcmində baş verən dəyişiklikləri uzun vaxt müddəti üçün öyrənərkən bazis indekslərindən, qısa vaxt müddəti üçün isə silsiləvi indekslərdən istifadə olunur.

Xarici ticarətə mə'ruz qalan əmtəələrin çeşidinin orta qiymət indeksinə və xarici ticarət dövriyyəsini həcminə tə'sirini aşkar etmək üçün dəyişən baza ilə hesablanan qiymət indeksləri ilə yanaşı sabit bazaya əsaslanmış qiymət indekslərindən də istifadə edirlər.

$$J_p = \frac{\sum p_1 q_0}{\sum p_0 q_0}$$

Dəyişən baza ilə hesablanmış orta qiymət indeksinin sabit baza ilə hesablanmış orta qiymət indeksinə nisbəti (bölünməsi) hesabat dövründə əmtəələrin çeşidində baş verən dəyişikliyin orta qiymət indeksinə tə'sirini əks etdirəcəkdir:

$$J_{\text{struct}} = \frac{\sum p_1 q_1}{\sum p_1 q_1} : \frac{\sum p_1 q_0}{\sum p_0 q_1} = \frac{\sum p_1 q_1}{\sum p_0 q_1}$$

Yekun fiziki həcm indeksləri dəyər indeksini (J_{pq}) dəyişən çəkili orta qiymət indeksinə bölmək yolu ilə müəyyən edilir.

$$J_{\bar{p}} = \frac{\sum q_1 p_1}{\sum q_0 p_0} : \frac{\sum p_1 q_1}{\sum p_0 q_1} = \frac{\sum q_1 p_1}{\sum q_0 p_0}$$

Orta qiymət və fiziki həcm indeksləri seçilmiş əmtəə dəsti üzrə hesablanır. Orta ixracat qiyməti indeksinin ($J_{\bar{p}\ \text{ixrac}}$) orta idxal

qiymətləri indeksinə ($J_{\bar{p}\ \text{idxal}}$) bölməklə dövlətin xarici ticarət "Şəraiti" indeksini müəyyən edirlər.

$$J_{\text{şəraiti}} = \frac{J_{\bar{p}\text{ixrac}}}{J_{\bar{p}\text{idxal}}}$$

Dünya ticarətində qiymətlərin səviyyəsinin dəyişməsinə beynəlxalq maraqı nəzərə alaraq BMT Beynəlxalq Statistika İnstitutu öz nəşrlərində aşağıdakı qiymət indekslərini müntəzəm dərc edir:

1. İxrac-idxal əməliyyatlarına mə'ruz qalan əmtəələrin məcmu qiymət indeksi. Bu indeksləri hesablayarkən ümumi indekslə yanaşı xammal əmtəələri və sənaye məhsullarının qrup indeksləri ayrıca hesablanır;

2. Xammala və ayrı-ayrı əmtəə qrupları üzrə ərzağın ixrac qiymətləri indeksi;

3. Sənaye cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üzrə (ayrıca) xammal və ərzaqın qiymətləri indeksi;

4. Belçika, Lüksemburq, Kanada, Fransa, İtaliya, Yaponiya, Hollandiya, Almaniya, İsveç, İngiltərə və ABŞ üzrə sənaye mə'mulatlarının xüsusi ixrac qiymətləri indeksi. Bu ölkələr dünyada hazır mə'mulat ixracının 88%-ni əhatə edir;

5. Əlvan metallara ixrac qiymətləri indeksi;

6. Reyter indeksi. Bu indeks funt-sterlinq zonasında 21 əmtəə qrupu üzrə qiymətlərin dəyişməsini əks etdirir. Burada qiymətlərin tə'yin olunması bir çox hallarda İngiltərə limanlarının SİF şərtləriylə mal göndərilməsinə aid edilən birja əmtəələri üstünlüyə malikdir. Bu indeks ixrac qiymətlərinə əsasən hesablandığına görə dünya bazar qiymətlərinə nisbətən yaxındır.

7. Dou-Cons indeksi. Bu indeks 12 əmtəə qrupu üzrə iki variantda hesablanır:

a)naqd əmtəə üçün;

b)sövdələşmə vaxtı üçün.

Bu indekslər ABŞ birjalarının qiymətlərinə əsaslanırlar.

8. Mudi indeksi. Bu indeks 15 xammal əmtəəsini əhatə etməklə ABŞ bazarının qiymətlərini əks etdirir. ABŞ bazarında istifadə olunmaq üçün nəzərdə tutulan bu indeks üçün baza 1931-ci ilin 31 dekabr vəziyyətinə olan qiymət götürülür. Onu hesablayarkən qiymətlərin hər günlük səviyyəsi dəyişməz çəki ilə götürülür. Bu indeks dünya ticarətinin müasir quruluşuna uyğun gəlmir.

Yuxarıda deyildiyi kimi, son illərdə Azərbaycan Respublikasının xarici ticarətində idxal ixracatı xeyli qabaqlayır. Belə vəziyyətin formalaşmasında ixrac və idxal edilən əmtəələrin qiymətlərinin

dəyişməsi də müəyyən rol oynayır. 1994-1996-cı illərdə Azərbaycandan ixrac edilən əmtəələrin qiymətlərinin dinamikası aşağıdakı kimi olmuşdur:

43-cü cədvəl

1994-1996-cı illərdə Azərbaycandan ixrac edilən mühüm növ məhsulların orta qiymətlərinin dinamikası
(ABŞ dolları ilə)

Məhsul növləri	İXRAC		
	1994	1995	1996
Pambıq yağı, ton	120	459	246
Şampan şərabı, ədəd	1	1	2
Üzüm şərabı, mindal	2974	598	2051
Tütün, ton	840	446	695
Avtomobil benzini, ton	165	150	193
Bütün növ kerosin, ton	97	114	142
Dizel yanacağı, ton	35	30	48
Yağlar və sürtkü yağlar,ton	169	360	339
Neft koksu, ton	44	86	55
Bitüm, ton	17	67	84
Elektrik enerji, min.kv.saat	21	45	27
Polietilen, ton	727	769	682
Pambıq məhsulu, ton	1316	1530	1259
İşlənilməmiş aluminium, ton	952	1271	1058
Məişət kondinserləri, ədəd	182	149	210
Soyuducular və buzxanalar, ədəd	155	115	184
Elektrik transformatorları, ədəd	1516	224	220
Neft-qaz kəməri boruları, ton	251	336	330

42-ci cədvəldən göründüyü kimi, müqayisə edilən üç il ərzində ixrac edilən bütün əmtəələrin orta qiyməti nəzərə çarpacaq dərəcədə dəyişmişdir. Onların bir qismi artmış, bir qismi isə aşağı düşmüşdür.

43-cü cədvəldən göründüyü kimi, 1994-1996-cı illərdə Azərbaycana gətirilən bütün məhsulların qiyməti ciddi surətdə dəyişmişdir. Bir neçə məhsul (televizor, minik avtomobilləri, quş əti, çay, ət kolbasası, taxta-şalban) istisna olmaqla respublikaya gətirilən məhsulların qiyməti yüksəlmişdir. Ən çox artım yük maşınları, qazma boruları, mal əti, kərə yağı, buğda, qənd, sement, azot kübrələri, qəzet kağızı və vərəqlənmiş polad məhsulları üzrə müşahidə olunur.

44-cü cədvəl

1994-1996-cı illərdə Azərbaycan Respublikasına idxal edilən mühüm növ məhsulların orta qiymətlərinin dinamikası
(ABŞ dolları ilə)

Məhsulun növü	İDXAL		
	1994	1995	1996
Mal əti, ton	851	1290	1181
Quş əti, ton	1145	1437	1132
Kərə yağı, ton	1087	2308	2031
Kartof, ton	103	116	116
Çay, ton	2233	857	1555
Buğda, ton	90	119	200
Düyü	246	369	297
Buğda unu, ton	129	262	230
Margarin, ton	914	1097	982
Ət kolbasası, ton	2258	1555	930
Qənd və şəkər tozu, ton	311	438	450
Sement, ton	23	59	70
Azot kübrəsi, ton	66	112	171
Minik avtomobilləri üçün şinlər, ədəd	27	18	29
Yük avtomobilləri üçün şinlər, ədəd	102	127	137
Taxta-şalban, kub.metr	71	36	69
Qəzet kağızı, ton	274	173	931
İsti vərəqlənmiş polad,ton	228	291	377
Soyuq vərəqlənmiş polad, ton	237	307	482
Neft-qaz kəməri boruları, ton	796	895	846
Qazma boruları, ton	64	664	1057
Minik avtomobilləri,ədəd	8279	6790	7546
Yük avtomobilləri, ədəd	8680	12626	20189
Televizor, ədəd	291	112	147

§12.8.Gömrük statistikası Beynəlxalq ticarətin əsas komponentlərindən biri gömrük xidmətləridir.

Xarici ticarətin (və ümumiyyətlə xarici iqtisadi əlaqələrin) həyata keçirilməsinin ən mühüm ünsürlərindən biri olmaqla gömrük xidmətinin əsas vəzifəsi əmtəələrin, kapitalın və insanların dövlət sərhədindən hər iki tərəfə keçməsinin qanuniliyini yoxlamaq və uçota

almaqdır. Gömrük statistikası xarici ticarət statistikasının ən qədim tərkib hissələrindən biri olmaqla idxal və ixrac uçotuna əsaslanır. Gömrük statistikasının yaranması dövlətlərin yaranması və həmin dövlətlərin keçid məntəqələrində (quru, su və hava yollarında) gömrük postlarının qoyulması ilə eyni vaxta düşür.

Gömrük statistikası üçün əsas sənəd idxal və ixracın qeydə alındığı gömrük deklarasiyasıdır. Gömrük deklarasiyasında sərhəddi keçən əmtəənin adı, miqdarı, dəyəri, əmtəənin istehsal olunduğu ölkə (idxal zamanı), istehlakçı ölkə (ixrac zamanı), qablaşdırmanın növü, nəqliyyat vasitəsinin növü və malı alan təşkilatın adı (idxal zamanı), deklarasiyanın doldurulduğu tarix və onu dolduranın imzası göstərilir. Dunyanın bir çox ölkələrində gömrük deklarasiyası ölkəyə gətirilən və ondan aparılan əmtəələrin statistik uçotunu tə'min edən yeganə sənəddir. Gömrük statistikası gömrük məntəqəsindən buraxılan əmtəələrin kəmiyyət və dəyər ifadəsiylə gömrükdən keçdiyi anda uçota alır.

Statistika idxal üzrə yalnız istehlak üçün xaricdə istehsal olunmuş əmtəələri uçota alır. Reimport (bu ölkənin istehsal etdiyi məhsulun xaricə satıldıqdan sonra yenidən istehsal olunduğu ölkəyə qayıtmalı) və tranzit yolu ilə ölkədən keçib gedən əmtəələr idxal hesab edilmir.

İxracat ölkəyə gətirilən bütün xaricdə istehsal olunmuş əmtəələri əhatə edir. Gömrük uçotu gömrükxanaların ambarlarından geri qaytarılan əmtəələri və tranzit yolu ilə ölkədən keçib gedən əmtəələri ixracata aid etmir.

Poçt bağlamaları formasında xaricle aparılan ticarət idxala və həm də ixracata adi qaydada daxil edilir.

Qaçaqmalçılardan tutulan əmtəələr ayrıca uçota alınır.

Müvəqqəti olaraq ölkəyə gətirilən və ölkədən aparılan əmtəələr əmtəə dövriyyəsinə daxil edilmir.

İxracat malları qüvvədə olan gömrük rüsumunun hesablandığı brutto (tara ilə birlikdə) və netto (tarasız) çəkilərdə və başqa fiziki ölçü vahidlərində uçota alınır. Bə'zi əmtəələr üzrə netto çəki əmtəənin bir başa çəkmək yolu ilə deyil, tara ilə birlikdə onun ümumi çəkisindən tara üçün müəyyən edilmiş faizi çıxmaq yolu ilə hesablanır.

Vergidən azad edilmiş və ya ad-valer vergisi qoyulan xarici əmtəələr (dəyərlilər) idxal zamanı tara ilə və ya onsuz gətirilmələrindən asılı olaraq brutto və ya netto çəkisi ilə uçota alınır.

İxrac edilən məhsullar tarasız aparıldıqda netto çəki ilə uçota alınır. İxrac edilən başqa əmtəələr ümumi qayda ilə brutto çəkidə uçota alınır.

Xarici ticarətin səmərəli təşkilində və onun ölkənin iqtisadiyyatına tə'sirinin tə'min edilməsində gömrük xidmətinin rolu böyükdür. Hər bir ölkənin səlahiyyətli orqanları gömrük nəzarəti və əlverişli rüsum dərəcəsi müəyyən etməklə daxili istehsalı xarici kompaniyaların

inhisar rəqabətindən qoruyur, ölkədə az tapılan əmtəələrin xarici ölkələrdən öz ölkəsinə idxal edilməsinə stimullaşdırır və tələbat az olan məhsulların ölkəyə lazımsız axınının qarşısını ala bilər. Beləliklə, gömrük nəzarətinin düzgün təşkili və gömrük rüsumlarının milli iqtisadiyyatın inkişafına xidmət edə biləcək səviyyəsinin düzgün müəyyən edilməsi dövlətin iqtisadi siyasətinin mühüm hissəsinə çevrilir.

Gömrük ödənişi (customs duty) idxal və ixrac əməliyyatları zamanı gömrük orqanları tərəfindən alınan məcburi haqdır.

Gömrük ödənişi fiksal, müdafə edici və balanslaşdırıcı funksiyaları yerinə yetirir. Gömrük xidməti nəticəsində əldə edilən vəsait dövlət büdcəsinin əsas gəlir maddələrindən biri olduğu üçün fiksal vəzifə həm idxala və həm də ixraca aiddir.

Müdafiyə funksiyası idxal ödənişlərinə aiddir. Belə ödənişlərin köməkliyi ilə dövlət yerli istehsalçıları arzuedilməz xarici rəqabətdən qoruyur.

Balanslaşdırma funksiyası ixracat əməliyyatlarına aiddir. Dövlət ixrac rüsumlarını müəyyən etməklə əmtəələrin arzuedilməz ixracının və dünya bazarındakına nisbətən aşağı olan daxili qiymətlərin qalxmasının qarşısını alır.

Gömrük ödənişləri alınma qaydasına, vergiqoyma obyektinə, mənşəyinə, dərəcəsinə və hesablanma üsuluna görə təsnifatlaşdırılır. Alınma üsuluna görə ad-valar, spesifik və birləşmiş rüsumları fərqləndirilir. Ad-valer rüsumlar əmtəənin gömrük dəyərinə nisbətən (təqribən 20%-dək) müəyyən edilir. Spesifik rüsumlar bə'zi əmtəələri hər vahidinə konkret mütləq rəqəmlə (məsələn, əmtəənin hər tonuna 10 dollar) müəyyən edilir. Birləşmiş rüsum ödənişləri tətbiq edilərkən yuxarıda şərh edilən hər iki üsul birlikdə (məsələn, hər tonuna 10 dollardan çox olmamaqla əmtəənin dəyərinin 20%-dək) müəyyənləşdirilir.

Gömrük rüsumlarının yuxarıda tətbiq edilən hər növünün müsbət və qüsurlu tərəfləri vardır.

Vergiqoyma obyektinə görə idxal, ixrac və tranzit əməliyyatlarına gömrük ödənişlərini fərqləndirirlər.

Xarakterinə görə mövsumi, antidempinq və kompensasiya edici gömrük rüsumları fərqləndirilir. Mövsümi ödənişlər əsasən kənd təsərrüfatı məhsullarına aid olmaqla beynəlxalq ticarəti müəyyən mövsümda tənzimləmək məqsədi ilə tətbiq edilir.

İxracedici ölkə əmtəəni özündə olan normal istehsal qiymətlərindən aşağı qiymətdə göndərdikdə idxaledici ölkə tərəfindən antidempinq tətbiq edilir.

Kompensasiyaedici ödənişlər konkret məhsulun idxalı milli istehsalçılara zərər gətirdiyi halda həmin məhsulun istehlakına subsid-

lərddən istifadə edildikdə tətbiq edilir.

Mənşəyinə görə avtonom (bir ölkənin dövlət orqanları tərəfindən), konvension (iki və çoxtərəfli müqavilələr) və preferensial (zəif ölkələrin iqtisadiyyatına kömək etmək məqsədiylə) gömrük ödənişlərini fərqləndirirlər.

Dərəcəsinə görə gömrük rüsumları sabit və dəyişkən olurlar. Dünya (beynəlxalq) xarici ticarətində sabit rüsumlar daha geniş yayılmışdır.

Hesablama üsuluna görə nominal və səmərəli (effektiv tarif dərəcələrini ayırmaq lazımdır. Nominal tarif dərəcələri rəsmi sənədlərə əsasən müəyyən edilmiş rüsumların məbləğini (səviyyəsini) əks etdirir və səmərəli əmtəələr üçün müəyyən edilmiş və ödəniş dərəcələrinə əsasən hesablanmış real məbləği göstərir.

İdxal və ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcəsi hər bir ölkənin hökumətinin rəsmi qərarı ilə e'lan edilir.

Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatlarının gömrük mexanizmi vasitəsiylə tənzimlənməsinin təkmilləşdirilməsi, ixrac potensialının artırılması və ixracın həvəsləndirilməsi, ölkə istehsalçılarının mənafelərinin qorunması və daxili bazarın ehtiyaclarının ödənilməsini tə'min etmək məqsədiylə Azərbaycan Respublikasının Nazirlər Kabineti xüsusi qərar (16 iyun 1997-ci il tarixli 62 N-li) qəbul etmişdir. Həmin qərarda göstərilir ki, ixrac olunan mallar, onların növlərindən asılı olmayaraq ixrac rüsumuna cəlb olunmur. Azərbaycan Respublikasının iqtisadiyyatının tələblərini ödəmək üçün və onun inkişafını tə'min edə bilən əmtəələrin idxalına da idxal rüsumu qoyulmur. Belə məhsullara kənd təsərrüfatı, bağçılıq, meşəçilik üzrə maşın və mexanizmlər, məhsulun yığılması, döyülməsi və qablaşdırılmasında istifadə edilən maşınlar, süd sağan qurğular, südün istehsalı və e'malında istifadə edilən avadanlıqlar, arıçılıqda, şərabçılıqda və balıqçılıqda istifadə olunan avadanlıqlar, toxum təmizləyən, seçən, presləyən maşınlar, avadanlıqlar, traktorlar və sair aiddir.

Göstərilən qərara əsasən respublikanın kənd təsərrüfatı üçün gətirilən toxum, kübrə, yem, damazlıq heyvanlar, dərman preparatları, baytarlıqda tətbiq edilən dərmanlar və ləvazimat, qablaşdırılmış uşaq yeməkləri, şprislər və əczacılıq məhsulları, Azərbaycan Respublikasında təmsil olunan diplomatik nümayəndəliklərin rəsmi istifadəsi üçün nəzərdə tutulan mallar və əmlak, humanitar təşkilatlar tərəfindən gətirilən humanitar və texniki yardım, əlillərin müalicəsi və profilaktikası üçün istifadə olunan texniki vasitələr, birgə müəssisələr yaratmaq üçün xaricdən gətirilən əmlak, tranzit malları, rüsumsuz ticarət mağazaları üçün gətirilən mallar, xarici investisiya qoyulmuş müəssisələrin əcnəbi işçilərinin öz ehtiyacları üçün gətirilən əmlak, Maliyyə Nazirliyi və Milli Bankın sənədi əsasında tə'diyyə vasitələrindən olan

valyuta, pul və banknotlar, təkrar emal olunmaq üçün Azərbaycana müvəqqəti gətirilən mallar və sair tipli əmtəələr "0" (sıfır) dərəcəli gömrük rüsumuna cəlb edilir.

Nazirlər Kabinetinin yuxarıda göstərilən qərarı Azərbaycana gətirilən əmtəələrin respublikamızda gərəklilik dərəcəsinə görə müxtəlif idxal rüsumuna cəlb edilməsini tələb edir. Məsələn, diri heyvanlar (damazlıqdan başqa), taxıl və dənli bitkilər, filizlər, şlaklar, külçələr, qeyri-üzvü kimya məhsulları, üzvü birləşmələr, partlayıcı maddələr, kibrit və bə'zi alışqan maddələr, oduncaq, ağac mə'mulatı və kömür, kağız, karton, bitki mənşəyli liflər, onlardan hazırlanmış parça və saplar, qara və əlvan metal, onlardan hazırlanmış məmulatlar, elektron maşınları və avadanlıqları, dəmir yolu lokomotivləri, vaqonları və başqa ləvazimatlar, kosmik və başqa uçuş aparatları, gəmi, qayıq və başqa üzən vasitələr, təbabətdə istifadə olunan cihaz və qurğular mənşə ölkəsindən asılı olmayaraq dəyərinin 5% həcmində idxal vergisinə cəlb olunur. Yerdə qalan məhsullar isə dəyərinin 15% həcmində gömrük idxal rüsumuna cəlb edilir.

§ 12.9. İdxal, ixrac və reeksport statistikası

Hər bir ölkənin iqtisadi və sosial inkişafı onun özünün maddi, maliyyə və əmək ehtiyatlarından istifadə edilməsinə əsaslanır. Bununla yanaşı ölkələr beynəlxalq əmək bölgüsündən istifadəyə can ataraq xarici ölkələrlə iqtisadi və elmi-texniki əməkdaşlığa da inkişaf etdirirlər. Hər bir ölkə özünün istehsal etdikləri məhsulları ixrac etməklə yanaşı xarici ölkələrdə istehsal olunmuş sənaye və kənd təsərrüfatı məhsullarını da idxal edirlər. İdxalın əsasında iqtisadi maraq durur.

"İdxal" dedikdə ölkə iqtisadiyyatında istehlak etmək və reeksport üçün kommersiya yolu ilə xaricdə istehsal olunmuş əmtəələrin ölkəyə gətirilməsi, habelə xarici istehsal təşkilatları tərəfindən idxal edən ölkə üçün onun sərhədləri daxilində və ondan kənarda yerinə yetirdikləri maddi xarakterli əməliyyatların dəyəri başa düşülür. Deyilənlərdən əlavə xarici ölkələrdən dəst halda daxil olmuş avadanlıqlar və materialların dəyəri, çay və dəniz limanlarında, aeroportlarda və yanacaq doldurma məntəqələrində xarici gəmilər, təyyarələr və yük maşınları üçün alınmış yanacaq, ərzaq, qida məhsulları və materialların dəyəri, ölkəyə gətirilən kino və tele filmlər, yarmarkalara və sərgilərə gətirilmiş əmtəələrin dəyəri də idxala daxil edilir. İdxalın tarixi əmtəənin sərhədi keçdiyi an hesab edilir.

İdxal statistikası ölkəyə daxil olan xarici əmtəələri mövcud təsnifatlara əsasən müxtəlif qruplar və yarımqruplar üzrə uçota alır. Adətən ölkədə istehsal edilməyən və ya az tapılan (defisit) əmtəələr

idxal edilir.

Elmi-texniki nailiyyətlərin ölkəyə gətirilməsi mütərəqqi amil kimi milli iqtisadiyyatın yüksəldilməsini tə'min edə bilir.

Xaricdə istehsal olunan əmtəələrin idxal edilməsi geniş plan üzrə həyata keçirilir. İdxalat planında ölkəyə idxal edilecək əmtəələrin adı, əlamətləri və miqdarı da müəyyən edilir.

İdxal statistikası ölkəyə gətirilən xaricdə istehsal edilmiş məhsulları həm kəmiyyət və həm də dəyər ifadəsində uçota alır. 1996-cı ildə Azərbaycan Respublikasına idxalın həcmi aşağıdakı kimi olmuşdur.

45-ci cədvəl

1996-cı ildə Azərbaycana idxal edilmiş mühüm məhsul növləri

Əmtəə növləri	Məbləği (min dollarla)	Yekuna görə %-lə
CƏMİ	960636.3	100.00
o cümlədən		
1.Ət və ət məhsulları	44905.8	4.64
2.Süd, yağ və s. heyvan mənşəyli yeyinti məhsulları	57998.9	6.04
3.Çörək	43590.0	4.54
4.Qəhvə, ədviyyat və çay	12850.7	1.34
5.Un üyütmə və yarma sənayesinin məhsulları	64908.8	6.76
6.Şəkər və ondan hazırlanmış qənnadı məhsulları	71833.1	7.48
7.Mineral yanacaq, neft və neft emalı məhsulları	43441.3	4.52
8.Qazanlar, avadanlıqlar, maşınlar və onların hissələri	86084.2	8.96
9.Elektrik maşın və avadanlıqları	94907.7	10.19
10.Qara metal	33491.6	3.49
11.Qara metaldan olan mə'mulatlar	29836.5	3.11

Cədvəldən göründüyü kimi, 1996-cı ildə Azərbaycana gətirilən əmtəələr arasında ən böyük xüsusi çəkiyə malik olan əmtəələr ərzaq məhsulları, maşınqayırma və ağır sənaye məhsullarıdır. Milli iqtisadiyyatımızın böhran keçirdiyi indiki anda respublikamızda həmin məhsullara ehtiyac olduğu üçün onların idxalı beynəlxalq iqtisadi əlaqələrin səmərəli nəticəsi hesab edilməlidir.

"İxracat" (eksport) dedikdə ölkədə istehsal olunmuş məhsulların və reeksport əmtəələrinin kommersiya məqsədi ilə ölkədən çıxarılması, habelə ölkə daxilində və ondan xaricdə ixracatçı ölkə tərəfindən xarici tərəfi-müqabillər üçün yerinə yetirdiyi maddi xarakterli əməliyyatlar

(xidmətlər) başa düşülür. Bundan başqa ixracata xarici ölkəyə dəst halında satılan avadanlıq və materialların dəyəri, xarici gəmilərə, təyyarələrə və yük avtomobillərinə satılan bunker yanacağı, ərzaq və materialların dəyəri, xaricə aparılan kino və telefilmlərin dəyəri, sərgilərdə və yarmarkalarda xaricilərə satılan əmtəələrin dəyəri xaricdəki təşkilatları təchiz etmək üçün satın alınmış əmtəələrin dəyəri və mal mübadiləsi yolu ilə göndərilən əmtəələrin dəyəri də daxil edilir.

İxrac edilən əmtəələrin uçotu hansı ticarət razılaşmalarına əsasən icra edilməsindən asılı olmayaraq baş verdiyi təqvim anında aparılır. Əmtəənin ixracatı tarixi onun sərhəddi keçməsi anı ilə müəyyən edilir. İxrac edilən əmtəələr fob və franko-sərhəd qiymətləri ilə qiymətləndirilir.

46-cı cədvəl

1992-1996-cı illərdə Azərbaycandan ixracın dinamikası

İLLƏR	Milyon dollarla	Artım surəti % -lə	
		1992-ci ilə nisbətən	hər il özündən əvvəlki ilə nisbətən
1992	1484.0	100.0	100.0
1993	724.7	48.8	48.8
1994	652.7	42.0	90.1
1995	637.2	42.9	97.5
1996	631.2	42.5	99.1

Cədvəldən göründüyü kimi, 1992-ci ilə nisbətən respublikamızdan xaricə ixracın həcmi ildən-ilə azalır. Bu azalmanın ən yüksək sür'əti 1993-cü ildə müşahidə olunmuşdur. Sonrakı illərdə ixracın azalma sür'əti zəifləmiş və 1996-cı ildə 1995-ci ilə nisbətən 99,1% təşkil etmişdir. Son dövrlərdə Azərbaycanın ictimai-siyasi həyatında bərpa olunmuş sabitlik və iqtisadiyyatın yeni şəraitə uyğun təşkili xarici ticarətin gələcəkdə daha da genişlənməsinə əlverişli şərait yaradacaqdır.

Xarici ölkədən alınmış (xarici mənşəli) əmtəənin heç bir emala mə'ruz qalmadan başqa ölkəyə satışı reeksport adlanır. Əgər xarici ölkədən alınmış mal satın alan ölkəyə gətirilmədən üçüncü ölkəyə satılırsa (göndərilirsə) bu bir başa reeksport adlanır.

Xarici ölkəyə müvəqqəti aparılmış (sərgiyə, yarmarkaya və s.) əmtəələrin sonradan üçüncü ölkəyə satışı reeksport hesab edilmir. Azərbaycanın ümumi ixracatının tərkibində reeksportun xüsusi çəkisi 1995-ci ildə 2,51%-ə və 1996-cı ildə isə 1,22%-ə bərabər olmuşdur.

47-ci cədvəl

1996-cı ildə Azərbaycan Respublikasında ixracın həcmi və quruluşu

İxrac olunan əsas məhsulların adı	Min dollar	Yekuna görə %-lə
CƏMİ	631245.5	100.0
o cümlədən		
1.Mineral yanacaq, neft və neft e'malı məhsulları	419113.8	66.4
2.Bitki mənşəli toxuculuq məhsulları	58745.4	9.3
3.Plastik kütlələr və ondan hazırlanmış məhsullar	23294.5	3.7
4.Üzvü kimya birləşmələri	11208.7	1.9
5.Alkaqollu və alkaqolsuz içkilər	7365.2	1.2
6.Tütün və tütün məmulatı	7198.9	1.1
7.Gön xammalı (xəzdən başqa)	5541.0	0.9
8.Kauçuk və rezin məmulatı	3362.4	0.5
9.Hazır toxunma mallar	3154.6	0.6
10.Qara metaldan olan məmulatlar	2901.2	0.5

Cədvəldən göründüyü kimi 1996-cı ildə respublikamızın ixracatında xammal yönümlü məhsulların xüsusi çəkisi 75%-dan yüksək olmuşdur. İxracatın tərkibində başqa məhsulların (emaledici sənayenin) azlığı respublikamızın iqtisadiyyatının yüksəldilməsinin zəruriliyini tələb edir.

§12.10. Kontragent ölkələrin uçotu

Xarici ticarət dövriyyəsinə çıxarılan əmtəələr istehsal olunduğu ölkədən istehlak olunduğu ölkəyə çatanadək müxtəlif ölkələrin ərazisindən, gömrük orqanlarının nəzarətindən və ambarlarından keçməklə müxtəlif nəqliyyat vasitələri ilə daşına bilər. İlk baxışda sadə görünən bu məsələ xarici ticarətin statistik uçotu zamanı müəyyən çətinliklər törədir. Bu çətinliklər alqı-satqıya mə'ruz qalan əmtəələrin mənşəyi (hansı ölkədə istehsal olunması) və hansı ölkədə satılmasını əks etdirən statistika uçotunun təşkili zamanı qarşıya çıxır. Bu məsələnin düzgün həlli konkret ölkənin başqa ölkələrlə ticarət əlaqələrinin dəqiq uçota alınmasına imkan yaradır. Bu məsələnin həlli ilk növbədə "statistik ərazi"ni müəyyən etməyi tələb edir. "Statistik ərazi" dedikdə konkret ölkənin xarici ticarət əlaqələrinə dair təqdim edilən statistika hesabatının əhatə etdiyi ərazi başa düşülür. Bə'zi hallarda ölkənin statistik ərazisi həmin dövlətin sərhədlərinə uyğun gəlməyə də bilər. Belə vəziyyət bir neçə ölkənin gömrük xidməti baxımından vahid ərazidə birləşməsi (məsələn, Belçika-Lüksemburq

iqtisadi ittifaqı) və bir dövlətin ərazisinin müxtəlif gömrük zonalarına bölünməsi (məsələn, ABŞ- Alyaska, Azərbaycan-Naxçıvan gömrük bölgələri və s.) nəticəsində baş verir.

Belə vəziyyətdən asılı olaraq xarici ticarətə dair mə'lumatlar yekunlaşdırılarkən müəyyən uyğunsuzluqlar yaranır. Bu fərqlərin yaranması bə'zi hallarda rəsmi sənədlərdə (tə'limatlar, sərəncamlar, qərarlar və s.) olan qeyri-dəqiqliklərlə də əlaqədar olur. Məsələn, Liman-Franko və azad su hövzləri (Havan) gömrük ərazisinə daxil edilmir. Xüsusi şəraitlə əlaqədar olaraq bə'zən (gömrük mühavizəsi əlverişli olmadıqda) gömrük sərhəddi dövlət sərhəddindən içəriyə doğru öz yerini dəyişə bilər. Eksklav (exclaves, Zollansehlusse) adlanan bu sahələr qonşu dövlətin gömrük ərazisinə daxil edilir. Qonşu dövlət üçün isə bu ərazi enklav (enclaves, Zollansehlusse) adlanır. Bə'zən mübahisəli ərazilər (şərikli adalar) gömrük sərhəddindən kənara çıxarılaraq ayrıca uçota alınır. İngiltərənin Folklend və Normandiya adaları buna misal ola bilər. Bu məsələyə dəqiqlik gətirmək üçün Cenevrə Konvesiyasında "statistik ərazi" anlayışını aşağıdakı kimi başa düşmək tövsiyyə olunur: "Statistik ərazi" dedikdə ölkənin bütün gömrük ərazisi, bütün gömrük ambarları həmin ölkəyə mənsub olan bütün liman-franko və azad zonalar başa düşülür".

İki ölkə bir gömrük ərazisində birləşdiyi və xarici ticarət üzrə nəşr olunan statistika mə'lumatları bu ittifaqı əhatə etdiyi halda statistik ərazi bu ittifaqın əhatə etdiyi bütün ərazini özündə birləşdirir.

Əmtəələrin mənşəyi və tə'yinatını müəyyən edərkən iki məsələ həll edilməlidir:

1. Əmtəənin "mənşəyi" və ya "tə'yinatı" ölkələri dedikdə nə başa düşülür?
2. Xarici ticarətə dair lazımi informasiyanı haradan almalı?

Bu məsələlərdə ayrı-ayrı ölkələrin statistika təcrübəsində müəyyən fərqlər mövcuddur.

İdxal edilən hər bir əmtəə onu idxal edən ölkənin daxili bazarına düşənəcən haradasa istehsal edilməli, haradasa alınmalı və haradansa göndərilməlidir. Belə halda göstərilən əməliyyatlar (istehsal, alınma və göndərmə) əmtəəni satan və ya alan ölkənin, habelə bir neçə ölkənin ərazisində baş verə bilər. İxrac edilən əmtəələr isə əvvəlcə bir ölkə üçün nəzərdə tutula bilər, başqasına satıla və alınmadığı halda üçüncü və ya dördüncü ölkədə istehlak oluna bilər. İdxal və ixracın bu anlarının dəqiq uçota alınmasının böyük praktiki əhəmiyyəti vardır. Lakin, hər üç ölkənin idxal (malın göndərdiyi, alındığı və istehsal edildiyi) və ixrac (malın bilavasitə ünvanlandığı, satıldığı və istehsal olunduğu) üzrə dəqiq uçotunda böyük çətinliklər olduğu üçün adətən onlardan birini göstərməklə kifayətlənirlər. Bu məsələdə də müxtəlif

ölkələrin gömrük statistikasında xeyli fərqlər vardır.

Beynəlxalq ticarətin öyrənilməsində bu məsələlərə dair dəqiq informasiyanın olması çox vacibdir. Belə mə'lumatlar beynəlxalq ticarətə mə'ruz qalan əmtəələrin getdikləri yolun istiqaməti, uzunluğu, nəqliyyatın beynəlxalq hərəkəti və sair məsələlərə dair aydın təsəvvür əldə etməyə və düzgün qiymətləndirməyə imkan verir. İdxal və ixrac edilən əmtəələrin alındığı və satıldığı ölkələrin uçota alınması alqı-satqı sövdələşməsinin hansı ölkələr arasında bağlandığını öyrənməyə imkan verir. İdxal edilən əmtəələrin istehsal edildiyi ölkənin (mənşəyi) və ixrac edilən əmtəələrin istehlak edildiyi ölkənin uçotu konkret ölkənin istehsal etdiyi əmtəələrin hansı ölkədə istehlak edildiyini, bu ölkədə hansı ölkənin istehsal etdiyi əmtəələrin istehlak edildiyini öyrənməyə imkan verir.

Beynəlxalq statistika təcrübəsində idxal-ixrac əməliyyatlarını öyrənərkən yuxarıda deyilənlərdən əlavə xüsusi əhəmiyyətə malik olan başqa informasiyadan da geniş istifadə olunur:

1. əmtəənin e'mal olunduğu ölkə;
2. əmtəənin satın alındığı ölkə:
   a)sövdələşmənin bağlandığı ölkə;
   b) satıcı firmanın aid olduğü ölkə;
3. əmtəənin göndərildiyi ölkə ;
4. əmtəənin hərəkəti zamanı keçdiyi yolda dayandığı və nəqliyyat vasitəsinin dəyişdiyi aralıq ölkələri;
5. əmtəənin yola salındığı sonuncu ölkə;
6. əmtənin daxil olduğu həmsərhəd ölkə.

Müxtəlif ölkələrdə ixrac mallarının ünvanlandığı (tə'yinatı) ölkələrə dair aşağıdakı mə'lumatlar toplanır:

1. əmtəənin istehlakı nəzərdə tutulan ölkə;
2. əmtəənin satıldığı ölkə:
   a) sövdələşmə bağlanan ölkə;
   b) alıcı firmanın hüquqi baxımdan mənsub olduğu ölkə;
3. əmtəənin aparıldığı sonuncu ölkə;
4. əmtəənin hərəkəti zamanı yolda dayandığı və nəqliyyat vasitəsinin dəyişdiyi ölkə;
5. əmtəənin ünvanlandığı ilk ölkə;
6. əmtəənin aparıldığı həmsərhəd ölkə.

Yuxarıda deyilənləri aydınlaşdırmaq üçün aşağıdakı misalı nəzərdən keçirək. Tutaq ki, Meksikada istehsal olunmuş məhsul ABŞ-da satılıb. Sonradan bu əmtəə heç bir e'mala mə'ruz qalmadan ABŞ-ın gömrük idarəsi tərəfindən daxili bazara buraxılıb. Amerika firması bu əmtəəni Belçikada bağlanmış sövdələşməyə əsasən Holland firmasının Belçika filialına satıb. Holland firmasının Belçika filialı yenidən Belçikada

bağlanmış yeni sövdələşməyə əsasən həmin əmtəəni İsveçrə firmasına satır. Yalnız bundan sonra əmtəə ABŞ-dan İsveçrəyə göndərilir. Marseldə (Fransa) gəmilərdən boşaldılaraq gömrük ambarında yerləşdirilən həmin əmtəə sonradan dəmir yolu ilə İsveçrəyə göndəriləcək və orada istehlak olunacaqdır. Müxtəlif ölkələrin ərazisindən keçən və müxtəlif ticarət təşkilatlarının sövdələşməsi yolu ilə Meksikadan İsveçrəyə gələn bu əmtəənin uçotu zamanı qarşıya çıxan çətinlik göz qabağındadır. Meksika satılmış bu əmtəənin ABŞ-ya ünvanlandığını (tə'yinat ölkəsi), ABŞ isə onun mənşəyinin Meksika olduğunu göstərəcəkdir. ABŞ bu əmtəənin ünvanlandığı tə'yinat ölkəsi kimi İsveçrəni, Fransanı, Belçikanı və Hollandiyanı göstərəcəkdir.

Fransız statistikası həmin əmtəənin dəyərini ümumi ticarət dövriyyəsinə daxil etməklə malın mənşəyinin ABŞ və tə'yinatının isə İsveçrə olduğunu göstərəcəkdir. İsveçrə satın aldığı məhsulun mənşəyi kimi ABŞ-ı, Meksikanı, Fransanı, Belçikanı və Hollandiyanı göstərə bilər. Bu əmtəənin dəyəri Belçika və Hollandiyanın sərhədlərindən keçmədiyinə görə bu ölkələrin statistikasında öz əksini tapmayacaqdır. Beləliklə, göstərilən məzmunda çətinliklərin mövcudluğu beynəlxalq ticarətə dair mə'lumatların yekunlaşdırılmasını çətinləşdirəcəkdir. Bu çətinlik ABŞ, Fransa və İsveçrə kimi ölkələrin statistik xülasələrində əks etdirilərkən yaranmış fərq həmin ölkələrdə tərəfi-müqabil ölkələrin müəyyən edilməsi qaydalarından asılı olacaqdır. Bu çətinlikləri aradan qaldırmaq üçün əvvəlcə xarici ticarətə dair xülasələrdə əmtəənin ünvanlandığı və göndərdiyi ölkələr, sonradan isə alan və satan ölkələr göstərilməyə başlandı. Son vaxtlarda əmtəənin istehsal olunduğu və istehlak olunduğu ölkələrin (konsiqnasiya ölkələri) göstərilməsinə üstünlük verilir.

Gömrük nəzarəti və əmtəələri müşayət edən sənədlərə əsasən onun mənşəyini müəyyənləşdirmək asan olduğuna görə idxal statistikasının mə'lumatları ixracata nisbətən daha dəqiq hesab edilir.

Beynəlxalq statistika institutunun XV və sonrakı sessiyalarında əmtəənin mənşəyi və ünvanlandığı ölkə (tə'yinat ölkəsi) anlayışları dəfələrlə dəqiqləşdirilmişdir. Bu sessiyaların qəbul etdiyi qətnamələrə əsasən əmtəənin hasil edildiyi, emal edildiyi və yenidən emala mə'ruz qaldığı ölkələr "mənşə ölkəsi" hesab edilir. Əmtəənin növlərə ayrıldığı və yenidən qablaşdıran ölkə "mənşə ölkəsi" hesab edilmir.

İxrac edilən əmtəənin istehlakı ölkənin ünvanına ilk dəfə yola salındığı ölkə (konsiqnasiya ölkə) mal göndərən ölkə hesab olunur. Satıcının öz kommersiya fəaliyyətini həyata keçirdiyi ölkə " mal alan ölkə" adlanır. Əmtənin istehlak və emal olunduğu ölkə "istehlak ölkəsi" adlanır.

§12.11. Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin coğrafiyası

Hər hansı ölkənin başqa dövlətlərlə ticarət əlaqələrini təhlil edərkən nəzərə alınmalı məsələlərdən biri onun coğrafiyasıdır. "Beynəlxalq ticarətin coğrafiyası" dedikdə konkret ölkənin ticarət əlaqələri yaratdığı dövlətlərin sayı, yerləşdiyi ərazi, sərhəddə yaxınlıq dərəcəsi, onların iqtisadiyyatının inkişaf səviyyəsi, beynəlxalq əmək bölgüsündə tutduğu yer və sair başa düşülür.

Azərbaycanın zəngin təbii sərvətləri, münbit torpağı, əlverişli coğrafi mövqeyi çox qədim zamanlardan ölkəmizə uzaq və yaxın dünya ölkələri ilə iqtisadi və mədəni əlaqələr yaratmağı imkan yaratmışdır. Şərqlə qərbi birləşdirən "İpək yolu"nun üzərində yerləşən Azərbaycan tacirləri Qərbi Avropa, Misir, Orta Asiya, Çin, Hindistan və başqa uzaq ölkələrlə ticarət əlaqələri yaratmışdır. Hindistanda, Səmərqənddə, Buxarada, Bağdadda və dünyanın başqa yerlərində tikilmiş bir çox tarixi abidələrin azərbaycanlı me'marlar və sənətkarlar tərəfindən yaranması Azərbaycanın beynəlxalq iqtisadi əlaqələroinin qədim tarixə malik olmasına sübutdur. Rusiyadan, Hindistandan, Çindən, Yunanıstandan, İtaliyadan və dünyanın başqa ölkələrindən gələn tacirlər Azərbaycana xəz, parça, zinət və bəzək əşyaları gətirir, buradan isə neft, ipək, meyvə və başqa məhsullar aparırlarmış.

Ümumdövlət miqyasında deyil, ayrı-ayrı şəxslərin təşəbbüsü ilə aparılan bu iqtisadi əlaqələrin həcmi, istiqamətləri və dinamikası pərakəndə halda tədqiq edilsə də, hələlik ümumiləşdirilərək geniş oxucu kütləsinə tam şəkildə çatdırılmamışdır.

1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması dövlət miqyasında Azərbaycanın dünya ölkələri ilə beynəlxalq münasibətlərinin yarnmasına geniş şərait yaratdı. Dünyanın Bir çox ölkələri Azərbaycanla iqtisadi, mədəni və siyasi əlaqələr yaratmağa can atdılar. 20-dən çox dövlətin tanıdığı gənc Azərbaycan Demokratik Cümhuriyyəti özünün dağılmış iqtisadiyyatını bərpa etməklə yanaşı qonşu dövlətlərlə də iqtisadi münasibətlər yaratmağa can atdı. 1918-ci il noyabrın 28-də Rusiya ilə bağlanmış müqaviləyə əsasən Azərbaycan iki il müddətinə Dağıstana 10 milyon manat faizsiz pul vermişdir. 1919-cu il 20 mart tarixli qərarı ilə Azərbaycan Türküstan Xalq Avtonom Şurasına 2 il müddətinə 500 milyon manat faizsiz borc vermişdir. Çox təəssüflər olsun ki, cəmi 23 ay ömrü olan gənc respublika tezliklə rus bolşevikləri tərəfindən zəbt edildi və bununla da onun sərbəst iqtisadi əlaqələr yaratmaq imkanı sona çatdı. SSRİ-nin tərkibinə qatılan "azad Azərbaycan Sovet Sosialist Respublikası" xarici iqtisadi əlaqələr məsələsində Rusiyanın sənaye-xammal əlavəsinə çevrildi və öz sərvətlərini xaricdə sərbəst satmaq imkanından məhrum

edildi.

Azərbaycan Respublikası beynəlxalq hüququn tam səlahiyyətli obyekti kimi beynəlxalq münasibətlər sisteminə yalnız Sovet imperiyası dağıldıqdan sonra daxil ola bildi. Öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1992-ci ildən sonra sərbəst beynəlxalq iqtisadi münasibətlər sistemi yaratmaq imkanı əldə etdi. Yaranmış şərait milli iqtisadiyyatın inkişafını tələb edirdi. Burada qarşıya bir sıra çətinliklər çıxdı. Belə çətinliklərə ilk növbədə Sovet hakimiyyəti illərində Azərbaycanın yuxarıdan aşağı (şaquli) idarə olunması nəticəsində sərbəst real bazar münasibətləri yarada bilməməsi ilə əlaqədar çətinliklər aiddir. SSRİ adlı mərkəzi dövlətin inhisarında olan Azərbaycanın iqtisadiyyatının üfiqi istiqamətdə inkişafı üçün şərait olmadığına görə o asılı vəziyyətə düşmüş və birtərəfli inkişaf etmişdir.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra yaranmış yeni şərait tə'cili surətdə beynəlxalq iqtisadi münasibətlərin yaranmasını və genişləndirilməsini tələb edirdi. Bu əlaqələr müştərək müəssisələrin yaradılması, istehsalın müxtəlif kooperativ formaları, lizinq-avadanlıqların icarəyə verilməsi, elmi-texniki əməkdaşlıq, lisenziya və texnologiyalarla ticarət, tikinti xidmətləri ilə ticarət, işçi qüvvəsinin beynəlxalq miqrasiyası, sərbəst iqtisadi zonaların yaradılması, xarici ticarət, nəqliyyat xidmətləri ilə ticarət və s. formasında həyata keçirilə bilər.

Lakin respublikanın milli iqtisadiyyatının beynəlxalq əmək bölgüsündə layiqli yer tutması bir sıra problemlərin kompleks həllini tələb edir. Burada ilk növbədə respublikanın xarici intisadi strategiyasının optimal seçilməsinə və onun sosial, siyasi və milli inkişafın aspektləri ilə determinoloji bağlılığının tə'minatına diqqət yetirilməlidir.

Bu problemi gərginləşdirən cəhətlərdən biri Azərbaycan Respublikası dövlətçiliyinin inkişaf mərhələsində olmasıdır. Tarixdən mə'lumdur ki, Şah İsmayıl Xətaidən sonra Azərbaycan xırda xanlıqlarla, XIX əsrin əvvəllərində isə Rus və İran dövlətləri arasında bölünərək idarə olunmuşdur. 1918-ci ilin 28 mayında yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti isə cəmi 23 aydan sonra - 1920-ci il aprelin 28-də ruslar tərəfindən zəbt edildi.

1992-ci ildə öz müstəqilliyini bərpa edərkən Azərbaycan Respublikasının dövlətçilik təcrübəsi yox dərəcəsində idi. Ermənilərin torpaqlarımıza təcavüzü vəziyyəti daha da çətinləşdirirdi. Torpaqlarımızın 20%-i ermənilər tərəfindən tutulmuş, bə'zi qonşu dövlətlərin köməkliyi ilə ölkə vətəndaş qarşıdurması halına çatdırılmışdı. Böyük təbii ehtiyatlara malik respublika məhv olmaq təhlükəsindən qurtarmaq üçün ilk növbədə sülhü bərpa etmək və özünün ərazi bütövlüyünü tə'min etmək qayğısına qaldı. Bu yolda müxtəlif istiqamətlərdən təzyiqlərə mə'ruz qalan Azərbaycan özünün xarici siyasətini xarici güclərin mə-

nafe tarazlığına əsaslanmaqla formalaşdırmaq məcburiyyətində qaldı.

Azərbaycanın xarici iqtisadi siyasəti və beynəlxalq əlaqələri də bu amillərin tə'siri nəticəsində formalaşmağa başladı. Lakin burada da qarşıya bir çox obyektiv və subyektiv səbəblər çıxdı. Həmin dövrdə dövriyyədə olan rublun və artıq tətbiq edilən manatın məzənnəsinin sün'i surətdə aşağı salınması ixracatın ucuzlaşdırılmasına və idxalın bahalaşmasına gətirib çıxardı. Dövlət orqanları qiymətlərin paritetinə nail olmağı nəzərdə tutaraq əsas xammal resurslarının ixracatından alınan vəsaiti ərzaq mallarının xaricdən satın alınmasına sərf edirdi. Belə siyasətin həyata keçirilməsində əsas məqsəd daxili istehsalçıları kəskin qiymət dəyişikliklərindən qorumaq və istehlakçıların sosial müdafiəsinə nail olmaq idi. Lakin problemin göstərilən şərtlərlə qoyuluşu qiymətlərin liberallaşdırılmasına mənfi tə'sir göstərməklə əks effekt verirdi.

1995-ci ilədək Azərbaycanda Vahid Valyuta Fondu mövcud idi. Müəssisələr xarici iqtisadi fəaliyyətdən əldə etdikləri valyuta gəlirlərini aşağı məzənnə ilə həmin fonda təhvil verirdilər. Həmin vəsait dövlət tərəfindən zəruri hesab edilən məhsulların alınmasına yönəldilirdi. İdxala nəzarətin həyata keçirilməsinə baxmayaraq manatın devalvasiyası milli sənayeni xarici rəqabətdən mühafizə edirdi. Həmin dövrdə iqtisadi konyunkturanın pisləşməsi xaricə "kapital axınına" səbəb olurdu. Xarici ticarət isə kapitalın Azərbaycandan xarici ölkələrə köçürülməsində vasitə kimi çıxış edirdi. Manatın dönərli olmaması və effektli hesablamalar sisteminin olmaması isə barterin xüsusi çəkisinin yüksəlməsinə səbəb olmuşdu. Bütün bu prinsiplərin birgə tə'siri nəticəsində xarici ticarətin aktiv saldosu müsbət 508 milyon dollardan, 1996-cı ildə mənfi 329 milyon dollara enmişdi.

Yuxarıda deyilənləri nəzərə alaraq respublikamızda bir sıra iqtisadi qanunlar qəbul edilmişdir. Buraya "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında", "Azərbaycan Respublikasında xarici investisiyaların qorunması haqqında", "Azad dəyişdirilə bilən valyutanın respublikadan çıxarılması və respublikaya gətirilməsi üzərindən məhdudiyyətin götürülməsi haqqında", "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının liberallaşdırılması haqqında", "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında", "Sərbəst iqtisadi zonalar haqqında", "Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi haqqında", "Azərbaycanda ixrac imtiyazlarından istifadə edilməsi haqqında" və başqa qanunlar aiddir.

Görülən tədbirlər nəticəsində Azərbaycanın beynəlxalq ticarətinin coğrafiyasında əhəmiyyətli dəyişikliklər baş vermişdir.

Konkret ölkənin ticarət əlaqəsində olduğu xarici ölkələrin sayının çoxluğu əmtəə dövriyyəsinin həcmini və tərkibini genişləndirməyə,

iqtisadi cəhətdən daha səmərəli tərəfi-müqabilin seçilməsi və beynəlxalq ticarətin səmərəliliyini yüksəltməyə imkan yaradır.

1996-cı ildə Azərbaycan 100-dək ölkə ilə ticarət əlaqəsində olmuşdur. Onlardan ən əsasları (1 milyon dollardan çox ticarət dövriyyəsi olanlar) aşağıdakılardır:

48-ci cədvəl

1996-cı ildə Azərbaycanın xarici ölkələrlə ticarət əlaqəsi

Dövlətin adı	Milyon dollarla			1996-cı il 1995-ci ilə nisbətən %-lə	
	İdxal	İxrac	Saldo	İdxal	İxrac
CƏMİ	960.6	631.2	-329.4	143.9	99.1
o cümlədən reeksport	-	7.7	7.7	-	48.3
Cəmi uzaq xarici dövlətlər üzrə	620.8	341.1	-279.7	141.3	96.8
Litva	2.2	3.2	-1.0	48.6	50.3
Avstraliya	4.2	0.2	-4.0	0	27.6
Avstriya	2.7	3.9	1.2	74.1	111.5
Estoniya	2.0	0.1	-1.9	52.9	41.2
Belçika	8.3	0.4	-7.9	94.1	56.7
Bolqarıstan	3.4	0.5	-2.9	48.9	-
Çin	2.8	0.5	-2.3	43.2	-
Kipr	2.1	-	-2.1	3.2dəfə	-
Çexiya	2.6	-	-2.6	80.1	-
Danimarka	2.3	-	-2.3	60.3	-
Finlandiya	2.9	-	-2.9	191.3	-
Fransa	12.3	0.4	-11.9	2.2dəfə	3.5 dəfə
Almaniya	77.8	3.1	-74.2	176.3	78.2
Yunanıstan	1.4	9.8	8.4	194.2	97.8
Yeni Zelandiya	7.5	-	-7.5	-	-
Honkonq	1.7	-	-1.7	6.7dəfə	-
Meksika	7.5	-	-7.5	-	-
Macarıstan	2.0	0.1	-1.9	123.2	18.9
Hindistan	2.2	-	-2.2	4.4dəfə	-
İran	66.0	226.1	160.0	82.1	1215
İrlandiya	2.2	0	-2.2	6.8dəfə	-
İsrail	5.7	0	-5.7	2.1dəfə	4.5dəfə
İtaliya	2.6	10.1	7.5	105.2	38.0
İsveçrə	15.2	1.9	-13.3	4.6dəfə	6.8
Yaponiya	2.6	-	-2.6	194.6	-
Cənubi Koreya	5.5	0	-5.5	2.3dəfə	-
Hollandiya	7.9	1.6	-7.9	2.5dəfə	2.7dəfə
Polşa	1.3	1.6	0.3	16.0	4.6dəfə

48-ci cədvəlin davamı

Birləşmiş Ərəb əmirlikləri	108.6	3.1	-105.5	-	193.8
Türkiyə	216.3	39.0	-177.3	153.9	147.7
Böyük Britaniya	14.9	13.0	-1.9	160.6	26.8
Cəmi MDB dövlətləri üzrə	339.8	290.1	49.7	148.8	101.9
o cümlədən reeksport	-	2.9	2.9	-	60.5
Rusiya	158.4	111.4	-47.0	179.3	111.2
Ukrayna	94.4	91.9	-72.5	2.8 dəfə	65.0
Belarus	5.0	3.3	-1.7	106.0	121.0
Qazağıstan	19.3	15.4	-3.9	109.7	75.1
Özbəkistan	7.2	5.6	-1.6	93.7	142.2
Moldaviya	8.6	3.8	-4.8	196.8	101.3
Türkmənistan	14.7	34.3	19.6	28.6	48.6
Gürcüstan	28.3	91.6	63.3	150.0	2.0 dəfə
Qırğızstan	3.5	1.1	-2.4	198	147.1

47-ci cədvəldən göründüyü kimi, 1996-cı ildə Azərbaycan Respublikası dünyanın bütün qitələri ilə ticarət əlaqələri aparmışdır. Ticarət balansının fərqi respublika üzrə bütövlükdə passiv olsa da İran, Türkiyə, İtaliya, Gürcüstan, Türkmənistan, Yunanıstan və bir sıra başqa ölkələrlə müsbət saldoya malik olmuşdur. Respublikamıza ən çox mal göndərən ölkə Türkiyə, İran, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Ukraynadır.

49-cu cədvəl

1992-1996-cı illərdə Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin dinamikası[1]

İllər	Cəmi (milyon ABŞ dolları ilə)			o cümlədən						Hər il 1992-ci ilə nisbətən % ilə	
				uzaq xarici dövlətlər			MDB ölkələri				
	ixrac	idxal	fərq	ixrac	idxal	fərq	ixrac	idxal	fərq	ixrac	idxal
1992	1484.0	939.9	544.1	754.1	332.5	421.6	729.8	607.4	122.4	100	100
1993	724.7	628.8	95.9	350.9	241.0	109.9	373.7	387.8	-14.1	48.8	66.9
1994	652.7	777.9	-174.8	377.9	292.1	85.8	274.8	485.8	-201.1	90.1	50.8
1995	637.2	667.7	-30.5	352.5	439.3	-86.8	284.7	238.4	46.3	97.5	71.0
1996	631.2	960.6	-329.4	341.1	620.8	-279.7	290.1	339.8	-49.7	99.1	102.2

Cədvəldən göründüyü kimi, respublikamız öz müstəqilliliyini bərpa etdiyi ilk ildə (1992-ci il) xarici ölkələrlə geniş və əlverişli ticarət

[1] *Cədvəl "Azərbaycanın xarici ticarəti" adlı statistika kolleksiyasına (Bakı, 1997) əsasən müəllif tərəfindən tərtib edilmişdir*

əlaqələrini yaratdı. Həmin ildə xarici ticarət dövriyyəsinin ümumi həcmi 2,4 mlrd. ABŞ dollarına bərabər olmuşdur. İxracın idxal arasındakı fərq +541,1 mln.dollara bərabər olmuşdur ki, bu da gənc respublikamızın beynəlxalq ticarət sahəsindəki fəaliyyətinin uğurla başlandığını sübut edirdi. Lakin, sonrakı illərdə vətənimizin erməni qəsbkarları tərəfindən müharibəyə cəlb edilməsi, torpaqlarımızın 20%-nin zəbt edilməsi və ölkədə yaranmış qeyri sabitlik xarici iqtisadi əlaqələrin həcmi, coğrafiyası və nisbətində ciddi dəyişikliyə səbəb oldu, ixracın həcmi idxala nisbətən ildən ilə daha sür'ətlə azaldığından 1994-cu ildən sonra xarici ticarət balansı mənfi saldo ilə formalaşdı.

1992-1996-cı illərdə respublikamızın xarici ticarət əlaqələrinə girdiyi ölkələrin coğrafiyası genişlənməkdədir. Xarici ticarət dövriyyəsinin ixracat üzrə 50-51%-i və idxalat üzrə 53-66%-i uzaq xarici dövlətlərin, qalan hissəsi isə MDB ölkələrinin payına düşür.

Nəzarət üçün suallar

1. *Beynəlxalq iqtisadi əlaqələr dedikdə nə başa düşülür?*
2. *Beynəlxalq iqtisadi əlaqələrin hansı formaları vardır?*
3. *Xarici ticarət balansı nədir?*
4. *Xarici ticarətdə idxal və ixracatın həcmi necə hesablanır?*
5. *Xarici ticarət dövriyyəsi necə hesablanır?*
6. *"Fəal" və "qeyri fəal" balans nə deməkdir?*
7. *Beynəlxalq ticarətdə əmtəələr necə təsnifatlandırılır?*
8. *Gömrük xidmətinin vəzifəsi nədən ibarətdir?*
9. *Gömrük rüsumları necə hesablanır?*
10. *Xarici ticarətdə orta qiymət, fiziki həcm və "xarici ticarət şəraiti" indeksləri necə hesablanır?*
11. *Azərbaycan Respublikası hansı xarici dövlətlərlə ticarət əlaqəsinə malikdir?*

XIII FƏSİL
STATİSTİKA GÖSTƏRİCİLƏRİNİN BEYNƏLXALQ MÜQAYİSƏSİ

§13.1. Statistika göstəricilərinin beynəlxalq müqayisəsi haqqında anlayış

Statistika göstəricilərinin beynəlxalq müqayisəsi dedikdə müxtəlif ölkələrin və ya ölkələr qrupunun sosial-iqtisadi inkişafı göstəricilərinin müqayisəliliyi başa düşülür. Mə"lum olduğu kimi, ayrı-ayrı ölkələr üzrə dərc edilmiş statistika mə"lumatlarının toplanılma, işlənmə və qurulması prinsipləri və metodları bir-birindən fərqlənirlər. Ən böyük fərq kapitalist və keçmiş sosialist ölkələrinin iqtisadi və sosial inkişafını əks etdirən göstəricilərin müqayisəsi zamanı qarşıya çıxır. Belə çətinliklər, ilk növbədə həmin göstəricilərin hesablanması zamanı əsas götürülmüş nəzəri və metodoloji prinsiplərin müxtəlifliyi ilə əlaqədardır. Dəyər göstəricilərinin beynəlxalq müqayisəsi müqayisə edilən iqtisadi göstəricilərin hesablaşması qaydalarının və iqtisadi məzmununun vahid şəklə salınması (unifikasiyası) və onların milli valyutadan müqayisəli (eyni bir) valyutaya çevrilməsi yolu ilə həyata keçrilir. Müxtəlif ölkələrin xalq təsərrüfatının inkişafının mühüm dəyər göstəricilərini (milli gəlir, kapital qoyuluşları, sənaye və kənd təsərrüfatı məhsulları və s.) müqayisə etmək üçün ndeks üsulundan istifadə edilir.

§13.2. XVII-XVIII əsrlərdə statistika göstəricilərinin beynəlxalq müqayisəsi

Ən qədim dövrlərdə statistika mə"lumatlarının beynəlxalq müqayisəsinə dair mə"lumatlar yoxdur. Qədim dövrlərdə və orta əsrlərdə ayrı-ayrı ölkələrin iqtisadiyyatına dair mə"lumatlar pərakəndə şəkildə nəşr olunmuş statistika cədvəlləri və külliyyatları şəklində tərtib edilirdi. Statistikanın inkişafında belə mə"lumatların böyük rolu e"tiraf edilsə də onlar müqayisəli deyildirlər.

İlk statistika mə"lumatları külliyyatı və mə"lumatlarının müqayisəliliyini əks etdirən nəşrlər XVII əsrin ikinci yarısında meydana gəlmişdir.

Rusiyada beynəlxalq statistikaya dair ilk soraq kitabı 1880-ci ildə M. Melxoll tərəfindən ("Maəvjojd yjmgvgz Çigkgyjij") nəşr edilmişdir. Sonralar bu kitab Melxol-lun statistikaya dair nəşr etdirdiyi başqa soraq kitabları üçün əsas oldu.

Statistika mə"lumatlarının ilk beynəlxalq müqayisəsini təsviri statistika və dövlətşünaslıq məktəbinin adı ilə bağlayırlar. Təsviri statistika məktəbi alman alimlərinin sonrakı tədqiqatları üçün əlverişli

şərait yaratdı. Alman təsviri məktəbinin banisi Qerman Konriq (1606-1691), bu məktəbin ən tanınmış nümayəndələri isə Martin Şmeytsel (1679-1742), Qotfrid Axenval (1719-1772), Avqust Niman (1761-1832), D.Axersan (1700-1809) və başqaları hesab edilir.

Yuxarıda adları çəkilən müəlliflərin əsərləri əsasən bir məsələdə-materialın şərhi metodologiyasında uyğun gəlirdi. Bu təsviri metod idi. Statistikada məşhur olan bu məktəbin adı da elə bu metoddan əmələ gəlmişdir. Belə əsərlərin yaranması iqtisadi statistikanın yaranmasının ilk mərhələlərinə (XVII əsrin əvvələrinə) təsadüf edir. Həm də bu dövr ilkin statistika mə"lumatlarının toplan-ması mərhələsi hesab edilir. Məhz belə mə"lumatların olmaması İngiltərədə siyasi hesab məktəbinin (Arifimetiklərin) ləng inkişaf etməsinə səbəb olmuşdur. Təsviri statistika məktəbinin yayılması statistikada yeni istiqamət hesab edilən arifmetiklər məktəbinin tədricən inkişafına təkan verdi. Əvvəllər bu məktəblərin hər ikisi paralel inkişaf edirdilər. Özünün tam inkişafını tə"min etmək çün təsviri məktəbin metodologiyası və nəzəriyyəsi, siyasi arifmetiklərin özlərinin isə emprik statistika mə"lumatları çatışmırdı. Bu məhdudiyyətlər hər iki məktəbin bir-birinə yaxınlaşması nəticəsində sonradan aradan qaldırıldı.

İlk beynəlxalq müqayisələrin müəllifləri təsviri statistika məktəblərinin nümayəndələridir. Doğrudur, bu prinsiplər çox sadə, primitiv və məhdud idi. Göstəricilərin hesablanması metodu və müqayisəliliyi demək olar ki, nəzərə alınmırdı. M.V.Ptuxanın fikrincə bu birincilik Vilyam Pettiyə, A.L. Vaynşteynin fikrincə isə Q.Kinqə verilməlidir.

§13.3. XIX əsrdə statistika mə"lumatlarının beynəlxalq müqayisəsi

XIX əsrdə statistika sərbəst elm kimi tanındı. Onun öyrəndiyi hadisələrin və nəşr etdirdiyi mə"lumat ların sayı genişləndi. İlk dövlət statistika orqanları və mərkəzlərinin yaranması da XIX əsrə təsadüf edir. İlk beynəlxalq nəşrlər və müqayisələr meydana gəldi. Bu məsələ ilə əvvəlcə ayrı-ayrı tədqiqatçılar və milli statistika orqanları, sonradan isə Beynəlxalq statistika orqanları (Beynəlxalq statistika konqrensi və Beynəlxalq statistika institutu) məşğul olmağa başladılar. Maraqlıdır ki, bu dövr ərzində beynəlxalq müqayisələr sahəsində ayrı-ayrı tədqiqatçılar beynəlxalq statistika orqanlarından daha çox iş görmüşdür.

Beynəlxalq statistikanın inkişafı Beynəlxalq statistika konqrensinin gördüyü işlərlə başlandı. Konqrens statistikanın inkişafında böyük rolu olan məhşur Belçika statistiki Adolf Ketlenin təşəbbüsü ilə 1853-cü ildə Bryüseldə çağrıldı. 1879-cu ilədək konqrensin 9 toplantısı keçrildi. Konqrensin gigiyena və demoqrafiya seksiyası isə birinci dünya

müharibəsinin başlanmasınadək fəaliyyət göstərdi. Konqresin toplantılarında nəzəri və praktiki statistikanın inkişafına dair müxtəlif məsələlər müzakirə edilirldi. Bu müşavirələrdə milli statistikanın inkişafı, qabaqcıl ölkələrdə statistika sahəsində əldə edilən nailiyyətlərin yayılması, qabaqcıl təcrübənin mübadiləsi və s. məsələlərə xüsusi diqqət yetirilirdi.

Beynəlxalq Statistika Konqresinin (BSK) fəaliyyətlərində tövsiyyələr üstünlük təşkil edirdi. İndi başa düşülən mə"nada beynəlxalq müqayisə isə demək olar ki, aparılmırdı. BSK beynəlxalq miqyasda heç bir rəqəm göstəricisi hesablanmır və nəşr etdirilmirdi. Ən çox nəşrlər əhali, əmək ehtiyatları və cinsi ifadədə məhsul istehsalına aid idi.

1885-ci ildə Londonda işə başlayan Beynəlxalq statistika İnstitutu (BSİ) müxtəlif ölkələrdən müqayisəli mə"lumatlar əldə etməyi öz qarşısına əsas vəzifələrdən biri kimi qoydu. BSİ-nun ilk sessiyası 1887-ci ildə Romada çağırıldı. Bu institut öz fəaliyyətini bu günədək davam etdirir və beynəlxalq statistika üzrə baş idarə hesab edilir. BSİ beynəlxalq müqayisəlilik üzrə bir çox metodoloji məsələlərin və tövsiyyələrin hazırlanmasına xüsusi diqqət yetirir. İstehsal və peşələrin beynəlxalq təsnifatı, milli hesablar sisteminin tətbiqi və s. BSİ-nun son illərdə əsas işlərindən hesab edilir. BSİ hər il statistika bülleteni nəşr etdirir. Beynəlxalq statistikanın bir sıra nəzəri və praktiki məsələləri, sənaye istehsalının indeksləri, insan həyatının dəyəri indeksi, əhali, kənd təsərrüfatı və əmək statistikasının bir sıra problemləri və s. BSİ-nun yarandığı gündən indiyədək müntəzəm olaraq müzakirə edilməkdədir.

M.Melxolun "Dünya iqtisadiyyatının inkişafı", "Qiymətlərin tarixi", "Dünya təsərrüfatı balansı", Vebbinin "Statistika üzrə yeni soraq kitabı" və s. XIX əsrdə beynəlxalq statistikaya dair çap olunmuş ən məşhur kitablar sırasına daxildir. Bu kitablarda ümumi və xalis məhsula, Mili gəlirə, kapitala aid xeyli material verilsə də onların hesablanmasına dair metodik izahat verilmirdi.

§13.4. XX əsrdə beynəlxalq hesablamalar və nəşrlər

1919-cu ildə Millətlər Cəmiyyətinin yaranması ilə əlaqədar olaraq Beynəlxalq statistikanın inkişafında yeni mərhələ başlandı. Yuxarıda deyildiyi kimi, BSK və BSİ statistika mə"lumatlarının beynəlxalq müqayisəsi ilə məşğul olmurdu. Millətlər Cəmiyyəti belə müqayisələri əməli olaraq yerinə yetirməyə başladı. Beynəlxalq miqyasda sənaye istehsalının həcmi indeksi 1929-cu ildən, milli gəlirə dair mə"lumatlar 1939-cu ildən nəşr edilməyə başlandı.

Millətlər Cəmiyyətinin 1919-cu ildən nəşr etdirdiyi aylıq statistika

jurnalında beynəlxalq statistikanın nəzəri və praktiki problemlərinə dair yazılar çap etdirilirdi. Millətlər Cəmiyyəti hər ilə dünyanın iqtisadiyyatına dair xülasələr, Beynəlxalq əmək təşkilatı, əmək statistikasına dair, Beynəlxalq Aqrar institutu kənd təsərrüfatı satatistikasına dair mə"lumatlar çap etdirirdi. Lakin bu nəşrlərdə əsasən müxtəlif ölkələrin iqtisadiyyatına dair statistika mə"lumatları yekunlaşdırılır və onların müqayisəliliyinə az diqqət yetirilirdi.

Əvvəlki nəşrlərdən fərqli olaraq Millətlər cəmiyyətinin nəşr etdirdiyi statistika külliyyatlarında mə"lumatlar problemlər üzrə, hər bölmə daxilində isə ayrı-ayrı dövlətlər üzrə verilirdi.

Əhatə olunan göstəricilərin sayı Millətlər Cəmiyyətinin ilk statistik nəşrlərindən az olsa da sonrakı illərdə onların sayı və məzmunu xeyli genişləndi. Bu dəyişikliklər öz əksini hər bir nəşrə daxil edilmiş cədvəllərin sayında və məzmununda tapırdı. Statistika bülletenləri və külliyyatlarında əhatə edilən ölkələrin sayı artır, natural ifadədə məhsul göstəriciləri ilə yanaşı, beynəlxalq miqyasda dəyər göstəricilərinin (hər nəfərə düşən Milli gəlir, sənaye istehsalının həcmi indeksi, valyutaların alıcılıq qabiliyyəti və s) hesablanması və nəşri sahəsində də ciddi addımlar atılır. Bu hesablamaların metodologiyası və nəticələri praktiki cəhətdən də maraqlıdır.

Yuxarıda deyildiyi kimi, Millətlər Cəmiyyəti müxtəlif ölkələr üzrə sənaye istehsalı indekslərinin nəşrinə 1929-cu ildən başladı. Bu göstəricilərin əhatə dairəsi müxtəlif ölkələr üzrə eyni deyildir. Məsələn, bu göstərici hesablanarkən ABŞ-da hasiledici, e"maledici sənaye ilə meşə təsərrüfatı, Kanadada isə tikinti, hasiledici və e"maledici sənaye sahələrini əhatə edilirdi. Nəşr edilən ümumi və fərdi indekslər ayrı-ayrı sahə və məhsulları əhatə edirdi. İndekslər qurularkən ayrı-ayrı ölkələrdə müqayisə üçün baza da müxtəlif idi. Vahid müqayisə bazasının seçilməsi və hesablanması təcrübədən keçrilmirdi.

Millətlər cəmiyyətinin 1929-cu ildə nəşr etdirdiyi "İllik" statistika külliyyatına sənaye məhsulu indeksləri Kanada, ABŞ, Almaniya, Fransa, İngiltərə, İsveç və s. üzrə verilmişdir. 1931-32-ci illərin statistika külliyyatında yuxarıdakılardan əlavə Çili, Yaponiya, Belçika, Norveç, Çexoslovakiya, Daniya və Macarıstana dair indekslər də nəşr edilmişdir.

1935-36-cı ildə buraxılan "İllik"də indekslər vahid bazaya (1929=100%) əsasən hesablanmağa başlandı. Bu indekslərlə yanaşı milli statistika orqanlarının hesabladığı indekslərin nəşri də Millətlər Cəmiyyətinin "İllik" statistika külliyyatında saxlanılırdı. 1940-cı ildə sonra maşınqayırma, avtomabil istehsalı və investisiya məhsulları üzrə də vahid bazaya (1929-cu ilə görə) əsaslanan indekslər hesablanmağa

başlandı. Sənaye məhsulları istehsalının beynəlxalq indekslərinin hesablanmasına 1936-cı ildən başlandı. 12-18 ölkəni əhatə edən belə indekslər 1932-ci ildən hesablanırdı.

19321/32-ci illərdən başlayaraq müntəzəm olaraq xammal və material istehsalının beynəlxalq indeksləri hesablandı və illik statistika külliyyatlarında nəşr edildi. İstehsalın fiziki həcminin aqreqat indeksinin hesablanmasına başlandı. Bu indekslər hesablanarkən seçilmiş (80-100 adda) məhsulların cinsi ifadədə həcmi əsas dövrdəki (1930-cu il) həmin məhsulun orta qiymətinə vurulurdu. Bu yolla qrup indeksləri hesablanırdı. Bu indeksləri hesablayarkən çəki kimi ümumi istehsalda müxtəlif mhsulların xüsusi çəkisi, norma üçün baza kimi isə 1925/26-cı ilin istehsalı götürülürdü. Hesablamalar ərzaq xammalı və s. xammal növləri üzrə ayrıca aparılırdı. Bütün hesablamalar Beynəlxalq (ümumi dünya) və dünyanın ayrı-ayrı rayonları üzrə (Afrika, Şimali Amerika, Cənubi Amerika, Asiya, Avropa Okeaniya, Karib Hövzəsi və s.) aparılırdı.

Millətlər Cəmiyyətinin hesabladığı beynəlxalq indekslər metoloji baxımdan da böyük maraq doğurur. Sonrakı hesablamalardan fərqli olaraq ilk indekslər şərti çəkilərə əsasən qurulurdu. Bu şərti çəkilər məşğuliyyəti olan əhalinin və enerji resurslarının ümumi gücündə ayrı-ayrı ölkələrin xüsusi çəkilərindən hesablanmış orta kəmiyyət kimi müəyyən edilirdi.

Milli gəlirə dair mə"lumatlar 1942/44-cü il üçün Millətlər Cəmiyyətinin illik statistika külliyyatında nəşr edildi. Buraya ABŞ, Cənubi Amerika İttifaqı, Argentina, Kanada, İngiltərə, Fələstin, Avstraliya və Yeni Zellandiyaya dair mə"lumatlar daxil edilmişdir. ABŞ və İngiltərəyə dair mə"lumatlar daha geniş şəkildə (sahələr üzrə həcmi, bölüşdürülməsi, istifadəsi, dinamikası və s.) nəşr edilmişdi. Bu mə"lumatların nəşri iqtisadi statistikanın yeni sahəsi-Milli hesabdarlığın əsasını qoydu.

XX əsrin birinci yarısında bir sıra başqa beynəlxalq müqayisələr də aparılmışdır. Milli gəlirə dair, 1915-i ildə birinci dünya müharibəsində iştirak edən ölkələr üzrə 1919-cu ildə ABŞ, İngiltərə, Almaniya, Fransa, İtaliya, Avstriya, Macarıstan, İspaniya, Avstraliya, Kanada və Yaponiya üzrə, habelə R. Stemba tərəfindən 1922-ci və 1925-ci ildə K. Cinni tərəfindən və 1925-ci ildə Q.Fisk tərəfindən müqayisəli mə"lumatlar dərc edilmişdi.

Həmin illərdə Alb-L-Vaynşteyn tərəfindən real əmək haqqının beynəlxalq müqayisəsinə dair nəşr etdirilən mə"lumatlar da bu baxımdan maraqlıdır. Bu illərdə BƏT, BSİ, Beynəlxalq Aqrar İnstitutu (əsası 1903-cü ildə qoyulub), Ekonometriya İnstitutu (əsası 1930-cu ildə qoyulub) və başqa təşkilatlar da öz nəşrlərində beynəlxalq

müqayisələrə xüsusi diqqət yetirirdilər.

İkinci dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq əlaqələrin genişləndirilməsi müqayisəli beynəlxalq göstəricilərin hesablanması və nəşrinə marağı xeyli artırdı. Bu da öz növbəsində Beynəlxalq Statistikanın sür'ətli inkişafına səbəb oldu və onun tətbiq dairəsi genişlənərək sosial-iqtisadi təhlilin daha çox sahələrinin əhatə edilməsinə gətirib çıxartdı. Bütün bunların nəticəsi kimi milli statistikaların Beynəlxalq orqanlarla əlaqəsi möhkəmləndi. BMT-nin yaranması (24 oktyabr 1945-ci il) bu prosesə güclü təkan verdi. BMT-nin tərkibində statistika, demoqrafiya və başqa sosial-iqtisadi orqanların yaradılması da bu prosesi gücləndirdi. BMT-nin tərkibində Beynəlxalq əmək təşkilatı (BƏT), kənd təsərrüfatı üzrə beynalxalq təşkilat, Beynəlxalq Valyuta fondu, Beynəlxalq Yenidənqurma və Bərpa Bankı (BYBB), Ümumdünya Səhiyyə təşkilatı (ÜST), BMT-nin Maarif, Elm və mədəniyyət məsələləri üzrə xüsusi komissiyası (YUNESKO) və başqa ixtisaslaşmış təşkilatların nəzdində statistika xidmətinin genişləndirilməsi beynəlxalq ümumiləşdirilmiş göstəricilərin hesablanmasına və müqayisələrin aparılmasına ehtiyac yaratdı. Sosialist ölkələrinin QİYŞ-nin beynəlxalq statistika orqanının fəaliyyəti dünya ölkələri tərəfindən tanınır. Bir sıra yeni dövlətlərarası və məhəlli Ümumi iqtisadi statistika orqanları və mərkəzləri (İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı, Avropa İqtisadi birliyi, Avropa Azad Ticarət Assosiasiyası, Amerika dövlətlərinin təşkilatı, və s.) yaradıldı. BSİ, Ekonometriya Cəmiyyəti, Amerika Dövlətlərarası Statistika institutu öz fəaliyyətini davam etdirir. Bu statistika orqanları əvvəlki illərin təcrübəsinə əsaslanaraq böyük nailiyyətlər əldə etdilər. Beynəlxalq statistikanın o cümlədən statistika mə"lumatlarının beynəlxalq müqayisəsi sahəsində əldə edilmiş nailiyyətləri qiymətləndirmək üçün BMT-nin Statistika Komissiyası və Statistika şö"bəsinin hər il nəşr etdirdikləri statistika külliyyatlarına nəzər salmaq kifayətdir. Hər il buraxılan belə külliyyatlarda müasir beynəlxalq statistikanın bütün bölmələri yığcım formada şərh edilir. Həmin külliyyatlara daxil edilən ölkələrin və göstəricilərin sayı ildən-ilə genişlənir, göstəricilərin hesablanma metodikası təkmilləşir, müqayisəlilik dərəcəsi yaxşılaşır və ən başlıcası isə göstəricilərin hesablanma metodikasına dair şərhlər verilir. Statistika mə"lumatlarının Beynəlxalq müqayisəsi sahəsində ən böyük nailiyyət sənaye, kənd təsərrüfatı, milli gəlir və son məhsul üzrə yekun (birikdirilmiş) göstəricilərinin hesablanmasında əldə edilmişdir.

Yuxarıda deyildiyi kimi, sənaye istehsalının beynəlxalq indeksi illik statistika külliyyatlarının ilk nömrələrindən azsaylı (32) ölkələr üzrə nəşr etdirilirdi. İndekslər yalnız hasiledici və e'maledici sənaye sahələrini əhatə edirdi və onların çəkiləri mövsumi və başqa amillərin

tə"sirini nəzərə alınmadan müəyyən edilirdi. 1954-cü ildən başlayaraq bu məsələlərin metodoloji həllinə daha çox diqqət yetirilməyə başladı. Hesablamalar kapitalist ölkələri, inkişaf etməkdə olan ölkələr, Latın Amerikası və Avropa ölkələri üzrə aparılmağa başlandı. Çəki kimi 1948-ci ilin mə"lumatlarından istifadə edildi. Sonrakı illərdə nəşr edilən statistika külliyyatlarında bu indekslər müntəzəm olaraq nəşr edildi və onların çəkiləri müəyyən vaxtdanbir dəyişdirilərək daha da təkmilləşdirildi. 1958-ci ildən başlayaraq əmək cisimləri istehsalının beynəlxalq indekslərinə dair mə"lumatlar çap edildi.

§13.5. İqtisadi inkişaf səviyyəsinə görə ölkələrin siniflərə bölünməsi

1960-cı ilin statistika külliyyatınanda mə"lumatlar dünya ölkələri sənayesinin inkişaf dərəcəsinə görə bölünərək (qruplaşdırılaraq) nəşr edildi. Hər bir sinfin daxilində hər ölkənin xüsusi çəkisinə dair mə"lumatlar da çap edildi. Siniflər müəyyənləşdirilərkən əsas əlamət əhalinin hər min nəfərinə düşən sənaye məhsulunun dəyəri götürülürdü. Bu bölgüyə əsasən I qrupa hər nəfərə 200 dollardan çox, II qrupa 100-199 dollar, III qrupa 50-99 dollar və IV qrupa isə 50 dollaradək sənaye məhsulu istehsal edən ölkələr daxil edilirdi.

1960-cı ildən BMT-nin sənaye istehsalı indeksi yeni, daha dəqiqləşdirilmiş qaydada (1958-ci ilə nisbətən) hesablanmağa başlandı. Sənaye məhsulu istehsalı istehsal vasitələri (A qrupu) və istehsal şeyləri (B qrupu) üzrə hesablandı.

Dünya ölkələri sənayesinin inkişafına görə əvvəlki dörd qrup əvəzinə iki qrupa (hər nəfərə 125 dollardan çox sənaye məhsulu istesal edən inkişaf etmiş ölkələr və 125 dollardan az məhsul istehsal edən inkişaf etməkdə olan ölkələr) ayrıldı. Elektrik enerjisi və qaz istehsalını sənaye istehsalının tərkibinə daxil etməklə indekslərin əhatə dairəsi genişləndi.

1964-cü ildə BMT-nin hesabladığı indekslərin tərkibinə SSRİ və QİYŞ ölkələri də daxil edildi. Bu indekslər Avropa İqtisadi Şurası və Avropa Azad Ticarət Assosiasiyasına daxil olan ölkələr üzrə də hesablamağa başlandı. Bundan əlavə məşğuliyyəti olan əhalinin sayı dünya sənayesində məşğul olan əhalinin tərkibində hər bir ölkənin xüsusi çəkisinə dair mə"lumatlar da hesablanaraq nəşr edildi.

1965-ci ildən sonra sənaye məhsulu və məşğuliyyəti olan əhalinin sayına dair əvvəllər nəşr edilmiş mə"lumatlara əsasən beynəlxalq əmək məhsuldarlığı indeksləri hesablandı. Hesablamalar bir neçə variantda (dünya üzrə, SSRİ və Şərqi Avropa ölkələri və bir sıra başqa ölkələr üzrə ayrılıqda) aparıldı.

Sənaye məhsulu indeksi 1966-cı ildən sonra son məhsul göstəricilərinə əsasən hesablandı. Bu indekslər sonrakı illərdə BMT tərəfindən daha da təkmilləşdirilərək hər ilə hesablanır və nəşr edilir. BMT-nin ərzaq və kənd təsərrüfatı üzrə beynəlxalq təşkilatı kənd təsərrüfatı məhsulları üzrə beynəlxalq indeksləri 1966-cı illərdən hesablayır. Bu indekslər bütün kənd təsərrüfatı üzrə bütövlükdə və ərzaq məhsulları üzrə ayrılıqda hesablanır. Bütün məhsullara (bitkiçilik və heyvandarlıq məhsullarını daxil etməklə) və hər nəfərə düşən məhsula görə hesablanmış bu indekslər həm də dünyanın müxtəlif regionları (Afrika, Şimali Afrika, Latın Amerikası, Yaxın Şərq, Uzaq Şərq, Okeaniya, Qərbi Avropa və Avropanın Sosialist ölkələri) üzrə ayrıca və təqvim ili üçün Laspeyres düsturuna əsasən (yə"ni əsas dövrün çəkisi ilə) hesablanırdı. Çəki kimi müxtəlif regionlarda ayrı-ayrı məhsulların qiymətinin buğdanın qiymətinə orta nisbəti götürülürdü.

Milli gəlirin vahid valyuta ilə hesablanmasına 1950-ci ildən başlansa da belə mə'lumat 1963-cü ildən sonra müntəzəm nəşr edildi. Son ictimai məhsulun beynəlxalq indeksi BMT-nin statistikləri tərəfindən 1964-cü ildə (1963-ci ilin çəkiləri ilə) hesablandı. Bu indeks bütün dünya üzrə bütövlükdə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üzrə, habelə dünyanın müxtəlif regionları üzrə ayrıca hesablandı.

Sonrakı illərdə müntəzəm olaraq nəşr edilən bu indekslər son ictimai məhsul üzrə bütövlükdə və ictimai məhsulun istehsal edildiyi iri sahələr üzrə (sənaye, tikinti, kənd təsərrüfatı və s.) ayrıca hesablandı.

Kapitalist ölkələri üzrə rabitə və nəqliyyat, topdan və pərakəndə ticarət və sahələrin son məhsulu istehsalı ilə şəxsi və dövlət istehslakı, kapital qoyuluşları, əmtəələrin ixracı və idxalının beynəlxalq indeksləri də BMT-nin stğatistika külliyyatlarında müntəzəm olaraq nəşr edilir.

Beləliklə, BMT-nin mövcud olduğu 50 il ərzində statistika mə"lumatlarının beynəlxalq müqayisəsi sahəsində ciddi irəliləyiş əldə edilmişdir. Müqayisə üçün qeyd edək ki, BMT fəaliyyətinin ilk mərhələsində yalnız bir növ (sənaye məhsulu istehsalı üzrə) beynəlxalq indeks hesabladığı halda, hal-hazırda bütün əsas statistika göstəriciləri üzrə belə indeksləri hesablayıb nəşr etdirir.

Beynəlxalq müqayisə sahəsində inkişaf göz qabağında olsa da gələcəkdə onun daha da təkmilləşdiriləcəyi şübhəsizdir.

§13.6. Milli Statistikada Beynəlxalq müqayisələr

Statistika mə"lumatlarının beynəlxalq müqayisəliliyinin inkişafında ayrı-ayrı ölkələrin milli statistika orqanlarının da müəyyən xidmətləri olmuşdur. Xarakterik haldır ki, milli nəşrlərdə beynəlxalq mə"lumatlar milli göstəricilərin beynəlxalq nəşrlərindən

əvvəl baş verdi.

Milli statistika orqanlarının statistika mə"lumatlarının beynəlxalq müqayisəsi sahəsində xidmətləri haqqında təsəvvür əldə etmək üçün ABŞ və keçmiş SSRİ-nin təcrübəsinə nəzər salmaq kifayətdir. ABŞ-da ilk statistika külliyyatı 1879-cu ildə nəşr edildi. İlk belə nəşrlərdə statistika mə"lumatlarının beynəlxalq müqayisəsi uzun müddət həyata keçirilmirdi. Belə müqayisələr 1907-ci ildə "Dünyanın əsas ölkələrinin ticarət və maliyyə statistikası" adlı statistika külliyyatında verilmişdi. 1919-cu ildə buraxılmış belə kitabda müxtəlif ölkələrin ticarəti və maliyyəsinə aid aşağıdakı mə"lumatları vermişdi:

1. 1885-1915-ci illərdə qızıl və gümüş sikkələrin kəsilməsi;
2. ABŞ-la müqayisədə dünyada qızıl və gümüş istehsalı;
3. Müxtəlif ölkələrdə hərbi itkilərin yekunları və təhlili;
4. Müxtəlif ölkələrdə ticarət gəmilərinin sayı və yük götürmə qabiliyyəti;
5. Pul sistemi və müvafiq pul işarələri;
6. Başqa maliyyə mərkəzləri ilə müqayisədə Nyu-Yorkda valyuta kursu;
7. Dünyanın əsas ölkələrinin ticarəti və maliyyəsi;
8. Dünya ölkələri banklarının depozitləri;
9. 1880-1918-ci illərdə ABŞ-da və dünya ölkələrində topdansatış qiymətlərinin orta səviyyəsi;
10. Natural ifadədə məhsul istehsalı, əhalinin artım tempi;
11. 1914-cü ildə müxtəlif ölkələrin milli gəliri və milli sərvətlərinin dəyəri;
12. Dünyanın əsas limanlarının ticarət dövriyyəsi və tonnajı.

Beynəlxalq statistikaABŞ-ın nəşrlərində 1924-cü ildə cəmi 3-4 cədvəllə verilmiş, 1927-ci ildən sonra isə tamam dayandırılmışdır. Belə mə"lumatların nəşri 1953-cü ildə bərpa edildi və indiyədək nəşr edilməkdədir. ABŞ-ın son nəşrlərində əsasən BMT-nin və başqa beynəlxalq statistika orqanlarının müqayisəli mə"lumatları nəşr edilir.

Keçmiş SSRİ-nin statistika orqanlarının fəaliyyətində mə"lumatların beynəlxalq müqayisəsinə böyük əhəmiyyət verilirdi. Oktyabr inqlabından sonra yeni yaranmış sosialist dövləti xarici dövlətlərin iqtisadiyyatına dair nəşr olunmuş statistika mə"lumatlarına böyük maraq göstərirdi. Bu maraq ilk növbədə xarici ölkələrin təcrübəsini öyrənmək və mənimsəmək istəyindən irəli gəlirdi. Dünya iqtisadiyyatında öz yerini müəyyən etmək, onu daha da inkişaf etdirmək və əldə edilən nailiyyətləri təbliğ etmək üçün keçmiş SSRİ-də beynəlxalq statistikaya dair nəşrlərə 1922-ci ildən başlandı. Həmin ildə RSFSR-in MSİ-nin xarici statistika şö"bəsi xarici ölkələrin statistikasına dair statistika

külliyyatını hazırlayıb nəşr etdirdi. Bu külliyyatda müxtəlif xarici ölkələrin əhalisi, ərazisi, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı, əmək bazarının vəziyyəti, tə'tillər, xarici ticarət və ticarət kəmiçiliyi, qiymətlərin dəyişməsi, maliyyə və pul tədavülü və s. haqqında mə"lumatlar verilmişdi.

Sonrakı illərdə beynəlxalq statistikaya dair mə"lumatlar ya ayrıca, ya da nəşr edilən statistika külliyyatlarında xüsusi bölmə kimi verilirdi. 20-30-cu illərdə SSRİ-də beynəlxalq statistikaya aid çap etdirilən külliyyatlar mə"lumatların zənginliyinə və quruluşunun mükəmməlliyi ilə seçilir. Məsələn: 1928-ci ildə nəşr edilmiş statistika külliyyatı göstəricilərin hesablanmasına dair metodik şərh və istifadə olunmuş 102 ədəbiyyat siyahısını əhatə edirdi.

Sonrakı illərdə Sovet nəşrlərində beynəlxalq statistikaya dair mə"lumatların hesablanması və nəşri sahəsində böyük işlər görüldü. SSRİ dağıldıqdan sonra yeni yaranmış müstəqil dövlətlərin statistika orqanlarında yaradılmış "Beynəlxalq statistika" şö"bələrində statistika uçotu və mə"lumatların müqayisəliliyinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli fərmanında bu məsələyə diqqət yetrilmişdir. Həmin fərmana əsasən respublikada uçot və statistika işləri beynəlxalq standartlara uyğun qurulmağa başlanmış və bu sahədə müəyyən nəticələr əldə edilmişdir. Bunlardan ən əhəmiyyətlisi Milli Hesablar Sisteminin tərtibinə başlanılmasıdır.

§13.7. Beynəlxalq müqayisəliliyin müasir problemləri və onların həlli yolları

Əldə edlmiş nailiyyətlərə baxmayaraq beynəlxalq statistikanın bir sıra məsələləri həll edilməmiş qalır. Onların sırasına beynəlxalq statistka göstəricilərinin vahid sisteminin hazırlanması, beynəlxalq indekslərin qurulması və onların çəkilərinin müəyyən edilməsi, beynəlxalq hesablamaların və müqayisəliliyin elmi səviyyəsinin yüksəldilməsi və s. belə problemlərə aiddir. Deyilən problemləri həll etmək üçün beynəlxalq müqayisə məsələlərinə kompleks şəkildə yanaşmaq və təsadüfi müqayisələri aradan qaldırmaq lazımdır. Bu isə öz növbəsində beynəlxalq müqayisələri vahid metodologiyaya əsasən hesablanmış göstəricilər sistemi ilə həyata keçirilməsini tələb edir. Göstərilən istiqamətdə problemləri düzgün həll etmək üçün bu məsələ ilə bağlı Millətlər Cəmiyyəti, BMT və ayrı-ayrı ölkələrin təcrübəsini dərindən öyrənmək lazımdır.

Beynəlxalq müqayisələri apararkən aşağıdakı məsələlər həll edilməlidir:

1. Möcud göstəricilərin dəqiqləşdirilməsi və təkmilləşdirilməsi

əsasında yeni göstəricilər sistemini hazırlamaq;

2. Müxtəlif ölkələrin iqtisadi inkişafının təhlilini eyni göstəricilər sistemi ilə aparmaq;

3. Statistika üsullarını (ərazi indeksləri, paralel sıralar, seçmə müşahidəsi, dispersiya, reqresiya və s. müasir iqtisadi təhlil üsullarını) daha da inkişaf etdirmək.

Bu sahədə müvəffəqiyyət o vaxt əldə edilə bilər ki, beynəlxalq müqayisələrə məntiqi, tətbiqi və idrak baxımından xüsusi diqqət yetirilsin. Bu məsələnin həlli beynəlxalq iqtisadi hesablamaların və müqayisələrin metodologiyası və təcrübəsinin təkmilləşdirilməsini tələb edir.

Beynəlxalq müqayisələrin metodologiyasını təkmilləşdirilməsi zamanı aşağıdakı məsələlər həll edilməlidir:

1. Milli statistika orqanlarının və BMT göstəricilərini sadələşdirmək və yaxınlaşdırmaq yolu ilə beynəlxalq müqayisə üçün göstəricilər sistemini inkişaf etdirmək;

2. Beynəlxalq ərazi indekslərini hesablamaq üçün vahid model yaratmaq. Bu məsələ ilk növbədə müxtəlif ölkələr üzrə dəyər göstəricilərinin və indeslərin çəkilərinin müəyyən edilməsi qaydasının həll edilməsini tələb edir;

3. Beynəlxalq indekslərin qurulması metodlarını inkişaf etdirmək;

4.Beynəlxalq müqayisə göstəricilərinin təhlilinə əsasən proqnozlaşdırmanın metodologiyasını inkişaf etdirmək;

5. Beynəlxalq müqayisə praktikasına Ekonometrik metodları tətbiq etmək;

6. Xalq təsərrüfatı balansı, MHS-nin sahələrarası balansı, son məhsul, milli gəlir və s. göstəricilərin müqayisəsi metodologiyasını təkmilləşdirmək.

Beynəlxalq müqayisənin ən mübahisəli məsələlərindən biri dəyər göstəricilərinin eyni valyuta ilə qiymətləndirilməsidir. Bu məsələni həll etmək üçün indiyədək BMT təcrübəsində rəsmi və təshih edilmiş rəsmi valyuta kurslarından istifadə edilir. Lakin belə qiymətləndirmə bir çox tələblərə cavab vermədiyinə görə təkmilləşdirilməlidir. Bə"zi müəlliflərin (məsələn, V.M. Simçera) fikrincə bu məsələ milli valyutaların alıcılıq qabiliyyəti nəzərə almaqla həll edilə bilər. Müxtəlif müəlliflər tərəfindən təklif edilmiş "valyutaların ortalaşdırılması", "invers çəki", "hipotetik valyuta", "dəyişən zəncirvari çəkilər" və sairənin tətbiqi ciddi qüsurlara malik olduğuna görə qəbul edilə bilməz.

Beynəlxalq iqtisadi hesablamaların keyfiyyətinin yaxşılaşdırılması üçün aşağıdakı məsələlərin həlli səmərəli nəticə verə bilər:

1. Beynəlxalq iqtisadi hesablamalar və müqayisələr zamanı bütün (və yaxud mümkün qədər çox) ölkələrin mə"lumatları nəzərə

alınmalıdır;

2. Dünya iqtisadiyyatında ayrı-ayrı ölkələrin xüsusi çəkisinin qiymətləndirilməsi qaydası bir qaydaya salınmalıdır.

3. Milli gəlirin, son məhsul və sənaye məhsulu üzrə beynəlxalq indekslərin hesablanması metodları təkmilləşdirilməlidir;

4. İqtisadi inkişafın beynəlxalq modeli qurulmalıdır;

5. Ayrı-ayrı ölkələrin və dünya iqtisadiyyatının inkişafını proqnozlaşdırarkən normativ baza kimi beynəlxalq müqayisə göstəricilərinin istifadəsi imkanları müəyyən edilməlidir.

§13.8. Beynəlxalq müqayisələr zamanı əmtəə-təmsilçisinin seçilməsi

Bə"zi göstəricilər (istehlak, istehsal, həyat səviyyəsi, informasiya və s.) üzrə beynəlxalq müqayisəni həyata keçirmək eyni növdə (və sayda) məhsullar dəstindən istifadə etmək üçün lazım gəlir. Müqayisə üçün seçilmiş məhsullar dəsti "əmtəə-təmsilçiləri" adlanır. Əmtəə-təmsilçiləri valyutaların alıcılıq qabiliyyəti indeksinin, yaşayışın (həyatın) dəyəri indeksinin, defilyatorların və s. hesablamaları zamanı geniş istifadə olunur. Əmtəə-təmsilçilərinin tərkibi öyrənilən göstəricinin məzmununa uyğun gəlməlidir və onun tərkibinə daha məqsədəuyğun göstəricilər daxil edilməlidir. Seçilmiş əmtəələrin tərkibi həm müqayisə edilən dövrlər və həm də ölkələr üzrə eyni olmalıdır. Təmsilçi əmtəələrin müqayisəsini apararkən götürülmüş hər hansı ölkədə seçilmiş göstəricinin mövcud quruluşunu, səmərəli istehlak normasının quruluşunu, xammal və material məsrəfləri normativləri və s. əks etdirən kəmiyyətlər çəki kimi istifadə oluna bilər.

Müqayisə üçün əmtəə-təmsilçilərinin seçilməsi ev təsərrüfatı büdcələrinin tədqiq statistikasının mə"lumatların əsasən də müəyyən edilə bilər. Məsələn: "İstehlak zənbili" üçün əmtəə-təmsilçilərinin seçilməsi əhalinin müxtəlif kateqoriyaları, bir ölkə, ölkələr qrupu və fərqli təbii-coğrafi şəraitə malik ölkələr üzrə seçilə bilər.

Müqayisəliliyi tə'min etmək üçün mühüm şərtlərdən biri tutuşdurulan mə'lumatların vahid əsasa gətirilməsi və eyni metodologiya ilə hesablanmasıdır. Məsələn, beynəlxalq miqyasda ÜDM-un müqayisəsini aparmaq üçün ilk növbədə həmin göstəricinin tərkib ünsünlərinin yekçinsliyinə nail olmaq və sonradan onları milli valyutadan hər hansı bir ölkənin qismən sabit kursa malik dönərli valyutasına çevirmək lazımdır. Bu məqsədlə çox vaxt ABŞ dollarından istifadə edilir. Lakin bu metod milli valyuta kurslarındakı fərqləri aradan qaldırmır. Odur ki, bu üsulu tətbiq edərkən milli valyutaların alıcılıq qabiliyyəti paritetləri (VAQP) nəzərə alınmaqla hesablanan çevirmə əmsallarından istifadə olunur. Yuxarıda deyilən üsulu tətbiq etmək üçün beynəlxalq əmtəə

təsnifatları əsas götürülür və hər əmtəə qrupundan təmsilçi əmtəələr seçilərək orta qiymət indeksləri hesablanır. Orta qiymətləri hesablayarkən orta hesabi və ya orta hormonik indekslərin düsturlarından istifadə edilə bilər.

Təmsilçi əmtəə qruplarına əsasən orta qiymət indeksinin hesablanmasının aşağıdakı şərti mə'lumata əsasən nəzərdən keçirək

49-cu cədvəl

A və B ölkələrində təmsilçi əmtəə qrupları üzrə qiymətlərin səviyyəsi

Təmsilçi-əmtəə qrupları / Ölkələr üzrə qiymətlər (manatla)	1	2	3	4	5	6	7	8	9
A ölkəsində	4	6,0	2	5,0	6,3	1,0	7,8	10	2,0
B ölkəsində	5	7,8	4	4,5	3,6	8,8	9,8	12	3,0
A ölkəsinə nisbə-tən B ölkəsində əmttə qrupları üzrə qiymət indeksi	1,25	1,3	1,5	0,9	0,6	0,8	1,4	1,2	15

Bütün əmtəə qrupları üzrə orta qiymət indeksi

$$J_p = \sqrt[9]{1{,}25 \cdot 1{,}3 \cdot 1{,}5 \cdot 0{,}9 \cdot 0{,}6 \cdot 0{,}8 \cdot 1{,}4 \cdot 1{,}2 \cdot 1{,}5} = 1{,}27$$

X əmtəə qrupu üçün bu qayda ilə hesablanmış orta qiymət indeksi xüsusi VAQP hesab edilir. Deyilən məqsəd üçün Paaşe və Laspeyresin qiymət indekslərindən (müvafiq olaraq $\bar{J}_p^n$ və $\bar{J}_p^L$) istifadə olunur

Burada $\bar{J}_p^n = \dfrac{\sum W_B}{\sum \dfrac{W_B}{i_p}}$ və $\bar{J}_p^L = \dfrac{\sum i_p \cdot W_d}{\sum W_d}$

Yuxarıdakı indekslərdə

i_p-V ölkəsinə nisbətən A ölkəsində konkret əmtəənin qiymət indeksi

W_d-A ölkəsinin ÜDM - da ayrı -ayrı əmtəə qruplarının xüsusi çəkisi

W_B- V ölkəsinin ÜDM - da ayrı-ayrı əmtəə qruplarının xüsusi çəkisini göstərir.

Paaşe və Laspeyresin indekslərini tətbiq etməklə VAQP-nin iki müxtəlif qiyməti alınır. Eyni məqsəd üçün iki müxtəlif kəmiyyətin alınması (adətən Laspeyres indeksi Paaşe indeksinə nisbətən böyük ədədə bərabər olur) praktikada arzu olunmaz hal kimi qiymətləndirildiyindən belə halda Fişerin indeksindən istifadə etmək daha məqsədə uyğun hesab edilir.

$$\bar{J}_p^F = \sqrt{\bar{J}_p^L \cdot \bar{J}_p^n}$$

Paaşe və Laspeyres indeksləri eyni məqsədə xidmət etsələr də müxtəlif tərkibli mə'lumata əsasən hesablandıqlarına görə alınmış cavablar da müxtəlifdir.

A ölkəsinin ÜDM-nun V ölkəsinin ÜDM-na nisbətini əks etdirən dəyər indeksini Fişerin qiymət indeksinə bölməklə A və V ölkələrinin ÜDM-nun fiziki həcmi indeksini müəyyən etmək olar.

$$\frac{\text{ÜДМ}_A}{\text{ÜДМ}_B} : \bar{J}_p^F = \bar{J}_q$$

A ölkəsinin ÜDM-nu V ölkəsinin qiymətilə və V ölkəsinin ÜDM-nu isə A ölkəsinin qiymətləri ilə qiymətləndirmək yolu ilə eyni nəticəni əldə etmək olar.

Belə hesablamalar zamana ən mühüm şərtlərdən biri təmsilçi əmtəə qruplarının düzgün (və reprezentativ) seçilməsidir. Təmsilçi əmtəə qruplarının reprezentativliyi dedikdə konkret ölkənin istehsal etdiyi məhsulunun tərkibində müqaiisə üçün seçilmiş təmsilçi-əmtəə qruplarının xüsusi çəkisinin xarakteri başa düşülür.

Yuxarıda deyilənlər iki ölkə üzrə mə'lumatlarının müqayisəsi zamanı istifadə olunan üsuldur. Beynəlxalq müqayisələr zamanı beynəlxalq təşkilatlar adətən çoxtərəfli müqayisələr aparırlar. Çoxtərəfli beynəlxalq müqayisələr zamanı tətbiq olunan indekslərə müəyyən tələblər (çəkilərin xarakterikliyi, tranzitivlik, bazis ölkəsinin seçilməsindən qeyri asılılıq,additivlik və s) irəli sürülür.

Çəkilənin xarakterliyinin tələbinə əsasən tələb olunan indeksləri qurarkən çəki kimi müqayisə olunan ölkələrin iqtisadiyyatı üçün xarakterik olan çəkilərdən istifadə olunmalıdır.

Tranzitivlik tələbinə əsasən iki ölkənin göstəricilərinin müqayisəsi yolu ilə alınan nəticə bu ölkələrin göstəriciləri arasındakı nisbəti ifadə edən indeksə bərabər olmalıdır. Bu indeks «keçid körpüsü» rolunu oynayan üçüncü ölkə vasitəsi ilə dolayı yolla hesablanır. Məsələn, A və V ölkələri arasındakı nisbəti (müqayisəni) A və V ölkələrinin nisbəti kimi, ya da tanintivlik yolu ilə (yəni üçüncü S ölkəsi ilə müqayisədən istifadə etməklə)

$$J_{A/B} = J_{A/C} : J_{B/C}$$

müəyyən etmək olar.

Additivlik şərtinin mahiyyəti ondan ibarətdir ki, ÜDM-un ayrı-ayrı kompanentləri üçün alınan indekslər oz aralarında və ÜDM-un indeksi ilə bütövlükdə uzlaşdırılmalıdır.

Bazis ölkəsinin seçilməsindən qeyri asılılıq tələbinin (şərtinin) məzmunu ondan ibarətdir ki, hesablanan indekslərin səviyyəsi müqayisə üçün əsas götürülmüş ölkənin göstəricilərindən asılı olmamalıdır. Məsələn, Fransa ilə Almaniyanın UDM-nun arasındakı nisbət müəyyənləşdirilərkən alınmış nəticə indeksin məxrəcinə adı çəkilən ölkələrdən hər hansı birinin göstəricilərinin qoyulmasından asılı olmamalıdır. Bu şərti riyazi şəkildə

$$J_{A/B} \cdot J_{B/A} = 1$$

kimi yazmaq olar.

Bu şərt onu göstərir ki, konkret göstəricilər üzrə A ölkəsinin V ölkəsinə nisbətini ifadə edən indeksin V ölkəsinin A ya nisbətini bildirən indeksə hasili vahidə bərabərdir.

Çoxtərəfli beynəlxalq muqayisəliliyi təmin etmək üçün iqtisadi ədəbiyyatlarda müxtəlif üsul və göstəricilərdən istifadə olunması tövsiyyə edilir. Qiri-Kamis, Cirarye, Yelş və başqa metodlar deyilənlərə misal ola bilər.

Nəzarət üçün suallar

1. *Beynəlxalq müqayisəlilik nədir?*
2. *Beynəlxalq müqayisəliliyin hansı şərtləri var?*
3. *Beynəlxalq müqayisələr zamanı təmsilçi əmtəələr necə seçilir?*
4. *Beynəlxalq müqayisəliliyin müasir problemləri hansılardır?*

Ədəbiyyat

1 А.В.Сиденко, Б.И.Башкатов, В.М.Матвеева Международная статистика. М., "Дело и сервис" nəşriyyatı 1999
2 Azərbaycanın sənayesi, statistika külliyyatı, Bakı 1997-ci il
3 Azərbaycanın statistik göstəriciləri, Statistika külliyyatı, Bakı, 1997-ci il
4 Azərbaycanın xarici ticarəti, 1992-1996-cı illər, Statistika külliyyatı, Bakı, 1997-ci il
5 Алексей Киреев, Международная Экономика, "Международные отношения", нəшриййаты. М. 1997
6 Alkin E, Uluslararası ekonomik ilişkilər, İstanbul, 1990
7 Вывоз товаров, ставки таможенных пошлин, справочник нормативных документов, М.1996
8 Qərayev İ.Ş., Ağabəyov Ş.A., Bayramov Q.S., Quliyev İ.Q., Əliyev Ə.R. Dünya bazar qiymətləri,Bakı, 1997
9 Dünyamalı Vəliyev, Beynəlxalq iqtisadiyyat, dərslik, Bakı, 1998
10 Доклад о развитии человека за 1995 г., Программа развитии ООН, Нью-Йорк, 1995
11 Дрисскол., Д.Давид, Что такое Международный Валютный Фонд, Вашингтон, 1992
12 Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, Bakı 1996
13 Едвид Дж. Долан, Макроэкономика, М., 1992 "Экономика", dərslik, 1997
14 Экономическая статистика, dərslik, Y.N.İvanovun redaktorluğu ilə, M., 1998
15 Экономическая интеграция Латинской Америки и США, "Наука" nəşriyyatı, M., 1970
16 Экономика, "БЕК" nəşriyyatı, M., 1997
17 Экономика и внешне - Экоонмические связи СССР, справочник, - "международные отношения" nəşriyyatı, M., 1979
18 Экспорт капитала в развивающихся странах Африки, "Наука" nəşriyatı, M., 1975
20 Е.Ф. Авдокушин, Международные экономические отношения, M., 1997
21 Əmək Bazarı: rəqəm və diaqramlarda statistika külliyyatı, Bakı, 1996
22 Əvəz Bayramov, Regional iqtisadi inteqrasiya, Bakı 1997
23 Залкинд А.Н., Кудрова Е.С. Статистика цен в европейских социалистических странах, M., 1973
24 Захаров С.Н. Расчеты эффективной внешно-экономических связей, M. 1976

25 В.В. Золоев, статистика Внешней торговли, М. 1981
26 И.Б. Шебель, Некоторые проблемы международ-ной статистики капитальных вложений, "Проб-лемы международной статистики", "Наука", М., 1971
27 Иванов И.Ю. О новых рекомендациях по составлению платежного баланса, М. "Вопросы экономики" журналы, №5, 1995
28 Кэмпбелл Р., Макконели Стенли, ЛБРЮ - Экономикс, Т. I,II, Баку,1992
29 Красавной Л.Н. - Международные валютно-кредитные и финансовые отношения, М. 1996
30 Курс социально-экономической статистики, проф. Nazarovun redaktorluğu ilə, M. 1985
31 K.F. Sadıqov, K.S. Qafarov, N.V. Bədirov, Xarici - iqtisadi fəaliyyətin makro-iqtisadi tənzimlənməsi, (dərs vəsaiti), Bakı 1994
32 Коростелев Г.М. Краев В.С., Буржуазные канцепции народонаселения, М., 1981
33 Линдерт П.Х. Экономика мирохозяйственных связей, М.1992
34 Липпе П. Экономическая статистика, Статистические очерки Европейского центра повышения квалификации, I ФСУ германии 1995
35 Maliyyə, statistik məcmuə Bakı 1997
36 "Maliyyə və uçot" jurnalı ¹7-8, 1997
37 Международные экономические отношения, М. 1998
38 Международные валютные и кредитные отношения капиталистических стран, "финансы и статистика" nəşriyyatı, M.1986
39 Международная статистика, tərtib edənlər: Е.Ю. Елисина, Е.Ю. Фатиева, М. 1986
40 Миркин Я.,Ценные бумаги и фондовый рынок. М. 1995
41 Муртазина Э.Н., Европейское сообщество - одна из основ общеевропейского дома, М. 1992
42 M.T. Əliyev, Azərbaycan iqtisadiyyatı, Bakı 1997
43 Национальные счета в переходный период (методология), М. 1993
44 Национальное счетоводство, Q.D.Kulaginin redktorluğu ilə, M.1997
45 Основы внешне экономических знаний - словарь справочник, М. 1990
46 Проблемы международной статистики, М.1971
47 П.Ф.Белый, Платежный Баланс Англии, Ленинград, 1976
48 Рекомендации по расчету национального богатства в системе национальных счетов, статкомитет СНГ, М. 1994
49 Rəhimov M. Azərbaycan Respublikasının inkişafını tənzimləyən qanunlar, Bakı 1995
50 Rəşid Məmmədov, Ev təsərrüfatları büdcələrinin tədqiqatı statistikası Bakı 1998
51 Rəşid Məmmədov, Milli hesablar sistemi, Bakı, 1997
52 Rəşid Məmmədov, Sənaye statistikası, I hissə, Bakı, 1995
53 Rəşid Məmmədov, Sənaye statistikası, II hissə, Bakı, 1997
54 Рыночная экономика, дерслик, М. 1992
55 Современные международные рекомендации по статистике труда, М. финстатформ, 1994
56 "Статистика" V.Q.İoninanın redaktorluğu ilə, Новосибирск 1997
57 Статистический словарь, М. 1988
58 Статистика финансов сектора государного управленния (статические очерки том 4), УТС-Peter Rayx və Rudolfun redaktorluğu ilə, Almaniya Federal Statistika idarəsinin nəşriyyatı, 1997
59 Статический сборник, Вашингтон Всемирный Банк, 1994
60 Seyidoğlu N.,Uluslararası finans, İstanbul, 1994
61 Seyidoğlu N., Uluslararası iqtisat teori politika ve uüğulama İstanbul 1991
62 Стоимость жизни и ее измернение, V.M.Futqayzer və S.P.Şipilkonun redaktorluğu ilə, М. "Финансы и статистика" 1991
63 С.М. Никитин, Статистика капитальных вложений в капиталистических странах, Госстатиздат. М. 1960
64 Студенцов В., Иностранные инвестиции и экономическая безопасность, журнал "Экономист" №10, 1996
65 Циганков, Павел Афанасьевич, Международные отношения для вузов, М. 1996
66 Т.В. Рябушкин, Международная статистика, М. 1965
67 Теслюк И.Е., Статистика финансов, 1994
68 Торвей Р., Индексы потребительных цен, методы, руководство, ingiliscədən tərcümə, М. 1993
69 Хаспулатов Р.И., Мировая Экономика М., 1994
70 1996-cı ildə Azərbaycanda ev təsərrüfatları tədqiqatının əsas göstəriciləri, Statistika külliyyatı, Bakı 1997
71 1990-1995-ci illərdə Azərbaycanın milli hesabları. Statistik məcmuə, Bakı 1997

Kitabın içindəkilər

ÖN SÖZ	3
I FƏSİL. MÜASİR BEYNƏLXALQ STATİSTİKANIN PREDMETİ, METODLARI, VƏZİFƏLƏRİ VƏ TƏŞKİLİ	5
§ 1.1 «Beynəlxalq statistika» kursunun predmeti, metodu və vəzifələri	5
§ 1.2 BMT-nin statistika orqanları	6
§ 1.3 BMT-nin nəzdində olan ixtisaslaşdırılmış təşkilatların statistika orqanları	9
§ 1.4 Dünyanın inkişaf etmiş ölkələrində statistikanın təşkili	11
Nəzarət üçün suallar	13
II FƏSİL. BEYNƏLXALQ STATİSTİKANIN TARİXİ	14
§ 2.1 Beynəlxalq statistikanın yaranması və onun təşəkkülün-də beynəlxalq statistika konqreslərinin rolu	14
§ 2.2 Millətlər cəmiyyəti yanında ixtisaslaşdırılmış təşkilatların statistika fəaliyyəti	17
§ 2.3 İkinci dünya müharibəsindən sonra Beynəlxalq statistikanın inkişafı	18
§ 2.4 Beynəlxalq statistika sahəsində fəaliyyət göstərən ixtisaslaşdırılmış statistika təşkilatları	19
§ 2.5 Beynəlxalq Statistika institutu	19
§ 2.6 Azərbaycanın uçot və statistika işlərinin beynəlxalq standartlara uyğun qurulmasına dair respublika prezidentinin11 avqust 1992-ci il tarixli fərmanı	22
§ 2.7 Beynəlxalq statistikanın təşəkkülündə xüsusi xidməti olan şəxsiyyətlər	23
Nəzarət üçün suallar	23
III FƏSİL. MİLLİ VƏ DÜNYANIN İQTİSADİ RAYON-LARININ ÖYRƏNİLMƏSİ ÜSULLARI	24
§ 3.1 «İqtisadi rayon» anlayışı	24
§ 3.2 İqtisadi rayonların təsnifatı və onları səciyyələndirən göstəricilər	25
Nəzarət üçün suallar	31
IV FƏSİL. BEYNƏLXALQ STATİSTİKADA QƏBUL EDİL-MİŞ İQTİSADİ TƏSNİFATLAŞDIRMALAR	32
§ 4.1 Beynəlxalq iqtisadi təsnifatlaşdırmaların mahiyyəti və vəzifələri	32
§ 4.2 İqtisadi fəaliyyət növlərinin beynəlxalq təsnifatı	32
§ 4.3 Azərbaycan Respublikasında İFST	35
§ 4.4 Əmtəələrin beynəlxalq təsnifatı və nominklaturası	36

§ 4.5 Məhsul növlərinin təsnifatı	39
§ 4.6 Məşğuliyyət növlərinin təsnifatı	40
Nəzarət üçün suallar	42
V FƏSİL. MİLLİ SƏRVƏT STATİSTİKASI	43
§ 5.1 Beynəlxalq statistikada Milli sərvət anlayışı və MHS-də onun yeri	43
§ 5.2 «Fərdi kapital» və Milli sərvət konsepsiyası	46
§ 5.3 Milli sərvətin tərkib ünsürləri və onların təsnifatı	48
§ 5.4 Milli sərvətin qiymətləndirilməsi üsulları	56
§ 5.5 MDB ölkələrində milli sərvəti qiymətləndirmək üçün MHS-standartlarının tətbiqi imkanları	62
§ 5.6 MHS əsasında milli sərvətin təhlilinin əsas istiqamətləri	68
Nəzarət üçün suallar	70
VI FƏSİL. KAPİTAL QOYULUŞLARININ STATİSTİKASI	71
§ 6.1 Kapital qoyuluşlarının statistikasının təşəkkülü	71
§ 6.2 Beynəlxalq statistikada kapital qoyuluşları anlayışı və onun tərkibinin statistik öyrənilməsi	71
§ 6.3 Beynəlxalq statistikada kapital qoyuluşlarını səciyyələndirən göstəricilər	76
§ 6.4 Beynəlxalq kapital qoyuluşları statistikasında istifadə olunan qruplaşdırmalar	79
§ 6.5 «Kapitalla» əməliyyatların beynəlxalq MHS-də əksi	82
§ 6 6 Qeyri-maliyyə aktivlərinin dəyişməsi	83
§ 6.7 Əsas kapitalın ümumi yığımı	84
§ 6.8 Maddi-dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsi	91
§ 6.9 Dəyərlilərin, torpağın və başqa istehsal olunmayan aktivlərin, habelə istehsal olunmayan qeyri-maddi aktivlərin xalis əldə edilməsi	94
§ 6.10 Əsaslı transfertlər	95
Nəzarət üçün suallar	97
VII FƏSİL. MƏHSUL VƏ XİDMƏTLƏRİN BURAXILIŞI STATİSTİKASI	98
§ 7.1 Beynəlxalq statistikada istehsal iqtisadi fəaliyyət kimi. Əmtəə və xidmətlər anlayışı	98
§ 7.2 Beynəlxalq statistikada «istehsal sferası» anlayışı	101
§ 7.3 MHS-də «İstehsal hesabı», «Əmtəə və xidmətlər hesabı»	103
§ 7.4 İstehsal konsepsiyaları və istehsal amilləri	105
§ 7.5 Qeyri qanuni istehsal, gizli istehsal və xəlvəti iqtisadiyyat	108
§ 7.6 Ümumi buraxılış və onun hesablanması	109
§ 7.7 Bazar üçün və qeyri bazar məhsulları	119
§ 7.8 Bazar üçün məhsulların və ehtiyatların ölçülməsi	121
§ 7.9Qeyri-bazar tə'yinatlı məhsulların və xidmətlərin ölçülməsi	123

§ 7.10 Başa çatdırılmamış məhsulların (işlərin) uçotu və qiymətləndirilməsi	124
§ 7.11 Operativ və maliyyə lizinqi	125
§ 7.12 Bə'zi sahələrdə məhsul buraxılışının xüsusiyyətləri	126
§ 7.13 Ümumi daxili məhsul (ÜDM)	130
§ 7.14 Aralıq istehlakı	138
§ 7.15 MHS göstəricilərinin qiymətləndirilməsi	144
§ 7.16 Makroiqtisadi göstəricilərin sabit qiymətlərlə hesablanması və defilyator-indekslərin qurulması metodları	148
§7.17 Beynəlxalq statistikada tətbiq olunan Laspeyres, Paaşe və Fişerin «ideal» indeksləri	155
Nəzarət üçün suallar	159
VIII FƏSİL. BEYNƏLXALQ ƏMƏK STATİSTİKASI VƏ ƏHALİ MİQRASİYASI	160
§ 8.1 Beynəlxalq əmək statistikasının yaranması, təşəkkülü və vəzifələri	160
§ 8.2 BMT Beynəlxalq əmək təşkilatı (BƏT)	163
§ 8.3 Beynəlxalq statistikada əmək ehtiyatlarının əsas səciyyəsi	164
§ 8.4 ABŞ-da məşğulluq və işsizlik statistikasının bə'zi təşkilat-metodoloji məsələləri	169
§ 8.5 Əmək bazarı və onun tənzimlənməsi	173
§ 8.6 Əmək birjası və xüsusi vasitəçi firmalar	176
§ 8.7 Əhalinin və əmək ehtiyatlarının beynəlxalq miqrasiyası	
a)Beynəlxalq miqrasiyanın mahiyyəti, tərkibi, hissələri və kateqoriyaları	178
b)Miqrasiyanın miqyası və istiqamətləri	180
v)Beynəlxalq miqrasiyanın tənzimlənməsi	183
q)Miqrasiyanın iqtisadi səmərəsi	187
d)Beynəlxalq miqrasiyanın nəticələri	190
e)Azərbaycan və dünya miqrasiyasının axını	191
§ 8.8 Əmək münaqişələri statistikası	192
§ 8.9 Əhali siyahıyaalınmaları əmək ehtiyatlarının həcmi və tərkibinə dair əsas mə'lumat mənbəyi kimi	194
a)Əhali siyahıyaalınmalarının təşkilinin ümumi prinsipləri və proqramı	195
b)Siyahıyaalınma proqramının ümumi demoqrafik məsələləri	201
v)Siyahıyaalınma proqramının sosial-iqtisadi göstəriciləri	207
q)Siyahıyaalınma mə'lumatlarının işlənilməsi	210
Nəzarət üçün suallar	212
IX FƏSİL. GƏLİRLƏRİN YARANMASI, BÖLÜŞDÜRÜLMƏSİ VƏ YENİDƏN BÖLÜŞDÜRÜLMƏSİ STATİSTİKASI	213
§ 9.1 Bazar iqtisadiyyatı və beynəlxalq MHS-də gəlirlərin rolu	213
§ 9.2 Beynəlxalq MHS-də "Gəlirlərin yaranması hesabı"	217

§ 9.3 "Gəlirlərin ilkin bölgüsü hesabı"	219
§ 9.4 Gəlirlərin ikinci dəfə və natural formada yenidən bölüşdürülməsi	228
§ 9.5 Gəlirlərin istifadəsi və MHS-də onun əks etdirilməsi	231
§ 9.6 Son istehlak və yığım	237
Nəzarət üçün suallar	239
X FƏSİL. ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN STATİSTİKASI	240
§ 10.1 Əhalinin həyat səviyyəsi və onun statistik öyrənilməsinin vəzifələri	240
§ 10.2 Həyat səviyyəsi statistikasının göstəriciləri sistemi	240
§ 10.3 Real əmək haqqı göstəriciləri	250
§ 10.4 Gəlirlərə görə əhalinin bölüşdürülməsinin statistik səciyyəsi	253
§ 10.5 Əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəriciləri	257
§ 10.6 Həyatın dəyəri indeksi	260
§ 10.7 Gəlirlərin indeksləşdirilməsi (indeksasiyası)	261
§ 10.8 Əhalinin həyat səviyyəsinə dair statistika mə'lumatlarının mənbələri	263
Nəzarət üçün suallar	264
XI FƏSİL. PUL-KREDİT VƏ MALİYYƏ STATİSTİKASI	265
§ 11.1 Pul-kredit və maliyyə statistikasının vəzifələri	265
§ 11.2 Pul-kredit və maliyyə statistikasının təşkilat sxemi	267
§ 11.3 MHS-də «Pul», «Kredit» və «Borc» anlayışları	267
§ 11.4 BVF-nun rəhbər tövsiyyələrində müəyyən edilmiş statistik normalar	271
§ 11.5 Maliyyə statistikası göstəricilərinin MHS-də əksi	273
a)Balanslar	274
b)Balanslarda dəyişikliklər hesabı	276
v)Kapitalla əməliyyatlar hesabı	276
q)Maliyyə hesabı	281
d)Aktivlərin həcmində sair dəyişikliklər hesabı	289
e)Yenidən qiymətləndirmə hesabı	288
§ 11.6 Pul emitentləri	289
§ 11.7 Maliyyə instrumentləri və aktivləri, onların təsnifatı	290
§ 11.8 İslam ölkələrinin maliyyə instrumentləri	297
§ 11.9 Nəqd pul və depozitlər	300
§ 11.10 Sair maliyyə aqreqatları	305
§ 11.11 Milli və dünya valyuta sistemləri	309
§ 11.12 Valyutanın dönərliliyi və valyuta kursu	311
§ 11.13 Milli valyutaların alıcılıq qabiliyyətinin pariteti	314
§ 11.14 Borc aqreqatları	316
§ 11.15 Kredit statistikası və MHS	320

	§ 11.16 Beynəlxalq kredit və onun valyuta-maliyyə şərtləri	326
	§ 11.17 Kredit risqi və Bazel norması	329
	§ 11.18 Dövlət büdcələri statistikası	330
	§ 11.19 Beynəlxalq büdcə təsnifatları	333
	§ 11.20 Fond bazarı statistikası	338
	§ 11.21 Tə'diyyə balansı makroiqtisadi maliyyə statistikasının mühüm bölməsidir	343
	Nəzarət üçün suallar	354
XII FƏSİL. BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏR VƏ TİCARƏT STATİSTİKASI		355
	§ 12.1 Beynəlxalq iqtisadi əlaqələr haqqında anlayış və bu sahədə statistikanın vəzifələri	355
	§ 12.2 Xarici iqtisadi əlaqələr statistikası beynəlxalq statistikanın əsas sahələrindən biri kimi	357
	§ 12.3 Xarici ticarət-beynəlxalq iqtisadi əlaqələrin əsas forması kimi	362
	§ 12.4 Xarici ticarət statistikasının göstəricilər sistemi	367
	§ 12.5 Xarici ticarət balansı	370
	§ 12.6 Xarici ticarət statistikasında tətbiq olunan əmtəə təsnifatları	371
	§ 12.7 Xarici ticarətdə qiymət statistikası	375
	§ 12.8 Gömrük statistikası	383
	§ 12.9 İdxal, ixrac və reekeport statistikası	387
	§ 12.10 Kontragent ölkələrin uçotu	390
	§ 12.11 Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin coğrafiyası	394
	Nəzarət üçün suallar	399
XIII FƏSİL. STATİSTİKA GÖSTƏRİCİLƏRİNİN BEYNƏLXALQ MÜQAYİSƏSİ		400
	§ 13.1 Statistika göstəricilərinin beynəlxalq müqayisəsi haqqında anlayış	400
	§ 13.2 XVII - XVIII əsrlərdə statistika göstəricilərinin beynəlxalq müqayisəsi	400
	§ 13.3 XIX əsrdə statistika mə'lumatlarının beynəlxalq müqayisəsi	401
	§ 13.4 XX əsrdə beynəlxalq hesablamalar və nəşrlər	402
	§ 13.5 İqtisadi inkişaf səviyyəsinə görə ölkələrin siniflərə bölünməsi	406
	§ 13.6 Milli statistikada beynəlxalq müqayisələr	407
	§ 13.7 Beynəlxalq müqayisəliliyin müasir problemləri və onların həlli yolları	409
	§ 13.8 Beynəlxalq müqayisələr zamanı əmtəə-təmsilçilərin seçilməsi	411
	Nəzarət üçün suallar	414
	ƏDƏBİYYAT	**415**

Məmmədov Rəşid Şamil oğlu
Beynəlxalq statistika

Çapa imzalanmışdır:31.V.99
Kağız formatı: 60x84 1/16
Şərti çap vərəqi: 26,3
Uçot nəşr vərəqi: 25,0
Tirajı : 500
Müqavilə qiyməti ilə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Baş Hesablama Mərkəzi. Sifariş: N 2794